**RƏŞAD NURİ GÜNTƏKİN**

# ÇALIQUŞU

M.F.Axun[illegible]
Azərbay[illegible]
Kit[illegible]xana

"ŞƏRQ-QƏRB"
BAKI-2006

*Bu kitab "Rəşad Nuri Güntəkin. Çalıquşu" (Bakı, İşıq, 1987) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərcümə edəni və
ön sözün müəllifi: **Mikayıl Rzaquluzadə**

**894.353-dc21**
**AZE**
**Rəşad Nuri Güntəkin. Çalıquşu.** Bakı, "Şərq-Qərb", 2006, 376 səh.

On altı roman, altı hekayələr məcmuəsi, otuza yaxın pyesin müəllifi olan məşhur türk yazıçısı Rəşad Nuri Güntəkin 1889-cu ildə İstanbul şəhərində anadan olmuşdur. Əsərləri dünyanın bir çox xalqlarının dillərinə tərcümə olunaraq geniş oxucu auditoriyası qazanmışdır.

İlk dəfə 1922-ci ildə nəşr olunan "Çalıquşu" romanında müəllif tərəfindən əsərin qəhrəmanı Fəridənin – Çalıquşunun simasında çətin və məşəqqətli həyat tərzinə baxmayaraq, öz məhəbbətinə sədaqət hissini qoruyub saxlayan əsil türk qızının obrazı bədii ustalıqla qələmə alınmışdır.

Romanın ən dəyərli cəhətlərindən biri də müxtəlif təbəqələrə məxsus insanların həyat tərzi ilə bağlı psixoloji məqamların təsviridir.

**ISBN10 9952-34-037-0**
**ISBN13 978-9952-34-037-2**

© "ŞƏRQ-QƏRB", 2006

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## ÖN SÖZ

Məşhur türk yazıçısı Rəşad Nuri Güntəkin 1889-cu ildə İstanbul şəhərində hərbi həkim ailəsində anadan olmuşdur. İzmirdə fransızca orta təhsil almış, İstanbul Universitetinin ədəbiyyat fakültəsini bitirmişdir.

R.N.Güntəkin eyni zamanda dövrünün görkəmli ictimai xadimi olmuşdur. O, Kamalçı inqilabından sonra Xalq Maarif Nazirliyinin baş müfəttişi vəzifəsində işləmiş, 1938-ci ildə Türkiyə Böyük Millət Məclisinə deputat seçilmişdir.

Sonralar Türkiyənin Fransada mədəniyyət işləri üzrə attaşesi (1947-1954), eyni zamanda YUNESKO-nun nümayəndəsi kimi fəaliyyət göstərmişdir.

R.N.Güntəkin dil islahatı, türk dilinin ərəb və fars sözlərindən təmizlənməsi və latın qrafikasına keçilməsi ilə əlaqədar yaradılmış komissiyanın işində yaxından iştirak etmişdir.

Yazıçı 1956-cı ildə Londonda vəfat etmiş və Türkiyədə dəfn olunmuşdur.

On altı roman, altı hekayə məcmuəsi, otuza yaxın pyesin müəllifi olan yazıçı, eyni zamanda tərcüməçi, lüğət və antologiya tərtibatçısı, teatr və ədəbi tənqidçi kimi də məşhur olmuş, özündən sonra zəngin və çoxcəhətli yaradıcılıq irsi qoyub getmişdir.

Ədəbi fəaliyyətə Birinci dünya müharibəsi vaxtı hərbi müxbir kimi başlayan R.N.Güntəkin o dövrdə əsasən teatr tənqidçisi kimi silsilə məqalələr çap etdirir, sonralar isə teatr üçün pyeslər yazmağa başlayır. Yazıçının bir-birinin ardınca yazdığı dram əsərləri teatrda tamaşaya qoyulur və bununla da o, türk teatrının inkişafına da öz xidmətini göstərmiş olur.

Lakin R.Nuri Güntəkin yaradıcılığın ilkin mərhələsində daha çox hekayə ustası kimi tanınmış, ardıcıl olaraq bir neçə hekayələr kitabı nəşr etdirmişdir. Onun ilk nəsr əsəri 1917-ci ildə yazdığı "Köhnə dost" hekayəsi olmuşdur. Yaradıcılığının çoxşaxəli olmasına, çoxlu sayda hekayə, pyes, tənqidi məqalələr yazmasına baxmayaraq, yazıçı ədəbi aləmdə daha çox roman ustası kimi məşhurlaşmışdır.



O, "Çalıquşu", "Damğa", "Dodaqdan qəlbə", "Yarpaq tökümü" və s. romanlarında, çoxsaylı pyes və hekayələrində Türkiyə həyatının realist təsvirlərini xüsusi məharətlə qələmə ala bilmişdir.

"Damğa" romanında əsasən cəmiyyətin mövcud sosial problemlərinə toxunan yazıçı, "Yaşıl gecə" romanında türk xalqının milli azadlıq mübarizəsindən bəhs edir.

Lirik-psixoloji üslubda qələmə alınmış "Dodaqdan qəlbə" romanında əsərin qəhrəmanı Lamiə öz ülvi məhəbbətinin qurbanına çevrilsə də, mənəvi keyfiyyətlərdən məhrum insanların qarşısında qürur və şərəfini qoruyub saxlaya bilir.

Hansı janrda yazmasından asılı olmayaraq dövrünün ictimai problemləri, ailə, şəxsiyyət və cəmiyyət münasibətləri kimi məsələlər onun əsərlərinin əsas qayəsini təşkil edir.

Qeyd etmək lazımdır ki, R.N.Güntəkin əsərləri ən çox nəşr olunan yazıçılardan biridir. Onun əsərləri dünyanın bir çox xalqlarının dillərinə tərcümə olunaraq böyük şöhrət qazanmışdır.

Yüksək bədii istedada malik yazıçı 1922-ci ildə "Çalıquşu" romanını nəşr etdirir və bu roman müəllifin, demək olar ki, ədəbi taleyini həll edir.

Orta fransız dini məktəbini yenicə bitirmiş bir qızın dilindən gündəliyi şəklində verilmiş bu roman yazıçının Azərbaycanda ən çox sevilən əsərlərindən biridir.

Müəllif romanın qəhrəmanı Fəridəni – Çalıquşunu şəhər həyatından ayıraraq Türkiyənin ən ucqar kəndlərinə qədər qarış-qarış gəzdirir, müxtəlif təbəqələrə məxsus insanların riyakar və səmimi, bürokrat və xeyirxah, ağır güzəran və təmtəraqlı həyat sürən insanlarla qarşı-qarşıya qoyur. Çətin və məşəqqətli həyat tərzinə baxmayaraq öz məhəbbətinə sədaqət hissini və qızlıq şərəfini qorumağı bacaran Çalıquşunun taleyi xoş bir sonluqla tamamlanır.

Əsasən lirik-realist üslubda yazan bir yazıçı kimi tanınan R.N.Güntəkin bu romanda da sosial ziddiyyətləri, cəmiyyətin müxtəlif zümrələrinə məxsus insanların həyat tərzi ilə bağlı psixoloji məqamları ustalıqla təsvir edə bilmişdir.

Əsərdə özlərinin yüksək mədəniyyət sahibi olduqlarını göstərmək naminə tez-tez fransız sözləri işlədən ziyalı adlanan şəxslər, riyakar və bürokrat məmurlar nə qədər kəskin və satirik bir tərzdə qələmə alınırsa, demək olar ki, Fəridənin öz məhəbbətinə qovuşaraq xoşbəxtliyinin

təmin olunmasında xüsusi xidməti olan Xeyrulla bəyin və onun kimi xeyirxah insanların obrazı daha canlı təsvir olunur.

Bu romanın ən dəyərli cəhətlərindən biri də taleyin ona bəxş etdiyi müsibətlərə məharətlə sinə gərən bir türk qızının obrazının yüksək bədii meyarlarla qələmə alınmasıdır.

"Çalıquşu" romanının kompozisiya, dil, üslub xüsusiyyətləri və digər bədii ifadə vasitələri də onun rəğbət qazanmasının və geniş miqyasda yayılmasının mühüm amillərindən biridir. Bu, birinci növbədə, əsərin məzmunca dolğun, həyati və təsirli, eyni zamanda kompozisiya cəhətdən sadə, aydın dil, üslub cəhətdən təbii və səmimi olmasındadır.

Qeyd olunduğu kimi, roman fransız dini məktəbini yenicə bitirən qızın dilindən yazıldığından, bir çox süni ifadələrə yol verilməsinə baxmayaraq, əsərin dili canlı türk dilidir.

Bütün bu cəhətlər əsərin Azərbaycan dilinə çevrilməsi zamanı da nəzərə alınmış, orijinalın kolorit və üslub xüsusiyyətlərinin saxlanılması məqsədi ilə əslinə mümkün qədər uyğun olmasına çalışılmışdır.



# Çalıquşu

# BİRİNCİ HİSSƏ

*B..., sentyabr, 19... il*

Dördüncü sinifdə idim. Yaşım on iki olardı. Fransızca müəlliməmiz Aleksi bacı bir gün yazı dərsi verib demişdi: "Həyatdakı ilk xatirələrinizi yazmağa çalışın. Görək nələr tapacaqsınız. Bu, sizin xəyalınız üçün gözəl bir məşq olar".

Heç unutmaram: dəcəlliyimdən, çərənçiliyimdən bezmiş olan mürəbbi bacılar o sinifdə məni yoldaşlarımdan ayırıb bir küncdə, təkadamlıq, kiçik skamyada oturtmuşdular.

Müdirə xanımın söylədiyinə görə, "dərs əsnasında yoldaşlarımla çərənçilik etməyib, müəlliməmi ağıllı-başlı dinləməyi öyrənənə qədər" orada sürgündə qalacaqdım.

Bir yanımda yekə bir taxta dirək vardı. Bu dirək elə uzundraz və dözümlü bir qonşuya bənzəyirdi ki, hər nə etsən, onu hövsələdən çıxarmaq mümkün deyildi. Mən hərdənbir bıçağımın ucu ilə onun ora-burasını kəsib cızırdımsa da, o, bütün bunlara möhkəm bir təmkinlə dözüb səssiz-sədasız dururdu.

O biri yanımda taxta qapıları heç açılmayan uzun bir pəncərə vardı. Bu pəncərə elə bil monastır tərbiyəsinin tələb etdiyi sərin və qəmgin bir alaqaranlıq əmələ gətirmək üçün qayrılmışdı. Mən mühüm bir şey kəşf etmişdim: köksümü skamyaya dirəyib çənəmi bir az yuxarı qaldırdıqda, pəncərənin qapısı arasından göyün bir parçası və böyük bir akasiya ağacının yarpaqları içindən bir mənzilin pəncərəsi ilə balkon məhəccəri görünürdü.

Sözün düzü, bu mənzərə heç də xoşa gələn bir şey deyildi. Pəncərə həmişə örtülü olardı, balkon məhəccərinə çox vaxt xırdaca bir uşaq döşəkçəsi ilə yorğan asılardı.

Ancaq mən hələ bundan da xoşlanardım.

Dərs əsnasında əllərimi çənəmin altında birləşdirib, gözlərimi pəncərənin arasından görünən əsil göyə zillərdim. Yəqin ki, mənim bu vəziyyətim müəllimə bacıların ürəyindəndi. Onlar mənim ağıllanmağa

başladığımı güman edib sevinərdilər. Mən isə onların bizdən gizlətmək istədikləri həyatı seyr edərdim. Beləliklə, onları aldadıb, ləzzətlə intiqam alardım.

Aleksi bacı izahatını qurtarandan sonra bizə yazı yazmağı tapşırdı.

Qabaq cərgələrin bəzəyi olan təmkinli sinif əlaçıları o saat işə girişdilər. Mən onların yanında olmaya-olmaya nə yazdıqlarını bilirdim. Sanki onların çiyinləri üstündən boylanıb yazdıqlarını oxumuşdum. Onlar, yəqin ki, bu sayaq şairanə yalanlar uydurmuşdular: "İlk xatirəm budur ki, sevgili anacığım qızıl kimi sarısaçlı başını kiçik çarpayımın üzərinə əymişdir. Onun göy kimi mavi gözləri məhəbbətlə mənə baxıb gülümsəyir..."

Həqiqətdə onların anaları qızıl kimi sarışın saçlı və göy kimi mavi gözlü deyil, başqa cürə də ola bilərdilər. Amma bizim müəllimə bacılardan dərs almış qızlar biçarə anaların saçlarını və gözlərini bu rənglərə boyamağa məcburdurlar. Bu, bizim üçün bir qayda idi.

O ki qaldı mənə, mən başqa cür uşaqdım. Anamı çox kiçik yaşlarımda itirmişdim. Yadımda o qədər də çox şey qalmamışdı. Amma hər halda yəqin bilirdim ki, onun saçları qızılı, gözləri isə mavi deyildi. Buna görə də, onu əslində olduğundan başqa cür qələmə verməyə və bəyəndirməyə heç bir qüvvə məni məcbur edə bilməzdi...

Məni fikir götürmüşdü. Nə yazacaqdım. Məryəm ananın divardakı rəngli şəklinin altından asılmış ququlu saat durmadan işləyirdi. Amma mən hələ də dayanıb durmuşdum. Başımdakı lenti açdım, saçlarımı yavaş-yavaş gözlərimin üstünə endirməyə başladım.

Bir əlimlə də qələmi ağzıma soxub gəmirə-gəmirə dişlərimin arasında bururdum.

Filosofların, şairlərin yazı yazanda, burunlarını qaşımaq, çənələrinin dərisini çimdikləmək kimi qəribə-qəribə vərdişləri olduğunu eşitmişdim... Qələmi dişləmək və saçlarımı gözlərimin üstünə dağıtmaq da mənim dərin düşüncələrə daldığıma bir əlamətdi.

Yaxşı ki, mən belə dərin düşüncələrə çox tez-tez dalmırdım. Yoxsa həyatım nağıllardakı məşhur çərşənbə qarısı və ocaq anasının[1] həyatı kimi qaranlıqda keçərdi və mən dünyanı bu qarmaqarışıq saç yığını içindən görərdim.

[1] Çərşənbə qarısı və ocaq anası – küpəgirən qarı kimi türk nağıl personajları



Aradan illər ötdü. İndi yad bir şəhərdə, yad bir mehmanxana otağındayam. Bitib-tükənmək bilməyən uzun gecənin yalqızlığına dözmək üçün xatirələrimi yazmağa başlayıram. Yenə də uşaq vaxtı etdiyim kimi bir əlimlə saçlarımı çəkib gözlərimin üstünə tökməyə çalışıram.

Bunun səbəbinə gəlincə, elə güman edirəm ki, mən o vaxtlar ətrafdakı həyata həddindən artıq uyan yüngül və diqqətsiz bir uşaqdım. Yəqin ki, bərkə düşəndə tək qalıb öz-özlüyümdə fikirləşmək üçün gözlərimlə dünya arasında öz saçlarımdan bir pərdə çəkməyə çalışmışam.

O ki qaldı qələmin ucunu bir kabab şişi kimi ağzıma soxmağa, sözün düzü, onun mənasını özüm də yaxşı bilmirəm. Bütün bildiyim bundan ibarətdir ki, dodaqlarımdan göy mürəkkəb ləkələri heç əskik olmazdı. Yadımdadır ki, mən artıq yekə qız olanda bir gün məktəbdə məni görməyə gələn bir adamın qabağına elə bir halda çıxmışdım ki, guya özümə bığ çəkmişdim. Utandığımdan az qalmışdı ki, yerə girim.

Nədən danışırdım? Bəli... Aleksi bacının verdiyi "İlk xatirə" yazı dərsindən...

Yadımdadır ki, o gün çox fikirləşdim, ancaq belə bir şey yaza bildim:

"Mən, deyəsən balıq kimi göl içində doğulmuşam. Anam bir azca yadımdadır... Atam da, dayım da, əsgər xidmətçimiz Hüseyn də yadıma gəlir... Məni bir gün küçədə qovlayan xırdaca qara köpək də yadımdadır... Bir gün mən səbətdən gizlincə üzüm oğurlayanda barmağımı sancan arını da xatırlayıram... Gözüm ağrıyanda içinə damızdırılan qırmızı dərman da yadıma gəlir... Sevgili xidmətçimiz Hüseynlə bərabər İstanbula gəlişimiz... Bəli, bunlara bənzər bir çox şeylər yadıma gəlir... Amma bunların heç biri ilk xatirə deyil... Bunlar sevdiyim gölün içində iri yarpaqlar arasında çıl-çılpaq çapalamağım qədər köhnə xatirələr deyildir... Dediyim göl dəniz kimi ucsuz-bucaqsız bir göldü... İçində iri-iri yarpaqlar, dörd bir tərəfində ağaclar vardı... Deyəcəksiniz ki, əgər içində yarpaqlar, kənarında da böyük ağaclar vardırsa, bu göl bəs necə dəniz kimi böyük ola bilər? – Vallah, yalan demirəm, buna sizin kimi elə mən özüm də çaşıb qalmışam... Amma beləydi də, mən nə edim?"

Yazım sinifdə oxunanda bütün yoldaşlarım mənə sarı dönüb, qəhqəhə ilə gülüşdülər və yazıq Aleksi bacı onları sakitləşdirmək üçün xeyli əziyyət çəkməli oldu.

Qəribə burasıdır ki, qara paltarı, çubuq kimi nazik, uzun boynu, ağappaq yaxalığı, saray qadınlarının rübəndinə bənzəyən başlığı, sızanaqlı solğun üzü, nar çiçəyi kimi qırmızı dodaqları olan Aleksi bacı indi də qabağıma çıxsa və mənə həmin sualı versə, yəqin ki, o zaman verdiyim cavabdan başqa bir cavab tapa bilməyəcəyəm. Yenə də deyəcəyəm ki, mən balıq kimi elə göl içində doğulmuşdum.

Sonralar oradan-buradan öyrəndiyimə görə mənim dediyim göl Mosul tərəflərdə adı yadımdan çıxmış bir kəndin yaxınlığındadır. Mənim ucsuz-bucaqsız dəniz dediyim şey də qurumuş xırdaca irmağın ağaclar arasında qalmış bir ovuc suyundan başqa bir şey deyilmiş.

Atam o zaman Mosulda xidmət edirmiş. Yaşım iki yaş yarım imiş. Yay o qədər şiddətli keçirmiş ki, şəhərdə qalmaq mümkün deyilmiş. Atam məni anamla bərabər bu kəndə gətirməyə məcbur olubmuş. Özü hər səhər ata minib Mosula gedib, axşamlar, gün batandan sonra qayıdıb gələrmiş.

Anam xəstə imiş. Elə bərk xəstə imiş ki, mən heç yadına düşmürmüşəm.

Bir müddət mənə heç baxan olmayıb... Aylarca xidmətçilərin otağında özbaşına qalmışam. Sonra bir kənddə Fatma adında kimsəsiz bir ərəb qadını tapmışlar... Bu qadının körpəsi yenicə ölübmüş. Qadın məni öz südü ilə bəsləyib, meylini də mənə salıbmış...

İlk illərdə mən bir səhra uşağı kimi böyümüşəm. Fatma məni boğça kimi dalına bağlayıb, qızğın günəşin altında gəzdirərmiş. Mən dalında ola-ola xurma ağaclarının təpəsinə çıxarmış.

Həmin bu vaxtlar biz yuxarıda söylədiyim kəndə gəlibmişik. Fatma hər səhər bir az yeməli şey götürüb mənimlə bərabər bu ağaclığa gələr və məni çıl-çılpaq soyundurub, suya salarmış. Axşama qədər onunla süpürləşib boğuşa-boğuşa mahnı oxuyar, yeyib-içərmişik... Sonra yuxumuz gələndə, qumları komalayıb özümüzə yastıq düzəldər, bədənlərimiz suda, başlarımız quruda, qucaq-qucağa, yanaq-yanağa yatarmışıq...

Mən bu suların içində oynamağa o qədər öyrəşibmişəm ki, Mosula qayıtdıqdan sonra, dənizdən ayrı düşmüş bir balığa dönübmüşəm. Mən hey şıltaqlıq edər, fürsət tapan kimi əynimdəki pal-paltarı çıxarıb atar, çıl-çılpaq küçəyə qaçarmışam...

Fatmanın burnunda, yanaqlarında, biləklərində döymə bəzəklər vardı. Mən bunlara o qədər öyrəşmişdim ki, döyməsi olmayan üzlər



mənə çirkin görünərdi. Mənim ilk böyük matəmim Fatmadan ayrılmağım olmuşdu. Biz bir çox yerlər gəzdikdən sonra axır Kərbəlaya gəlib çıxmışdıq. Mən dörd yaşında idim. Bu daha elə yaşdır ki, adam az-çox hər bir şeyi xatırlayır. Fatma üçün yaxşı bir ər tapılmışdı. Dayəmin gəlin olduğu, gərdəyə girdiyi gün lap gözümün önündədir. Üzləri Fatmanın üzü kimi döyməli olduğu üçün, mənə dünya gözəli görünən qadınlarla dolu bir evdə məni qucaqdan-qucağa gəzdirib, Fatmanın yanında oturtdular.

Yadımdadır ki, ortaya qoyulmuş sinilərdə əlimizlə qapışdıra-qapışdıra yemək yeyirdik. Nəhayət, mən yorulduğumdan, zınqırovlu – dəfələrlə səhəng biçimində olan dümbəklərin əmələ gətirdiyi səs-küydən başım hərləndiyindən, hələ axşamdan dayəmin dizi üstündə yatıb qalmışdım.

Oğlu Hüseyn Kərbəlada şəhid ediləndən Fatimə anamızın sağ olub-olmadığını bilmirəm. Amma yazıq arvad əgər o qara günü görübsə, yəqin ki, onun qopardığı fəryad məni toy sabahı oyanıb özümü yad bir qadının qucağında gördükdə, qopardığım fəryadın yanında heç nə olardı.

Sözün qısası, Kərbəla olandan bəri, zənnimcə, belə hay-küylü bir matəm görməmişdi. Çığırmaqdan səsim tutulandan sonra, böyük adamlar kimi aclıq elan etmişdim.

Dayəmin dərdini bir neçə ay sonra mənə Hüseyn adında bir süvari əsgəri unutdurdu. Hüseyn təlim əsasında atdan yıxılıb şikəst olmuş bir əsgərdi. Atam onu xidmətçi kimi evə gətirmişdi. Hüseyn dəlisov bir adamdı. Məni çox tez sevmişdi. Mən də dayəmə qarşı bağışlanmaz bir vəfasızlıqla, Hüseynin bu sevgisinə könlümü vermişdim. Doğrudur, Fatma ilə bir yerdə yatdığımız halda, Hüseynlə bir yerdə yatmırdıq, amma səhər tezdən, xoruzlarla bir vaxtda gözlərimi açan kimi, özümü onun otağına salıb, ayaqlarımı aşıraraq sinəsində oturardım, sanki ata minərdim, barmaqlarımla göz qapaqlarını açardım.

Fatma məni bağçalara, çöllərə öyrəşdirmişdirsə, Hüseyn də məni qışlaya əsgərlərin içinə alışdırmışdı. Bu uzunbığlı, yekəpər adamın oyun icad etməkdəki məharətini mən heç kəsdə görməmişəm. Bu oyunların əsil gözəlliyi onların çox qorxulu, həyəcanlı olmasında idi. Məsələn, Hüseyn məni rezin bir top kimi havaya atıb-tutar, ya da qalpağının[1] üstünə oturdub, ayaqlarımdan yapışar, atılıb-düşər, fır-fır

[1] Qalpaq – hərbi baş geyimi

fırlanardı. Mən, saçlarım bir-birinə qarışmış, gözlərim axa-axa, nəfəsim tıxana-tıxana qışqırmaqdan aldığım ləzzəti ondan sonra heç bir şeydə görməmişəm.

Hərdənbir qəza da olurdu. Amma Hüseynlə aramızda möhkəm bir müqavilə vardı. Oyunda bir yerim inciyəndə mən ağlamayacaq və heç kəsə şikayət etməyəcəkdim. Mən sözümə sədaqətli olmaqdan daha çox Hüseynin bir də mənimlə oynamayacağından qorxduğum üçün, böyük bir adam kimi sirr saxlamağa öyrəşmişdim. Uşaq vaxtı mənə deyərdilər ki, kobudam. Yəqin ki, haqları da varmış. Hər kəslə oynasaydım, onu incidib çığırdardım. Bu vərdiş hər halda Hüseynlə oynadığım oyunlardan qalmış bir yadigardı.

Həmçinin bərkə düşəndə, çox ah-uf etməyib fəlakəti gülər üzlə qarşılamağım da Hüseynin yadigarıdır.

Hüseyn bəzən qışlada anadolulu əsgərlərə saz çaldırar, məni yenə də səhəng kimi təpəsinə qoyub, qəribə oyunlar oynayardı.

Bir zaman da onunla at oğurluğuna qızışmışdıq. Atam evdə olmayanda, Hüseyn axurdan atı oğurlar, məni qucağına oturdub saatlarca çöllərdə gəzdirərdi. Ancaq bu əyləncəmiz uzun sürmədi. Babalı öz boynuna, amma yəqin ki, aşpaz qadın xəbərçilik edib bunu atama şeytanlamışdı. Yazıq Hüseyn atamdan iki sillə yedi və bir də ata yanaşmağa cəsarət etmədi.

Deyirlər ki, əsil məhəbbət dava-şavasız olmaz. Biz də Hüseynlə gündə ən azı dörd-beş dəfə dalaşardıq.

Mənim qəribə küsmək qaydam vardı. Otağın bir küncündə yerə çömbəlib üzümü divara çevirərdim. Hüseyn üç-dörd dəqiqə məni bu halda qoyduqdan sonra, halıma yanar, birdən-birə belimdən yapışıb, bağırda-bağırda havaya qaldırardı.

Bir az da qucağında şıltaqlıq etdikdən sonra, nəhayət, onun çənəsindən öpməyə razı olardım və barışardıq.

Hüseynlə yoldaşlığımız iki il sürdü. Ancaq o zamanın illəri indikilərə bənzəməzdi. O qədər uzun, o qədər uzun idi ki...

Uşaqlıq xatirələrimi danışanda, hey Fatmanı, Hüseyni yad etməyim bir az ayıb olmurmu?

Mənim atam Nizaməddin adında bir süvari minbaşısı idi. Anamla evləndiyi il, onu Diyarbəkirə göndəribmişlər, o gedən gedibmiş. Daha bir də İstanbula qayıtmayıbmış. Diyarbəkirdən Mosula, Mosuldan



Hankına, ordan Bağdada, Kərbəlaya[1] keçibmiş, hər yerdə bir ili axıra qədər qalmayıbmış...

Deyirlər ki, anam mənə bənzəyirmiş. Onun hələ atamla evləndiyi ildən qalma bir şəkli vardır ki, lap elə bil mənim şəklimdir. Amma yazıq qadın sağlamlıq cəhətindən mənim kimi deyilmiş. Çox zəifmiş. Onun bədəni bitib-tükənməyən səyahətlərə, dağların sərt havasına, çöllərin istisinə tab gətirə bilmirmiş. Yəqin ki, bir xəstəliyi də varmış. Ancaq yazıq qadın bütün evlilik həyatında bu xəstəliyi gizlətməyə çalışıbmış... Neyləsin, axı atamı çox sevirmiş. Qorxurmuş ki, onu zorla atamdan ayırarlar...

İstanbuldan getdikcə uzaqlaşan atam, hər dəfə yeni səfərə çıxanda anama deyərmiş:

– Gəl səni heç olmasa bir mövsümlüyə, iki aylığa ananın yanına göndərim. O yazıq da qocalmışdır... Yəqin səni çox görmək istəyir.

Ancaq anam az qala üzə durub deyirmiş:

– Şərtimizdə bu vardımı? İstanbula bərabər qayıtmayacaqdıqmı?..

Anam öz xəstəliyi üçün də belə deyirmiş:

– Məndə bir şey yoxdur... Bir az yorğunam... İki gün əvvəl hava bir az dəyişdi, ondan oldu, keçib gedər...

O, İstanbulu görmək istədiyini də atamdan gizlədirmiş... Ancaq bu, mümkündürmü?

Anam yatdıqdan sonra hələ iki dəqiqə keçməmiş atamı oyadıb, yuxuda Qələndərdəki yaylaq köşkümüzü, ətrafdakı qoruq meşəliyi, yaxud Bosfor boğazının sularını gördüyünü danışarmış... Bir neçə dəqiqəlik yuxuda bu qədər çox şey görmək, adamın o yerləri hər halda lap çox arzuladığını göstərmirmi?

Nənəm Sərəsgər qapısına[2], saray məmurlarının evlərinə gedib, atamı İstanbula dəyişmək üçün ağlayıb-sızlayırmış. Ancaq bu yalvarmalar heç bir nəticə vermirmiş.

Nəhayət, anamın xəstəliyi şiddətlənəndə atam heç olmasa, onu İstanbula aparmaq üçün bir ay icazə istəyib, cavab gözləmədən yola düşübmüş.

Kəcavələr içində çölü keçməyimiz bugünkü kimi yadımdadır.

---

[1] Diyarbəkir – Türkiyədə şəhərdir; Mosul, Bağdad, Kərbəla – Birinci dünya müharibəsindən əvvəl Osmanlı imperiyasına daxil olan İraq şəhərləridir.

[2] Sərəsgər qapısı – hərbiyyə nazirliyi

Beyrutda dəniz havası anamı bir az dirçəldən kimi olmuşdu. Qonaq olduğumuz evdə anam məni öz yatağında oturdub, saçlarımı darayıb, əllərimi kirli, düyməlorimi düşmüş görəndə başını köksünə əyib ağlayırdı.

Anam bir gün lap ayağa qalxdı. Sandığından yeni paltarını çıxardıb bəzəndi. Axşamüstü atamı qarşılamaq üçün aşağı endik. Atam mənim yadımda bir az vəhşi təbiətli, sərt bir əsgər kimi qalmışdır. Ancaq anamı ayaq üstə görəndə, onun sevinib yüyürdüyünü, yeni ayaq açmış bir uşaq kimi anamın biləklərindən tutub ağladığını heç unuda bilmirəm...

Bu, bizim bir yerdə keçirdiyimiz axırıncı gün oldu. Ertəsi gün anamı açıq bir sandığın yanında, başı paltar boğçasının üstünə düşmüş, dodaqlarında qan ləkəsi olduğu halda ölmüş gördülər!

Altı yaşında uşaq bir çox şeyləri başa düşər. Ancaq mən nədənsə heç bir şey sezməmişdim. Olduğumuz ev çox tünlükdü. Bir çox günlər böyük bir bağçada uşaqlarla boğuşduğumuz, Hüseynlə bərabər küçələrdə, dəniz kənarlarında, məscid həyəti kimi hay-küylü yerlərdə gəzdiyimiz yadımdadır.

Anamı yad bir torpaqda dəfn etdikdən sonra, atam İstanbula qayıtmaq istəməyibmiş... Yəqin ki, bir az da nənəm və xalalarımla üz-üzə gəlməkdən çəkinirmiş. Ancaq bununla bərabər, məni onların yanına göndərməyi bir vəzifə bilibmiş. Bir də, təbii ki, gündən-günə böyüyən bir qız uşağının qışlada əsgərlər arasında tərbiyə etməyin imkansızlığını da düşünübmüş...

Məni İstanbula əsgər xidmətçimiz Hüseyn gətirdi.

Əla bir paroxodda, yöndəmsiz bir ərəb əsgərinin qucağında xırdaca bir qız uşağı... Bu mənzərə paroxoddakılardan bir çoxuna kim bilir nə qədər qəribə görünürdü. Ancaq bu səyahətə Hüseyndən başqa hər kəslə çıxsaydım, yəqin ki, bu qədər xoşbəxt ola bilməzdim.

Yaylaq köşkümüzün arxasındakı qoruq meşəlikdə bir daş hovuz, bu hovuzun kənarında qolları çiynindən qopmuş çılpaq bir uşaq heykəli vardır.

Gəldiyim ilk günlərdə günəş və rütubətdən qaralmış bu qırıq heykəl mənə şikəst bir ərəb uşağını xatırladırdı. Deyəsən payız idi, çünki hovuzun yaşılımtraq sularının üzü qızıl yarpaqlarla örtülmüşdü. Bu yarpaqlara tamaşa edəndə, suda bir neçə qırmızı balığın üzdüyünü



gördüm, nənəmin min zəhmətlə bəzəyib naxışladığı üst köynəyim və yeni çəkmələrimlə hovuzun içinə atıldım.

Ətrafda yaman hay-küy qopdu. Başıma nə gəldiyini anlamağa macal tapmamış, xalalarım məni qucaqlarına alaraq yuxarı apardılar. Bir yandan öpüb bir yandan danlayaraq, üst-başımı dəyişdirirdilər.

Bu hay-küy və çaxnaşmadan gözüm qorxduğu üçün, daha hovuza girməyə cəsarət etmirdim, kənardakı çınqılların üzərinə üzüqoylu uzanaraq başımı suya sallayırdım.

Bir gün yenə bu vəziyyətdə balıqlara tamaşa edirdim. Hər şey bugünkü kimi gözümün önündədir. Məndən bir az arxada nənəm bağça skamyasında oturmuşdu. Həmişəki kimi şalı yenə çiynində idi. Hüseyn namaz qılırmış kimi, onun yanında diz çökmüşdü.

Yavaş-yavaş söhbət edirdilər. Yəqin ki, türkcə danışırdılar, çünki nə söylədiklərini anlaya bilmirdim, amma səslərindən, hərdənbir mənə baxmalarından şübhələndim. Dovşan kimi qulaqlarımı şəklədim. Dişimlə qopardıb hovuza atdığım simid[1] qırıntılarının dövrəsinə yığışan qırmızı balıqlara daha fikir verməyib, nənəmlə Hüseynin suya düşmüş əkslərinə baxırdım. Hüseyn mənə baxarkən yenə yaylıq ilə gözlərini silirdi. Uşaqların bəzən öz yaşlarına uyğun olmayan qəribə duymaq qabiliyyətləri vardır.

Onların söhbətlərindən sui-qəsd qorxusu duydum, yəqin ki, Hüseyni məndən ayıracaqdılar.

Nə üçün? Bu incəlikləri başa düşən yaşda deyildim. Amma yaxşı bilirdim ki, bu ayrılığın qarşısını almaq günəşin batmasını, yağışın yağmasını dayandırmaq kimi mümkün olmayan bir işdi.

O gecə nənəmin çarpayısına bitişik olan kiçik çarpayımda birdənbirə gözlərimi açdım. Başımızın üstündə yanan qırmızı gecə qəndili sönmüşdü. Ancaq pəncərədən düşən ay işığı otağı işıqlandırmışdı. Yatıb yuxumu almışdım. Ürəyimdə dözülməz bir sıxıntı vardı. Mən yerimdə dirsəklənib bir müddət nənəmə baxdım, onun yatdığını yəqin etdikdən sonra yavaşca çarpayımdan endim. Pəncə üstə yeriyib otaqdan çıxdım. Başqa uşaqlar kimi qaranlıq və yalnızlıqdan qorxmazdım. Pilləkən taxtaları cırıldadıqca, böyük adam kimi ehtiyatla yerimdə dururdum, ağır-ağır aşağı dəhlizə endim.

[1] S i m i d – qoğal

Qapıların sürgülərini vurub bağlamışdılar. Ancaq bağça qapısının yanındakı pəncərə açıq qaldığından, oradan atılıb bayıra çıxmaq mənim üçün bir saniyəlik iş oldu.

Hüseyn bağçanın o biri başındakı bağban daxmasında yatardı. Gecə köynəyimin uzun ətəkləri ayaqlarıma dolaşa-dolaşa ora yüyürdüm, Hüseynin çarpayısına dırmaşdım.

O bərk yatardı. Elə Ərəbistanda olanda da səhərlər onu oyatmaq çətin bir iş idi. Bunun üçün köksünə oturub atılıb-düşmək, uzun bığlarını cilov kimi tutub çəkmək və bir qədər bağırmaq lazım gəlirdi. Amma bu gecə mən onu oyatmaqdan qorxurdum. Oyanarsa, məni əvvəllərdə olduğu kimi qucağında yatırtmağa razı olmayacağını bütün yalvarışlarıma baxmayaraq, məni qucağına alıb nənəmə verəcəyini yəqin bilirdim.

Mən isə bu son gecəni onunla bir yerdə keçirmək istəyirdim.

Həmin bu yersiz hərəkətim yaxın zamanlara qədər ailə içində dönə-dönə söylənirdi.

Nənəm səhərə yaxın oyanıb məni yatağımda görməyəndə dəli kimi olubmuş... Bir neçə dəqiqə içində bütün köşkdəkiləri ayağa qaldırıbmış; əllərində lampalarla, şamdanlarla bağçalara, dəniz kənarına axışıbmışlar... Çardaqdan tutmuş küçəyə qədər, qayıq saxlanan yerdən tutmuş hovuzun iki qarış suyuna qədər hər yeri axtarıblarmış... Qonşu əkin yerindəki bostan quyusuna da fənər salladıblarmış.

Axırdan-axıra nənəm Hüseyni xatırlayaraq onun otağına yüyürüb, məni əsgərin boynuna bərk-bərk sarılıb yatmış görübmüş.

Ayrılıq gününün faciəsini hələ də xatırlayır və gülürəm. Ömrümdə o günkü qədər dəlilik etdiyim yadıma gəlmir. Hüseyn qapının yanında çöməlib, yekə bığlarından utanmadan ağlayır. Mən Bağdadda, Suriyada[1] ərəb dilənçilərindən öyrəndiyim duaları oxuya-oxuya nənəmin, xalalarımın ətəklərini öpürdüm.

Romançılar qəmli adamı çiyinləri çökmüş, gözləri sönmüş, hərəkətsiz və səssiz bir insan kimi, daha doğrusu, miskin bir şəkildə təsvir edirlər.

Məndə isə həmişə bunun əksi olur. Nə zaman dərin bir dərdə düşsəm, gözlərim parlar, tövr və hərəkətlərim nəşəli olar, özüm coşaram. Dünya vecimə gəlməz, qəhqəhə çəkib gülərəm, cürbəcür dəcəllik və dəliliklər edərəm. Bununla bərabər elə sanıram ki, yaxın adamı olmayan və ürəyini başqalarına aça bilməyən adamlar üçün bu, daha yaxşı bir şeydir.

[1] Suriya – o zamanlar Osmanlı imperiyasına daxil idi.



Hüseyndən ayrıldıqdan sonra özümü məhz belə aparırdım. Lap qudurmuşdum: məni əyləndirmək üçün köşkə gətirilən qohum-əqrəba uşaqlarına hücum edib onları əzişdirirdim.

Ancaq Hüseyni elə tez yaddan çıxarmışdım ki, bunu yadlar mənim üçün vəfasızlıq saya bilərdilər. O qədər də yaxşı xatırlamıram, amma deyəsən Hüseynə, doğrudan da, acığım tutubmuş. Yanımda adı çəkiləndə mən üz-gözümü turşudub, yeni öyrənməyə başladığım türk dilində belə deyirdim: "Hüseyn pis, Hüseyn çirkin, ədəbsiz... Ö-ö-ö..."

Bununla bərabər, mənim pis və çirkin dediyim o yazıq Hüseynin, Beyruta çatan kimi, mənə göndərdiyi bir qutu xurma acığımı yatırdan kimi olmuşdu. Mən bu xurmaların qurtarmasından bir fəlakət kimi qorxurdum, amma bununla belə, bir oturumda hamısını silib-süpürdüm. Yaxşı ki, çəyirdəkləri qalmışdı. Həftələrlə bu çəyirdəklərlə əyləndim. Onların bir qismini iri qatır muncuqlarına qarışdırıb ipə düzdüm. Yamyamların boyunlarına taxdıqları gözəl bir həmail kimi boynuma asdım. Qalanlarını bağçanın ora-burasına əkdim. Aylarca hər səhər kiçik suçiləyən ilə onları sulayır, bağçada bir xurma meşəsi əmələ gələcəyini gözləyirdim.

Yazıq nənəm çaşıb qalmışdı. Məni yola vermək, doğrudan da, mümkün deyildi. Səhər alaqaranlıqda oyanaraq gecə yorğunluqdan bihuş düşənə qədər hay-küy salıb dəcəllik edərdim. Mənim səsim kəsiləndə köşkdəkilər az qala qorxuya düşərdilər. Çünki bu hal o deməkdi ki, mən ya bir yerimi kəsib səssiz-sədasız qanımı saxlamağa çalışıram, ya bir yerdən yıxılıb ağrıdan çığırmamaq üçün hardasa qovruluram, ya da stulların ayaqlarını mişarlamaq, döşəküzlərini boyamaq kimi ziyanəvər bir işlə məşğulam...

Bir gün bezdən və taxta parçalarından quşlara yuva qurmaq üçün ağacların başına dırmaşırdım. Bir başqa gün də ocaq bacasından daş atıb aşpazı qorxutmaq üçün dama çıxırdım...

Köşkə tez-tez bir doktor gəlib-gedərdi. Bir gün qapıda bu doktoru gözləyən boş faytona minib atları qamçıladım. Bir gün də yekə bir paltaryuyan təknəni sürüyə-sürüyə dənizə salıb içinə oturdum, ləpələr məni çəkib apardı. Bilmirəm başqalarında da belədir, ya yox?

Bizim ailədə yetimlərə əl qaldırmaq günah sayılırdı. Mən heç dözülə bilməyən dəcəlliklər edəndə də aldığım cəza bundan ibarət olardı ki, qolumdan tutub bir otağa salar və qapını bağlardılar.

Bütün uşaqların "saqqallı əmi" deyə çağırdıqları qəribə bir qohumumuz vardı. Bu saqqallı əmi mənim əllərimə "övliya barmaqlığı"[1] deyərdi. Çünki barmaqlarım bircə gün də yarasız-kəsiksiz olmaz, həmişə xına qoyulmuş kimi bez parçaları ilə sarınmış olardı.

Öz yaşıdlarımla heç cür yola getməzdim. Qohumlarımızın yaşca özümdən çox böyük olan uşaqlarının da gözlərini qorxutmuşdum. Tək-tək hallarda ürəyimdə məhəbbət oyansaydı, bu da ayrı bir fəlakət olardı. İnsan kimi sevməyi, sevdiyimi gözəl-gözəl əzizləməyi öyrənməmişdim. Sevdiyim adamın üstünə bir canavar balası kimi atılıb, qulaqlarını dişlər, üzünü cırmaqlar, didişdirə-didişdirə dəli edərdim.

Qohumlarımızın uşaqları arasında yalnız bir nəfərdən nə isə çəkinərdim; onun qarşısında bir qədər cəsarətsizdim.

Bu, Bəsimə xalamın oğlu Kamran idi... Amma ona da uşaq demək o qədər düz olmazdı. Əvvəla, yaşca məndən böyükdü. Həm də çox ədəbli, ağır oğlandı. Uşaqlara qarışmaqdan xoşlanmazdı, əllərini ciblərinə qoyaraq dəniz kənarında gəzər, yaxud ağacların altında oturub kitab oxuyardı.

Kamranın qıvrım, sarı saçları, ağ, incə, parlaq dərisi vardı. Dərisi o qədər parlaq idi ki, cəsarət edib qulaqlarından yapışsaydım və yaxından yanaqlarına baxsaydım, yəqin ki, orada özümü güzgüdəki kimi görərdim.

Bununla bərabər, çəkindiyimə baxmayaraq, bir gün Kamranla da dalaşdım. Dəniz kənarından səbətə qoyub apardığım bir qaya parçasını onun ayağına saldım. Bilmirəm daş çox ağır idi, yoxsa o çox zərifdi, amma birdən bərk çığırdı və fəryad qopdu. Özümü itirdim. Bir meymun cəldliyi ilə bağçadakı böyük çinara dırmaşdım. Nə danlamaqla, nə təhdidlə, nə də yalvarmaqla məni aşağı düşürdə bilmədilər. Nəhayət, bağbanı mənim dalımcan ağaca çıxartdılar. Amma o çıxdıqca, mən daha yuxarılara qalxırdım. Axırda yazıq bağban başa düşdü ki, əgər ağaca çıxmağa davam edərsə, ağırlığıma davam gətirməyən incə budaqlara çıxmaqdan çəkinməyəcəyəm və bir qəza baş verəcəkdir. Odur ki, aşağı endi.

[1] Övliya barmaqlığı – pir barmaqlığı



Müxtəsər, o gecə hava qaralana qədər quş kimi ağac budağında oturub qaldım.

Yazıq nənəmdə ürək-göbək qoymamışdım. Yazıq arvad məni lap çox istəyirdi. Bəzən səhərlər o, hələ yatıb yorğunluğunu almamış mənim hay-küyümə oyanıb öz yatağında oturar, qollarımdan yapışıb silkələyə-silkələyə anamın dalınca deyinərdi: "Özün öldün getdin, mənim də yaxamı qoca vaxtımda bu odun-alovun əlində qoydun!"

Ancaq bu da yəqindi ki, əgər anam bu dəqiqələrdə nənəmin qarşısına çıxıb deyə bilsəydi ki, "bu od-alovu çox istəyirsən, yoxsa məni?" Nənəm, sözsüz ki, məni bağrına basıb anamı gəldiyi yerə göndərərdi.

Əlbəttə, xəstə qarının yorğunluğunu almadan yuxudan oyanması çətindi. Amma unutmamaq lazımdır ki, bədəni dincəlmiş, qəlbi isə dərdli olan bir adamın yataqda oyanması və fikir çəkməsi də asan deyildi...

Müxtəsər, verdiyim əziyyətlərə baxmayaraq, inanıram ki, nənəm mənimlə təsəlli tapırdı.

Nənəmi itirdiyimiz zaman doqquz yaşında idim. Atam da təsadüfən İstanbulda idi.

Yazığı bu dəfə də Trablisdən Arnavudluğa[1] təyin etmişdilər. İstanbulda ancaq bir həftə qala biləcəkdi.

Nənəmin ölümü onu çətin vəziyyətdə qoymuşdu. Subay bir zabit doqquz yaşında qız uşağını dalınca salıb dağa-daşa sürükləyə bilməzdi. Atam nədənsə məni xalalarımın yanında qoymaq istəmir, yəqin ki, onların qoltuğuna sığınmış bir vəziyyətə düşəcəyimdən qorxurdu. Nə düşündüsə düşündü, bir sabah mənim əlimdən tutub paroxoda mindirdi. İstanbula keçirdi, körpüdə bir faytona minib bitməz-tükənməz yoxuşlardan çıxdıq, bazarlardan keçdik, sonra böyük bir daş binanın qapısı önündə durduq.

Bura mənim on il gecəli-gündüzlü qalacağım "Bacılar məktəbi" idi. Bizi qapının yanında pəncərələrinin pərdələri və taxta qapıları örtülü boş bir otağa saldılar.

Yəqin ki, hər bir şey əvvəlcədən danışılıb hazırlanmışdı, bir az sonra içəri girən qara geyimli bir qadın mənə sarı gəldi, başındakı ağ

[1] Trablis və Arnavudluq (indiki Albaniya) – o zaman Osmanlı imperiyasına daxil idi.

başlığın ucları qəribə bir quşun qanadları kimi saçlarıma toxundu, o, yaxından üzümə baxıb yanağımı sığalladı.

Yadımdadır, məktəbə ilk dəfə ayaq basdığım günün özü də bir qəza, bir dəcəlliklə başlandı.

Atam müdirə bacı ilə danışanda mən otaqda gəzməyə, gördüyüm şeyləri əlləşdirməyə başladım. Barmağımı üzərindəki rəngli şəkillərə vurmaq istədiyim bir güldan yerə düşüb qırıldı.

Atam qılıncını şaqqıldadaraq yerindən sıçradı, təşvişlə qolumdan yapışdı.

Sınmış güldanın sahibi müdirə bacı isə, əksinə, gülürdü. Əllərini yelləyə-yelləyə atamı sakitləşdirməyə çalışırdı.

Məktəbdə mən güldandan başqa daha nələr qıracaqdım! Evdəki dəcəlliyim orada da davam edirdi. Bu bacılar ya doğrudan da mələk kimi səbirli insanlardı, ya da mənim xoşa gələn cəhətim vardı. Yoxsa, heç cür mənim əziyyətlərimə dözmək mümkün deyildi.

Sinifdə həmişə çərənçilik edər, orda-burda gəzərdim.

Pilləkənləri başqa qızlar kimi çıxıb-düşməzdim. Mütləq bir küncdə gizlənər, yoldaşlarımın aşağı enməsini gözlər, sonra ata minən kimi məhəccərin üstünə atılıb yuxarıdan aşağı sürüşərdim. Ya da ayaqlarımı bir-birinə yapışdıraraq, hoppana-hoppana pillələrdən atlanardım.

Bağçada quru bir ağac var idi. Fürsət tapan kimi bu ağaca dırmaşdığımı və təhdidlərə qulaq asmadan tənəffüsün sonuna qədər budaqdan-budağa atıldığımı görən müəllimə bir gün bağırdı: "Bu uşaq insan deyil, çalıquşudur!"

Elə o gündən sonra mənim əsil adım unuduldu, hamı məni Çalıquşu çağırmağa başladı.

Bilmirəm necə oldusa, sonradan bu ad ailə arasında da yayıldı və Fəridə adı bayram paltarı kimi tək-tək günlərdə işlədilən rəsmi bir ad olub qaldı.

Çalıquşu adı həm mənim xoşuma gəlir, həm də işimə yarayırdı. Yersiz bir iş görəndə, məndən şikayət edildiyi vaxt çiyinlərimi saymazyana atıb deyərdim: "Mən neyləyim... Çalıquşudan nə gözləmək olar?.."

Hərdən məktəbimizə, çənəsində keçi saqqalına bənzəyən kiçik saqqalı olan eynəkli bir keşiş gələrdi. Bir gün qayçıyla saçımdan bir çəngə kəsib yapışqanla çənəmə yapışdırmışdım. Müəllimə mənim



tərəfimə baxanda, çənəmi ovuclarımın içində gizlədirdim, başını o yana çevirəndə əllərimi açıb saqqalımı yırğalaya-yırğalaya keşişi yamsılayır, uşaqları güldürürdüm. Müəlliməmiz bu qəhqəhələrin səbəbini heç cürə başa düşə bilmir, acığından bərk-bərk bağırırdı.

Birdən başımı sinfin koridora açılan pəncərəsinə çevirdim. Nə görsəm yaxşıdır: müdirə bacı pəncərə şüşəsinin ardından mənə baxır!

Çaşdığımdan nə eləsəm yaxşıdır? Boynumu büküb barmağımı dodağıma apardım, "sus" işarəsi etdim. Sonra da barmaqlarımın ucu ilə ona bir öpüş göndərdim.

Məktəbin ən böyüyü bu müdirə bacı idi. Ən qoca müəllimlərə qədər hamı onu Allah sayırdı. Müəlliməyə qarşı mənimlə əlbir olmasını ondan rica etməyim qadını nəşələndirdi. Sinfə girərsə, ciddiyyətini mühafizə edə bilməyəcəyindən qorxurmuş kimi, gülə-gülə barmağı ilə məni hədələyərək, koridorun qaranlığında yox oldu.

Müdirə bacı bir gün də məni yeməkxanada yaxalamışdı. Mən sinifdən oğurlayıb gətirdiyim zibil səbətinə yemək artıqlarını doldurmaqla məşğuldum.

O, sərt bir səslə məni yanına çağırdı:

– Bura gəl, Fəridə, bu nə işdir görürsən?

Mən bu işdə heç bir pislik görmürdüm. Gözlərimi qaldırıb onun üzünə baxdım, dedim:

– Köpəklərə yemək vermək pis işdirmi, masör[1]?

– Hansı köpəklərə? Nə yemək?

– Xarabalıqdakı köpəklərə... Ah, masör, məni görəndə, nə qədər sevindiklərini bilsəydiniz... Dünən axşam lap tinin başında məni qarşıladılar, ayaqlarıma dolaşmağa başladılar... Dedim: "Gözləyin... nə edirsiniz?.. Xarabalığa çatmamış verməərəm!" Zalımlar heç söz başa düşmürlər, məni yerə yıxmaq istəyirdilər... Mənim də tərsliyim tutdu, səbəti ətəklərimin arasında möhkəm sıxdım... Az qala məni parçalamışdılar... Yaxşı ki, ordan bir qoğalsatan keçirdi, məni qurtardı.

Müdirə bacı gözlərini gözlərimə dikib məni dinləyirdi.

– Yaxşı, bəs sən məktəbdən necə çıxdın? – deyə soruşdu.

Heç çəkinmədən dedim:

– Camaşırxananın arxasındakı divardan atıldım.

[1] Masör – hərfi mənada mənim bacım; dini məktəbdə müəllimlərə müraciət edəndə belə deyirdilər.

Müdirə bacı böyük bir fəlakət xəbəri eşidibmiş kimi, əlləri ilə başını tutaraq dedi:

– Necə cəsarət etdin?

Mən sadəcə cavab verdim:

– Narahat olmayın, masör... Divar çox alçaqdır...

Həm də necə ola bilər ki, qapıdan çıxım? Qapıçı məni heç buraxarmı? Birinci dəfə onu "masör Terez səni çağırır", – deyə aldatdım, qaçdım... Rica edirəm siz də mənim yalanımın üstünü açmayın... Çünki qorxuram köpəklər ac qalar...

Bu bacılar nə qəribə insanlardır. Zənnimcə, başqa bir məktəbdə bunu etmiş olsaydım, ya həbs olunardım, ya da başqa bir cəza alardım.

Müdirə üz-üzə duraq deyə çömbəldi və dedi:

– Əzizim, heyvanları qorumaq gözəl şeydir, amma itaətsizlik etmək yaxşı deyil... Səbəti mənə ver... Mən artıqları qapıçı ilə köpəklərə göndərərəm.

Həyatda yəqin ki, heç kimsə məni bu qadın qədər sevməmişdir. Bacıların buna bənzər hərəkətləri o zaman mənim üçün küləyin qayaya təsiri kimi bir şeydi. Mənim dəcəlliyimə, intizamsızlığıma mane ola bilməzdi. Amma zaman keçdikcə bunlar gizli-gizli qəlbimə işləmiş, məndə silinməz izlər buraxmışdı. Əlacsız bir zəiflik və rəhmdillik kimi ürəyimə çökmüşdü.

Bəli, mən doğrudan da qəribə, anlaşılmaz bir uşaqdım. Müəllimələrimin zəif damarlarını tutmuşdum. Hər birinin daha çox nədən inciyəcəyini yaxşı-yaxşı öyrənər, ona görə də işgəncələr hazırlardım.

Məsələn, Matilda bacı adında qoca və son dərəcə dindar bir musiqi müəlliməmiz vardı. O, divardakı Məryəm heykəlinin önündə, gözləri yaşara-yaşara dua edəndə, heykəlin ətrafında uçuşan milçəkləri göstərərək: "Masör, əziz anamızı mələklər ziyarətə gəlmişlər", – deyib ən sevər yerindən sancardım.

Bir başqa müəlliməmizin son dərəcə təmizkar və vasvası olmasına diqqət etmişdim. Onun yanından keçəndə, qələmimin yaxşı yazmamasından şikayət edə-edə qələmi bərk silkələrdim. Yazığın ağappaq yaxasına mürəkkəb sıçradardım.

Bir müəlliməmiz də vardı ki, həşəratlardan çox qorxardı. Mən kitablardan birində rəngli əqrəb şəkli tapıb qayçı ilə ətrafını kəsdim, sonra bu kağız parçasını yeməkxanada tutduğum iri bir eşşəkarısının



arxasına yapışqanla yapışdırdım. Axşam mütaliəsində bir bəhanə ilə müəllimənin yanına gəlib, bunu stolun üstünə buraxdım.

Mən müəllimə bacını sözə tutarkən, eşşəkarısı yeriməyə başlamışdı. Yazıq qız qaz lampasının işığında qorxunc bir əqrəbin qısqaclarını, quyruğunu titrədə-titrədə stolun üzərində yeridiyini görəndə fəryad qopardı. Yanındakı xətkeşi qapıb bir vuruşda arını stolun üstünə yapışdırdı. Sonra arxasını divara dayayıb əlini üzünə tutaraq, bir anlığa huşunu itirdi. Həmin gecə mən də yata bilmədim, yatağımda bir böyrü üstdən, o biri böyrü üstə çevrildim.

On iki yaşım olardı. Mən ar və həyanın nə olduğunu daha başa düşürdüm. Odur ki, müəlliməmə qarşı etdiyim bu hərəkətdən utanırdım. Qəbahətimin asanlıqla bağışlanmayacağını da anlayırdım. Ertəsi gün, yəqin ki, məni dindirməyə çağıracaqdılar və kim bilir başıma nə gələcəkdi.

Yuxuda müdirə bacını bir neçə dəfə qarşımda gördüm. Acıqlı-acıqlı üstümə gəlir, gözlərini bərəldib bağırırdı.

Ertəsi gün birinci dərs hadisəsiz keçdi. İkinci dərsin qurtarmasına az qalmışdı ki, qapı aralandı. Bacılardan biri içəri girib müəlliməyə nə isə dedi, sonra məni əli ilə bayıra çağırdı. Dəhşət!

Mən çiyinlərimi yığaraq dilimi dişlədim, fikirli-fikirli bayıra çıxdım, içəridə uşaqlar gülüşür, müəllimə xətkeşi yavaş-yavaş stola vurub onları sakit etməyə çalışırdı.

Bir az sonra müdirə bacının otağında idim. Amma təəccüblüdür! Müdirənin çöhrəsi röyada gördüyümə heç bənzəmirdi. Elə bil, əqrəbli eşşəkarısı oyununu icad edən və müəllimənin özündən getməsinə səbəb olan dəcəl mən yox, müdirə özü imiş.

Müdirənin üzü qəmli idi, dodaqları titrəyirdi. Əlimdən tutub bağrına basmaq istəyirmiş kimi bir hərəkət etdi, sonra yenə buraxdı.

– Fəridə, qızım... Sənə bir xəbər verəcəyəm... Acı bir xəbər... Atan bir azca xəstədir... Bir azca deyirəm, amma deyəsən bərk xəstədir...

Müdirə bacı əlindəki kağız parçasını burur, sözünün dalısını gətirə bilmirdi.

Bu vaxt məni sinifdən gətirən bacının yaylığı üzünə tutaraq bayıra çıxdığını gördüm.

İşin nə yerdə olduğunu anlamışdım. Bir şey söyləmək istəyirdim. Amma müdirə bacı kimi mənim də dilim qurumuşdu. Başımı çevirib

açıq pəncərədən bayırdakı ağaclara baxdım. Onların gün düşmüş təpələrində qaranquşlar uçuşurdu.

Birdən-birə mən də onlar kimi canlandım.

– Anladım, masör, – dedim, – narahat olmayın... Nə edək? Hamımız öləcəyik...

Bu dəfə müdirə bacı başımı köksünə dayayıb uzun müddət buraxmadı.

Bir az sonra xalalarım, qəbul günü olmadığına baxmayaraq, məni görməyə gəldilər. İzin alaraq məni evə aparmaq istədilər. Razı olmadım. İmtahanların çox yaxın olduğunu söylədim. Bununla bərabər, imtahanların çox yaxın olması mənim o gün həmişəkindən daha çox dəcəllik etməyimə mane olmadı. Belə ki, axşam mütaliəsində məni şiddətli qızdırma tutdu, tənbəllərin etdikləri kimi qollarımı skamyanın üstünə qoyub yuxuladım və o gecə yemək yemədim.

Yay tətillərini Bəsimə xalamın Qozyatağındakı köşkündə keçirirdim.

Burdakı uşaqlardan mənə xeyir yoxdu. Bəsimə xalamın qızı Nəcmiyyə anasının dizindən ayrılmayan səssiz bir uşaq idi. Həmişə xəstə olurdu. Böyük qardaşı Kamrana çox oxşayırdı.

Yaxşı ki, ətrafda mühacir[1] uşaqları vardı. Mən onları bağçaya yığıb başçılıq edər, axşama kimi qiyamət qopardım.

Arada yazıq yoldaşlarım qəzəbə düçar olmuşdular. Köşkün bağbanı onları qovlamışdı.

Amma onlar heç bir şeyi vecə almayan uşaqlardı. Bu hərəkətə göz yumub məni köşkdən qaçırmağa gəlirdilər. Saatlarla çöllərdə veyillənib bağçaların barılarından aşar, yer-yemiş oğurlardıq.

Mən gecəyə yaxın, üzümün dərisi günəşdən yanmış, yaralı əllərimlə ətəklərimin yırtıqlarını örtə-örtə içəri girəndə xalam saçımı-başımı yolar, öz qızı Nəcmiyyəni nümunə göstərərdi. Nəcmiyyə bir qucaq parlaq tük yığını altında hərdənbir çəhrayı ağzını açıb əsnərdi. Bu vəziyyətdə o, sarsaq və tənbəl Van pişiklərinə bənzərdi. Ədəbliliyi, oxumuşluğu, zərifliyi, tərbiyəliyi və daha nə bilim nələri tez-tez mənə nümunə göstərilənlərdən biri də Kamran idi.

Nəcmiyyəyə sözüm yoxdur... Hər necə olsa, anasının dizində böyümüş, incə-mincə, dəymədüşər bir qızdı. Əslinə baxsan, mən

[1] Mühacir – qaçqın, o zaman Balkanlardan qaçıb gəlmiş əhali



ürəyimdə təsdiq edirdim ki, qız uşağı elə belə olmalıdır. Bəs Kamran – iyirmi yaşına çatan incə dodaqları üstündə nazik bığları çıxmağa başlayan o yekə Kamran adını nə qoymuşdu? Qız ayağı kimi xırdaca ayaqlarında ağ, yumşaq maral dərisindən tufliləri, ipək corabları, yeriyəndə incə bir budaq kimi yırğalanan zərif vücudu, ipək köynəyinin açıq yaxasından çıxan uzun ağ boynu ilə oğlandan çox qıza bənzəyən bu uşağa son dərəcə acığım tutardı.

Onun kişi qohumlarımız və qonum-qonşu tərəfindən tez-tez tərif-lənən üstünlükləri mənə bərk toxunurdu.

Yadımdadır ki, mən dəfələrlə qaçarkən yalandan ayağımı sürüşdürüb onun üstünə yıxılır, kitablarını cırar, boş bəhanələrlə dalaşmağa çalışardım. Amma Allahın qulu hünər edib bir gün azca canlansaydı, qəzəblənsəydi, istədiyimin tərsinə bir şey söyləsəydi, pişik kimi boynuna atılıb onu tozun-torpağın içinə yıxar, saçlarını yolar, ilan gözlərinə bənzəyən yaşıl gözlərini barmaqlarımla tökərdim.

Ayağına daş salıb onu ufuldatdığım günü sevincimdən, şadlığımdan titrəyə-titrəyə xatırlardım. Amma o özünü bişmiş, yetişmiş bir insan sayaraq, mənə yuxarıdan aşağı baxar, kinayə ilə gülümsəyərək sanki deyərdi: "Bu uşaqlıq nə vaxta qədər davam edəcək, Fəridə?"

– Yaxşı, bəs səndə bu nərmə-naziklik, elçi qabağına çıxan köhnə zəmanə qızları kimi naz və ədalar nə zamana qədər davam edəcək?..

Təbii ki, bu sözləri mən heç bir vəchlə ona söyləyə bilməzdim... Yaşım, maşallah, on üç-on dörd idi... Bu yaşda bir qız, etdiyi qabalığı bu qədər nəzakətlə qarşılayan gənc oğlana daha artıq sataşa bilməz. Dodaqlarımdan qeyri-ixtiyari yersiz söz çıxmasından qorxaraq, əlimi ağzıma tutar, onu doyunca söymək üçün bağçanın tənha guşələrinə qaçardım.

Yağışlı bir gün idi. Kamran köşkün alt mərtəbəsində bir neçə qohum qadınla tualet barəsində söhbət edirdi. Qadınlar tikdirəcəkləri qış paltarlarının rəngi haqqında onun fikrini soruşurdular.

Mən bir küncdə dilimi çıxarıb, gözlərimi qıyıb, bütün diqqətimi toplayaraq yırtıq bir köynəyin qolunu yamamaqla məşğuldum. Özümü saxlaya bilmədim, qəhqəhə çəkib gülməyə başladım.

Xalaoğlum:

– Nəyə gülürsən? – deyə soruşdu.

– Heç... – dedim, – ağlıma bir şey gəldi...

– Nə gəldi?

– Demərəm...
– Di yaxşı, naz eləmə... Əslinə qalsa, sən söz saxlayan deyilsən, əvvəl-axır söyləyəcəksən.
– Elə isə, acığın tutmasın... Sən xanımlarla tualet barəsində danışanda düşünürdüm ki, Allah səni yanlış yaratmışdır... Sən gərək qız olaydın... Amma indiki yaşında yox... On üç-on dörd yaşlarında...
– Yaxşı bəs sonra?..
– Bayaqdan bəri bir qarış yeri tikincəyə qədər barmağımı dəlik-deşik etdiyimə görə, mən də iyirmi iki yaşlarında oğlan...
– Hə, sonra?..
– Sonra nə olacaq, Allahın əmri ilə, peyğəmbərin şəriəti ilə səni özümə alardım, qurtarıb gedərdi.
Otaqda bərk qəhqəhə qopdu. Başımı qaldırdım və bütün gözlərin mənə zilləndiyini gördüm.
Qonaqlardan biri yersiz bir söz dedi:
– Çox yaxşı, amma bu iş indi də mümkündür, Fəridə!
Çaşıb qaldım. Gözlərimi geniş açaraq dedim:
– Necə?
– Necə olacaq... Kamrana ərə gedərsən... O sənin tualetlərinlə məşğul olar, söküklərini tikər... Sən də bayır işlərinə baxarsan...
Qəzəblə yerimdən qalxdım. Ancaq bu qəzəbim əslində özümə idi. Sözün bu yerə gəlib çatmasına özüm bais olmuşdum. Mən çərənpərən danışmaqda bu qədər irəli getməzdim, amma yəqin ki, əlimdəki yamaq işi bütün diqqətimi almışdı.
Buna baxmayaraq mən özümü sındırmayıb yenə hücuma keçdim və dedim:
– Mümkündür, amma Kamran bəy üçün zərərli olar, çünki Allah eləməmiş, evdə bir dava düşərsə, xalaoğlumun halı necə olar? Vaxtı ilə onun zərif ayaqlarına düşən daşı yəqin ki, unutmamışdır.
Yenə gülüşmə başlandı, qəribə bir ciddiyyətlə öz otağıma yönəldim. Amma qapıda ayaq saxladım və dönüb dedim:
– Üzr istəyirəm, on dörd yaşında bir qızın belə danışması ayıb olsa da təqsirimdən keçin.
Ayaqlarımı pilləkənin taxtalarına vura-vura, qapıları çırparaq öz otağıma çıxdım. Özümü top kimi çarpayımın üstünə atdım. Aşağıda qəhqəhələr davam edirdi. Kim bilir, bəlkə də mənimlə əylənirdilər.



Kamranla evlənmək, yəqin ki, yaxşı bir şey olacaqdı. Çünki yaşlarımız getdikcə artır, onunla dava salmaq fürsəti gündən-günə uzaqlaşırdı. Bircə dəfə də olsun saç-saça tutuşub döyüşərək ondan acığımı çıxarmaq üçün, evlənməyimizdən başqa çarə qalmırdı.
Yay tətilinin sonlarında məktəbimiz bir müddət için-için qaynar, bu coşqunluq ancaq imtahana yaxın yatışardı.
Səbəbi bu idi: on üç-on dörd yaşına çatan katolik qız yoldaşlarım baharda Pasxa bayramında xristian əhd-ayinlərini edib ətəkləri yerə dəyən ipək paltarlar geyər, gəlin duvaqlarına bənzəyən qucaq-qucaq tüllərə bürünərək, İsa peyğəmbərə nişanlanardılar.
Kilsədə şam işıqları, arqanla çalınan ilahilər, hər tərəfi dolduran bahar çiçəkləri qoxularına qarışaraq, bir qat daha ağırlaşan büxur və aloe tüstüləri içində edilən bu nişan toyu çox gözəl bir şeydi. Amma hayıf ki, bu toydan sonra gələn tətil aylarında xain qız yoldaşlarım tez bir zamanda nişanlılarına vəfasızlıq edərdilər, mum rəngli, mavi gözlü İsanı qarşılarına ilk dəfə çıxan bir, bəzən də bir neçə oğlanla aldadardılar.
Məktəblər açıldığı zaman qız yoldaşlarım çamadanlarının gizli bir guşəsində məktublar, fotoşəkillər, xatirə çiçəkləri və daha nə bilim nələr gətirərdilər.
Bağçada iki-bir, üç-bir qol-qola gəzişdikləri zaman nələr danışdıqlarını bilirdim. Qızların ən məsum və dindarlarına hədiyyə edilən rəngli və bəzəkli peyğəmbər və mələk rəsmlərinin altında gizlənən fotoşəkillərin gənc oğlanların şəkli olduğunu anlamaqda çətinlik çəkməzdim. Bağçanın bir guşəsində qızlardan birinin öz yoldaşının qulağına yavaşcadan pıçıldadığı hekayəni gözümdən qaçırmazdım.
Bu mövsümdə qızlar iki-bir, üç-bir qruplara ayrılıb qol-boyun gəzişərdilər.
Təkcə mən biçarə, bağçada və sinifdə həmişə yalqızdım. Yoldaşlarım mənə qarşı, adətən, bir sirr dağarcığı halını alardılar. Onlar bacılardan artıq məndən çəkinərdilər. Deyəcəksiniz ki, nə üçün? Çünki çərənçi idim, saqqallı əminin dediyi kimi, ağzımda söz saxlaya bilməzdim. Məsələn, bir qızın bağça barmaqlığı arasından qonşu gənclə məsum bir çiçək alış-verişini duydummu, bağçada demək olar ki, car çəkərdim. Üstəlik, belə şeylərə yaman xoşum vardı.
Heç unutmaram, bir qış axşamı qiraətxanada dərs hazırlayırdım. Mişel adında çalışqan bir qız öz korazehin yoldaşına Roma tarixini

başa salmaq üçün bacıdan icazə almış, ən dal cərgəyə çəkilmişdi. Qiraətxananın səssizliyi içində birdən hıçqırıq səsləri gəldi. Bacı başını qaldırıb dedi:

– O nədir, Mişel, sən ağlayırsanmı? Nə üçün?

Mişel əlini göz yaşından tamam islanmış üzünə tutdu.

Cavabı onun yerinə mən verdim:

– Mişel karfagenlilərin məğlub olmasına heyifsilənib, ona ağlayır.

Sinifdə qəhqəhə qopdu.

Müxtəsər, yoldaşlarımın məni öz aralarına qəbul etməməkdə haqları vardı. Amma hamıdan ayrı qalmaq, yekə bir qız olduğum halda, çərənçi bir uşaq rəftarı görmək çox da xoşagələn bir şey deyildi.

Yaşım on beşə girirdi. Demək olar ki, bu yaş analarımızın gəlin olduqları, nənələrimizin "aman, evdə qalırıq" – deyə təşvişə düşüb, Əyyubdakı niyyət quyusuna[1] yüyürdükləri bir yaşdı.

Boyum çox uzanmamışdı. Ancaq dəlisovluğuma baxmayaraq, bədənim inkişaf etmişdi, üzümdə qəribə rənglər peyda olmuşdu.

Saqqallı əmi hərdənbir əllərimdən tutub məni pəncərə qabağına çəkər, üzümü koruş gözlərinə soxacaqmış kimi üzünə yaxınlaşdıraraq deyərdi: "Ay qız, nə qəribə rəngbərəng sifətin var. Lap elə bil basma çitdir. Heç vaxt solmayacaq".

"Aman Allah, heç belə də qız olar?" – deyə fikirləşirdim. Bədən yupyumru, fırfıra kimi, üz də ki, elə bil fırça ilə boyanıb... Aynaya baxanda, elə bil, Bonmarşe[2] vitrinlərində müqəvva görürdüm. Odur ki, dilimi çıxarıb gözlərimi çəpləşdirərək öz-özümlə əylənirdim.

Tətillər içində ən xoşuma gələni Pasxa bayramı idi. Bu iki həftəni keçirmək üçün Qozyatağına getdiyim zaman, böyük bağçanın küçəyə baxan tərəfini başdan-başa bürümüş gilas ağacları yetişmiş meyvələrlə bəzənmiş olardı.

Gilası çox sevərdim. Bu on beş gün içində sərçə kimi demək olar ki, ancaq gilasla keçinərdim. Yalnız ən uca budaqlarda qalmış gilasları yeyib qurtarmamış, məktəbə dönməzdim.

Bir gün axşamüstü yenə bir ağacın təpəsinə çıxıb gilas yeyir, çəyirdəklərini çırtma ilə uzaqlara tullayıb əylənirdim.

[1] Əyyub – İstanbulun bir məhəlləsi; Niyyət quyusu – pir kimi bir yer

[2] Bonmarşe – Universal mağaza, firmanın adı



Tərs kimi bunlardan biri yoldan keçən yaşlı bir qonşu kişinin düz burnunun ucuna dəydi.

Yazıq kişi başına nə gəldiyini anlaya bilməmişdi. Çaşqın-çaşqın ətrafını nəzərdən keçirir, amma başını qaldırıb ağaca baxmağı ağlına gətirmirdi.

Səsimi çıxarmayıb, sakit otursaydım bəlkə də heç görməyəcəkdi, fikirləşəcəkdi ki, bu çəyirdəyi başının üstündən uçub keçən quş salmışdır. Beləliklə də çıxıb gedəcəkdi.

Mən yamanca qorxub xəcalət çəkdim, amma buna baxmayaraq, özümü saxlaya bilmədim, gülməyə başladım.

Kişi başını qaldırıb iri bir budağın üstündə ata minən kimi oturmuş yekə bir qızın arsız-arsız güldüyünü görəndə dayana bilmədi, acığından qaşını-gözünü oynadaraq dedi:

– Afərin, xanım qız. Bunu sənə heç yaraşdıra bilmirəm! Maşallah sizin kimi boya-başa çatmış, yetişmiş yekə bir xanıma...

O dəqiqə yer yarılsaydı, yerə girərdim. Onsuz da qırmızı üzüm daha da pörtüşüb rəngdən-rəngə düşdü. Ağacdan yıxılmaq təhlükəsinə baxmayaraq, əllərimi köksümdə dua edən kimi çarpazlayıb bir azca boynumu büküm və dedim:

– Məni bağışlayın, bəy əfəndim, vallah, bu bir qəzadır... Daha doğrusu, diqqətsizlikdir...

Bu məsum yalvarma vəziyyəti məktəbdə bacıların və dindar şagirdlərin Məryəm və İsa qarşısında dua edəndə aldıqları vəziyyətdi. Təsiri sınaqdan çox çıxmışdı. Əsrlər boyunca belə yalvarış Məryəmlə İsanı yumşaltdığına görə, yəqin ki, bu qocanı da rəhmə gətirəcəkdi.

Təxminimdə aldanmamışdım. Qoca qonşu bu riyakar peşmançılığıma və səsimdəki titrəyişə inanıb yumşaldı. Nədənsə mənə xoş bir söz söyləmək lazım gəldiyini hiss edib dedi:

– Heç düşünmürsünüz ki, belə bir diqqətsizliyin yetişmiş kiçik xanıma zərəri dəyə bilər?

Onun məqsədini çox yaxşı başa düşdüyüm halda, gözlərimi guya təəccüblə iri-iri açıb dedim:

– Nə üçün əfəndim?

Qoca əlini günəşin yandan düşən işığına tutub diqqətlə mənə baxır və gülürdü:

– Məsələn, sizi oğluma almaqdan çəkinə bilərəm.

Mən də gülüb:

– O cəhətdən sığortalıyam, bəy əfəndim. Düzü, dinc bir qız olsam da, almazsınız, – dedim.

– Nədən bilirsiniz?

– Çünki mənim ağaca çıxmaqdan, gilas çəyirdəyi atmaqdan çox-çox böyük nöqsanlarım vardır... Əvvəla, varlı deyiləm... Eşitdiyimə görə, varlı olmayan qıza çox da meyil edən olmaz... Sonra gözəl də deyiləm... Və mənə elə gəlir ki, bu yoxsulluqdan daha böyük bir nöqsandır...

Bu sözlər qoca bəyi çox əyləndirmişdi.

– Siz çirkinsinizmi, qızım? – deyə soruşdu.

Mən üz-gözümü turşudub dedim:

– Nə deyirsiniz deyin, mən özüm necə olduğumu bilirəm. Heç qız da belə olarmı? Uzunboy, sarısaç, mavi, yaxud yaşıl gözlər lazımdır...

Bu qoca bəy, görünür ki, vaxtı ilə bir az dəcəlmiş... Qəribə bir baxışla və dəyişik bir səslə dedi:

– Ah, yazıq balam, məgər sən gözəlliyin nə olduğunu anlayan, özünün nə olduğunu başa düşən bir yaşdasanmı? Hər nə isə... Sizin adınız nədir, deyin görək?

– Çalıquşu...

– Bu necə addır?

– Bağışlayın, məni məktəbdə belə çağırırlar... Əsil adım Fəridədir. Özüm kimi yupyumru, zəriflikdən uzaq bir ad.

– Fəridə xanım... Əmin olun ki, sizin adınız da özünüz kimi gözəldir... Kaş oğluma sizin kimi bir qız tapa biləydim...

Bilmirəm nədən bu kübar tövrlü, mehriban səsli adamla çərənçilik etmək xoşuma gəlirdi.

– O halda, ona da gilas ata biləcəyik, – dedim.

– Əlbəttə, əlbəttə... Ona nə şübhə...

– İndi icazənizlə sizə bir neçə gilas verim. Məni əfv etdiyinizi isbat üçün bunları mütləq almalısınız... İkicə dəqiqə gözləyin...

Bir mışovul çevikliyi ilə budaqlara dırmaşmağa başladım. Qoca qonşu əllərini gözlərinə tutub çığırırdı:

– Ay aman, budaqlar cırıldayır... Mən bais olacağam... Yıxılacaqsınız, Fəridə xanım!

Mən bu təşvişə fikir verməyib söyləyirdim:



– Narahat olmayın... Yıxılmağa o qədər öyrəşmişəm ki... Məsələn, yaxında olsaydınız, gicgahımda bir yara izi görərdiniz. Bu elə bir izdir ki, bütün başqa gözəllikləri tamamlayır.

– Aman, qızım, yıxılarsınız!..

– Qurtardım, əfəndi, qurtardım... Bəs bunları sizə necə verəcəyəm? Tapdım, əfəndim, ona da çarə tapdım...

Önlüyümün cibindən yaylığımı çıxartdım, gilasları onun içinə qoyub düyünçə kimi bağladım.

– Yaylıq sarıdan heç nigaran qalmayın... Hələ burnumu silməmişəm... Lap tərtəmizdir... İndi rica edirəm, onu yerə salmayıb tutasınız. Bir... iki... üç...

Qoca qonşu gözlənilməz bir çevikliklə gilas dolu yaylığı tutdu.

– Çox təşəkkür edirəm, qızım, – dedi. – Bəs mən indi yaylığınızı necə qaytaracağam?

– Ziyanı yoxdur... Sizə hədiyyəm olsun.

– Bu necə olar?

– Nə üçün olmasın? Lap yaxşı olar.

Başqa bir şey də var... Mən bir neçə gündən sonra pansiona qayıdacağam... Bizim məktəbdə bir adət vardır... Qızlar tətil günlərində gənc oğlanlarla sevişirlər, məktəb açılanda isə bunu bir-birilərinə danışırlar... Mən belə şeyləri bacara bilmədiyim üçün yanlarında həmişə xəcalətli qalırdım.

Üzümə bir şey söyləməyə cəsarət edə bilmirlər, amma yəqin ki, dalda mənim axmaqlığımla əylənirlər... Bu səfər mən də bir şey edəcəyim... Məktəbə getdiyim zaman, gizli bir sirrim varmış kimi, başımı aşağı əyib düşünəcək, qəmgin-qəmgin gülümsünəcəyəm. Onlar deyəcəklər: "Çalıquşu, səndə bir iş var?.." Mən əzilə-əzilə deyəcəyəm: "Xeyr... Nəyim olacaq?" İnanmayacaqlar, məni sıxışdıracaqlar... Onda mən də: "Çox yaxşı, elə isə... Amma and için ki, heç kəsə söyləməyəcəksiniz", deyəcəyəm və bir yalan uyduracağam.

Necə yalan?

Sizinlə tanış olmağım bu yalanı asanlaşdırır. Deyəcəyəm ki, "divarın üzərindən sarışın, uzunboy bir oğlanla eşqbazlıq etdik..." Əlbəttə, ağsaçlı deyə bilmərəm. Həm də siz kiçiklikdə yəqin ki, sarışın olmuşsunuz... Yoldaşlarımın xasiyyətini bilirəm. "Nə danışdınız?" – deyə soruşacaqlar. And içib deyəcəyəm ki, "mənim gözəl olduğumu söylədi". Əgər desəm ki, "mən də ona yaylıq içində gilas

verdim", təbii ki, yaxşı düşməz... Deyəcəyəm ki, "gül verdim..." Ancaq bu da olmazdı... Gülü yaylıq içində vermək adət deyildir... Deyərəm: "Yaylığımı bağışladım", qurtarıb gedər.

Bir az əvvəl bir-birimizlə davalaşmağa azca qaldığı halda, indi qoca qonşu ilə gülüşür, ayrılanda bir-birimizə əl edirdik...

O ilin yayında ağaca çıxmaq azarı üstündə başıma bir iş də gəldi.

Aydın bir avqust gecəsi idi. Köşkə bir xeyli qonaq gəlmişdi. Bunların arasında Nəriman adlı iyirmi beş yaşlarında bir dul qadın vardı. Onun hərdənbir öz gəlişi ilə köşkü şərəfləndirməsi mühüm hadisə hesab olunardı.

Dünyada özlərindən başqa heç kəsi bəyənməyən xalalarımdan tutmuş, maymaq xidmətçi qızlara qədər, hamı bu qadına hayıl-mayıl olmuşdu.

Nərimanın guya çox sevdiyi əri bir il əvvəl ölmüşdü. Odur ki, həmişə qara geyərdi. Ancaq mənə elə gəlirdi ki, qara paltar bu qadının sarışın üzünə yaxşı yaraşmasaydı, bu matəm çox davam etməyəcəkdi, o paltarlar dəmdəsgahı ilə birlikdə zibilliyə atılacaqdı.

Nəriman məni də it-pişik kimi tumarlaya-tumarlaya ələ almağa çalışırdı. Ancaq nədənsə mən ona isinişmirdim. Aramız xeyli soyuqdu. Mənə göstərdiyi nəvazişlərə etinasız yanaşırdım.

Soyuqluğu hələ də davam etdirdiyimə baxmayaraq, indi boynuma almağa məcburam ki, Nəriman yaman gözəldi. Onun ən bəyənmədiyim cəhəti həddən artıq ədabaz olması idi. Yalnız qadınlar arasında olanda, yenə bir təhəri vardı, amma bir kişi gələn kimi Nərimanın üzü dəyişər, səsi, qəhqəhələri, baxışları bambaşqa olurdu. Sözün qısası, bu qadın mənim saman altından su yeridən məktəb yoldaşlarımın daha da fəndli-feyilli bir nümunəsi idi.

Ərindən söz düşəndə, bu qadın: "Mənim üçün daha həyat qurtardı" deyə sifətinə yalandan elə qəmginlik verərdi ki, lap zəhləm gedərdi. O belə edəndə mən əsəbiləşib deyərdim: "Qabağına fərli bir kişi çıxsın, onda görərik".

Bizim köşkdə Nərimana tay-tuş olacaq heç kəs yox idi. Dəymədüşər Nəcmiyyəni insan saymaq, təbii ki, doğru olmazdı. Xalalarım saçları-başları ağarmış qoca qadınlardı. Arabir onun-bunun qeybətini etməkdən başqa danışmalı söhbətləri də yox idi. O halda, o halda!..



Mən bu Nərimanın köşkə dadanmasının səbəbini başa düşmüşdüm. Yəqin ki, bizim sarsaq xalaoğlunu gözaltılamışdı. Evlənmək üçünmü? Güman etmirəm. Otuzu haqlayan bir dul qadının iyirmi yaşında bir gənclə evlənmək istəməsi həyasızlığın son dərəcəsi olardı... O belə bir həyasızlıqdan çəkinməsə də, inanmıram ki, mənim vasvası xalalarım öz balalarını belə sarsaq bir quzğuna qapdıracaq qədər kor olsunlar?

O halda, o halda?..

O haldası-filanı varmı? Bu xoşbəxt dul qadın öz zövqünə, öz xəyallarına nökərçilik edən yeni bir qismət ovlayana qədər bizim xalaoğlu ilə vaxt keçirəcək, könlünü əyləndirəcəkdi...

Kamrana sarsaq dedim, amma bu acığımdandır... Həqiqətdə isə o, yerə baxan, ürəkyaxan, yaman hiyləgər sarı bir əqrəbdir. Nərimanla danışarkən, guya bir şey bildirməmək istəyir, bu isə mənim gözümdən qaçmırdı.

Uşaqlarla boğuşanda da, öz-özümə ip üstündən atılanda da, yerə uzanıb oyun kartları ilə fal açanda da gözlərim həmişə onlarda olardı...

Xalaoğlum günlərin birində o qadının pəncəsinə düşəcəkdi... Arabir heç nəyi görmürəmmiş kimi onların yanlarından keçirdim... O saat səslərini alçaldırdılar... Ya da söhbəti dəyişdirirdilər. Deyəcəksiniz ki, "nə istəyirlər eləsinlər, sənə nə?" Heç elə şey olar? Kamran düşmənim də olsa, xalam oğludur... Heç istəyərəmmi ki, hansı yuvanın quşu olduğu bilinməyən bir qadın onun əxlaqını pozsun?

Nədən danışırdım?.. Bəli, aydın bir avqust gecəsi idi. Qonaqlar köşkün önündəki eyvanda, lüks lampasının işığında – hərçənd ona ehtiyac yox idi – oturub danışır-gülüşürdülər.

Nərimanın musiqi notaları kimi ölçülüb-biçilmiş ahəngli qəhqəhələri sinirlərimə toxunduğu üçün mən ordan uzaqlaşıb, bağçanın bir bucağında ağacların qaranlığına çəkilmişdim.

Bağçanın lap o biri başında, budaqlarının bir qismi qonşunun bağçasına sallanmış qoca çinar vardı. Biçarə ağacın işə yarayan bir meyvəsi olmadığına baxmayaraq, mən bu yekə ağacı sevirdim. Onun yoğun və yastı budaqlarının üstündə rahat-rahat gəzmək olurdu. Mən tez-tez bu budaqlara çıxıb gəzər, ya da oturardım.

O gecə də elə etdim. Ağacın xeyli uca bir budağına çıxıb oturdum.

Bir az sonra qulağıma yüngül ayaq səsi, ardınca da yavaş qəhqəhə səsi gəldi.

O saat gözlərimi açdım, qulaqlarımı şəklədim: nə görsəm yaxşıdır? Xalaoğlum o xoşbəxt dul ilə bərabər mənə sarı gəlir...

Tilovuna balıq yaxınlaşdığını görən bir balıqçı kimi bütün diqqətimi topladım. Oturduğum yerdə bir səs çıxarmaqdan yaman qorxurdum. Amma bu, boş bir qorxu idi...

Onlar o qədər özlərində-sözlərində deyildilər ki, oturduğum yerdə təbil də çalsaydım, yəqin ki, duymayacaqdılar. Nəriman öndə gedirdi. Xalaoğlum ərəb qulu kimi dörd-beş addım geridə idi. Hasardan keçib yollarına davam edə bilməyəcəklərinə görə, oturduğum ağacın altında durdular.

Gəlin balalarım, gəlin, quzularım!.. Sizi mənim yanıma Allah özü göndərmişdir... Bir azdan sonra görüşərik... Bu gözəl aylı gecədən sizdə unudulmaz bir xatirə buraxmaq üçün bacardığımı əsirgəməyəcəyəm.

Elə bu arada bir cırcırama cırıldamağa başladı.

Az qala dəli olacaqdım. Xalaoğlumun xoşbəxt dula söylədiyi nitqi eşidə bilmirdim... Az qalmışdı qışqıram ki, "ay miskin, nədən qorxursan? Buralarda kim ola bilər?.. Səsini çıxarsana!"

Bu nitq arasında qulağıma yalnız bir neçə söz gəldi: "Nəriman, gülüm, mələyim..." Tir-tir əsməyə başladım. Yıxılmasam da, səs çıxaracağımdan, yarpaqları xışıldadacağımdan qorxurdum. Arada Nəriman xanımın da bir-iki kəlməsini eşidirdim. "Rica edirəm, Kamran bəy, rica edirəm" – deyirdi.

Nəhayət, səslər kəsildi. Nəriman yavaş-yavaş hasara yaxınlaşdı, pəncələri üstündə qalxıb qonşu həyətə boylandı. Guya ordan onları güdən olub-olmadığını bilmək istəyirdi.

Bu vəziyyətdə, təbii ki, Nərimanın arxası xalaoğluma çevrilmişdi. O isə nə edəcəyini bilmirdi.

Xalaoğlumun birdən-birə qollarını yana açıb ona sarı yeridiyini gördüm... Ürəyim çırpınır, öz-özümə deyirdim: "Nəhayət, ağlı başına gəldi, bu pis qadına gözəl bir şillə vuracaq". Kamran bunu etsəydi, mən sevincimdən ağlayaraq özümü ağacdan atacaq, onunla ömürlük barışacaqdım. Amma o canavar bunu etmədi. Sısqa qollarından, ağappaq qız əllərindən umulmayan bir qüvvətlə Nərimanın əvvəl çiyinlərindən, sonra biləklərindən yapışdı. Qucaq-qucağa, nəfəs-nəfəsə boğuşurdular, çinar yarpaqları arasından süzülən ay işığında saçlarının bir-birinə qarışdığını gördüm.



Bu nə rəzalətdir, aman Allah, nə rəzalətdir! Bütün bədənim tir-tir əsirdi. Bir az əvvəl onların başına yaxşı bir oyun açacağımı düşündüyüm bir halda, indi məni sezəcəklərindən qorxub bağrım yarılırdı. Doğrudan da, bir quşa dönüb budaqların üstündən göyə uçmağı, yuxarıdakı ay aləmində yox olub gedərək, bu dünyadakı insanların üzlərini bir daha görməməyi nə istəyirdim!

Dodaqlarımı barmaqlarımla sıxdığıma baxmayaraq çığırdım. Bu çığırmaqdan çox fəryaddı. Amma bu fəryad aşağı çatmamış, həmin saat qəhqəhə ilə güldüm. Namussuzların o dəqiqədəki çaşqınlıqlarını, pərişanlıqlarını gərək özünüz görəydiniz!

Bir az əvvəl ay işığı kimi ayaqları sanki yerə toxunmadan, süzə-süzə gələn o xoşbəxt dul qadın indi ağaclara dəyə-dəyə, büdrəyə-büdrəyə var gücü ilə qaçırdı.

Xalaoğlum da onun kimi etmək istədi. Amma o bir az qaçmışdı ki, nə düşündüsə, pərt halda geri döndü.

Mən nə edəcəyimi bilmədiyimdən hələ də gülürdüm. O, məşhur "Qarğa və tülkü" təmsilindəki tülkü kimi ağacın altında hiyləgərcəsinə gəzməyə başladı.

Nəhayət, utanıb sıxılmağı buraxıb mənə dedi:

– Fəridə, əzizim, azacıq aşağı enərsinizmi?

Mən gülməyi kəsdim, ciddi bir səslə dedim:

– Nə üçün?

– Heç... Sənə bir sözüm var...

– Mənim səninlə danışmalı bir sözüm yoxdur... Rahatlığımı pozmayın.

– Fəridə, zarafatı burax...

– Zarafatmı? Nə zarafat!..

– Amma sən daha həddini aşırsan... Sən aşağı düşmək istəmirsənsə, mən yuxarı çıxa bilərəm!

– Ay çıxdın ha!..

Yolunda bir xırdaca su gölməçəsi görəndə təşvişə düşən, hoppanmadan əvvəl üç-dörd dəfə tuflilərinə və suya baxan, stulda oturanda şalvarını barmaqlarının ucu ilə tutub yuxarı çəkən nazlı və nazənin xalaoğlunun ağaca çıxmaq istəməsi çox gülməli idi!..

Amma bu gecə o, doğrudan da, canavara dönmüşdü... Alçaq budaqların birindən tutub ağaca hoppandı və yuxarı çıxmağa hazırlaşdı...

Gecə vaxtı ağacda xalaoğlumla üz-üzə gələcəyimizi düşünəndə, nədənsə qorxuya düşdüm. Bunun axırı bir fəlakət ola bilərdi. Əgər

mən onun yaşıl ilan gözlərinin yaxından mənə baxdığını görsəydim, yəqin ki, budaqların arasında onunla boğuşacaqdım. Biz bir-birini didən iki yırtıcı quşa dönəcəkdik. Mən onun gözlərini çıxardıb onu da, özümü də ağacdan atacaqdım.

Amma nədənsə bu coşqunluğumu büruzə verməyi düzgün hesab etmirdim.

Yerimdə dikəlib sərt bir səslə əmr etdim:

– Orada durun görüm!..

Amma o, heç qulaq asmadı, hətta cavab da vermədi. Budağın üstündə dikəlib yuxarı baxmağa başladı.

– Durun, dedim, yoxsa pis olacaqdır!.. Bilirsiniz ki, mən Çalıquşuyam. Ağaclar mənim oylağımdır... Buralara məndən başqasının ayaq basmasına dözə bilmərəm!

– Bu nə qəribə danışıqdır, Fəridə?..

Doğrudan da, bu nə qəribə danışıqdı!

Mən çarəsiz qalıb zarafatcıl bir tövr aldım və əgər yanıma gəlsə, daha yuxarılara çıxmağa hazırlaşıb dedim:

– Bilirsiniz ki, sizə hörmətim vardır. Sizi ağacdan aşağı atmağa məcbur olsam, özüm də çox kədərlənərəm. Bir az əvvəl şeir oxuduğunuz halda, indi birdən-birə: "Aman! Aman!" – deyə çığırmağa başlasanız çox pis olar.

Bu sözləri deyərkən mən onun səsini yamsılayır, qəhqəhələrlə gülürdüm.

– İndi görərik!

Qorxu onu cürətləndirmiş və çevikləşdirmişdi. Mənim təhdidimə əhəmiyyət verməyib budaqlara dırmaşmağa davam edirdi.

Ağacda, demək olar ki, biz qaçdı-tutdu oyununa başladıq. O yaxınlaşdıqca mən yuxarı budaqlara çıxırdım, budaqlar da getdikcə incəlirdi. Mən bir istədim ki, hasarın üstünə atılıb qaçım. Amma qorxdum ki, birdən qaça bilmərəm, bir yerim əzilər və xalaoğlumun yerinə mən özüm çığırıb-bağırmalı olaram.

Ancaq necə olursa olsun, biz bu gecə bir-birimizə yaxınlaşmalıydıq. Mən siyasəti dəyişib soruşdum:

– Mənimlə danışmağa nə üçün bu qədər çalışdığınızı görəsən bilmək olarmı?

Mənim bu sözlərimdən o da dəyişdi, ciddi bir tövr alıb durdu və dedi:



– Səninlə zarafatlaşırıq, amma məsələ çox mühümdür, Fəridə... Mən səndən qorxuram...

– Eləmi? Görəsən nəyimdən qorxursunuz?

– Çərənçiliyindən...

– Bu mənim hər gün etdiyim şey deyilmi?

– Yox, bu gecəki həmişəkilərə bənzəməz...

– Bu gecədə nə fövqəladəlik var ki?

Kamran yorulub əldən düşmüşdü. Daha şalvarını-filanı nəzərə almayıb bir budaqda oturdu. Hələ də zarafat edən kimi görünürdüsə də, amma elə bil bu saat ağlayacaqdı.

Mən, ona rəhmim gəldiyi üçün yox, ancaq daha onunla danışmağa halım qalmadığından, yaxamı tezliklə qurtarmaq üçün dedim:

– Narahat olma, heç qorxmalı bir şey yoxdur. Arxayın ol... Tez qonaqlarının yanına get, ayıbdır.

– Söz verirsənmi, Fəridə, and içirsənmi?

– Söz də verirəm, and da içirəm... Nə istəsən edərəm.

– İnanımmı?

– Elə bilirəm ki, inanmaq lazımdır... Mən daha əvvəlki kimi uşaq deyiləm...

– Fəridə...

– Axı, nə bilim ki, sən mənim nəyi söyləyəcəyimdən qorxursan? Mən ağacda özüm üçün oturmuşdum...

– Bilmirəm, amma nədənsə inanmıram...

– Sənə dedim ki, daha böyümüşəm, demək olar ki, bir gənc qız olmuşam. Əlbəttə, bunu deməkdən bir məqsədim var... Di yaxşı, əziz xalaoğlum, heç narahat olmayın... Bəzi şeylər var ki, onları uşaqlar görər... Amma bir gənc qız heç fikir də verməz... Di yaxşı, arxayın olun...

Deyəsən Kamranın qorxusu yavaş-yavaş heyrətə dönürdü. Məni mütləq görmək istəyirmiş kimi başını qaldırıb dedi:

– Sənin danışığın nə qədər başqalaşmışdır, Fəridə...

Əgər söhbət uzansaydı, biz bu çətin vəziyyətdən daha çıxa bilməyəcəkdir. Ona görə qondarma bir hiddətlə çığırdım:

– Daha bəsdir... Söhbəti uzatsan, sözümü geri alaram!.. Özün bir fikirləş.

Bu təhdid onu qorxutdu. Fikirli-fikirli ağacdan düşdü, Nərimanın yollandığı tərəfə getməkdən utanıb bağçanın aşağılarına sarı üz qoydu.

Xoşbəxt dul qadın o gündən sonra daha köşkdə görünmürdü. Kamranın xeyli müddət məndən qorxduğunu hiss edirdim.

Xalaoğlum hər dəfə İstanbula gedəndə, mənə hədiyyələr gətirirdi. Rəsmli bir yapon çətiri, ipək yaylıqlar, ipək corablar, ürək biçimində bir tualet aynası, qəşəng bir əl çantası...

Nadinc uşaqdan çox yetişmiş bir gənc qıza yaraşan bu şeylərin mənə verilməsinin mənası nə idi? Çalıquşunu aldatmaq, dimdiyini bağlayıb çərənçilik etməsinə mane olmaqdan başqa bu hədiyyələrdə nə məna ola bilərdi?

Mən elə bir yaşa çatmışdım ki, bu yaşda başqası tərəfindən yad edilmək adama ləzzət verir. Bundan başqa belə gözəl şeylər də xoşuma gəlirdi.

Ancaq nədənsə bu hədiyyələrə əhəmiyyət verdiyimi nə Kamrana, nə də başqasına göstərmək istəyirdim.

Üzəri qamış köşklər, badamgözlü yapon qızları ilə bəzənmiş çətirimi yerə, tozun içinə salanda qəsdən tez götürmür, xalalarımdan bu cür məzəmmətlər eşidirdim:

– Fəridə, sənə verilən hədiyyələrin qədrini beləmi bilirsən?

Kamranın bağışladığı əl çantamı o qədər əzizləyirdim ki, barmaqlarımı onun parlaq və yumşaq dərisinə sürtəndə, az qala bağrıma basmaq istəyirdim. Bununla belə, bir gün özümü elə göstərdim ki, guya əlimdəki sulu meyvələri çantamın içinə doldururam. Xalalarım o saat bar-bar bağırdılar.

Bir az acgöz olsaydım, mən Kamranın bu qorxusundan daha çox istifadə edərdim. Xırım-xırda intriqalarla onu daha nələr, nələr almağa məcbur edərdim...

Mənə bağışlanan bu şeyləri çox sevirdim, amma bəzən bu şeyləri də yırtmaq, qırmaq, sonra ayaqlarımın altında tapdayıb əzmək istəyirdim.

Xalaoğluma olan qəzəb və nifrətim nədənsə keçib getmirdi.

Başqa yay fəsillərində məktəbin açılmasının yaxınlaşdığını görəndə kefim pozulardı, amma bu dəfə bu evdən, bu insanlardan uzaqlaşacağım günü səbirsizliklə gözləyirdim.

Məktəbdə dərs başlanandan sonra ilk həftələrdə bir bazar günü idi. Bacılar bizi Kayathana[1] tərəflərinə gəzməyə aparmışdılar.

[1] Kayathana – İstanbul yaxınlığında xırdaca bir çay və rayon (gəzinti yeri)



Bacılar küçələrdə gəzməyi çox sevməzdilər, amma nədənsə o axşam qaranlıq düşənə qədər küçələrdə qalmışdıq.

Mən dəstənin arxasında gedirdim. Bilmirəm necə oldu. Bir də gördüm ki, yoldaşlarımla aramdakı məsafə xeyli çoxalmışdır. Hamı həmişəki kimi öndə getdiyimi güman etdiyindən, məni itirib-axtaran yox idi. Birdən yanımda bir kölgə göründü. Baxıb gördüm ki, Mişeldir.

– Sənsənmi, Çalıquşu? – deyə Mişel soruşdu. – Nə üçün belə yavaş-yavaş gedirsən?

Sağ ayağımın topuğuna sarıdığım yaylığı göstərib dedim:

– Bir az bundan əvvəl oynayanda, yıxılıb ayağımı yaralamışam. Yəqin ki, sənin bundan xəbərin yoxdur.

Mişel pis qız deyildi. Halıma ürəyi yanıb dedi:

– İstəyirsən sənə kömək edim.

– Hər halda məni arxana almağı təklif etməyəcəksən ki?

– Əlbəttə ki, yox... Bu, mümkün olan şey deyil... Amma qoluna girə bilərəm, deyilmi? Yox, elə yox... Qolunu mənim çiynimə sal... Bir az da bərk yapış... Mən də sənin belindən tutum... Bir qədər yüngülləşərsən... Necədir, yeriyəndə daha ayağın az incidir, eləmi?

Mən onun dediyi kimi etdim. Doğrudan da, yaxşı olurdu. Mişelə dedim:

– Mersi[1], Mişel. Sən çox nəzakətli qızsan...

Bir az yeridikdən sonra Mişel dedi:

– Bilirsənmi, Fəridə, yoldaşlarımız bizi bu vəziyyətdə görəndə, nə zənn edəcəklər?

– Nə zənn edəcəklər?

– Deyəcəklər ki, yəqin Fəridə də birinə bənd olmuşdur... İndi dərdini Mişelə danışır...

Mən birdən-birə durub dedim:

– Düz deyirsən?

– Əlbəttə...

– Elə isə, bu saat qolumdan çıx, məndən ayrı get.

Bu əmri verəndə əsgər komandanı kimi sərt idim.

Mişel məni buraxmayıb dedi:

– Ay sarsaq, heç sənin barəndə belə düşünən olarmı?

– Sarsaq nə üçün?

– Hamı sənin necə qız olduğunu bilmirmi?

[1] Mersi – sağ ol (*frans.*)

– Nə demək istəyirsən?

– Heç... Hamı bilir ki, sənin belə bir macəran ola bilməz... Sənin heç kəslə eşqbazlıq edəcəyinə güman yoxdur...

– Nə üçün?.. Məni çirkinmi sanırsan?

– Xeyr, çirkin deyilsən... Bəlkə hələ gözəlsən də... Amma yaman key və maymaqsan...

– Mənim barəmdə sən beləmi düşünürsən?

– Təkcə *mən yox, hamı belə düşünür... Deyirlər ki*, "çalıquşu sevgi məsələsində əsil gourde-dir".

Bu sözün türkcəsini çox yaxşı bilmirəm, amma fransızca asma qabaq, su qabağı, balqabağı kimi bir şey deməkdir. Bunlardan hansı olursa olsun, pis şeydir... Əslinə qalsa, boyum qısa, bədənim dolu olduğundan bu qabaqlardan birinə bənzəməyim mümkündür... İndi Çalıquşundan sonra mənə bir də gourde ləqəbi qoysalar, bu daha ağ olar! Necə olursa olsun, bu təhlükənin qabağını almaq vacib idi, çünki bu mənə bərk toxunurdu.

Mişelin özündən öyrəndiyim bir hərəkətlə, başımı çiyninə qoydum, ona mənalı-mənalı gözaltı baxıb, dərdli-dərdli gülümsünərək dedim:

– Siz elə bilin...

– Nə söyləyirsən, Fəridə?

Mişel ayaq saxlayıb heyrətlə mənə baxdı. Mən boynumu əyib dediyimi bir də təsdiq etdim.

– Təəssüf ki, iş elə siz bilən kimi deyil... Axır mən də vuruldum...

Mən dediyim bu yalana onu daha da inandırmaq üçün üstəlik bir ah da çəkdim.

Mişel bu dəfə heyrətindən xaç da vurdu.

– Çox gözəl... Fəridə, çox gözəl!.. Amma hayıf ki, heç inana bilmirəm.

Yazıq Mişel sevgi mübtəlası idi, belə ki, başqasının sevişdiyini eşidəndə də ona ləzzət verirdi. Amma, özü dediyi kimi, hayıf ki, mənim sevişdiyimə inanmır və açıqdan-açığa sevinməyə cəsarət edə bilmirdi.

Mən bir yalan danışmışdım. İndi daha bunu davam etdirməli idim ki, rüsvay olmayım.

– Bəli, Mişel, – dedim, – mən də sevirəm...

– Eləcə tək sənmi sevirsən, Çalıquşu?



– Şübhəsiz ki, o da məni sevir, grande gourde.

Bir az bundan əvvəl Mişelin mənə söylədiyi gourde kəlməsinə mən bir də böyük sifətini artırıb onun üzünə qaytardım. Amma onun heç ağlına da gəlmirdi mənə desin ki, "gourde sən özünsən, bu, sənin ləqəbindir!"

Deməli ki, mən yalançılığa başlayan kimi onu inandırmağa müvəffəq olmuşdum. Çox yaxşı!..

Mişel *indi məni daha böyük bir məhəbbətlə* qucaqlamışdı.

– Danış, Fəridə... Danış, necə oldu? Demək, sən də seviştin, hə! Sevmək gözəl şeydir, deyilmi?

– Əlbəttə gözəldir...

– Sevdiyin kimdir?.. O gənc gözəldirmi?

– Çox gözəldir.

– Harda gördün? Necə tanış oldun?

– ...

– Di yaxşı, tərsliyi burax.

Düzü, elə özüm də tərsliyi buraxmağı ürəkdən istəyirdim. Amma nə uydurub söyləyəcəyimi bilmirdim. Sevməyə həqiqi bir insan tapanlara min əhsən!.. Çünki xəyali bir sevgili tapmaq özü də son dərəcə çətin, son dərəcə çətindir!..

– Di yaxşı, Fəridə... Ürəyimi... çəkmə... Yoxsa elə bilərəm ki, mənimlə zarafat edirsən.

Mən birdən-birə təşvişə düşdüm. Zarafat? Allah eləməsin ki, mən yenə asma qabaq, ya balqabağı vəziyyətində qalım!.. Sənə elə bir eşq hekayəsi uydurum ki, özün də çaşıb qalasan!..

Mişelə sevdiyim gənc adına kimi təqdim etsəm yaxşıdır? Kamranı...

– Xalaoğlumla sevişirik... – deyə cavab verdim.

– Keçən il məktəbin görüş otağında gördüyüm o sarışın xalaoğlunmu?

– Özüdür ki, var...

– Ah, nə yaxşı!

Demişdim ki, Mişel sevişmək üçün yaranmış bir qızdı... Kamran indiyə qədər məktəbə ya iki dəfə gəlmişdi, ya üç dəfə... Yəqin ki, xalaoğlum məktəbə gələndə, Mişel, ciyər qoxusu duymuş pişik kimi gənc bir oğlan qoxusu duyub görüş otağına yüyürübmüş, bəlkə də bizi güdübmüş... Qəribədir, elə deyilmi?

Ulduzlar çıxmışdı. Payız fəsli olmasına baxmayaraq, hava lap yay havası kimi ılıqdı. Elə bil havadan təzə əkin qoxusu gəlirdi.

Mən bədənimin bütün ağırlığını Mişelin çiyinlərinə salıb asılmışdım, saçlarımız, yanaqlarımız bir-birinə toxuna-toxuna, ona uydurma bir eşq nağılı danışmağa başlayıb dedim:

– Bundan da aydın bir gecə idi. Xalaoğlumla mən qapının yanındakı qonaqlarımızdan ayrılıb uzaqlaşmışdıq. Mən öndə, xalaoğlum iki-üç addım arxada gedirdik. O, mənə gözəl-gözəl sözlər söyləyirdi. Nələr dediyini təkrar edə bilməyəcəyəm... Çünki istəmirəm... Cırcıramalar bir səs salmışdı ki... Getdik, getdik... Ay işığında hovuz kimi parıldayan meydanlardan ağacların qaranlıqlarına girirdik. Sonra yenə meydanların aydınlığına çıxırdıq. Sonra yenə qaranlıqlar...

– Sizin bağça nə böyükdür, Fəridə?

Mən bir saxtalıq etməkdən qorxurdum.

– O qədər də böyük deyil, axı biz yavaş-yavaş gedirdik, – deyib sözümə davam etdim. – Nəhayət, bağçanın axırına gəlib çatdıq... Bağçanın qurtardığı yerdə budaqları qonşunun divarından aşmış böyük çinar var... Onun altına çatıb durduq... Mən barmaqlarımın ucuna qalxıb özümü elə göstərdim ki, guya qonşu bağçaya baxıram... Xalaoğlum əllərini ovuşdururdu... Nə isə etmək istəyirdi... Amma cürəti çatmırdı.

– Madam ki, sənin üzün bağçaya sarı dönmüşdü... Bunları necə görürdün?..

– Xalaoğlumun kölgəsi divara düşmüşdü, ondan bilirdim.

Mən rolumu yəqin çox yaxşı oynayırdım, çünki bunları danışanda bədənim titrəyir, səsim tutulur, gözlərim yaşla dolurdu...

– Sonra, sonra, Fəridə?

– Sonra... Xalaoğlum birdən-birə biləklərimdən tutdu...

– Ah, nə gözəldir, sonra?..

– Sonrası... Nə bilim...

– Aman Allah, ən gözəl yerində kəsirsən...

– Sonra ağacdan bir quş ötməyə başladı... Qaba, çirkin bir quş... Biz qorxduq, qaçdıq...

Daha göz yaşlarımı saxlaya bilmədim, başımı Mişelin köksünə qoyub hıçqıra-hıçqıra ağladım. Bu ağlamanın nə qədər sürəcəyini bilmirdim... Yaxşı ki, yoldaşlarımız Mişellə mənim yox olduğumuzu başa düşdülər... Bağıra-bağıra bizi axtardılar. Mişel də onlara səs verdi:



– Gəlirik, – dedi, – yeyin gedə bilmirik... Çalıquşunun ayağı ağrıyır...

– Düzdür, Mişel... Mən də elə onun üçün ağlayıram... İndi daha yeyin gedə bilərik.

Mən o gecə hamı yatdıqdan sonra yatağımda da ağladım. Amma bu səfərki göz yaşlarım rol üçün deyil, öz-özümə acığım tutduğu üçün idi. Madam ki, yoldaşlarıma bir gourde olmadığımı isbat üçün bir yalan uydurmağa qərar vermişdim, dünyada başqa adam qəhətdi ki, öz xalaoğlumu – dünyada ən iyrəndiyim bir insan olan Kamranı göstərmişdim? Öz-özümə and içdim ki, sabah oyanan kimi Mişelin əllərindən tutub bir bucağa çəkəcəyəm, axşamkı sözlərimin yalan olduğunu deyəcəyəm.

Amma nə çarə ki, ertəsi sabah oyandığım zaman, acığım da, utancaqlığım da tamamilə keçib getmişdi.

Mənə həmişəkindən fərqli nəzərlərlə baxan və bir dəstə uşaq kimi rəftar edən Mişelə həqiqəti söyləməyə cəsarət edə bilmədim.

Nağıl yavaş-yavaş yoldaşlarımın arasında yayıldı. Mişel onlara yəqin möhkəm tapşırıbmış ki, heç kəs mənə bir şey söyləmirdi. Amma baxışlarından, gülüşlərindən nə demək istədiklərini anlayırdım. Bu, mənə qəribə bir qürur verirdi. Bir müddət çərənçiliyi, dəcəlliyi buraxmağa məcbur oldum. Artıq hamının gözündə xalaoğlusunu sevən bir gənc qız idim. Bu vəziyyətdə bir adama uşaq kimi hoppanmaq, sıçramaq, dəcəllik etmək yaraşmazdı.

Bununla bərabər, necə deyərlər, qanla gələn candan çıxmaz, axşamüstüləri son tənəffüsdə Mişelin qolundan asılaraq ona alçaqdan yeni nağıllar uydurub söyləyəndə, arabir yenə şeytana aldanıb yalan danışardım.

Bir gün yenə çöl gəzintisindən qayıdırdıq.

O gün nədənsə bizimlə gəzməyə getməyən Mişel məni qapıda qarşıladı, əlimdən tutub qaça-qaça bağçanın bir guşəsinə apardı.

– Sənə söyləməli sözüm var, – dedi, – həm sevinəcək, həm də qüssələnəcəksən.

– !!??

– Bu gün sənin sarışın xalaoğlun məktəbə gəlmişdi.

– ...

– Şübhəsiz sənin üçün... Kaş sən də mənimlə qalaydın.
İnanmırdım ki, böyük bir səbəb olmadan Kamran məni görməyə gəlsin!.. Yəqin Mişel səhv etmişdi.
Bununla bərabər bu şübhəni ona söyləmədim. Yalandan özümü inanan kimi göstərərək dedim:
– Gənc oğlanın sevişdiyi bir qızı görməyə gəlməsindən təbii nə ola bilər?
– Burada olmadığına heyifsilənirsən, deyilmi?
– Yəqin.
Mişel yanağımı oxşayıb dedi:
– Söz yox ki, o, yenə gələr; madam ki, sevir...
– Əlbəttə...
Elə həmin axşam yeməkdən sonra Matilda bacı məni çağırdı, zərli ip ilə bir-birinə bağlanmış rəsmli iki şəkər qutusu uzadıb dedi:
– Bunları sənə xalan oğlu gətirdi.
Matilda bacını heç vaxt xoşlamazdım. Amma o, qutuları mənə uzadanda boynuna sarılıb yanaqlarını öpməkdən özümü güclə saxladım.
Demək, Mişel səhv etməmişdi. Məktəbə gələn xalaoğlumdu. Yoldaşlarım arasında nağılımın doğru olduğuna şübhə edən varsa, onlar da bu iki qutunu görəndə, fikirlərini dəyişdirməyə məcbur olacaqdılar. Çox gözəl!
Qutularımın biri rəngbərəng likörlü konfetlərlə, biri də bəzəkli varaqlara sarınmış şokoladlarla dolu idi. Üç-dörd ay əvvəl olsaydı, onları ən yaxın yoldaşlarımdan da bərk-bərk gizlədərdim. Amma o gecə mütaliə saatında qutularım əldən-ələ sinfi gəzir, insaflarının dərəcəsinə görə uşaqlardan kimi bir, kimi iki, kimi də üç konfet götürürdü.
Bəziləri uzaqdan mənə mənalı işarələr edirdilər. Mən utanırammış kimi başımı yana çevirir, gülürdüm. Çox gözəl!
Mişel təəssüf ki, ancaq zərli dibi görünən qutularımı mənə qaytaranda, pıçıldayıb dedi:
– Bu qutular lap nişan şəkəri qutularıdır, Fəridə!
Nağılım mənə bir az baha oturmuşdu, amma nə edəsən!
Üç gün keçdi. İmtahan üçün boyalı bir coğrafiya xəritəsi hazırlayırdım. Boya işləri mənim əlimdən gəlməzdi. Bir az yöndəmsiz olduğum üçün, tez-tez rəngləri bir-birinə qarışdırar, əllərimi və dodaqlarımı boyayardım. O gün mən yenə bu halda çalışanda, qapıçının qızı sinfə girdi, məni görmək üçün gələn xalaoğlumun görüş otağında gözlədiyini xəbər verdi. Yadımdadır, nə edəcəyimi bilməyib, ətrafıma və kürsüdə oturan müəllim bacıya çaşqın-çaşqın baxmağa başladım.



O dedi:
– Dur, Fəridə, xəritələrin qoy qalsın... Qonağını gör.
Xəritələri qoyum qalsın, bu çətin deyil... Bəs qonağı hansı sifətlə görməyə gedim?
Yanımdakı yoldaşım önlüyünün cibindən xırdaca bir ayna çıxardıb gülə-gülə mənim önümə qoymuşdu.
Üzüm, ağzım yaman gündə idi. Yazı yazanda qələmi ağzıma soxduğum kimi, indi də fırçanı ağzıma soxmuşdum. Dodaqlarım cürbəcür – sarı, qırmızı, bənövşəyi rənglərə boyanmışdı. Bunları nə yaylıqla, nə də su və sabunla təmizləməyə imkan var idi, baş qoşsam sifətimə daha da yayacağımı bilirdim.
Kamrana o qədər əhəmiyyət vermirdim. Təbii ki, onun qarşısına hansı sifətlə istəsəm çıxardım. Amma gələnin kim olduğunu bilib gizlin-gizlin baxan yoldaşlarımın gözündə mən sevişən, hətta nişanlanmağa hazırlaşan bir qız vəziyyətində idim. Allah bu nağılın cəzasını versin!
Koridordan çıxanda, gözümə dəyən bir ayna təşvişimi lap artırdı. Yenə, görüş otağının qabağı boş olsaydı, bəlkə heç içəri girməzdim. Amma nə edim ki, orada mənim bu hərəkətimə başqa məna verə bilən adamlar gəzişirdi.
Nə edək, daha olan olmuşdu. Qapını sürətlə açıb içəri atıldım. Kamran pəncərənin yanında ayaq üstə durmuşdu. Dümdüz ona tərəf getsəm, yəqin ki, bir-birimizə əl verməк lazım gələcəkdir və xalaoğlumun qadın əli kimi təmiz yaraşıqlı əllərini yaş əllərimlə bulayacaqdım.
Gözümə stolun üstündə yenə zərli iplərlə, bir-birinə bağlı paketlər dəydi. Bunları mənim üçün gətirdiyini bildim. Daha işi hay-küyə salmaqdan, əllərimin, dodaqlarımın boyalarını bir uşaq dəliliyi pərdəsi altında gizlətməkdən başqa çarə yox idi. Qara önlüyümün ətəklərini tutaraq qutuların önündə dəbdəbəli və uzun bir reverans elədim. Sonra barmaqlarımı ətəyimə silib, qutulara əlimlə tez-tez bir neçə öpüş göndərdim, bununla dodağımdakı boyalar bir qədər getmiş oldu.

Kamran gülərək mənə yaxınlaşdı.
Ona dil-ağız etməyə başladım.
– Bunlar nə böyük iltifatlardır, Kamran bəy əfəndi, – dedim. – Hərçənd şokoladlar, likörlü konfetlər susmağımın haqqıdır, amma hər halda adam utanır... Dünənki qutuda bir növ likörlü konfet vardı, inşallah onların bacılarına bu yeni qutularda da təsadüf etmək mümkün olar... Amma, doğrudan da, çox yaxşı konfetdir, tərifləməklə başa gələn deyil. Adam onları ağzında əridəndə, ürəyi də onlarla bərabər əriyir.
Kamran deyir:
– Bu səfər zənn edirəm ki, daha qiymətli bir şey görəcəksən, Fəridə?
Onun göstərdiyi qutunu qondarma bir təşviş və səbirsizliklə açdım, içindən iki bəzəkli kitab çıxdı. Bunlar Yeni il bayramında kiçik uşaqlara hədiyyə edilən rəsmli uşaq nağıllarına oxşayırdı. Xalaoğlum hər halda anlamadığım bir səbəbə mənimlə əylənmək istəyirmiş. Əgər, doğrudan da, yalnız bunun üçün zəhmət çəkib buraya gəlibsə, bu yaxşı iş deyil... Görəsən ona kiçik bir dərs vermək zamanı gəlmişdirmi? Bilmirəm, amma özümü saxlaya bilmədim; rəngə batmış dodaqlarıma yaraşmayan bir ciddiyyətlə dedim:
– Hədiyyələrin hər növü üçün təşəkkür etmək lazımdır. Amma icazə verin, sizi bir azca məzəmmət edim... Bir neçə il əvvəl siz də bir uşaqdınız... Hərçənd o vaxtlar özünüzü ağır və ciddi aparmaqla böyük adamlara bənzədərdiniz, amma hər necə olsa, bir uşaqdınız, elə deyilmi? Siz, maşallah, ildən-ilə böyüyüb, şəkilli romanların qəhrəmanlarına bənzər bir gənc olduğunuz halda, bəs mən niyə daim yerimdə sayıram?
Kamran heyrətlə gözlərini açdı:
– Bağışla, Fəridə, – dedi, – anlaya bilmədim.
– Anlaşılmayan bir şey yoxdur. Yəni siz böyüyürsünüz, bəs mən nə səbəbə "Güllü kitabxana" nağılları oxuyan bir körpə kimi qalıram, heç vaxt öz vəziyyətinə görə, yəni on beş yaşına girmiş bir qız rəftarına layiq görülmürəm?
Kamran çaşqın-çaşqın üzümə baxmaqda davam edirdi:
– Yenə anlamadım, Fəridə!
Özümü kütlüyə heyrət edən kimi göstərib dodaqlarımı büzdüm. Düzünə qalsa, nə demək istədiyimi mən özüm də anlamamışdım. Etdiyimə peşman olub, izahatdan can qurtarmağa bir yol axtarırdım.



Bu dəfə sinirli bir hərəkətlə ikinci qutunun bağını qırdım. Burada likörlü konfetlər vardı.
Kamran, demək olar ki, rəsmi bir tövrlə azca əyildi:
– Daha sizinlə boya-başa çatmış, yetişmiş bir gənc qız kimi rəftar etmək lazım gəldiyini öz ağzınızdan eşitmək məni çox bəxtiyar etdi, Fəridə, – dedi. – Kitablar üçün sizdən üzr istəməyi lüzum görürəm, çünki konfetlər isbat edir ki, kitablar əslində zarafatdan başqa bir şey deyildir. Məqsədim sizə kitab gətirmək olsaydı, bəlkə o bayaq dediyiniz romanlardan da seçə bilərdim.
Kamranın bu davranışı, bu sözləri, yəqin ki, istehza idi. Amma belə də olsa, onun qarşımda bu səslə, bu cür danışması xoşuma gəlirdi.
Cavab verməyə məcbur olmamaq üçün, əllərimi dua vəziyyətində bir-birinə qovuşdurub heyran qalmış adam rolu oynayırdım. O, sözünü qurtaran kimi üzünə baxdım; gözlərimə düşən saçlarımı başımın hərəkətilə arxaya verərək dedim:
– Nə söylədiyinizi dinləyə bilmədim, konfetlər o qədər gözəldir ki... onları görəndən sonra incikliyim keçdi, barışdıq, çox sağ ol, Kamran.
Sözlərini dinləmədiyimi zənn etmək, yəqin ki, ona toxunmuşdu. Bununla bərabər, o da, nədənsə bunu mənə sezdirmək istəmədi. İçini çəkərək özünü yalandan acıqlı göstərib dedi:
– Nə edək, madam ki, uşaq hədiyyələri qəbula keçmir, daha bundan sonra böyük adamlara məxsus ciddi şeylərlə xatirinizi xoş edərik.
Mən indi özümü elə göstərirdim ki, guya ancaq konfetlərimlə məşğulam. Bir cavahirat sandıqçasını seyr edən kimi, sevinclə qutuya baxır, içindən çıxardığım şəkərləri şəkilli kağızın üstünə düzür, həm də çərən-pərən danışırdım.
– Bunları yemək də bir ustalıq istəyir, Kamran. Həm də bu sənəti sizin aciz qulunuz olan mən kəşf etmişəm. Bax, məsələn, bu sarını sən qırmızıdan sonra yeməkdə bir zərər görməzsən, deyilmi? Amma, yox heyifdir! Çünki qırmızı həm çox şirindir, həm də bir az nanəlidir. Onu əvvəlcə yesən, sarının o zərif ləzzətini, o şairanə ətrini hiss eləməzsən, heyif olub gedər! Ah, canım şəkərlər...
Şəkərlərdən birini götürüb ağzıma yaxınlaşdırdım. Quş balasını sevən kimi onu oxşayıb, onunla az qala danışırdım.
Xalaoğlum əlini uzatdı və dedi:
– Onu mənə ver, Fəridə.

Qəribə bir nəzərlə üzünə baxdım:

– Bu nə deməkdir?

– Yeyəcəyəm.

– Qutunu sənin yanında açmaqda, yəqin ki, səhv etdim. Gətirdiklərini özün yeməyə başlasan, daha nə oldu...

– Bircə onu ver.

Doğrudan da, bu nə deməkdi! Adam başqasının ağzına dəymiş bir şeydən iyrənməmək üçün gərək... Nələr düşünürəm!

Bir saniyə çaşbaş olub qalmışdım ki, xalaoğlum birdən-birə əlini uzatdı, konfeti qapmaq istədi. Amma mən daha cəld tərpəndim. Şəkəri gizlədib dilimi çıxartdım.

– Əvvəllər siz əldən bu cür zirək deyildiniz. Bunu hardan öyrəndiniz? – deyə ona sataşdım. – Baxın, mən belə gözəl konfetin ləzzətlə yemək qaydasını sizə öyrədim, ondan sonra qapın...

Başımı bir az arxaya ataraq təkrar dilimi çıxartdım, konfeti üzərinə qoydum. Şəkər yavaş-yavaş əridikcə başımı sağa-sola əyir, dilim sərbəst olmadığından şəkərin çox ləzzətli olduğunu ona işarələrlə bildirirdim.

Xalaoğlum qəribə bir çaşqınlıqla ağzıma baxırdı, odur ki, özümü saxlaya bilməyib gülməyə başladım.

Sonra təkrar ciddiləşdim, qutunu ona uzadaraq dedim:

– İndi daha yeməyi öyrəndiyiniz üçün, bir dənə götürə bilərsiniz.

Kamran yarı zarafatyana bir hiddətlə qutunu itələyib:

– İstəmirəm, – dedi, – hamısı sənin olsun.

– Bunun üçün də mersi.

Aramızda demək olar ki, daha danışmalı bir şey qalmamışdı. Ədəbərkan xatirinə evdəkilərin əhvalını soruşduqdan və onlara xoş arzularımı göndərdikdən sonra, qutularımı qoltuğuma vurub çıxmağa hazırlaşırdım.

Birdən-birə görüş otağının yanındakı otaqdan yavaşca bir tıqqıltı gəldi. Pişik kimi qulaqlarımı şəkləyib durdum.

Məktəb lövhələrinə və xəritələrə məxsus olan bu otağın qapısı bir az əvvəl açılmışdı. Sonra lövhələrdən birinin yerə düşməsinə bənzər bir səs eşitmişdim. İndi də aradakı şüşəli qapının arxasından siçan tıqqıltısına bənzər bir tıqqıltı və hərəkət hiss edirdim.

Xalaoğlumdan gizlin, bu qapıya sarı gözaltı baxanda, nə görsəm yaxşıdır! Tutqun rəngli şüşənin arxasında bir baş kölgəsi... Dərhal işi



başa düşdüm. Bu, Mişel idi. O, xəritə lazım olduğunu söyləyərək, maymaq bacını aldadıb görüş otağının yanındakı otaqdan bizi güdməyə gəlmişdi.

Kölgə yox olmuşdu. Amma qapının açar yerindən bu qızın bizi güddüyünə heç şübhəm yoxdur. Nə edəcəkdim? Kamranla mən bir-biri ilə sevişən iki adam olduğumuzdan, o bizdən mütləq, fövqəladə bir şey gözləyirdi. Mənim xalaoğluma: "Yaxşı yol, evdəkilərə salam de", – deyib maymaq-maymaq qapıdan çıxdığımı görsə, hər şeyi başa düşəcək, koridorda başımı qucaqlayıb saçlarımı qarışdıraraq gülə-gülə deyəcəkdi: "Deməli, mənə nağıl danışmışdın, hə?"

Bu qorxu məni bir anda hiylə işlətməyə məcbur etdi. Bu yaxşı şey deyildi, amma madam ki, bir rol oynamağa başlamışdım, axıra çatdırmalı idim.

Mişel məktəb yoldaşlarımın çoxu kimi türkcə bilmirdi. Deməli, söyləyəcəyimiz sözlərin əhəmiyyəti yox idi. Səs və hərəkətlərimiz sevişən iki adamın hərəkətlərinə bənzəsə kifayət idi...

Kamrana dedim:

– Az qala unutmuşdum, süd nənəmin nəvəsi köşkdədirmi?

Süd nənəmin nəvəsi illərdən bəri köşkdə böyüyən bir yetimdi.

Kamran sualıma çaşmış kimi olub:

– Əlbəttə, köşkdədir, – dedi. – O hara gedəcək ki?

– Təbii... Bilirəm... Yalnız... Nə bilim... Mən bu uşağı o qədər sevirəm ki...

Xalaoğlum gülümsündü:

– Bu hardan çıxdı? – dedi. – Biçarənin heç üzünə də baxmazdın...

Qəribə bir hərəkətlə dedim:

– Üzünə baxmamaq nə isbat edir ki, əzizim? Onu sevmirəmmi? Heç də yox!.. Əksinə, mən bu uşağı o qədər sevirəm ki...

Bu "sevirəm" kəlməsini Ya Dam o kamelya[1] rolu oynayan bir aktrisa kimi boynumu bükərək əllərimi köksümdə qovuşduraraq təkrar edir, arabir gözaltı qapıya baxırdım.

Mişel altı kəlmə türkcə bilirsə, bunların üçü mütləq "sevmək, sevgi, sevda" kimi sözlər olacaqdı. Bununla bərabər bu zənnimdə yanılmış olsaydım da, o hər halda lüğətə baxa bilər, yaxud da "sevirəm ki" kəlməsinin mənasını türkcə bilən bir adamdan soruşub

[1] "Kameliyalı qadın" – fransız yazıçısı A.Dümanın (oğul) dramı

öyrənərdi. Yalnız bu rolu təkcə Mişelin qarşısında deyil, Kamranın qarşısında da yaxşı oynamaq lazımdı. Bu ikinci cəhəti deyəsən bacarmamışdım, çünki Kamran sözlərimə də, hərəkətimə də gülməyə başladı.

– Bu, birdən-birə hardan ağlına gəldi, Fəridə? – dedi.

Hardan ağlıma gəlirsə gəlsin, bu haqda fikirləşməyin yeri deyildi. Odur ki, həmin coşqunluqla dedim:

– Neyləyim, belədir... Sevirəm, vəssəlam! Mənə bir şey vəd etməlisən... Evə gedən kimi mənim tərəfimdən bu yazıq uşağa bir suvenir olaraq, bir suvenir olaraq... Bildinmi, bir suvenir d'amoure[1] olaraq...

Süd nənənin nəvəsinə aparmaq üçün Mişelin gözü önündə Kamrana bir şey verməyi nə qədər istərdim. Amma ciblərimdən tərs kimi axşam mütaliəsində mürgüləyən qoca bacıya atmaq üçün büküb hazırladığım kağız parçalarından başqa bir şey çıxmırdı. Amma çarəsizlik mənə bundan daha yaxşı bir şey öyrətdi. Birdən Kamranın əllərindən tutdum, özümü elə göstərdim ki, guya qucağına atılacağam, dedim:

– Bu uşağı mənim əvəzimdən qucağına alarsan, yanaqlarından, gözlərindən öpərsən, bildinmi?.. Bunu mənə vəd edirsən də!

Kamranla, demək olar ki, qucaq-qucağa bir vəziyyətdəydik. Nəfəslərimiz bir-birinə qarışırdı. Heç bir şeydən xəbəri olmayan yazıq xalaoğlum bu coşqunluğa bir məna verə bilmirdi, çaşıb qalmışdı.

Rol müvəffəqiyyətlə oynanıb bitmişdi. Daha pərdə salına bilərdi. Kamranın əllərini buraxaraq, tövşüyə-tövşüyə özümü bayıra atdım. Mişelin koridorda mənə çatıb boynuma sarılacağını gözləyirdim. Ətrafda bir səs eşitməyib durdum, döndüm, yavaş-yavaş xəritələr olan otağın qapısına sarı yönəldim. İçəridə bir hənirti, bir səs eşitməyib qapını aralamaqdan özümü saxlaya bilmədim. Nə görsəm yaxşıdır?! Hərdən bizə musiqi dərsi verməyə gələn qoca Frer Ksavye titrək ayaqları ilə skamyanın üstünə çıxıb bir dolabın yuxarı gözlərində nota dəftərləri axtarır...

Tfu-u-u-u, Allah cəzasını versin!.. Mən onu Mişel bilib boş yerə özümü Kamranın yanında rüsvay etmişdim!

Qızdırmalı xəstələr kimi, üzümün od tutub yandığını hiss edirdim. Sinfə girmək yerinə bağçaya çıxdım. Hovuzun önünə gedib kranı açdım, başımı suyun altına tutdum.

[1] Suvenir d'amoure – məhəbbət yadigarı (*frans.*)



Vücudumda istiliklə bərabər qəribə bir titrəmə də vardı.

Krandan gələn su saçlarımdan, üzümdən axaraq, köynəyimin içinə süzüldükcə düşünürdüm ki, "sevginin eləcə oyunu adamı bu cür titrəmə-qızdırmaya salarsa, bəs onda görəsən sevgi özü necə şeydir?!"

O il Kamran dəfələrlə məktəbimizə gəldi. Belə ki, hər qapı açılanda ürəyim çırpınırdı, elə bilirdim məni görüş otağına çağırmağa gəlirlər. Deyə bilərəm ki, bütün sinif onun mənə gətirdiyi şokoladlarla, peçenyelərlə, cürbəcür şirniyyatla keçindi.

Çalışqanlığı qədər qarınquluğu ilə də məşhur olan sinif yoldaşlarımdan Mari Pırlantaciyan şəkərlərimi iri ağ dişləri ilə çeynəyəndə gizlədə bilmədiyi bir həsrət və heyranlıqla deyərdi:

– Gör səni nə qədər sevir ki, eşqbazlıq üçün gələndə bu qədər gözəl şeylər gətirir!

Bununla bərabər bu nağıl məni artıq bezdirməyə başlamışdı. Bəzən öz-özümə düşünürdüm: çərənçi bir uşağa susmasının haqqı olaraq gətirilən bu şeyləri mənim öz yoldaşlarıma başqa cür göstərməyim vicdansızlıq deyildimi? Həm də bu Kamran axı nə üçün məktəbə belə tez-tez gəlirdi? Hər dəfəsində də: "Bu tərəflərdə yaşayan bir xəstə yoldaşımı yoxlamağa gəldim...", "Təqsim bağçasında[1] bir az çalğı dinləmək istədim..." kimi səbəblər söyləyirdi.

Heç bir şey soruşmadığıma baxmayaraq, yenə bir gün dedi:

– Nişantaşıda[2] atamın bir köhnə yoldaşını görməkdən qayıdırdım... Atamın çox sevdiyi bir adamdı...

Özümü saxlaya bilməyib qəflətən bir neçə sual verdim:

– Adı nədir? Nə iş görür? Ünvanı nədir?

Xalaoğlum çaşıb qaldı; özünü o qədər itirdi ki, nə uydurma ad, nə də ünvan tapa bildi. Rəng alıb, rəng verərək gülə-gülə: "Nəyinə gərəkdir? Niyə belə maraqlanırsan?" – kimi sözlərlə yaxasını qurtarmaq istədi.

Mən özümü elə göstərdim ki, guya bu çox əhəmiyyətli məsələdir.

– Həftə başında xalamdan soruşaram, – dediyim zaman isə, o, daha çox qızardı.

– Gözlə ha! Anama ondan danışma... Çünki onunla görüşməyimi istəmir, – deyə yalvarmağa başladı.

[1] Təqsim bağçası – İstanbulda gəzinti-əyləncə yeri
[2] Nişantaşı – İstanbulda bir məhəllə

Hiyləgər əqrəb, öz ağlınca guya məni aldadacaqmış... Mən sənin ciyərinin içinə də bələdəm!

Hiddətlə ayağa qalxdım, zorla tutmağa çalışdığı əllərimi ciblərimə qoyub:

– Ya atanızın dostları ilə, ya da öz dostlarınız ilə maraqlandığımı zənn edirsinizsə, yanılırsız... Bu sözü elə nahaqca yerə dedim, vəssəlam! – deyə otaqdan çıxdım.

O gündən sonra Kamran hər dəfə məktəbə gələndə, bir bəhanə uydurdum, yanına getmədim. Gətirməkdə davam etdiyi qutuları sinifdə, yaxud bağçada açır, içindəkilərinin bircəsinə də əl vurmadan uşaqlara paylayırdım.

Həqiqət aşkar idi. Görünür ki, o xoşbəxt dul qadın bu tərəflərdə yaşayırdı. O gecədən sonra yəqin bir-biriləri ilə razılaşmışdılar. Xalaoğlum tez-tez onun evinə gedir, arada mənə də baş çəkirdi.

İstədikləri əxlaqsızlığı etsinlər... Mənə nə! Amma məni arada oyuncaq etmələri yaman acığıma gəlirdi. Bu yadıma düşdükcə vücudum od tutub, hiddətdən ağlamamaq üçün dişlərimlə dodaqlarımı qanadırdım.

Nərimanın harada yaşadığını evdən soruşub öyrənmək çox asan idi, amma bu qadının adını ağzıma almaq mənə dözülməz bir şey kimi görünürdü.

Bir tətil günü evə getmişdim. Qonağımız Nəcmiyyəyə dedi:

– İki gün əvvəl Nərimandan bir məktub almışam, çox xoşbəxtdir...

Mən kiçik bir fino[1] köpəyini hovuzda çimdirmək üçün bayıra çıxırdım. Bu sözləri eşidəndə qapının yanında durdum, çöməlarək köpəyi yavaşca yerə qoydum.

Xoşbəxt dul qadın barəsində bir şey soruşa bilməzdim, amma qulağımla eşitmək də qadağan deyil ki!..

Qonaq sözünə davam edib deyirdi:

– Nəriman ərindən çox razı görünür, barı yazıq bu dəfə xoşbəxt olaydı!..

Nəcmiyyə bir hamam günbəzinə düşən səs kimi səs çıxardıb:

– Hə, hə. Yazıq, barı bu səfər xoşbəxt olaydı, – deyə qonağın sözlərini axmaq-axmaq eynən təkrar edib söhbəti qurtardı.

Daha iş-işdən keçmişdi. Mən, eləcə zarafatçı bir tövr ilə dedim:

– Xanım əfəndi təkrar ərə getdilərmi?

[1] Fino – pudel cinsindən xırdaca it



– Hansı xanım əfəndi?

– Məktubunu aldığınız xanım. Nəriman xanım.

Qonağın yerinə Nəcmiyyə cavab verdi:

– Xəbərin yoxdurmu? Çoxdan... Nəriman bir mühəndisə getdi... Beş-altı aydan bəri əri ilə bərabər İzmirdədir...

"Yazıq, barı bu səfər xoşbəxt olsun!.." – duasını onlardan sonra da mən təkrar etdim və iti qucağıma alaraq bayıra yüyürdüm. Amma daha hovuza tərəf getmədim, çəpərin kötükləri üstündən atılaraq yüyürür, bağçanın ətrafında hərlənirdim.

O yay səyahətə çıxdım. Ancaq uzağa yox, Tekir dağına[1] getdim... Məlumdur ki, həyatda Allah mənə xaladan bol heç nə verməmişdir. Bunlardan biri də Tekir dağında yaşayırdı. Onun əri Əziz əmi çoxdandı ki, o yerlərdə mütəsərrifdi...[2] Müjgan adında məndən üç yaş böyük bir qızları da vardı. Qohumlarımızın uşaqları arasında deyəsən hamıdan çox onu sevirdim.

Müjgan çirkin idi. Amma bunun mənə heç dəxli yox idi. Aramızdakı fərqin üç yaşdan ibarət olmasına baxmayaraq, nədənsə mən onu lap uşaqlıqdan həmişə yaşlı bir adam sayırdım. İndi ikimiz də yekəlmişdik, lakin bununla belə mən yenə də onu böyük bilirəm və "abla"[3] deyə çağırıram.

Müjgan abla mənim tamamilə əksim idi. Mən nə qədər dəlisov və dəcəldimsə, o bir o qədər ağırdı, üstəlik hələ müstəbiddi də. Hər istədiyini mənə elətdirən, deyə bilərəm ki, yalnız o idi. Bəzən nəsihətlərinə acığım tutsa, arzularına qarşı dikbaşlıq etsəm də, nəticədə həmişə ona tabe olurdum... Nə üçün? Səbəbini bilmirdim. İnsan birini sevmək fəlakətinə düşdümü, həmişə ona əsir olur.

Müjgan iki-üç ildən bir Ayşə xalamla bərabər İstanbula gəlir və bir neçə həftə köşkdə, yaxud o biri xalalarımgildə qonaq qalardı.

O yay Tekir dağından mənə, demək olar ki, rəsmi bir dəvətnamə gəldi. Ayşə xalam Bəsimə xalama yazdığı məktubda deyirdi: "Sizə ümidim yoxdur. Amma Fəridəni iki aydan az olmamaq şərti ilə, bu tətildə mütləq gözləyirik. Məlumdur ki, biz də xalayıq. Gəlməsə, əmisi də, Müjgan da yaman inciyəcəyik".

[1] Tekir dağı – İstanbulun yaxınlığında bir yaylaq
[2] Mütəsərrif – nahiyə rəisi, məmur
[3] Abla – böyük bacı

Bəsimə xalamla Nəcmiyyə Tekir dağını dünyanın o biri başı hesab edirdilər, uzaq ulduzlara baxırlarmış kimi, gözlərini qıyaraq deyirdilər: "Heç elə şey olar. Buna imkan varmı?"

Mən istehzalı bir hörmətlə qarşılarında əyilib dedim:

– İcazə versəniz, bunun imkansız bir şey olmadığını isbat edib şərəfyab olaram.

Yoldaşlarımdan bəziləri yay tətillərində ailələri ilə bərabər bir səyahətə çıxır, qayıtdıqda hey öyünürdülər. Demək, məktəb açıldığı zaman, mənə də belə bir şey etmək nəsib olacaqdı.

Bir il əvvəlki eşqbazlıq nağılına bu il bir səyahət hekayəsi əlavə etmək mənə ləzzət verəcəkdi. Amma mənim arzum romanlarda oxuduğum amerikan qızları kimi çantamı əlimə alaraq tək paroxoda minib getmək idi. Xalalarım isə, bu arzumu təşvişlə, hay-küylə qarşıladılar və mənə bir keşikçi qoşulmadan, yola çıxmağa icazə vermədilər. Özləri də: "Qaranlıqda göyərtədən dənizə əyilmə... Heç kimlə danışma... Paroxod pillələrindən dəli kimi düşmə" və başqa nəsihətlərlə könlümə toxundular. Sanki Tekir dağına işləyən çarıq boyda sınıqsalxaq paroxodun bir transatlantik kimi səksən metr pilləkəni varmış... Müjganı iki il olardı ki, görmürdüm. Bu müddətdə Müjgan böyümüş, təmkinli bir xanım olmuşdu. Adam onunla danışmağa da cəsarət etmirdi. Buna baxmayaraq çox tez isnişdik.

Ayşə xalamla Müjganın çoxlu dostları var idi. Mən də onlara qoşuldum.

Gündə bir qonaqlığa, köşkə, yaxud bağa dəvət edilirdik. Mənə demişdilər ki, daha yekə qızsan, əgər yüngüllük etdiyin üçün səni utandırıb qızartsalar, yaxşı düşməz. Odur ki, hərəkətlərimə son dərəcə diqqət edirdim. Yad qadınlarla söhbət edəndə, suallarına ciddi və nəzakətlə cavablar verməyə çalışanda, özümü "qonaq-qonaq" oyunu oynayan uşaqlara bənzədirdim. Bununla bərabər böyüklərlə bir yerdə oturub-durmaq qüruruma xoş gəlirdi.

Bu qonaqlıqlar məni əyləndirirdisə də, yenə ən çox sevdiyim vaxt Müjganla yalqız qaldığım saatlar idi.

Xalamgilin evi dəniz kənarında uca bir yamacın başında idi. Müjgan abla bəzi yerləri hündür bir divara bənzəyən bu dik yamacdan hoppanaraq sahilə enməyimi görüb qorxmuş və bunu mənə qadağan etmək istəmişdi. Amma sonradan özü də buna alışdı. Saatlarca qumların üstündə uzanır, suların üzərində daş səkirdir, sahil boyunca gəzəgəzə lap uzaqlara gedirdik.



Dəniz bu mövsümdə çox gözəl və sakitdi, amma nəşəsizdi. Bəzən saatlar keçir, üzərində bir yelkən, incə bir tüstü də görünməzdi. Hələ axşamüstüləri suyun səthi ürəyi sıxacaq qədər genişlənir və yalqızlaşırdı. Yaxşı ki, mən təhlükəni əvvəlcədən hiss edir, sahildəki qayaları qəhqəhələrimlə səsləndirirdim.

Bir gün Müjganla lap uzaqdakı bir buruna sarı getmişdik. Məqsədimiz bu burundakı qayaların o biri tərəfində olan körfəzə keçmək idi, amma tərs kimi sahili su basmışdı. Ayaqqabılarımızı çıxarıb suya girməkdən başqa çarə yox idi. Mən özlüyümdə bu məcburiyyətə sevinirdim də, amma boya-başa çatmış, yetişmiş bir kiçik xanım olan Müjgan nə etsin?

Ona tuflilərini və corablarını heç cürə çıxartdıra bilməyəcəyimi yəqin etdiyimdən belə bir təklif irəli sürdüm:

– Müjgan abla, gəl səni dalıma alım... keçirdim.

O razı olmayıb dedi:

– Dəlinin biri, mən boyda bir adamı necə qaldırarsan!

Yazıq Müjgan həm yaşca, həm də boyca məndən böyük olduğu üçün elə güman edirdi ki, onu aparmağa gücüm çatmaz.

Astaca ona yaxınlaşıb:

– Bir sınayaq görək, bəlkə gücüm çatdı, – dedim və onun qıçlarından yapışıb havaya qaldırdım.

Müjgan əvvəlcə elə başa düşdü ki, mən yalnız gücümü sınamaq istəyirəm. Odur ki, əlimdən qurtarmağa çalışaraq:

– Dəlilik etmə, burax. Sən məni aparıb çıxarda bilməzsən, – deyə gülürdü. Amma çılpaq ayaqlarımla suya girdiyimi görəndə dəli kimi oldu.

– Sən tük kimi yüngülsən, ay abla, – dedim, – əgər çırpınsan, ikimiz də suya yıxılarıq. Amma rahat dursan, heç nə olmaz.

Yazıq qız sapsarı saralmışdı. Bir kəlmə danışsa, müvazinətin pozulacağından qorxurmuş kimi ağzını, gözlərini yumub saçlarımdan bərk-bərk yapışdı.

Yazıq Müjgan bir qarış dərinlikdə suyun üstündən uçurumdan keçən kimi gözlərini yumur, qucağımda tərpənməyə cəsarət etmirdi.

Burnu dönüb nə görsək yaxşıdır?! Quruya çəkilmiş bir sandalın yanında yemək yeyən üç balıqçı bizə baxır!

Müjgan birdən-birə qorxdu. Əllərimi bərk-bərk sıxıb pıçıldadı:

– Axır istədiyini etdinmi, Fəridə? İndi biz neyləyəcəyik?!

Mən gülüb dedim:

– Balıqçılardır da, adamyeyən deyillər ki...

Bizim vəziyyətimiz, doğrudan da, qəribə idi. Əlalxüsus mən, dizlərimə qədər çılpaqdım, corablarım əlimdə idi, belə ki, adam arasına çıxmalı bir halda deyildim.

Müjgan incə ayaqları ilə, süpürgədən qaçan hörümçək kimi qaçmağa hazırlaşırdı. Mən qorxmağı ayıb bildim, özümü o yola qoymayıb, balıqçılarla saymazyana danışmağa başladım.

Suyun o gün nə üçün sahili basdığını, hansı saatlarda dənizin hansı tərəfindən balıq tutduqlarını soruşdum. Eləcə, danışmaq üçün yerli-yersiz suallar verirdim...

Balıqçıların ikisi gənc idi, hərəsinin iyirmi-iyirmi beş yaşı olardı, üçüncüsü isə saqqallı qoca idi.

Gənc balıqçılar utancaq görünürdülər. Suallarıma qoca cavab verdi. Ancaq o da, görünür ki, mənim kimi söz tapmağa çətinlik çəkirdi. Odur ki, kim olduğumu soruşdu.

Mən bir az duruxduqdan sonra dedim: "Mənim adım Marikadır, İstanbuldan bura tacir əmimgilə qonaq gəlmişəm".

Müjgan qolumdan çəkdi, o, yüyürə-yüyürə deyirdi: "Allah cəzanı versin... Bu nə iş idi, etdin?!"

Mən cavabında dedim:

– Nə bilim, İstanbuldakı xalalarım mənə bərk-bərk tapşırmışdılar ki, "dilini saxla. Çərən-pərən danışma. Oralar dedi-qoduçu ilə doludur. Qoy balıqçılar deməsinlər: Bu necə müsəlman qızıdır ki, təkcə başını yox, ayaqlarını da açmışdır!

Bir sözlə, qorxaq Müjgan bu boş şeyi yaman şişirtmişdi...

Axşamüstüləri biz Müjganla qol-qola gəzəndə, gənc bir süvari zabitinin ətrafımızda hərləndiyini görmüşdüm. Bu zabit guya atına təlim verirdi. Amma boş yerləri qoyub bizim gəzdiyimiz yoldan gedib-gəlir, yanımızdan keçəndə bizə baxırdı. Həm də o qədər qəribə bir maraqla baxırdı ki, elə bil bu saat durub bizimlə danışacaqdı.

Bir gün o, yenə atını oynada-oynada, bizi divar kənarındakı ağacların arxasına qaçırdıb yanımızdan ötəndən sonra, mən yavaşca gülüb öskürdüm və Müjgana dedim:

– Müjgan abla, başa düşdük də!



Müjgan üzümə baxıb dedi:

– Nə demək istəyirsən, Fəridə?

– Bunu demək istəyirəm ki, daha əvvəlki kimi uşaq deyilik, abla... Zabit bəylə ağıllı-başlı sevişirsiniz.

Müjgan gülməyə başlayıb dedi:

– Mənmi? Dəlinin biri!

– Məni uşaq saymayıb, tay-tuş kimi rəftar etsəniz necə olar, xanım əfəndi?

– Elə zənn edirsən ki, o zabit məndən ötrü dalımızca düşmüşdür?

– Adam gərək maymaq olsun ki, belə zənn etməsin.

Müjgan yenə güldü. Amma budəfəki gülüşdə bir az qəmginlik də vardı. Sonra içini çəkib dedi:

– Əzizim, mən elə bir qız deyiləm ki, ardımca da düşsünlər. O, buralara sənin üçün gedib-gəlir.

– Nə danışırsan, abla?

Gözlərim bərələ qalmışdı.

– Bəli, sənin üçün... Sən gəlməmişdən əvvəl də onu görürdüm. Ancaq məni yolun kənarındakı bu ağaclardan seçmədən keçib gedərdi və bir daha dönməzdi.

O gecə yeməkdən sonra Müjganla evdən çıxıb dinməz-söyləməz dənizə sarı gedirdik.

– Deyəsən sənin bir dərdin var, Fəridə, heç səsin çıxmır, – deyə Müjgan dilləndi.

Bir az sonra duruxduqdan sonra cavab verdim:

– Gündüz söylədiyin yersiz sözləri yadımdan çıxara bilmirəm, ürəyim sıxılır.

Müjgan çaşıb qaldı:

– Mən nə dedim ki?

– Dedin ki, mən elə bir qız deyiləm ki, ardımca da düşsünlər...

Müjgan yavaşcadan güldü:

– Çox yaxşı, amma bundan sənə nə?

Əllərini tutdum, gözlərim yaşla dolu, tutqun bir səslə dedim:

– Sən kifirsənmi, abla?

O yenə güldü, zarafatla yanağıma bir çırtma vurdu:

– Nə kifirəm, nə gözəl... Ortayam deyim, daha mübahisə etməyək... Sən isə bilirsənmi, böyüdükcə lap qəşəngləşirsən!

Əllərimi Müjganın çiyinlərinə qoydum, burnumu burnuna sürtərək dedim:

– Gəl mənə də orta deyək, məsələ qurtarsın getsin.

Yamacın kənarına gəldik. Yerdən daş yığaraq, dənizə atmağa başladım. Müjgan da mənim kimi etdi. Amma yazıq daş atmağı bacarmırdı, qolları da qüvvətsiz idi.

Mənim daşlarım havada gözdən itdikdən sonra uzaqda fosforlu bir parıltı ilə suları ətrafa sıçradırdı; onunkular isə gülünc bir tappıltı ilə yamacın daşlarına dəyir, yaxud aşağı – qumsala düşürdü, biz bərkdən gülürdük.

Ay işığında bərq vuran bir dənizin iki gənc qıza verdiyi ilham bu olmamalıydı, amma nə edək. Bir azdan sonra Müjgan yorulub bir qaya parçasının üstündə oturdu. Mən də ayaqlarının altında çöməldim.

O, məndən məktəb yoldaşlarım haqqında soruşdu. Mən yoldaşım Mişelin bir neçə macərasını danışdım. Sonra xəbərim olmadan, öz barəmdə uydurduğum nağıldan da danışmağa başladım.

Buna səbəb nə idi? Müjgana etdiyim etiraf eləcə boş çərənçilikdimi? Bilmirəm. Amma hərdən bu söhbətin yersiz olduğunu hiss edib susmaq istəyirdimsə də, nədənsə özümü saxlaya bilmirdim.

Əslində Müjgana, yoldaşlarımı uydurma bir nağılla necə aldatdığımı danışırdım. O zaman nağılı uydurarkən yalandan özümü qəmli göstərirdim, indi isə heç bir məcburiyyət olmadığı halda, yenə kefim pozuldu. Səsim yavaş-yavaş titrəyir, gözlərim dolurdu. Müjganın üzünə baxmaqdan çəkinirdim. Gah onun ətəyi ilə, düymələri ilə oynayır, gah başımı dizinin üstünə qoyurdum, həmişə dənizə, uzaqlara baxırdım.

Əvvəlcə nağılımın qəhrəmanı kim olduğunu Müjgandan gizlətməyə çalışdım. Amma sonra onu da ağzımdan qaçırdım.

Müjgan bir şey söyləmir, eləcə əli ilə saçlarımı oxşayaraq məni dinləyirdi.

Sözümü qurtarıb yoldaşlarıma uydurduğum yalanın ayıb olduğunu özümün də anladığımı söylədiyim zaman, Müjgan nə desə yaxşıdır?

– Yazıq Fəridəciyim! Sən, doğrudan da, Kamranı sevirsən!

Mən qışqıraraq Müjganın üstünə atıldım, onu quru otların üstünə yıxıb dartışdırmağa başladım.

– Nə dedin, abla, nə dedin? Mən o hiyləgər sarı əqrəbi?..



Müjgan çapalaya-çapalaya əlimdən qurtarmağa çalışır, tövşüyə-tövşüyə yalvarırdı:

– Burax məni... Üstümü-başımı cırarsan. Görən olar, rüsvay olarıq. Allah eşqinə eləmə!

– Sözünü geri götürəcəksənmi?

– Hə, mütləq götürəcəyəm, – dedi. – Nə istəsən edəcəyəm, burax məni...

– Amma, elə belə xətir üçün yox, məni aldatmaq üçün yox...

– Çox yaxşı, xətir üçün yox... Səni aldatmaq üçün yox... Lap doğrudan...

Müjgan ayağa qalxıb üstünün tozunu çırpa-çırpa dedi:

– Fəridə, sən doğrudan lap dəlisən ki.

Mən yerimdən qalxmamışdım. Tir-tir titrəyirdim.

– Allahdan qorxmayıb, mənə necə iftira edirsən, abla, – deyə dilləndim, – axı mən hələ uşağam.

Sonra da özümü saxlaya bilməyib ağlamağa başladım.

O gecə məni şiddətli bir qızdırma tutdu. Yatağımda heç cür yata bilmir, sayıqlayır, tora düşmüş yekə bir balıq kimi özümü ora-bura çırpırdım.

Yaxşı ki, gecələr qısa idi. Hava açılana qədər Müjgan məni tək qoymadı.

Elə bil bədənimdə nə isə dəyişmişdi. Öz-özümə dəhşətli bir qorxu və sıxıntı duyurdum. Şıltaq uşaq kimi tez-tez Müjganın boynuna sarılır: “Nə üçün elə dedin, abla?” – deyə hıçqırırdım.

O, yəqin ki, mənim yeni hücumumdan qorxduğu üçün, nə “bəli”, nə “xeyr” deməyib eləcə saçlarımı oxşayır, başımı qucağına alıb məni sakitləşdirməyə çalışırdı. Yalnız səhərə yaxın o da əsəbiləşib üsyan etdi, acıqlı bir səslə məni danlayıb dedi:

– Ay dəli, sevmək ayıbdırmı? Qiyamət qopmadı ki... Əvvəl-axır evlənərsiniz, qurtarıb gedər... Di yaxşı, bu saat yat görüm... Mənim belə şeydən xoşum gəlməz!

Müjgan ablamın bu gözlənilməz hücumu qarşısında bu dəfə də mən qorxub çəkildim. Əslində elə bədənimdə də əlləşməyə qüvvət qalmamışdı. Nağıllarda olduğu kimi, bir gecə dağda qurdlar boğuşduqdan sonra, səhərə yaxın küt düşən keçiyə dönmüşdüm.

Mən yuxuya gedəndə, Müjgan xoş bir səslə:

– Yəqin ki, o da sənə laqeyd deyildir, – deyə pıçıldadığını eşitdim. Amma daha üsyan etməyə qüvvətim qalmadığından yuxuya getdim.

Ertəsi gün yerli varlılardan birinin malikanəsinə qonaq çağırılmışdıq.

Həyatımda bu qədər coşub əyləndiyim bir gün olmamışdı.

Ayşə xalamla Müjganı malikanənin hovuzu yanında böyüklərlə dedi-qodu etməkdə qoyub uşaqları qabağıma saldım, ətrafda hər şeyi bir-birinə qatdım. Hətta arada bir çılpaq ata minmək istədim, lakin buna müvəffəq olmadım. Xalamla Müjganın gözünə dəyəndə, onlar əl və başları ilə cürbəcür işarələr edirdilər.

Nə demək istədiklərini çox yaxşı başa düşürdüm, amma mənə sərf etmədiyi üçün özümü görməməzliyə qoyub ağacların arasında gözdən itirdim.

Bəli, on beş yaşında, onların zərif təbirlərinə görə "at kimi" bir qızın başı açıq, ayaqları çılpaq, üst-başı darmadağınıq bir halda işçilər, muzdurlar arasında azğınlıq etməsi ayıbdı. Bunu mən də başa düşür, amma heç cür özümü ələ ala bilmirdim.

Arada Müjganı tək görüb qolundan tutaraq dedim:

– Erməni gəlini kimi ədabazlıq edən bu xanımlardan nə ləzzət alırsan? Gəl mənimlə gedək! Oynayaq!

O demək olar ki, qəzəblənib dedi:

– Gecə sabaha qədər məndə hal qoymusan ki?

Sonra əlavə etdi:

– Sən, doğrudan da, çox qəribə bir məxluqsan, canavar kimi şeysən, Fəridə! Gecə nə halda idin? Səhərə yaxın heç iki saat da yuxulamadan təkrar ayağa qalxdın. Özün də heç yorğun adama oxşamırsan. Rəngin yerində, gözlərin parıldayır. Amma məni gör bir nə hala salıbsan!

Yazıq Müjganın halı, doğrudan da, acınacaqlı idi. Gecəki yuxusuzluqdan sonra üzü, gözlərinin ağına qədər mum kimi sapsarı saralmışdı.

– Gecəni heç xatırlamıram da, – dedim və təkrar qaçdım.

Axşamüstü faytonumuz gəlib çıxmadığı üçün evə piyada qayıdırdıq. Təbii ki, bu daha da yaxşı idi. Malikanə o qədər uzaq deyildi... Xalam öz yaşıdı olan iki qonşusu ilə arxadan gəlirdi. Mən, nəhayət,



bir az özünə gələn Müjganla qol-qola verib xeyli irəlidə gedirdik. Yolun bir yanında uçuq divarlar, dövrəsinə çəpər çəkilmiş bağçalar, o biri yanında böyük bir ümidsizliyə bənzəyən yelkənsiz və dumansız dəniz vardı.

Bağçalarda vaxtsız bir payız başlanmış, divarları, barıları bürüyən yaşıllıqlar qurumuş, tək-tük çöl çiçəkləri toz içində saralıb büzüşmüşdü. Bir-birindən bir qədər aralı olan cılız vələs ağaclarının incə, titrək kölgələri ilə bərabər yolun tozları üzərinə quru yarpaqlar tökülürdü.

Yalnız lap uzaqlarda, özbaşına buraxılmış bağçaların içərilərində qırmızı böyürtkənlər seçilirdi. Yəqin ki, Allah onları çalıquşular dimdikləsin deyə yaratmışdı.

Bu səbəbdən ümidsiz dənizi bir yana buraxıb Müjganın qolundan tutaraq, böyürtkənlərə sarı sürüməyə başladım.

Arxadakılar çanaqlıbağa addımları ilə bizi keçib aşağı – tinin başına çatana qədər, biz səksən dəfə işimizi görüb qurtarardıq.

Amma Müjgan abla insanı darıxdırıb dəli edəcək qədər mızmızı idi. Tarlanın ortası ilə gedəndə gah tuflisinin dabanı burxulur, gah quru taxıl saplaqlarının ayaqlarına batmasından qorxurdu, iki qarışlıq bir xəndəkdən hoppanmaq lazım gəldiyi zaman nə edəcəyini bilmirdi.

Arada üstümüzə xırda bir it hücum etdi. O qədər balaca idi ki, Müjganın əl çantasına yerləşərdi. Müjgan iti görəndə qaçmağa, çığırmağa başladı. Nəhayət, o, böyürtkən yeməkdən də qorxurdu. "Xəstələnəcəksən... Mədən pozulacaq!" – deyə onları əlimdən qapıb atmaq istəyirdi. Hərdənbir yavaşca boğuşurduq. Böyürtkənlər əzilir, üzümüzə yapışır, mənim enli yaxalığıma iki zərli lövbər çəkilmiş ağ maren[1] bluzumu ləkələrlə doldururdu.

Elə güman edirdim ki, arxadakılar bizə yetişənə qədər işimizi qurtararıq, amma mən Müjganla böyürtkən üstündə dava etməklə məşğul olanda, onlar yolun başına çatmışdılar. Lakin tini dönmür, arxaya baxırdılar. Yəqin ki, bizim harada qaldığımızla maraqlanırdılar. Yanlarında bir kişi də vardı.

Müjgan:

– Görəsən bu kimdir? – deyə soruşdu.

– Kim olacaq, – dedim, – ya bir yolçu, ya bir kəndlidir.

[1] Maren – parça növü

– Güman etmirəm.
Düzünə qalsa, mən də bunu çox güman etmirdim. Amma axşamın ala-qaranlığı və yol kənarındakı böyük ağacların kölgələri arasında o qədər də yaxşı seçilmirdi.
Bir az sonra bu kişi bizə əl elədi, sonra onlardan ayrılıb bizə sarı yönəldi.
Çaşıb qalmışdıq. Müjgan dedi:
– Çox qəribədir! Hər halda, yəqin ki, tanışlardan biridir.
Bir az sonra isə həyəcanla əlavə etdi:
– Fəridə, bu Kamrana bənzəyir deyəsən...
– Ola bilməz. Onun burada nə işi var? – dedim.
– Vallah odur, özüdür ki var!
Müjgan ona tərəf yüyürməyə başladı. Mən isə əksinə, addımlarımı daha da yavaşıtdım. Nəfəsimin tıxandığını, dizlərimin kəsildiyini hiss edirdim.
Yolun kənarında durdum. Ayağımı böyük bir daşın üstünə qoyub əyildim, tuflimin bağını açdım, sonra ağır-ağır yenidən bağlamağa başladım.
Üz-üzə gəldiyimiz zaman, mən sakit və bir az da istehzalı bir halda dedim:
– Təəccüblüdür. Siz hara, bura hara... Bu qədər uzun yola necə cürət edib çıxdınız?
O bir şey söyləmir, yad bir adam qarşısındaymış kimi çəkingən bir halda gülümsünüb üzümə baxırdı. Sonra əlini uzatdı.
Mən öz əllərimi o saat geri çəkib arxamda gizlətdim.
– Müjgan abla ilə özümüzə böyürtkən qonaqlığı vermişik, əllərim şirəlidir, üstünə hələ toz da yapışmışdır. Xalalar necədir? Nəcmiyyə necədir?
– Gözlərindən öpürlər, Fəridə.
– Mersi.
– Necə yanmısan, Fəridə... Dərin qıpqırmızı olmuşdur...
– Gündəndir.
Bu arada Müjgan sözə qarışdı:
– Sən də eləsən, Kamran, – dedi.
Özümü saxlaya bilməyib dedim:
– Kim bilir... Bəlkə Ay işığında çətirsiz gəzib?
Gülüşdük və yola düzəldik.



Bir az sonra Ayşə xalamla Müjgan xalaoğlumun qoluna girdilər. Xalamın qonşuları – yaşları qırxı ötmüş olsa da – özlərini qadın, Kamranı da kişi sanıb bir az aralı gedirdilər.
Mən uşaqlarla bərabər öndə gedirdim. Amma qulağım arxada idi. Xalaoğlum özünün buraya gəlib çıxmasından danışırdı. O deyirdi:
– Bu yay İstanbulda elə darıxdım ki, dil ilə demək mümkün deyil...
Təpiyimi hiddətlə yerə vurub öz-özümə dedim: "Əlbəttə, xoşbəxt dul qadını yad ellərə qaçırtdıqdan sonra darıxarsan da!.."
Kamran isə sözünə davam edib deyirdi:
– Keçən gecə, ayın on beşində, bir dəstə yoldaşla Aləm dağına[1] çıxmışdıq. Son dərəcə gözəl bir gecə idi. Amma mənim yorucu əyləncələrə dözümüm yoxdur. Səhərə yaxın kimsəyə xəbər vermədən, təkbaşına şəhərə endim. Sözün qısası, yaman darıxırdım. Fikirləşdim ki, bir neçə gün İstanbuldan uzaqlaşım. Amma hara gedəsən? Yalovanın[2] mövsümü deyil, Bursa[3] da bu aylarda cəhənnəm kimi olur. Birdən-birə ağlıma siz gəldiniz. Əslinə qalsa, elə ürəyim sizi yaman istəyirdi.

Xalamla əri o axşam Kamranı gecəyə qədər öz yanlarında saxladılar. Müjgan da yorğunluqdan ayaq üstə dura bilmədiyinə baxmayaraq, onların yanından ayrılmırdı.
Mən, əksinə, bunlardan kənar gəzir, tez-tez evdə, bağçanın içərilərində yox olurdum.
Arada nə üçünsə onlara yaxinlaşmalı oldum. Kamran məndən narazı bir tövrlə dedi:
– Deyəsən, qonağa layiqincə hörmət etmək istəmirlər.
Mən gülüb çiyinlərimi çəkdim və dedim:
– Deyərlər ki, qonaq qonağı istəməz!.
Müjgan mənim təkrar qaçmağımdan qorxurmuş kimi, biləyimdən, ətəyimdən möhkəm-möhkəm tuturdu. Dartındım və yatmağa ehtiyacım olduğunu söyləyib, yuxarıya öz otağıma çıxdım.
Gecənin bir vaxtı Müjgan otağa gəldiyi zaman, mən yatağımda uzanmışdım. Çarpayımın kənarında oturdu, üzümə baxdı. Güləcəyimi hiss edərək, o biri böyrüm üstə döndüm və xoruldamağa başladım.

[1] Aləm dağı – İstanbulun yaxınlığında bir yer, seyrəngah
[2] Yalova – İstanbulun yaxınlığında bir yaylaq
[3] Bursa – İstanbula ən yaxın bir şəhər

O, zorla başımı qaldırdı:

– Özünü yalandan yuxuluğa vurma, aç gözlərini! – dedi.

– Vallah yatmışdım, – deyə gözlərimi iri-iri açdım.

Amma ikimiz də özümüzü saxlaya bilməyib gülməyə başladıq. Müjgan çənəmi oxşayaraq dedi:

– Təxminim doğru çıxdı!

Sərt bir hərəkətlə çarpayının dəmirlərini cırıldada-cırıldada yerimdə oturdum.

– Nə demək istəyirsən?

Müjgan bərk qorxdu:

– Heç... Heç, – dedi, sonra gülərək əlavə etdi: – Allah eşqinə, boğuşmağa-zada başlama, yorğunluqdan ölürəm... – və lampanı söndürüb yatağına girdi.

Bir neçə dəqiqədən sonra mən onun çarpayısının yanına gedib başını yastığından qaldırdım, qollarımın arasına aldım, amma o yazıq doğrudan da yatmışdı. Gözlərini açmadan "eləmə, Fəridə" deyə yalvardı.

– Çox yaxşı, – dedim, – ancaq dilimin ucundakıları söyləməsəm, bu dəfə də mən yata bilməyəcəyəm.

Otağın qaranlığına, Müjganın gözlərinin yumulu olmasına baxmayaraq, üzümü onun saçlarının arasında gizlədərək, qulağına pıçıldadım:

– Sənin başından mənasız fikirlər keçir... Anlayıram... Ona bir şey söyləmiş olsan, səni zorla qucağıma alaram, özümlə bərabər dənizə ataram!..

Müjgan:

– Yaxşı... yaxşı... Necə istəyirsən, – dedi və başını hələ də yavaş-yavaş silkələdiyimə baxmayaraq yuxuya getdi.

Kamranın gəlməsi, doğrudan da, kefimi pozdu; ona qarşı duyduğum hiddətə, qorxuya, iyrənməyə bənzər qarmaqarışıq hisslər gündən-günə artırdı. Üz-üzə gəldiyimiz zaman, heç bir səbəb olmadan qabalıq edir və qaçırdım.

Yaxşı ki, Əziz əmim qonağını qarmağına keçirmişdi. Onunla görüşdürmək üçün evə cürbəcür adamlar çağırır və demək olar ki, hər gün uzun sürən fayton gəzintisinə, yaxud yerlilərdən birinin malikanəsinə qonaqlığa aparırdı.



Bir səhər yenə də belə bir dəvətə getməyə hazırlaşan xalaoğlumla pilləkən başında qarşılaşdıq. Yolumu kəsdi, sözlərini eşidən olub-olmadığını bilmək istəyən bir tövrlə ətrafına baxdıqdan sonra dedi:

– İltifatın çoxluğundan öləcəyəm, Fəridə.

Mən onunla pilləkən barmaqlığı arasındakı keçiddən, ona sürtünmədən keçib-keçməyəcəyimi hesablaya-hesablaya dedim:

– Bu pisdirmi? Sizi hər gün gəzdirirlər.

Kamran komik bir kədərlə gülümsündü, gözlərini tavana qaldırıb dedi:

– Qonaq qonağı istəməz, amma qonağın qonağa ev sahibindən qeybət qırması köhnə üsullardandır. Barı mən də belə edim...

Xalaoğlum gəldiyi gecə mənim dediyim "qonaq qonağı istəməz" sözünü nədənsə ürəyinə salmışdı. Bunu tez-tez yadıma salıb məni sancırdı.

– Yaxşı, amma mənə elə gəlir ki, şikayət etməli heç bir şey yoxdur. Hər gün yeni-yeni yerlər, adamlar tanıyırsınız.

O, təkrar dodağını büzdü:

– Tanıdığım adamlar heç də zövqverici adamlar deyil...

Daha özümü saxlaya bilməyib dedim:

– Yazıqlar sizi əyləndirəcək adamı hardan tapıb gətirsinlər?

Kamran onu əyləndirəcək adam sözü ilə kimə işarə vurduğumu başa düşdü. Həyəcanla əllərini uzadıb dedi:

– Fəridə!

Amma uzanan əlləri boşa çıxdı. Mən onunla pilləkən barmaqlıqları arasındakı məsafədən keçib qaçdım. Pillələri iki-iki atılıb mahnı oxuya-oxuya bağçaya sarı yüyürdüm.

Nəhayət, bir gün Müjgan istədiyini etdi.

Bir sabah onunla dəniz kənarındakı yamacda gəzirdik. Gecə yağış yağdığı üçün, havada xoş bir payız sərinliyi vardı. Dumana, hisə bənzəyən topa bulud günəşin qabağını tutmuş, dənizin durğun üzündə solğun bir aydınlıq titrəyirdi.

Uzaqda kölgə kimi hərəkətsiz duran bir neçə yelkənli balıqçı qayığı görünürdü. Birdən Kamranın küçədən keçdiyini gördüm. Bu gün nə isə heç yana getməmişdi.

İri bir ağac kötüyünün üstündə oturan Müjganın üzü dənizə sarı olduğu üçün, Kamranı görməmişdi. Mən də özümü görməməzliyə qoyub üzümü həmin tərəfə çevirdim.

İndi Kamranı görmür, onun ayaq səslərini eşitmirdimsə də, amma bununla belə hiss edirdim ki, o bizə sarı gəlir. Bədənimdə incə bir ürpərti hiss etdim. Müjgan:

– Nə oldu, birdən-birə susdun? – dedi və başını çevirəndə, on-on beş addım irəlidə Kamranı gördü.

Aydındır ki, daha söhbətdən boyun qaçıra bilməzdik.

Kamran Müjganı məzəmmətlə sözə başlayıb dedi:

– Bu gün də çətirinizi unutmamışsınız.

Müjgan gülərək cavab verdi:

– Elədir, amma bu gün də yağış təhlükəsi var...

Xalaoğlum özünün tutqun və qərarsız məcazına bənzəyən bugünkü havadan çox xoşlandığını söyləyirdi. Müjgan əlindəki çətiri açıb-örtməklə əylənə-əylənə buna etiraz edib dedi:

– Hava gözəl olsa da, adama qəmginlik verir. Bundan sonra günlərin çoxu belə olacaq. Sonra da qış gələcək. Buranın qışının nə qədər sıxıcı olduğunu bilməzsiniz. Atam isə, tərs kimi bura elə alışmışdır ki, həmişə başqa yerə təyin ediləcəyindən qorxur.

Kamran zarafatla dedi:

– Buranın çox da əleyhinə olmayın. Kim bilir, bəlkə burada yaşayan varlı adamlardan birinə ərə getdiniz.

Müjgan işi ciddiyyətə salıb başını yırğaladı və dedi:

– Allah eləməsin!

Bu əsnada yanımızdan ayaqyalın bir balıqçı keçirdi. Bu, özümü Marika qələmə verdiyim həmin qoca balıqçı idi. Başına yenə qırmızı bir yaylıq sarımışdı. O, üzünü mənə tutub dedi:

– Çoxdan görünmürsən, Marika!

– Bir gün sizinlə balıq tutmağa getmək üçün hazırlaşıram, – dedim.

Qoca ilə söhbət edə-edə yamacın kənarına sarı yeriməyə başladım. Bir az sonra yenidən onların yanına qayıtdığım zaman, Müjgan xalaoğluma bu Marika hekayəsini danışırdı. Sözünü qurtardıqdan sonra biləyimdən tutub dedi:

– Məni yox, deyəsən Fərideni həmişəlik Tekir dağında qoyacağıq. Qisməti çıxdı. Onu İsa kapitan adlı bir balıqçının oğluna istəyirlər. Balıqçı deyib keçməyin. Çox varlı bir adamdır.



Kamran güldü, dedi:

– Milyoner də olsa, o qədər demokrat ola bilmərik, deyilmi, Fəridə? Mən sənin xalaoğlun sifəti ilə buna əsla razı ola bilmərəm.

Ağıllı, tərbiyəli bir qız olan Müjganı bu gün hansı xain şeytansa yoldan çıxarmışdır. Kamranın bu sözünün cavabında nə desə yaxşıdır?

– Bununla iş bitmir. Fəridənin bundan da yaxşı istəyənləri var. Məsələn, bir süvari zabiti hər gün axşamüstü atı ilə evimizin qarşısına gəlir, özünü Fəridəyə bəyəndirmək üçün təhlükəli hünərlər göstərir.

Kamran bu dəfə qəhqəhə çəkib güldü. Amma bu qəhqəhənin özündə bayaqkı gülüşə bənzəməyən qəribə bir şey, bir inciklik vardı.

– Buna heç nə deyə bilmərəm! Cavab vermək onun öz haqqıdır, – dedi.

Müjgana gizlincə "yaxşı, sənə göstərərəm!" deyə işarə edib dedim:

– Sən daha həddini aşırsan. Bilirsən ki, belə sözlərdən xoşum gəlmir.

O, ehtiyat üçün Kamranın arxasına keçib mənə göz vurdu.

– Amma tək olanda, belə danışmırıq, – dedi.

– Yalançı, iftiraçı!..

Bu dəfə Kamran dilləndi:

– Bunu mənə də söyləməlisən, Müjgan, – dedi. – Mən yad deyiləm ki...

Hiddətlə ayağımı yerə vurub dedim:

– Hər şey aydındır! Sizinlə davasız danışmaq mümkün deyildir. Di, sağlıqla qalın! – qəzəblə dənizə tərəf yollandım.

Mən yeriyir, amma hiss edirdim ki, mənim onlardan uzaqlaşmağım başlanmış söhbəti kəsməyəcəkdir. Yamacın kənarına çatdıqdan sonra, hiddətlə dənizə daş atmağa başladım. Hərdənbir özümü yerə əyilən kimi göstərib arxaya baxırdım. Gördüyüm şeylər heç də arxayınlıq verən şeylər deyildir. Müjgan məni rüsvay edəcəkdi və bunun önünü almaq üçün mənim əlimdə çarə yoxdu.

Əvvəl gülə-gülə danışırdılar. Sonra ikisi də ciddiləşdi. Müjgan söyləyəcəyi sözləri tapmağa çətinlik çəkirmiş kimi, çətiri ilə torpağa cizgilər cızır, xalaoğlum isə heykəl kimi dimdik durmuşdu. Nəhayət, ikisinin də dönüb mənə baxdıqlarını və bu tərəfə gəlməyə başladıqlarını gördüm. Dəhşət!

Hər şey aqdın idi. Özümü yamacın ən dik yerindən aşağı – qumsala buraxdım. O gün təkcə bir yerimdən yox, lap bir neçə yerimdən əzilib yaralanmadığıma hələ də təəccüb edirəm.

Bununla bərabər, bu ağılsız hərəkətim də məni onların əlindən qurtara bilmədi. Başımı çevirəndə, onların da yamacın başqa bir tərəfindən yavaş-yavaş aşağı enməkdə olduqlarını gördüm!

Qaçmağa başlasam, bu nazlı adamlar ata minsələr belə, mənə çata bilməyəcəkdilər. Ancaq bu hərəkətimlə mən özümü ifşa edəcək, hər şeyi anladığımı, yaxud heç olmasa bir şeydən şübhələndiyimi göstərəcəkdim. Odur ki, heç bir qayğım, sıxıntım yox imiş kimi, arabir dənizə daş atmağa davam edərək sürətlə yeridim. Fikirləşirdim ki, burunu dönərəm, canım qurtarar. Amma tərsliyə baxın ki, bu sabah dəniz çəkilmiş, qayaların arasında qupquru bir keçid açılmışdı.

Yeni bir plan hazırladım. Qumsalla bir az getdikdən sonra dar cığırla təkrar yamaca dırmaşmağa başlayacaqdım. Bura keçilərin də zorla çıxa bildikləri sıldırım bir yol olduğundan Kamranla Müjgan mənim dalımca gəlməkdən əl çəkəcək, izimi itirmiş olacaqdılar.

Amma burunun o tərəfində birdən-birə qarşıma çıxan bir məzhəkə, yaxud faciə bir neçə dəqiqəliyə mənə hər şeyi unutdurdu. Bir az əvvəl yanımızdan keçən qoca balıqçı, əlinə kürək alıb qara bir küçə köpəyini qovurdu. Heyvan bağıra-bağıra ora-bura qaçırdı, qoca arabir ona çatanda kürəyi biçarənin harasına gəldi yapışdırırdı. Əvvəlcə elə bildim ki, köpək quduzdur, ona görə də duruxdum. Lakin sonra gördüm ki, quduran it deyil, balıqçıdır; o özündən çıxaraq atılıb-düşür və çığırırdı.

Qocaya yaxınlaşmağa cəsarət etməyib çığırdım:

– Nə var, o yazıq heyvandan nə istəyirsən?

Qoca yaman tövşüyürdü. Bir an iti döyməyə fasilə verdi, əlindəki kürəyə söykənib durdu. Ağlamsınmış bir səslə dedi:

– Nə olacaq, murdar otuz quruşluq qatranı vurub dağıtdı. Bu hayfı onda qoymayacağam.

Hər şey aydın idi. Köpək, balıqçının qumsalda qaladığı çırpı tonqalının üzərində qaynayan bir tənəkə qatranını salıb dağıtmışdı. Əlbəttə, bu yaxşı deyildi. Amma hər halda yazıq heyvanın kürək ilə öldürülməsinə səbəb olacaq qədər böyük günah deyildi.

Köpək bir qaya oyuğunun içinə, öz ağlına görə, salamat bir yerə girib gizlənmişdi. Əli kürəkli düşməninin ikinci bir hücumu zamanı



nə edəcəyini, öz ayağı ilə girdiyi bu tələdən necə qurtaracağını düşünmədən kəsik-kəsik ulayırdı. Halbuki, qumsalla qaçıb getsəydi, yaxud mənim nəzərdə tutduğum yolla yamaca dırmaşsaydı, mütləq canını qurtara bilərdi.

Vaxtım olsaydı, bu yazıq köpəyi qurtarmaq üçün bir şey edərdim, amma mənim də dərdim başımdan aşırdı. Məni də onun kimi qovurdular.

Mən Müjganla xalaoğlumun burunu döndüklərini görəndə, təkrar ağlım başımdan çıxdı və arxaya dönüb baxmadan sürətli addımlarla bir az getdikdən sonra, yamaca dırmaşmağa başladım. Bununla bərabər, əvvəlcədən düşündüyüm kimi, tamamilə qaçıb getməyə razı deyildim. Tez-tez durur, onlara bildirmədən yavaşca arxaya, daha doğrusu, aşağıya baxırdım.

Görünür ki, faciə Müjganla Kamranı da maraqlandırmışdı. Onlar düşüb qalmış qatran tənəkəsinin yanında həyəcanla danışırdılar.

Nəhayət, gördüm ki, xalaoğlum cibindən pul kisəsini çıxardıb balıqçıya pul verdi. Balıqçı sevinclə kürəyi yerə atıb mənə sarı dönərək əlləri ilə işarə etdi. Bu, çox qəribə idi.

Sağ əli başıma, köpəyin canı qurtardı. Mən arxadan çağırıldığıma baxmayıb evə sarı yönəldim.

Müjganın elədiklərini xatırladıqca, ağlım başımdan çıxır, bütün vücudum od tutub yanırdı. Hirsimdən yumruğumu elə düyünləyirdim ki, dırnaqlarım ovcuma batırdı, mən öz-özümə deyirdim: "Rüsvay oldum, borc olsun, Müjgan!"

Çox sürətlə gedirdim. Güman edirəm ki, bu sürətlə lap İstanbula qədər gedərdim. Amma qapının önündə Əziz əmim qarşıma çıxdı:

– Ay qız, bu nə sifətdir! Çuğundur kimi qızarıbsan! Səni qovlayan var? – deyə yolumu kəsdi.

Hirsli-hirsli gülərək:

– Elə bir şey yoxdur, əmi! – dedim və uşaq səsləri gələn bağçaya sarı yüyürdüm.

Arxa bağçada böyük bir vələs ağacından asılmış yelləncək vardı. Bəzən qonşu uşaqlarını yığıb buranı bayram meydanına döndərərdim. Bu gün kiçik yoldaşlarım mənim dəvətimi gözləmədən, irili-xırdalı gəlib yelləncəyin dövrəsini almışdılar.

Bu, çox gözəl oldu! Evə gələndə, otağıma qaçıb qapını kilidləməyimi düşünürdüm. Amma, Kamranla Müjgan, yəqin ki, dalımcan

gələcəkdilər, zorla qapını açdırmaq istəyərək dəhlizdə hay-küy salacaqdılar. Halbuki, indi uşaqların arasına qarışar, işi dəliliyə vurub Kamranla Müjganın yanıma gəlmələrinə mane ola bilərdim. Xırdaca yoldaşlarım arasında yelləncəyə əvvəlcə minmək üstündə dava düşmüşdü. Mən o saat aralarına girdim. Onları ayırıb dedim:

– Hamınız kənarda cərgəyə düzülün görüm... Mən özüm sizi bir-bir yelləndirəcəyəm.

Yelləncəyə atıldım. Balacalardan birini də qabağımda oturtdum, yavaş-yavaş yellənməyə başladım. Çox keçmədən Kamranla Müjgan gəlib çıxdılar və uşaqların arxasında durdular.

Müjgan yaman tövşüyürdü. Arabir əli ilə köksünü sığallayırdı. Görünür ki, xalaoğlum onu yaman yüyürtmüşdü.

Ürəyimdə Müjgana dedim: "Sənə yaxşı olub!" və yelləncəyi sürətləndirdim.

Kənarda növbə gözləyən uşaqlar darıxıb çığırışmağa başlamışdılar: "Çox oldu, bizi də mindir, bizi də mindir, bizi də..."

Amma mən onlara qulaq asmırdım. Başımın üstündəki vələs ağacının sıx yarpaqlarını xışıldada-xışıldada getdikcə artan bir sürətlə yellənirdim. Bu hal uşaqları lap hirsləndirdi. Onlar bərk darıxdıqlarından, yerdə çəkdiyim xətti keçib özlərini yelləncəyin önünə atırdılar. Müjganla Kamran onların qollarından tutub kənara çəkildilər ki, yelləncəyə dəyib bir yerlərini zədələməsinlər. Bu vaxt mənimlə yellənən uşağın da tərsliyi tutdu. Dizlərimin arasında bar-bar bağıran bu uşağın ipləri buraxaraq, yerə yıxılıb ölməsindən qorxmağa başladım.

Çarəsiz yelləncəyi saxladım və uşağa acıqlanmağa başladım. Dedim: – Bir az bərk yellənməkdən qorxan bir uşağın yelləncəkdə nə işi var? Sən evdə kiçik bacı-qardaşlarının beşiyində yellənsəydin, daha yaxşı olardı...

Sonra buna bənzər cürbəcür sözlər dedim. Yəni, sözün açığı, Kamranın mənə söz deməsinə fürsət verməmək üçün qəsdən hay-küy salmışdım. Yaxşı ki, o biri uşaqlar da bağırıb bağçanı başlarına götürmüşdülər.

– Məni, Fəridə abla! Məni də! Məni də! Məni də!..

– Yox, heç birinizi mindirməyəcəyəm, qorxursunuz!

– Qorxmarıq, Fəridə abla, qorxmarıq, qorxmarıq, qorxmarıq...



Bu əsnada evin pəncərəsindən xalamın səsi gəldi:

– Fəridə, canım, onların da bir az könlünü alsana!

O saat səs gələn tərəfə döndüm və xalamla uzun-uzadı deyişməyə başladım.

– Ay xala, belə deyirsiniz, amma yıxılsalar, bir yerlərini əzsələr, sonra məni danlayacaqsınız, axı!..

– Ay qızım, uşaqları yıxmaq şərt deyil ki! Yavaş-yavaş yelləndir də...

– Ay xala, özünüzü bilməməzliyə qoymayın, rica edirəm. Məgər siz Çalıquşunu hələ tanımırsınız? Mənə bel bağlamaq olarmı? Ağıllı-başlı başlaram, yelləncək gedib-gəldikcə şeytan məni yavaş-yavaş dümsüklər, deyər ki: "Haydı, haydı! Bir az da, bir az da!" Mən "Eləmə, eləmə, yanımda uşaqlar var!" – deyə cavab verərəm, amma şeytan israr edib deyər: "Haydı, haydı! Bir az da, bir az da, nə olar ki!" Bir də görərsən ki, ağacın budaqları, yarpaqları da bir ağızdan təkrar etməyə başladılar: "Haydı, Fəridə! Haydı, Fəridə!" Bütün bunlara yazıq Çalıquşu necə dözsün? Özünüz bir insaf edin də!

Çərənçiliyi qurtardım, bu vaxt arxam Kamrana olsa da hiss etdim ki, xalaoğlum arxamda durub. Heç şübhəm yox idi ki, səsim kəsilən kimi o mənimlə danışmağa başlayacaq. Nə edim?! Onunla üz-üzə gəlməkdən necə qaçım?!

Qəflətən bir uşağın ətəklərimə sarıldığını gördüm, qoltuğundan tutub havaya qaldırdım. Bu, mənim qonaqlarımın ən balacası idi, yeddi-səkkiz yaşında bir uşaqdı. Üzünü üzümə yaxınlaşdıraraq dedim:

– İncimə, heç bir şey edə bilmərəm! Yıxılarsan bu totuq yanaqcıqların qanayar...

Uşağın arxasına bir kölgə düşdü. Bu, Kamran idi. Uşağı yerə qoyan kimi Kamranla üz-üzə, göz-gözə gələcəyimizə heç şübhəm yox idi. Daha qurtuluş yolu qalmamışdı. Ondan qaçmaq, ondan qorxmaq elə bir şeydi ki, bunu mən əsla qüruruma sığışdıra bilməzdim. Odur ki, balaca uşağı qucağımdan endirdim, dik Kamranın gözlərinə baxıb uşağa dedim:

– Haydı, balacan, Kamran ağabəyə[1] söylə. O, xanım kimi nazlı, zərif bir oğlandır. O, bir dayə kimi səni yavaşca-yavaşca ağıllı-başlı

[1] Ağabəy – böyük qardaş

yelləndirər. Amma çox tərpənmə ha!.. Çünki onun zərif qolları səni saxlaya bilməz, ikiniz də yıxılarsınız?..

Gözlərimi Kamranın gözlərinə dikməkdə məqsədim budur ki, xalaoğlum bu amansız istehzaya dözə bilməyib təslim olsun və üzünü yana çevirsin. Amma Kamran gözlərini qaçırmadı, gözlərini gözlərimə zilləyib baxırdı. Onun gözləri sanki deyirdi: "Nahaq yerə özünü yorma, hamısını bilirəm!.."

Mən başa düşdüm ki, oyunu uduzmuşam. Başımı bir qədər qabağa əyib yaylığımla tozlu ovuclarımı silməyə başladım.

Kamran birdən mənə dedi:

– Mənə lağ edirsən, eləmi? Dəcəlin biri! İndi görərik, ikimiz birlikdə yellənəcəyik!

Çevik bir hərəkətlə pencəyini çıxardıb Müjgana sarı atdı.

Xalam pəncərədən çığırdı:

– Amandır, Kamran, uşaqlıq eləmə! Onunla bacara bilməzsən, bir yerini zədələr!

Uşaqlar əyləncəli bir şey seyr edəcəklərini anlayaraq geri çəkildilər. Biz yelləncəyin yanında yalqız qaldıq.

Xalaoğlum gülərək dedi:

– Nə gözləyirsən, Fəridə, qorxursanmı?

Bu dəfə üzünə baxmağa cəsarət etməyərək dedim:

– Bu nə deməkdir? – və yelləncəyə hoppandım.

Kəndir dartınıb cırıldadı, yelləncək yavaş-yavaş hərəkət etdi.

Mən ehtiyatlı tərpənir, çox çətin olacağını hiss etdiyim bu yarışda qüvvətimi mühafizə etmək üçün dizlərimi azacıq bükməklə kifayətlənirdim.

Get-gedə sürətimiz artmağa, vələs ağacı çoxalan yarpaq xışıltıları ilə sarsılmağa başladı. İkimiz də dişlərimizi sıxıb susmuşduq, sanki bir kəlmə danışsaq, qüvvətimiz zay olacaqdı.

Mən hərəkətin sürətindən ləzzət alıb məst və bihuş kimi olmuşdum. Kamranın başı birdən-birə sıx yarpağın içinə girdi, uzun saçları alnına töküldü.

İstehzalı bir səslə soruşdum:

– Yoxsa, peşman olmağa başlamısınız?

O da gülərək dedi:

– Kimin peşman olacağını görərik!



Onun dağılmış saçları arasında par-par yanan yaşıl gözləri məndə qəribə bir kin, zülm etmək meyli oyadırdı. Qüvvətlə dizlərimi bükərək yelləncəyə daha da sürət verdim. İndi hər gediş-gəlişdə başlarımız yarpaqların içinə girib-çıxır, saçlarımız bir-birinə qarışırdı. Arada yuxuda olan kimi xalamın: "Yetər, bəsdir!" çığıran səsini eşitdim.

Bunu Kamran da təkrar etdi:

– Yetərmi, Fəridə?

– Onu sizdən soruşmaq lazımdır, – deyə cavab verdim.

– Mənim üçün xeyr, – dedi. – Müjgandan öyrəndiyim xoş xəbərdən sonra mən daha yorulmaram!..

Dizlərim birdən-birə sustaldı, qorxdum ki, iplər əlimdən çıxsın.

Kamran davam etdi:

– Buna ümid etmirdim. Mən bura sənin üçün gəlmişəm, Fəridə...

Mən heç bir hərəkət etmirdimsə də, yelləncək həmin sürətlə yellənirdi. Qollarımı iplərin dövrəsinə keçirdim, əllərimi bir-birinə bənd edib:

– Bəsdir, daha düşək, yıxılacağam, – deyə yalvardım.

O mənim nə halda olduğumu başa düşməyib dedi:

– Xeyr, Fəridə. Mənimlə evlənməyə razı olduğunu sənin öz ağzından eşitməmiş əl çəkə bilmərəm. Bərabər yıxılıb ölənə qədər yellənəcəyik!

Onun dodaqları saçlarımın arasından alnıma, gözlərimə toxunurdu. Dizlərim büküldü. Birdən-birə əllərim açıldı. Kamran məni bu əsnada qucaqlamasaydı, yəqin ki, yıxılacaqdım. Amma onun məni saxlamağa gücü çatmadı. Müvazinəti pozulmuş yelləncəyin ipləri arasından birdən-birə ikimiz də yerə yıxıldıq.

Mən huşumu itirdim, azacıq sonra gözlərimi açıb özümü xalamın qucağında gördüm.

Xalam islanmış bir yaylıqla gicgahımı silə-silə deyirdi:

– Bir yerin ağrıyırmı, qızım?

Başımı qaldıraraq:

– Xeyr, xala, – dedim.

– Elə isə nə üçün ağlayırsan?

– Mən ağlayıram, xala?

– Bəs gözlərindəki yaş nədir?

Başımı xalamın qoynuna soxub dedim:

– Yəqin yıxılmamışdan əvvəl ağlamışam, xala!

Üç gün sonra Ayşə xalamla Müjgan da bizə qoşuldu; hamımız İstanbula qayıdırdıq. Əhvalatı oğlunun məktubundan öyrənmiş Bəsimə xalam və Nəcmiyyə bizi Qalata körpüsündə qarşılamağa gəlmişdilər.

Nişanlandığımın ilk həftələrində hamıdan qaçırdım. Kamrandan isə daha çox qaçırdım. O mənimlə təklikdə qalmaq, bərabər gəzmək və danışmaq istəyirdi. Zənn edirəm ki, bu hər nişanlı kimi, onun da haqqı idi. Amma nə çarə ki, mən dünyadakı nişanlıların ən bacarıqsızı və vəhşisi idim. Kamranın mənə sarı gəldiyini görəndə hürkmüş at kimi dördayaq qaçırdım. Ardımdan sapan daşı da atsaydılar çatmazdı. Mən Müjgan vasitəsilə Kamrana bir ultimatum göndərmişdim. Üz-üzə gələndə o mənimlə nişanlım kimi danışmayacaqdı. Sözümə əməl etməsə, and içmişdim ki, hər şeyi pozacağam.

Müjgan, Tekir dağında olduğu kimi, burada da hərdənbir yataqda məni sual-cavaba tutub deyirdi:

– Bu dəliliyi nə üçün edirsən, Fəridə? Bilirəm ki, Kamranı lap ürəkdən sevirsən. İndi sizin ən gözəl zamanlarınızdır. Kim bilir, onun sənə deməli necə sözləri vardır!

Müjgan bəzən bununla kifayətlənməyib incə əlləri ilə saçlarımı oxşaya-oxşaya Kamranın dilindən danışırdı. Mən yatağımda büzülərək:

– İstəmirəm, qorxuram, utanıram... Qəribə şeydir də... Başa sala bilmirəm ki... – deyə sızıldanırdım. Müjgan daha da üstümə düşəndə ağlayırdım.

Sonra Müjgan məni yalqız buraxıb yatmağa gedəndə, Kamranın onun vasitəsilə göndərdiyi sözləri öz-özümə təkrar edib, bu kəlmələrin ahəngi ilə yuxulayırdım.

Xalam mənə bəzəkli-düzəkli bir nişan üzüyü qayırtdırmışdı. Bu üzüyün, mənim yaralı barmaqlarıma heç yaraşmayan göz qamaşdırıcı, çox qiymətli bir daşı var idi.

Bir dəfə İstanbuldan qayıtdıqda, xalam məni pəncərənin qabağına çəkib bu üzüyü bir sürpriz kimi göstərdi. Üzüyün qaşını xalam ağacların içində gözdən itməkdə olan günəşə tutub parıldadanda, mən gözlərimi yumub geri çəkildim. Əllərimi arxamda gizlətdim. Qızardığımı göstərməmək üçün üzümü çevirib pərdənin dalına tutdum.



Xalam mənim vəziyyətimi başa düşmədi. Mənim böyük bir şadlıqla atılıb onun boynuna sarılmadığıma heyrət edib dedi:

– Yoxsa bəyənmədin, Fəridə?

Mən soyuq-soyuq dedim:

– Çox gözəldir, xala, mersi.

Mənim bu hərəkətimdən xalamın incidiyi görünürdü. Amma bu çox sürmədi. O, təkrar gülümsünüb dedi:

– Əlini uzat, üzüyü bir taxıb yoxlayaq. Sənin köhnə bir üzüyünü verib onun boyda qayırtdırmışam. İnşallah ki, balaca olmaz.

Mən əllərimi arxamda gizlədib barmaqlarımı bir-birinə keçirtdim. Guya xalam üzüyü mənim barmağıma zorla taxacaqdı.

– İndi yox, xala, sonra... – dedim.

– Uşaqlıq eləmə, Fəridə.

Mən inadla başımı önümə əydim, ayaqlarımı yerə dirədim.

– Bir neçə gündən sonra qohumlarımızı yığıb bir kiçik qonaqlıq verəcəyik, nişan taxacağıq.

Ürəyim tez-tez çırpınırdı. Xalama dedim:

– İstəmirəm... Əgər bu mütləq lazımdırsa, mən məktəbə gedəndən sonra edin.

Xalamın məni yaxşıca danlamağa haqqı vardı. Amma o özünü tox tutmaq istədi. Gülümsünə-gülümsünə dodaqlarını büzüb bir istehza ilə dedi:

– Necə yəni? Yoxsa, nişan məclisində sənin yerinə bir vəkil qoyacağıq? Bu nikahda olar, amma qızım, hələ nişanda qızın yerinə vəkil qoymaq adəti çıxmamışdır.

Mənim buna deməyə bir cavabım olmadığı üçün başımı önümə əyib durmuşdum. Xalam elədiyi töhmətin şiddətini azaltmaq üçün, bir əli ilə mənim belimdən tutdu, o biri əli ilə çənəmi, saçlarımı, alnımı oxşaya-oxşaya dedi:

– Fəridə, elə bilirəm ki, sənin daha uşaqlığı buraxmaq vaxtın çatmışdır. İndi mən sənin təkcə xalan yox, həm də ananam... Buna çox şad olduğumu söyləmək artıqdır, deyilmi? Sən Kamran üçün xasiyyətini, əslini bildiyimiz hər hansı bir yad qızından çox-çox yaxınsan. Ancaq... Ancaq bir az yüngülsən. Bu, uşaqlıqda bəlkə o qədər zərərli bir şey deyildi, amma daha böyüyürsən, böyüdükcə də, əlbəttə, ağırlaşacaqsan, ağıllanacaqsan. Məktəbi qurtarmağına və evlənməyinizə

dörd il var. Bu, xeyli uzun bir zamandır. Bununla bərabər, sən daha nişanlı qızsan. Bilmirəm, nə demək istədiyimi başa düşürsənmi? Sən ciddi və ağır olmalısan. Uşaqlığa, dəcəlliyə, inadcıllığa nəhayət verməlisən. Kamranın nə qədər incə hissli və zərif olduğunu bilirsən...

Xalamın kəlməsinə qədər yadımda qalan bu sözlərində həqiqətən adama toxunacaq bir şey varmı, yoxmu, bunu mən bu gün də anlaya bilməmişəm. Amma nə bilim. Mənə elə gəldi ki, xalam məni öz qiymətli oğlu üçün bir az ləyaqətsiz bilir....

Xalamın nəsihətlərinin mənə necə təsir etdiyini bilmək istəyirmiş kimi dedi:

– İndi daha bir-birimizi başa düşdük, deyilmi, Fəridə? Yalnız qohumlarımızın və bir-iki yaxın dostun iştirakı ilə nişan məclisi düzəldəcəyik.

Mən xəyalən çiçəklərlə, çilçıraqlarla bəzənmiş bir məclisdə, indiyə qədər öyrəşmədiyim bir tualetdə, saçlarım başqa cür daranmış, sir-sifətim dəyişmiş bir halda, özümü Kamranın yanında oturmuş gördüm. Bütün baxışlar bizə zillənmişdi...

Məni birdən-birə titrətmə tutdu:

– Yox, bu mümkün deyil, xala, – deyərək tez aşağı qaçdım.

Müjgan bu günlərdə mənə böyük bacıdan başqa, demək olar ki, ana olmuşdu. Gecələr otağımızda yalqız qaldığımız zaman, lampanı söndürüb mənimlə didişməkdən lap incəlmiş vücudunu qollarım arasına alır, cavab verməsin deyə, əlimi ağzına tutub yalvarırdım:

– Dünyada ən çox hallarına yandığım, istehza etdiyim insanlar nişanlı qızlardır. İndi mən onlardan biri oldum. Onlara yalvar... Heç kim mənə nişanlı demәsin. Bu sözü eşidəndə yerə girirəm, qorxuram, axı mən hələ uşağam. Qabaqda hələ dörd il var. O zamana qədər bir az böyüyərəm, alışaram. İndi isə mənimlə heç kəs nişanlı kimi rəftar etməsin.

Nəhayət, danışmağa imkan tapan Müjgan dedi:

– Çox yaxşı, ancaq bir şərtlə. Daha doğrusu, iki şərtlə. Əvvəla, mənimlə boğuşmayacaqsan. Sonra Kamranı sevdiyini mənə, yalnız mənə bir dəfə təkrar edəcəksən.

O zaman mən üzümü Müjganın qoynunda gizlədib, başımla bir neçə dəfə "bəli" işarəsi etdim.



Müjgan sözündə durmuşdu. Nə evdəkilərdən, nə bayırdakılardan heç kim nişanlandığımı üzümə vurmurdu. Arabir zarafatlaşmaq istəyənlər olurdusa, mən onların da cavablarını verib susdururdum. Hətta bunlardan birinə yüngül bir şillə də vurdum. Ancaq yaxşı ki, bu, yad deyildi, elə xalaoğlu özü idi. Bu, çox haqlı bir şillə idi! Ancaq, Allah eləməmiş, Bəsimə xalam duysaydı, kim bilir mənə nə edərdi.

Bununla belə özümü köşkdə o qədər də rahat hiss etmirdim. Məsələn, nişanlandığım üçün bir gün məni evin ən yaxşı otağına köçürdülər, pərdələrimi, çarpayımı, qarderobumu dəyişdirdilər və bunun səbəbini soruşmağa, təbii ki, cəsarət edə bilmədim.

Bir gün faytonla Mərdivənköyündə bir kənd toyuna gedəcəkdik. Faytonun içi tünlük idi. Odur ki, dedim:

– Mən faytonçunun yanına minim?!

Yaman qəhqəhə qopdu. Mən qızarıb başımı aşağı saldım və faytona mindim.

Əvvəllər olduğu kimi, hərdənbir mətbəxdən qaysı qurusu, ya başqa bir şey oğurlamağa gedəndə, xain aşpaz mənə sataşıb deyərdi:

– Nə istəyirsən, açıq deyinən, ay kiçik xanım. Daha zatınıza oğurluq yaraşmaz!

Hələ heç kim mənə bir şey deməmişdi, bununla belə daha oynamağa, küçədən uşaq çağırmağa da cəsarət etmirdim. Hərdənbir ağaca çıxmaq üçün, künc-bucaqda gizlənib gecəni gözləmək lazım gəlirdi. Amma bunlardan ən pisi Kamran idi. Deyə bilərəm ki, tətilin son günləri köşkdə onunla qovdu-qaçdı oynamaqla keçdi.

O məni tək tutmaq üçün fürsət axtarırdı. Mən isə bütün qüvvəmi sərf edirdim ki, o, məni tənha bir yerdə tuta bilməsin.

Arabir mənə təklif etdiyi fayton gəzintilərinə razılıq vermirdim. Çox təkid etdikdə, özümüzlə Müjgandan başqa birisini də götürürdüm və yolda həmişə onunla danışırdım. "Müjgandan başqa" deyirəm. Çünki Müjganın yolda məni Kamranla tək qoyub qaçmayacağına, yaxud da lüzumsuz çərənçilik etməyəcəyinə etibarım yoxdur.

Kamran bir gün mənə dedi:

– Bilirsənmi, Fəridə, sən məni bədbəxt edirsən.

Özümü saxlaya bilməyib dedim:

– Hələ indidən?

Bu sualı elə qəribə bir heyrətlə verdim ki, ikimiz də gülməyə başladıq.

– Müjgana söylədiyin sözü, sənin dilindən mən də eşitmək istəyirəm. Zənn edirəm ki, buna mənim haqqım var.

Müjgan nə söylədiyimi unutmuşam kimi, yalandan gözlərimi yuxarı qaldırdım, düşündüm, sonra dedim:

– Bəli, amma Müjgan qızdır. Kəniziniz də zənn edirəm ki, elədir. Onunla aramızda danışdığımız şeyi hər kəsə söyləyə bilmərik.

– Mən "hər kəsəmmi?".

– Yanlış başa düşməyin. Hərçənd, qadına oxşayan kişisiniz, amma hər halda kişisiniz. Demək, qıza söylənilən hər şey kişiyə deyilə bilməz.

– Mən sənin nişanlın deyiləmmi?

– Deyəsən axı boğuşacağıq! Bilirsiniz ki, mən bu kəlməni xoşlamıram.

– Görürsən ki, özümə bədbəxt deməkdə haqqım var. O kəlməni söyləməyə cəsarət etmirəm, qorxuram ki, yenə ağzıma vurarsan. Amma ürəyimdə bir hiss var ki, o, heç kəsə yox, yalnız sənə aiddir.

Bu vaxt başa düşdüm ki, çoxdan bəri məharətlə qorunduğum tələyə düşmək üzrəyəm. Danışsam, ya səsim titrəyəcəkdi, ya da başqa bir münasibətsizlik edəcəkdim. Kamranın sözünü ağzında qoyub küçəyə sarı qaçmağa başladım.

Onun da ardımca gələcəyini zənn edirdim. Amma hənirti eşitmədikdə ayağımı yavaşıtdım. Bir az sonra üsulluca dönüb arxama baxdım.

O, ağaclardan birinin altındakı qamış skamyada oturmuşdu. Öz-özümə dedim: "Yəqin ki, mən yaxşı iş görmürəm".

Elə sanıram ki, Kamran bu əsnada mənə baxsaydı, peşmanlığımı anlayıb təkrar yanıma gələcəkdi və yəqin ki, mən də daha qaçmayacaqdım.

Xalaoğlumun oturuşunda, doğrudan da, bədbəxt bir insan tövrü var idi. Öz-özümə qüvvət vermək üçün söylənməyə başladım:

– Hiyləgər sarı əqrəb! Bu bağçada o xoşbəxt dul qadının ətəkləri ardınca necə yüyürdüyünü hələ unutmamışam. Lap yaxşı edirəm!

Tətilin son günlərində başıma gələn bir qəzanı da söyləməyi lazım bilirəm.



Köşkdəkilər bir gün sağ əlimin bir barmağını yekə bir tənziflə bağladığımı gördülər. Soruşanlara deyirdim:

– Elə bir şey deyil, bir azca kəsmişəm. Ziyanı yoxdur, öz-özünə sağalar.

Yaramı inadla gizlətdiyimi başa düşən xalam dedi:

– Yəqin bir dəcəllik edibsən. Görünür ciddi şeydir ki, gizlədirsən. Həkimə göstərək, yoxsa başımıza iş açar.

Həqiqət bu idi: xalam bir gün məni yataq otağındakı qarderobundan, gərək ki, bir yaylıq gətirməyə göndərmişdi. Qarderobun aralıq gözündə, üstünə göy məxmər çəkilmiş bir qutu gördüm. Bu, mənim nişan üzüyüm idi. Onu bir dəqiqə barmağımda seyr etmək həvəsindən özümü saxlaya bilmədim. Amma bu həvəs mənə çox baha oturdu. Üzük, xalamın dediyi kimi, bir az balaca qayrılmışdı. Barmağımdan heç cürə çıxmırdı. Həyəcan içində bir xeyli əlləşdim, sonra üzüyü dişlərimlə çıxarmağa çalışdım. Olmadı. Mən əlləşdikcə barmağım şişir, üzük də sıxılmağa başlayırdı.

Əgər desəydim, yəqin ki, çarə tapacaqdılar, amma nədənsə, onların bu üzüyü barmağımda görmələri qüruruma toxunurdu. Buna görə də barmağımı sarğı ilə bağladım. Düz iki gün fürsət tapan kimi, otağıma girib qapını bağlayır, sarğını çıxarıb öz-özümə saatlarla əlləşirdim. Üçüncü gün, həqiqəti utana-utana xalama etiraf etməyə hazırlandığım bir zamanda üzük öz-özünə çıxdı. Buna səbəb, yəqin ki, keçən iki gündə çəkdiyim kədər və sıxıntı idi. Nəticədə mən zəifləmişdim, barmağım da nazilmişdi.

Tətilin son günü hazırlığa başlamışdım. Kamran buna etiraz etdi:

– Bu qədər tələsmək nəyə lazımdır, Fəridə. Bir neçə gün də qala bilərsən.

Amma mən nümunəvi bir şagird kimi buna razı olmurdum:

– Bacılar mütləq məktəb açıldığı gün gəlməyi tapşırıblar. Bu il də dərslər çox çətindir, – kimi bəhanələrlə inad edirdim.

Kamran bu təkidimdən yenə də qüssələnib inciyən kimi oldu.

Ertəsi gün məni məktəbə aparanda heç danışmadı və ayrıldığımız zaman:

– Heç vaxt inanmazdım ki, məndən bu qədər tez qaçasan, Fəridə, – deyə şikayətləndi.

Mən əslində o qədər də ağıllı və çalışqan bir şagird deyildim. Üstəlik, bu dərd çıxandan sonra isə özümü lap itirdim.

İlk üç ayda dərs qiymətlərim son dərəcə pis idi. Qeyrət edib özümü ələ almasam, sinifdə qalacağım yəqin idi.

Qiymət cədvəlləri paylandığı günün axşamı Aleksi bacı məni bir küncə çəkib dedi:

– Qiymətləri bəyəndinmi, Fəridə?

Bədbin bir tövr ilə başımı yırğalayıb dedim:

– Bir qədər pisdir.

– Bir qədər yox, çox pisdir. Mən sizin bu qədər geri qaldığınızı yadıma gətirə bilmirəm. Halbuki bu il daha yaxşı çalışacağınızı gözləyirdim.

– Haqqınız var. Bu il keçən ildən bir yaş da böyüyəm.

– Elə bumu?

Qəribə şeydir! Aleksi bacı çənəmi oxşayır, mənalı-mənalı gülürdü. Nə edəcəyimi bilməyib gözlərimi gözlərindən qaçırdım.

Ah bu bacılar! Dünyaya aid heç bir şeylə maraqlanmırlarmış kimi göründüklərinə baxmayaraq, ən kiçik dedi-qoduları bilir, öyrənirlər. Kimdən? On il aralarında yaşadığıma və çox da maymaq, key bir qız olmadığıma baxmayaraq, bunu heç cür başa düşə bilmədim.

Mən bir bəhanə ilə özümü bu vəziyyətdən qurtarmaq istəyəndə Aleksi bacı daha dərinə gedib dedi:

– Zənn edirəm ki, cədvəldəki qiymətləri hamıya göstərməkdən sıxılacaqsan.

Ardınca daha ağır bir söz atdı:

– Bu il sinifdə qalsan, keçməsən, bir il – bir uzun il də burada gözləməli olacaqsan.

Gördüm ki, hücuma keçməsəm, Aleksi bacıdan yaxamı qurtara bilməyəcəyəm. Çarəsizlikdən utancaqlığı atıb yalançı bir safdilliklə soruşdum:

– Qorxumu? Nə üçün qorxu?

Aleksi bacı dediyi sözləri ilə onsuz da son həddə çatmışdı. Bundan irəli getmək, mənimlə az-çox üz-göz olmaq deməkdi. Məğlub olduğunu mənə göstərməkdən çəkinməyən ədabaz bir tövrlə yanağıma çırtma vurub:

– Onu sən özün başa düşməlisən, – dedi və getdi.

Mişel bu il məktəbdə yox idi. Olsaydı, yəqin ki, məni danışmağa məcbur edəcək, ürəyimdəki pərişanlığı daha da artıracaqdı.



Bir il əvvəl uydurma bir nağıl danışanda mən nə qədər sərbəst və yüngül idimsə, bu il həqiqətən nişanlı bir qız vəziyyətinə düşdükdən sonra, bir o qədər qorxaq olmuşdum. Yoldaşlarımdan məni təbrik edənləri qısa, quru bir təşəkkürlə başımdan edir, sataşmaq meylində olanlara üz vermirdim.

Yalnız bir qız – bizim tərəflərdə yaşayan bir erməni doktorun qızı bu inadımı qırmağa müvəffəq oldu. Mən həftə tətillərini məktəbdə keçirirdim. Üç ay içində evə ya iki, ya üç dəfə getmişdim.

Mənim səbəbini özüm də yaxşı bilmədiyim bu inadım, Bəsimə xalamla Nəcmiyyəyə toxunur, Kamran isə nə düşünəcəyini, nə edəcəyini bilmirdi. İlk aylarda o, hər həftə məktəbə gəlirdi. Bacılar bir şey söyləməyə cəsarət etmirdilərsə də, ancaq bir şagird qızın nişanlısının buraya gəlib-getməsini rüsvayçılıq sayırdılar. Xalamoğlunun məni görüş otağında gözlədiyini xəbər verəndə üzlərini turşudurdular.

Mən görüş otağının qapısını qəsdən açıq qoyub ona söykənirdim. Əllərimi məktəb köynəyimin kəmərinə taxaraq, ayaq üstə ən çoxu beş dəqiqə söhbət edirdim. Xalaoğlum hərdən mənə məktub yazmağı da təklif etmişdi. Amma mən, bundan boyun qaçırıb demişdim ki, bacılar gələn məktubları türkcə bilən bir adama oxutduqdan sonra cırıb atırlar.

Yadımdadır, belə görüşlərin birində Kamranla mənim aramda heç də xoş olmayan bir söhbət getdi. Kamran uzaqda durmağımdan hirslənib qapını zorla örtmək istəmişdi. Ancaq o yaxınlaşanda, mən bayıra qaçmağa hazır bir vəziyyət alıb alçaq səslə dedim:

– Rica edirəm, Kamran... Bilin ki, otaqda gözə görünən və görünməyən nə qədər dəlik-deşik varsa, onların hamısından bizi güdürlər.

O birdən-birə duruxdu:

– Bu nə deməkdir, Fəridə? Axı, biz nişanlıyıq.

Yavaş-yavaş çiyinlərimi çəkib dedim:

– Elə işi korlayan odur da. Bir gün yəqin ki, bu cür sözlər eşitmək xoşunuza gəlməz: "Ziyarətə bir az tez-tez gəlirsiniz. Bağışlayın, amma buranın məktəb olduğunu unutmayın!.."

Kamranın rəngi qaçdı, o gündən sonra bir də məktəbə gəlmədi.

Mən, doğrudan da, pis iş tutmuşdum. Amma başqa çarəm yox idi. Kamranın yanından qayıdarkən, bütün başların mənə tərəf çevrildiyini görəndə yanıb-yaxılırdım.

Nədən danışırdım? Bəli, bir gün doktorun qızı həftə tətilindən qayıdanda mənə dedi:

– Deyirlər Kamran bəy Avropaya gedir, elədirmi?

Mən birdən-birə çaşıb qaldım və soruşdum:

– Hardan bilirsən?

– Atam dedi. Madriddəki əmisi çağırmışdır.

Mən "bilmirəm" deməyi qüruruma sığışdıra bilmədim.

– Hə, elə bir fikri var, kiçik bir səyahətə çıxacaq, – dedim.

– Çox da kiçik deyil, səfarətxanada katib olacaq.

– Lap az qalacaq.

Söhbəti burada kəsib ayrıldıq.

Yoldaşımın atası bizim köşkə tez-tez gedib-gəlirdi. Ailə doktorumuz idi. Bu xəbər çox ola bilsin ki, doğrudur, amma necə olub ki, mənə bir şey deməyiblər? Günləri hesabladım. İyirmi gündən bəri idi ki, köşkdən bir xəbər almamışdım.

Bütün gecə bu məsələ haqqında fikirləşdim. Kamrana göstərdiyim mənasız soyuqluğu unudub bu qədər mühüm bir şeyi mənə xəbər vermədiyi üçün özlüyümdə ona acığım tutdu. Axı, hər necə olsa, biz daha bir-birinə bağlı idik.

Ertəsi gün cümə axşamı idi. Hava yaxşı olduğu üçün günortadan sonra gəzməyə çıxacaqdıq. Mən özümdə-sözümdə deyildim. Belə düşüncələr içində bu gecə də məktəbdə qalmaq fikri məni qorxutdu. Müdirə xanımın yanına gedərək xalamın xəstə olduğunu söylədim və icazə istədim. Bəxtimdən o gün bacılardan biri Qartala gedirdi. Ərənköy stansiyasına qədər bərabər getmək şərtilə müdirə bacı icazə verdi.

Mən əlimdə kiçik çantam köşkə çatdığım zaman hava qaralmaqda idi. Qapıda məni köşkün köpəyi qarşıladı. Bu qoca köpək son dərəcə acgöz və yaltaq idi. Çantamda yaman-yaxşı, həmişə yeməli bir şey olduğunu bildiyindən yolumu kəsir, qarşımda dal ayaqları üstünə qalxaraq dal-dalı yeriyir, ayaqları ilə məni tutmağa çalışırdı. Ağacların arasından Kamranın mənə sarı gəldiyini görüb yerə çömbəldim, köpəyin çirkli ayaqlarından yapışdım ki, üstümə sürtünməsin.

Köpək yekə ağzını gülürmüş kimi açıb dilini çıxarır, mən onun burnunu sıxırdım. Sözün qısası, biz əlləşir və zarafatlaşırdıq.



Özümü elə göstərdim ki, guya Kamranı lap bu saat görmüşəm, dedim:

– Bu gülüşə bir baxın! Ay aman, nə yekə ağzı var! Timsaha bənzəyir, eləmi?

Kamran acı-acı gülümsünüb mənə baxırdı. Köpəyi buraxıb ətəklərimi çırpdım. Yaylığımla əllərimi sildikdən sonra Kamrana əl verdim.

– Bonjur[1] Kamran, xalam necədir? İnşallah ki, ciddi bir xəstəlik deyil...

O bir az heyrətlə soruşdu:

– Anammı? Anama heç bir şey olmamışdır. Xəstə olduğunumu eşidibsən?

– Bəli, xəstə olduğunu eşitdim və nigaran qaldım. Bazar gününə qədər səbir edə bilmədim, məktəbdən icazə alıb gəldim.

– Kimdən eşitdin?

Yeni bir yalan uydurmağa vaxtım olmadığı üçün dedim:

– Doktorun qızından.

– Sənə o söylədi?

– Bəli, söz arasında dedi ki, atamı sizə çağırmışdılar, deyəsən, xalanız xəstələnmişdi.

Kamran heyrət edirdi:

– Səhv olmuşdur. Hətta doktor son günlərdə nə anam, nə də başqası üçün köşkə gəlməmişdir.

Bu incə mətləb üzərində çox dayanmayıb dedim:

– Çox *sevindim, elə nigaran qalmışdım ki... Onlar təbii ki, içəridədirlər...*

Çantamı yerdən götürüb getmək istədim. Kamran əlimdən tutub dedi:

– Niyə belə tələsirsən, Fəridə, elə bil məndən qaçırsan?

– Niyə qaçıram? – dedim, – botlarım bir az ayağımı sıxır... İçəri bərabər getməyəcəyikmi?

– *Elədir, amma içəridə, hamının gözü qabağında* danışacağıq. Halbuki, mən səninlə təklikdə danışmaq istəyirəm.

Həyəcanımı gizlətmək üçün zarafatçı bir tövr alaraq dedim:

[1] Bonjur – günaydın, salam (*frans.*)

– Əmr sizindir!

– Mersi. Onda istəyirsən, heç kəsin gözünə görünmədən bir az bağçada gəzək.

Qaçmağımdan qorxurmuş kimi əlimi buraxmırdı. O biri əlinə çantamı aldı. Yan-yana getməyə başladıq. Nişanlandığımızdan bəri ilk dəfə idi ki, yan-yana gedirdik...

Yeni tutulmuş bir quşun ürəyi köksündə necə çırpınarsa, mənimki də elə çırpınırdı. Ancaq zənn edirəm ki, məni buraxsaydı da, artıq qaçmağa qüvvətim qalmayacaqdı.

Bir-birimizə heç bir şey söyləmədən, bağçanın sonuna qədər getdik. Kamran mənim gözlədiyimdən də kədərli və acıqlı görünürdü. Bu üç ay içində nə olmuşdu, aramızda nə dəyişmişdi, bilmirəm. Ancaq bu saatda özümü onun qarşısında günahkar görür, indiyə qədər göstərdiyim vəhşiliyə peşman olurdum.

Qışın ortalarına xas olmayan gözəl və sakit bir axşam idi. Ətrafımızdakı çılpaq dağ təpələri mərcan kimi qıpqırmızı idi. Kamranın qarşısında günahlarımı bu qədər asan qəbul etməyimdə bəlkə bunun da bir təsiri var idi, bilmirəm.

Bu vaxt onun könlünü alan xoş bir kəlmə tapıb deməyə böyük bir ehtiyac hiss elədim. Amma ağlıma heç bir şey gəlmirdi.

Daha qayıtmaqdan başqa bir iş qalmadıqda, Kamran dedi:

– Burada, bir az otura bilərikmi, Fəridə?

– Sən necə istəyirsən, elə olsun, – dedim.

O hadisədən sonra ona birinci dəfə "sən" deyirdim.

Kamran şalvarına əhəmiyyət etmədən, oradakı bir tayanın üstünə oturdu. O saat qolundan yapışıb qaldırdım:

– Sən zərifsən, quru yerdə oturma, – dedim və göy paltomu çıxarıb yerə sərdim.

Kamran gözlərinə inanmayıb:

– Neyləyirsən, Fəridə? – dedi.

– Salıram ki, xəstələnməyəsən, – dedim. – Zənn edirəm ki, bundan sonra səni qorumaq mənim vəzifəmdir.

Xalaoğlum bu dəfə də, yəqin ki, qulaqlarına inanmadı:

– Neyləyirsən, Fəridə? – dedi. – Bunu mənə sənmi deyirsən? Nişanlandığımızdan bəri bu səndən eşitdiyim ən şirin sözdür.

Başımı aşağı salıb susdum.



Kamran paltomu yerdən götürmüşdü. Tumarlayırmış kimi əllərini paltomun qollarına, yaxasına, düymələrinə sürtürdü.

– Sənə bir az şikayət etməyə hazırlanırdım, – dedi, – amma indi hamısını unutdum.

Gözlərimi qaldırmadan dedim:

– Mən sənə nə eləmişəm ki?..

O təkrar vəhşiləşəcəyimdən qorxurmuş kimi mənə yaxınlaşmaqdan çəkinərək dedi:

– Zənnimcə, eləmisən, Fəridə, hətta artıqlaması ilə. Nişanlını bu qədər unudarlarmı? Qəlbimdə pis şübhələr də oyandı. Qorxuram ki, Müjgan yanılmış olmasın?

Mən istəmədən güldüm. Kamran maraqla gülməyimin səbəbini soruşdu. Əvvəlcə cavab vermək istəmədim. Amma o, təkid edəndə gözlərimi ondan qaçırmağa çalışaraq dedim:

– Müjgan yanılsaydı, belə olmazdı ki...

– "Belə" nə deməkdir? Yəni mənim nişanlım olmazdın?

Gözlərimi yumub təsdiq əlaməti olaraq başımı iki dəfə tərpətdim.

– Fəridəm!

Kiçik fəryada bənzər bu səs hələ də qulağımdadır. Gözlərimi açdım, onun böyümüş kimi görünən gözlərində iki damla yaş parlayırdı:

– Sən məni bu dəqiqə elə xoşbəxt etdin ki, öləndə yadıma düşsə, yenə ağlayacağam. Üzümə elə baxma! Sən hələ çox kiçiksən. Belə şeyləri başa düşə bilməzsən. Artıq bütün dərdlərimi unutdum.

Kamran biləklərimdən tutmuşdu. Mən əllərimi çəkmədən hıçqıra-hıçqıra ağlamağa başladım. Elə ağlayırdım ki, Kamran lap qorxdu.

Həmin yolla geri dönərkən, mən hələ də tez-tez içimi çəkir və hıçqırırdım. O daha mənə əlini vurmağa da cəsarət etmirdi. Mən daha onun könlünün rahat olduğunu bilir və sevinirdim.

Köşkə yaxınlaşdığımız zaman dedim:

– Sən qabaqca get. Mən hovuzda əl-üzümü yuyacağam. Məni bu sifətlə görərlərsə, nə deyərlər!

Birdən yadıma düşmüş kimi Kamrandan soruşdum:

– Deyəsən Avropaya bir səyahətin var, elədirmi?

O cavab verdi:

– Belə bir fikir var. Daha doğrusu, mənim fikrim deyil, Madriddəki əmimin fikridir, hardan bildin?

Azacıq duruxduqdan sonra dedim:

– Doktorun qızından.

– Doktorun qızı sənə nə çox xəbərlər verir, Fəridə?

– ...

Kamran diqqətlə üzümə baxırdı. Qızararaq başımı çevirdim.

– Bəlkə anamın xəstəliyi bir bəhanədir?

– ...

– Doğrusunu de, Fəridə. Sən bunun üçünmü gəlmisən?

Mənə lap yaxınlaşmışdı. Əlləri ilə başımı oxşamaq istəyir, amma küsüb qaçacağımdan, təkrar aramızı poza bilən bir iş çıxaracağımdan çəkinirdi. Halbuki, mən əksinə, ona alışmağa başlamışdım. Sualını bir də təkrar etdi:

– Təxminim doğrudurmu, Fəridə?

Kamranın çox sevinəcəyini hiss edib, "bəli" deyə başımla təsdiq etdim.

– Nə gözəl!.. Dünəndən bəri taleyim nə qədər dəyişdi!

Əllərini oturduğum kreslonun yanlarına dayayaraq mənə sarı əyildi. Mən araya alınmışdım. Mənə əlini vurmadan yaxınlaşmaq üçün o, hiyləgər bir yol seçmişdi. Mən oturduğum yerdə kirpi kimi büzülür, çiyinlərimi qaldıraraq geri çəkilirdim. Lap yaxınlığımda olan üzünə baxmamaq üçün yaylığımı oynada-oynada soruşdum:

– Əmin nə təklif edir?

– Baş tutan iş deyil. Məni səfarətxanada katib olmaq üçün yanına aparmaq istəyir. Kişinin müəyyən bir peşəsi və ya vəzifəsi olmalıdır. Yoxsa bu, onun üçün böyük nöqsandır. Təbii ki, mən onun fikirlərini söyləyirəm. O deyir ki, "gələcəkdə bir səfarətxana məmuru olaraq bərabər Avropaya getmək, bəlkə Fəridənin də xoşuna gələr". Nə bilim, bir çox belə-belə sözlər...

Söhbət ciddiləşdiyi üçün, Kamran əllərini kreslonun yanlarından çəkib dikəlmişdi. Mən də həmin saat yerimdən qalxdım.

Söhbətimiz davam etdi:

– Bu təklifə nə üçün "baş tutan iş deyil" dedin? Avropaya getmək səni sevindirmirmi?



– O cəhətdən demirəm. Bundan sonra mən daha hərəkətlərimdə sərbəst bir adam deyiləm. Həyatıma aid hər bir şey barəsində səninlə danışmağa məcburam. Belə deyilmi?

– O halda gedə bilərsən.

– Demək, mənim İstanbuldan ayrılmağıma razı olursan, Fəridə?

– Madam ki, kişi üçün mütləq bir peşə lazımdır...

– Sən mənim yerimdə olsaydın, gedərdinmi?

– Zənnimcə, gedərdim. Güman edirəm ki, sən də belə etməlisən.

Etiraf etməliyəm ki, bu sözləri yalnız dodaqlarım deyirdi. Ürəyim isə başqa şey söyləyirdi. Bununla bərabər, mənim də haqqım vardı: "Mən səni qoyub gedimmi?" – deyə soruşan bir adama başqa cür cavab verərlərmi?

O biri yandan Kamran da, mənim bu ayrılığı belə asanlıqla qəbul etməyimdən inciyən kimi oldu. Mənə baxmadan otağın içində bir-iki addım yeridikdən sonra döndü, eyni sualı təkrar etdi:

– Demək, əmimin təklifini qəbul etməyimi düzgün hesab edirsən?

– Bəli.

O içini çəkdi:

– Onda fikirləşərik. Qəti bir qərar vermək üçün hələ vaxtımız var.

Ürəyim yüngülcə çırpındı. "Fikirləşərik" deyəndən sonra, artıq məsələ bitmiş deyildimi?

Hamı daim mənə tapşırardı ki, böyük adamlar kimi ağır təbiətli olum; indi mən də elə danışmağa başladım:

– Mən bu işdə fikirləşməyə dəyər bir şey görmürəm. Əminin təklifi, doğrudan da, yaxşı təklifdir. Qısa bir səyahət heç də pis olmaz.

– Səfarətxanada məmurluq məgər qısa bir səyahətdirmi, Fəridə?

– Doğrusu, çox uzun da deyil. Bir, iki, üç, dörd illik bir şeydir. Göz yumub-açınca gəlib keçəcək. Yəqin arada gələcəksən də...

Bu bir, iki, üç, dörd ili barmaqlarımla o qədər asan sayırdım ki...

Bir ay sonra Kamranı Qalata körpüsündən paroxoda mindirdik. Onu Avropaya getməyə həvəsləndirdiyim üçün qohumlarımızın hamısı məni təbrik edirdi. Bundan yalnız Müjgan xoşlanmadı. O, Tekir dağından mənə yazdığı məktubunda deyirdi: "Heç yaxşı iş görmədin, Fəridə, sən ona mane olmalıydın. Ən gözəl illərinizi ayrı keçirməyin nə mənası var? Dörd il bitib tükənən vaxtdırmı?"

Bununla bərabər, bu dörd il Müjganın düşündüyündən sürətlə gəlib keçdi.

Kamran, təqaüd almaqla istefaya çıxan əmisi ilə bərabər həmişəlik İstanbula qayıtdığı zaman, mən də bir aydı ki, məktəbi qurtarmışdım.

Məktəbdən çıxmaq!

Mən məktəbdə yaşadığım müddətdə bu alaqaranlıq binaya göyərçin hini adı vermişdim. Əlimdə yaxşı-yaman bir diplomla özümü buradan bayıra atacağım günü mənim üçün bir qurtuluş bayramı olacağını həmişə söyləyirdim. Amma günlərin bir günü bu göyərçin hininin qapısı açıldı. Mən, boyumu xeyli uzun göstərən yeni qara çarşabla, ayağımda dikdaban çəkmələrimlə küçəyə çıxanda çaşıb qaldım. Üstəlik xalam da köşkdə toy hazırlıqlarına başlamışdı. Bu, məni tamamilə haldan çıxardı.

Köşk rəngsazlar, dülgərlər, dərzilər, uzaq yerlərdən gecə qalmağa gəlmiş qohumlarla dolub-boşalırdı. Hərə özünə görə bir işlə məşğuldu. Kimi indidən dəvət məktubları yazır, kimi çatışmayan şeyləri almaq üçün bazarları gəzir, kimi tikiş tikirdi. Mən bu çaşqınlıq içində özümü sərsəriliyə qoymuşdum. Bir işə yaramaq bir yana dursun, başqalarını da işləməyə qoymur, cürbəcür hoqqabazlıqlar edirdim. Axır günlər mən dəliliyimi bir az da artırmışdım. Keçmişdə olduğu kimi, qonaq gəlmiş qohum-əqrəba uşaqlarını dalımca salıb köşkü alt-üst edirdim.

Hər yerdə olduğu kimi mətbəxdə də təmir və rənglənmə işləri gedirdi. Bunun üçün də yeni aşpaz qab-qacağını evin dalında – bağçada qurduğu bir çadıra köçürdüb açıq havada yemək bişirməyə başlamışdı.

Bir gün axşamüstü çadırın önündə onun şirniyyat bişirdiyini gördüm və dərhal ağlıma bir fikir gəldi.

– Ay uşaqlar, – dedim, – siz bu hinlərin dalında gizlənin, səsinizi çıxarmayın. Sizə şirniyyat oğurlayıb gətirəcəyəm.

Aradan heç beş dəqiqə keçməmiş, dolu bir boşqabla kiçik yoldaşlarımın yanına qayıtdım.

Fikrim uşaqların paylarını verdikdən sonra, hər birini bağçanın bir bucağına göndərib boşqabı hinin içində gizlətmək idi. Amma mən aşpazın oğurluğu duyan kimi hiddətlə o yan-bu yana qaçıb hər yeri axtaracağını heç ağlıma da gətirməmişdim.



Bir az sonra mətbəx çadırının önündə böyük bir qiyamət qopdu. Aşpaz bərkdən çığırıb deyirdi: "Bunu edənin, vallahi-billahi, sümüklərini qıracağam!" Qorxuya düşmüş uşaqlar məni dinləməyib qaçışmağa başladılar, şübhəsiz ki, çox yaxşı etdilər. Çünki bir az sonra aşpaz ikimizi tapıb əlində kəfgirini dəyənək kimi yelləyə-yelləyə üstümüzə cumdu.

Xain aşpaz məni hamıdan böyük gördüyü üçün, uşaqları burax: məni qovmağa başladı. Bu vaxt ayağı bir şeyə ilişib yerə sərildiyindən qəzəbi daha da artdı.

Aşpaz təzə adam olduğundan məni tanımırdı. Vəziyyət çox pis idi. Tutulsam özümün kim olduğunu başa salana qədər, heç olmasa, bir neçə kəfgir zərbəsi yeyib rüsvay olacaqdım!

Köşk tərəfinə qaçmaq mümkün olmadığı üçün, çarəsiz küçəyə tərəf qaçır və bərkdən çığırırdım.

Allahdan oldu ki, sabahdan bəri işləməkdə olan madmazel dərzi ilə Dilbər qalfa[1] bağçaya hava almağa çıxmışdılar. Yolda onlarla qarşılaşanda "gəlir!" deyə boyunlarına sarıldım və arxalarında gizləndim.

Dilbər qalfa əllərini aşpazın kəfgirinin qabağına uzadıb bağırdı:

– Neyləyirsən, ay aşpazbaşı, dəli olubsan? O gəlindir!

Başqa bir vaxt olsaydı, bu "gəlin" kəlməsi üçün Dilbər qalfanı mütləq əzişdirərdim, amma o qədər qorxmuşdum ki, mən də qeyri-ixtiyari ona qoşulub bağırdım:

– Vallah mən gəlinəm, ay aşpazbaşı!

Mən bu aşpaz kimi dəli və tərs adam görməmişdim. Qalfanın və madmazelin sözlərinə bir müddət inanmadı: "Yox, belə oğru gəlin olmaz!" deyə söyləndi, nəhayət, bu söz ağlına batanda dedi: "Afərin sənə belə gəlin! Elə isə, mənə bir yeni şalvar alarsan. Bax, şalvarımın dizlərini partlatdırdın".

Yazıq kişi yıxılanda, burnu da yerə dəyib siyrilmişdi, amma yaxşı ki, onu da hesaba qatıb əvəzini istəmirdi. Bu komediyanın gizlin qalması üçün təkid etdiyimə baxmayaraq üstü açıldı və hər dəfə yemək zamanı mənə baxa-baxa gülmək adət halını aldı.

[1] Qalfa – ümumiyyətlə usta, xidmətçi; burada ev qulluqçusu

Toya üç gün qalmışdı. Axşamüstü həmin bağçanın qapısı yanında uşaqlarla ip üstündən hoppandığım zaman mənə bir də hücum edildi. Amma bu dəfə hücum edən adam, əvvəlki hücumda məni aşpazın əlindən qurtarmağa çalışan madmazel dərzi idi. Bəlkə otuz ildən bəri köşkün tikişlərini tikən bu madmazel altmış yaşında, gözlüklü, qartımış bir qızdı. Dünyanın ən zərif, ən şirindil adamı olmasına baxmayaraq, bu axşam o da özündən çıxmışdı. Üzünü mənə tutub dedi:

– Madmazel, rica edirəm, bir neçə gündən sonra sizə madam deyəcəyik, bu nədir edirsiniz? Yarım saatdır sizi axtarıram ki, paltarı sonuncu dəfə əyninizə geydirib baxım.

Bəsimə xalamın madmazel dərzinin yanında olması işləri lap korlayırdı. Xalamın qaşqabaqlı olması göstərirdi ki, mübahisə uzansa, o da madmazelin tərəfini saxlayacaqdır.

Mən dedim:

– Pardon, madmazel,[1] mən elə buradaydım. İnandırıram ki, siz məni çağıranda eşitməmişəm.

Xalam daha dözə bilmədi. Hər dəfə mənə acığı tutanda etdiyi kimi, əli ilə çənəmi oxşayıb dedi:

– Ay balam, sən öz səsindən, öz qəhqəhəndən başqasının səsini eşidə bilirsən ki!.. Sözün düzü, qorxuram üç gün sonra da, qonaqlarımızın arasında yenə bir hoqqa çıxarasan!..

Hərçənd həmişə şuluqluq edirdim. Lakin buna baxmayaraq, o günlər ürəyim çox narahat idi və yaman həyəcan keçirirdim. Birindən nəvaziş görməyə, dərdləşib ürəyimi açmağa bərk ehtiyacım vardı, xalamın bu nəvazişindən lap ürəyim əriyirdi.

Çənəmi xalamın əlindən çəkməkdən, ətəklərimi barmaqlarımla iki yandan tutdum və yüngülcə bir reverans edib dedim:

– Narahat olmayın, xala. Çox yox, üççə gün də dözün. Onda siz mənim təkcə xalam olmayacaqsınız... Başqa bir adınız və başqa sifətiniz də olacaqdır. Sizə söz verirəm ki, Çalıquşunun öz xalasına etdiyi naz və üzlülüyü Fəridənin həmin xanım əfəndiyə etməyə cəsarəti çatmaz!..

Xalamın gözləri yaşardı, mənim yanaqlarımdan öpüb dedi:

– Mən sənə həmişə ana olmuşam, elə də qalacağam, Fəridə!

[1] Pardon, madmazel – bağışlayın, xanım qız (*frans.*)



Mən o qədər coşmuşdum ki, birdən xalamın qılçalarından yapışıb havaya qaldırdım və eynən onun mənə etdiyi kimi yanaqlarından öpdüm.

Madmazel bəzi xırda düzəlişlərindən başqa bir işi qalmayan ağ paltarımı əllərində tutub yuxarı qaldıranda, mən qıpqırmızı qızardığımı hiss etdim. Otaqdakıları bir-bir oxşayıb, öpə-öpə yalvarmağa başladım:

– Nə olar, siz bayıra çıxın. Gözünüzün önündə geyinə bilmərəm. Təsəvvür edin ki, bu yeni, uzun ətəkli paltarda Çalıquşu tovuz quşuna bənzəyəcək. Ay aman, necə gülüncdür! Özümü də gülmək tutur.

Nə qədər yalvarıb dedim: "Nə olar, qoyun, bu nişanda da elə öz adi paltarımı geyim!" Amma heç qulaq asan olmadı.

Madmazel əlindəki paltarla mənə sarı gəldikcə, mən ora-bura qaçır, yarpaq kimi tir-tir əsirdim.

Bayırdakılar hay-küyü artırır, içəri girmək istəyirdilər.

– Bir az da, rica edirəm, bircə dəqiqə gözləyin, hamınızı çağıracağam, – deyə yalvardım.

Amma onlar inanmadılar.

– Aldadır, soyunduqdan sonra çağıracaq, – deyə bağırışaraq qapını itələməyə başladılar.

Elə bu zaman iki tərəf arasında həyəcanlı bir əlləşmə başlandı. Bayırdakılar uşaqlı-böyüklü, bir-birinə qarışaraq itələşir, gülə-gülə qapını basırdılar, mən isə bütün qüvvətimi toplayıb qapını açılmağa qoymurdum.

Dəhlizdə dəmir nallı çəkmələrini yerə döyərək: "Hücum... Hücum!.. Müharibə var!" deyə bağırışan uşaqların səsinə köşkün bütün adamları yüyürüb gəlirdilər.

Madmazel yanımda durub:

– Eləməyin, Allah eşqinə çəkilin, paltar cırılar, – deyə çığırır, amma səsini heç kəs eşitmirdi.

Birdən səs-küy kəsilən kimi oldu. Qapıya bir ayaq səsi yaxınlaşırdı. Bu vaxt Kamranın:

– Aç, Fəridə, mənəm. Təbii ki, mənə qadağan deyil. Qoy sənə köməyə gəlim, – dediyini eşitdim və lap dəli oldum.

Bu dəfə mən yalvarıb dedim:

– Qoy hamı gəlsin, ziyan yoxdur, amma sənə olmaz! Sən, Allah eşqinə, get! Vallah ağlayacağam...

Amma Kamran bu yalvarışlarıma fikir vermədi, qapını bərk itələyib taybatay açdı.

Mən çığıra-çığıra otağın bir küncünə qaçdım və əlimə keçən bir mantoya bürünüb büzüldüm.

Madmazel huşunu itirəcək bir halda idi:

– Paltar xarab oldu, zəhmətim hədər getdi! – deyə az qala saçını yolurdu.

Kamran mantonun bir ucundan tutdu və gülə-gülə dedi:

– Məğlub olduğunu daha boynuna almalısan, Fəridə. Aç paltarını görüm!

Məndə daha nə səs vardı, nə hərəkət.

O bir az gözlədikdən sonra davam etdi:

– Fəridə, bu saat küçədən gəlmişəm. Çox yorğunam. Məni işə salma, paltarınla o qədər maraqlanıram ki, inad etsən, zor işlətməyə məcbur olacağam. Bax, beşə qədər sayıram: bir, iki, üç, dörd, beş.

Kamran mümkün olduğu qədər ağır-ağır sayırdı. Beşə qədər sayıb qurtarandan sonra mantonun ucunu çəkib üzümü göz yaşlarına bulanmış gördü, özünü yaman itirdi və otağı zorla boşaldaraq qapını örtdü.

Madmazelin heyrətdən dili tutulmuşdu. Kamran da, demək olar ki, o halda idi. Bir az sonra Kamran utanmış, kədərlənmiş bir səslə dedi:

– Məni bağışla, Fəridə, səninlə kiçik bir zarafat etmək istədim. Elə bilirəm ki, buna haqqım var. Amma sən hələ o qədər uşaqsan ki... Məni bağışlayırsan, deyilmi?

Başımı hələ də mantonun içindən çıxarmayıb cavab verdim:

– Yaxşı, amma sən bu saat otaqdan çıxmalısan!

– Bir şərtlə. Səni bağçanın o biri başındakı qayanın yanında gözləyəcəyəm. Yadındadırmı, dörd il bundan qabaq bir axşam səninlə orada barışmışdıq. İndi də elə edəcəyik. Söz verirsənmi?

Bir az duruxduqdan sonra dedim:

– Yaxşı, gələrəm. Amma sən indi get!

Yazıq madmazeldə bu qəribə təbiətli gəlinlə danışmağa cəsarət qalmamışdı. O bir kəlmə demədən, məni soyundurduqdan sonra, təkrar qısa ətəkli çəhrayı paltarımı geydim, üstünə qara məktəb önlüyümü keçirdim, Müjganın da üzünə baxmadan otağıma qaçdım. Orada gözlərimdəki qırmızılıq gedənə qədər üzümü soyuq su ilə yudum. Bağçaya endiyim zaman hava qaralırdı. İndi əsil məsələ kimsənin gözünə görünmədən Kamranın yanına qaçmaqdan ibarət idi.



Gəzə-gəzə mətbəxin arxasından ötdüm, aşpazla bir-iki kəlmə danışdım. Sonra ağır-ağır bayır qapıya sarı getməyə başladım. Məqsədim izimi azdırıb sonra bağça divarının dibi ilə Kamranın yanına getmək idi. Amma...

Daim açıq olan küçə qapısının ağzında qara çarşablı, uzun boylu bir qadın gözümə dəydi. Yaşmağı örtülü idi. Elə bil köşkdən bir şey soruşmaq istəyir, amma içəri girməyə cəsarət etmirdi.

Kamran xeyli vardı ki, məni gözləyirdi. Bu yaşmaqlı qadının tanış bir adam olub məni sözə tutmasından qorxdum, yolumu dəyişdirdim və ağacların arasına girməyə çalışdım. Amma qadın birdən-birə məni çağırdı:

– Kiçik xanım, bir bura zəhmət çəkin...

Mən çarəsiz dönüb qapıya sarı getdim.

– Buyurun, xanım əfəndi, bir əmrinizmi var?

– Mərhum Seyfəddin paşanın köşkü bura deyilmi?

– Bəli, əfəndim.

– Siz köşkdənsinizmi, əfəndim?

– Bəli.

– Onda sizdən bir ricam var.

– Buyurun, əfəndim.

– Mən Fəridə xanım əfəndi ilə görüşmək istəyirəm.

Bir azca diksinən kimi oldum, gülməmək üçün başımı aşağı əydim. Öz barəmdə ilk dəfə eşitdiyim bu "xanım əfəndi" sözü mənə elə qəribə gəlirdi ki...

Fəridə xanım əfəndinin özüm olduğunu söyləməyə heç cürə cəsarət edə bilmədim. Dodaqlarımı dişləyərək dedim:

– Çox əla, xanım əfəndi, lütfən buyurun içəri. Köşkdən soruşarsınız, sizə Fəridə xanımı çağırarlar.

Qara çarşablı qadın qapıdan girib mənə yaxınlaşdı və dedi:

– Sizə təsadüf etməyim çox yaxşı oldu, əzizim. Sizdən bir şey rica edəcəyəm. Mənim Fəridə xanımla təklikdə danışmağıma vasitəçilik edin. Mümkünsə, heç kəsin bundan xəbəri olmamalıdır.

Mən heyrətlə onun üzünə baxdım. Hava qaralmışdı, qadın yaşmağını hələ açmadığı üçün üzünü seçə bilmirdim. Bir azca duruxduqdan sonra dedim:

– Xanım əfəndi, qəribə bir qiyafətdə olduğum üçün, birdən-birə deməyə cəsarət edə bilmədim, amma Fəridə mənəm.

Qadın bir az həyəcanlandı.

– Kamran bəyə ərə gedən Fəridə xanımmı?

– Köşkdə bircə Fəridə var, xanım əfəndi, – deyə gülümsündüm.

Qara çarşablı qadın duruxdu. Bir az əvvəl onu Fəridə ilə görüşdürməyimi səbirsizliklə istədiyi halda, indi qarşımda bir büt kimi donub qalmışdı. Bu nə deməkdi? Görəsən Fəridə olduğuma hələ də inanmırdımı? Yoxsa başqa bir şey vardı? Marağımı gizlətməyə çalışaraq təkrar danışmağa məcbur oldum:

– Əmrinizi gözləyirəm, xanım əfəndi.

*Qəribədir, qadın hələ də dinmirdi. Bir az irəlidə ağacların arasında* bir bağça skamyası gözümə dəydi.

– İstəyirsiniz ora gedək, xanım əfəndi, – dedim. – Orada heç kəs bizi narahat etməz və danışa bilərik.

Biz skamyaya oturduqdan sonra da qadın danışmadı. Amma axırda qərara gəlib sərt bir hərəkətlə yaşmağını qaldırdı; o, otuz yaşlarında ağıllı bir qadın idi, çöhrəsindən hirsli olduğu sezilirdi. Havanın qaranlıq olmasına baxmayaraq, bənizinin son dərəcə saralmış olduğunu sezdim.

– Fəridə xanım, – dedi, – mən bura bir köhnə yoldaşımın tapşırığı ilə gəlmişəm. Amma öhdəmə götürdüyüm vəzifənin bu qədər çətin olduğunu bilməmişdim. Bir az əvvəl sizi görmək üçün təkid etdiyim halda, indi az qala qaçmaq istəyirəm.

Vücuduma bir titrəmə düşdü. Ürəyim şiddətlə çırpınırdı. Amma hiss etdim ki, bir az cürətli olmasam, özünün bir az əvvəl dediyi kimi qaçacaq. Mümkün qədər sakit bir tövr almağa çalışıb dedim:

– Vəzifə vəzifədir, xanım əfəndi. Cürətli olmaq lazımdır. O yoldaşınız məni tanıyırmı?

– Xeyr. Daha doğrusu, özünüzü görməmişdir. Yalnız Kamran bəyin nişanlısı olduğunuzu bilir.

– Kamran bəyi tanıyırmı?

– ...

Daha məndə də başqa bir şey soruşmağa taqət qalmamışdı. Bu dəqiqə mən maraqdan dəli olmaq dərəcəsinə gəldiyim halda, o doğrudan da getmək istəyirdi, güman edirəm ki, getmək istəsəydi, onu yolundan qaytarmayacaqdım.



– *Fəridə xanım, məni dinləyin. Birdən-birə nə üçün duruxduğumu* başa düşmürsünüz. Mən güman edirdim ki, burda boya-başa çatmış, yetişmiş bir xanımla üz-üzə gələcəyəm. Halbuki, qabağıma az qala bir məktəbli uşaq çıxdı. Sizi çox kədərləndirməkdən qorxuram. Duruxmağımın səbəbi budur.

Bu yad qadının sanki mənə rəhmi gəlirdi. Bu hal mənim izzətinəfsimə toxundu və bütün qüvvətimi özümə qaytardı.

Ayağa qalxdım, arxamı skamyanın önündəki ağaca dayayıb əllərimi qoynuma qoydum, sakit, hətta vüqarlı bir səslə dedim:

– Bu vəziyyətdə tərəddüd etmək düzgün deyil. Görürəm ki, danışacağınız şey mühümdür. Onun üçün rəhmdilliyi-filanı bir tərəfə atıb, açıq danışsaq, daha yaxşı olar.

Qadın mənim bu cürətli tövrümü görüb özünü ələ aldı və bir sual verdi:

– Kamran bəyi çox sevirsinizmi?

– Bunun sizə dəxli yoxdur, xanım əfəndi.

– Bəlkə vardır, Fəridə xanım.

– Mən sizə əvvəldən dedim ki, açıq danışmasaq, işin içindən çıxa bilməyəcəyik, xanım əfəndi.

– Yaxşı elə olsun. Sizə xəbər verməyə məcburam ki, Kamran bəyi mənim bir yoldaşım da sevir.

– Ola bilər, xanım əfəndi. Kamran bir çox yaxşı cəhətləri olan gəncdir. Bir başqasının onu gözaltı etməsində bir fövqəladəlik görmürəm.

Bircə yarpağın da tərpənmədiyi bu sakit və gözəl yay axşamında mən gözlənilməz bir fırtınanın gəlib çatdığını çox yaxşı başa düşürdüm, amma hardan gəldiyini bilmədiyim bir qüvvə ilə bu fırtınaya qarşı durmağa özümü hazır görürdüm.

Qadına söylədiyim son cümlədə bir az istehza da vardı. O, ayağa qalxmadısa da, ancaq yerindən dikəlməsindən, sinirli bir hərəkətlə çarşabının ətəklərini düzəldərək skamyanın taxtalarını tutmasından, onun da bu işi qurtarmağa qərar verdiyini anladım. Qadın maşın kimi sürətlə və laqeyd bir səslə dedi:

– İlk baxışdan sizi uşaq zənn etdim, indi isə görürəm ki, qarşımda mükəmməl, yüksək tərbiyəli bir gənc qız durub. Heyif ki, Kamran bəy sizin qədrinizi lazımınca bilmir. Yaxud nə deyim, bəlkə də bilir,

amma ötəri bir həvəsə düşmüşdür. Sözün qısası, Kamran bəy, dediyim yoldaşımla iki il əvvəl Avropada tanış olmuşdur. Bilmirəm sizə daha artıq təfsilat vermək lazımdırmı?

Mən başımı yırğalayıb dedim:

– Sözlərinizin doğruluğunun isbatı üçün lazımdır!

– Yoldaşımın adı Münəvvərdir. Köhnə saray məmurlarından birinin qızıdır. İlk dəfə sevdiyi adama ərə getmişdi, amma xoşbəxt ola bilməmişdi. Sonra xəstələndi. Doktorlar Avropaya göndərilməsini tövsiyə etdilər. Tamamilə sağalıb öz ölkəsinə qayıdacağı zaman bu iş başına gəlmişdi. Kamran bəy arada İsveçrəyə gedibmiş. Məzuniyyətmi alıb, vəzifəsinə görəmi gedib, bunu çox yaxşı bilmirəm. Bir-birinə orda təsadüf ediblər. Kamran bəy İsveçrəyə bir həftəliyə gəldiyi halda, iki aya yaxın orada qalıb, hətta bunun üstündə gərək ki, bir cəza da alıb.

– İcazənizlə bir sual, – dedim. – Yoldaşınızın bunları mənə xəbər verməkdə məqsədi nədir?

Yad qadın bu dəfə ayağa qalxmağa məcbur oldu. Əlcəkli əllərini ovuşduraraq dedi:

– Bax, bunu söyləmək çətindir. Münəvvər bu gün sizin düşməninizdir.

– Əstəğfürullah!

– Elədir, Fəridə xanım. Amma Münəvvər heç də pis adam deyil. Son dərəcə həssasdır. Kamran bəylə olan macərası ötəri bir macəra deyildir. Münəvvər ərə getmək fikrində idi. Bir qəbahət varsa, tamamilə Kamran bəydədir. Çünki, bir başqasına adaxlı olduğunu ondan gizlədibmiş. Bu çirkin vəzifəni boynuma götürməyimə səbəb budur ki, onsuz da xəstə olan bu həssas qadının ölməsindən qorxuram.

– Yəni Kamrana getməsə, ölər?

– Nə üçün yalan deyim, elədir. Münəvvər bu xəbərdən sonra qətiyyən yaşamaz.

– Vay o yazığın halına!

– Daha doğrusu, ikiniz də yazıqsınız.

Onun həddini aşdığını başa salmaq üçün əlimlə işarə edib güldüm:

– Məni qatmayın, siz bu saat onu düşünə bilərsiniz!

– Nə üçün, Fəridə xanım, hərçənd Münəvvərlə uzun illərdir ki, yoldaşlıq edirəm, amma siz də çox yaxşı qızsınız və bu işdə tamamilə təqsirsiz, günahsızsınız. Odur ki, sizə ürəyim yansa...



Bu dəfə mən daha sərtləşdim, məğrur bir tövrlə dedim:

– Ona icazə verə bilmərəm. Həm də güman edirəm ki, daha danışmalı bir sözümüz qalmadı.

Arabir yad qadın bir şey axtarırmış kimi əl çantasını açıb-örtürdü. O, söhbəti qurtarmaq istədiyimi görəndə büzük bir kağız çıxartdı:

– Fəridə xanım, sözlərimin doğru olduğunu sübut etmək üçün sizə Kamran bəyin bir məktubunu da gətirmişəm. Bilmirəm onu görmək sizi kədərləndirməz ki?

Əvvəl məktubu əlimlə itələmək istədim. Amma sonra fikirləşdim ki, bu səhv olar, odur ki, aldım.

– İstəyirsiniz məktub sizdə qalsın. Sonra oxuyarsınız. Yoldaşıma daha bu məktub lazım deyil.

Çiyinlərimi çəkib dedim:

– Heç mənə də lazım deyil. Rəfiqəniz üçün bu, bir xatirədir. Özündə qalması yaxşıdır. Yalnız icazə verin, ona göz gəzdirim.

Hava qaralmışdı. Ağacların arasından yola çıxaraq, məktubu gözlərimə yaxınlaşdırdım. Əslində bu yazıya alışmış olduğum üçün oxumağa başladım.

Məktub "Mənim sarı çiçəyim" sözləri ilə başlanırdı. Ardınca bir yığın şairanə sözlər gəlirdi. Dan yeri sökülərkən sübh şəfəqi ətrafa necə aydınlıq yayırsa, sarı çiçəyi görəndən sonra guya Kamranın da qəlbinə belə bir aydınlıq yayılıbmış: "Ürəyimdə anlaşılmaz bir sevinc vardı. Mən mütləq fövqəladə bir şeylə qarşılaşacağam". Nəhayət, o fövqəladəlik olubmuş, bir axşamüstü mehmanxananın bağçasında işıqlar yananda, Kamran o sarı çiçəyi qarşısında görübmüş...

Məktubun bundan sonrasını çox sürətlə oxudum, gözlərim getdikcə artan qaranlıqda yazıları elə pis seçirdi ki, demək olar, heç bir şey yadımda qalmadı. Yalnız, bilmirəm nə səbəbə, məktubun bir neçə dəfə təkrar etdiyim bu son sətirlərini hələ indi də gözümün önündə görürəm: "Könlüm boşdu. Sevməyə ehtiyacım vardı. Sizi – sizin uzun, incə vücudunuzu, bənövşə gözlərinizi qarşımda görəndə, hər şeyin rəngi dəyişdi".

Yad qadın ağır-ağır yanıma gəldi, səsi titrəyə-titrəyə sözə başladı:

– Fəridə xanım, sizi incitdim. Amma inanın ki...

Mən birdən-birə dikəlib onun sözünü kəsdim. Məktubu uzadıb dedim:

– Nə dəxli var? İncimәli heç bir şey yoxdur. Bunlar adi şeylәrdir. Hәtta mәn sizә tәşәkkür dә etmәliyәm. Mәnә hәqiqәti söylәdiniz. İndi daha icazә verin gedim.

Mәn ona başımla yüngülcә xudahafiz işarәsi edib yola düzәldim. Amma o mәni tәkrar arxadan çağırdı:

– Fәridә xanım, bircә dәqiqә icazә verin. Yoldaşıma bәs nә deyim?

– Deyin ki, vәzifәnizi yerinә yetirdiniz. Qalanı daha onun öz işidir... Belә deyәrsiniz, qurtarıb gedәr.

Yad qadın mәni bir dә sәslәdi, amma daha dinlәmәdim, sürәtlә ağacların arasına girdim.

Daha bizim barışmamıza şahid olmayacaq hәmin qayanın yanında Kamranın mәni nә qәdәr gözlәdiyini bilmirәm. Amma o, gözlәmәkdәn usanıb otağıma gәlәndә, stolumun üstündә milәmil şagird dәftәrinin vәrәqinә yazdığım bu bir neçә sәtri görәndә, yәqin ki, çaşıb qalmışdı: "Kamran bәy әfәndi, "Sarı çiçәk" romanını başdan-başa öyrәndim. Bir dә ölәnә qәdәr bir-birimizi görmәyәcәyik. Sәnә nifrәt edirәm! *Fәridә*".



# İKİNCİ HİSSƏ

*B..., sentyabr, 19... il*

– Gәldiyin gündәn bәri gecә bilmirsәn, gündüz bilmirsәn, yazırsan, hey yazırsan. Bu nә bitib-tükәnmәyәn bir yazıdır! Mәktub desәn, mәktub deyil, mәktub dәftәrә yazılmaz. Kitab desәn, kitab deyil, bizim bildiyimizә görә, kitabı saçlı-saqqallı ülәmalar yazar. Sәn barmaq boyda bir uşaqsan. Axı, belә durub dincәlmәdәn nә yazırsan?

Mәndәn bunları soruşan mehmanxananın qoca otaq xidmәtçisi Hacı qalfadır. Bir saatdan artıqdı ki, bayırda mahnı oxuya-oxuya döşәmә silirdi, indi yorulub, özünün dediyi kimi, mәnimlә bir-iki ağız lağ-lağ elәmәyә gәlmişdir.

Hacı qalfanın halını görәndә özümü saxlaya bilmәdim. Qәhqәhә çәkib gülmәyә başladım.

– Bu nә qiyafәdir, Hacı qalfa?

Hәmişә ağ önlüklә gәzәn Hacı qalfa bu gün әyninә dörd әtәkli, qәdimdәn qalma entari[1] geymişdi. Çılpaq ayaqları ilә döşәmәlәri silәndә yıxılmamaq üçün әlinә yekә bir dәyәnәk almışdı.

– Neylәyәsәn, xanımlıq edirik, gәrәk xanım kimi dә geyinәk, – dedi.

Hacı qalfa arabir söhbәt etdiyim dәrdli qadın qonşumdan başqa otağıma girәn ikinci adamdır. İlk günlәr çәkinirdi. Bir iş üçün otağıma girmәk istәyәndә qapını döyüb deyirdi: "Başını ört, hocanım[2], mәn gәlirәm".

Mәn istehza edib deyirdim: "Ay canım, Hacı qalfa, işin-gücün yoxdur, Allah eşqinә, bizim aramızda nә rәsmiyyәt ola bilәr?"

O, qaşqabaqlı çöhrәsini daha da turşudub mәnә acıqlanırdı:

– Yo-o-ox! Sәn heç nә bilmirsәn. İslam "muhaddәratları"nın yanına hәr cür gәldi girmәk olmaz.

[1] Entari – qadınların geyindiyi uzun üst köynәk
[2] Hoca xanım – (danışıqda "hocanım") müәllimә xanım

"Muhaddərat" hər halda qadın mənasında bir sözdür. Amma müəllimlik qüruruma toxunduğu üçün bunun nə demək olduğunu Hacı qalfadan soruşa bilmirdim. Bununla bərabər zarafat edə-edə, Hacı qalfanı başa salmışdım ki, bu cür hörmət mənasızdır. İndi kefi istəyəndə qapını döyür, çəkinmədən içəri girirdi.

Çox gülməyimə Hacı qalfa əvvəlcə acıqlanan kimi oldu, amma sonra bundan əl çəkib dedi:

– Məni qızışdırmaq üçün qəsdən gülürsən, amma qızışmayacağam.

Sonra gözlərində qəribə bir kədərlə əlavə etdi:

– Bu tək otaqda qəfəsə salınmış bir quş kimi o qədər sıxılırsan ki... Bir az zarafat elə, gül, ziyanı yoxdur. Dostluğumuz daha da artarsa, mən səni əyləndirmək üçün bəlkə bir az oynadım da, anladınmı, əfəndim...

Hacı qalfaya nə yazdığımı söyləyib başa salmaq mümkün deyildi, ona görə dedim:

– Xəttim çox əyri-üyrüdür, ona görə məşq edirəm, Hacı qalfa. Bu günlərdə dərsə başlayacağam. Qorxuram uşaqlar mənə rişxənd edələr.

Hacı qalfa fotoqraf qarşısında durmuş kimi dəyənəyinə söykəndi, gözlərindən gülümsünüb cavab verdi:

– Uşaq aldadırsan? Heç bilirsənmi Hacı qalfa neçə baharın yoğurduğunu yemişdir? Onlar ki xəttat[1] kimi sülüs[2] yazarlar, yazdıqları iki paraya[3] dəyməz. Onlar ki belə qarışqa ayağı kimi əyri-üyrü şeylər qaralarlar, nə çıxsa onlardan çıxar. Heç bilirsənmi biz idarələrə nə qədər ayaq döymüşük, nə cür məmurlar görmüşük? Sənin bir dərdin var. Var, amma bu bizim işimiz deyil. Yalnız yazanda diqqət et ki, barmaqların mürəkkəbə bulanmasın. Yoxsa uşaqlar bax buna rişxənd edərlər. Di yaxşı, sən yazını yaz. Mən də döşəmələrimi silib-süpürüm.

Hacı qalfa gedəndən sonra, təkrar stolumun arxasına keçdim. Amma daha yaza bilmədim. Onun bəzi sözləri mənə yaman yer eləmişdi.

Kişinin haqqı var idi. Madam ki, daha yekə bir adamam, sabahdabirigündə işə başlayacaq bir müəlliməyəm, çalışmalıyam ki, özümdə uşaqlığımdan heç bir əsər-əlamət qalmasın.

---

[1] Xəttat – gözəl xətlə yazan adam, kalliqraf

[2] Sülüs – ərəb əlifbası ilə yazı üslubu

[3] Para – Türkiyədə ən xırda pul



Doğrudan da barmaqlarımdakı, hətta Hacı qalfanın söyləmədiyinə baxmayaraq dodaqlarımdakı mürəkkəb ləkələri nə deməkdir? Hələ gecələr dəftərimi yazanda, tez-tez özümü məktəbdə görməyim, daha bir də görməyəcəyim adamların ətrafımda gəzişdiklərini hiss etməyim bir az da bu ləkələrlə əlaqədar deyilmi?

Hacı qalfanın bu sözü də heç vaxt başımdan çıxmırdı: "Bu tək otaqda qəfəsə salınmış bir quş kimi o qədər sıxılırsan ki..."

Nəhayət, qəfəslərin hamısından qurtulduğum bu gündə, birinin məni qəfəsə düşmüş bir quşa bənzətməsi, əlbəttə, doğru deyildir. Bir də, quş kəlməsində qanadı qırılmış, dimdiyi yumulmuş köhnə "Çalıquşu"nu dirçəltmək arzusu da var. Əgər Hacı qalfa belə danışmağa davam edərsə, yəqin ki, aramız dəyəcəkdi...

Hər halda dəftərimi yarımçıq qoymamaq üçün, möhkəm iradə lazımdır. Çünki, artıq arxada buraxdığım o iyrənc aləmə bir də dönməliyəm.

O, axşam yad qadından Kamranın macərasını öyrəndikdən sonra otağıma gedirdim. Səkinin üstündə xalama rast gəldim, qaranlıqda bir bucağa qısılıb gizlənmək istədim. Amma xalam məni gördü.

– O kimdir? – deyə səsləndi. – Fəridə, sənsənmi? Nə üçün gizlənirsən?

Cavab vermədən qabağında durdum. Bir-birimizin üzünü seçə bilmirdik.

– Nə üçün bağçaya getmirsən?

– ...

– Yəqin yenə bir dəcəllik edibsən.

Sanki görünməz bir əl köksümü basır, nəfəsimi kəsirdi:

– Xala, – dedim.

Xalam bu dəqiqədə mənə bir xoş söz demiş olsaydı, yüngülcə yanağıma toxunsa, saçımı oxşasaydı, ağlayaraq qucağına atılacaq, bəlkə hər şeyi söyləyəcəkdim.

Amma o mənim nə halda olduğumu başa düşmədi. "Yenə nə dərdin var, Fəridə?" – dedi. Mən xalamdan bir şey istəyəndə, o həmişə belə deyərdi. Amma bu axşam mənə elə gəldi ki, xalam bu sözlərlə demək istəyir ki: "Daha bəs deyilmi?!"

– Heç, xala, – deyə cavab verdim. – İcazə versən, səni öpəcəyəm.

Axı, xalam mənə ana kimi idi. Onu axırıncı dəfə öpməmiş ayrılmaq istəmirdim.

Xalamın cavabını gözləmədən əllərini tutdum, qaranlıqda iki yanağından, sonra gözlərindən öpdüm.

Otağım alt-üst idi. Kürsülərin üstünə paltarlar atılmışdı. Dolabın açıq gözlərindən alt paltarlar sallanırdı. Belə cəsarətli iş görən bir qızın öz otağını pinti məktəbli kimi alt-üst qoyub getməyi ayıbdı. Amma nə edə bilərdim, vaxtım çox az idi.

Mən qorxurdum ki, pəncərəmdən işıq görüb otağıma gələrlər. Buna görə də Kamrana deyəcəyim bir neçə sözü qaranlıqda, demək olar ki, əl havasına yazdım.

Sonra dolabımı açdım. Qırmızı lentlə bağlı diplomumu və mənim üçün yadigar kimi qiymətli olan bir neçə şeyi: anamdan qalma sırğa, üzük kimi bir-iki ucuz cavahiratı məktəb çantama doldurdum.

Övladlıqların[1] da qaçarkən belə etdiklərini xatırlayıb acı-acı gülürdüm.

Hara gedəcəyimi ancaq küçəyə çıxandan sonra düşündüm. Bəli, mən hara gedəcəkdim? Gündüz olsaydı, asan idi. Zehnimdə planım vardı. Əsil məsələ bu gecəni keçirmək idi. Gecənin bu vaxtında hara sığına bilərdim? Hər şeyi ölçüb-biçdiyimə baxmayaraq, əlimdə çantamla sabaha qədər tarlalarda gəzə bilməzdim ki! Bir azdan köşkdə qiyamət qopacaqdı. Rüsvayçılıqdan qorxub bəlkə polisə müraciət etməyəcəkdilər, amma yəqin ki, ətrafa adamlar göndərib hər yeri kol-kol axtaracaqdılar. Qatarla, gəmi ilə, hətta faytonla getmək də təhlükəli idi. İzimi çox tez tapa bilərdilər. Hərçənd, həyatını öz arzusuna görə qurmaq istəyən bir adamı zorla bu köşkə qaytarmağa məcbur edə bilən qüvvə yoxdur, amma onlar qərarımı uşaqlıq, ərköyün bir qız nazı sanıb məni də, özlərini də boş yerə incidəcəkdilər.

Onları bu fikirdən daşındırmaq, hətta bir də adımı çəkməyi tövbə etdirmək üçün sabah xalama yazacağım məktubun məzmunu da hazır idi. Amma bu gecə harada qalacağımı bilmirdim.

Əvvəlcə ağlıma yaxın köşklərdə yaşayan bəzi yoldaşlarım gəldi. Onlar məni, əlbəttə, yaxşı qarşılayacaqdılar. Amma tutduğum iş az-çox rüsvayçılıqdı. Belə bir qızı, hətta birgecəlik də olsun, evlərində saxlamaq bəlkə xoşlarına gəlməyəcəkdi. Bir də bu fövqəladə vəziyyətimi izah etmək üçün mən onlara gərək bir şey söyləyəydim. Amma

[1] Övladlıq – övladlığa, oğulluq ya qızlığa götürülmüş yetimlər və yoxsul uşaqları. Nökər, qulluqçu.



hiss edirdim ki, yad adamlara haqq-hesab vermək və onlardan nəsihət eşitmək acığıma gələcəkdir. Nəhayət, mənim ağlıma gələn adamlar, təbii ki, evdəkilərin də yadlarına düşəcəkdi. Məni əvvəlcə elə həmin adamların evlərində axtarmağa başlayacaqdılar. Gecənin bir vaxtı təşviş içində məni soruşmağa gələn bizim adamlara yoldaşlarımın ailələri mənim xatirim üçün "burda yoxdur" deməyə cəsarət edəcəklərmi?

Mən stansiyaya gedən küçəni təhlükəli bilib arxadakı İçərənköy yoluna döndüm. Qaranlıq getdikcə artırdı. Özümü itirməyə, cəsarətsizlik etməyə başladığım vaxt, birdən bir adam yadıma düşdü: səkkiz-on il əvvəl qohumlarımızdan birinin evində dayəlik edən bir mühacir qadın vardı. O, Səhrayi-cədiddə yaşayır, tez-tez köşkə gəlib-gedirdi.

Keçən il bir gün uzun bir axşam gəzintisindən qayıdanda biz onun evinə getmişdik. Bağçasında yarım saata qədər dincəlmişdik. Mən köhnəlmiş pal-paltarımı həmişə ona verdiyim üçün aramız çox yaxşı idi. Gecəni onun evində keçirə bilərdim. Heç kəs də mənim orda olduğumu ağlına gətirməzdi.

Küçədən bir mühacir arabası keçirdi. Əvvəlcə onu saxlamaq istədim. Amma bu, həm təhlükəli idi, həm də yanımda xırda pulum yoxdu.

Çarəsiz qalıb piyada getməyə başladım. Qaranlıqda bir kölgə görəndə, yaxud ayaq səsi eşidəndə qorxa-qorxa dururdum. Gecə vaxtı, tənha çöl yollarında təkbaşına gəzən bir qadından kim şübhələnməzdi? Yaxşı ki, buralarda ins-cins yoxdu. Yalnız bir bağın kənarından keçəndə bir az qorxdum. Qarşıdan mahnı oxuya-oxuya bir neçə sərxoş gəlirdi. Mən hoppanıb bağın alçaq çəpərinin üstündən içəri atıldım. Onlar keçib gedənə qədər orda gizləndim. Bağda köpək olsaydı, işim xarabdı.

Bundan başqa, Səhrayi-cədid küçəsini keçəndə dəyənəyini yorğun-yorğun sürüyən bir keşikçiyə rast gəldim. Amma xoşbəxtlikdən o, məni görmədən yan küçələrdən birinə döndü.

Dayə ilə qoca əri məni görəndə çaşıb qaldılar. Yolda hazırladığım uydurma bir nağılı onlara söylədim. Dedim ki, böyük əmimlə Üsküdardan[1] gəlirik. Burada faytonumuzun təkəri sındı. Başqa bir fayton tapa bilmədik. Çarəsiz qalıb piyada getməyə başladıq. Uzaqdan sizin lampanızı gördük. Əmim mənə dedi: "Haydı, Fəridə, yad

[1] Üsküdar – İstanbulun Asiya hissəsində köhnə məhəllələr

yer deyil ki, sən bu gecə dayəyə qonaq ol, mən də buralardakı bir dostumun evində qalaram".

Doğrusu, nağılım bu saf insanların da asanlıqla inana biləcəyi bir nağıl deyildi. Amma kiçik xanımı bir gecə qonaq saxlamaq şərəfi onlar üçün o qədər böyük bir şeydi ki, sözlərimə şübhə etmədilər.

Yazıq dayə mənim üçün hazırladığı çiçək ətri verən tərtəmiz yatağı ertəsi gün səhər boş, toxunulmamış görəndə heyrətdən ayaqları yəqin yerə yapışmışdı... Lakin artıq iş işdən keçmiş, quş uçmuşdu...

O gecə dayənin otağında lampanı söndürüb qaranlığa baxa-baxa uzun bir plan hazırlamışdım.

Dolabın bir küncündə olan, qırmızı lenti getdikcə solub saralmaqdan başqa bir şeyə yaramayacağını zənn etdiyim diplomuma indi böyük əhəmiyyət verirdim. Bütün ümidim bu kağız parçasına idi. Söylənildiyinə görə, bu diplomu çox yaxşı qəbul edirmişlər. Mən onun sayəsində Anadolu vilayətlərindən birində müəllimlik vəzifəsi alıb bütün həyatımı çoluq-çocuq arasında, şən və xoşbəxt keçirəcəkdim.

İstanbuldan çıxana qədər Əyyubsultandakı Gülmisal qalfanın evində gizlənməyi qərara almışdım. Gülmisal qalfa anamın dayəsi idi. Anam ərə gedəndə onu da Əyyubda qoca bir keşikçiyə köməkçi vermişdilər.

Gülmisal qalfa anamı çox sevirdi, amma xalalarımla arası yoxdu. Nənəmin sağlığında arabir sahildəki köşkümüzə gəlib mənə rəngbərəng Əyyub oyuncaqları gətirərdi. Amma nənəm öldükdən sonra qalfa köşkdən ayağını kəsmiş, xalalarım da onun adını yaddan çıxarmışdılar. Səbəbini bilmirəm, amma gərək ki, aralarında bir söz olmuşdu.

Hər halda İstanbulda mənim üçün Gülmisal qalfanın evindən daha arxayın bir ev yox idi.

Xalam, mənim zehnimdə getdikcə qol-budaq atan məktubumu aldıqdan sonra ağlamaqdan başqa bir şey edə bilməyəcəkdi. O biri alçaq isə izimi tapmış olsa da, qarşıma çıxmağa üzü yox idi, axı, hər necə olsa, insandır.

Səhər sübhdən Gülmisal qalfanın küçə qapısını aralı gördüm. Başına örtdüyü örtüyün altından xınalı saçları görünürdü, çılpaq ayaqlarında hamam nəleyinləri[1] var idi. O, evin səkisini yuyurdu.

[1] *Nəleyin – evdə geyilən yüngül ayaqqabı, tərlik*



Mən bir şey söyləmədən qapının önündə durdum, onu seyr etməyə başladım. Üzüm örtülü olduğu üçün, o məni tanıya bilmir, mavi gözləri ilə çaşqın-çaşqın mənə baxırdı.

Gülmisal qalfa:

– Bir şeymi istəyirsiniz, xanım? – dedi.

Mən bir-iki dəfə udqunduqdan sonra soruşdum:

– Ay dayə, məni tanımadınmı?

Səsim ona anlaşılmaz bir təsir etdi. Qorxub geri çəkildi:

– Fəsübhanallah, fəsübhanallah! – deyə səsləndi. – Üzünü açsana, xanım!

Çantamı yaş daşların üstünə qoyub yaşmağımı qaldırdım. Qalfa boğuq bir fəryad qopardı:

– Güzidəm, Güzidəm gəlib! Ah, mənim balam!

Qalfa damarları çıxmış zəif qolları ilə boynuma sarılıb gözlərindən sel kimi yaş tökə-tökə:

– Ah balam, ah balam! – deyib hıçqırırdı.

Mən bu həyəcanın səbəbini başa düşmüşdüm. Deyirdilər ki, mən getdikcə anama daha çox bənzəyirəm. Hətta anamın köhnə bir yoldaşı deyərdi: "Fəridənin üzü və səsi eynən Güzidənin iyirmi yaşındakı çöhrəsi, səsidir. Odur ki, Fəridəni ağlamadan dinləyə bilmirəm".

Gülmisal qalfa da indi anamı yadına salmışdı. Ağlamağın bu qədər gözəl bir şey olduğunu bu qoca çərkəz qulluqçudan əvvəl mənə heç bir kimsə anlada bilməmişdi.

Anam mənim yadımda xəyal kimi qalmışdı. Bəzi boş qalmış otaqlarda, toz-torpağa bulanmış, cizgiləri və boyaları silinmiş köhnə *rəsmlər kimi aydın seçilməyən bu xəyal bu günə qədər məndə nə* bir kədər, nə də böyük bir sevgi oyandırmamışdı.

Amma Gülmisal qalfa yazıq, mənimlə onu ayırd etməyərək "Güzidəm!" – deyə hıçqıranda ürəyimdə qəribə bir hal oldu. Anam gözümün önündə canlandı, ölümünün odu ürəyimi yandırdı. Mən də: "Ana, anacığım!" – deyə hönkürə-hönkürə ağlamağa başladım. Yazıq qalfa öz dərdini unudub mənimlə məşğul olmağa başladı.

Göz yaşları içində ondan soruşdum:

– Qalfa, anam mənə çoxmu bənzəyirdi?

– Çox, qızım... Səni görəndə ağlım çaşdı, elə bildim onu görürəm. *Allah sənə torpağı sanı ömür versin!*

Qoca qalfa səkinin yanındakı otaqda məni uşaq kimi soyunduranda, hələ də içimi çəkə-çəkə ağlayırdım.

Onun batist pərdəli kiçik otağında keçirdiyim ilk saatların ləzzətini dünyada unuda bilməyəcəyəm. Məni soyundurduqdan sonra toxunma bir örtü ilə örtülmüş çarpayısının üstünə uzandırdı, başımı dizinə qoydu, alnımı və saçlarımı oxşayaraq, mənə anamdan danışmağa başladı.

Anam doğulduğu gün mavi üz yemənisi ilə ilk dəfə onu qucağına aldığı dəqiqədən tutmuş, ayrıldığı günə qədər bütün xatirələrini bir-bir danışdı.

Növbə mənə çatanda, mən də başıma gələnləri olduğu kimi ona söylədim. Qalfa mənim sözlərimi bir uşaq nağılı kimi gülümsəyərək dinləyir, arabir "vay balacan!" deyə içini çəkirdi. Amma mən dünən gecə köşkdən çıxdığımı, bir də ölənə qədər ora qayıtmayacağımı söyləyəndə qalfa təşvişə düşüb dedi:

– Fəridə, sən uşaqlıq etmişsən. Kamran bəy də bir işdir eləmişdir, tövbə edər, bir daha belə şeylərə baş qoşmaz.

Həyəcanlarımı Gülmisal qalfaya başa salmağa imkan yox idi.

Hekayəmin sonunda dedim:

– Gülmisal qalfa, beynini nahaq yerə yorma. Mən iki-üç gün sənə qonaq olduqdan sonra, başqa bir vilayətə gedəcəyəm. Öz əlimin əməyi ilə yaşayacağam.

Mən belə deyəndə, yazıq qadının gözləri dolur, əllərimi oxşayıb yanaqlarına, dodaqlarına sürtə-sürtə deyirdi:

– Mən bu əllərə qıya bilərəmmi?!

Qalfanı dizlərimin üstündə oturdub atıb tuta-tuta qırışmış yanaqlarını darta-darta onu başa saldım ki, bu əllər üçün hələlik böyük bir təhlükə yoxdur. Dəcəllik edən bir neçə uşağın hərdən qulaqlarını çəkməkdən başqa bir şeylə məşğul olmayacaqdır.

Anadoluda necə müəllimlik edəcəyimi, nə işlər görəcəyimi elə ləzzətlə danışırdım ki, nəhayət, o da mənim həyəcanıma qoşuldu. Yaşıl bir bürüncəyə sarınmış kiçik Quranı götürdü və ona and içdi ki, burada qonaq qaldığım müddətdə məni ələ verməyəcəkdir. O biri tərəfdən məni axtarmağa gəlsələr, onları qapıdan qaytaracaqdır.

O gün axşama qədər Gülmisal qalfa ilə ev işi gördük. Mən bu vaxta qədər həmişə hazır yemişdim. Bir gün bircə yumurta da bişirməmişdim. Bu hal artıq dəyişməli idi. Bundan sonra aşpazı, qulluqçunu



hardan tapacaqdım? Hazır Gülmisal qalfa əlimdə ikən, ondan yemək bişirməyi, qab-qacaq və pal-paltar yumağı, hətta söyləmək ayıb da olsa, sökük tikib corab yamamağı da öyrənməliydim.

Tuflilərimi, corablarımı çıxarandan sonra o saat işə girişdim. Qalfanın etirazlarına, fəryadlarına qulaq asmayıb quyudan çəllək-çəllək su çəkdim. Döşəmələri sildim, yaxud çirkləndirdim. Sonra yenə quyu başında oturub onunla bərabər göyərti arıtdım.

Göyərti arıtmaq deyib keçirik, amma bu nə incə iş imiş!

Qalfa soyduğum kartofları görəndə fəryad edib dedi:

– Qızım, sən onların yarısını qabıqları ilə bərabər atırsan.

Mən diqqətlə baxıb dedim:

– Doğrudan elədir, qalfa. Mən bunu səndən öyrənməsəydim, min zəhmətlə satın aldığım kartofların yarısını atacaq və ömrümün sonuna qədər bunu başa düşməyəcəkdim.

Ondan öyrənəcəyim şeyləri yazmaq üçün yanıma kiçik bir dəftərçə qoymuşdum.

Tez-tez belə-belə suallarla qalfanı güldürürdüm:

– Ay dayə, kartofun birini neçə quruşa verirlər?

– Qabıqlarını neçə santimetr qalınlıqda soymaq lazımdır?..

Hələ mən:

– Ay dayə, döşəməni silmək üçün neçə çəllək su lazımdır? – dediyim zaman, yazıq qadının az qala gözlərindən yaş gəldi.

Avam bir çərkəz qadına yeni məktəb üsullarını necə başa salasan? Mən bu işləri gördükcə sevinir, axşamdan bəri duyduğum ağrı, demək olar ki, kəsilmişdi.

Biz qazanımızı oda qoyduqdan sonra mətbəxdəki tərtəmiz həsirin üstündə oturduq. Mən dedim:

– Ah, qalfacığım, kim bilir gedəcəyim yerlər nə qədər gözəldir. Mən Ərəbistanı xəyal kimi xatırlayıram. Anadolu hər halda ordan çox-çox gözəldir. Deyirlər ki, oradakı adamlar bizə bənzəmirlər, özləri yoxsul, amma könülləri elə açıq, səxavətlidir ki, heç biri, yetim bir qohum uşağına deyil, hətta düşmənə etdiyi yaxşılığı başına qaxmaq kimi mürüvvətsizlik etməz. Mənim kiçik bir məktəbim olacaq. Onu başdan-başa çiçəklərlə bəzəyəcəyəm. Uşaqlarım, bir yığın uşaqlarım olacaq. Özümə "abla" dedirdəcəyəm. Yoxsul olanlara öz əlimlə qara köynəklər tikəcəyəm. Deyəcəksən ki, "Hansı əlinlə?" Ancaq gülmə, lağ eləmə. Əlbəttə, onu da öyrənəcəyəm.

Qalfa gah gülür, gah peşman olmuş kimi qızararaq:

– Fəridə, mənim balam, sən çox yanlış yola gedirsən... – deyə içini çəkirdi.

– Baxarıq, kimin yanlış yola getdiyini görərik!

Bu işlər bitdikdən sonra, xalama o qorxunc məktubu yazdım. Bu məktubun bir yerində belə deyirdim: "Səninlə açıq danışacağam, xala. Kamran mənə heç bir zaman bir şey söyləmədi. O mənim üçün, heç bir zaman özünü bəyənən, ərköyün, mənasız, ruhsuz, xaraktersiz bir ev uşağından başqa bir şey olmamışdı. O, zəif, xırdaca çör-çöpdən qayrılmış bir insandır! Yenə də sayımmı?

Mən onu heç bir zaman nə bəyəndim, nə istədim, nə də ona başqa bir hiss duydum. Deyəcəksən: "İndi ki belədir, onunla evlənməyə niyə razı oldun?" Çalıquşunun ağılsızlığı məlum şeydir. Bir dəlilikdi etdim. Amma, yaxşı ki, vaxtında özümü ələ aldım. Oğlunuz barəsində belə düşünən bir qızın o səadətli eviniz üçün necə bir fəlakət olacağını anlamanız lazım gəlir. Budur, bu gün mən sizin aranızdan ayrılmaqla və aradakı bütün bağları kəsməklə bu fəlakətin qabağını aldım. İllərdən bəri gördüyüm yaxşılıqların bir qisminin əvəzini ödədim...

Ümid edirəm ki, bu sözləri eşitdikdən sonra, daha mənim adımı ağzınıza almaqdan çəkinərsiniz. Bunu da bilməlisiniz ki, bu ağıza alınmaz sözləri utanmadan, çəkinmədən sizə yazan nankor və tərbiyəsiz qız, sizinlə üz-üzə gəldikdə, bir paltaryuyan qadın kimi dalaşmağa da qadirdir. Buna görə də ən yaxşısı budur ki, daha bir-birimizin adını da yaddan çıxaraq. Elə bilin ki, Çalıquşu da anası kimi bir yerdə ölüb getdi. İstəyirsiniz bir-iki damcı gözyaşı da tökün. Onunla işim yoxdur. Amma özünüzü gözləyin, uzaqdan yardım-filan etmək xəyalına düşməyin. Bunu həqarətlə rədd edərəm.

Mən iyirmi yaşında, öz yükünü sudan çıxarmış bir insanam... Ürəyim necə istəsə, elə də yaşaram".

Bu tərbiyəsiz məktubu xatırladıqca daim utanacaq və ağlayacağam. Amma bu lazımdı. Xalamın məni axtarmasına, bəlkə dalımcan düşməsinə başqa cür mane ola bilməzdim. Qoy acığı tutsun, qoy məndən incisin. Amma nahaq əziyyət çəkməsin...

Ertəsi gün məktubumu öz əlimlə poçtaya verdikdən sonra, düz maarif nazirliyinə getdim. Çiynimdə Gülmisal qalfanın gen çarşabı, üzümdə onun qalın yaşmağı vardı. Belə etməyə məcburdum. Çünki



həm küçədə gərək məni tanımaya idilər, həm də eşitmişdim ki, maarif nazirliyinin açıq-saçıq gəzən müəllimlərə çox etibarı yoxdur.

Nazirliyin qapısını tapana qədər cürətli və şad idim. İşlərimin çox asanlıqla düzələcəyini umurdum. Elə bilirdim ki, bir xidmətçi məni nazirin yanına aparacaq, o da diplomumu görən kimi: "Xoş gəldin, xanım qızım. Biz də sizin kimiləri gözləyirik!" – deyə məni Anadolunun ən yaxşı bir vilayətinə təyin edəcəkdir. Amma qapıdan girən kimi hava birdən-birə dəyişdi. Məni bir həyəcan, bir qorxu aldı.

Girintili-çıxıntılı dəhlizlər, binanın altından üstünə qədər qəribə-qəribə pillələr, bu dəhlizlərdə, bu pillələrdə yığın-yığın insanlar... Mən heç kəsdən bir şey soruşmağa cürət etmir, çaşqın-çaşqın yan-yörəmə baxırdım.

Sağımda, uca bir qapının üzərində "Məqami-nəzarət" yazılmış bir lövhə gözümə dəydi. Yəqin ki, nazirin otağı bura idi. Qapının önündə ora-burası partlamış meşinlərin arasından qıvrım-qıvrım məftilləri çıxmış köhnə bir kresloda qolları zərbaftalı, dəbdəbəli bir xidmətçi oturmuşdu. Elə bir ədası vardı ki, adam ona baxanda: "Görəsən nazir paşa, yaxud bəy budurmu?" – deyə şübhəyə düşsəydi, yeri vardı.

Qorxa-qorxa ona yaxınlaşdım:

– Nazir bəyi, yaxud paşanı görmək istəyirəm, – dedim.

Xidmətçi barmaqlarına tüpürüb qumral yekə bığlarının ucunu buraraq, şahanə bir baxışla məni süzdü, ağır-ağır dedi:

– Neyləyirsiniz nazir bəyi?

– Müəllimlik istəyəcəyəm, – dedim.

O, bığlarının ucunun nə şəkil aldığını görə bilmək üçün dodaqlarını büzüb cavab verdi:

– Belə şey üçün nazir bəyi narahat etməzlər. Get əlaqədar şöbəyə söylə. Üsulu dairəsində müamilə et.

"Üsulu dairəsində müamilə"nin nə olduğunu öyrənmək istədim. Amma o daha cavab verməyi lazım bilmədi. Həmin məğrur və şahanə əda ilə başını o biri tərəfə çevirdi.

Yaşmağımın altında qorxa-qorxa dilimi çıxardım. "Bu belə olanda, kim bilir bunun ağası necə olacaq? Vay bizim halımıza!.." – deyə düşündüm.

Pilləkən məhəccərinin kənarında səkkiz-on su çəlləyi düzmüşdülər, üzərinə mənim köşkdə yelləncək qurmaq üçün işlətdiyim

taxtalara bənzər uzun bir taxta tapıb, qəribə bir skamya düzəltmişdilər. Skamyanın üzərində qadınlı-kişili bir yığın adam oturmuşdu.

Qara yun çarşabını çənəsinin altında sancaqlamış, mina kimi mavi gözlü qoca bir qadını gözaltıladım, yanına yaxınlaşaraq vəziyyətimi danışdım. O, halıma yanan kimi bir baxışla məni süzüb dedi:

– Peşədə naşı olduğunuz aşkar görünür. Nazirlikdə bir tanışınız yoxdurmu?

– Xeyr. Bəlkə bir tanış var, amma bilmirəm, – dedim. – Ancaq buna nə lüzum var?

Söylədiyi sözlərdən elmli bir müəllimə xanım olduğu anlaşılan mavigözlü qadın gülümsündü və dedi:

– Bunu sonralar başa düşərsiniz, qızım. Gəlin sizi ibtidai tədris şöbəsinə aparım, ümumi müdir bəy əfəndini görməyə çalışın.

Müdir qarasaqqal, çopur, yekəbaş, qalınqaş, qaraşın bir adamdı. Mən otağına girəndə o, stolun önündə ayaq üstə duran iki gənc qadınla danışırdı. Bunlardan biri titrəyən əlləri ilə çantasının içindən büzüşmüş kağızlar çıxarır, bir-bir stolun üstünə qoyurdu. Müdir kağızlara ötəri bir göz gəzdirdi, imzalarına, möhürlərinə baxdı, sonra dedi:

– Gedin, isminizi şöbəyə qeyd etdirin.

Xanımlar geri-geri gedərək təzim etdilər.

– Siz nə istəyirsiniz, xanım?

Bu sual mənə verilmişdi. Bir az özümü itirib kəkələyə-kəkələyə vəziyyətimi danışmağa başladım. Amma o, birdən-birə sözümü kəsdi. Sərt bir səslə dedi:

– Müəllimlik deyilmi? Ərizəniz varmı?

Özümü daha da itirib dedim:

– Yəni diplomumu demək istəyirsiniz?

Müdir əsəbi bir istehza ilə dodaqlarını büzdü, küncdə oturan arıq bir qonağa sarı başını yırğalayıb dedi:

– Halımı görürsünüz də! İnsan necə dəli olmasın? Ərizə ilə şəhadətnamə arasındakı fərqdən xəbərləri yoxdur. Sonra da maaş azdır, yer uzaqdır, deyə başlarını dik tuturlar.

Otaq başıma hərləndi, nə edəcəyimi bilməyib çaşqın-çaşqın ətrafıma baxırdım.

Müdir daha sərt bir səslə dedi:

– Nə gözləyirsiniz? Bilmirsinizsə, biləndən soruşun. Ərizə yazın.



Mən özümü itirib bir yerə toxunmadan, bu otaqdan çıxmaq istəyəndə küncdə oturan arıq əfəndi araya girdi:

– Bəy əfəndi həzrətləri, müsaidə buyurursunuzmu? Xanım, sizə səmimi bir nəsihət verim.

Aman ya rəbbi, o nələr söyləmirdi! Guya mənim kimi qadınlar müəllimlikdən artıq bir peşəyə həvəs etməlidirlər. Bəy əfəndinin buyurduqları kimi, hələ ərizə ilə şəhadətnamə arasındakı fərqi anlamadığıma görə, müəllimlikdə müvəffəq olacağım şübhəlidir. Amma çalışsam, məsələn, yaxşı bir dərzi olub özümə güzəran qazana bilərəm...

Mən pillələrdən enəndə gözlərim qaralırdı. Biri qolumdan tutdu. O qədər fikirliydim ki, az qala bağıracaqdım.

– İşin necə oldu, qızım?

Bunu yenə o, mina kimi mavi gözlü xanım soruşdu. Hirs və ümidsizliyimdən ağlamamaq üçün dişlərimi bir-birinə sıxıb, başıma gələnləri danışdım.

Mülayim-mülayim gülümsünüb dedi:

– Tanışın olub-olmadığını bunun üçün soruşurdum, qızım. Amma heç məyus olma. Bəlkə yenə bir çarə tapılar. Gəl səni tanışım olan bir şöbə müdirinin yanına aparım. Əskik olmasın, yaxşı adamdır.

Təkrar pillələri çıxdıq. Qoca müəllimə xanım bu səfər məni böyük bir dəftərxanadan şüşələri tutqun bir şüşəbəndlə ayrılmış, kiçik hücrəyə soxdu. Bu gün, doğrudan da, bəxtim gətirmirdi. Çünki orada o qədər də ümid verməyən bir mənzərə ilə qarşılaşdım. Saqqalının bir tərəfi qara, bir tərəfi demək olar ki, ağarmış əfəndi, elə bil acığından od püskürürdü, qabağında mənim bir az əvvəlki halıma bənzər bir vəziyyətdə durub tir-tir əsən qoca bir xidmətçini döyəcək kimi hərəkətlər edirdi.

Müdir, önündə duran bir fincan qəhvəni, çirkab suyu atan kimi küçəyə səpələdi, sonra xidmətçini itələyə-itələyə qapıdan çıxartdı.

Yeni tanışımın ətəyindən yavaşca çəkib dedim:

– Amandır, burdan qaçaq!

Amma buna vaxt qalmadı. Müdir bizi görmüşdü.

– Xeyir ola, Naimə hocanım, – dedi.

Hirslənmiş bir adamın bu qədər tez sakitləşdiyini ömrümdə ilk dəfə görürdüm. Bu məmurlar nə qəribə olurlar, ya rəbbi!

Mavi gözlü müəllimə xanım bir neçə kəlmə ilə mənim vəziyyətimi danışdı. Müdir mehriban-mehriban gülümsünüb mənə dedi:

– Çox əla, qızım, çox əla! Keç otur görək.

Bu quzu kimi adamın, bir az əvvəl küçəyə qəhvə atan, qoca xidmətçini tut ağacı silkələyən kimi, darta-darta bayıra itələyən həmin adam olduğunu sübut üçün min şahid lazımdı.

– Üzünü aç baxım, qızım. O-o-o!.. Sən lap uşaqsan ki, neçə yaşın var?

– İyirmini bitirmək üzrəyəm, əfəndim.

– Qəribədir. Bununla bərabər, hər nə isə... Ancaq sən kənar yerə gedə bilməzsən, sənin üçün xeyli təhlükə var.

– Nə üçün əfəndim?

– Nə üçünü varmı, qızım? Səbəb göz qabağındadır.

Müdir əfəndi gülür, əli ilə üzümü göstərərək Naimə xanıma işarə edir, amma göz qabağında olan bu səbəbi nədənsə söyləyə bilmirdi.

Nəhayət, müdir mavi gözlü xanıma göz vurub dedi:

– Mən daha çox söyləyə bilmərəm. Sən qadınsan, onu daha yaxşı başa sala bilərsən, Naimə xanım.

Sonra saqqalını yırğalaya-yırğalaya öz-özü ilə danışan kimi əlavə etdi:

– Ax, sən bilsən kənar yerlərdə nə yaman ibni-yamanlar var!

Mən saf heyrətlə dedim:

– Əfəndim, o ibni-yamanlar dediyiniz adamlar bilmirəm kimlərdir. Amma siz də mənə onların olmadığı bir yerdə dərs taparsınız.

Müdir bu səfər əlini dizlərinə vurub daha da bərkdən güldü:

– Eh!.. Bu doğrudan da lap məzəlidir!

Mən bir adamı ilk görüşdə ya sevərəm, ya da sevmərəm. Sonradan bu ilk hissimin dəyişdiyini heç xatırlamıram.

Nədənsə bu adama birdən-birə qanım qaynadı. Hələ bir yanı ağ, bir yanı qara olan saqqalı çox xoşuma gəlirdi, o üzünü sağa çevirəndə, demək olardı ki, gənc bir adam kimi görünürdü, sola çevirəndə isə, ağsaqqallı bir qocaya dönürdü.

– Darülmüəllimatı[1] bu ilmi qurtardınız, xanım qızım?

[1] Darülmüəllimatı – qız müəllimlər məktəbi (seminariya)



– Xeyr, əfəndim, mən darülmüəllimatı qurtarmamışam. "Dames de Sion"[1] məktəbindən diplomum var.

– Bu necə məktəbdir?

Müdirə uzun-uzadı izahat verdim, sonra diplomumu uzatdım. Deyəsən, fransızca bilmirdi. Bunu bildirməmək üçün kağızın o yanına-bu yanına baxır, əlində o üz-bu üzə çevirirdi.

– Çox gözəl, çox əla...

Naimə xanım rəsmiyyətsiz bir tövrlə dedi:

– Əzizim bəy əfəndi, siz yaxşılıq etməyi sevirsiniz, bu uşağı boş qaytarmayın.

Müdir qaşlarını çataraq saqqalını tumarlaya-tumarlaya düşünürdü:

– Çox gözəl, çox əla!.. Amma bizimkilər, yəqin ki, bu məktəbin diplomunu tanımırlar.

Ağlına bir şey gəlmiş kimi birdən əlini stola vurub dedi:

– Qızım, sən İstanbul rüşdiyyələrindən[2] birində fransızca müəllimliyi istəsənə. Bax, mən sənə yolunu öyrədim. Düz İstanbul müdirliyinə gedərsən...

Mən müdirin sözünü kəsib dedim:

– İstanbulda qalmağıma imkan yoxdur, əfəndim. Vilayətlərdən birinə getməyə məcburam.

O çaşıb qalmışdı.

– Amma dedin ha! – dedi. – Öz razılığı ilə Anadoluya getmək istəyən müəllimə ilk dəfə təsadüf edirəm. Ay bala, biz müəllimlərimizi İstanbuldan kənara çıxarana qədər əldən-dildən düşürük. Sən nə deyirsən, Naimə xanım?

Müdir məndən şübhələnmişdi. Hiyləgərcəsinə məni istintaq edir, ailəm haqqında suallar verirdi. Onu başa salana qədər mənimki mənə gəldi.

Müdir oturduğu yerdən:

– Şəhab əfəndi! – deyə səsləndi.

Şüşəbəndlə dəftərxana arasındakı qapıda bəstəboy, cılız bir gənc göründü.

– Bax, Şəhab əfəndim, bu xanım qızı otağa apar, Anadoluda müəllimlik eləmək istəyir, qaralama ərizə yaz, mənə gətir.

[1] Dames de Sion – pansionlu katolik qız məktəbi

[2] Rüşdiyyə – natamam orta məktəb

Daha işimə baş tutmuş kimi baxırdım. Müdirin boynuna atılmaq, saqqalının ağ tərəfindən öpmək istəyirdim. Şəhab əfəndi məni dəftərxanada üstü qarmaqarışıq bir stolun önündə oturtdu, müdirin istədiyi qaralamanı yazmaq üçün mənə suallar verməyə, söylədiklərimi kağız parçasına qeyd etməyə başladı. Bu fağır, üst-başdan yoxsul, xəstə çöhrəli məmur qorxaq və utancaq görünürdü. Sual vermək üçün mənə baxdıqca elə bil kirpikləri titrəyirdi.

Pəncərənin yanında duran xeyli yaşlı iki katib astadan nəsə danışırdılar, arabir gözaltı bizə baxırdılar. Onlardan biri dedi:

– Şəhab, övladım, sən bu gün çox yoruldun. Bu ərizəni bir az da biz yazaq.

Dilim qurusun, dinc durmaz ki. Xüsusilə bir az sevindiyim vaxt heç sözümə baxmaz.

Heç bir münasibət olmadığı bir halda dedim:

– Bu şöbədə yoldaşlar bir-birinin qayğısına nə yaxşı qalırlar?

Şəhab əfəndi qıpqırmızı olub başını əydi. Görəsən bir yersiz sözmü demişdim? Yəqin ki, elə idi. Çünki o birilər də gülüşdülər. Nə dediklərini çox yaxşı başa düşə bilmədim, yalnız birinin dediyi: "Müəllimə xanım xeyli bişkin və mütəşşərdir"[1] sözləri qulağıma dəydi. Bu sözlərin mənası nə idi? Bu əfəndilər nə demək istəmişdilər?

Qaralama ərizə bir neçə dəfə müdirin yanına getdi-gəldi. Qırmızı mürəkkəblə xeyli cızmaqara edildikdən sonra üzü təmiz köçürüldü. Müdir dedi:

– Di yaxşı, görərik, qızım. Allah təsirini artıq eləsin. Mən əlimdən gələn qədər yardım edərəm.

Yanında başqa adamlar olduğu üçün daha artıq bir şey söyləməyə cəsarət edə bilmədim. Amma bu kağızı kimə aparacağımı, nə söyləyəcəyimi bilmirdim. Bəlkə müəllimə Naimə xanımı təkrar görərəm ümidi ilə ətrafıma göz gəzdirəndə, Şəhab əfəndi gözümə dəydi.

Bəstəboy katib pilləkən başında kimi isə gözləyirdi. Mənimlə gözgözə gələndə, utanırmış kimi başını aşağı saldı. Görünürdü ki, bir şey söyləmək istəyir, amma cəsarət etmir. Yanından keçəndə durdum:

– Sizə bu gün çox zəhmət verdim. Lütfən bunu hara aparacağımı da söylərsinizmi, əfəndim?

[1] Mütəşşər – hərfi mənada; qabıqdan çıxmış. Burada məcazi mənada; çoxbilmiş, çoxgörmüş



O hələ gözlərini qaldırmırdı. Böyük bir lütf üçün yalvaran kimi, alçaq, titrək bir səslə dedi:

– Ərizəni rəsmi yerlərdən keçirmək çətin bir işdir, həmşirə xanım. İzin versəniz, ərizənizlə bəndəniz məşğul olar. Siz narahat olmayın, yalnız arada bir dəftərxanaya dəyərsiniz.

– Nə vaxt gəlim? – deyə soruşdum.

– İki-üç gündən sonra.

İşin iki-üç gün uzanması ürəyimi sıxmışdı. Amma get-gəl düz bir ay çəkdi. Yazıq Şəhab əfəndinin ciddi-cəhdi olmasaydı, bəlkə daha artıq uzanacaqdı.

Kişilər barəsində cürbəcür sözlər deyərlər, amma kişilərin içində də insaniyyətli adamlar var! Bu cavandan gördüyüm yaxşılığı heç bir vaxt unutmayacağam. Məni qapıda görən kimi yüyürür, pillə başında gözləyirdi.

O, əlində mənim kağızlarımla, bu otaqdan o otağa gedib-gəldikcə utandığımdan yerə girir, necə təşəkkür edəcəyimi bilmirdim.

Bir gün bəstəboy katib boğazına bir ağ bağlamışdı. Boğula-boğula öskürür, danışanda səsi tutulurdu.

– Xəstəsinizmi? Bu halda şöbəyə nə üçün gəlirsiniz? – deyə soruşdum.

– Bu gün cavab almağa gələcəyinizi bilirdim, – dedi.

İstəmədən güldüm. Bu, bir səbəb ola bilərdimi?

Şəhab əfəndi tutqun bir səslə davam etdi:

– Təbii, başqa işlər də var. Məlumdur da, məktəblər yeni açılmışdır.

– Mənə yaxşı bir cavabınız varmı?

– Bilmirəm. Kağızlarınız ümumi müdirdədir. Söylədi ki, təşrif gətirdiyiniz vaxt, onun özü ilə görüşəsiniz.

Ümumi müdir acıqlı çöhrəsini daha da dəhşətli edən qara gözlük taxmışdı. Qarşısındakı bir yığın kağızı bir-bir imzalayıb yerə atır, ağ bığlı katib namaz qılan kimi, əyilib-qalxaraq kağızları yığırdı.

Qorxa-qorxa dedim:

– Əfəndim, əmr etmişsiniz ki, mən yanınıza gəlim.

Üzümə baxmadan sərt bir səslə dedi:

– Səbir et, xanım. Görmürsənmi?

Ağ bığlı katib qaş-gözü ilə işarə edib gözləməyimi tapşırdı. Yaxşı bir iş görmədiyimi başa düşüb bir neçə addım geri çəkildim, arakəsmənin yanında gözləməyə başladım.

Müdir kağızları qurtardıqdan sonra gözlüyünü çıxartdı, yaylıqla şüşələrini silərək dedi:

– Ərizəniz rədd edildi. Ərinizin xidməti otuz ilə çatmamışdır.

– Mənimmi əfəndim? – dedim. – Burda yəqin bir yanlışlıq var.

– Sən Xeyriyyə xanım deyilsənmi?

– Xeyr, mən Fəridəyəm, əfəndim.

– Hansı Fəridə? Hə, yadıma düşdü. Çox təəssüf ki, sizinki də elə oldu. Sizin qurtardığınız məktəb yüksək nazirliyimiz tərəfindən təsdiq edilməmişdir. Bu diplom ilə sizə qulluq verilməz.

– Yaxşı, bəs mən nə olacağam?

Bu mənasız söz özüm istəmədən bir anda ağzımdan çıxdı. Müdir təkrar gözlüyünü taxdı, mənə istehza edən bir tövrlə dedi:

– Daha orasını icazənizlə özünüz düşünün. Bu qədər məşğuliyyət arasında bir də sizin nə olacağınızı düşünməyə başlasaq, vay bizim halımıza!

Ömrümdə acısını unuda bilməyəcəyim dəqiqələrdən biri də budur. Bəli, mən nə olacaqdım?

Yaxşı-yaman illər uzunu çalışdım. Bu yaşımda ən uzaq qürbətə getməyi qəbul etdim, bununla bərabər, yenə məni qovurdular. Bəs mən nə edəcəkdim? Yenidən xalamın evinə qayıtmaq ölümdən daha pis bir şeydi.

Son ümidlə o biri müdirin yanına getdim. Ağlamamaq üçün dişlərimi sıxaraq dedim:

– Bəy əfəndi, deyirlər ki, mənim diplomum guya işə yaramır. Bəs indi mən nə edim?

Bu sözləri söyləyəndə bilmirəm özümü çox itirmişdim, ya nədir, yazıq kişi, deməк olar ki, lap kədərləndi:

– Neyləyim, qızım? Mən də söylədim, amma "vərəqi-mehrü vəfanı"[1] oxuyub dinləyən varmı? – dedi.

Bu şəfqət məni, demək olar ki, xeyli ürəkləndirdi.

– Bəy əfəndi, – dedim, – mən mütləq bir iş tapmağa məcburam. Heç kəsin bəyənmədiyi ən uzaq bir kənd də olsa, mən şadlıqla qəbul edərəm.

Müdir birdən-birə bir şey düşünmüş kimi dedi:

– Dur, qızım, bir təcrübə edək...

[1] "Vərəqi-mehrü vəfa"– mehribanlıq, dostluq və vəfa məktubu (bir şeirdən)



Küncdə, pəncərənin yanında uzunboylu, irigövdəli bir cənab qəzet oxuyurdu. Üzü küçəyə sarı olduğundan, yalnız ağarmağa başlamış saçları ilə saqqalının bir qismini görə bilirdim.

Müdir bağıra-bağıra dedi:

– Bəy əfəndi, bir az müsaidə buyururlarmı?

O, bir şey söyləmədən döndü, ağır-ağır yanımıza gəldi.

Müdir əli ilə məni göstərib dedi:

– Bəy əfəndi, siz savab işləri sevərsiniz. Bu uşaq bir fransız məktəbini qurtarmışdır. Halından, sözlərindən nəcib bir ailənin uşağı olduğu anlaşılır, amma məlum şeydir də, yıxılmayan-qalxmayan bircə Allahdır. İşləməyə məcburdur. Deyir ki, ən uzaq bir kəndə də gedərəm. Amma bizimkini tanıyırsınız da. Gülü tərifə nə hacət var? "Olmaz!" – deyə rədd etdi. Siz nazir bəy əfəndiyə bir-iki "pak söz" lütf edib desəniz qurtarıb gedər, əzizim bəy əfəndi...

Müdir bu sözləri söyləyəndə həmin adamın vaxtsız dərd-qəmdən çökməyə başlamış çiyinlərini tumarlayırdı. Onun geyimindən, davranışından tanıdığım insanların hamısından fərqlənən başqa cür bir insan olduğunu başa düşmüşdüm. O, müdiri dinləyəndə bir azca əyilir, yaxşı eşitmək üçün əlini qulağının arxasına qoyurdu.

O, bir az qan çəkmiş, amma mehriban-munis gözlərini mənə çevirdi, tutqun bir səslə fransızca danışmağa başladı. Haranı qurtardığıma, necə çalışdığıma, nə istədiyimə dair suallar verdi. Mənim cavablarımdan xoşlandığı aydın idi.

Biz danışanda, şöbə müdiri ləzzətlə gülür və deyirdi:

– Maşallah, fransızcanı bülbül kimi danışır. Bir türk qızı üçün, sözün düzü, təqdirəlayiqdir!

Gülmisal qalfa həmişə deyərdi: "Ayın on beşi qaranlıqsa, on beşi aydınlıqdır". Böyük bir şair olduğunu sonradan öyrəndiyim həmin adam mənə baxanda, mənim üçün bu aydınlığın başlamaq üzrə olduğunu hiss edirdim. Bir aydan bəri yavaş-yavaş pozulmuş kefim yenə duruldu.

Həmin adam mənə bu vaxta qədər heç kimsədən eşitmədiyim gözəl sözlər söylədikdən sonra, məni yanına salıb nazirin otağına apardı. O, keçəndə xidmətçilər ayağa qalxır, qapılar elə bil öz-özünə açılırdı.

Mən yarım saatdan sonra "B" vilayətinin mərkəzi rüşdiyyə məktəbində boş olan coğrafiya və rəsm müəllimliyinə təyin edildim.

Çalıquşu o axşam Əyyuba qayıdanda sevincindən elə bil uçurdu. Bundan sonra o da artıq öz çörəyini özü qazanan bir insan idi. Daha heç bir kəs ona mərhəmət və himayə adlanan o böyük həqarəti edə bilməzdi.

Üç gün sonra bütün rəsmiyyətlər başa çatmış, yol xərclərini almışdım.

Bir sabah Gülmisal qalfa məni paroxoda gətirdi. Şəhab əfəndi erkəndən körpüyə gəlib bizi gözləyirdi. Bu gəncin insanlığını heç vaxt unuda bilməyəcəyəm. Hər işimlə məşğul olmuş, getdiyim yerdə düşəcəyim mehmanxananın adresinə qədər heç bir şeyi yaddan çıxarmamışdı. İndi də hələ xəstə boğazı sarıqlı olduğu halda, körpünün küləkli və rütubətli havasında məni yola salmağa gəlmişdi.

Şəhab əfəndi çantamı, mənə yol hədiyyəsi olaraq gətirdiyi kiçik bir qutu ilə bərabər aparıb kayuta qoydu. Təkrar-təkrar enib-çıxaraq gəmi xidmətçilərinə tapşırıqlar verir, yorulub əldən düşürdü.

Paroxod yola düşənə qədər göyərtənin bir bucağında oturduq.

İnsan ayrılıq saatında ara vermədən danışmalı, ürəyində nə varsa, söyləyib qurtarmalıdır, deyilmi? Halbuki, bir saat içində Gülmisal qalfa ilə bəlkə on cüt söz də danışmadıq. O, sönük mavi gözləri ilə dənizi seyr edir, əllərimlə oynayırdı. Yalnız paroxod hərəkət edəcəyi zaman dayana bilməyib dedi: "Sənin ananı da bu paroxoda mindirdim, Fəridə. Həm də o, sənin kimi yalqız deyildi. İnşallah, səni yenə qucaqlaram!" – hıçqıra-hıçqıra ağlamağa başladı.

Şəhab əfəndinin yanımızda olmasına baxmayaraq, mən də yəqin ki, özümü saxlaya bilməyəcəkdim. Amma o əsnada bir çaxnaşma oldu: "Haydı, xanım, pillə qalxır!" – deyib yazıq qalfamın çiyinlərindən tutdular, sürüyə-sürüyə pillələrdən endirməyə başladılar.

Bəstəboy katib hələ də yanımda dururdu. Mən təşəkkür üçün əlimi ona uzadanda bənizini sapsarı, gözlərini dolmuş gördüm. İlk dəfə diqqətlə üzümə baxmağa, adımı söyləməyə cəsarət edib dedi:

– Fəridə xanım, deməli ki, büsbütün gedirsiniz?

Bu ayrılıq dəqiqəsinin bir bulud kimi üstümə çökən ağırlığına baxmayaraq, gülümsəməkdən özümü saxlaya bilməyib dedim:

– Daha şübhə qaldımı?

O, artıq bir şey söyləmədi, əlini əlimdən çəkərək, yüyürə-yüyürə pillələrdən endi.



Dəniz səyahətini çox sevirəm. Mən altı-yeddi yaşında olanda atamın əsgərləri ilə bərabər etdiyim səyahətin zövqü hələ də qəlbimdədir. Paroxod, oradakı adamlar, hətta Hüseyn də unudulmuşdu. Böyük bir dənizin üzərindən uça-uça keçən bir quşun yadında nə qalarsa, mənim də yadımda demək olar ki, buna bənzər bir şey qalmışdı: hər tərəfi axışan parıltılarla dolu bir mavi boşluq içində uçmaq ləzzəti... Dənizin mənə olan bu coşqun təsirinə baxmayaraq, göyərtədə qalmağa dözə bilmədim; paroxod Saray burnunu dönəndə kayutuma endim. Şəhab əfəndinin gətirdiyi qutu çantamın üstündə dururdu. Nə olduğu ilə maraqlanıb açdım. Bir qutu likörlü konfet... Mənim dünyada dəlicəsinə sevdiyim şey...

Bəstəboy katibin hədiyyə etdiyi konfetlərdən birini dodaqlarıma apardım. Amma birdən-birə gözlərimdən yaş axmağa başladı. Nə üçün belə ağlayırdım, bilmirəm! Öz-özümə söz söyləmək istədikcə göz yaşlarım artır, köksümü tıxayırdı. Səbəbsiz iztirabıma bu biçarə konfetlər baismiş kimi, qeyri-ixtiyari qutunu qapıb kayutun xırdaca pəncərəsindən dənizə tulladım.

Bəli, dünyada bu göz yaşlarından daha mənasız bir şey ola bilməz. Bunu anlayıram. Amma buna baxmayaraq, hələ indi bu sətirləri yazanda da kirpiklərimdən yaş süzülür, önümdəki dəftər kağızının üstünə damcılayıb onu qabardır.

Görəsən bu, bayırda səssiz-sədasız yağan yağışın təsiridirmi? İndi İstanbul necədir? Orada da belə yağış varmı? Yoxsa, Qoz yatağındakı bağça indi Ay işığı içində par-par yanır.

Kamran, mən təkcə sənə deyil, sənin olduğun yerlərə də nifrət edirəm!..

Bu sabah oyananda günlərdən bəri davam edən yağış kəsilmişdi. Buludlar dağılmışdı. Yalnız pəncərəmin qarşısındakı yüksək dağ təpələrində incə dumanlar görünürdü.

Gecə yatanda pəncərəmi bağlamağı unutmuşdum. Yüngül bir səhər küləyi çarpayımın örtülərinə, dağınıq saçlarıma düşən günəş işığını sarı pullar kimi titrədirdi.

Kiçik mehmanxana otağında beş gündən bəri sinirlərim yaman pozulmuşdu. Bir gecə oyanıb yanaqlarımı üzərinə qırov yağmış yarpaqlar kimi islanmış gördüm. Yastığım da elə idi. Demək ki, yuxuda ağlamışdım. Halbuki, indi günəş nəşəmi, ümidimi yenidən canlandırır, vücuduma məktəb yataqxanasında oyandığım bahar sabahlarının yüngüllüyünü verirdi.

Bu gün, hər necə olursa olsun, mənə gözəl bir xəbər gəlməli idi! Daha heç bir şeydən qorxmurdum. Sevinclə yatağımdan sıçradım, köhnə biçimdə olan xırdaca əlüzyuyanın önündə əl-üzümü yumağa başladım.

Təmiz su çuxuruna başlarını soxub-çıxaran quşlar kimi silkinib suyu ətrafa, qarşımdakı aynanın şüşəsinə sıçradırdım.

Qapı yavaşca döyüldü, Hacı qalfanın səsi gəldi:

– Sabahi-şəriflər xeyir olsun, hocanım, sən yenə bu gün erkəndən durubsan?

Nəşəli bir səslə dedim:

– Bonjur, Hacı qalfa, elə oldu. Sən mənim oyandığımı hardan bildin?

Hacı qalfa gülə-gülə:

– Nə bilim, quş kimi elə hey fit çalırsan.

Həqiqətən quşa bənzər bir tərəfim olduğuna özüm də inanmağa başlayıram.

– Qəlyanaltını gətirimmi?

– Bu gün qəlyanaltı eləməsəm, olmazmı?

Səs bu dəfə hiddətləndi:

– Yox... Olmaz!.. Mən belə şey istəmərəm. Gəzmək yox, əylənmək yox, dustaq kimi ora girib qalıbsan. Yemək də yeməyəsən, axırda o qarşıdakı qonşuya dönərsən.

Qarşı otaqdakı qonşu eşitməsin deyə, Hacı qalfa bu son sözü deyəndə ağzını açar dəliyinə qoyub səsini alçaltmışdı.

Bu Hacı qalfa ilə yaman dost olmuşdum! Birinci gün səhər oyanan kimi geyinmiş, çantamı qoltuğuma vurub mehmanxananın pillələrini sıçraya-sıçraya enməyə başlamışdım. Hacı qalfa özünün ağappaq önlüyü ilə hovuzun yanında qəlyan təmizləyirdi. Məni görəndə qırx-illik bir dost kimi dedi:

– Xeyir ola, Fəridə xanım, sən niyə belə erkən oyanıbsan. Mən sənin yol yorğunluğundan günortaya qədər yatacağını güman etmişdim.

Mən gülərək dedim:

– Elə şey olarmı? Vəzifə sahibi olan bir müəllim günortaya qədər necə yatar?

Hacı qalfa qəlyanı qoyub əllərini belinə dayadı:

– Hələ bir buna bax. Özü hələ uşaqdır, anladınmı əfəndim, ayağının tozu ilə məktəbə, uşaqlara dərs deməyə gedəcək, – deyə gülməyə başlamışdı.



Mən maarif nazirliyindən təyinat aldığım dəqiqədən bəri daha yüngüllük etməməyə and içmişdim. Amma Hacı qalfa mənimlə bir xırdaca uşaq kimi danışanda, mən də birdən-birə uşaqlaşıb çantamı top kimi havaya atıb-tutdum.

Bu hərəkət Hacı qalfanı büsbütün nəşələndirdi. Əllərini bir-birinə vuraraq:

– Yalanmı dedim, sən özün hələ uşaqsan, – deyib qəhqəhələrlə güldü.

Bir mehmanxana xidmətçisi ilə bu qədər açılışmaq, nə dərəcəyə qədər doğru idi, bilmirəm, amma mən özüm də onunla bərabər gülmüş, o yan-bu yandan söhbətə başlamışdım.

Hacı qalfa mənim qəlyanaltı etməmiş məktəbə getməyimə qətiyyən razı deyildi:

– Axşama qədər elə ac-acına bu elin-aləmin uşaqları ilə məşğul ola bilməzsən, anladınmı, əfəndim? Sənə pendir, süd gətirim. Həm də, əfəndim, bu hələ birinci gündür, çox tələsmək vacib deyildir, – deyə məni zorla hovuzun qırağında oturtdu. Bu vaxt mehmanxananın həyətində heç kəs yox idi.

Hacı qalfa qarşıdakı dükanlardan birinə sarı çığırdı:

– Molla, bizim hocanıma İstanbul simidi ilə süd gətir tez ol!

Qalfa sonra mənə tərəf dönüb dedi:

– Mollanın südü də süddür ha! Sizin İstanbul südləri bunun yanında qəlyan suyu kimi bir şeydir.

Hacı qalfanın rəvayətinə görə molla yaz-qış inəklərini armudla bəsləmiş, bunun üçün südləri armud qoxusu verərdi.

Qoca erməni – Hacı qalfa bunu danışanda göz vurub:

– Ancaq ki, mollanın özü də az qala armud qoxusu verir, – deyə ona sataşırdı.

Mən hovuz qırağında qəlyanaltı edəndə Hacı qalfa bir yandan qəlyanlarını su ilə yaxalayır, bir yandan bitib-tükənməyən şəhər dedi-qoduları ilə məni əyləndirirdi. Aman, ya rəbbim, bu adam nələr bilirdi! Hələ məktəb müəllimlərinin hər birinin neçə dəst paltarı olduğuna qədər, cikini-bikini bilirdi.

Ayağa qalxdığım zaman Hacı qalfa:

– Bir az əylən, səni mən özüm aparım, məktəb yaxındır, ancaq yollar dolanbacdır. Azıb eliyərsən, – deyə axsaq ayağı ilə yanıma

düşüb məni mərkəzi rüşdüyyə məktəbinin yaşıl boyalı taxta qapısına qədər ötürdü, bu yolu özüm tək getsəydim, doğrudan da, azardım.

Görünüşü nə qədər pis olursa olsun, o gün bu məktəbi mütləq sevməyə qərar vermişdim; amma orada necə bir fəlakətlə üz-üzə gəldiyimi təfsilatı ilə danışmalıyam.

Qapıçı budkasında heç kəs yoxdu. Bağçadan keçərkən, dama-dama toxunma çarşaba möhkəm bürünmüş, üzü ikiqatlı yaşmaqla örtülmüş bir qadına təsadüf etdim. Əlində köhnə bir meşin çanta var idi, küçəyə çıxmağa hazırlaşırdı. Məni görəndə durdu, diqqətlə baxmağa başladı.

– Bir şeymi istəyirsiniz, xanım?

– Müdirə xanımı görəcəyəm.

– Bir işiniz varmı? Müdirə mənəm.

– Elədirmi, əfəndim, – dedim. – Mən yeni coğrafiya və rəsm müəllimənız Fəridəyəm, dünən İstanbuldan gəlmişəm.

Toxunma çarşablı müdirə üzünü açdı. Məni təpədən-dırnağa qədər süzdü, sonra tərəddüdlə dedi:

– Bir yanlışlıq olmasın, qızım? Bizim coğrafiya və rəsm müəllimi yerimiz boşdu. Amma bir həftə bundan əvvəl Gelibolu məktəbindən bir müəllimə göndərdilər.

Özümü yaman itirdim:

– Ola bilməz, əfəndim, – dedim. – Məni maarif nazirliyindən göndəriblər. Əmrnaməm çantamdadır.

Müdirə ensiz və yastı alnının ortasına uzanmış qaşlarını qaldırıb heyrətlə üzümə baxdı, dedi:

– Fəsübhanallah, fəsübhanallah... Əmrnamənizi verin bir baxım.

Yazıq qadın kağızı bir neçə dəfə oxudu, tarixinə baxdı, sonra başını yırğalayıb dedi:

– Belə yanlışlıqlar hərdən olur. Diqqət etməyib ikinizi də eyni yerə təyin ediblər. Vay, yazıq Huriyyə xanım!

– Huriyyə xanım kimdir, əfəndim?

– Geliboludan gələn o biri müəllimdir. Özü-özlüyündə çox yaxşı bir qadındır... Oranın havası ona düşməyib. Buranı istəmişdir. Demə, yazığın görəcək günləri varmış!

– Yalnız o deyil, mən də çətin bir vəziyyətdə qalıram, əfəndim, – dedim.



– Bəli, orası elədir. Barı, nəticə anlaşılana qədər yazıq qadını yerindən eləməyin. Mən bir iş üçün maarif müdirliyinə gedirəm. Siz də gəlin. Görək bəlkə bir çarə tapdıq.

Maarif müdiri qarşısındakıları yuxulu kimi, gözlərini yumaraq dinləyən, sayaqlayırmış kimi danışan tənbəl, ləng bir adamdır.

Bizi darıxa-darıxa dinlədikdən sonra, ağır-ağır dedi:

– Mən neyləyim, elə ediblər, elə olub... İstanbula yazarıq görək nə cavab gələr.

Qısa ətəyinin altından çıxan qırmızı qurşağına baxıb əvvəlcə yük arabaçısı zənn etdiyim yekəpər bir katib dedi:

– Bu xanımın əmrindəki tarix o birindən yenidir. Deməli ki, əsil məqbul və mötəbər olan budur.

Müdir istixarə edirmiş kimi düşündü, sonra belə dedi:

– Xeyr, hərçənd elədir, amma o birini işdən çıxarmaq üçün əmr yoxdur. Yüksək nazirlikdən izahat istəyək. Səkkiz-on günə cavab alarıq. Müdirə xanım, siz də o zamana qədər öz məsləhətinizi buyurarsınız.

Yenə toxunma çarşablı müdirənin dalınca düşüb həmin dolanbaclı küçələrdən keçib məktəbə qayıtdım. Kaş, düz mehmanxanaya gedəydim!

Huriyyə xanım qırx beş yaşlarında, qaraüzlü, əsəbi, xırda-mırda bir qadındı. Məsələni eşidən kimi, üzü bir az da qaraldı, gözləri böyüdü, incə boynunun kənarlarında iki damar şişdi. Sonra bayramda uşaqların çaldığı qovuqlu düdük kimi bir fəryad qopardı: "Eyvah, a dostlar! Budamı başıma gəldi!" – deyə çığırdı və yıxılıb özündən getdi.

Müəllimlər otağı bir-birinə dəydi. Gözlüklü bir qoca müəllimə qapıya axışan şagirdləri qovmaq üçün onlarla, demək olar ki, güləşirdi.

Yoldaşları Huriyyə xanımı arxası üstə yerə uzatmışdılar. Üzünə su çiləyir, sirkə sürtür, büzməli pamazı köynəyinin yaxasını açıb birə sancmaqdan xal-xal olmuş köksünü ovuşdururdular.

Mən nə edəcəyimi bilməyib çaşmış halda, otağın bir küncündə, əlimdə çantam dimdik durmuşdum.

Bir az əvvəl qapıdakı uşaqları qovan müəllimə xanım gözlüyünün üstündən üzümə tərs-tərs baxdı:

– Qızım, sözün düzü, sənin insaniyyətinə çaşıb qaldım, – dedi. – Üstəlik, hələ bir gülürsən də!

Haqqı vardı. Çox təəssüf ki, özümü saxlaya bilməyib gülümsünmüşdüm. Yazıq qadın ona deyil, öz pərişanlığıma güldüyümü hardan biləcəkdi?! Ancaq gülən yalnız mən deyilmişəm. Uzunboylu, qaragözlü, kəskin baxışlı bir gənc qadın da səssiz-səssiz gülürdü. Mənə yaxınlaşıb yavaşcadan qulağıma dedi:

– İşdən xəbəri olmayan elə bilər ki, bu qadının əri evlənib üstünə günü gətiribdir. Bu, özündən getmək-filan deyil, vallah hiylədir.

Huriyyə xanım üzündən, burnundan su axa-axa gözlərini açdı. Mədəsində barıt partlamış kimi gurultu ilə gəyirir, başını yırğalayaraq:

– A dostlar, görün mənə nələr oldu! Bu qədər ildən sonra görəcək günlərim varmış! – deyə get-gedə səsini ucaldırdı.

Deyərlər ki, bülbülün başına gələn bəla dilindədir. Yenə bir münasibətsizlik elədim, heç lazım olmadığı halda nəzakət xatirinə: "İnşallah bir az yaxşılaşdınız?" – deyə soruşdum. Dediyimə peşman oldum! Huriyyə xanım elə bir hengamə açdı ki, bunu nəql edə bilmərəm. Nələr söyləmədi: guya mən onun həm canına qəsd eləmişəm, həm də üstəlik kefini soruşmuşam. Dünyada bundan böyük həyasızlıq, arsızlıq, tərbiyəsizlik ola bilməzmiş!

Bir küncə qısılıb utandığımdan gözlərimi yummuşdum. Müəllimələr Huriyyə xanımı heç cür sakitləşdirə bilmirdilər. Səsini yavaş-yavaş ucaldır, elə sözlər söyləyirdi ki, mərkəzi rüşdiyyə məktəbində deyil, ən adi bir küçədə də bunları ağıza almaq olmazdı. Guya mənim hansı yuvanın quşu olduğum elə üzümdən bəlli imiş. Onun çörəyini əlindən almaq üçün nazirlikdə kim bilir neçə kişiyə...

Küncdə gözlərim qaranlıq gətirir, vücudum buz kimi donur, dişlərim bir-birinə dəyirdi. Ən pisi bu idi ki, o biri müəllimə xanımlar da, demək olar ki, ona haqq verən kimi vəziyyətlər alırdılar. Birdənbirə otaqdakı stola yumruq endi, stəkanlar, qrafinlər cing-cing cingildədi.

Bunu edən, bir az əvvəl mənimlə bərabər gülən həmin qaragözlü gənc qadın idi. O, indi canavara dönmüşdü. Yüksəldikcə gözəlləşən, coşqun bir səslə çığırırdı:

– Müdirə xanım, bu necə müdirəlikdir? Bu qadının, bir müəllimənin namusunu təhqir etməsinə necə icazə verirsiniz? Biz hardayıq? Bir kəlmə də danışmasına icazə versəniz, onu yox, sizi məhkəmələrə sürükləyərəm. Bu qadın özünü harda sanır?..



Qaragözlü müəllimə bu dəfə də ayağını yerə vurub, o biri müəllimə xanımlara acıqlandı:

– Afərin sizə, ay yoldaşlar, düzü, bu rəftarınızı çox bəyəndim. Məktəb içində bir müəllimə yoldaşın təhqir edilməsini belə dişlərinizi ağarda-ağarda dinləyirsiniz, hə!..

Bir dəqiqənin içində ara tamamilə sakitləşmişdi. Huriyyə müəllimə tək qalacağını başa düşəndə, yenə guya özündən getməyə, ağlamağa daşladı. Deyəsən dərs vaxtı da gəlmişdi. Müəllimlər dəftərlərini, kitablarını, tikiş səbətlərini alıb bir-bir dağılmağa başladılar.

Müdirə xanım, mənə: "Sizi otağımda gözləyirəm, qızım!" – deyib qapıdan çıxdı.

Bir az sonra, məni müdafiə edən müəllimə yoldaşla otaqda tək qalmışdıq. Ona təşəkkür etməyi lazım bilib dedim:

– Vay, vay!.. Siz də mənim üstümdə əziyyət çəkdiniz!

O, "əhəmiyyəti yoxdur", demək istəyirmiş kimi, çiynini atıb güldü:

– Bunu qəsdən elədim. Belələrinə hərdən gözdağı verilməsə, olmaz. Sonra adamın başına çıxarlar. Neyləyəsən. Dərsdən sonra görüşərik, olmazmı?

Müdirənin qapısına qədər getdikdən sonra, nədənsə içəri girməyə razı olmadım. Bu məsələni təzələmək məni iyrəndirirdi. Qollarım yanıma düşmüş, çantam ağırlaşmışdı, kimsənin gözünə görünmədən məktəbdən çıxdım, mehmanxanaya qayıtdım.

Hacı qalfa məni görən kimi, məyus bir tövrlə qollarını qaldırdı.

– Vay, hocanım, vay, nələr gəlmiş sənin başına! – deyə söylənməyə başladı.

Əhvalatı məndən də yaxşı bilirdi. Bunu azacıq bir zaman içində necə duymuşdu?

– Aman, qızım, gözünü dörd aç! İstanbula yazacağıq, deyə sənə bir oyun oynamasınlar. Nazirlikdə tanışın varsa, tez ona məktub yazaq, – dedi.

Məni nazirə tövsiyə edən xeyli yaşlı bir şairdən başqa heç kəsi tanımadığımı söylədim. Hacı qalfa onun adını eşitcək uşaq kimi sevindi:

– Vay, o ki mənim vəlinemətimdir[1], – dedi. – Burda bir zamanlar edadi məktəbinin[2] müdiri idi. Mələk kimi bir insandı. Yaz, qızım,

[1] Vəlinemət – nemət verən, bəsləyən
[2] Edadi məktəb – orta məktəb

yaz və məni sevirsənsə, məndən də salam yaz, de ki: "Qulun Hacı qalfa mübarək dəstlərindən bus edir[1]".

Yazıq Hacı qalfa tez-tez şikəst ayağını sürüyə-sürüyə yuxarı çıxır: mənə belə-belə xəbərlər gətirirdi: "Prokuror bəy deyir ki, haqq onundur, qorxmasın, maarif müdirini sıxışdırsın. Yaxud, "Şəhər idarəsi mühəndisi sabah İstanbula gedəcək, nazirliyə baş çəkməyi vəd etdi".

Bura nə qəribə yerdir! Bir neçə saat içində bu rüsvayçılığı bilməyən qalmamışdı. Mehmanxananın qəhvəxanasında hamı bundan danışırmış.

– Hacı qalfa, bu necə işdir? – dedim, – burda hamı bir-birini tanıyır.

Qoca kişi peysərini qaşıyaraq dedi:

– Ovuc içi boyda bir yerdir. Hardan tapasan o daşına, torpağına qurban olduğum İstanbulu? Orda olsa, kim kimədir. Buranın dedi-qodusu boldur. Bunu yaxşı bilməlisən. Məndən sənə nəsihət: kamil ol, başıaşağı ol. Küçədə, bazarda üzü açıq gəzmə. İndi (aman ya rəbbim, bu indi kəlməsini o, nə qəribə ədа ilə söyləyirdi!) sənə inşallah yaxşı bir qismət də çıxar. Burada bir hocanım vardı. Arifə hocanım. Məhkəmə rəisi onu nikah edib özünə aldı. İndi bir əli yağda, bir əli baldadır. Sağ əli sənin başına! Amma gözəl olduğuna görəmi aldı? Nə gözəl! İffətli olduğuna görə, başıaşağı olduğuna görə! [İndi dünyada insan üçün namusdan qiymətli şey yoxdur!]

Günlər keçdikcə Hacı qalfanın mənə etibarı, rəğbəti artırdı. Hər gün evindən mənə cürbəcür xırda şeylər: krujevalı stəkan örtüsü, naxışlı üz dəsmalı, rəsmli həsir yelpinc kimi şeylər gətirib otağımı bəzəyirdi.

Bəzən biz söhbət edəndə, aşağıdan qaba bir səs:

– Hacı qalfa, yenə hansı cəhənnəmə qeyb oldun? – deyə çığırardı.

Bu, Hacı qalfanın ağası, mehmanxananın sahibi idi.

Qoca qalfa hər dəfəsində mahnı oxuyurmuş kimi, məqamla yavaş-yavaş:

– Kor olasan səni, kor!.. Hacı qalfalar aparsın səni, – deyə söylənir, sonra çığırırdı:

– Gəldik, gəldik, bir az işimiz vardı da...

Mehmanxanada Hacı qalfa ilə bərabər bir dostum da vardı. Bu, otuz beş, qırx yaşlarında monastırlı bir qadındır. Onunla dostluğumuzun necə başlandığını söyləyim: mehmanxanaya gəldiyim günün

[1] Əllərindən öpür.



axşamı, otağımda şeylərimi yerbəyer edirdim. Yavaşca qapı cırıltısı eşitdim. Baxıb gördüm ki, otağa sarı çit entarili, yaşıl krep örpəkli bir qadın girdi.

Hələ qapıdan girəndə: "Yaxşısınız, inşallah. Səfa gəldiniz, xanım qızım!" – deyə xatirimi soruşdu. Ənlikli-boyalı zəif üzü, dəlik-deşiyi kirəclə suvanmış bir xaraba divarı xatırladırdı. Vəsməli qaşları, qap-qara çürük dişləri bu çöhrəyə ölü kəlləsi kimi qorxunc bir görkəm verirdi.

Mən bir az özümü itirib dedim:

– Xoş gəldiniz, əfəndim!

– Validə[1] xanım haradadır?

– Hansı Validə xanım, əfəndim?

– Müəllimə xanım... da. Siz onun qızı deyilsinizmi?

Özümü saxlaya bilməyib gülməyə başladım:

– Mən müəllimə xanımın qızı yox, özüyəm, əfəndim.

Qadın yerə çömələn kimi hərəkət edib əllərini dizlərinə vurdu:

– Vay! Müəllimə xanım sizsiniz! Heç belə barmaq boyda, cavan müəllimə görməmişəm. Mən sizi yaşlı-başlı bir müəllimə xanım sanırdım.

– İndi beləsi də olur, əfəndim.

– Hə, olar, olar... Bu dünyada nə olmaz! Biz bu üzbəüz otaqda oluruq, uşaqları yatırtdım, sizə "səfa gəldin" deməyə gəldim... Allah əskik eləməsin, gündüzlər çoluq-çocuqla başım qarışır. Bu vaxtlar uşaqlar yatırlar, məni bir kəsələt basır. Təklik bir Allah-taalaya məxsusdur, elə deyilmi, həmşirəciyim? Hey fikir eləyirəm, hey fikir!.. Hey cığara çəkirəm, hey cığara!.. Beləliklə, sabahı açıram. Sizi mənə Allah göndərdi, həmşirəciyim, iki kəlmə laqqırtı edərik ürəyimiz açılar.

Yazıq qadın mənə əvvəlcə "xanım qızım" deyə xitab edirdi; müəllimə olduğumu biləndən sonra, bunu "həmşirəciyim" sözünə çevirdi.

Otaqdakı kürsünü göstərib dedim:

– Buyurun, əyləşin! – Özüm çarpayının kənarına oturub ayaqlarımı salladım.

Monastırlı xanım:

– Mən kürsüdə rahat ola bilmirəm, həmşirəciyim, – dedi və qəribə bir şəkildə yerdə, ayaqlarımın yanında oturub dizlərini dikəltdi, sonra

[1] Validə – ana

*entarisinin cibindən bir tənəkə tütün qutusu çıxarıb qalın cığaralar* eşməyə başladı. Bunların birini də mənə təqdim etdi.

– Təşəkkür edirəm, mən çəkən deyiləm, əfəndim, – dedim.

O:

– Mən də əvvəllər çəkməzdim, qəm-qüssə bu günə qoydu, – dedi.

Qonşum xeyli dərdli idi. Monastırda varlı-karlı bir adamın qızı imiş. Özlərinə görə bağları, bağçaları, öküzləri, inəkləri varmış. Atasının qapısında dörd-beş fağır-füqəra doyurmuş. Monastırın adlı-sanlı bəylərindən bir çoxu onu almaq istəyirmiş. Amma o, cahillik edib: "Ancaq qılınclı zabitə gedəcəyəm!" – deyə inad edibmiş. Kaş anası ona yüz dəyənək vurub, o bəylərdən birinə verəymiş! Amma o biçarə qadın da başına nə gələcəyini hardan bilsin?! Götürüb bircə qızını, belindəki qılıncdan başqa malı-mülkü olmayan bir mülazimə[1] veribmiş. Hürriyyətə qədər birtəhər keçinibmişlər. Otuz bir martda əri hərəkat ordusu ilə İstanbula gedibmiş.[2] O gedən gedib, daha nə geri qayıdıb, nə də iki sətirlik bir məktub yazıbmış! Nəhayət, günlərin bir günü İstanbuldan qayıdıb gələn dostlarından biri onun ərinin "B"-də olduğunu və oralı bir qadınla evləndiyini xəbər veribmiş. Eh, ola bilər də, şəriətimiz dördə qədər izin verir! Yazıq qonşum bir az ağlayıbsızladıqdan sonra üç uşağını götürüb bura gəlmişdir. Ancaq əri bu işdən heç razı qalmayıb. Nə vaxtilə yalvara-yalvara aldığı arvadını, nə də əziz balalarını görmək də istəmir, onları qaytarıb Monastıra göndərmək üçün təkid edirmiş. Yazıq qadın: "Bu qədər vaxtdır arvadınam. Mənə bu cəfaları etmə!" – deyə köpək kimi ayaqlarına düşüb yalvarmışdısa da, heç cürə özünün burada qalmasına ərini razı edə bilməmişdi.

Bu uzun hekayəni dinlədikdən sonra mən özümü saxlaya bilməyib dedim:

– A xanım, nə üçün sizi istəməyən bir adamın üstünə bu qədər düşürsünüz? O, sizi rədd edirsə, siz də onu rədd edin, qurtarsın getsin.

Monastırlı xanım avamlığıma acıyan kimi gülümsünə-gülümsünə:

– A həmşirəciyim, gözümü açıb onu görmüşəm. Bu qədər ildir bir yastığa baş qoymuşuq, ərdən ayrılmaq asandırmı? – dedi və səsini titrədə-titrədə bir misra oxudu:

"Anadan keçilir, yardan keçilməz!"

[1] Mülazim – leytenant

[2] Burada 1908-ci il "Gənc türklər inqilabı" nəzərdə tutulur. Gənc zabitlərin başçılıq etdiyi hərəkat ordusu Monastırdan İstanbula hərəkətlə 1876-cı il konstitusiyasını bərpa etmişdi.



*Mən az qala qəzəblə dedim:*

– İnsan onu aldadan bir kişini necə sevər? Mən bunu anlaya bilmirəm.

O acı-acı gülümsünüb dedi:

– Siz hələ çox uşaqsınız, həmşirəciyim. Bu dərdləri çəkməmisiniz, bilmirsiniz. Allah sizə heç göstərməsin də...

Mən dedim:

– Mən elə bir qız tanıyıram ki, evlənmələrinə iki gün qalmış, nişanlısının onu aldadaraq başqa bir qadınla gəzdiyini eşidib o pis adamın üzüyünü başına çırpmış və yad bir vilayətə qaçmışdır.

– O qız, yəqin ki, sonradan peşman olmuşdur, həmşirəciyim. Yanıram onun halına. Ürəyi həsrətdən, yəqin, parça-parça olmuşdur. Sən güllə ilə vurulanlar barəsində heç eşitməyibsənmi, həmşirəciyim? Bəziləri heç vurulduqlarından xəbər tutmurlar, üç-dörd addım qaçırlar, elə bilirlər ki, qaçıb canlarını qurtarıblar. Yara isti-isti ağrıtmaz, həmşirəciyim. Hələ qoy bir soyumağa başlasın. Onda görərsən o qızcığaz necə yanıb-yaxılacaq!

Hiddətlə çarpayıdan sıçrayıb otağın içində dəli kimi gəzməyə başladım. Yağış pəncərələri qamçılayır, küçədən boğuq köpək ulamaları gəlirdi. Monastırlı qonşum dərin bir ah çəkdikdən sonra davam etdi:

– Qürbət ellərindəyəm. Qolum-qanadım qırıq-qırıqdır. Əlim çatmaz, gücüm yetməz... Monastırda olsaydım, ərimi iki gündə bu çənginin əlindən qurtarardım.

Heyrətlə gözlərimi bərəldib soruşdum:

– Nə edərdiniz?

– Günüm burada ərimi yaman cadu-tilsimə salıb. Yazığın dilini-ağzını bağlayıb. Amma Monastır cadugərləri daha ustadırlar. Çox yox, üççə məcidiyyədən[1] keçsəm, ərimi o qadının əlindən alıb yenə mənə qaytararlar.

Monastırlı xanım mənə Rumeli[2] cadugərləri haqqında təfsilatı ilə danışdı:

– Arif xoca adında bir arnavud[3] varmış ki, donuz qulağını bir çox əməliyyatla durbin şəklinə salırmış. Bir qadın bu qəribə durbini gözünə tutub bir dəfə ərinə baxdımı, əri nə qədər nadürüst olursa

[1] Məcidiyyə – iyirmi quruşluq gümüş pul

[2] Rumeli – Osmanlı imperatorluğunun Avropa hissəsi

[3] Arnavud – Türkiyədə albanlara verilən ad; alban

olsun, o saat yola gəlirmiş. Çünki bütün qadınlar ona donuz kimi görünərmiş. Arif xoca bəzən sabun parçasına bir iynə sancır, sabunu əfsunlayıb üflədikdən sonra torpağa basdırırmış. Sabun torpaqda əridikcə, insanın düşməni də oturduğu yerdə əriyib iynə-ipliyə dönərmiş.

Yazıq qadın tənəkə qutusundan dalbadal cığaralar eşib çəkə-çəkə, buna bənzər nağıllar danışır, caduları tərif edirdi.

Nə boş, nə mənasız laqqırtılar! Hələ o, guya soyuduqdan sonra sızlamağa başlayan yara nağılı! Heç belə şey olarmı? Mən o zalım üçün heç fikir çəkərəmmi? Onu heç yada saldığım olurmu?

Monastırlı qonşumun qat-qat yaxma ənlik boyası, qazan qulpu kimi qara qalın vəsməsi, çökmüş göz çuxurlarını qorxunc bir halqa ilə bürüyən quyruqlu sürmələri məndə əvvəlcə iyrənməyə bənzər bir hiss oyandırmışdı.

Amma bunların öz kişisini təkrar ələ gətirmək üçün bir hiylə, bir bəzək olduğunu bildiyim zaman ürəyim yandı. Yazıq qadın deyirdi ki:

– Kişinin gözünə xoş görünmək üçün uşaqların boğazından kəsib ənlik, vəsmə, sürmə alıram, təzə gəlin kimi bəzənirəm, amma olmur. Axı dedim ki, cadu eləyiblər də!..

O gündən bəri otağımın qapısı arabir cırıldayır, başımı çevirmədən bilirəm ki, gələn odur.

– İşin varmı, həmşirəciyim? Azacıq gəlimmi?

Yalqızlıqdan o qədər təngə gəlmişəm ki, bu səs məni demək olar ki, sevindirir. Qələmimi qoyub ağrıyan barmaqlarımı bir neçə dəfə oynadıram və qonşumun daha əzbərlədiyim zəhlətökən eşq hekayəsini ləzzətlə dinləməyə hazırlaşıram.

Pəncərəmin qarşısında dimdik yüksələn dağın mənzərəsi ilk günlərdə məni əyləndirirdi. Amma ondan da yorulmağa başladım. İnsan bu dumanlı yamaclardan əsən küləklərdən saçı-başı dağılaraq, ətəkləri uça-uça gəzməsə, sıldırım qayalar üstündə keçi balaları kimi hoppanıb əylənməsə, bunlar nəyə gərəkdir?!

Hanı o günlər ki, başımı götürüb saatlarla çöllərdə gəzərdim, bağça kənarlarındakı çəpərlərə dəyənəklə vurub qalın yarpaqları ağacları daşlayaraq, quş qaldırardım! Halbuki, mən Anadolunu məhz bunun üçün istəyirdim!



Kiçiklikdən rəsm çəkməyi çox sevərdim. Məktəbdə ən yaxşı qiymət aldığım dərs rəsm dərsi idi. Köşkdə tərtəmiz otaq divarlarına, məktəbdə heykəllərin mərmər postamentlərinə qara və ya rəngli qələmlə çəkdiyim şəkillər üçün nə qədər danlanmış, cəza çəkmişdim. İstanbuldan gələndə çantama bir xeyli rəsm kağızı və rəngli qələm qoymuşdum.

Mehmanxanadakı yalqızlıq günlərimdə yazıdan bezdikdə, rəsm çəkirdim və bu, mənim üçün xoş bir təsəlli olurdu. Hətta Hacı qalfanın da biri qara qələmlə, biri sulu boya ilə iki rəsmini çəkməyə çalışmışdım.

Rəsmlərin nə dərəcəyə qədər bənzədiyini bilmirəm, amma o, burnunun, gözünün xüsusiyyətlərindən olmasa da, yumru və çılpaq başından, yekə bığlarından, ağ önlüyündən özünü tanıdı və ustalığıma heyran qaldı.

Yazıq kişi tənbəllik etməyib çarşı-bazarı gəzir, qızına çərçivə tikmək üçün ucuz atlazlar, ipək, məxmər parçalar, rəngli muncuqlar alırdı.

Nəhayət, çox sıxıldığımı görərək, o məni evinə çağırdı. Hacı qalfa arvadının qənaətkarlığı sayəsində qutu kimi bir ev tikdirib boş vaxtlarında uşaqlarının yardımı ilə bunu yaşıl rəngə boyatmışdı.

Ev bir dərin uçurumun kənarında idi. Uçurum o qədər dərindi ki, bağçanın sarmaşıqlarla örtülü taxta çaxçaxına qollarınızı dayayıb aşağı baxanda, başınız yüngülcə hərlənəcəkdi. Bu bağçada Hacı qalfanın ailəsi ilə bərabər bir neçə saatımı gözəl keçirdim!

Qalfanın arvadı Nevrik xanım samatyalı[1] idi. Əri kimi şaqqalı, amma yaxşı ruhlu, saf bir qadındı. Məni görən kimi: "İstanbul qoxuyursunuz, kiçik xanım!" – deyə boynuma sarılmaqdan özünü saxlaya bilmədi. İstanbulun adı gəldikdə, gözləri yaşarır, iri köksü dərin həsrətlə qalayçı körüyü kimi qalxıb-enirdi.

Hacı qalfanın on iki yaşlarında bir oğlu, on dörd yaşlarında bir qızı var idi. Qızın adı Haykanuşdur. O, çuğundur rəngində su çiçəyi çıxarmış kimi iri sızanaqlarla dolu olan qırmızı yanaqlı, qalın qaşlı utancaq və yöndəmsiz bir erməni qızıdır.

Mirat, ətli-canlı bacısının tərsinə, quru siyənək balığı kimi arıq, rəngsiz, cılız bir oğlandır.

[1] Samatya – İstanbulun bir məhəlləsi

Hacı qalfa oxuyub-yazan adam deyil, amma elmin qiymətini bilirmiş. Onun fikrincə, insan gərək hər şeyi bilsin, yeri gələndə, cibgirlik də eləsin. Mirat iki il erməni məktəbinə getmiş, iki ildən bəri də osmanlı məktəbində oxuyurmuş. Hacı qalfanın proqramına görə, bu uşaq iki ildə bir məktəb dəyişəcək, iyirmi yaşına qədər növbə ilə fransızca, almanca, ingiliscə, italyanca mükəmməl öyrənib tamam-kamal bir adam olacaqmış. Təbii ki, bu soxulcan kimi sısqa oğlan o zamana qədər bu yüklərin altında əzilib ölməsə!..

Hacı qalfa bir gün oğlundan danışarkən dedi ki:

– Miratın adına diqqət edibsən? Bir gör nə arifanə isimdir! Bu adı tapmaq üçün bir həftə baş çatlatmışam. İki dildə də düz gəlir. Ermənicəsi Mirat, osmanlıcası Murad.

Sonra son dərəcə ağıllı bir şey söyləyəcəyinə işarə olaraq, göz vurub əlavə etdi:

– Mirat yersiz bir qələt edib məni hirsləndirəndə, mən də ona deyərdim ki, sən nə Miratsan, nə Murad, ancaq bir mərətsən![2]

Qoca erməninin bu qəzəblənmə səhnələrindən biri də mən evlərində olanda baş verdi. Tamaşa etməli bir şey idi! Oğlanın günahı bundan ibarət idi ki, anasının bişirdiyi bir yeməyi bəyənməmişdi.

– Hələ bu miskinə bax! Ayaq boyda boyu var, dürlü-dürlü xoyu[3] var! Dilənçiyə xiyar verdilər, əyridir deyə bəyənməyib küçəyə atdı. Eşşək nə bilir doşab nədir? Nəsihətlərimi yaxşı eşit, qulağında saxla. Yoxsa danlaqla ağıllanmayanın payı dayaqdır. Sən kimsən ki, Allahın nanü nemətini[4] bəyənmirsən:

> Sən səni bil, sən səni,
> Sən səni bil, sən səni,
> Sən səni bilməz isən,
> Partladarlar ənsəni[5].

Haykanuşa gəlincə, qız olmasına baxmayaraq, onun təhsilinə də elə Miratın təhsili qədər əhəmiyyət verirdilər.

---

[1] Osmanlı – yəni türk
[2] Mərət – maymaq, sarsaq
[3] Xoy – xasiyyət
[4] Nanü nemət – çörək və nemət, bərəkət
[5] Ənsə – peysər



Haykanuş erməni katolik məktəbinə gedirdi. Hacı qalfa bir gün qonşularından, ürəkkeçməsi olan bir qoca kişi ilə qara tumanlı bir dudu[1] qarşısında qızını möhkəm bir imtahandan keçirməyimi istədi. Dünyada bundan daha gülünc bir mənzərə ola bilməzdi. Hacı qalfa qızcığazın kitablarını, dəftərlərini zorla mənim dizlərimin üzərinə qoyub deyirdi:

– Haydı, görək, Haykanuş, hocanımın qarşısında üzümüzü qara eləsən, sənə yedirtdiyim çörək burnundan gəlsin!

Bir-iki vurma, bölmə misallarından sonra, rəsmli bir "Peyğəmbərlər tarixi" kitabını açdım. İsanı xaçlamağa dair bir parçaya təsadüf etdim. Qızcığaz xaçlamadan danışanda çərən-pərən sözlər söylədi. Mən bunları məktəbdən yadda saxladığımdan onun səhvlərini düzəltdim, xaçlamaya dair bəzi sadə məlumat verdim.

Hacı qalfa məni dinləyəndə gözləri böyümüş, başında saç olmadığı üçün qaşlarının tükləri dimdik olmuşdu. Xristianlıq haqqındakı biliklərim ona bir möcüzə kimi görünürdü: "Bu nə işdir ki! Bir müsəlman qızı mənim dinimi keşişlərdən yaxşı bilir. Mən səni elə-belə bir hocanım bilirdim, anladınmı? Demə ki, sən həqiqətən əli öpülməli bir üləmasanmış!" – deyə xaç vururdu.

Hacı qalfanın arvadı elə şişman idi ki, onun yerindən tərpənməsi barjın körpüdən ayrılması kimi çətin bir işdi; qalfa öz arvadının peysərindən tutdu, mənə sarı gətirib dedi: "Bu uşağı mənim tərəfimdən, lap alnının ortasından öp, anladınmı?"

Yazıq Hacı qalfa özünü kişi saydığı üçün, bu vəzifəni arvadına tapşırmışdı.

Qoca otaq xidmətçisi o gündən sonra qarşısına çıxan hər adama, məndən, mənim dərin elmimdən danışmağa başlamışdı: belə ki, mehmanxanaya girib-çıxdığım zaman, qəhvəxanadakı avaralar məni görmək üçün sifətlərini şüşələrə yapışdırırdılar.

Mən: "Hacı qalfa, Allah eşqinə, bu işdən əl çək, belə şeylər nəyə lazımdır?" – deyə hirslənib söylədikcə, o, demək olar ki, üsyan edir və deyirdi: "Qəsdən söyləyirəm, qoy gedib böyüklərin qulağına çatsın, onlar da sənə etdiklərindən utansınlar!"

Hacı qalfanın ailəsi ilə tanışlıq mənə başqa bir cəhətdən də faydalı oldu. Samatyalı madam çox gözəl riçal və şirniyyat hazırlamağı

---

[1] Dudu – xanım, erməni xanımı

bilirdi. Mənim "Peyğəmbərlər tarixi" haqqındakı biliklərimdən hər halda bu daha çox xeyirli bir elm idi.

Ondan həm asan, həm də ucuz başa gələn riçal bişirmək qaydalarını öyrəndim və Gülmisal qalfanın yeməklərini yazdığım dəftərə bəzək-düzəklə qeyd etdim. Bundan sonra bizim qarınquluIuğumuzla özümüzdən başqa kim məşğul olacaqdı?

İnşallah işlərim yoluna düşsün, mənim də başımı girləməli kiçik bir evim olsun, özüm üçün bir riçal dolabı düzəldəcəyəm, Hacı qalfanın evindəki kimi rəflərini kəsmə naxışlı kağızlarla bəzəyəcəyəm. Bu rəflərə yaqutlar, kəhrəbalar, sədəflər kimi parıldayan rəngbərəng bardaqlar düzəcəyəm. Bunlar nə əla şeylərdir! Hər dəfə könlümə düşdükcə, yemək üçün kimsədən icazə istəmək, yaxud bufetdən oğurluq etmək məcburiyyəti də olmayacaqdır. Allah eləsin ki, xəstə olmayım.

Bəli, al, sarı, ağ riçal bardaqları yan-yana düzüləcək, amma aralarında yaşıl rənglisi olmayacaqdır.

Daha yadıma da düşməyən Kamranın nifrət etdiyim gözləri, məni yaşıl rəngə düşmən etmişdi.

İndi çox yaxşı xatırlayıram. Kamran, mən əvvəldən də sənə indiki qədər nifrət etmədiyim zamanlarda da, sənin gözlərinə düşməndim. Bu düşmənlik başlananda, hələ on iki yaşım olmamışdı. Əlbəttə, yəqin özün də unutmamışsan. Tez-tez ovuclarımı tozla doldurub sənin üzünə atardım. Görəsən, bu yalnız bir uşaq dəcəlliyi idimi? Xeyr, bu, sənin o içinə gün düşmüş yosunlu dənizlər kimi hiyləli parıltılar oynaşan gözlərini acıtmaq üçündü!

Yenə məktəbdən kənara çıxdım. Halbuki, məqsədim eləcə bugünkü hadisələri qeyd etməkdi. Harda qalmışdım? Bəli, günlərdən bəri tutqun olan hava açılıb ilk dəfə günəş çıxdığı üçün mən uşaq kimi sevinirdim. Hacı qalfa isə elə bilmişdi ki, mən bir şad xəbər eşitmişəm. Ona görə də məni bərkə çəkməyə başlamışdı. Heç elə şey ola bilərdimi ki, mənə aid bir xəbəri ondan əvvəl mən eşidim? Az qala mən acdığımı və yuxum gəldiyini də bu qəribə mehmanxana xidmətçisindən öyrənməliydim.

Hacı qalfa deyirdi:

– Daha nazlanma, söylə! Belə pıqqıldaya-pıqqıldaya gülməyin boş-boşuna deyil. Allah bilir, yəqin ki, sən şad bir xəbər eşidibsən!



Nədənsə özümü, guya ondan əvvəl xəbər tutmuş kimi göstərmək mənə xoş gəlirdi. Yarızarafat, yarıciddi bir tövrlə mənalı-mənalı gülüb göz vurdum və dedim:

– Kim bilir, bəlkə elə bir sirdir ki, söyləmək mümkün deyil?

Günəş o qədər gözəldi ki, mən azmaq təhlükəsinə fikir verməyib mehmanxanadan bir az irəlidə olan körpünü keçdim. Qarşıma çıxan dik yoxuşu aşıb, sonra bir çəmənlikdə, bir ağaclıqdan və ikinci bir körpüdən keçdim. Hələ də gedəcəkdim, amma azmaqdan daha böyük bir təhlükə meydana çıxdı. Başımda yekə bir çarşab, üzümdə möhkəm örtülü yaşmaq olduğuna baxmayaraq, cürbəcür sırtıq kişilər dalımca düşməyə, söz atmağa başlamışdılar.

Hacı qalfanın nəsihətlərini xatırlayıb qorxdum və geri döndüm.

Maarif müdirliyində qurşaqlı baş katibin: "Hələ İstanbuldan bir səs-səmir yoxdur, həmşirə xanım" – cavabı ilə qarşılaşacağıma arxayındım. Amma küçəyə çıxmışkən, bir də ora dəymək zəruri idi.

Müdirin xidmətçisi pilləkən başında məni görəndə dedi: "Nə yaxşı ki gəldin, hocanım, bəy də səni axtarır. Bir azdan mehmanxanaya gedəcəkdim".

Bəy dediyi adam – maarif müdiri idi. Təəccüblüdür!.. Müdir, üzərinə qırmızı mahud çəkilmiş yazı stolunun önündə yenə əbədi yorğunluğundan dincələn kimi əlini-qolunu sallayıb yaxasını açmış, gözləri yarıyumulu halda fikrə getmişdi.

Məni görəndə əsnədi, gərnəşdi və kəlmə-kəlmə söyləməyə başladı:

– Xanım qızım, yüksək nazirlikdən hələ bir cavab almamışıq. Oradan nə buyrulacağını indidən deyə bilmərəm. Ancaq Huriyyə xanım çoxdan xidmət edən bir müəllimə olduğu üçün, güman edirəm ki, onu üstün tutarlar. Sizin əksinizə bir cavab gəlmiş olarsa, çətin vəziyyətdə qalacaqsınız. Bu işi ləğv etmək üçün bir çarə tapmışam. Buradan bir-iki saatlıq məsafədə bir Zeynilər nahiyəsi var. Havası, suyu gözəl, təbii mənzərəsi fərəh verən, əhalisi dinc və düz adamlardır, ora cənnət kimi bir yerdir. Orada bir vəqf məktəbi[1] vardı. Keçən il xeyli fədakarlıqla təmir edib yeniləşdirmişik. Bir çox dərs ləvazimatı alıb nöqsanlarının aradan qaldırılmasına müvəffəq olmuşuq.

Məktəbin içində müəllimlərin yaşamasına məxsus otaq da var. İndi bir gənc müəllimin hümmət və fədakarlığına möhtacıq. Könül

[1] Vəqf məktəbi – məscid məktəbi, mollaxana

istər ki, ora sizin kimi seçmə bir xanım getsin. Doğrudan da, yaxşı bir yerdir. Həm də, eyni zamanda xeyirli bir vətən xidməti olar. Hərçənd maaşı sizin burada alacağınız maaşdan bir qədər azdır, amma bunun əvəzində orda ət, süd, yumurta və sair şeylərin qiyməti buradakı ilə ölçülə bilməyəcək qədər ucuzdur. İstəsəniz, çoxlu pul da yığa bilərsiniz. Bununla bərabər, ilk fürsət düşən kimi maaşınızı artırıb, bugünkü miqdara çatdıraram. Belədə siz burdakı edadi müdirindən də yaxşı bir vəziyyətdə olarsınız.

Bu təklif qarşısında nə söyləyəcəyimi bilməyib susurdum.

Maarif müdiri davam etdi:

– Məktəbdə qoca bir xatun var. Həm dərslərə yardım edir, həm də məktəbin işlərini görür. Öz halında, namazında, niyazında bir qadındır. Yalnız yeni tədris üsullarına bələd deyil. Yəqin ki, siz onu da çəkişdirib-bərkişdirərsiniz. Hər halda, Zeyniləri bəyənməmiş olsanız, mənə iki sətir bir şey yazarsınız, dərhal sizi burada münasib bir yerə təyin edərəm. Bəli, oranı gördükdən sonra, mərkəzə təyin edilsəniz də, "istəmirəm" deyə ayağınızı yerə dirəyəcəksiniz. Hava gözəl, mənzərə gözəl, yeməli-içməli şeylər ucuz, əhalisi yaxşı... Demək olar ki, İsveçrə kəndləri kimi gözəl bir yerdir. Adam Allahdan daha nə istər?

Gözümün önünə günəşli yollar, kölgəli bağçalar, dərələr, meşələr gəlir, ürəyim şiddətlə döyünürdü.

Bununla bərabər, birdən-birə "bəli" deməyə cəsarət edə bilmədim. Heç olmasa, bu işi Hacı qalfaya danışmalı idim.

– İndi icazə verin gedim, bir-iki saatdan sonra gəlib cavabımı verərəm, əfəndim.

Müdir bəy bir az canlanan kimi oldu:

– Aman, qızım, bu iş çox tələsikdir. Başqa istəyənlər də var, əldən qaçırsanız, daha mənim işim deyil.

– Onda yalnız bircə saat icazə verin, bəy əfəndim, – dedim.

Maarif müdirinin yanından çıxanda, dəhlizdə ortağım Huriyyə xanımla burun-buruna gəldim! "B"-də bizim adımızı "iki ortaq" qoyduqlarını bir neçə gün əvvəl yenə Hacı qalfadan eşitmişdim. Bu qadın gözümü o qədər qorxutmuşdu ki, onu görən kimi bağrım yarıldı. Özümü görməməzliyə qoydum və tələsik ordan ötüb keçmək istədim. Amma o, yolumu kəsdi, həyasız bir dilənçi kimi çarşabımdan tutub mənimlə danışmağa başladı:



– Xanım əfəndi, qızım, keçənlərdə sizə qarşı bir tərbiyəsizlik etdim. Allah eşqinə təqsirimdən keçin. Əsəbilikdəndir. O hadisə mənə yaman təsir etmişdi... Ah, qızım, mənim nələr çəkdiyimi bilsəniz, halıma yanarsınız. Hər halda tərbiyəsizliyimi əfv edin.

Mən qorxaraq:

– Ziyan yoxdur, əfəndim, – dedim və keçmək istədim.

Amma nədənsə o yaxamı buraxmamağa qərar vermişdi. Əvvəlcə halından şikayət etdi, öhdəsində olan beş adamın küçədə qalacağından və dilənçilik edəcəyindən danışdı.

Huriyyə xanım getdikcə coşur, səsini yavaş-yavaş yüksəldib iyrənc bir tərzdə yalvarırdı. Mən nə söyləyəcəyimi, nə edəcəyimi bilməyib çaşıb qalmışdım. İşin daha pisi bu idi ki, bu qəribə komediyanı görənlər yanımıza gəlir, ətrafımızda dəftərxana xidmətçilərindən, katiblərdən, qəhvə və şərbət daşıyan önlüklü əsnaf şagirdlərindən bir dairə əmələ gəlirdi.

Üzüm, əllərim od tutub yanırdı. Utandığımdan az qala yerə girirdim.

Bu dəfə mən yalvarmağa başladım:

– Rica edirəm, hocanım, yavaş danışın, hamı bizə baxır.

Amma o inadını daha da artırdı. İndi, demək olar ki, saçlarını yolub yaxasının düymələrini qopararaq ağlayır, əllərimi, dizlərimi öpmək istəyirdi.

Ətrafımızdakı izdihamın getdikcə çoxalmaqda olduğunu görüb dəhşətləndim. Bəzən İstanbulda küçə ortasında diş çəkən, ləkə sabunu, qabar dərmanı satan çığır-bağırçı əsnafın ətrafına necə yığışarlarsa, biz də belə bir izdihamın ortasında qalmışdıq.

Ətrafdan "Arvad yazıqdır, fağırı ağlatma, kiçik xanım" – kimi sözlər də eşidilməyə başlamışdı. Birdən-birə lap yanımda peyda olan yaşıl əmmaməli, ağsaqqal, yekəpər bir xoca üzünü mənə tutub dedi:

– Qızım, yaşlılara hörmət və müavinət dini və insani bir vəzifədir. Gəl bu xatının rizqinə mane olma. Allahı da, peyğəmbəri də xoşnud etmiş olarsan. Cənab haqq hamının ruzisini verəndir. Əlbət, sənə də qeyb xəzinəsindən başqa bir qapı açar!

Çarşabımın içində bir yandan titrəyir, bir yandan tər tökürdüm. Əlindəki maşanı durmadan şaqqıldadan bir qəhvəçi o yandan:

– Elədir, elədir, – deyə bağırdı, – sən Allahın köməyi ilə hardan olsa çörəyini çıxararsan!

Yığılanların bir qismi qəhqəhə ilə gülməyə başlamışdı. Bu əsnada qırmızı qurşaqlı katib də burada göründü. Qəhvəçinin yaxasından yapışıb, demək olar ki, pilləkəndən itələyərək bağırdı:

– Əxlaqsız hərif, bu saat sənin ağzını yırtaram!

Nə üçün gülmüşdülər? Qəhvəçinin söylədiyi sözlər xoca əfəndinin söylədiyindən başqa bir şey deyildi ki!

Huriyyə xanım elə ağladı, rüsvayçılıq o qədər böyüdü ki, bu masqara vəziyyətindən qurtarmaq üçün, canımı da istəsəydilər, verərdim. Nəhayət:

– Çox yaxşı, çox yaxşı, necə istəyirsiniz, elə olsun, amma Allah eşqinə, yaxamdan əl çəkin, – dedim və yerə əyilib dizlərimi qucaqlamağa, öpməyə cəhd edən Huriyyə xanımın əlindən zorla çıxıb, maarif müdirinin otağına qayıtdım.

Bir az sonra mənə mərkəz rüşdiyyə məktəbindəki dərslərimdən öz arzumla istefa verdiyimə və Zeynilər məktəbi müəllimliyinə təyin edilmək istədiyimə dair bir kağız imzalatdılar.

Bir saat çəkmədən bütün işlər bitdi, o yerindən tərpənməyə ərinən maarif müdiri faytonla valinin[1] evinə gedib mənim əmrimi imzalatmışdı. Bəzən, aylar uzunu bu stoldan o stola sürünən işlər, onlar istədikləri vaxt elə asanlıqla başa gəlir ki!..

Mehmanxanaya qayıtdığım zaman Hacı qalfa məni qapıda qarşıladı. Həm şikayətli, həm də şad bir tövrlə dedi:

– Sən gizlətdin, elə bildin ki, mən öyrənməyəcəyəm, Allah mübarək eləsin!

– Nəyi öyrəndin?

– Canım, əmrinin gəldiyini...

– Nə əmr, Hacı qalfa?

– Canım, səni mərkəz rüşdiyyə məktəbində saxlayırlar. Huriyyə xanımın pasportunu əlinə veriblər.

– Səhvdir, Hacı qalfa. Mən indi maarif müdirinin yanından gəlirəm, elə bir şey yoxdur.

Qoca şübhəli-şübhəli üzümə baxdı:

– Xeyr, əmr dünən axşam gəlmişdir. Yaxşı bir yerdən eşitmişəm. Demək ki, müdir səndən gizlətmişdir. Bu işdə, yəqin ki, bir oyunbazlıq var! Danış, hələ bir danış görüm!

[1] Vali – vilayət rəisi, qubernator



Hacı qalfanın saf təşvişi ilə əylənib bir nəfəsdə əhvalatı ona danışdım və çantamdan əmrnaməni çıxarıb əlimdə yellədərək dedim:

– Kefdir, Hacı qalfa! İsveçrə kimi bir yerə gedirik!

Hacı qalfa məni dinlərkən, iri burnu xoruz pipiyi kimi qızarırdı. Əllərini bir-birinə vuraraq deyinməyə başladı:

– Neylədin, ay cahil uşaq, neylədin? Axırda səni tovlayıb aldatdılar ha! Bu saat get, müdirin başının üstünü kəs!

Mən təkrar çiyinlərimi çəkdim:

– Dəyməz, əzizim Hacı qalfa! Sən o qədər narahat olma. Sonra xəstələnərsən, neylərik?

Yazıq kişinin mənim yerimə hirslənməyə, təşvişə düşməyə haqqı varmış. Axşamçağı iş bütün təfsilatı ilə məlum oldu. Maarif müdiri Huriyyə xanımın tərəfini saxlayırmış. Nazirliyə yazdığı təliqədə onun daha çox təcrübəli bir müəllim olduğunu irəli sürüb, mənim başqa bir yerə köçürülməmi istəyibmiş. Amma nazirlik nədənsə, məni saxlayıb ortağımı başqa bir yerə göndərməyi uyğun görübmüş.

Dünən axşam gələn əmri gördükdə maarif müdiri, rüşdiyyə müdirəsi və gərək ki, Huriyyə xanımın Rumelidən yerlisi olan müsahibə müdiri gecə bir yerə yığışıb, məni bir kəndə göndərərək, yerimə Huriyyə xanımı saxlamaq üçün plan tərtib etmişlər.

Huriyyə xanımın maarif müdirliyi koridorunda mənimlə qarşılaşması əvvəldən hazırlanmış bir şey imiş. Hətta o, ağsaqqallı xocanı da qəsdən gətiriblərmiş.

Maarif müdirinin sözlərinə görə, mənə gözəl bir Avropa kəndi kimi görünən Zeynilər kəndi isə, əslində dağların arasında quşuçmaz, karvankeçməz bir yermiş! Bir ildən bəri boş olduğu halda, ən düşkün müəllimlər də ora getməyə razı olmurlarmış.

Mən bunları eşitdikcə çaşıb qalır, saçlı-saqqallı bir böyük məmurun məni bu qədər aşkar aldatmasını heç cür ağlıma sığışdıra bilmirdim.

Hacı qalfa sinirli bir tövrlə başını yırğalayıb deyirdi:

– Sən o yuxulu ilanı tanımırsan. Yatar-yatar, amma sonra adamı elə vurar ki, hardan gəldiyini özün də bilməzsən, anladınmı, əfəndim?

– Sən də söz danışdın! İnsanı ən yaxın qohumları rəhmsizcəsinə vurduqdan sonra, yadların vurmasından nə çıxar? Mən o Zeynilərdə də xoşbəxt olmağın yolunu tapa biləcəyəm. Könüllər şən olsun!

*Zeynilər, 28 oktyabr.*

Bu gün axşamüstü bir çeçen arabası ilə Zeynilərə gəldim. Maarif müdiri yolları, yəqin ki, dəmiryolu hesabı ilə ölçür. Çünki "iki saat" dediyi yol, düz səhər saat ondan gecəyə qədər sürdü. Yazıq neyləsin! Təqsir onda deyil, təqsir gah dağ yamaclarına dırmaşan, gah qurumuş sel çuxurlarına enən Zeynilər yoluna dəmir yolu çəkdirməyənlərdədir.

Hacı qalfanın ailəsi məni şəhərdən yarım saatlıq yolu olan bir çeşməyə qədər ötürməyə gəlmişdi. Bütün ailə bir toya, daha doğrusu, yasa gedən kimi geyinmişdi.

Arabanın hazır olduğunu xəbər verməyə gəldiyi vaxt, az qala Hacı qalfanı tanımamışdım. Ağ önlüyünü, səkilər, dəhlizlər və pillələrdə özünə görə bir ahənglə sürüdüyü şap-şup tərliklərini çıxarıb, əyninə solğun mahuddan yaxası bağlı uzun bir pencək, ayaqlarına imam qaloşları geymişdi. Əziziyyə[1] biçimində yekə bir qırmızı fəs daz başını qulaqlarına qədər örtmüşdü. Samatyalı madam Haykanuş və Miratın tualetləri də onunkundan aşağı deyildi.

Mehmanxanadakı kiçik otağımın içərisində çox acı saatlar keçirdiyimə baxmayaraq, ondan demək olar ki, kədərlə ayrıldım. Məktəbdə bizə belə bir şeir əzbərlətmişdilər: "İnsan yaşadığı yerlərdə bərabər olduğu adamlara görünməz incə tellərlə bağlanarmış; ayrılıq vaxtlarında bu bağlar gərilməyə, qırılan kaman telləri kimi yanıqlı səslər çıxarmağa başlarmış; bu tellərin hər birinin könlümüzdən qopub ayrılması ayrı sızıltı oyadarmış". Bunu yazan şair nə qədər haqlı imiş!

Təsadüfən monastırlı qonşum da mənimlə bir gündə "B"-dən ayrıldı. Ancaq o, hər halda məndən daha çox acınacaqlı bir vəziyyətdə idi.

Dünən gecə çantalarımı hazırladıqdan sonra yatmışdım. Yuxunun içində ucadan danışıq səsləri eşidir, amma heç cür ayıla bilmirdim. Birdən-birə qorxunc bir gurultu eşidib yatağımdan sıçradım. Dəhlizdə bəzi şeylər yıxılıb-çevrilir, gecənin səssizliyinə uşaq fəryadları, boğuq xırıltılar, sillə, şapalaq səsləri qarışırdı. Yuxulu olduğuma görə ağlıma gələn ilk şey yanğın oldu. Amma yanğına düşənlər, hər halda bir-birini döyməzdilər.

Saçlarım dağınıq, ayaqlarım yalın olduğu halda, otaqdan bayıra atıldım və faciəli bir hadisə ilə qarşılaşdım. Div gövdəli, yekə bığlı bir zabit monastırlı qonşumu yerlə sürüyüb təpikləyirdi.

[1] Sultan Əziz dövründə qoyulan gen, yastı fəs



Xırdaca uşaqlar: "Anamız!.. Atam anamızı öldürür!.." – deyə çığırışırdılar.

Yazıq qadın ilan kimi fit çala-çala enən hər qamçıdan, hər təpikdən sonra inləyib döşəmənin üstünə sərilirdi, amma qəribə bir qüvvətlə yenə yenindən qalxaraq, zabitin dizlərinə sarmaşır, "qulunam, qurbanın olum, əfəndim, öldür məni, lakin buraxma, boşama!.." – deyirdi.

Yarıçılpaq olduğum üçün təkrar otağıma girdim. Əslinə baxsan, belə olmasaydı da, əlimdən nə gələrdi?

Yəqin ki, alt mərtəbədə yatanlar da oyanmışdılar. Aşağı dəhlizdən ayaq tappıltıları, anlaşılmaz səslər gəlirdi.

Dəhlizin tavanında bir kölgə görünməyə başladı. Pilləkən aralığında Hacı qalfanın çılpaq başı parıldadı. Yazıq kişi gurultunu eşidib oyanmış, bir tənəkə lampa yandırıb alt paltarı ilə bayıra yüyürmüşdü.

O: "Bu nədir, bu nə rəzalətdir, mehmanxanada belə şey olar?" – deyə bağıraraq, onların aralarına girmək istədi. Amma zabit Hacı qalfanın qarnına çəkməli ayağı ilə elə bir təpik vurdu ki, biçarə demək olar, futbol topu kimi havaya qalxıb aralıq qapıdan dalı üstə mənim otağıma sərildi və çılpaq ayaqları havaya qalxdı. Yaxşı ki, mən cəld tərpənib qollarımla onun başını tutmuşdum. Yoxsa çılpaq kəllə yekə bir balqabaq kimi döşəməyə dəyib partlayacaqdı.

Yuxudan yarımçıq oyanmaq, qorxu, çaşqınlıq, sonra Hacı qalfanın halı, hamısı bir-birinə qarışıb sinirlərimi yaman pozmuşdu.

Qoca qalfa: "Vay aman! Vay aman, hay nalçasına tüpürdüyümün qatırı!" – deyə söylənərək ayağa qalxdı. Amma bu səfər çarpayımın üstünə yıxılmışdım. Məni ömrümdə görmədiyim bərk gülmək tutmuşdu. Belə ki, uğunur, nəfəsim tıxanırdı, əllərimlə yorğanı burub dartırdım. Daha bayırda nələr olduğunu anlamağa halım yoxdu.

Səslər, gurultu tamamilə kəsilib mehmanxanada əvvəlki sükut bərpa olana qədər özümə gələ bilmədim.

Əhvalatı sonra mənə danışdılar.

Monastırlı xanımın arsız məhəbbəti, nəhayət, ərinin canını boğazına yığmış, zabit nə bahasına olursa olsun, qadını uşaqları ilə bərabər öz gəldiyi yerə göndərməyə qərar veribmiş. Bu gecə biletlərin alınmış olduğunu, ertəsi gün səhər tezdən hazır olmasını söyləməyə gəlmişdi.

Monastırlı xanım onun yaxasını əldən buraxmağa belə asanlıqla razı olarmı? Təbii ki, yalvarmağa, yaxarmağa başlamışdı. Aralarında kim bilir nə kimi sözlər və səhnələr baş verdikdən sonra bu biabırçılıq başlanmışdı.

İki saat keçəndən sonra təkrar yatmağa hazırlandığım vaxtda, Hacı qalfa yavaşca qapımı döydü və dedi: "Bura baxsana, hocanım, mehmanxanada səndən başqa qadın yoxdur. Yazıq qadın huşunu itirmişdir. Bu qədər gülmək olmaz. Dinini sevirsənsə, get bir az ona bax. Adımız kişi olduğuna görə, yanına gedə bilmirəm. Allah eləməmiş ölüb elər, başımız bəlaya düşər..."

Qapının arasından Hacı qalfanın üzünü görəndə, məni yenə gülmək tutdu: "Hacı qalfa, keçmiş olsun", – demək istəyirdim, amma kəlmələr heç cür ağzımdan çıxmırdı.

Hacı qalfa küskün-küskün üzümə baxdı. Utana-utana başını yırğaladı və dedi: "Gülərsən! Elə hey hırıldayıb gülərsən. Hay dəcəlin biri! Hələ bir buna bax!"

"Gülürsən" kəlməsini "gülərsən" deyə o qədər qəribə söyləyirdi ki, indi də gülməkdən özümü saxlaya bilmirəm. Dərdli qonşumla demək olar ki, bir saatdan çox məşğul oldum. Yazığın bədəni qapqara idi. Tez-tez huşunu itirir, gözlərinin qarası yox olur, çənəsi kilidlənirdi.

Bihuşla məşğul olmaq ilk dəfədir ki, başıma gəlir. Bilmirdim nə eləmək lazımdır. Amma başına gələndə, adama elə bir qüvvət gəlir ki...

Hər biri beş dəqiqə çəkən bihuşluq dövründə yazıq qadının qollarını, vücudunu ovuşdurur, qızına sürahidən su tökdürüb üzünü isladırdım. Alnı, yanaqları, dodaqları bir neçə yerdən yarılmışdı. Bu yaralardan incə-incə axan qan sürməyə, vəsməyə qarışıb kirli bir qara rəng alaraq çənəsindən köksünə süzülürdü. Ya rəbbi, bu üzdə nə çox boya varmış! O qədər su tökdüyüm halda, boya qurtarmaq bilmirdi.

Bu səhər oyananda qarşıdakı otağı boş gördüm. Zabit səhər tezdən onu uşaqları ilə bərabər bir arabaya atıb aparmışdı. Qonşum getməzdən əvvəl məni görmək, halallaşmaq istəyibmiş. Amma gecə onun üstündə yuxusuz qaldığımı bildiyi üçün oyatmağa qıymayıbmış. Hacı qalfaya mənə salam və təkrar-təkrar gözlərimdən öpdüyünü söyləməyi tapşırıbmış...



Arabada gözüm Hacı qalfanın üzünə sataşdıqca gülürdüm. O bu yersiz nəşənin mənasını və səbəbini anlayır, küskün bir halda gülümsünüb başını yırğalayaraq:

– Gülərsən, ha! Hələ pıqq-pıqq gülərsən, ha! – deyə mənə acıqlanırdı.

Sonra axşamkı təpiyin dəhşətindən danışıb deyirdi: "Dabanına tüpürdüyümün qatırı, anladınmı əfəndim, bir təpik vurdu ki, qarnımın içi qarmaqarışıq oldu. Mirat, məndən sənə ata nəsihəti: sən sən ol, ər-arvad arasına girmə. Ər-arvad ipəkdir, araya girən köpəkdir!"

Bütün ailə çeçen arabası ilə şəhərin kənarındakı çeşmənin başına qədər gəlmişdi.

Ayrılıq yeri bura idi. Hacı qalfa ağzı tıxacla iki şüşəyə töküb gətirdiyi suları çeşmədən təzələdi və qoca arabaçıma uzun-uzadı tapşırıqlar verdi. Samatyalı madam, gözləri yaşlı, bir gün əvvəldən mənim üçün yapdığı çörəkləri səbətimə doldurdu.

Mənə qarşı tamamilə laqeyd olduğunu zənn etdiyim vəhşi Haykanuş birdən-birə bir yeri ağrıyırmış kimi ağlamağa başladı, həm də necə ağladı! Qulağımda iki inci sırğa vardı, onları çıxarıb Haykanuşun qulaqlarına taxdım.

Hacı qalfa bu hədiyyə üçün demək olar ki, utanıb dedi: "Yox, hocanım, hədiyyə deyilən şey gərək qiymətli olmasın. Bunlar qiymətli incilərdir".

Yenə yüngülcə güldüm. Qızının mənim üçün gözlərindən tökdüyü incilərin yanında bu incilərin iki paralıq qiyməti olmadığını bu təmiz ürəkli adama necə başa salasan!

Hacı qalfa məni təkrar arabaya mindirdikdən sonra, dərindən içini çəkdi, əlini köksünə vuraraq dedi: "Tövbə olsun. Bax, bu ayrılıq mənə, sözün düzü, axşamkı təpikdən də ağır gəldi!"

Gecəki həngaməni xatırladan bu sözlər məni bir də güldürdü. Araba yola düşdü. Hacı qalfa hələ arxamdan barmağını tərpədib deyirdi: "Gülərsən ha, dəcəl, gülərsən!"

Əgər mindiyim araba uzaqlaşmasaydı və Hacı qalfa gözlərimi görsəydi, bu sözləri söyləyə bilməzdi.

Araba enişli-yoxuşlu dağ yollarına girmişdi. Gah qurumuş sel çuxurlarından keçir, gah boş tarlaların, meyvələri yığılmış bağların kənarları ilə gedirdi.

Hərdənbir tək-tük kəndlilərə, yorğunluqdan inləyən kimi səslər çıxaran qağnılara[1], dallarında çır-çırpı dərzləri daşıyan ayaqyalın qadınlara təsadüf edirdik.

Nazik bir bağ cığırından quldur kimi qorxunc qiyafəli, uzun bığlı iki jandarma gəlirdi. Yanımızdan keçərkən, arabaçıya "Salam əleyküm" dedilər və dik-dik mənə baxdılar.

Hacı qalfa mənə demişdi: "Yollar, maşallah, əmin-amanlıqdır, amma kim bilir nə ola bilər, yaşmağını örtülü saxla. Sənin üzün hər yerdə açılmalı üz deyildir, anladınmı, əfəndim!"

Uzaqdan birisinin gəldiyini görən kimi, o saat Hacı qalfanın tapşırığını xatırlayır, üzümü örtürdüm.

Saatlar keçdikcə, yollara qəmgin bir tənhalıq çökürdü. Bu çeçen arabalarının incə, yanıqlı səsli zınqırovları var. İcad edənlər nə yaxşı düşünmüşlər. Yamaclarda, dərələrdə oyandırdıqları əks-sədalar insana, demək olar ki, təsəlli səsi kimi gəlir. Bir qayalığın içindən keçəndə, mənə elə gəldi ki, uzaqlarda yanmış kimi görünən qara daş yığınının o tərəfində görünməz bir yol var, incə səsli bir qadın hıçqıra-hıçqıra bu yolla arxamızca yüyürür...

Axşam yaxınlaşır, günəş ağır-ağır təpələrin ardına çəkilərkən, dərələrə qaranlıq çökməyə başlayırdı. Yol hələ bitib-tükənmək bilmirdi. Göz işlədikcə nə bir kənd, nə də bir ağaclıq görünürdü...

Qəlbimdə yavaş-yavaş bir qorxu oyanmağa başlamışdı. Birdən gecəyə qədər Zeynilər kəndinə çatmasaq? Birdən dağlarda gecələməli olsaq?

Arabaçı hərdən durub heyvanlarını dincəldir, insanla danışan kimi onlarla danışırdı. Bir daşlığın ortasında onun yenə durub dincəlməsindən istifadə edib soruşdum:

– Hələ çoxmu qalıb?

O, ağır-ağır başını yırğalayıb cavab verdi:

– Gəlib çatdıq!

O, yaşlı adam olmasaydı, belə güman edərdim ki, mənimlə əylənir.

– Necə ola bilər? – dedim, – Allahın çölündəyik. Göz işlədikcə boşluqdur, bir kənd-filan yoxdur.

Qoca çantalarımı arabadan götürməyə çalışaraq cavab verdi:

[1] Qağnı – Anadolu kəndlilərinin dəyirmi taxtadan iki təkəri olan ən ibtidai bəsit arabalardır.



– Hə, bax bu cığırdan aşağı enəcəyik. Burdan Zeynilərə beş dəqiqə çəkər. Araba yolu yoxdur.

Daşların arasından minarə pilləkəni kimi dik bir yoldan aşağı enməyə başladıq. Aşağıda axşamın alaqaranlığı içində qapqara bir sərvlik, ətrafına çəpər çəkilmiş çılpaq bağçalar arasında tək-tük daxmalar, taxta evciklər görünürdü.

Zeynilər ilk baxışda mənə hələ ora-burasından tüstü çıxan bir yanğın xarabası kimi göründü.

Kənd deyiləndə, gözümün önünə yaşıllıqlar arasında keçmiş Boğaziçi[1] sahillərində göyərçin yuvalarına bənzəyən sevimli, şən mənzərəli daxmalar gələrdi. Halbuki, bu evlər uçulmağa üz tutmuş qapqara viranələr idi.

Xaraba bir dəyirmanın önündə əbalı-əmmaməli bir qocaya rast gəldik. Qabırğa sümükləri çıxmış zəif bir inəyi ipindən tutub sürüyə-sürüyə bu evlərdən birinə sarı aparmağa çalışırdı. Bizi görəndə durdu, diqqətlə baxmağa başladı. Bu ixtiyar[2] xoca Zeynilərin muxtarı[3] imiş. Arabaçı onu tanıyırmış. Bir neçə kəlmə ilə mənim kim olduğumu bildirdi.

Beldən büzməli gen-bol qara çarşabım, möhkəmcə örtülmüş yaşmağımla mənim gənc olduğumu bilmək mümkün deyildi; belə olduğu halda, görünür ki, Muxtar əfəndi mənim çox bəzəkli olduğumu güman edib qəribə-qəribə baxdı, sonra inəyini ayaqyalın bir uşağa verib önümüzə düşdü. Kəndin dar küçələri içinə girmişdik. Evləri indi daha yaxşı görə bilirdim. Bir zaman Qavaqlarda[4] önünə torla sərilmiş, yağışdan çürüyüb qaralmış, boğazdan əsən küləklərdən bir yanı üstə çökmüş yarıuçuq balıqçı daxmacıqları vardı. Bu evlər ilk baxışda onları xatırladırdı.

Bu evlərin altında dörd dirəkdən ibarət tövlə, üstlərində asma pilləklərlə çıxılan bir-iki otaq vardı. Hər halda, bu Zeynilər indiyə qədər eşitdiyim və rəsmlərini gördüyüm kəndlərdən heç birinə bənzəmirdi.

Ətrafına taxta barı çəkilmiş bir bağçanın qırmızı qapısı önündə durduq. Yarpaqlarına qədər hər yeri qapqara görünən bu kənddə gördüyüm ilk rəng bu qırmızı taxta oldu.

[1] Boğaziçi – Bosfor
[2] İxtiyar – qoca
[3] Muxtar – kənd ağsaqqalı, kəndxuda
[4] Qavaqlar – Bosfor sahilində bir balıqçı kəndi

Muxtar yumruğu ilə qapını döyməyə başladı. Hər zərbədən qapı az qalırdı sınsın.

İlk dəfə ağzımı açmağa cəsarət edərək dedim:

– Yəqin ki, içəridə heç kəs yoxdur.

Muxtar başını yırğalayıb cavab verdi:

– Deyəsən, Xədicə xanım axşam namazını qılır. Bir az gözləməli olacağıq.

Arabaçının gözləməyə vaxtı yox idi. Çamadanları qapının yanında qoyub bizdən ayrıldı.

Muxtar əbasının ətəklərini yığıb yerə çömbəldi. Mən çamadanın kənarına oturdum, danışmağa başladıq.

Bu Xədicə xanım qatı dindar bir qadındı. Təriqətə[1] mənsubdu. Kəndin ölüsünə-dirisinə o yarayardı. Mövludları[2] o oxuyar, gəlinlərin üzünü o yazar, can verən xəstələrin ağzına son zəmzəm suyu[3] o tökər, qadın cənazələrini o yuyub kəfənə tutardı.

Muxtar əfəndi hər halda mədrəsə-filan görmüş bir adama bənzəyirdi. Fürsətdən istifadə edib, mənə bəzi nəsihətlər vermək istədiyini anladım. O, üsuli-cədidin əleyhinə deyildi, amma yeni məktəblərin din dərslərinə əhəmiyyət vermədiyindən şikayət edirdi.

İndiyə qədər buraya bir neçə müəllimə gəlib-getmişdir. Nahaq yerə, heç birinin Qurani-kərimdən, elmi-ilahidən kifayət qədər xəbəri yoxmuş.

Bu Muxtar əfəndi, Xədicə xanımdan xoşu gəldiyini bildirdi. Əgər mən bu din dərslərini yenə bu salihə, aqilə, zahidə, abidə xatuncığaza verib, özüm başqa dərsləri oxutsam, kəndi xeyli şad etmiş olardım.

Mən bu nəsihətləri dinlərkən, içəridən bir nəleyin taqqıltısı eşidildi. Muxtar əfəndi ilə mən ayağa qalxdıq. Qapının arxasında cəftə dəmiri cingildədi, qalın bir səs:

– Kimdir? – deyə bağırdı.

– Özgə deyil, Xədicə xanım, "B"-dən bir hocanım gəlmişdir.

Bu Xədicə xanım iri gövdəli, yekə üzlü, bir az donqar, yetmiş yaşlarında bir qarı idi. Xınalı saçlarının üstünə yaşıl bir yəməni örtmüş, arxasına fərəcə[4] biçimində tünd bir yeldirmə[5] geymişdi. Meşin

[1] Təriqət – dini məslək
[2] Mövlud – dua (Məhəmməd peyğəmbərin anadan olması günü oxunur)
[3] Zəmzəm – Məkkədə müsəlmanların müqəddəs saydıqları su quyusu
[4] Fərəcə – dindar qadın örtüyü
[5] Yeldirmə – qadına məxsus yüngül üst paltarı



kimi sərt qaraşın üzünün qırışıqları arasında inanılmayacaq qədər gənc və canlı gözləri, ağappaq dişləri vardı. Yaşmağımın arasından üzümü görməyə çalışaraq dedi:

– Səfa gəldin, hocanım, buyurun!

Bağçadan küçəyə çıxmaq qadağanmış kimi, bir əli ilə qapıya dayanıb, o biri ilə çamadanlarımı aldı. Sonra təkrar qapını dəmirləyib qabağa düşdü.

O öndə, mən arxada bağçadan keçdik. Maarif müdiri bəyin böyük fədakarlıqla yenidən bərpa etdiyi məktəb binası da o biri evlərin tayı idi. Yalnız alt mərtəbədəki dirəklərin ətrafını, hələ qaralmağa vaxt tapmamış taxtalarla əhatə edib, sinif otağı halına salmışdılar.

Mən qapıdan girəndə Xədicə xanım qolumu tutub dedi:

– Dur, qızım!

Mən diksindim.

O, dodaqlarının ucunda qısa bir dua oxuduqdan sonra dedi:

– Haydı qızım, bismillah de, özün də əvvəlcə sağ ayağını at!

Alt mərtəbə zindan kimi qaranlıqdı. Qoca qadın məni əlimdən tutub dar bir səkidən keçirtdi. Köhnəlikdən pillələri oynayan qaranlıq bir pilləkənlə çıxdıq. Yuxarı mərtəbə viran bir dəhliz, bir də yüksək pəncərələrinin dal taxta qapıları möhkəm bağlanmış yekə bir otaqdan ibarətdi. Maarif müdirinin mənə göz aydınlığı verib söylədiyi müəllim otağı bura idi.

Xədicə xanım çamadanı yerə qoydu. Otağın bir guşəsində dolab halına salınmış köhnə ocağın içindən bir lampa çıxarıb yandırdı, dedi:

– Otaq bu il boş qaldığı üçün tozlanmışdır. Sabah səhər erkəndən təmizlərəm, inşallah.

Bu yazıq qadın məktəbin köhnə müəlliməsi imiş. Maarif idarəsi məktəbi bu şəklə saldığı zaman, ona rəhmi gəlib küçəyə atmamış, iki yüz quruş maaşla burada saxlamışdı. Yarı müəllimə, yarı xidmətçi kimi bir vəzifəsi vardı. İndi mən necə istəsəm, elə işləyəcəkdi.

Yazıq qadıncığazın məndən qorxduğunu anlayırdım. Qayda üzrə mən onun böyüyü idim. Heç kəsə bilə-bilə pislik edən bir qız olmadığımı bir neçə kəlmə ilə ona başa saldıqdan sonra, otağımı gözdən keçirməyə başladım.

Köhnəlikdən dəlik-deşik olmuş kirli divar kağızları, yağışdan çürümüş, taxtaları sallanmış qapqara bir tavan, bir guşədə içinə zir-zibil qalanmış ocaq, o yanda əyri bir çarpayı vardı. Deməl, bundan sonra həyatım bu otaqda keçəcəkdi!

Havasız bir zirzəmiyə düşmüş kimi nəfəsim tutulur, əllərim-ayaqlarım üşüyürdü.

– Əzizim Xədicə xanım, mənə kömək et, bu pəncərələrdən birini açaq, – dedim. – Yəqin ki, özüm açmağı bacara bilməyəcəyəm.

Qoca qadın mənim işə əl vurmağıma tərəfdar deyildi. Əlləşə-əlləşə dal qapılardan birini açdı. Mənzərəni gördükcə tüklərim biz-biz oldu. Qarşımda qorxunc bir məzarlıq vardı. Təpələrində hələ axşam işıqları sönməmiş sərv ağacları, cərgə-cərgə məzar daşları, daha aşağılarda, qamışlıqlar içində tutqun-tutqun parıldayan su gölməçələri...

Qoca qadının dərindən köksünü ötürdüyünü eşitdim.

– Qızım, insan sağlığında alışmalıdır, hamımızın gedəcəyi yer oradır, – dedi.

Bu söz bir təsadüf idimi, yoxsa özüm də hiss etmədən bu mənzərə qarşısında qorxuya və təşvişə düşmüşdüm?! Ancaq o saat özümü yığışdırdım. Cürətli olmaq lazımdı. Şən bir laqeydliklə cavab verdim:

– Deмək, burda bir məzarlıq var, bilmirdim.

– Bəli, qızım. Bura Zeynilər qəbiristanıdır. Keçmiş zamandan qalmışdır. İndi cənazələri başqa yerdə dəfn edirlər. Bura tarixi bir yerdir. Mən Zeyni babanın fənərini yandırmağa gedirəm, indi gələrəm.

– Zeyni baba kimdir, Xədicə xanım?

– Hümməti hazır-nazır olsun, bir mübarək zatdır, odur ha, ordakı sərv ağacının altında yatır.

Xədicə xanım yavaşdan dua oxuya-oxuya pilləkənə sarı yönəldi. Mən indiyə qədər belə şeylərdən qorxduğumu bilmirdim, amma bu dəqiqədə sərv ağacının qoxuları ilə dolu bir qaranlıq otaqda tək qalmaq mənə qorxulu gəlirdi.

Qoca qadının arxasınca yüyürə-yüyürə dedim:

– Mən də sizinlə gəlimmi?

– Gəl, qızım, lap yaxşı olar. Bura gələn kimi, Zeyni babanı ziyarətə getsən, daha da yaxşı qəbul olunar.

Məktəbin dal qapısından məzarlığa girdik. Daşların arası ilə yeriməyə başladıq.

Hərdən ramazan[1] və bayram ərəfələrində xalalarım məni Əyyubdakı ailə məzarlığına aparardılar. Ancaq mən ölümün qəmgin və

---
[1] Ramazan – hicri-qəməri ərəb ilinin doqquzuncu ayı; orucluq ayı



qorxuducu bir şey olduğunu ilk dəfə bu qaranlıq Zeynilər məzarlığında duydum.

Buradakı daşlar mənim gördüyüm məzar daşlarından büsbütün başqa şəkildə idi. Əsgər cərgələri kimi, müntəzəm cərgələrlə düzülmüş yüksək, dimdik, təpələri düz, gövdələri qapqara daşlardı... Yazılar oxunmurdu. Yalnız başlarında böyük "Ya rəbb" kəlməsi seçilirdi.

Uşaq ikən bir nağıl eşitmişdim. Bilmirəm hansı kiçik sultanı qaçırmaq üçün, uzaq bir dağın arxasından köhnə zamanlara məxsus bir ordu gəlirmiş. Gündüz əsgərlər mağaralarda gizlənib gecələr yol gedərlərmiş. Qaranlıqda görünməmək üçün, bütün bədənlərini qara kəfənlərə bürüyüblərmiş.

Aylarca belə yol getdikdən sonra, şəhərə basqın edəcəkləri gecə, Allahın kiçik sultana rəhmi gəlmiş, qaranlıqda irəliləyən bu qara kəfənli gecə ordusunu daşa döndəribmiş...

İndi cərgə-cərgə düzülmüş bu qara daşlara baxanda, o köhnə nağılı xatırlayıb düşündüm: "Bəlkə bura o qorxunc əsgərlərin daşa döndüyü həmin nağıldakı yerdir".

– Bu Zeynilər kimlərmiş, Xədicə xanım?

– Mən də bilmirəm, qızım. Bu kənd keçmişdə onlarınmış. İndi məzarlarından başqa bir şeyləri qalmamışdır. Hümmətləri hazır-nazır olsun, onlar ərənlərdənmişlər[1]. Zeyni bunların ən böyüyü imiş. Heç kəsin sağalda bilmədiyi xəstələri bura gətirərdilər. Mən bir götürüm qadın tanıyıram ki, bura dallarında gətirdilər, amma özü öz ayaqları ilə getdi.

Zeyni babanın türbəsi məzarlığın qurtaracağında, yekə bir sərv ağacının altında idi. Xədicə xanım hər gecə ona üç qəndil yandırırmış: biri sərv ağacının dalında, biri də sənduqənin[2] başında.

Türbə, torpağın içinə batmış bir zirzəmi idi. Zeyni baba bu zirzəmidə yeddi il gün işığı görmədən çilə doldurubmuş[3]. O öləndə mübarək cənazəsinə əl dəyməyib, üstünə bir sənduqə tikmişdilər.

Xədicə xanım qəndillərdən ikisini yandırmışdı. Zirzəmiyə enən bir neçə pilləni göstərib dedi:

– Haydı, qızım, gəl içəri girək!

---
[1] Ərənlər – dini mənada, guya haqq yolu tapanlar
[2] Sənduqə – qəbir, sandıq şəklində məzar
[3] Çilə doldurmaq – guya kamil olmaq üçün bədənə əzab vermək

Mən bu pillələri enməyə cəsarət edə bilmirdim. Qarı təkrar mənə sarı dönüb dedi:

– Haydı, qızım, bura qədər gəldikdən sonra, içəri girməsən, günah olar. Könlündə nə diləyin varsa, Zeyni babadan istə!

Ürəyim xəzəl yarpağı kimi titrəyə-titrəyə pillələri endim. Məzara endirilən ölülərdə əgər bir azca hiss olsaydı, mütləq bu dəqiqədə mənim duyduğum şeyi duyardılar. Köksümə nəm, soyuq bir torpaq qoxusu doldu.

Zeyni babanın sənduqəsi yaşıl boyalı bir sink ilə örtülmüşdü. Sonralar Xədicə xanımın danışdığına görə, bütün ömrünü qənaət və səfalət içində keçirən Zeyni baba vəsiyyət edibmiş ki, öləndən sonra da onun üstünə bəzəkli-naxışlı örtüklər salınmasın. Hərdən o yan-bu yandan göndərilən bəzəkli örtüklər bir həftədən artıq qalmayır, çürüyüb-tökülürmüş.

Qoca qadın pıçıltılarla dualar oxuya-oxuya, övliyanın qəbri başındakı qəndilə yağ tökdü, sonra mənə tərəf dönüb dedi:

– Kənddə bir adamın ölüm vaxtı yaxınlaşanda, Əzrail əleykəssalam əvvəlcə Zeyni babaya qonaq gəlir, o vaxt bu işıq öz-özünə sönür. İndi qızım, Zeyni babadan nə istəyəcəksən, istə!

Dizlərim kəsilirdi, artıq ayaq üstə durmağa taqətim qalmamışdı. Od içində yanan alnımı Zeyni babanın sərin məzar örtüyünə dayadım. Dodaqlarımdan artıq, yaralı qəlbimlə söyləyirmiş kimi, yavaş-yavaş dilləndim: "Zeyni baba, mən kiçik, nadan bir Çalıquşudan başqa bir şey deyiləm. Sənə necə yalvarmaq lazım olduğunu bilmirəm. Təqsirimdən keç. Sənə xoş gələn şeylərdən heç birini mənə öyrətməyiblər. Eşitdim ki, sən yeddi il günəş görmədən, burada çilə doldurubsan, əzab çəkibsən. Bəlkə sən də insanların zalimliyindən, vəfasızlığından qaçıbmışsan. Babacığım, səndən böyük bir şey istəyəcəyəm. Bu yeddi il içində, əlbəttə, günəşin, küləyin həsrətini çəkdiyin zamanlar olmuşdur. Səni o dəqiqələrin əzabına qatlaşdıran, mələk səbrindən mənə də ver. Mən də inləmədən, ağlamadan çiləmi doldurum".

Otağımda yalqızam. Xədicə xanım erkəndən məni tək qoyub məktəbin alt mərtəbəsindəki zirzəmi kimi daxmasına getdi. Orada gecə yarısına qədər ibadət edib, təsbeh çevirirmiş.



İki saatdan bəri qəndilimin işığında bu sətirləri yazıram. Bayırdan, uzaqdan gələn bir su şırıltısı eşidilir, hərdən tavanda taqqıltılar olur. Qorxmuş halda qulaq verirəm. Onda xaraba binanın içindən başqa səslər də duymağa başlayıram. Pilləkən taxtaları yavaşca cırıldayır. Dəhlizdə adamlar pıçıldaşırmış kimi gizlin səslər əmələ gəlir.

Çalıquşu, daha bəsdir, yat! Gecənin bu vaxtında gizlin-gizlin söyləşən bu səslərdən qorxma. Onlar nə qədər zalım olsalar da, "Sarı çiçəklərə" yetim xalaqızlarının yoxsulluğunu söyləyən dodaqlar qədər sənə pislik edə bilməzlər!

*Zeynilər, 20 noyabr.*

Bu səhər hesabladım, mənim Zeynilərə gəldiyimdən təxminən bir ay keçirdi. Bu bir ay mənə on ildən də uzun görünür. İndiyə qədər dəftərimə bir şey yazmaq istəmədim. Daha açığı budur ki, bundan qorxdum.

İlk günlərin narahat ümidsizliyi içində kim bilir nə qədər yersiz şeylər uyduracaqdım. Halbuki, artıq bura alışmağa başladım. Aleksi bacının heç dilindən düşməyən bir söz vardı: "Qızlar, ümidsiz xəstəliklərin, kədərli fəlakətlərin son bir əlacı vardır: təhəmmül və təvəkkül!.. Qəm-qüssədə sanki gizlin bir şəfqət var. Şikayət etməyənlərə, onları gülərüzlə qarşılayanlara daha az zalım olarlar".

Çalıquşu bu sözləri daim gülümsəyə-gülümsəyə dinlərdi. Halbuki, indi onların doğru olduğunu təsdiq edir və gülməyə cəsarət etmirdi.

Zeynilərdəki bir ay içində elə saatlarım vardı ki, həyatdan bezir: "Əlləşmək nahaqdır! Daha dayana bilməyəcəyəm!" – deyirdim. Bax, o zaman Aleksi bacının bu peyğəmbər kimi sözləri mənim dadıma çatırdı. Qəlbim qan ağlarkən gülməyə, mahnı oxumağa, fit çalmağa başlayırdım. Belə ki, qəlbim nəhayət bu nəşənin yalanına inanır, suya qoyulan çiçəklər kimi titrəyə-titrəyə canlanmağa başlayırdı.

Sonra ətrafımızdakı şeylərdə təsəlli axtarmağa başladım. Əlimə keçirdiyim təzə bir yarpağı yanağıma, dodaqlarıma sürtür, bağçada tapdığım sısqa bir pişik balasını bağrıma basır, nəfəsimlə isindirirdim. Bu da olmasa, öz-özümə deyirdim: "Fəridə, axmaqlıq lazım deyil, bir az qeyrət elə, bilirsən ki, yaşamaq üçün daha gülər üzdən, cəsarətdən başqa sərmayən qalmamışdır".

Bu nəşənin uydurma, uçucu bir şey olduğu məlumdur. Qoy elə olsun! Qaranlıq zirzəmiyə düşən balaca bir işıq, uçulmuş divarın

daşları arasında açılmış sısqa bir çiçək, nə olursa olsun, yenə bir varlıq, bir təsəllidir!

Bu gün cümə günüdür, məktəb yoxdur. Bir neçə gündən bəri yağan yağış kəsdi. Payız bayırda son ayrılıq bayramı tərtib etmişdir. Uzaqdakı sıra dağlar da, qamışlıqdakı sular da günəşə baxıb gülümsəyirdi. Sərv ağacları, məzar daşları da qorxunc sərtliklərini itirmiş kimi görünürdülər. Özümü dərin-dərin yoxlayıram. Görürəm ki, alışmağa, hətta bu qaranlıq və ürəksıxan yeri bir az mənimsəməyə və sevməyə başlamışam!

Gəldiyim günün ertəsi, səhər dərsə başlamışdım. Bu, həyatımın ən unudulmaz bir günü olaraq xatirimdə həmişə yaşayacaqdır.

Maarif müdirinin böyük fədakarlıqla yeniləşdirdiyi dərs otağını indi, səhər vaxtı daha yaxşı gördüm. Bura hər halda köhnə bir tövlə imiş. Yalnız yerinə taxta döşəmişlər, pəncərələrini genişləndirib, çərçivə və şüşə saldırmışdılar.

Ocaq bacaları kimi qapqara görünən divar kağızlarında başıaşağı taxılmış bir xəritə ilə skelet şəkli, kənd həyəti və ilan rəsmi sallanmışdı. Bunlar da hər halda yeni dərs vəsaiti adlanan şeylərdi.

Dərs otağının bağça tərəfindəki divarının dibində tövlə zamanından qalma bir heyvan axuru vardı ki, onu söküb götürməyi lazım bilməmişdilər, üstünə bir taxta qapaq vurub, bir növ dolab halına salmışdılar. Uşaqlar yeməklərini, kitablarını, məktəbdə yandırmaq üçün gətirdikləri çırpını bura qoyurmuşlar.

Xədicə xanım bu dolabın başqa bir vəzifəsi olduğunu da söylədi. Döyülməklə ağıllanmayan, yaramaz uşaqları bunun içinə salıb adam edirlərmiş. Muxtarın Vəhbi adında bir kiçik oğlu varmış, demək olar ki, bütün məktəb vaxtını bu sandığın içində keçirərmiş. Bu uşaq bir dəcəllik edəndə özü dolaba girib, tabutdakı cənazə kimi dalı üstə uzanar və öz əli ilə qapağı örtərmiş.

Mən heyrətlə soruşdum:

– Bəs Muxtar əfəndi buna bir şey demirmi?

Xədicə xanım başını yırğalayıb dedi:

– Muxtar bundan xoşlanıb deyir: “Afərin sənə Xədicə xanım! Yaxşı ki, yadıma saldın. Bizim evdə də bir dolab var. İnşallah, dəcəllik edəndə, mən də o məlunu həmin dolaba salaram”.

– Gözəl tərbiyə üsuludur! Məktəbdə oğlan uşağı da varmı?



– Eh, iki-üç dənə var. Bir az böyüklərini Qəriblər kəndindəki kişi məktəbinə göndəririk.

– Qəriblər kəndi hardadır?

– Bu qarşıda ağaran qayaların ardında.

– Uşaqlar yazıq deyilmi, qarda-qışda ora necə gedib-gəlirlər?

– Onlar yola öyrəşmişlər. Palçıq olmayanda ora getmələri heç bir saat da çəkmir. Amma yağışlı, palçıqlı, qarlı havalarda bir az çətinlik çəkirlər.

– Yaxşı, bəs nə üçün onları da burda oxutmursunuz?

– Qadınlarla kişilər bir yerdə oxuyarlarmı?

– Onları da kişi sayacağıq?

– Əlbəttə, qızım, hərəsinin on iki-on üç yaşı var, cavan uşaqlardır.

Xədicə xanım bir az durdu, demək istədiyi bir sözü söyləməyə çəkinirdi. Nəhayət, cəsarət edib dedi:

– İndi isə heç cürə olmaz!

– Nə üçün?

– Sən çox gənc bir hocanımsan, ona görə, qızım.

İstanbulda “xoruzdan qaçan namuslu qadın” təbiri vardı. Bizim Xədicə xanım tamam o cinsdən bir adama bənzəyirdi. Ona cavab verməyi lazım bilməyib başqa şeylərlə məşğul oldum.

Böyük fədakarlıqla meydana gələn ləvazimatdan mühüm bir qismi də beş dənə köhnə biçimli sınıq-salxaq məktəb skamyası idi. Amma qəribəsi budur ki, bunları işlətməyi lazım bilməyib, dərs otağının bir küncünə atmışdılar.

– Niyə belə etmisiniz, Xədicə xanım? – deyə soruşdum.

– Mən eləməmişəm, qabaqkı hocanım eləyib, qızım, – dedi. – Uşaqlar eləcə yerdə oturmağa öyrəşiblər. Minarə kimi şeyin üstündə adamın zehninə dərs girərmi? Hocanım, müfəttiş-filan gələr deyə skamyaları tamam atmağa qorxdu. Uşaqlar məktəbə gələndə əvvəl ora oturduruq, sonra dərs oxumağa başlayanda bu həsirin üstünə endiririk. Varlı uşaqlarının ayrıca döşəkçələri də vardır.

Qoca qadına söylədim ki, mənə kömək etsin. Həsiri götürüb yeri təmizlədikdən sonra skamyaları düzüb otağı sinif halına saldım.

Xədicə xanımın bundan xoşlanmadığı üzündən anlaşılırdı, amma mənə qarşı çıxmağa cəsarət edə bilmir, nə desəm, edirdi. Mən əllərim toz-torpaq içində, bu işləri qurtarmağa çalışarkən, şagirdlərim də bir-bir gəlib çıxmağa başlamışdılar.

Yazıqların üst-başları lap tökülmüşdü, demək olar ki, heç birində corab, çəkmə yoxdu. Başları köhnə bez parçaları ilə möhkəm bağlanmışdı, yalın ayaqlarına geydikləri nəleyinləri şappıldada-şappıldada dərs otağının qapısına qədər gəlib orada çıxararaq yan-yana düzürdülər.

Uşaqlar məni görəndə qorxmuşdular. Utana-utana qapıdan baxırdılar. Mən onları çağıranda, qolları ilə üzlərini örtür, yaxud qapının dalında gizlənirdilər. Belə ki, bəzilərini, biləklərindən tutub zorla sinfə çəkməyə məcbur oldum.

Yanıma gələndə gözlərini möhkəm yumub əlimi elə öpürdülər ki, özümü gülməkdən güclə saxlayırdım.

Yəqin ki, bu, bir adətdi; bu öpüşlərin hər biri gülünc bir ahənglə şappıldayır və əlimin üzərində nəm iz buraxırdı. Balaları özümə isinişdirmək üçün, hər birinə bir-iki xoş söz söyləyirdim. Amma mənim, mümkün olduğu qədər mehriban səslə verdiyim sualları inadcıl bir sükutla cavabsız qoyurdular; yalnız bir çox naz və niyazdan sonra öz adlarını söyləməyə razı olurdular.

"Zəhra, Ayşə, Zəhra, Ayşə, Zəhra, Ayşə..."

*Aman ya rəbbi! Bu kənddə nə çox Ayşə və Zəhra vardı!* Heç də nəşəli halda olmadığıma baxmayaraq, ağlıma qəribə şeylər gəlirdi: məsələn, bir müfəttiş gəlib şagirdlərimi tanımaq istəsə: "Doqquz Ayşə ilə on iki Zəhram var" – deyə işin içindən tezliklə çıxacaqdım. Sonra, asan olmaq üçün, Ayşələri dərs otağının bir tərəfinə, Zəhraları o biri tərəfinə oturtmaq, bağçada, məsələn, top-top oynayanda (tənəffüslərdə bu uşaqları, əlbəttə, əyləndirəcəkdim) Ayşələr bu yanda, Zəhralar isə o biri yanda, qruplar düzəltmək mümkündü.

Özümü saxlaya bilməyib, gizlin-gizlin əylənməyə başlamışdım. Yeni gələn qız uşaqlarından:

– Qızım, sən Zəhrasan, yoxsa Ayşəsən?" – deyə soruşur və çox zaman gözlədiyim cavabı alırdım.

Yumru üzlü bir kiçik qız hamısından cürətli çıxdı. Qara gözlərini üzümə qaldırıb heyrətlə soruşdu: "Sən mənim adımı nə bilirsən?"

Şagirdlərimi bir-bir skamyalarda oturdur, yerlərini yadda saxlamalarını tapşırırdım. Yazıqların halı lap görülməli idi. Skamyada oturmağı heç bacarmırdılar. Ağac budağına, yaxud asma çardağa oturmuş kimi, qəribə vəziyyətlər alırdılar.



Yanlarından uzaqlaşan zaman, gözaltı mənə baxır, qəribə bir surətdə sallanan kirli ayaqlarını, çanağına çəkilən bağalar kimi, yavaş-yavaş çəkib altlarına yığırdılar. Nə edək, yavaş-yavaş öyrəşərik!

Bir şey mənə çox qəribə göründü: utanıb sıxıla-sıxıla yanıma gələn, gözlərini yumub əl öpən, kənd gəlini kimi nazla bir kəlmə danışan bu uşaqlar, kitablarını açan kimi uca səslə bağıra-bağıra oxuyurdular. Sinifdə uşaq çoxaldıqca, gurultu artmağa, başım da hərlənməyə başlamışdı.

Xədicə xanımdan soruşdum:

– Həmişə belə bağıra-bağıra oxuyurlar? Buna dözmək olarmı?

O, bir az heyrətlə üzümə baxdı, sonra belə cavab verdi:

– Əlbəttə, qızım! Bura məktəbdir. Balta vurmamış ağac yonularmı? Səsləri nə qədər bərk çıxarsa, dərs zehinlərində bir o qədər də çox qalar!

Sinif, demək olar ki, dolmuşdu. Məktəbin tək bircə gözəl və yeni şeyi olan müəllim stoluna bərkdən əlimi çırpdım. Onlara səssiz dərs hazırlamalarını tapşıracaqdım. Amma mənim çıxardığım bir gurultu ilə maraqlanıb heç başını qaldıran da olmadı, hətta arı pətəyinə daş atılmış kimi uğultu daha da artdı:

"Əuzübillahi, əbcəd, həvvəz, hütti, cim, üstü cü, cim əsra ci..."[1]

Məlum oldu ki, uşaqları yola gətirmək üçün hər halda xeyli əziyyət çəkəcəyəm. Amma nəticədə müvəffəq olacağıma heç bir şübhəm yox idi.

Xədicə xanıma dedim:

– Xədicə xanım, bu gün sən yenə öz bildiyin kimi oxut. Mən sinfi bir az nizama salmamış dərsə başlaya bilməyəcəyəm.

Qoca qadın şübhəli bir baxışla dedi:

– Biz nə görmüşüksə, onu oxuduruq, qızım. Sizin bildiklərinizi biz bilmirik, nə edək, məktəbli deyilik ki...

Yazıq qadının nə demək istədiyini sonradan anladım. Xədicə xanım elə güman etmişdi ki, onu imtahana çəkirəm. Ayda iki yüz quruş maaşını itirməkdən elə qorxurdu ki...

Havanın açıq olmasına baxmayaraq, qızlardan bir çoxu başlarına köhnə önlük örtüb, məktəbə gəlmişdi. Xədicə xanımdan bunların nə üçün belə etdiklərini soruşdum.

[1] Bunlar köhnə məscid məktəbində (mollaxanada) ilk əlifba dərsi öyrənmə üsuludur.

O demək olar ki, hər sualıma olduğu kimi, buna da heyrətlə cavab verdi:

– İlahi, qızım, bunlar yekə, gəlinlik qızlardır. Küçədən başıaçıq gəlməyəcəklər ki...

Aman ya rəbbi! Hər biri on-on iki yaşında olan bu soxulcan kimi solğun uşaqlar yetişmiş qızlardırmı? Mən doğrudan da çox qəribə bir yerə düşmüşdüm!

Belə olmaqla bərabər, bir qədər sevindim. Bunlara "gəlinlik qız" deyənlər, mənə əlbəttə, evdə qalıb qartımış qız gözü ilə baxacaqlar, daha heç kəs mənə "uşaq" deyib əylənməyəcəkdir.

Məktəbə ən gec gələnlər oğlanlardı. Bu oğlanlar böyük adam kimi ev işi görür, quyudan su çəkir, inək sağır, dağdan odun daşıyırdılar.

Xədicə xanım onlara bir az bayırda durmalarını tapşırdı, sonra utana-utana mənə dedi:

– Yəqin ki, baş örtüyünü unudubsan, qızım.

– Bu, lazımdırmı?

– Hə, düzünə qalsa, lazımdır. Mənim işim deyil, amma başı açıq dərs oxutmaq günah olmazmı?

"Bunu bilmirdim" deməyə utandım, bir azca qızarıb:

– Gələndə baş örtüyümü götürmək yadımdan çıxdı, – deyə yalan söylədim.

Xədicə xanım dedi:

– Yaxşı, qızım, mən sənə təmiz bir tülbənd[1] verim.

Xədicə xanım, otağında açılıb-örtüləndə ciringhaciring səslənən sandıqdan yaşıl bir yəməni çıxarıb mənə verdi. Başa gələn çəkiləcək, çarə nədir! Yəmənini saçlarımın üstünə atdım, iki ucunu İstanbul küçələrində fala baxan qaraçı qızları kimi çənəmin altına ilişdirdim.

Pəncərələrdən birinin bağlı taxta qapısının önündəki şüşəsi solğun bir əndam aynasına bənzəyirdi. Uşaqlara bildirmədən, pəncərənin önünə keçdim, şüşədə özümü seyr etməyə başladım.

Mən məktəb müəllimisi olandan sonra, özüm üçün bir qiyafət düzəltmişdim. Fikrimə görə, müəllimə vəzifəsini yerinə yetirən vaxtda, gərək başqa qadınlar kimi geyinməyəm.

İcad etdiyim qiyafət çox sadə idi: bu, qara parlaq sətindən olan dizə qədər uzun bir köynəkdi. Belində bir kəmər, kəmərin altında

[1] Tülbənd – nazik parçadan (tüldən) örtük



yaylıq və dəftərçə üçün iki kiçik cib vardı. Bu qara rəngi bir az açmaq üçün köynəyə ağ kətandan enli bir yaxa da tikmişdim.

Mən uzun saçı heç sevmirdim, amma müəllimə olandan sonra saçlarımı daha qısa kəsə bilməzdim. Bir aydan bəri saçlarımı uzatmağa başlamışdımsa da, ancaq hələ onlar çiyinlərimə çatmamışdı.

İlk dərs verdiyim gün bu sayaq geyinmişdim. Saçlarımın alnıma düşməməsi üçün, onları tərsinə bərk-bərk şotkalayıb hamarlamışdım. Mənim parlaq qara köynəyimə, şotkalandıqdan sonra da pırpızlanmış qısa saçlarıma heç yaraşmayan bu yaşıl tülbənd o qədər qəribə görünürdü ki, gülməmək üçün dişlərimlə dodaqlarımı sıxırdım.

İndi oğlan şagirdlərimi təqdim edim. Mən Xədicə xanımdan aldığım tülbəndi başıma örtdüm. Bu şagirdlərdən yaşınırdım.

Əvvəla, siçan kimi vaxtını sandıqda keçirən kiçik Vəhbi. Bu oğlan, doğrudan da, qəribə bir siçana bənzəyir. Onun muncuq kimi qara parlaq gözləri, kiçik hiyləgər üzü, iti çənəsi var. O, məktəbin ən şeytan uşağıdır...

Bu şagirdlərdən biri də quzğun kimi qapqara, ərəbə bənzəyən Cəfər ağadır. O, fırfıra kimi yupyumrudur. Gözlərinin ağı həddən artıq böyük, dişləri parlaq, ağzı qıpqırmızıdır. Onu eləcə Cəfər deyib çağıranlara məktəbdə cavab verməməklə kifayətlənir, amma küçədə belələrini daşa basır.

Uşaqlardan biri də on yaşında Aşur adlı bir oğlandır. Onun bədəni skelet kimi qupquru, üzü çopur və daim kirli, baxışları süzgün, dişləri çox xırdadır.

Nəhayət, sinfin ən əhəmiyyətli siması Hafiz Nuridir. Hafiz Nuri də on yaşındadır. Amma üzü yetmiş yaşında bir qocanın üzü kimi qırış-qırışdır. Çənəsinin altında yenicə bitişmiş bir sıraca yarası var. Bu yaradan onun boynu quru budaq kimi çılpaq qalmışdır. Gözləri qabarıq və kirpiksizdir. Yumurta biçimində olan başına ağ bir çalma qoyur. Xülasə o, pul ilə tamaşaya qoyulmalı qəribə bir məxluqdur...

Xədicə xanım o səhər məzarlıqdan təzə kəsib gətirdiyi uzun çubuqları yanına qoyduqdan sonra, uşaqları bir-bir çağırmağa, dərslərini oxutmağa başladı.

O dərs verəndə sinifdə qiyamət qopurdu.

Aleksi bacı sinifdə bizim səs-küyümüzdən narahat olanda, mum kimi sarı barmaqlarını bir-birinə keçirib, parlaq mavi gözlərini

Məryəm rəsmində təsvir edilmiş bir saflıqla göyə qaldırıb deyərdi: "Mənə cəhənnəm əzabı çəkdirirsiniz!"

Ey Aleksi bacı, sinifdəki bütün gurultuların, dəcəlliklərin başçısı olan Çalıquşu vaxtilə sənə etdiklərini indi özü çəkməyə başlamışdır. Bu başgicəlləndirən hay-küyün önünü almaq üçün, şagirdlərimi səssiz dərs öyrənməyə, sinifdə verilən dərsi sakit dinləməyə alışdırmaq üçün iki həftə əlləşdim.

Nə isə, əməyim boşa getmədi. İlk günlərdə nə qədər çalışırdımsa, uşaqlarla bacara bilmirdim. Xədicə xanımın sinifdə ilan kimi fit çalan təzə çubuqlarından sonra, mənim səsim uşaqlara heç təsir etmirdi...

Bəzən mən cana gəlib bayırdan onu çağırırdım: "Ay Xədicə xanım, gəl!"

Onun, nağıllardakı küpəgirən cadugər qarı kimi, dərs otağına girməsi mənə xeyli yardım edirdi.

Nəhayət, bu səs-küyü yavaş-yavaş yatırmağa müvəffəq oldum. İndi sinif daha sakitdir. Uşaqlar yavaş-yavaş söz anlamağa başlayırlar. Hətta şagirdlər nə qədər bağırsalar, dərsin zehinlərində o qədər yaxşı qalacağına inanan Xədicə xanım da sakitliyə şaddır. Hərdənbir mənə deyir: "Ay, Allah səndən razı olsun, qızım, başcığazım bir az dincəldi". Amma mənim istədiyim yalnız bundan ibarət deyildir. Onlara bir az həyat və nəşə də vermək istəyirəm. Ancaq bu, heç cürə mümkün olan bir şeyə bənzəmir.

Bu kəndin evlərində, küçələrində, məzarlarında olduğu kimi, uşaqlarında da qəmginlik var. Solğun dodaqları gülmək nə olduğunu bilmir. Sanki qəmgin gözlərinə ölüm kədəri çökmüşdür. Deyəsən mən də yavaş-yavaş onlara bənzəməyə başlayırdım! Keçmişdə mən ölümü başqa cür düşünürdüm: insan əlli il, altmış il, xülasə istədiyi qədər – yorğunluqdan bitab olana qədər gəzər, yüyürər, əylənər. Sonra gözləri şirin bir yuxu ehtiyacı ilə xumarlanmağa başlar. Onda ağappaq, təmiz bir yatağa uzanar. Yeni başlayan yuxunun yüngül sərxoşluğu içində gülümsünə-gülümsünə solub gedər.

Günəşin qarşısında parlayan ağ mərmərlərin üstündə qucaq-qucaq çiçəklər. O mərmərlərdəki kiçik çuxurlardan su içməyə gəlmiş bir neçə quş... Budur, ölüm deyəndə, mənim gözümün önündə belə sevimli və demək olar ki, nəşəli bir mənzərə canlanardı.

İndi onun acı ləzzətini, torpaq, aloe və sərv qoxuları içində sanki dilimlə dadır, ciyərlərimlə qoxulayıram...



Uşaqların bu qədər qaraqabaq və qəmgin olmalarına Xədicə xanım da xeyli təsir etmişdir. Bu qadın belə başa düşmüşdür ki, müəllimin vəzifəsi ürəklərdə dünya arzularını söndürməkdən ibarətdir. Fürsət düşən kimi yazıq uşaqları ölümlə üz-üzə gətirir. Divarlardan asılmış bir neçə təbiiyyat şəkillərinin məktəbə sırf bu məqsəd üçün göndərildiyini güman edir. Məsələn:

Bu dünya fanidir, kimsəyə qalmaz,
Yeri, dünya yeri, axır zamandır –

kimi qorxunc bir ilahi[1] oxutduqdan sonra skelet şəklini ortalığa qoyur: "Bu gün-sabah, biz öləndən sonra ətlərimiz belə çürüyəcək, sümüklərimiz belə quruyacaq!" – deyə ölümün dəhşətini və qəbir əzablarını uşaqlara danışırmış.

Qoca qadının fikrinə görə, o biri şəkillər də az-çox həmin bu fikri ifadə edir. Məsələn, kəndli həyəti şəklini göstərəndə: "Allah bu qoyunları ona görə yaratmışdır ki, qulları yeyib, ona ibadət etsinlər. Biz qoyunları doymaq bilməyən boğazımıza tıxışdırırıq, amma Allaha borcumuzu ödüyürükmü? Yox, sabah isə biz torpağa girəndə inkir-minkir[2] əlində odlu toppuzu ilə başımızın üstünə kəsəndə, görək nə cavab verəcəyik?" – kimi şeylər danışır və təkrar ölümün təsvirinə başlayırmış.

İlan şəklinə gəlincə, Xədicə xanım onu "Şahmaran"[3] adı ilə uşaqlara tanıtmışdı. Xəstə olan kəndlilərin adlarını ilanın qarnına yazmaqla onları müalicə etməyə çalışırmış.

Bəli, mən bu biçarə uşaqları bir azca nəşələndirmək, güldürmək üçün çox oyunlardan çıxıram. Amma əməyim boşa gedir.

Məktəbdə tənəffüs üsulunu da qoydum. Uşaqları yarım saatdan bir, bir saatdan bir bağçaya çıxarıram, əyləncəli, maraqlı oyunlar öyrətməyə çalışıram. Nədənsə uşaqlar bunlardan heç cür ləzzət almırlar. Onda çarəsiz qalır, onları tək qoyub bir guşəyə çəkilirəm.

Möhnət çəkmiş yaşlı adamlara bənzəyən yorğun üzlü, donuq gözlü bu qız uşaqlarının ən böyük əyləncələri bağçanın bir küncünə

[1] İlahi – Allah barəsində dini şeir
[2] İnkir-minkir – dini rəvayətlərə görə, guya ölünü dindirən mələklər
[3] Şahmaran – ilanların şahı

yığışıb ölüm, tabut, tənəşir[1], zəbani[2], qəbir kimi qorxunc sözlərlə dolu ilahilər oxumaqdan ibarətdi! Hələ içərilərində bir ilahi vardı ki, eşidəndə adamın tükləri ürpəşirdi.

Onlar səslərini titrədə-titrədə hamısı birdən belə ulaşırdılar:

*Həramilər[3] kimi soyarlar səni,*
Bir quru tabuta qoyarlar səni.
Zalım ölüm, sənə çarə tapılmaz!..

Mən bunu dinləyəndə gözümün önündə sanki cərgə-cərgə cənazə alayları keçirdi.

Uşaqlarımın ən sevdiyi əyləncələrdən biri də cənazə oyunudur. Çox vaxt, uzun günorta tənəffüslərində oynanan bu oyun, demək olar ki, bir teatr pyesinə oxşayırdı. Bunun başlıca aktyorları Hafiz Nuri ilə ərəb Cəfər ağadır.

Oyuna görə, Cəfər ağa xəstələnir, qızlar dövrəsinə yığışıb Quran oxuyurlar, ağzına zəmzəm suyu tökürlər.

Balaca oğlan gözlərini bərəldib can verən kimi qızlar fəryad qoparıb, çənəsini bağlayırlar. Sonra Cəfər ağanı tənəşirdə yuyurlar.

Uşaqların qırıq bir qapı taxtasını yaşıl baş örtükləri ilə bəzəyib düzəltdikləri oyuncaq tabutun, qorxunc həqiqi tabutdan heç bir fərqi yoxdu.

Hafiz Nurinin zil, zəhlətökən bir səslə salavat çəkməsi, azan oxuması, cənazə namazı qıldırması adamın tüklərini ürpədən bir şey idi. Hələ məzar başında "Ya Cəfər ibni-Zəhra" – deyə bir təlqin[4] verməsi vardı ki, gecələr yuxuma girərdi.

Dediyim kimi, bu yerin havasında insan, elə bil ki, ölümün qoxusunu duyurdu. Hələ gecələr, o bitib-tükənməyən, sürüklənə-sürüklənə uzanıb keçən gecələr... Onların vahimələrinə, qorxularına dözmək daha da çətindi.

Bir gecə dağda çaqqallar ulaşmağa başladı. Yaman qorxuya düşdüm. Nə olursa olsun, Xədicə xanımın otağına enmək istədim. Amma

---

[1] Tənəşir – ölü yumaq üçün taxta
[2] Zəbani – guya cəhənnəmdə cəza verən xadim, şeytan
[3] Hərami – quldur
[4] *Təlqin – ölünün qulağına oxunan son dua (tapşırıq)*



bu kif qoxuyan zirzəmi kimi otağın qapısını açanda gördüyüm mənzərə, mənə çaqqalların səsindən min qat qorxunc gəldi: qoca qadın başdan-başa ağa bürünüb bir canamazın kənarında özündən getmiş kimi boğuq bir səslə nə isə oxuya-oxuya yırğalanır, təsbeh çevirirdi...

Burada sevməyə başladığım üç şey var: birincisi, pəncərəmin altında axar çeşmədir ki, heç kəsilməyən səsi ilə tənha gecələrimdə, demək olar ki, mənə yoldaşlıq edir.

İkincisi, kiçik Vəhbidir. Xədicə xanımın hökmranlığı zamanında ömrünü sandığın dibində arxası üstə uzanıb cəza çəkməklə keçirən həmin oğlandır. Mən bu dəcəl oğlana yaman meylimi salmışam. Buradakı uşaqların heç birinə bənzəmir. "G" səslərini "C" kimi deyərək, elə sərbəst, şən danışması var ki... Vəhbi bir gün bağçada kiçik parlaq gözlərini süzə-süzə üzümə baxırdı:

– *Nə baxırsan, Vəhbi? – deyə soruşdum.*

Heç çəkinmədən dedi:

– Sən cözəl qızmışşan ki... Cəl səni ağama alım. Bizim cəlnimiz ol. Ağam sənə qəşənc məstlər, əntarilər, daraqlar alar.

Vəhbinin hər bir hərəkətini xoşlayıram, amma məni heç cür saymır. Belə ki, ona acıqlandığım, zərif qulağını yavaşca çəkdiyim zaman da, mənə əhəmiyyət vermir. Bununla belə, bəlkə də elə buna görə onu bu qədər sevirəm.

Vəhbi bu yersiz sözləri deyəndə, mən qaşlarımı çatdım və dedim:

– Adam müəlliməsinə belə sözlər deyərmi? Eşitsələr, sənin ağzını yırtarlar!

Uşaq mənim safdilliyimlə əylənən kimi dedi:

– Nə olub məcər, heç başqasına deyərəmmi?

Aman ya rəbbi, bu barmaq boyda kəndli balası nələr bilirdi! Həmin saymazlıqla sözünə davam etdi:

– Sənə istanbullu cəlin deyərəm, şabalıd cətirib verərəm, ağam sənin boynuna qızıllar taxar.

– Sizin gəlininiz yoxdurmu?

– Var, amma, o, qara qızdır, onu da çoban Həsənə verərik.

– Sənin ağan nə iş görür?

– Candarmadır.

– *Candarma neylər?*

Vəhbi düşünə-düşünə başını qaşıdı, sonra dedi:

– Cavurları[1] çəsər.

Vəhbinin xoşuna gələn bir şeyi də onun dikbaş və inadcıl olmasıdır. O, yekə kişi kimi başını dik tutmağı bacarır. Dərsdə səhvini çıxardığım zaman həm utanır, həm də hirslənir. Səhvini heç cür düzəltmək istəməz. Üstünə çox düşəndə üzə durar, istehza ilə üzümə baxıb deyər:

– Sən qarı qismisən, sənin ağlın çəsməz!

Üçüncü sevdiyimə gəlincə, o kimsəsiz kiçik bir qızdır. Deyəsən, dərsə başladığımın beşinci səhəri idi. Skamyalara göz gəzdirəndə, qəlbim birdən-birə xoş bir həyəcanla döyündü. Ən arxa skamyada ağ deyiləcək qədər açıq-sarı saçlı, ağappaq bədənli, mələk kimi gözəl çöhrəli bir qız inci kimi dişləri ilə mənə gülümsünürdü.

Bu uşaq kimdir? Birdən-birə hardan çıxmışdı?

Əlim ilə işarə edib dedim:

– Yanıma gəl görüm.

Bir quş yüngüllüyü ilə yerindən hoppandı, mənim məktəbdə etdiyim kimi, atıla-atıla yanıma gəldi.

Yazıq qız son dərəcə yoxsuldu. Ayaqları yalın, saçları dağınıq, əynindəki rəngi solmuş çit əntarinin yırtıqlarından ağ zərif bədəni görünürdü. Xırdaca əllərini tutub dedim:

– Üzümə bax, əzizim!

Qorxa-qorxa başını qaldırdı, qıvırcıq kirpiklərinin arasından iki laciverd göz parıldadı.

Zeynilərdə çəkdiyim iztirab məni ağlatmamışdı. Amma bu yarıçılpaq uşağın gözəl gözləri, qırmızı ağzında iki sap inci kimi dişləri, o dəqiqədə özümü saxlamasaydım, məni hıçqıra-hıçqıra ağladacaqdı.

Çənəsini yüngülcə oxşadım, bütün qızlardan soruşduğum kimi ondan da soruşdum:

– Sənin adın Zəhradır, yoxsa Ayşə, balacan?

O, təmiz İstanbul tələffüzü ilə və şirin bir səslə dedi:

– Mənim adım Munisədir, hocanım.

– Sən bu məktəbdəmi oxuyursan?

– Bəli, hocanım.

– Bəs neçə gündür niyə gəlmirsən?

[1] Cavur (gavur, kafər) – dinsiz; müsəlman olmayan



– Abam[1] göndərmədi, hocanım, işimiz vardı. Bundan sonra gələrəm.

– Sənin anan yoxdurmu?

– Abam var, hocanım.

– Bəs anan necə olub?

Balaca qız gözlərini endirib susdu. Mənə elə gəldi ki, bu uşağın qəlbindəki gizlin yaraya özüm də bilmədən toxundum.

Daha artıq təkid etməyib başqa bir şey soruşdum:

– Dünən axşamüstü mahnı oxuyan səndinmi, Munisə?

Bir gün əvvəl yaxın bağçalardan birində incə bir uşaq səsinin mahnı oxuduğunu eşitmişdim. Bu səs elə xoş, burada eşitdiyim səslərdən o qədər fərqli bir səsdi ki, başımı pəncərəyə dayayaraq gözlərimi yummuş, bir neçə dəqiqə özümü başqa yerlərdə, adını yad etmək istəmədiyim vəfasızlıq diyarında sanmışdım.

Bu mahnını oxuyan bu balaca qızdan başqa heç kim ola bilməzdi.

Munisə utana-utana başını tərpədib dedi:

– Məndim, hocanım.

Uşağı yerinə göndərdikdən sonra dərsə başladım. Özümdə bir fövqəladəlik hiss edirdim.

Bu balaca qız mənə ılıq bir bahar günəşi kimi təsir etmişdi: qarın içinə gömülmüş quş yuvalarına düşən sarışın bir işıq parçası...

Yuvanın qəmginliyi içində başını qanadlarının arasına soxaraq titrəyən xəstə və küskün Çalıquşu yavaş-yavaş canlanmağa, əvvəlki şənliyini yenə tapmağa başlayırdı. Bədənimin hərəkətlərinə qəribə bir oynaqlıq, səsimə, sözlərimə hərarətli bir ahəng gəlirdi.

Dərs verəndə, gözlərim qeyri-ixtiyari Munisəyə sarı dönürdü. O da mənə baxırdı. İncə dişlərində, xoş gülümsünməsində, laciverd gözlərində sezdiyim məhəbbətdən analıq hissini mən ömrümdə ilk dəfə bu gün duydum. Tək yaşamağa məcbur olduğuma görə, barı belə bir kiçik qızım olaydı! Hayıf ki, bu mənə nəsib olmayacaq!

Munisə haqqında Xədicə xanımdan olduqca az şey öyrənə bildim.

Onun abam dediyi qadın ögey anası imiş. Qızın atası qoca bir meşə məmuru imiş, ikinci arvadını bu kənddən aldığı üçün, təqaüdə çıxandan sonra da bura bağlanıb qalıbmış. Arvadının tarlası ilə, evi, özünün beş-on quruş aylıq təqaüdü sayəsində birtəhər dolanırlarmış.

[1] Abam (abla) – böyük bacı mənasında

*Xədicə* xanıma dedim:

– Sənin dediyindən belə çıxır ki, ailəsinin halı çox pis deyil. Bəs nə üçün bu uşağa baxmırlar?

Qoca qadın qaşlarını çatıb dedi:

– Belə baxmaqlarına da şükür, başqası olsaydı, küçəyə atardı.

– Nə üçün?

– Bu qızın anası pis arvaddır, qızım. Yadımda yaxşı qalmayıb, beş il bundan əvvəldi, ya nəydi, bir jandarma mülaziminə qoşulub qaçdı. Qız onda lap kiçik idi. Ondan sonra zabit də qızın anasını atıb başqa vilayətə getmişdi. Sonra cavanlar o qadını götürüb dağa qaçırıbmışlar... Qərəz ki, pozulub getdi.

– *Ola bilər, Xədicə* xanım, amma bu uşağın nə günahı var?

Qoca qadın o qorxunc dindar təəssübü ilə başını yırğaladı və dedi:

– Daha neyləsinlər. Elə qadının uşağına zər-ziba geyindirməyəcəklər ki!..

Munisə məktəbə hər gün gələ bilmirdi. Mən səbəbini ondan soruşanda, belə cavablar verirdi:

– Abam paltar yudurtdu, abam döşəməni sildirdi, abama dağdan odun yığıb gətirdim...

Bu uşağa yoldaşları da çox yaxşı gözlə baxmırdılar. Sinifdə həmişə özlərini ondan uzaqda tutur, fürsət tapdıqca gizlin-gizlin incidib ağladırdılar. Bundan mənim də bir az təqsirim vardı. Bu balaca qıza duy*duğum sevgini gizlədə bilməmişdim. Sinifdə onu oxşadığımı, bağçada* yanıma çağırıb danışdırdığımı görənlər mənə pis-pis baxırdılar.

Bir gün Munisənin məktəb bağçasında ağladığını, "mən sizə neyləyirəm, eləməyin!.." – deyə yalvardığını eşitdim və gizlincə pəncərədən baxdım. Qızlar çeşmədən ağızlarına su doldurub Munisəni qova-qova, bu suyu onun üstünə püfkürürdülər. Uşaq ağlaya-ağlaya bu küncdən o küncə qaçıb, əlləri ilə üzünü, boynunu qorumağa çalışırdı.

O, ağır və qorxaq görünən tutqun baxışlı qızlar yaralı ceyranları qovlayan ov köpəklərinə dönmüşdülər. Qara ayaqlarının üstündə sərt bir cəldliklə hoppanır, leş üstünə cuman qarğalar kimi, vəhşi çığır*tılarla Munisənin ətrafında hərlənirdilər. Balaca qızı gah künclərə* sıxışdırır, gah torpağın üstündə yumaladaraq, ovurdlarını şişirdən suyu onun üzünə, yırtıq əntarisinin yarıaçıq qoyduğu köksünə püfkürürdülər.



Ağlım başımdan çıxmışdı. *Dəli* kimi otaqdan bayıra yüyürdüm. Elə yüyürdüm ki, sağ ayağım pilləkənin çürük taxtalarından birini çökdürüb içəri keçdi. Mən bağçaya çıxanda müharibənin şəkli dəyişmişdi. Munisəyə özü kimi balaca, amma möhkəm bir yardımçı çıxmışdı: kiçik Vəhbi!

Bu doqquz yaşındakı dəcəlin qəhrəmanlığını unuda bilməyəcəyəm. Vəhbi çeşmədən axan suların bir az o yanda əmələ gətirdiyi palçıq bataqlığına girib ördək kimi çırpınır, Munisəyə hücum edənlərə palçıq tullayırdı. Qolları, ayaqları, üzü palçıqdan qapqara olmuşdu. Onun incə səsi qızların hay-küyləri arasında kəskin bir fit kimi səslənirdi:

– Cavurun qızları, qızdan əl çəkin də! Hamınızı kəsərəm!

Qızlar bu hücum qarşısında geriləməyə məcbur oldular. Munisəni yarıbihuş halda qucağıma alıb, otağıma apardım.

Bu gözəl, kiçik qızı qucağımda sıxarkən, duyduğum şeyləri söyləmək mümkün deyildir. Sanki qəlbimin dərinliklərində gizli bir bulaq qaynayır, köksümə nə isə bir istilik enir, bütün vücuduma xoş, bihuşedici bir ləzzət yayılırdı: bundan mənim gözlərim yaşarır, nəfəsim tıxanırdı.

Mənə elə gəlir ki, buna bənzər sərxoşluğu bir dəfə də duymuşdum. Amma görəsən harda? Nə vaxt?

İndi bunları yazarkən qəlbim donurdu, gözlərimi uzaqlara dikib düşünürəm. Bəli, harda? Nə vaxt? Bu, hər halda köhnə bir röyanın xatirəsi olmalıdır. Çünki bu uzaq, silinmiş xatirədə röya kimi ağla batmayacaq şeylər var. Özümü havanın boşluğu içində görürəm. Ətrafımda sərt xışıltılarla üzümə, saçlarıma sürtünə-sürtünə axan bir yarpaq seli var. Görəsən bu hardadır? Yox, yox, yalandır, mən ömrümdə belə şeyi ilk dəfə hiss edirəm.

Şagirdlərimi o gün bir az yaddan çıxarıb, Munisə ilə məşğul oldum. Fırtınadan yanmış zanbaqlara bənzəyən gözəl vücudunu, ağ deyiləcək qədər açıq-sarı saçlarını təmizlədim.

Biçarə, *demək olar ki, on dəqiqə içini* çəkə-çəkə ağladı. Ah, bu göz yaşları!..

Mənə elə gəlirdi ki, o gözlərdən tökülən damlalar qızın xırdaca üzünə deyil, mənim qəlbimin içinə sızır.

Uşağın yavaş-yavaş etibarını qazanırdım. Mən öz köhnə əntarilərimdən birini tələsik kiçildib ona tikəndə, o bir pişik balası kimi ətəklərimə soxulur, yaşlı gözləri ilə diqqətlə üzümə baxırdı.

Vaxtsız və haqsız bir möhnətə düçar olmuş bütün uşaqlar kimi Munisədə də böyük bir adam halı vardı. Mənim hələ bir-iki aydan bəri anlamağa başladığım bəzi şeyləri o çoxdan öyrənmişdi. Bəli, üç kiçik bacı-qardaşının əziyyətini tək o çəkirdi. Belə olduğu halda, abasını yenə heç cürə razı sala bilmir, hər gün bir neçə dəfə döyülürdü.

Bir həftə əvvəl onların bağçasına qonşunun inəyi giribmiş. Munisə onu qovmağa məşğul olanda, ən kiçik qardaşı yelləncəkdən yıxılıbmış. Abası onu yaxşıca döydükdən sonra, axura salıb qapını üzünə bağlayıbmış, iki gün quru çörək qırıntılarından başqa bir şey verməyibmiş.

Munisə mənə fil dişi kimi ağappaq bədənində göyümtül ləkələr, qançır yerlər göstərirdi. Bunların hamısı o döyülməyin izləri idi.

Özümü saxlaya bilməyib dedim:

– Yaxşı, Munisə, bəs atanın sənə ürəyi yanmırmı?

Munisə avamlığıma rəhmi gələn kimi, dərin-dərin üzümə baxıb gülümsəyərək dedi:

– *Onun da mənə ürəyi yanır, mənim də ona ürəyim yanır.* İkimizin də əlimizdən bir şey gəlmir ki...

Bu sözləri söyləyəndə bir ah çəkdi, iki əlini açdı, çarəsiz olduqlarını elə göstərdi ki, ürəyimi əritdi.

Mən bəbək[1] ilə oynayan kimi, sevə-sevə, sevinə-sevinə məşğul olub Munisəni bəzədim. Bu kiçik qıza bir əl aynasında öz əksini göstərdiyim vaxt, sevincdən qıpqırmızı oldu. Çəhrayı bir lent ilə iki yandan hörülmüş saçlarına, laciverd yun parçadan əntarisinə, uzun qara corablarına qorxa-qorxa, yad bir adamı seyr edən kimi baxırdı.

Sonradan eşitdiyimə görə, Munisənin bəzəkli pal-paltarı Zeynilər kəndində günlərcə dedi-qodu mövzusu olubmuş. Bəziləri mənim yaxşılığımdan xoşlanıbmış, bir çox adam isə razı qalmayıbmış. Anası dağlarda gəzən bir ilan balasına bu qədər mərhəmət göstərmək guya artıq imiş. Sonra bəzək-düzəyin bu dərəcəsini günah sayanlar, uşağı guya anasının getdiyi pis yola salmağa bir növ təşviq hesab edənlər də varmış...

[1] Bəbək – burada gəlincik mənasındadır



Yazıq Munisə çəhrayı lentlərindən, qısa ətəkli laciverd əntarisindən, qara corablarından doyunca ləzzət ala bilmədi.

Ögey anası bu paltarları, kim bilir nə məqsədlə sandığa yığıbmış. İki gün sonra uşaq məktəbə yenə həmin yırtıq əntarisini geyib gəlmişdi.

Munisə məktəbə az-az gəlirdi. Üç gündür ki, heç görünmür... Görək. Sabah kiçik Vəhbidən soruşaram.

*Zeynilər, 30 noyabr.*

Məktəbə gün-gündən daha artıq isinişirəm. Xarabaya oxşayan dərs otağı, demək olar ki, təmiz və sevimli bir şəkil almışdır. Hətta onu bir qədər bəzəməyə də müvəffəq olmuşam.

İlk günlərdə o qədər vəhşi və yad gördüyüm uşaqlar indi mənə mehriban görünürlər. Çox yaxşı bilmirəm, mənmi onlara öyrənmişəm, yoxsa yorulub-usanmaq bilməyən çalışqanlığım sayəsində onlarmı yavaş-yavaş yola gəlməyə başlayıblar? Amma zənn edirəm ki, ikisinin də təsiri var.

Çox çalışıram. Onlardan çox özüm üçün, öz işsizlik və yalqızlığımın zəhlətökən qəmginliyinə qapılmamaq üçün gecəli-gündüzlü əlləşirəm. Bir müvəffəqiyyətsizliyə rast gələndə məyus olmuram. Bu bulanıq, tutqun gözlü, qaranlıq ruhlu uşaqlarda bir az düşüncə, bir azca yaşamaq zövqü oyandırdığımı hiss edəndə sevinirəm.

Kəndli qonşulardan bəziləri hərdən mənə qonaq gəlir, bunlar da danışmaqdan xoşlanmayan, gülməyi heç bacarmayan adamlardır. Yəqin ki, bir az da məndən utanıb çəkinirlər. İlk günlərdə çox sadə geyinməyə çalışdığım halda, yenə məni həddən artıq bəzək-düzəkli saydıqlarını, bəyənmədiklərini anlayırdım. Hətta Muxtarın arvadı bir neçə dəfə mənə söz də atmışdı.

Mən onlara əlimdən gəldiyi qədər mehriban görünməyə, xatirlərini xoş etməyə çalışdım. Hətta bəziləri üçün məktub yazmaq, əntari biçib-tikmək kimi işlər də gördüm. İndi elə hiss edirəm ki, mənim haqqımda fikirləri bir az dəyişmişdir.

Bir gün əvvəl Muxtarın arvadı yenə gəlmişdi. Ərindən mənə salam gətirdi. Muxtar əfəndi deyibmiş ki, "mən onu ilk gördüyüm zaman çox gözümü tutmamışdı, amma Allahın hüzurunda demək lazımdır ki, yaxşı qızmış. Xanım-xanımcıq olub, məktəbdə oturmuşdur. Əgər bir işi olsa, mənə xəbər versin".

Təbii ki, bu iltifata təşəkkür etdim.

Burada məni bəyənən, tez-tez yanıma gələn əhəmiyyətli bir şəxsiyyət də var: bu, kəndin mamaçası Nəzifə molladır. Adının Zəhra, yaxud Ayşə olmadığından, anlaşılır ki, hər halda başqa yerli bir qadındır, çox çərənçi olması da bunu göstərir.

Dedi-qodu ilə məşğul olduğumu zənn etməsinlər deyə çox şey soruşmağa cəsarət etmirəm. Amma kənd haqqında mənə maraqlı və əyləncəli şeylər danışdı. Özünə görə az-çox anlayışı və incəlikləri də var. Məsələn, bir gün otaqda yalqız olduğumuz halda, başqalarının eşitməsindən qorxan kimi, ağzını qulağıma yaxınlaşdırıb Munisənin anası barəsində mərhəmət və qayğı hissləri ilə dolu bəzi şeylər danışdı. Axırda başını yırğalayıb əlavə etdi:

– Təqsir onun keşişə oxşayan ərindədir. Günahını o çəksin. Amandır, ay qızım, söylədiklərimi başqalarına danışmayasan ha. Sonra adamı daşqalaq edərlər!..

Mamaça xanımın bir Hafiz[1] oğlu varmış. Bu ramazan "B"-yə fitrə yığmağa gedibmiş. Görünür işi yaxşıdır ki, hələ qayıdıb gəlməmişdir. Bu il Allah qoysa, Hafizi evləndirmək istəyirmiş.

Qadın yeri gəldikcə, Hafizi tərifləyir, mənalı-mənalı göz vurub mənə ümidlər verir. Bəzi qeydlərə və şərtlərə əməl etsəm, Hafiz əfəndiyə arvad ola bilmək şərəfinə layiq görüləcəyimi başa düşürəm. Sözün qısası, bu qadın məni yaxşıca əyləndirir.

*Mamaça xanım bu səhər yenə gəlmişdi.* Məndən mövlud oxumağı bilib-bilmədiyimi soruşdu. Bu yaxında bir toy olacaqmış. Belə anlaşılır ki, bu kəndin toylarında çalğı yerinə mövlud oxutdururlar.

Gülməmək üçün dodaqlarımı dişləyib dedim:

– Bilirəm, amma səsim yoxdur.

Mamaça xanım buna təəssüf etdi. Keçmiş müəllimələrdən biri çox gözəl mövlud oxuyarmış, bunun sayəsində də ağıllı-başlı pul qazanırmış. Bununla bərabər, mamaça xanımın bugünkü gəlişindən əsil məqsəd bu deyildi. Yoxsul bir qızı gəlin köçürdürlərmiş. Qonşular savab üçün bir-iki qab-qacaqla bir dəst yorğan-döşək tədarük ediblər, gəlini gərdəyə oturtmaq üçün məndən də bir köhnə əntari istəyirlərmiş. Əslində bu qız mənim üçün yad deyil, məktəbdəki şagirdlərimdən biri imiş.

[1] Hafiz – Quranı əzbər bilən adam



Bunu eşidəndə heyrət etdim:

– Mənim uşaqlarımın arasında gəlinlik qız yoxdur ki, mamaça xanım, – dedim. – Ən böyüyü on iki yaşındadır.

Nəzifə xanım güldü:

– İlahi, qızım, on iki yaş azdırmı? Mən gərdəyə girəndə, on beş yaşındaydım, onda mənə evdə qalmış qız deyirdilər. İndi köhnə adətlər götürülmüşdür, amma bu yetimin heç kəsi yoxdur, küçədə qalmışdır. Burada bir çoban Məhməd var, ona veririk. Heç olmasa, bir parça çörək yedirdər.

– Bu qız kimdir, mamaça xanım?

– Zəhra.

Sinifdə yeddi, yaxud səkkiz Zəhra var. Bunun üçün birdən-birə xatırlaya bilmədim. Amma mamaça xanım bunlardan hansı olduğunu söyləyəndə, heyrətdən donub qaldım.

Çoban Məhmədə verilməli olan Zəhra elə qəribə bir məxluqdur ki, adamın yuxusuna girsə, qorxar. Bir növ dəlidir. Xına rəngində, çırpı kimi sərt, qarmaqarışıq saçları, bal mumu kimi rəngsiz üzündə yenə mum rəngində çilləri, ensiz alnının altında qorxunc gözləri vardı.

Mən hələ ilk görüşdə bu uşağın ruhən xəstə olduğunu anlamışdım. Sinifdə heç danışmazdı, amma bir şey söyləmək, yaxud dərs oxumaq lazım gələndə birdən-birə kobud, qorxunc bir səslə bağırmağa başlardı.

Anlaya bilmədiyim cəhət budur ki, Zəhra hesab və əzbər dərslərində sinfin ən qüvvətli şagirdidir.

Sinifdə olduğu kimi, bağçada da hamıdan uzaqda durar, nə o "gözəl" tabut, tənaşir ilahilərində, nə də "nəşəli" cənazə oyunlarında iştirak edərdi.

Amma onun bir neçə gündən bir öz-özünə oynadığı bir oyun vardı ki, məni o biri oyunlardan daha artıq dəhşətləndirərdi. Zəhra bağçanın ortasında havadan gələn bir səsi dinləyən kimi hərəkət etdikdən sonra gözlərini bərəldər, durduğu yerdə bir samovar kimi pıqqıldamağa, qəribə səslər çıxarmağa başlardı. Sonra bu cəzb[1] olmaq halı artar, qırmızı saçları qabarar, ağzı köpüklənər, qışqıra-qışqıra hərlənməyə başlardı. Şübhəsiz ki, bu bir oyundu, amma bilmirəm nədənsə, mən ona baxanda, titrətməyə başlardım.

[1] Cəzb olmaq – burada coşmaq, vəcdə gəlmək

Mamaça xanım bu qızın gəlin olacağını mənə söylədikdə, öz-özümə dedim: "Eyvah! Zəhra o gecə şövqə gəlib çoban Məhməd üçün bu oyunu oynamağa başlasa, vay biçarənin halına!"

Qonşum getdikdən sonra köhnə paltarlarımdan birini də sökdüm, Zəhraya gəlinlik paltarı tikməyə başladım. Çarəm nə idi? Bu yazıq qıza bir az bəzək-düzək vermək lazımdır. Heç olmasa, çoban Məhməd hələ birinci gecədən onu qoyub qaçmasın...

*Zeynilər, 1 dekabr.*

Zəhra dünən gecə Muxtarın evində gəlin oldu. Çoban Məhmədin könlü qalmasın deyə, kəndin meydanında zurna-nağara çaldırdılar, bir-iki pəhləvan güləşdirdilər.

Qadınlar arasında da ayrıca bir xına gecəsi düzəldilib, mövlud oxuduldu. Mənim hədiyyə etdiyim paltarı kəndin qocaları yenə həddən artıq alafranqa[1] sanmışdılar. Ətrafdan qulağıma: "Sabah axirət", "inkir-minkir", "odlu toppuz" kimi sözlər gəlirdi. Amma gənc qadınların ağızlarının suyu axırdı. Aralarında, yəqin ki, gəlinə həsəd aparanlar da vardı.

Gecə çox əyləndim. Muxtarın arvadı gözəl bir süfrə hazırlamışdı. Ortada danışılan sözlərdən bu fədakarlığın Zəhradan artıq "İstanbullu hocanıma" göstəriş üçün edildiyi anlaşılırdı.

Çoban Məhmədə gəlini təslim etməzdən əvvəl, gülünc bir əlöpmə mərasimi icra olundu.

Bu yekəpər, utancaq kənd cavanı gözlərini yumub öpdüyü əllər arasında mənim də əlim vardı. Müəllimə bir cəhətdən ana demək olduğu üçün, bu lazımmış.

Bu əlöpmə mərasimində elə gizli komediya oldu ki, bunu heç unuda bilməyəcəyəm. Muxtarın arvadı və mamaça xanım başda olmaqla, beş-altı qoca qadın uzun bir çarpayının döşəyi üstündə cərgə ilə oturmuşdular. Mən hələ onlar kimi bardaş qurub oturmağı bacarmadığımdan, ocağın yanında bir paltar sandığının kənarında oturmuşdum. Gözlərini heç cür yerdən ayırmağa cəsarət edə bilməyən çoban Məhməd əvvəlcə məni görməmişdi. Mamaça xanım küncdən: "Ay Məhməd, oğlum, hocanımın da əlini öp!" – deyə məni göstə-

[1] Alafranqa – Franq (firəng) sayağı, yeni Avropasayağı



rəndə çoban utana-utana yanıma gəldi. Mən ciddiyyətlə əlimi uzatdım, amma çoban barmaqlarımı tutması ilə buraxması bir oldu. Bunun bir əl olduğuna inanmır kimi, maymaq-maymaq baxırdı. Mən güldüyümü göstərməməyə çalışaraq dedim: "Öp, övladım!"

Yazıq əlimi təkrar tutduqdan sonra, utanıb sıxılmağı buraxıb üzümə baxdı və onunla göz-gözə gəldik. Daha pisi budur ki, bu əsnada ocaqdan üzümə düşən qüvvətli bir işıqda o, mənim güldüyümü də gördü. Çobanın bu dəqiqədəki çaşqınlığı qədər gülünc bir şey gördüyümü xatırlaya bilmirəm.

Əlöpmə mərasimindən sonra bəyi gəlinin olduğu otağa sarı apardılar. Zəhra yeni paltar geydiyindən və bir az əvvəl öz əlimlə başını darayıb bəzədiyimdən, demək olar ki, gözəlləşmişdi. Amma buranın adətinə görə onu duvaq yerinə yaşıl atlazdan tikilmiş bir növ torbanın içinə saldıqlarından, onun çobana necə təsir etdiyini görə bilmədim.

*Zeynilər, 15 dekabr.*

Bu səhər oyandığım vaxt ətrafımda bir şeyin çatmadığını hiss etdim... Diqqət edəndə bunun nə olduğunu tapdım. Gecələr bağçada həzin bir layla səsi ilə axan çeşmə durmuşdu.

Pəncərəni açmaq üçün yatağımdan qalxdım. Taxta pəncərə qapıları bərkimişdi və mən onları qüvvətlə silkələyəndə, aralarından qar tökülməyə başladı.

Demə, bu gecə qar yağıbmış, Zeynilər, demək olar ki, tanınmaz bir hal almışdı.

Xədicə xanımdan eşitmişdim: burada qar bir dəfə yağmağa başladımı, aprelə qədər yerdən əskik olmazmış. Bu, nə yaxşı şeydir! Deməli ki, yarpaqları da qapqara görünən bu qaranlıq və sıxıntılı yerin əsil baharı qış aylarında başlanırdı.

Qar elə əvvəldən də mənim üçün yeni açılmış badam çiçəklərindən daha gözəl bir şeydir. Bağçada bu ağ, təmiz, yumşaq qarın içində yumalanmaqdan aldığım nəşə və ləzzəti, başqa heç bir bayramda ala bilmərəm. Qardan insan ürəkdən nifrət etdiyi adamlardan intiqam almaq üçün yaxşı çarələr tapır. Mənim vaxtilə bir düşmənim vardı ki, qardan çox qorxardı. Qalın pamazı yaxasında gizlətdiyi nazik boynuna xəbəri olmadan qar doldurardım, onun soyuqdan qızarmış dodaqları titrəyib rəngdən-rəngə girəndə, mən nəşədən dəli olardım.

Qar getdikcə artır, yollar bağlanıb. Belə ki, uşaqlardan bir çoxu məktəbə gəlmir.

Bir gün həyatımın ən acı, ən dərdli günü oldu. Səhər şagirdlərim mənə pis bir xəbər gətirdilər. Dünən gecə Munisənin bir təqsiri olubmuş, abası onu odunla döymək üçün üstünə yeriyəndə, yazıq qız otağın pəncərəsindən özünü bağçaya atıbmış. Qarın içində və qaranlıqda uzun müddət qala bilməyəcəyini, bir azdan sonra qapıya gəlib yalvaracağını güman ediblərmiş. Amma saatlar keçdiyi halda, uşaq görünməyibmiş. O vaxt qonşulara xəbər veriblərmiş. Kənd cavanları əllərinə yanar çıralar[1] alıb küçələrə tökülmüşlər, yazıq qızın hara getdiyini bilmək heç cürə mümkün olmamışdı.

Munisəni heç sevməyən yoldaşları da onun halına yanırdılar. Axşama qədər hər yeri axtardılar. Muxtar əfəndi bu kiçik qızı çox sevdiyimi bildiyi üçün, Vəhbi ilə tez-tez mənə xəbər göndərirdi.

Vəhbi bu gün böyük bir kişi kimi ciddi və təşviş içində idi. Munisənin hələ tapılmadığını söyləmək üçün, soyuqdan göyərmiş ovuclarının içini göstərib qaşlarını çataraq deyirdi: "Cetdi fağır qızcığaz, yəqin ki, onu qurdlar yedi!"

Axşama doğru Vəhbinin bu şübhəsi böyüklərə də sirayət etməyə başladı: "Uşaq bu fırtınada başqa kəndə gedə bilməz, ya bir yerdə soyuqdan donub ölmüş, ya da canavar parçalamışdır" – deyənlər olurdu.

Göz gözü görməyən bu boranlı günün qara bir duman kimi çökən axşamı ilə bərabər, mənim də qəlbimə vəhşi bir ümidsizlik çökdü. İlk dəfə idi ki, həyata zalım və haqsız deyənlərə inanır, mən də həyata üsyan edirdim.

Səsim-nəfəsim kəsilmişdi, başım od içində yanırdı, axşam tezdən yatağıma girdim, gecə işıq gözlərimi incitdiyi üçün lampanı söndürdüm.

Bayırda fırtına getdikcə artır, pəncərə qapılarını zorlu hücumlarla sarsıdırdı.

Yazıq xırdaca qız kim bilir, haralarda qarın içinə gömülüb qaldı, açıq-sarı saçları kim bilir qaranlığın hansı bucağında, keçmiş aylı gecələrdən qalma bir işıq parçası kimi titrəyir?!

[1] **Çıra** – işıq üçün şam ağacından yonqar



Neçə saat keçdiyini bilmirəm. Belə hallarda insan vaxtı bilmək hissini itirir. Məzarlıq tərəfindəki qapını taqqıldadırlarmış kimi bir səs eşitməyə başladım. Bu, küləkdən başqa nə ola bilərdi? Amma yox, bu küləyin sarsıntısından başqa bir şeydi. Yatağımda dikəlib qulaq verdim və gecənin uğultusu içində boğuq bir insan iniltisi eşidən kimi oldum. O saat yatağımdan sıçradım, çiynimə bir örtük salıb aşağı yüyürməyə başladım.

Məqsədim Xədicə xanımın otağına gedib, onu oyatmaqdı. Amma o da səsi eşitmiş, əlində şam tutaraq səkiyə çıxmışdı.

Qapını birdən-birə açmağa cəsarət edə bilmədik. Əslinə baxsan, taqqıltı da kəsilmişdi. Xədicə xanım kişi kimi qalın səslə: "O kimdir?" – deyə çığırdı. Cavab yoxdu. Qoca qadın bir də səsləndi. Onda küləyin uğultusu içində incə bir səsin inlədiyini eşitdik. Xədicə xanım: "Sən kimsən?" – deyə çığırdı. Amma mən səsi tanımışdım. "Munisə!" çığıraraq, qapının cəftəsini açdım.

Qapı açılan kimi içəri qarlı külək doldu, qoca qadının əlindəki şam birdən-birə söndü. Qaranlıqda qollarımın arasına buz kimi donmuş kiçik bir vücud düşdü. Xədicə xanım təkrar şamı yandırmağa çalışanda, mən Munisəni köksümə sıxır, hıçqıra-hıçqıra ağlayırdım.

Son qüvvəti tükənən Munisə, qucağımda huşunu itirmişdi. Üzü gömgöy, saçları dağılmış, paltarının içinə qar dolmuşdu.

Uşağı soyundurduqdan sonra öz yatağıma saldım. Xədicə xanımın manqalında qızdırdığım bir parça pamazı ilə qızın bədənini ovuşdurmağa başladım. Munisə özünə gələn kimi ilk sözü: "Bir parça çörək!" – deyə yalvarmaq oldu. Yaxşı ki, bir az südümüz vardı. Xədicə xanımla onu isitdik və uşağa qaşıq-qaşıq verməyə başladıq.

Dəqiqələr keçdikcə, Munisənin üzü qızarmağa, gözlərinə işıq gəlməyə başlayırdı. Qollarımın arasında içini çəkir, dərdli-dərdli, ürəkdən ağlayırdı.

Ah, bu uşaq gözlərindəki minnət! Dünyada bir azca yaxşılıq edə bilməkdən daha gözəl bir şey ola bilməz. Fırtınadan köhnə bir gəmi təknəsi kimi yırğalanan bu yoxsul və qaranlıq otaq, ocağın qızıl əksləri içində birdən-birə elə gözəl və xoşbəxt bir yuva olmuşdu ki! Bir az əvvəl həyata qarşı göstərdiyim inamsızlıq üçün özüm-özümdən utanırdım.

Uşaq danışmağa başladı. Qolları boynumda, sarı saçları biləklərimdən sallanmış halda gözlərimə baxır, soruşduğum suallara ağır-ağır cavab verirdi.

Dünən axşam ögey anasından çox qorxubmuş. Kəndin o biri başındakı bir anbara qaçıb, samanın arasına giribmiş. Saman adamı yataq kimi isti saxlayırmış. Amma bu gün çox acıbmış. Bayıra çıxarsa, tutub yenə evə aparacaqlarını bilirmiş. Ona görə çarəsiz gecəni gözləyibmiş.

Zavallı qızın ümidi mənə imiş. Bütün günü: "Hocanım mütləq mənə çörək verər!" – deyə özünü ürəkləndirirmiş...

Bir az sonra uşağın parlaq gözlərinə bir kölgə düşdüyünü, nəşəsinin sönməyə başladığını gördüm. Soruşmağa lüzum qalmadı. Çünki həmin qorxu məndə də oyanmışdı. Sabah səhər Munisəni yenə evlərinə göndərmək lazım gələcəkdi.

Ürəyimdə zəif bir ümid bəsləyirdim: elə şeylər var ki, biz onları hədsiz dərəcədə gözəl sandığımızdan, elə güman edirdik ki, bunlar heç vaxt bizə qismət olmayacaqdır, amma yenə ümidimizi kəsmirik... İndi mənim ürəyimdə də belə ümidsiz bir ümid vardı...

Munisəni boş xəyallara salıb, sonra məyus etməkdən qorxduğum üçün yavaşcadan Xədicə xanıma dedim:

– Madam ki, bu qızı evlərində istəmirlər, görəsən mən özümə övlad götürsəm, razı olarlarmı? Mənim də heç kəsim yoxdur. Vallah, bu uşağa öz övladım kimi baxaram. Görəsən verməzlər?

Bu coşqun arzum sanki Xədicə xanımın bircə sözünə bənd idi. Mən titrəyə-titrəyə əllərimi uzadıb, boynumu büküb, ondan cavab gözləyirdim.

Qoca qadın gözlərini ocağa zilləyib düşünürdü. Sonra ağır-ağır başını yırğalayıb dedi:

– Pis olmaz. Sabah Muxtarla danışarıq. O, "yaxşı" desə, qızın atasını da razı edərik. Yaxşı olar...

Mən ömrümdə bu qədər gözəl ümidverici bir söz eşitməmişdim. Cavab verməyib, Munisəni bağrıma basdım. Uşaq əllərimi öpə-öpə: "Ana! Ana!" – deyə ağlamağa başladı.

Mən bu sətirləri yazarkən, Munisə yatağımda yuxulayır, sarı saçlarında ocağın parıltıları əks edib titrəyir, hərdən dərin-dərin içini çəkir və tez-tez öskürür.



Bu uşağı mənə versələr, nə qədər xoşbəxt olacağam, ya rəbbi! Daha nə gecədən, nə fırtınadan, nə səfalətdən, heç bir şeydən qorxmayacaqdır. Onu öz əlimlə böyüdəcəyəm, xoşbəxt edəcəyəm. Mən bunu bir zaman başqa balalar üçün ümid edib, coşqun arzulara düşmüşdüm, amma onlar bir axşamüstü qəlbimdə öldülər...

Daha həyatla barışdım. Hər şeyi təkrar sevirəm.

Kamran, bir axşamüstü qəlbimdəki o yazıq körpəcikləri öldürən sən olduğun halda, bu gecə hətta sənə də əvvəlki qədər nifrət etmirəm!..

*Zeynilər, 18 dekabr.*

Deyəsən bu gecə yenə gözlərimə yuxu getməyəcək. Xəstələr kimi, xoşbəxt olanlara da gecələr elə uzun gəlir ki!..

Səhər Xədicə xanımla bərabər Muxtarın evinə getdim. Qoca elə bildi ki, Munisədən bir xəbər bilməyə gəlmişəm.

– Hələ tapılmadı, amma görək, bir-iki yerə ümidim var, – kimi sözlərlə mənə təsəlli verməyə başladı.

Mən axşamkı hadisəni danışdım. Sözümün sonuna gələndə ürəyim çırpınır, gözlərim qaralırdı. Dünyada əsla mümkün olmayan bir şey üçün yalvaran kimi əllərimi ovuşdurub dedim:

– Bu xırdaca qızı mənə verin. Özümə övlad eləyim, bağrıma basım. Görürsünüz ki, biçarə onların əlində tələf olub gedəcək...

Muxtar əfəndi gözlərini yumdu; saqqalını tumarlaya-tumarlaya bir müddət düşündü, sonra dedi:

– Çox əla qızım, doğrudan da, savab bir iş görmüş olarsan.

– Deməli, Munisəni mənə verəcəksiniz?

– Əslində atası o biri uşaqlara da baxmaqdan acizdir. Verməyib nə edəcək? Razı olmasa, əlinə beş-on quruş pul da verərik.

O vaxt sevincimdən necə dəli olmadığıma təəccüblənirəm. Onu bu qədər asanlıqla ala biləcəyimi heç umardımmı? Axşamdan bəri saatlarla düşünmüş, mənə edə biləcəkləri etirazlara cavablar tapmış, ürəklərini yumşaltmaq üçün fikrimdə demək olar ki, nitqlər hazırlamışdım. Bunlar kar etməsə, atamdan qalan cavahiratımı verəcəkdim. Onları bu yazıq kiçik əsir qızı qurtarmaqdan daha yaxşı bir yerə sərf edə biləcəkdimmi? Amma budur, bunların heç birinə hacət qalmır, Munisəni bir canlı oyuncaq kimi qucağıma verirlər.

Mən başqaları kimi deyiləm. Çox sevindiyim, xoşbəxt olduğum vaxt duyğularımı sözlərlə ifadə edə bilmirəm. Mütləq qarşımdakının boynuna sarılmaq, onu öpmək və didişdirmək istərəm. Muxtar əfəndi də o dəqiqədə bax, belə bir təhlükə qarşısında idi, amma qırışmış əlini bircə dəfə öpməyimlə məndən canını qurtardı.

İki saat sonra Muxtar Munisənin atası ilə bərabər məktəbə gəlirdi. Mən bu adamı çirkin sifətli, qorxunc, zalım bir adam kimi təsəvvür edirdim. Halbuki, əksinə, xırda-mırda, xəstə kimi görünən, düşkün bir qoca idi.

Mənə istanbullu olduğunu, amma qırx ilə yaxın bir zamandan bəri öz yerini görmədiyini söylədi, qatma-qarışıq bir röya nəql edən kimi, güclə yadına sala-sala Sarıyerdən, Aqsaraydan danışdı.

Munisəni mənə verməyə razı olurdu. Amma ona çox ürəyi yandığını hiss etdim. Uşağı xoşbəxt etmək üçün əlimdən gələni əsirgəməyəcəyimi, onu daim atasına göstərəcəyimi vəd etdim.

Zeynilərin kasıb, qaranlıq məktəbi bu günə qədər belə bayram, belə şənlik görməmişdi. Buna arxayınam. Munisə ilə sevindiyimizdən otaqlara, dəhlizlərə sığışmırıq. Qəhqəhələrimiz tavan altında yatmış quşları oyandırmış kimi, oralardan şən civiltilər gəlirdi.

Munisə bir neçə saat içində nazlı bir kiçik xanıma döndü. Al pamazıdan bir paltarım vardı ki, mən onu daha geyə bilməzdim. Onu bir az daraldıb qısaldaraq, Munisəyə qəşəng bir kostyum tikdim. Qız bu paltarda, necə deyim, bir içim su, ağıza alınan kimi əriyən likörlü konfetə oxşadı.

Qar bir gün əvvəlki qədər şiddətli olmasa da, hələ yağırdı. Axşamüstü uşağın əlindən tutub bağçaya çıxartdım. Xədicə xanım Zeyni babanın qəndillərini yandırmağa gedənə qədər gəzdik, bir-birimizi qovduq, məzar daşları arasında qartopu oynadıq.

Bizim nəşəmiz qoca qadını da bir az güldürmüşdü:

– Haydı, daha içəri girin, üşüyərsiniz, xəstələnərsiniz, – deyəndə, o da şirin-şirin gülümsünürdü.

Üşüməkmi? İnsanın ürəyində milyonlarla günəş yananda, o heç üşüyərmi?!

Bu axşam göy mənə, budaqları günbatandan gündoğana qədər uzanmış bir ağac – yavaş-yavaş yırğalandıqca, ağ çiçəklərini üstümüzə səpən yekə bir yasəmən ağacı kimi görünürdü.



*Zeynilər, 30 dekabr.*

Munisə ilə elə can-ciyər olduq ki!.. Bu balaca qız dərslərimdən artıq qalan bütün saatlarımı alır. Bütün biliklərimi ona öyrətmək istəyirəm. Gündə bir-iki saat fransızca dərs verirəm, hətta arabir (kənddə duysalar, bizi daşqalaq edərlər) qapıları, pəncərələri bağlayıb, ona bir azca rəqs də öyrədirəm.

Bəzən öz-özümə gülməyim tutur, ürəyimdə deyirəm:

– Çalıquşu! Sən, "hər şeyi öyrədəcəyəm", deyə Munisəni, Allah eləməmiş Hacı qalfanın Miratına döndərəcəksən.

Bu fağır kənd uşağı birdən-birə əsilzadəyə bənzədi. Hər hərəkətində, hər sözündə bir incəlik var. Əvvəl buna heyrət etmişdim. Amma indi səbəbini anlamağa başlayıram. Munisənin anası, hər halda dedikləri qədər pis bir məxluq deyilmiş...

Uşaq mənə son dərəcə minnətdardır. Bəzən heç səbəbsiz mənə yaxınlaşır, əllərimi tutaraq öz yanaqlarına, dodaqlarına sürtməyə başlayır. O vaxt mən də onun nazik biləklərini əllərimin içinə alıram, xırdaca barmaqlarını bir-bir öpürəm.

Yazıq uşaq, onu yanıma almaqla bir fədakarlıq etdiyimi sanır, amma başa düşmür ki, əsil yaxşılığı özü etmişdir...

Bu uşaq elə qəribə, gözlənilməz sözlər danışır ki!.. Gəldiyinin ikinci günü idi.

– Munisə, istəyirsən mənə ana de, bu, daha yaxşı olar, – dedim.

Şirin-şirin gülümsünüb üzümə baxdı:

– Olarmı, abacığım?

– Nə üçün olmasın ki?

– Abacığım, axı, sən özün uşaqsan, sənə necə ana deyim?!

Onun bu sözü az qala izzət-nəfsimə toxundu, barmağımla onu hədələyib dedim:

– Şeytanın biri şeytan!.. Niyə kiçik oluram ki? Mən iyirmi yaşı ötmüş yekə bir qadınam.

Munisə dilini dişlərinin arasında sıxışdırıb mənə baxır, bir şey söyləmədən gülürdü.

– Yalandırmı? Yekə qadınam, – deyə təkrar etdim.

O, böyük bir adam kimi dodaqlarını büzdü:

– Sən məndən o qədər də böyük deyilsən ki, abacığım. On dörd-on beş yaşındasan...

Özümü saxlaya bilməyib gülməyə başladım. Munisə açılışmışdı, bir qədər utana-utana dedi:

– Sən hələ gəlin olacaqsan, abacığım, mən saçının hər iki tərəfinə lentlər taxacağam. Özün kimi gözəl bir...

Əlimlə uşağın ağzını tutdum:

– Bir də belə şey söyləsən, dodaqlarını qopardaram! – dedim.

Balaca balam bəzəyi çox sevirdi, bir az da koket[1] idi. Mən elə əvvəldən də koket ruhlu qızları çox xoşlamaram, amma Munisənin ayna qarşısında bəzənməsi, bəyənə-bəyənə özünə gülümsünməsi məni bir qədər əyləndirir. Hətta dünən əlində yanmış bir kibrit də tutdum, gizlin-gizlin gözünə sürmə çəkməyə çalışırdı. Oyunbaz qız heç bilmirəm bunu kimdən öyrənib! İndi o qədər əhəmiyyəti yoxdur, amma bir neçə ildən sonra bir gənc qız olub birini sevməyə, ərə getməyə təşəbbüs etsə, onda işlər pis olacaq. Bunlar ağlıma gəldikcə, həm qızı olan analar kimi təşvişə düşürəm, həm də xoşlanıram.

Munisə dünən qızara-qızara, utana-utana məndən bir xahiş etdi: saçlarının mənim saçlarım kimi olmasını istəyirmiş.

Bəbək ilə oynayan kimi, Munisə ilə oynamaq mənim elə Allahdan istədiyim şeydi. Balaca qızı dizlərimin arasına aldım, hörüklərini açıb istədiyi kimi darayıb şotkaladım.

O, rəfin üstündəki kiçik aynanı alıb dedi:

– Əziz abacığım, gəl ikimiz yan-yana aynaya baxaq.

Fotoşəkli çəkdirən bacılar kimi baş-başa verdik. Aynada gülür, bir-birimizə dilimizi çıxarırdıq.

Munisə laciverd gözləri, ağappaq bədəni, incə mehriban üzü ilə mələk kimi gözəldi. Amma özündən razı qalmadı, əli burnumu, dodaqlarımı oynadıb dedi:

– Nahaqdır, abacığım, sənə bənzəmirəm ki...

– Bu daha yaxşıdır, mənim balam.

– Nəyimə lazımdır, abacığım, mən sənin kimi gözəl deyiləm ki...

O, başını mənə daha artıq yaxınlaşdırır, xırdaca əli ilə yanağımı oxşayaraq deyirdi:

– Abacığım, sən məxmər kimisən. Sənin üzündə adam ayna kimi özünü görür.

[1] Koket – ədabaz, nazlanan, bəzək-düzək xoşlayan



Mən bu məzəli uşağın çərən-pərən danışmasına gülür, o qədər zəhmətlə düzəltdiyim saçlarını qarışdırırdım. Amma nə gizlədim, – dəftərimi məndən başqası oxumayacaq ki, – özümü həmişə zənn etdiyimdən də gözəl bilir: "Fəridə, sən özünü tanımırsan. Səndə heç kəsə bənzəməyən başqa bir şey var!" – deyənlərə haqq verən kimi olurdum.

Nələr danışıram! Ah, bu xırdaca qız! Mən onu ağıllı bir qız etməyə çalışana qədər o məni özü kimi koket edəcək!..

*Zeynilər, 29 yanvar.*

Dəftərimə bir aydır ki, əl vurmamışam. Hər halda yazı yazmaqdan daha faydalı işlərim vardı. Həm də xoşbəxt günlərdən nə yazasan?

Bir aydan bəri xoş könül rahatlığı ilə yaşayırdım, hayıf ki, çox davam etmədi. İki gün əvvəl buradan keçən bir poçta arabası mənə dörd məktub gətirmişdi. Onları görən kimi ürəyimə od düşdü. Kimdən gəldiyini, içlərində nə olduğunu bilmədən dedim:

– Kaş bunlar mənə çatmadan, yolda itib gedəydi.

İlk təxminimdə yanılmamışdım. Zərfin üzərindəki yazını tanıyırdım. Məktublar ondan gəlmişdi.

Zərflər məni tapana qədər əldən-ələ gəzmiş, üstləri göylü-qırmızılı yazılar, damğalarla dolmuşdu. Əlimi vurmağa cəsarət etmədən birinin üstündəki ünvanı oxudum:

"B" Mərkəz rüşdiyyə məktəbi müəllimlərindən Fəridə xanım əfəndiyə". Zərfləri ovcumda əzişdirdikdən sonra ocağın yanındakı rəfə atdım. Başımı pəncərəyə dayayaraq, dalğın-dalğın baxdığımı görən Munisə dedi:

– Abacığım, haran ağrayır, üzün sapsarıdır?

Özümü yığışdırmağa çalışıb gülümsündüm:

– Heç bir şey yoxdur, mənim balam. Bir azca başım ağrıyır. Səninlə bir az bağçaya çıxarıq, keçib-gedər.

Gecə, yatağımda gözlərimi qaranlığa dikib, saatlarla yuxusuz qaldım. Heç bir qərara gələ bilmirdim. Utanmaz zalım, bu məktublarda kim bilir mənə nələr söyləməyə cəsarət edirdi? Bir neçə dəfə lampanı yandırıb, onları oxumaq istədim. Amma özümü saxladım. Onları oxumaq ayıbdı, bu, mənim üçün bir alçaqlıq idi.

Aradan iki gün keçdi. Məktublar hələ də orada durur, otağın havasına zəhər yayırmış kimi, məni yavaş-yavaş əridirdi. Mənim zəhlə-

tökən kədərim Munisəyə də keçmişdi. Yazıq qız dərdimin hardan gəldiyini bilir, məni xəstə edən bu kağızlara kinlə, nifrətlə baxırdı.

Bu axşam yenə pəncərənin yanında düşünürdüm. Munisə çəkinə-çəkinə yanıma gəldi, qorxaq bir tövrlə dedi:

– Abacığım, mən bir şey etdim, amma bilmirəm acığın tutacaq, ya yox?

Birdən-birə döndüm. Gözlərim qeyri-ixtiyari ocağın yanındakı rəfə baxdı. Məktublar orada yoxdu, duyduğum acı təsirdən ürəyim sıxıldı.

– Onlar hanı? – deyə soruşdum.

Uşaq başını əydi.

– Mən onları yandırdım, abacığım. Neyləyim, axı sən çox dərd çəkirdin...

Fəryadı andıran bir səslə dedim:

– Sən neylədin, Munisə?

Uşaq mənim qəzəblənəcəyimi, çiyinlərindən tutub onu silkələyəcəyimi gözləyir, titrəyirdi. Başımı biləklərimə qoyub, yavaş-yavaş ağlamağa başladım.

– Abacığım, ağlama. Mən onları yandırmadım, sənə qəsdən belə söylədim. Əgər kədərlənməsəydin, onda yandıracaqdım. Al, budur.

O, bir əli ilə başımı tumarlayır, o biri əli ilə məktubları mənə verməyə çalışırdı.

– Al, abacığım, onlar yəqin ki, sənin sevdiyin bir adamdan gəlib.

Mən diksinib çığırdım:

– Bu nə sözdür, ay yaramaz?!

– Nə bilim, abacığım. Sevdiyindən olmasa, belə ağlarsanmı?

Mən bu çoxbilmiş cücənin sözlərindən də, göz yaşlarımdan da utandım. Buna son qoymaq lazım idi. Daha qərara gəldim:

– Mənim balam, kaş bu sözləri söyləməyəydin, amma madam ki, söylədin, bax, sənə isbat edim. Məktublar mənim sevdiyim bir adamdan gəlmir. Gəl səninlə bərabər onları yandıraq!

Otaq qaranlıqdı, yalnız ocaqda yanıb qurtarmaq üzrə olan bir dəstə çırpı parlayıb sönürdü. Məktublardan birini oda atdım. Zərf qıvrıla-qıvrıla yanmağa başladı. O qurtaranda ikincisini, sonra üçüncüsünü atdım.

Munisə anlaya bilmədiyim bir hisslə köksümə soxulmuşdu. Məktublar bir-bir yandıqca, qarşımızda can verən bir insan varmış kimi



susurduq. Növbə dördüncüyə gələndə, ürəyimə dözülməz bir peşmançılıq acısı çökdü. Amma o birilər yandıqdan sonra bunu saxlaya bilməzdim. Qəlbimin bir parçasını qoparan kimi, iztirabla onu da atdım.

Son məktub o birilər kimi birdən-birə alışmadı: bir ucundan incə bir tüstü çıxa-çıxa, yavaş-yavaş yanmağa başladı. Sonra zərfin ayrılıb açıldığını, zərif yazılarla dolu bir kağızın yavaş-yavaş yandığını gördüm. Daha dözə bilmirdim. Munisə könlümdən keçənləri bilirmiş kimi birdən-birə əyildi, əlini oda soxaraq, son məktubun bir parçasını yanmaqdan qurtardı.

Bu məktubun qalığını ancaq uşağı yatırtdıqdan sonra oxumağa cəsarət etdim. Ancaq bu sətirlər qalmışdı:

"Anam keçən səhər üzümə baxanda, ağlamağa başladı. "Nə var, ana? Nə üçün ağlayırsan?" – deyə soruşdum. Əvvəlcə söyləmək istəmədi: "Heç bir şey yoxdur, bir röya gördüm", – dedi. Mən inad etdim, yalvardım, nəhayət, söyləməyə məcbur oldu. Səssiz-səssiz ağlayaraq bunları danışdı:

– Röyamda onu gördüm. Qaranlıq bir yerdə gəzir, önümə gələnə: "Fəridə buradadırmı, Allah rizası üçün söyləyin", – deyirdim. Üzü örtülü bir qadın məni, əlimdən tutaraq təkkəyə[1] bənzəyən alaqaranlıq bir yerə soxub dedi: "Budur, Fəridə burda yatır. Boğaz xəstəliyindən öldü". Baxıb gördüm ki, övladcığım gözləri yumulu yatır. Hələ yanağının rəngi də solmamışdı. Ağlaya-ağlaya oyandım. Deyərlər ki, ölü diri gətirər, deyilmi? Fəridəni bu yaxınlarda görəcəyəm, deyilmi, Kamran?

Anamın sözlərini sənə eynən yazdım. Məni bir kənara qoy. Amma anan yerində olan bu qoca qadını daha artıq ağlatmaq doğrudurmu? Xalanın röyası, o gündən bəri mənim də röyam oldu. Gözlərimi yuman kimi, səni uzaq bir diyarın qaranlıq bir otağında gözlərin yumulu, qara saçların, təravətli üzün..."

Məktub parçası burda bitir, mənə eləcə xalamın matəmini xəbər verirdi. Kamran, görürsən ki, bizi hər şey bir-birimizdən ayırır. Səninlə daha düşmən deyilik; amma bir-birimizi heç, heç bir zaman görməyəcək iki yad adamıq!

[1] Təkkə – kiçik məhəllə və ya kənd məscidi, ibadətxana

Dünən gecədən xeyli keçmiş bataqlıq tərəfdən silah səsləri gəlməyə başladı. Mən qorxdum, amma Munisə sakit idi.

– Həmişə olur, jandarmlar quldur qovlayırlar, – dedi.

Arabir eşidilən silah səsləri on dəqiqə davam etdikdən sonra kəsildi.

Bu səhər əhvalatı öyrəndim. Munisənin təxmini doğru imiş.

Poçtanı soyan bir neçə sərsəri ilə jandarmlar arasında atışma olubmuş. Jandarmlardan biri ölüb, o biri isə ağır yaralanaraq Zeynilərin qonaq otağına gətirilmişdir.

Günortaya az qalmışdı, kiçik Vəhbi tövşüyə-tövşüyə məktəbə gəldi, mənim əlimdən tutub dedi:

– Ay qız, hocanım, tez çarşabını ceyin, cəl də... Səni qonaq otağına çağırırlar...

– Kim çağırır?

– Doktor çağırır, atam söylədi.

O saat çarşabımı örtdüm, Vəhbi qabaqda, mən arxada qonaq otağına getdik.

Bura iki alçaq otaq ilə pilləkənli, əyri bir dəhlizdən ibarət, viranə bir xeyrat bina[1] idi. Gecə, qar, xəstəlik kimi səbəblərdən yoluna davam edə bilməyən yolçuları burada saxlayır, savab üçün bir az yemək verirlər.

Qapıda durub, soyuq havada burnundan buxar çıxa-çıxa ayağını yerə döyən gözəl bir atı tumarladıqdan sonra içəri girdim. Həyət qaranlıq olduğu üçün lampa yandırmağa məcbur olmuşdular.

Qalın şinelli, yekə çəkməli, şişman bir hərbi doktor pilləkənin üstündə oturub nə isə yazır, həyətdə üzü seçilməyən bir neçə adamla danışırdı. Onun üzünü yandan görürdüm. Yoğun iri bığları, qalın qaşları, canlı və sevimli üzü vardı, ancaq ya rəbbi, bu adam danışanda, nə qədər qaba, hətta pis sözlər işlədirdi! Belə ki, arada qayıdıb geri dönmək istədim.

Mütləq yenə bir pis söz söyləyəcəyini bildirən sərt bir qəhqəhə ilə gülərək, başını çevirəndə məni gördü, birdən-birə durdu; boz rəngli pencəyinin üzərində yekə qara saqqalını görə bildiyim bir nəfərə:

[1] X e y r a t  b i n a – camaatın hesabına, xeyir işlər üçün tikilmiş bina



– Yahu, yüzbaşım[1], məndən incimə, amma sənə "Ayı Dayı" adını qoyanların yerdən göyə qədər haqqı varmış. Aramızda qadın ola-ola, məni niyə belə nəcib-nəcib danışdırırsan? – dedi və mənə sarı döndü:

– Həmşirə xanım, təqsirimdən keçin, gəldiyinizi görmədim. Keçin yuxarı. Amma bir az durun, mən düşüm. Pillələr lap əmanətə bənddir. İkimizi birdən saxlaya bilməz. Haydı, indi keçin. Mən də gəlirəm.

Pillələri iki-iki adlayıb yuxarı çıxdım.

Qoca doktorun "yüzbaşı" dediyi adama sataşmaqda davam etdiyini eşidirdim:

– Yüzbaşım, bu müəllimə istanbulludur. Hardan bildiyimə təəccüb edirsən, deyilmi? Ah, yüzbaşım, sən kainatda hansı hadisəyə belə, qoyun kimi mat-mat baxmamısan? Pillələri çıxışından bildim. Gördünmü, kəklik kimi necə səkirdi? İndi istəyirsən yaşını da deyim: bu qadının yaşı, olsa-olsa qırxdır, artıq olmaz.

Belə dəlisov sözlər elə əvvəldən məni əyləndirərdi. Öz-özümə gülüb dedim:

– Bax, bunda yanıldın, doktor əfəndi!

Beş dəqiqə sonra qoca doktor, pillələri cırıldada-cırıldada yuxarı çıxdı. Üzümə baxmadan danışmağa başladı:

– Əfəndim, hadisə məlumdur. Bir yaralımız var. Ciddi bir şey deyil, amma baxılmağa möhtacdır. Özüm bir azdan sonra gedəcəyəm. Görülməli iş sadəcə sarğı bağlayıb-dəyişdirməkdən ibarətdir, amma sarğını ora-bura sürtüb bulaşdırmalarından qorxuram. Onların doktora da inamları zəifdir. Fürsət tapan kimi, o saat ara həkimlərinin dərmanlarına əl atacaqlar. Bir də gördün ki, yaranın üstünə cürbəcür murdar şeylər yapışdırdılar. Siz məktəb-mədrəsə görmüşsünüz. Edilməli şeyləri mən sizə söylərəm. Xəstə ayağa durana qədər ona baxarsınız, ancaq bilmirəm ürəyiniz tab gətirərmi?

– Gətirər, doktor bəyim, mənim sinirlərim qüvvətlidir, heç bir şeydən qorxmaram, əfəndim.

Doktor heyrətlə başını qaldırıb dedi:

– Sən bir üzünü açsana görüm!

Bu sadə sözlərdə elə qəribə bir səmimiyyət vardı ki, heç çəkinmədən yaşamağımı qaldırdım, hətta bir az güldüm də.

[1] Y ü z b a ş ı – kapitan (hərbi rütbə)

Qoca doktor qollarını qaldırdı, üzündə komik bir heyrətlə gülməyə başladı, həm də qəh-qəhlərlə...

– Sən nə axtarırsan burda?

Bu dəfə də mən çaşıb qaldım. Görəsən bu adam məni bir yerdən tanıyırdımı? Bununla bərabər, mən də işi bir az zarafata salmaqdan qorxmadım. Onun adama o qədər inam və yaxınlıq hissi verən çöhrəsi vardı ki...

– Zənnimcə, məni tanıdığınızı iddia etməyəcəksiniz, doktor bəy...

– Sənin şəxsini yox, amma növünü tanıyıram, qızım, növünü! Hətta, təəssüf ki, yer üzündə çox azalmağa başlayan növünü...

– Mamontlar kimimi, əfəndim?

Beş aydan bəri zorla ürəyimdə saxladığım dəcəlliklər yenidən üzə çıxmağa başlayırdı. Aleksi bacının daim söylədiyi kimi, mənə heç üz vermək olmazdı. O saat yolumu azmağa, kiçik uşaqlar kimi ağzımda kəlmələri əzib-büzməyə, hoqqabazlıq etməyə başlardım.

Hər halda doktor çox gün görmüş, təmiz bir adamdı. Həmin qəhqəhə ilə gülüb dedi:

– O yekəpərə yöndəmsiz fil əcdadının tamamilə əksinə, xırdaca, nəşəli, sapsağlam, zərif (hətta qoca olduğum üçün, gözəl sözünü də əlavə edə bilərəm), gözəl bir nəcabətli uşaq... Söylə görüm mənə, sən hardan gəlib bura düşübsən?

Bu qəsəbədə bir əsgər doktorunun bu çiy kəlmələri, gurultulu qəhqəhələri altında incə bir rəhmdillik sezməyə başlayırdım. Nəhayət, ciddi görünməyə çalışaraq dedim:

– Mən müəlliməyəm, doktor bəy. Xidmət etmək istəyirdim, bura göndərdilər. Mən yerə baxmaram, harda desələr, orda işlərəm.

Mən bunları söyləyəndə, doktor diqqətlə üzümə baxırdı.

– Demək, sən bura xidmət üçün gəlmisən? Sırf maarifə, vətən uşaqlarına xidmət üçün, eləmi?

– Bəli, məqsədim budur.

– Bu yaşda, bu çöhrə və bu yaradılışlamı? Sən mənə düzünü söyləsənə! Bir gözlərimə bax görüm. Hə, belə! Elə bilirsən ki, mən bu yalanları udaram?

Yumru yanaqlarına batmış kimi görünən ağkirpikli gözləri ilə şirin-şirin gülümsədi, könlümün lap içini görürmüş kimi, sözünə davam edib dedi:



– Yox, bu deyil, qızım. Əsil səbəb başqadır. Hətta məişət dərdi də deyildir. Sən gizlətməyə çalışdıqca, mən daha yaxşı görürəm. Kim olduğunu, ailənizi, evinizi soruşsam söyləməzsən, deyilmi? Bax, gör necə bilirəm. Burada bir müəmma var. Çox dərinə getməyəcəyəm. Aramızda bir işarət kifayətdir.

İkimiz də susduq. Qoca doktor bir az düşündükdən sonra dedi:

– Sənə bir kiçik xidmət etməyimə icazə verirsənmi? Səni daha yaxşı bir yerə göndərsəm, razı olarsanmı? Mənim maarif işində tək-tük tanışlarım var.

– Xeyr, təşəkkür edirəm, yerimdən çox razıyam.

Yenə gülərək çiyinlərini silkələdi, istehzalı bir səslə dedi:

– Çox əla, çox əla! Amma fədakarlıqlar elə asanlıqla keçib getməz. Günün birində darıxmış olsan, mənə iki sətirlik bir şey yaz, sənə adresimi verərəm. Bu, insanlıqdır...

– Təşəkkür edirəm.

– Bu da qurtardı-getdi. İndi keçək işimizə. Sənə görəcəyin işi başa salım.

Otaqlardan birinin qapısını açdı. Sınıq-salxaq bir çarpayının üstündə vücudu və üzü əsgər plaşı ilə örtülü bir adam uzanmışdı.

Doktor səsləndi:

– Necəsən, Molla, bir az yaxşılaşdınmı?

Yaralı əli ilə plaşı qaldıraraq, dikəlməyə çalışdı:

– Tərpənmə, uzan. Ağrın-zadın varmı?

– Çox şükür, yoxdur. Ancaq almacıq sümüyüm bir az sızıldayır.

Doktor yenə güldü:

– Ah, mənim sevimli ayılarım! Diz qapağını almacıq sümüyü sanır. Mədəsini dabanında bilir, amma yerinə görə, qarşısına çıxanların da payını verir. Keçər, Molla, bir şey qalmaz. Allaha şükür et ki, güllə bir az sola getməyib. Sən bir həftəyə qədər sapsağlam ayağa qalxmaq istəyirsənmi? Yox, əgər bura sənə rahat görünübsə və bir az yatıb dincəlmək istəyirsənsə, o başqa məsələ. Elə isə, bu qızcığaz hər nə desə, etməlisən, anladınmı? Daha doktorun odur. Yaranın sarğılarını o dəyişdirəcək. Əgər ev dava-dərmanı işlətmək kimi bir qələt etdiyini duysam, vay halına!.. Vallah, təkrar gəlib, ayağını xırhaxırla kəsərəm!..

Doktor sarğıları açmağa başlamışdı. Yaranı bir qədər didişdirib xəstəni "Aman bəyim!" – deyə bağırtdırdı.

– Kəs səsini, görüm! Hayıf sənin kişiliyinə! Yekə bığlı-saqqallı hərif, barmaq boyda qızın yanında bağırmaqdan utanmırsanmı? Bu yara deyil, oyuncaqdır. Belə bir şəfqət bacısının əlinə düşəcəyimi bilsəm, mən də bir yerimi belə zərərsiz kəsdirərdim.

Qoca doktor bir saat sonra saqqallı yüzbaşı ilə bərabər kənddən çıxıb getdi.

Dünyada daha bundan sadə bir hadisə olmaz, deyilmi? Amma mən indiyə kimi bu qədər qəribə bir həyəcanla, bu qədər ürəkdən sarsıldığımı yadıma gətirə bilmirəm.

*Zeynilər, 24 fevral.*

Deyirlər ki, bu il yay tez gələcək. Bir həftədir ki, havalar açılmışdır. Hər yer günlük-günəşlikdir. Təpələrdə qar olmasaydı, adam elə bilərdi ki, may ayıdır.

Bu gün cümə idi. Günorta yeməyindən sonra otağımda Munisənin sulu boya ilə şəklini çəkməyə çalışırdım. Birdən-birə qapı döyüldü. Xədicə xanım, baş örtüsü boynuna düşmüş, əli-ayağı titrəyə-titrəyə içəri girdi. Onu heç vaxt bu qədər təşvişli və həyəcanlı görməmişdim.

– Aman, hocanım, aşağıya iki əfəndi gəldi, birisi maarif müdiridir, təftişə gəlmişdir, tez ol aşağı düş. Mən danışmağa utandım.

Tələsik çarşabımı geyə-geyə, öz-özümə gülürdüm. Öz otağında əlini-qolunu hərəkət etdirməyə ərinən o tənbəllər şahı müdir zəhmət çəkib bura gəlsin, – bu inanmalı şey deyildi!

Aşağıda dərs otağı qapısı önündə, biri çox uzun, o biri çox qısaboylu iki adamla qarşılaşdım. Mən gözlərimlə, tanıdığım maarif müdirini axtaranda, qısaboylu adam mənə sarı gəldi. Qaranlıqda çox yaxşı seçə bilmədiyim üzündə gözlük parladı:

– Müəllimə xanımsınızmı? Şərəfyab oldum. Mən maarif müdiri Rəşid Naziməm. Bu nə qaranlıq yerdir belə? Məktəb deyil, elə bil, tövlədir.

Mən sinfin qapısını açaraq dedim:

– İçəri bir az işıqdır, əfəndim.

Xırdaca vücuduna görə, ayaqlarını qəribə bir surətdə ata-ata, elə əzəmətli yerişi vardı ki...



Qapıdan içəri bir addım atdıqdan sonra durdu, nitq söyləyirmiş kimi əlini yelləyə-yelləyə dedi:

– Monşer[1], bir bura bax, nə mizer[2], nə mizer! Məktəb deməyə min şahid lazımdır! Gərək radikal[3] olasan, mənim "Ya hər şey, ya heç bir şey!" deməkdə nə qədər haqlı olduğumu görürsən də!

İndi onları daha yaxşı görürdüm. İlk baxışda bir uşaq, bir yeniyetmə dendi[4] sandığım maarif müdiri, demək olar ki, yaşı əlliyə çatmış bir kosa idi. Durmadan qaşını-gözünü oynadır, söylədiyi hər kəlmə üçün qırışıqlı üzünə ayrı bir ifadə verirdi.

O birinə gəlincə, o, çox uzun, quru, qaraşın, incə bığlı bir adamdı. O qədər uzundur ki, az qala donqarı çıxmışdı.

Maarif müdiri təkrar mənə döndü:

– Əfəndim, yoldaşımı təqdim edim: vilayət ictimai işlər şöbəsinin mühəndisi Mümtaz bəy.

Mən bir söz olsun deyə cavab verdim:

– Eləmi, əfəndim? Çox gözəl.

Maarif müdiri sinif otağının davamlılığını yoxlayırmış kimi, dabanlarını yerə vura-vura gəzişir, əl ağacını skamyalara, lövhələrə toxundururdu.

– Əzizim, böyük projelərim[5] var. Hər şeyi yıxıb yenidən quracağam. Tərtəmiz müəssisələr... İstədiyim vəsaiti buraxmasalar, vay onların halına! Çox tədarüklü gəlmişəm. İstanbul mətbuatı atəş açmağa hazır bir batareya vəziyyətindədir; mən kiçik bir işarə verən kimi, bom-bom-bom!.. – dəhşətli bir bombardman etməyə başlayacaqlar. Başa düşürsənmi, ya mənim bu başımın içindəki dünya bir həqiqət olacaq, ya da mən hər şeydən keçəcəyəm.

Bütün bu gözəl sözlərin mənim, yəni yazıq bir kənd müəlliməsinin gözlərini qamaşdırmaq üçün söyləndiyinə şübhə yoxdur. Müdir təkrar təkgözlü eynəyini taxıb dedi:

– Nə qədər şagirdiniz var?

– On üç qız, dörd oğlan uşağı, əfəndim.

[1] Monşer – əzizim (*frans.*)
[2] Mizer – yoxsulluq, dilənçilik (burada – məktəbin pis gündə olmasına işarədir)
[3] Radikal – burada kökündən dəyişmək mənasında
[4] Dendi – modabaz, şıq geyinən
[5] Proje – layihə (proyekt)

– On yeddi uşaq üçün bir məktəb! Qəribə təmtəraqdır! Sən binanı yoxlayacaqsanmı, Mümtaz?

– Mal meydandadır. Yoxlamağa ehtiyac yoxdur.

Maarif müdiri əzəmətli projesindən bəhs edəndə, mühəndisin gözaltı mənə baxdığını duyurdum. Axırda mən başa düşməyim deyə, fransız dilində çox pis danışaraq dedi:

– Aman, əzizim, bir bəhanə ilə bunun üzünü açdır. Üzünün rəngi yaşmağının altından da yanır. Bu hardan düşüb bura?

Maarif müdiri göründüyü kimi pis adam deyilmiş, yoldaşının bu sözlərindən az qala sıxıldı və fransızca ondan daha pis danışaraq cavab verdi:

– Rica edirəm, əzizim. Məktəbdəyik. Ciddi olun.

Müdir çənəsinin altındakı büzüşmüş dərini rezin kimi dartıb, nə isə düşünürdü. Birdən-birə qərarını verib, mənə tərəf döndü və dedi:

– Əfəndim, mən bu məktəbi bağlayacağam!

Mən çaşqın-çaşqın dedim:

– Nə üçün, əfəndim? Nə oldu ki?

– Əfəndim, belə sarsaq binada uşaq tərbiyə etmək olmaz. Şagird də azdır. Vilayətdə qaldığım müddətdə bütün qüvvətimi sərf edəcəyəm, kəndlərdən bir çoxunda ucuz, amma zərif, sağlamlıq şərtlərinə uyğun, müasir, yeni gözəl məktəblər açdırmağa çalışacağam. İndi mənə lütfən izahat verin.

Vizit paltarının[1] cibindən qəşəng bir dəftərçə çıxardı. Məktəbə aid bəzi məlumat istədi, qeyd etdi. Sonra dedi:

– Sizə gəlincə, əfəndim, sizi başqa münasib bir yerə təyin edərəm. Məktəbin bağlanma əmrini alanda, "B"-yə gələrsiniz, nə lazımsa edərik. Lütfən, isminiz?

– Fəridə.

– Əfəndim, Avropada gözəl bir adət vardır. Atanın adını da əlavə edirlər. Daha aydın bir ad olur: siz müəllimlər bu yenilikləri tezliklə tətbiq etməlisiniz. Məsələn, ad dəftərinə şagirdinizi: "Məlahət, atası Əlihoca" – yazmaq əvəzinə "Məlahət Əli" yazarsınız, qurtarar-gedər. Anlaşıldımı, əfəndim? Pədərinizin ismi?

– Nizaməddin.

[1] Vizit paltarı – xüsusi biçimli bayır-bacaq kostyumu



– Əfəndim, sizə Fəridə Nizaməddin deyəcəyik. Bu, bəlkə sizə birdən-birə qəribə görünər, amma öyrəşərsiniz. Hansı məktəbi qurtarıbsınız?

Mən məktəbi söyləməyə çəkindim. Çünki fransızca bildiyim aşkar olarsa, mühəndis bir az əvvəl söylədiyi sözlər üçün bəlkə utanardı. Ona görə eləcə dedim: "Xüsusi təhsil almışam, əfəndim".

– Dediyim kimi "B"yə gəldiyiniz vaxt məni ziyarət edərsiniz. Sizə münasib bir yer axtararıq. Haydı, Mümtaz, planımızda hələ iki kənd də var.

Şagird skamyalarından birində oturub, uzun, nazik ayaqlarını yelləyən mühəndis yenə o "gözəl" fransızcası ilə çərənlədi:

– Bu fövqəladə bir tikədir. Məni burada qoy, sən get. Bir çarə tapıb üzünü açdırmalıyam.

Maarif müdiri yenidən təşvişə düşdü, mənə bir şey bildirməmək üçün, türkcə:

– Vaxtımız var. İzahatınızı sonra yazarsınız. Haydı, buyurun, – deyib tərpəndi.

Mühəndis küçə qapısının önündə durub binanın damını, pəncərələrini yoxlayırmış kimi baxır, mənim çıxmağımı gözləyirdi. Mən inadla arxamı ona çevirdim və özümü bir şeylə məşğul kimi göstərdim. O, bağçadan keçəndə bir-iki dəfə də başını çevirdi, küçə qapısından çıxdıqdan sonra, taxta barının kənarı ilə gedir, hərdən ayaqlarının ucunda qalxıb içəri boylanırdı.

Əhvalat tezliklə kəndin içinə yayılmışdı. Cümə olmasına baxmayaraq, uşaqlar, onların anaları məktəbə axışırdılar; məktəblərinin bağlanmasından çox kədərlənmiş olduqları görünürdü. Məktəbə və özümə qarşı yad və hissiz güman etdiyim uşaqların ağlayaraq, əlimi öpmələri mənə çox təsir etdi.

Xədicə xanım başına yekə bir örpək dolayıb öz otağına çəkildi. Mən də çətin vəziyyətə düşürdüm, amma düzünü söyləmək lazım gələrsə, bu işdə əsil evi yıxılan biçarə Xədicə oldu.

Axşamüstü Muxtarın arvadı ilə mamaça xanım təkrar məktəbə gəldilər. İkisi də qəmgin idi. Hələ mamaça xanım mənə mənalı-mənalı baxıb içini çəkə-çəkə deyirdi:

– Mənim başqa niyyətim də vardı, amma cənab haqq yardım etmədi.

Bu heyifsilənməyə mənim də qondarma bir təəssüflə cavab verməyim lazım idi. Gözlərimi endirərək dedim:

– Neyləyək, mamaça xanım, qismət deyilmiş...

Müxtəsər, bu təkgözlü eynək taxan xırda-mırda əfəndi, bir sözlə, Zeyniləri alt-üst elədi. Kəndlilərin matı-qutu qurumuşdu.

Yer üzündə Zeynilərdən daha pis bir kəndə düşmək mümkün olmadığını bildiyim halda, bu qəmginlik mənə də sirayət edirdi. Yalnız Munisə belə deyildi. O dəcəl qız sevincindən uçur: "Nə vaxt gedəcəyik, abacığım? İki günə qədər gedərikmi?" deyib quş kimi çırpınırdı.

*Zeynilər, 3 mart.*

Sabah yola düşürük.

Munisə ilk günlərdə çox sevinirdi. Amma dünəndən bəri onda qəribə bir qəmginlik hiss olunmağa başladı. Hərdən gözlərini uzaqlara dikib düşünür, soruşduğum suallara fikirli-fikirli cavab verirdi.

– Munisə, mənimlə getmək istəmirsənsə, səni burda qoyum, – dedim.

O saat cavab verdi:

– Allah eləməsin, abacığım, özümü quyuya ataram!

– Bacı-qardaşlarından ayrılacağına görə dərd çəkirsənmi?

– Dərd çəkmirəm, abacığım.

– Onda, yəqin ki, atan üçün darıxacaqsan!

– Atama ürəyim yanır, amma o qədər sevmirəm, abacığım.

– Yaxşı, bəs elə isə dərdin nədir?

– ...

Munisə gözlərini endirib susur, daha təkid etdikdə, yalandan gülməyə, boynuma sarılmağa başlayırdı. Ancaq mən bu yalançı nəşəyə inanmırdım. Munisənin əsil sevincini mən bilmirəmmi?

Bununla bərabər bu saf uşaq gözlərində həmişə bir azca qəmginlik olduğunu görmüşdüm. Onu nə qədər danışdırmağa çalışmışdımsa da, bütün əməyim boşa getmişdi.

Bu gün bir təsadüf mənə uşaq qəlbinin gizlin dərdini açdı. Axşama yaxın bir ara Munisə yox olmuşdu. Halbuki, elə bu vaxt ona ehtiyacım olduğunu bilirdi. Yol hazırlığı üçün o, mənə yardım etməli idi. Bir neçə dəfə çağırdım. Cavab gəlmədi. Yəqin ki, bağçada idi. Pəncərəni açdım, "Munisə, Munisə!" – deyə səslədim.



İncə səslə uzaqdan, Zeyni babanın türbəsi yanından "Əfəndim, indi gəlirəm!" – deyə cavab verdi.

Yanıma gəldiyi vaxt oralarda tək-tənha nə gəzdiyini soruşdum. O, cavab verəndə özünü itirir, mənasız bəhanələr göstərib məni aldatmağa çalışırdı.

Diqqətlə üzünə baxdım. Gözləri qıpqırmızı idi. Bir azca solmuş yanaqlarında yeni qurumuş göz yaşının izləri vardı. Birdən-birə təşvişə düşdüm. Orada nə etdiyini, nə üçün ağladığını söyləməsi üçün onu sıxışdırmağa başladım. Biləkləri əllərimin içində, üzünü gizlətmək üçün boynunu çevirir, dodaqları yavaşca titrəyir, susurdu.

Mən onu mütləq danışdırmağı qət etmişdim. Əgər həqiqəti məndən gizlətsə, onu burada qoyub gedəcəyimi söylədim. Onda daha dayana bilmədi. Böyük bir günahı boynuna alırmış kimi, başını aşağı salıb utana-utana dedi:

– Anam məni görməyə gəlmişdi. Gedəcəyimi eşidib, ona görə... Mənə acığın tutmasın, abacığım.

Bu böyük günahı söyləyəndə, qızcığazın vücudu titrəyir, gözləri yaşla dolurdu.

Anladım, balacan, o xırdaca könlünün dərdini sənin ümid etdiyindən çox-çox yaxşı anladım!..

Onun üzünə düşmüş saçlarını düzəldib, yavaş-yavaş çənəsini oxşayaraq mülayim, yumşaq bir səslə dedim:

– Burada qorxmalı, ağlamalı nə var ki? Anan deyilmi? Əlbəttə, görüşəcəksən!..

Biçarə qız hələ inanmır, qorxa-qorxa gözlərimə baxır, hər kəsin nifrətlə, lənətlə yad etdiyi bu qadını sevmədiyinə məni inandırmaq üçün, uşaqcasına səbəblər axtarırdı. Amma onu elə sevirdi, elə yana-yana sevirdi ki...

– Mənim balam, əgər ananı sevmirsənsə, mən sənin üçün bunu çox ayıb sanaram, – dedim. – Adam da öz anasını sevməzmi? Di, tez ol yüyür, onu qaytar! Ona de ki, abam mütləq səni görmək istəyir! Mən türbənin yanına gəlirəm.

Munisə dizlərimə sarılıb ətəklərimi öpdü, sonra yüyürə-yüyürə bağçaya getdi. Bilirdim ki, mənim etdiyim bu iş böyük ehtiyatsızlıqdır. Əgər bu qadınla görüşdüyümü duysaydılar, mənim barəmdə pis sözlər danışacaqdılar, bəlkə də burada adamı lənətlə yad edəcəkdilər. Amma qoy olsun!..

Türbənin altında, ağac yığını içində onları bir xeyli gözlədim. Yazıq xeyli uzaqlaşıbmış. Munisə onu yolundan qaytarmaq üçün qamışlığın o biri tərəfinə qədər yüyürməli olubmuş.

Nəhayət, göründülər. Onların yan-yana gəlişləri elə qəmli, elə təsirli bir şeydi ki... Bir-birindən çəkinir, utanır kimi ayrı-ayrı gəlirdilər, palçığa batırlarmış kimi qəsdən ləngiyirdilər. Bu qadına məhəbbətlə, şəfqətlə dolu sözlər söyləməyə hazırlaşmışdım. Amma nədənsə, qarşı-qarşıya gələndə bir-birimizə söyləməyə söz tapa bilmədik.

O, uzunboylu, zərif bir qadın idi. Üstündə yamaqlı, köhnə çarşab, üzündə yaşmaq yerinə göy bir yəməni, ayağında dabanları qopmuş, cındır, yırtıq tuflilər vardı. Kimdənsə qorxurmuş kimi titrədiyini hiss edirdim. Mən mümkün qədər sakit, həyəcansız görünməyə çalışaraq dedim:

– Üzünüzü açın!

Azacıq bir tərəddüddən sonra yaşmağını qaldırdı. Çox cavan olduğu bəlli idi. Vur-tut otuz-otuz beş yaşlarında olardı. Amma sarışın çöhrəsi elə yorğun, elə tabsız idi ki...

Belə qadınları mən çox boyalı güman edərdim; halbuki üzündə boyadan əsər yoxdu. Ürəyimə ən toxunan şey, onu Munisəyə çox bənzəməsi idi. Birdən-birə mənə elə gəldi ki, Munisə böyümüş, bu yaşa gəlmiş, sonra, sonra...

Qeyri-ixtiyari bir hərəkətlə uşağın çiyinlərindən tutub, özümə sarı çəkdim. Köksüm dərin nəfəslərlə şişir, gözlərim dolurdu. Öhdəmə aldığım vəzifə böyük, çox böyük idi.

Ancaq mən bu vəzifəni yerinə yetirəcək, Munisəni gözəl əxlaqlı bir qadın olaraq yetişdirəcəyəm. Ömrümün ən böyük təsəllisi bu olacaqdır. Zehnimdən keçən şeyləri o da mənimlə bərabər düşünürmüş kimi dedim:

– Xanım, görürəm ki, tale sizə bu balaca qızı öz əlinizlə böyütmək bəxtiyarlığını qismət etməmişdir. Nə edək, dünyanın işi belədir! Bunu sizə söyləmək istəyirəm ki, könlünüz rahat olsun. Mən onu bağrıma basdım. Öz qızım kimi böyüdəcəyəm. Heç bir şeydən məhrum etməyəcəyəm.

Munisənin anası ilk dəfə söz söyləməyə cəsarət edib dedi:

– Bilirəm, kiçik xanım. Munisə mənə söyləyirdi. Arabir yolum düşdükcə, onu görməyə gəlirdim. Allah sizdən razı olsun!



– Deməк, Munisəni görürdünüz?

Kiçik qollarını belimə dolayan Munisənin təkrar titrəməyə başladığını hiss etdim. Yeni bir təqsiri aşkara çıxmışdı. Demək, gizlin-gizlin anasını görürmüş. Həm də işin maraqlı cəhəti budur ki, bu görüşmələri məndən gizlətdiyini anasına söyləməyə nədənsə utanırmış.

– Əgər burada qalmış olsaydıq, uşağı həmişə sizinlə görüşdürərdim, – dedim. – Halbuki, mən sabah "B"-yə yola düşürəm. Oradan hara gedəcəyim bəlli deyil. Ürəyiniz rahat olsun, xanım. Ona ana olacağımı deyə bilmərəm. Çünki ananın yerini heç bir şey verməz. Ancaq yaxşı bir abla olmağa çalışacağam.

Aşağıdakı qamışlıqda bir adamın gəzişdiyini gördük. Bu, mənim şagirdim Cəfər ağanın atası idi. Tez-tez bataqlıqda ördək ovlamağa gələrdi.

Munisənin anası birdən-birə təşvişə düşdü:

– Mən gedim, xanım, – dedi. – Məni sizin yanınızda görməsinlər.

Bu söz yazıq qadında incə bir ruh olduğunu göstərirdi. Əslinə baxsan, elə halından, tövründən, üzündəki mənalardan da başa düşmüşdüm. İlk təxminim doğru idi. Munisə çöhrəsi kimi, ruhunun incəliyini və nəcibliyini də bu talesiz anasından almışdı. Yazıq qadının məni dedi-qodudan qorumaq üçün göstərdiyi təşviş, demək olar ki, qüruruma toxundu. Onda yaxşı bir hiss buraxmamış ayrılmaq istəmirdim. Dedi-qodulara əhəmiyyət vermədiyimi göstərmək üçün dedim:

– Nə üçün tələsirsiniz? Bir az da qalın!

Yazıq qadın dərin bir minnətlə əllərimə baxır, onları öpmək üçün dodaqları titrəyirdi. Amma mənə toxunmağa cəsarət etmədiyi bəlli idi.

Son fırtınanın yıxdığı cılız bir qovaq ağacının gövdəsinə oturduq, Munisəni aramıza aldıq. İndi söyləmək növbəti qızın anasına çatmışdı. Yazıq qadın həyatını mənə danışsa, bir az yüngülləşəcəyini hiss edirmiş kimi, hərarətlə söyləyirdi və hər şeyi düzgün danışırdı...

Bu qadının sadə, amma kədərli bir sərgüzəşti vardı. İstanbulda Rumeli qavağında doğulmuşdu. Kiçik bir məmur olan atası öldükdən sonra anası da vəfat etmişdir. Onu Bakırköydə nəcib bir ailəyə övlad veriblərmiş. Evin uşaqları ilə bərabər böyüyüb, demək olar ki, kiçik xanım rəftarı götürübmüş. On beş-on altı yaşına çatanda, ona çox yaxşı qismətlər çıxmağa başlayıbmış. Amma o, heç kəsə getmək istəmir, hamısına bir bəhanə tapırmış. Çünki evin kiçik oğlunu

sevirmiş. Oğlan o vaxt hərbiyyə məktəbinə gedən, bığ yeri yenicə tərləmiş bir gənc imiş. Hərçənd bir ümidi yoxmuş, hər necə olsa, övladlığa götürüldüyünü bilirdi, ancaq həftə başlarında oğlanın üzünü görməyi, səsini eşitməyi hələlik bir qənimət sayırmış.

Elə bu vaxtlarda evin böyüyü olan əfəndini "B"-yə dəftərdar[1] təyin etmişdilər və ailə yalnız hərbiyyə məktəbində oxuyan oğlanı İstanbulda qoyub, bura köçübmüş.

"B"-də gənc məktəblini görmədən keçən dörd ay, qızı dördillik bir ayrılıq kimi dəli edibmiş və nəhayət, yay tətilini keçirmək üçün bəy öz ailəsinin yanına gələndə...

Çox keçmədən, işin üstü açılıbmış. Bəy əfəndi, xanım əfəndi, kiçik xanımlar hamısı birdən qızın üstünə düşübmüşlər və onu daha evdə saxlamaq istəməyib bura yaxın kəndlərdən birinə, bir qoca qadının yanına göndəriblər. Munisənin dörd yaşında difteritdən ölən ablası orada dünyaya gəlibmiş. Bu vəziyyətdə, yanında uşağı olan bir qızı qəbul etməyə kim razı olardı? Nəhayət o, ağlaya-ağlaya qoca bir meşə məmuruna ərə getməyə razı olubmuş. İlk zamanlar bir şey söyləməyib taleyi ilə razı olubmuş. Amma əri bu Zeynilər kəndində yerləşdikdən sonra, qadın dözülməz bir halda darıxmağa başlayıbmış. Qaranlıq otaqda taqətdən düşür, gündən-günə saralıb-solurmuş.

Yazıq qadın bunları danışanda, hələ də özünü o ağır qaranlığın içində görürmüş kimi, gözlərinə, vücuduna yorğunluq çökürdü.

Elə bu vaxtlarda quldurları təqib etmək üçün kəndə bir jandarm dəstəsi gəlibmiş. İki-üç həftə qamışlığın o tərəfində çadır qurub qalan bu əsgərlərin gənc zabiti qadını təqibə başlayıbmış. Qadını şeytan aldadıb, o, ərini, uşağını atıb zabitlə bərabər qaçıbmış...

Bu sadə hekayə, nədənsə, mənə çox təsir etdi. Axşam yaxınlaşırdı. Munisəni anası ilə birlikdə qoyub, məktəbə sarı getdim. Bəlkə bir daha bir-birini görə bilməyəcək olan bu iki adamın, bu ayrılıq dəqiqəsində bir-birinə söyləməli sözləri vardı. Yaxud da mənim gözümün önündə istədikləri kimi qucaqlaşıb ayrıla bilməzdilər, ürəklərində bir hicran yarası qalardı.

Mən məzar daşları üzərindən atıla-atıla məktəbə qayıdanda dərin-dərin düşünürdüm: Munisə, mən səni kimsəsiz, yapyalqız olduğun

[1] Dəftərdar – vilayət idarəsinin maliyyə hissəsi müdiri



üçün sevmişdim, sənə həmişə ürəyim yanmışdı. Bununla bərabər, bu dəqiqədə səni qısqanıram. Səni səfil, düşkün bir qadına, amma hər halda, ana olan qadına qısqanıram! Sən doğulduğun, böyüdüyün yerlərdən ayrılanda, gözlərində ana baxışının xatirəsini, dodaqlarında ananın göz yaşlarının acı ləzzətini özünlə bərabər aparacaqdın...

*B..., 10 mart.*

Bu səhər Zeynilər kəndindən gətirdiyim sənədləri çantama doldurub maarif müdirliyinə getdim. Munisəni yatmış qoymuşdum. Hələ tez idi. İdarə yeni açılırdı, tək-tük gələn məmurlar xumarlana-xumarlana qəhvə içir, qəlyan çəkirdilər.

Qırmızı qurşaqlı baş katibin yerində indi qıvırcıq qarasaqqallı bir əfəndi otururdu. Xidmətçilərin birindən soruşdum. Maarif müdiri ilə bərabər baş katibin də dəyişdiyini, iş üçün bu saqqallı əfəndi ilə danışmaq lazım gəldiyini söylədi.

Yaxınlaşıb salam verdim, maarif müdiri bəyin əmri ilə bağlanmış Zeynilər məktəbinin müəllimi olduğumu, məktəbin sənədlərini təhvil verməyə gəldiyimi söylədim.

Baş katib bir az düşünüb dedi:

– Hə, bəli, çox əla. Bir azca bayırda gözləyin, qoy müdir bəy gəlsin.

İdarənin alaqaranlıq yastı dəhlizində düz üç saat müdiri gözləmək lazım gəldi. Belə yerlərdə gəlib-keçənlər adama dimdik baxır, hətta söz atanlar da olur.

Pəncərələrdən birinin kənarına sınıq nərdivan dayamışdılar. Pillələrdən birinə söykənib gözləməyə başladım.

Pəncərə xaraba bir mədrəsə həyətinə baxırdı. Qolları çırmanmış bir softa[1], çeşmənin kənarında göyərti arıdırdı. Budaqları, yanındakı pəncərənin içinə qədər uzanan yekə bir çinar ağacında sərçələr oynaşırdı.

Dirsəklərimi dizlərimə dayayıb, çənəmi əllərimin içinə aldım və düşünməyə başladım.

Dünən səhər bu vaxt hələ Zeynilərdə idim. İrili-xırdalı bütün şagirdlərim qayalığın üstündəki araba yoluna qədər məni yola salmağa gəlmişdilər. Mənim nə arsız könlüm var, ətrafımdakı insanları

[1] Softa – dini məktəb tələbəsi

nə tez sevirəm! Xalamın əri Əziz əminin qəribə bir sözü vardı. Hərdən mənim əllərimdən tutub deyərdi:

– Ah, mənim yapışqan qızım, əvvəlcə adamdan qaçırsan, sonra şam saqqızı kimi elə bərk yapışırsan ki!..

Yazıq kişinin haqqı varmış. Bu uşaqların hamısına ürəyim yanırdı. Gözəllərinə gözəl, çirkinlərinə çirkin, səfillərinə səfil olduqlarına görə... Beləliklə, hər ayrıldığım yerdə qəlbimin bir parçasını qoyub getsəm, bunun axırı nə olacaq!..

Yazıqlar bir-bir əlimi öpdülər. Çoban Məhməd Zəhra ilə mənə yenicə doğulmuş bir keçi balası göndərmişdi. Yazığın hədiyyəsi mənə elə bərk təsir etdi ki... Hələ gözləri açılmamış olan bu keçi balasını Munisənin qucağına verdim. Çeçen arabasının yanıq səsli zınqırovları boş səhra içində titrəməyə başladı. Yavaş-yavaş Zeynilərdən uzaqlaşdıq. Qapqara daşların içində gözdən itənə qədər, Munisə ilə mən uşaqlara yaylıq yellədik.

Arabanın mehmanxana qapısında durması, Hacı qalfanın yenə maraqlı bir vəziyyətinə təsadüf etmişdi. Bu qoca, ağzında qaraciyər qapıdan çıxıb qaçan yekə bir pişiyi qovlayırdı. Əlindəki qəlyan marpucunu[1] qamçı kimi yelləyə-yelləyə: "Dur, gavurun pişiyi, dərini üzərəm!" – deyə çığıra-çığıra yanımdan keçəndə, mən: "Hacı qalfa!" – deyə səsləndim.

Kişi səsin haradan gəldiyini birdən-birə başa düşməyib durdu, arabanın içində məni görən kimi, qollarını qaldırıb küçənin ortasında var səsi ilə çığırmağa başladı: "Vah, iki gözüm, hocanım!.."

Yazıq kişinin sevinci görülməli bir şey idi. Ağzında ciyər qarşıdakı viranənin divarına dırmaşmağa çalışan pişiyə sarı dönüb:

– Apar arxayın-arxayın tıxışdır, heç qorxma, halal xoşun olsun! – deyə bağırdıqdan sonra yanıma gəldi.

Hacı qalfa o qədər şad idi ki, qucağında keçisi ilə dalımca gələn Munisəni ancaq mehmanxananın ikinci mərtəbəsində gördü:

– Vay, hocanım, bu kimdir, bu hardan çıxdı? – deyə soruşdu.

– Mənim qızımdır, Hacı qalfa, – dedim. – Sənin xəbərin yoxdur, mən Zeynilərdə ərə getdim, indi bir qızım da var!

Hacı qalfa Munisənin çənəsini oxşayıb dedi:

– Söyləyənə baxma, söylədənə bax! O da olar inşallah! Qız da nə qız, dediyinə dəyər ha! Lap top kimidir!

---

[1] Marpuc – qəlyanın uzun dəri borusu



Gözəl təsadüfdən mənim mehmanxanadakı maviquşlu otağım yenə boş idi. Buna çox sevindim. Axşam Hacı qalfa məni evinə yeməyə apardı. Yorğunluğumu bəhanə edib getmək istəmədim. Qoca mənə az qala əmr edib dedi:

– Hələ bir buna bax! Sən altı ay piyada yol getsən, heç bənizin də solmaz, vallah düz deyirəm!..

Bunların hamısı gözəl, hamısı əla... Amma məni düşündürən başqa bir məsələ var. Dünən axşam yatmamış hesablamağa başladım, o qədər qəribə bir nəticə çıxdı ki, məəttəl qaldım. Bir dəfə də həmin hesabı barmaqlarımla təkrar etdim. Təəssüf ki, düz idi. Bu nəticə çox acı idi, lakin bununla belə gülməkdən özümü saxlaya bilmədim. Mən güman edirdim ki, indiyə qədər öz səyim, öz çalışmağımın sayəsində keçinirəm. Halbuki, əlimdə olan bir qədər pulu xərcləməkdən başqa bir şey etməmişdim.

Yazıq Gülmisal qalfam mənə demişdi ki, yanında əməlli-başlı pul olmadan yad yerlərə getməyin düz deyil. Anamın almazlarından birini satıb pulunu ayrı bir kisədə mənə vermişdi.

İndiyə qədər bir çox xərclərim olmuşdu. Bir müddət işsiz qaldım. Sonra yol xərci də xeyli tutmuşdu. Bunlardan əlavə, fağır bir kənd müəlliməsindən başqa bir şey olmadığımı da düşünməyib ətrafımda səfil, ac bir insan görəndə az-maz kömək etməyi özümə vəzifə bilmişdim. Amma insanlar insafsız məxluqlardır. Üzümün yumşaqlığından cürətlənib, ətrafımda açılan əllər, hələ son zamanlarda o qədər çoxalmışdı ki...

Nə qədər olduğunu hələ bu gün də çox yaxşı bilmədiyim bir neçə quruşdan ibarət aylıq maaşım, əlbəttə, bütün bu xərcləri ödəyə bilməzdi. Daha pisi budur ki, aylıq maaşımdan ikisini hələ də almağa müvəffəq olmamışam.

Budur, bu fövqəladə ehtiyaclar qarşısında hər dəfə bərkə düşəndə, bu kisəyə əl atmışdım. Amma indi bu yazıq kisə də elə yüngülləşmişdir ki, içindəkiləri saymağa cəsarət edə bilmirdim. Demək, beş ayın bütün macərasına, bütün yorğunluqlarına baxmayaraq, məni yaşadan yenə ailəmin yardımı olmuşdu.

Mən pəncərədən içəri girən çinar yarpaqları ilə oynayaraq bunu düşünəndə, həm gülməyim gəlirdi, həm də ağlamağım. Bununla bərabər, yenə bir təsəlli icad etdim:

– Sıxılma Çalıquşu, heç bir şey qazanmadınsa, əvəzində keçinmək, yaşamaq, dözmək nə olduğunu öyrəndin. Bu az qazancdırmı? Bundan sonra daha uşaqlığı buraxıb, ağıllı bir qadın olarsan! – dedim.

Mən belə düşünərkən alaqaranlıq dəhlizə birdən-birə hay-küy düşdü. Qoca xidmətçi bir əlində palto, o biri əlində əl ağacı ilə maarif müdirinin otağına sarı yüyürürdü.

Bir neçə dəqiqədən sonra balacaboylu müdirin əzəmətlə boynunu dik tutub, tək gözlü eynəyini parıldada-parıldada pilləkəndən çıxdığını gördüm. Mən onun ardınca otağa girmək istədim. Bir az əvvəl müdirin paltosu ilə əl ağacını aparan saqqallı xidmətçi qabağımı kəsdi:

– Ay xanım, bir dayan görək, bəy əfəndi bir nəfəsini alsın da!.. Nə tələsirsən? Ananın qarnında doqquz ayı necə gözləyibsən? – deyə mənə acıqlandı.

Belə rəftara yavaş-yavaş öyrəşmişdim. Onun üçün bunu dərd eləmədim. Hətta, əksinə, yumşaq bir səslə xidmətçidən xahiş etdim:

– Əzizim, atacan, bəy əfəndi qəhvəsini içəndən sonra ona xəbər ver, de ki, gözlədiyiniz müəllimə gəlmişdir.

Maarif müdiri məni gözləmirdi. Ancaq belə söyləsəm, bilirdim ki, xidmətçini daha artıq qeyrətə gətirəcəyəm. Nə edəsən, bu hiylələri də öyrənmək lazımdır!

Qoca xidmətçi üç-dörd dəqiqədən sonra təkrar otaqdan çıxdı. Qara çarşabda məni birdən-birə görə bilməyib deyinməyə başladı:

– Hanı o qadın? Ay Allah, həm adamın iki ayağını bir başmağa soxar, həm də qaçıb gedər.

– Acıqlanma, ata, mən burdayam. İçəri girimmi?

– Haydı, gir görək, sənin də könlün açılsın.

Müdir başıaçıq, dodağının ucunda yekə bir siqar olduğu halda öz yerində oturmuşdu, o, küncdəki kresloya gömülmüş yaşlı bir adama öz kiçik vücudundan umulmayan gur və cürətli bir səslə nə isə söyləyirdi:

– Əfəndim, bura necə ölkədir, necə ölkədir! Dünyanın israfını edərlər, amma özlərinə bir kart-vizit[1] çap etdirməzlər. Səksən adam sizi görmək istədiyi barədə qapıdan xidmətçi ilə xəbər göndərərlər. Xidmətçi onların adlarını da doğru-dürüst söyləməz, bir qarmaqarışıqlıqdır, baş alıb gedər. Mən ölkəni idarə etmək işində dəli Petro[2] sistemə tərəfdaram. Məmurları yalnız rəsmi həyatlarında deyil, xüsusi həyatlarında da gözdən qoymamaq lazımdır. Yedikləri, içdikləri şeyə, oturduqları, gəzdikləri yerə, paltarlarına, hər şeyə baş qoşmaq lazımdır. Mən bura gələn kimi, məktəblərə bir əmmamə göndərdim. Ən geci iki gündə bir dəfə üzünü qırxdırmayan, ütüsüz şalvar, yaxasız köynək geyən müəllimlərin işdən çıxarılacaqlarını bildirdim. Dünən məktəblərdən birini təftişə gedirdim. Qapının önündə bir müəllimə rast gəldim. Özümü tanımamazlığa qoyub dedim: "Get müəllimə xəbər ver, de ki, maarif müdiri gəlmişdir".

– Əfəndim, müəllim bəndənizəm, – deyə cavab verdi.

– Xeyr, sən yəqin ki, xidmətçisən. Çünki bu üst-başda müəllim ola bilməz, mən bu cür geyinmiş bir müəllimə təsadüf etsəm, o saat qolundan tutub küçəyə ataram!

Hərif daş kimi donub qaldı. Mən arxama baxmadan içəri girdim. Həmin məktəbə sabah yenə gedəcəyəm. Bu adamı həmin vəziyyətdə görsəm, o saat işdən çıxaracağam.

Mən danışmaq üçün müdirin susmasını gözləyirdim, amma deyəsən onun susmaq fikri yox idi, getdikcə daha artıq coşur, basıbkəsməkdə davam edirdi:

– Bəli, əfəndim, bu yaxınlarda məktəblərə bir əmmamə göndərmişəm: "Müəllimə və müəllimlər mütləq bir kart-vizit çap etdirməlidirlər. Kart-vizitsiz idarəyə müraciət edənlər qəbul olunmayacaqlar" Amma kimə deyirsən!

Müdir birdən-birə sərt bir tövrlə mənə sarı döndü:

– Mərc edirəm ki, müəllimə xanım da həmin əmrnaməni almışdır. Amma buna baxmayaraq, yenə kartsız müraciət edir. Yenə xidmətçinin ağzında bu tərانə var: "Siz bir xanım çağırıbmışsınız, o, gəlmişdir". Kimdir? Hansı xanım? Sarı çəkməli Məhməd ağa...

Mən heyrətdən donub qaldım. Demək, bütün bu sözlər, bu hiddət mənə qarşı imiş. Bunlar mənim kartsız içəri girmək istədiyim üçünmüş!

– Mən sizdən əmr almamışam, əfəndim, – deyə bildirdim.

– Necə ola bilər? Siz harda müəlliməsiniz?

– Keçən həftə gəlmişdiniz, Zeynilər kəndinin müəllimləsi. Bağlanmasını əmr etdiyiniz məktəb...

Maarif müdiri qaşlarının birini qaldırıb düşündü:

– Hə, bəli, yadıma düşdü, neylədiniz, işləri qurtardınızmı?

[1] Kart-vizit – vizit vərəqəsi; ad, familiya, ünvan göstərilən vərəqə

[2] Dəli Petro – türklər rus çarı I Pyotru belə adlandırırlar.

– Əmr etdiyiniz kimi oldu, əfəndim. Söylədiyiniz sənədləri də gətirdim.

– Çox yaxşı, baş katibə təhvil verin, yoxlasın.

Yaxası kirli baş katib məni düz iki saat istintaq etdi. Sənədləri təkrar-təkrar gözdən keçirir: "Mütəfərriqə sənədləri", "Evraqimüsbitə", "Lüzum müzəkkərəsi", "Bəyannamə surəti"-filan deyə, bir çox anlaya bilmədiyim şeylər soruşur, kənddə ağsaqqallar heyətindən gətirdiyim protokollara etiraz edirdi.

Mən hərdənbir çaşdıqda, onun dodaq büzüb: "Sözdə bunlar da müəllimdir!" – deyə bir təhqir etməsi də vardı ki... Yanlış pozulmuş bir sənəd markası üçün məni az qala ağlatmışdı.

Sonra bir məsələ də çıxardı. Bilmirəm neçə il bundan əvvəl bir müəlliməyə damın təmiri üçün iki yüz əlli quruş veriblərmiş, onun sənədi yoxmuş. "Niyə bu pulun haqq-hesabı çəkilməmişdir. Sənəd hardadır? Tapa bilməsən, məhkəməyə gedərsən!" – deyə hey təpinirdi.

Mən dedim:

– Bəy əfəndi, bu işdən əl çəkin, mənim oraya getdiyim heç yarım il də olmamışdır...

Məni ağlamaq tutmuşdu, amma onu heç cür başa sala bilmirdim.

Nəhayət baş katib:

– İllallah, əfəndim, illallah, əfəndim. Mən belə rəzaləti qəbul edə bilmərəm, əfəndim. Mənim dəli olmağa vaxtım yoxdur, əfəndim, – deyə deyinə-deyinə kağızları götürdü, maarif müdirinin yanına getdi.

Mən olduğum otaqda iki katib də vardı. Biri sarıqlı idi, o birinin bığ yeri yenicə tərləmişdi. Bunlar stolların başında öz işləri ilə məşğul kimi görünürdülər, bizimlə heç maraqlanmırdılar.

Baş katib hiddətlə otaqdan çıxan kimi, bu iki əfəndi birdən-birə yerlərindən sıçrayıb qulaqlarını müdirin otağına bitişik olan qapıya dirədilər, dinləməyə başladılar. Amma katiblərin bu zəhməti nahaq idi. İki dəqiqə sonra müdir elə bağırmağa başladı ki, səsi yalnız bizim otaqda deyil, bəlkə küçədən də eşidilirdi.

Sarıqlı katib sevindiyindən gənc katibin kürəyinə vura-vura deyirdi:

– Allah səndən razı olsun, müdir bəy, o binamusu bir qalayla! Dinsizin öhdəsindən imansız gələr...



Maarif müdiri baş katibə belə söyləyirdi:

– Bezdim, əfəndim, səndən, bezdim səndən. Bu nə şəkilpərəstlikdir, bu nə kiflənmiş süründürücü kəlləsidir! Qadının haqqı var, haqqı var qadının! Sənə bir neçə illik sənəd yaratmalı deyil ki! Ağlın çatmırsa, get, çıx get! İstədiyin yerə qədər yolun açıqdır! Əslində, sən getməsən də, mən səni bayıra atacağam. Bəli, bəli, bu saat istefanı yaz! Yazmasan, adam deyilsən!

Bu mənim ürəyimi lap çıxdı. Katiblərə dedim:

– Aman, əfəndilər, mən deyəsən özüm də istəmədən bir fəlakətə səbəb oluram. Gedim, o hiddətlənmiş halda məni görməsin. Birdən ağır bir söz deyər...

Sarıqlı katib sevindiyindən sanki oynamaq istəyirdi:

– Yox, həmşirə xanım, yox, – dedi. – Heç vecinə də alma! O binamusa lap yerindədir. Əgər tez-tez özündən daha ədəbsizi çıxıb ağzının payını verməsə, rahat olmaz; itin dişi, donuzun dərisi!.. Allah səndən razı olsun, bu turşulu aşdan sonra o bir neçə gün yumşalar, özünün də kəlləsi dincələr, bizim də.

Səs kəsilmişdi. Katiblər o saat öz stollarına sarı yüyürdülər. Hafiz əfəndi öz-özünə belə bir şey mırıldanırdı:

– Bu məsəldir: dinsizin öhdəsindən imansız gələr!..

Baş katib, ayaqları ilə bərabər saqqalı da titrəyə-titrəyə içəri girdi. Başını döndərmədən, yan-yörəsinə baxan qızlar kimi, gözünün ucu ilə katibləri süzdü. Onlar elə sakit və asudə işləyirdilər ki, baş katib arxayın oldu, yavaş-yavaş, söylənə-söylənə yerinə oturdu.

Katib özünə gələ bilmirdi. Bir neçə dəfə uflayıb-pufladıqdan sonra, yavaşdan söylənməyə başladı:

– Əlli yaşına gəlib, bu qədər məmuriyyətlərdə olub... Bu binamusun idarə işlərindən bizim baş xidmətçi qədər başı çıxmır. Özü sabah cəhənnəm olub gedər, çanaq bizim başımızda sınar. Elədir də, bir gün bir müfəttiş başımızın üstünü alsa, idarə işlərini gözdən keçirsə, desə ki, "Ay həriflər, sizin başınız eşşək başıdırmı? Bu iki yüz əlli quruşun haqq-hesabı nə üçün edilməmişdir, sizin bu üsulsuzluğu gözünüz niyə görmədi?" Hərif hamımızı məhkəməyə çəksə, yeridir! Dövlət xəzinəsi hüququ ilə oynamaq olarmı? Vallah, biz gəbərib getmiş olsaq da, yüz il bundan sonra balalarımızdan və nəvələrimizdən bu pulu alacaqlar.

Katiblər başlarını dəftərlərdən qaldırıb hörmətli bir diqqətlə bu dərin mənalı sözləri dinləyirdilər.

Baş katib havanı yaxşı görüb soruşdu:

– O əzvayın hərzələrini eşitdinizmi?

Hafiz heyrətlə başını qaldırdı:

– Xeyir ola, bir səs eşitdik, amma sizə aiddimi?

– Qismən mənə... Çərənçinin biri!..

– Heç təəssüf buyurmayın, onlar idarə əməliyyatına vaqif deyildirlər. Zati-aliniz olmasa, üç gündə bu idarə alt-üst olar!

Bu sözləri Hafiz söyləyirdi. Bir az əvvəl baş katibin təhqir olunmasına uşaq kimi sevinən həmin o Hafiz əfəndi... Ya rəbbi, bunlar nə qəribə insanlardır!..

Bununla bərabər, sarıqlı katibin təxmini bir dərəcəyə qədər düz çıxmışdı. Baş katib başına gələn fırtınadan sonra xeyli yumşalmış və sakitləşmiş görünürdü.

Bir siqara yandırıb tüstüsünü iki tərəfə sovura-sovura:

– İşində ol, bu dövlətə kim xidmət edib, əvəzində ancaq "Allah razı olsun" eşidibdir, – dedi və məni daha yormayıb sənədləri tələsik təhvil aldı.

Mən bir azdan sonra öz işim üçün ikinci dəfə maarif müdirinin otağına girəndə, yorğunluqdan dizlərim titrəyir, gözlərim qaranlıq gətirirdi.

Müdir indi başqa bir sövdaya düşmüşdü: cürbəcür yersiz buyruqlarla xidmətçilərə öz otağının tozunu aldırır, divarlardakı rəsmlərin yerlərini dəyişdirir və tez-tez kiçik bir əl aynasına baxıb, saçlarını, qalstukunu yoxlayırdı.

Hələ də həmin küncdə oturan qoca əfəndi ilə aralarında danışılan bəzi sözlər bu hazırlığın səbəbini aydınlaşdırdı: "B"-yə Pyer For adında bir fransız jurnalisti gəlibmiş. Maarif müdiri dünən axşam vali tərəfindən verilən qonaqlıqda bu jurnalistlə və onun arvadı ilə tanış olubmuş. Pyer For çox interesan[1] bir adammış. Qəzetində "Yaşıl B-də bir neçə gün" sərlövhəsi altında bir seriya məqalə yazacaqmış...

Müdir həyəcanla deyirdi:

– Bu gün saat üçdə ər-arvad mənim ziyarətimə gəlməyi vəd ediblər. Məktəblərimizdən bir-ikisini onlara göstərəcəyəm. Hərçənd

[1] İnteresan – maraqlı



köksümüzü gərə-gərə avropalıya göstərməli bir məktəbimiz yoxdur, amma çarəsiz bir az politika işlədəcəyik. Hər halda, ümid edirəm ki, bizim ləhimizə bir yazı qoparda biləcəyik. Yaxşı ki, indi burda mənəm, yoxsa bu ziyarət məndən əvvəlki müdirin zamanında olsaydı, avropalının yanında rüsvay olub gedəcəkdik!

Mən hələ də qapının yanında, arakəsmənin bir küncündə gözləyirdim. Müdir tələsik mənə dedi:

– Yenə nə var, xanım?

– Təhvil əməliyyatı qurtardı, əfəndim.

– Çox əla, təşəkkür edirəm.

– !!!

– Təşəkkür edirəm, gedə bilərsiniz.

– Mənə başqa bir əmriniz olmalıydı. Yeni bir yerə təyin...

– Bəli, amma indi boş yerim yoxdur. Yer boşalan kimi, bir şey edərik. İsminizi dəftərxanaya qeyd etdirin.

Maarif müdiri bunları kəskin bir səslə tələsik-tələsik söyləyir və mənim tez çıxıb getməyimi gözləyirdi.

Boş yer olanda!

Bu sözü İstanbulda maarif nazirliyində də bir çox dəfələr eşitmişdim və mənasını, təəssüf ki, çox yaxşı bilirdim. Müdirin sinirli səsi məndə qəribə bir üsyan hissi oyandırmışdı. Bayıra çıxmaq üçün qapıya bir addım atdım, amma o saniyədə gözümün qabağında bir xəyal, mehmanxanada, otağımızda xırdaca keçisi ilə oynaya-oynaya məni gözləyən Munisənin xəyalı gəldi.

Bəli, mən indi əvvəlki Fəridə deyildim. Demək olar ki, ağır vəzifələri olan bir ana idim.

Bunu düşünüb təkrar qayıtdım. Yağış yağa-yağa küçədən keçənlərə əl açan bir dilənçi kimi, başımı aşağı salıb qorxaq bir ahənglə dedim:

– Bəy əfəndi, gözləməyə vaxtım yoxdur. Söyləməyə utanıram, amma çətin bir vəziyyətdəyəm. Əgər mənə bu saat bir iş verməsəniz...

Daha dalını söyləyə bilmirdim. Hirsimdən, utandığımdan köksüm tıxanır, gözlərim yaşla dolurdu.

O həmin əsəbi və təşvişli tövrlə dedi:

– Xanım, dedim ki, boş yerim yoxdur. Yalnız Çadırlıda bir kənd məktəbi var, amma sonrası mənim işim deyil; deyirlər bərbad bir yerdir. Uşaqlar kəndin qəhvəxanasında oxuyurlar. Müəllim üçün də

yatıb-durmağa yer yoxdur. Əgər işinizə yararsa, təyin edim; yox, əgər daha yaxşı bir yer istəyirsinizsə, onda gözləyiniz.

– ...

– Haydı, əfəndim, cavabınızı gözləyirəm.

Bu Çadırlının Zeynilərdən daha pis bir kənd olduğunu eşitmişdim. Amma aylarca buralarda sürünməkdən, cürbəcür həqarətlərə düçar olmaqdansa, bunu qəbul etmək daha yaxşı idi.

Başımı bir az da əydim. Pıçıltıya oxşar bir səslə dedim:

– Çox yaxşı, qəbul etməyə məcburam...

Ancaq maarif müdiri mənim cavabımı eşitmədi. Çünki bu dəqiqədə qapı birdən-birə açıldı, bayırdan biri "Gəlirlər!" – deyə səsləndi.

Maarif müdiri redinqotunu[1] düymələyə-düyməiləyə qapıdan bayıra sıçradı. Mənim üçün çıxıb getməkdən başqa bir iş qalmamışdı. Amma qapıdan çıxmaq istədikdə, müdirin fransızca: "Buyurun, rica edirəm!" – dediyini eşitdim.

Bayırdan əvvəlcə qalın mantolu bir gənc qadın içəri girdi. Onun üzünü görəndə mən yüngülcə bir fəryadla heyrətimi bildirməkdən özümü saxlaya bilmədim. Jurnalistin arvadı mənim köhnə sinif yoldaşlarımdan Kristiyan Varez idi.

Kristiyan bir tətil zamanı ailəsi ilə bərabər Fransaya getmiş, orada qohumu olan gənc bir jurnalistlə evlənib, bir daha geri dönməmişdi.

Yoldaşım bir neçə il içində inanılmayacaq qədər dəyişmiş, görkəmli bir qadın olmuşdu. Səsimi eşidən kimi başını çevirdi və üzümdə qalın yaşmaq olduğuna baxmayaraq, bir anda məni tanıdı.

– Çalıquşu! Mənim xırdaca Çalıquşum! Sən buradasan?! Ah, nə gözəl təsadüf!..

Kristiyan məni ən çox sevən yoldaşlarımdandı. Əllərimdən tutub, məni otağın ortasına çəkdi. Yarı zorla yaşmağımı açdı və yanaqlarımdan öpməyə başladı. Hələ görməyə müvəffəq ola bilmədiyim əri və xüsusilə maarif müdiri kim bilir necə çaşıb qalmışdılar.

Mən arxamı onlara çevirir, gözlərimdəki yaşları görməmələri üçün üzümü yoldaşımın çiyninə söykəyib gizlədirdim.

– Ah, Çalıquşu, hər şey ağlıma gələrdi, amma səni belə qapqara bir alaturka[2] çarşabda və gözü yaşlı burada görə biləcəyimə heç ümid etməzdim!..

---

[1] Redinqot – uzun ətəkli kostyum

[2] Alaturka – türksayağı



Mən yavaş-yavaş özümü ələ almışdım. Gizlin bir hərəkətlə yenə yaşmağımı örtmək istədim. Amma o, mane oldu. Zorla məni ərinə sarı döndərib dedi:

– Pyer, sənə Çalıquşunu təqdim edim!

Pyer For uzunboylu, gözəlüzlü, qumral bir adamdı. Amma bir az dəlisovdu, yaxud da mən həmişə sözlərini darta-darta söyləyən ağır təbiətli adamlar arasında yaşaya-yaşaya elə bir hala gəlmişdim ki, bu yazığı dəlisov sanırdım.

Jurnalist əlimi öpdü və köhnə bir tanışla danışan kimi dedi:

– Madmazel, çox bəxtiyaram. Bilirsinizmi, biz heç yad adam deyilik. Kristiyan sizdən mənə o qədər çox danışmışdır ki, hətta o sizi təqdim etməsəydi də, mən Çalıquşunu tanıyacaqdım. Məktəbdə yoldaşlarınız və müəllimlərinizlə bərabər çəkilmiş bir foto şəkliniz vardır. Orada çənənizi Kristiyanın çiyninə dayamışsınız. Görürsünüz ki, sizi nə qədər tanıyıram!

Onlar maarif müdirini tamamilə unudub mənimlə danışmağa başlamışdılar. Arada başımı çevirib elə bir mənzərə gördüm ki, başqa yerdə olsaydım, qəhqəhə çəkib gülərdim: qonaqlarla bərabər otağa bəzi yad adamlar da girmişdilər. Maarif müdiri lap qabaqda və ortada durmuşdu, o biriləri isə ətrafımızda bir yarım dairə əmələ gətirmişdilər, ağızları heyrətdən bir qarış açılmış, maraqlı bir hoqqabaz oyunu seyr edən kəndlilər kimi, mənim fransızca danışmağıma baxırdılar.

Daha qəribəsi budur ki, Zeynilərə gələn uzunboylu ictimai işlər mühəndisi də bunların arasında idi! Sonradan bildim ki, bu əfəndi qonaqlara mehmandarlıq[1] edirmiş. Nəhayət, muradına çatmış, mənim üzümü görmüşdü. Bununla bərabər, kənddə mənim barəmdə maarif müdirinə söylədiyi fransızca sözlər yadına düşsə, hər halda sıxılmış olacaqdı.

Artıq olan olmuşdu. Köhnə bir sinif yoldaşıma özümü bu qədər düşkün bir vəziyyətdə göstərmək izzət-nəfsimə toxunurdu. Buna bir də mənəvi zillət mənzərəsi əlavə etmək istəməyib, uca səslə və bütün cürət və nəşəmlə danışmaqda davam edirdim.

Maarif müdiri, nəhayət, vəziyyətdəki qəribəliyi gördü. Xırdaca boyu ilə gülünc bir reverans edib:

– Oturmanızı rica edirəm, narahat olmayın, – deyə kresloları göstərdi.

---

[1] Mehmandar – qonaqları qəbul edən və onlarla məşğul olan adam

Mən daha çıxıb getməli idim. Kristiyana yavaşca dedim:

– Hə, gəl xudahafizləşək.

Amma o, qır-saqqız olub yaxamdan əl çəkmirdi. Yoldaşımın təkid etdiyini maarif müdiri də gördü. Bir az əvvəl mənimlə o qədər soyuq və pis rəftar edən bu adam, dərin bir hörmətlə önümdə əyildi, mənə də bir kreslo təqdim edib dedi:

– Xanım əfəndi, ayaq üstə durmayın, lütfən.

Çarəsiz oturdum. Kristiyan mənim çiynimdə belə yekə bir çarşabla burada olmağımı heç cür ağlına sığışdıra bilmir, ərinə müraciətlə deyirdi:

– Pyer, bilmirsən bu Fəridə nə interesan bir qızdır. İstanbulun ən yaxşı ailəsinə mənsubdur. O qədər zərif bir zəkası, gözəl xarakteri vardır ki... Onu burada görmək məni çox təəccübləndirdi.

Yoldaşım məni təriflərkən mən həm xoşlanır, həm də utanırdım.

Arabir gözlərim maarif müdirinə təsadüf edirdi. O hələ də heyrətdən yaxasını qurtara bilməmişdi. Bəs o həyasız ictimai işlər mühəndisi! Otağın bir küncünə çəkilib məni göz dustağı etmişdi.

Təbiidir ki, mən ona baxmırdım. Amma bəzən insanın üzündə bir böcək gəzib, onun tüklərini ürpədir. Onun gözlərinin də belə bir böcək kimi üzümdə gəzdiyini baxmadan hiss edir, narahat olurdum.

Kristiyanın marağını sakitləşdirmək üçün belə bir izahat verməyə məcbur oldum:

– Bütün bunlarda çaşıb qalmalı heç bir şey yoxdur. Hərə bir şeyə həvəs etdiyi kimi, mən də müəllimliyə həvəs etdim. Öz könlümün arzusu ilə bu vilayətdə işləmək, ölkəmin uşaqlarına xidmət etmək istədim. Həyatımdan çox razıyam, bu hər halda yelkən qayığı ilə dünya səyahətinə çıxmaq qədər qorxulu bir inad deyildir. Bunun nə qədər təbii bir şey olduğunu sənin heç cürə başa düşmək istəmədiyinə təəccüb edirəm.

Müsyö Pyer For qüvvətli bir səslə və bilici ədası ilə dedi:

– Mən başa düşürəm, madmazel! Ruhun belə incə təzahürlərini, şübhəsiz ki, Kristiyan da çox yaxşı başa düşər. Amma birdən-birə özünü toplaya bilməmişdir. Mənim bundan çıxardığım nəticə budur ki, İstanbulda yaxşı bir Qərb tərbiyəsi görmüş bir zümrə yeni gənc qızlar vardır ki, bunlar Lotinin "Məyuslar"ı[1] kimi faydasız malxolyalarla özlərini xarab edən nəsildən bambaşqa bir nəslə mənsubdurlar. Onlar fəaliyyəti xoş xəyala üstün tuturlar və İstanbuldakı rifah və səadətlərini buraxıb, öz ixtiyarları ilə Anadolunu oyandırmağa gəlirlər. Nə gözəl, nə ülvi bir fədakarlıq nümunəsi və mənim üçün nə misilsiz bir məqalə mövzusu! Türklərin oyanışından danışanda, icazənizlə sizin adınızı çəkəcəyəm, madmazel Fəridə – Çalıquşu!

Mən təşvişlə dedim:

– Kristiyan, ərinin mənim adımı qəzetdə yazmasına icazə versən, səninlə dostluğu kəsərəm.

Pyer For mənim özümü gizlin saxlamaq arzumu yanlış başa düşüb dedi:

– Madmazel, bu təvazökarlıq da çox gözəldir. Sizin kimi bir gənc qızın arzularına itaət etmək bir vəzifədir. Vilayətin hansı xoşbəxt məktəbində müəllimə olduğunuzu soruşa bilərəmmi?

Mən dedim də, daha olan olmuşdu!..

Maarif müdirinə sarı dönüb ondan türkcə soruşdum:

– Bəndənizə təklif etdiyiniz məktəb hara idi? Gərək ki, Çadırlı kəndi buyurmuşdunuz...

Pyer For dəftərçəsinə əl atıb dedi:

– Dayanın, dayanın, necə söylədiniz: Çağırıla, yoxsa Çadırlı? Madmazel, vilayət içindəki gəzintilərimiz arasında fürsət tapsaq, sizi, gözəl kəndinizdə şagirdlərinizin arasında da ziyarət edərik.

Maarif müdiri qıpqırmızı olub yerindən qalxdı:

– Madmazel Fəridə xanım əfəndi kənd müəlliməliyi üçün təkid edir. Amma mən onun mərkəzdəki darül-müəllimatın fransızca müəlliməliyində daha böyük xidmətlər edə biləcəyi fikrindəyəm.

Mən bunu anlamadan onun üzünə baxdım. O, türkcə bu izahatı verdi:

– Siz fransız məktəbi qurtardığınızı və fransızca bildiyinizi söyləməmişdiniz. Belə olanda, iş dəyişir. İndi sizi nazirliyə təqdim edəcəyəm. Əmriniz gələnə qədər ştatdanxaric işlərsiniz. Sabah səhərdən işə başlaya bilərsinizmi?

Həyatın bir fəlakətdən sonra daim səadət verdiyini, o gözəl atalar sözünün söylədiyi kimi: ayın on beşi qaranlıq idisə, on beşinin mütləq aydınlıq olacağını bilirdim. Ancaq bu aydınlığın bu qədər qatı bir qaranlıqda, bu qədər gözlənilməz bir dəqiqədə doğacağını ağlıma gətirə bilməzdim.

[1] "Məyuslar" – fransız yazıçısı Pyer Lotinin romanı. Pyer Loti (1850–1923) öz aşiqanə romanlarında Şərqi varlı və xoşbəxt bir diyar kimi təsvir edən və özünü türk dostu kimi qələmə verən burjua romançısıdır.

Munisə təkrar gözlərimin önünə gəldi. Amma bu dəfə bir mehmanxana otağında öz xırdaca keçisi ilə oynayan yoxsul bir uşaq kimi yox, gözəl bir evin çiçəkli bağçasında çənbər gillədən qəşəng bir kiçik xanım kimi...

Ayrılacağımız zaman Kristiyan məni kənara çəkib dedi:

– Fəridə, səndən onu soruşacağam. Sən nişanlı idin, nə üçün evlənmədiniz?

– ...

– Cavab vermirsən, nişanlın indi hardadır?

Başımı aşağı saldım, son dərəcə yavaş səslə dedim:

– Keçən payız onu itirdik.

Bu cavab Kristiyana çox təsir etdi.

– Necə, Fəridə, doğrumu söyləyirsən? – dedi. – Ay, yazıq Çalıquşu! Səni buraya hansı küləyin atdığını indi başa düşürəm.

Biləklərimi möhkəm tutan əlləri titrəyirdi.

– Fəridə, onu çox sevirdin, deyilmi? Gizlətmə, əzizim, etiraf etməkdən çəkinirdin, amma hamı bunu bilirdi.

Kristiyan uzaq bir röyanı izləyən kimi, dalğın-dalğın baxıb hərarətli səslə davam etdi:

– Haqqın vardı, onu sevməmək mümkün deyildi. Bir neçə dəfə səni görməyə gəlmişdi. O zaman gördüyümü xatırlayıram. Heç kəsə bənzəməyən bir tövrü vardı. Hayıf! Sənə çox ürəyim yanır, Fəridə. Zənn edirəm ki, bir gənc qız üçün sevdiyi nişanlısının ölümünü görməkdən böyük bir fəlakət ola bilməz!

"Sənə çox ürəyim yanır, Fəridə. Bir gənc qız üçün sevdiyi nişanlısının ölümünü görməkdən böyük bir fəlakət ola bilməz!" – dediyi zaman gözlərimi endirib yumdum. "Düzdür, haqqın var!" – dedim. O vəziyyətdə başqa nə edə bilərdim? Amma mən sənə yalan söylədim, Kristiyan!

Mən gənc bir qız üçün daha böyük bədbəxtliklər də bilirəm. Çox sevdiyi nişanlısının ölümünü görən gənc qızlar zənn etdiyin qədər bədbəxt insanlar deyildirlər. Onların böyük bir təsəlliləri vardır; aradan aylar, illər keçdikdən sonra, bir gecə yad bir diyarın qaranlıq və soyuq bir otağında yalqız qaldıqları vaxt, onlar nişanlılarının çöhrəsini



gözlərinin önünə gətirmək imkanına malikdirlər. Onlar: "Bu yazıq gözlərin son baxışı mənimdi!" – demək imkanına malikdirlər. Bu xəyalın üzünü qəlblərinin dodağı ilə...

Halbuki mən bu haqdan da məhrumam, Kristiyan!"

*B..., 9 mart.*

Bu sabah "B" darülmüəllimatında dərsə başladım. Deyəsən bura tez isinişəcəyəm. Bu da var ki, Zeynilərdən sonra buranı bəyənmədiyimi söyləsəm, əlbəttə, ayıb olar.

Yeni yoldaşlarım görkəmcə pis deyildilər. Şagirdlərim yaşca mənə yaxındırlar. Hətta, zənnimcə, bir qismi məndən böyük, ağıllı xanımlardır.

Hələ Rəcəb əfəndi adında sarıqlı bir adam var ki, canlara dəyəndir. Məktəbə girdiyim vaxt müavinə xanım məni düz müdirin otağına apardı. Rəcəb əfəndinin idarəyə getdiyini, harda olsa gələcəyini söyləyib gözləməyimi xahiş etdi.

Mən gah pəncərədən bağçanı seyr edərək, gah divardakı şəkillərin qarışıq yazılarını oxumağa çalışaraq yarım saata yaxın onu gözlədim. Nəhayət gəldi, yolda bərk yağışa düşmüş, ləbbadəsi yaman islanmışdı.

Məni otaqda görəndə dedi:

– Xoş gəldin, qızım. İdarədən indi xəbər verdilər. Allahın nəzəri üstümüzdən əskik olmasın!

Ağarmış top saqqalı ilə haşiyələnmiş dəyirmi üzü, alma kimi qırmızı yanaqları, hərəsi bir tərəfə baxan çaş gözləri vardı.

Üstündən axan suya baxaraq dedi:

– Tfu, Allah bəlasını versin. Çətiri götürməyi unutmuşduq. Başımıza bu gəldi. Deyərlər ki, ağılsız başın cəfasını ayaqlar çəkər, amma bu səfərlik bizim ləbbadəmiz çəkdi. Fikir vermə, qızım, mən bir az qurunacağam.

O, ləbbadəsini çıxarmağa başlamışdı. Mən ayağa qalxdım:

– Əfəndim, sizi narahat etməyim, sonra gələrəm, – deyə bayıra çıxmaq istədim. O, əl işarəsi ilə təkrar oturmağımı əmr etdi:

– Yox, canım, əfəndim, rəsmiyyət nəyə lazımdır? Mən elə sənin atan yerindəyəm, – dedi.

Əynində tünd-göy zolaqlı sarı atlazdan köynək kimi bir şey vardı (yaxasına baxanda – köynəkdir, ciblərinə baxanda – yelək[1]).

Sobanın yanına bir stul çəkib oturdu. Yekə meşin ayaqqabılarının at nalı şəklində mıxlarla bəzənmiş dabanlarını oda verə-verə mənimlə danışmağa başladı.

Çəkiclə vurulan metal kimi qulaqda cingildəyən qəribə bir səsi vardı. Bütün "k" səslərini "g" kimi tələffüz edib danışırdı.

– Sən gi, lap uşaqmışsan, ay qızım (hər yerdə eşitdiyim bu söz daha məni bezdirməyə başlamışdı). Amma dünən işlərin çox yaxşı gedib ha! Bununla bərabər, məmurluğu əldə saxlamaq onu qazanmaqdan daha müşgüldür. Bundan sonra yaxşı çalışarsan. Mənim müəllimələrim, deməg olar ki, mənim öz qızlarımdır. İlla və lagin çox ciddi olmaq lazımdır. Geçənlərdə onlardan biri bir qələt eləmişdi. Tövbələr olsun, maarif müdirinin rəyini soruşmadan, pasportunu əlinə verib qapıdan bayıra atdım. Elə deyilmi, Şəhnazə xanım?! Ağzını açmağa tövbə edibsən-nədir?

Şəhnazə xanım məktəbin müdir müavinidir. Öskürməmiş danışa bilməyən, orta yaşlı, zəif, xəstə üzlü bir qadındır. Bayaqdan bəri bir şey söyləmək istədiyinə diqqət edirdim. O sinirli-sinirli dedi:

– Bəli, bəli, elə olmuşdu.

Sonra danışmaq fürsətini əldən vermək istəmirmiş kimi əlavə etdi:

– Hambalları iki məcidiyyədən aşağı razı edə bilmirəm. Nə edək?

Müdir əfəndi sobanın yanında buxarlanmağa başlayan yaş çəkmələrinin nallı dabanlarından yanmağa başladığını güman etmiş kimi, yerindən sıçradı:

– Binamuslara bir bax! Tövbə olsun, palanı dalıma salıb şeyləri özüm daşıyaram! Mən dəlisovun biriyəm. Dediyimi edərəm. Sən get onlara bunu söylə.

Müdir sonra təkrar mənə tərəf dönüb dedi:

– Sən mənim bu çaş gözlərimi görürsənmi? Onların yan baxışını, vallah, min lirəyə satmaram. Belə qıyqacı baxdımmı, ağılları başlarından çıxar. Yəni onu demək istəyirəm ki, arifə olmaq, fazilə, ədibə olmaq lazımdır. Vəzifədə nöqsan buraxmamaq, məktəb xaricində müəllimlik vüqarını mühafizə etmək lazımdır. Müavinə xanım, deyirsən gi, dərs vaxtı çatdı?

[1] Y e l ə k – jilet



– Çatdı, əfəndim, şagirdlər sinfə giriblər.

– Haydı, qızım, gəl səni şagirdlərə təqdim edim. İlla və lagin, əvvəlcə get, o üzünü bir yaxşı yu.

Müdir əfəndi bu sözləri bir az sıxıla-sıxıla, səsini alçaldıb söyləmişdi. Özümü yaman itirdim, görəsən üzüm bir şeyəmi batmışdı?

Müavinə xanımla bir-birimizə baxdıq. O da mənim kimi heyrət içində idi.

– Üzümdə bir şeymi var, əfəndim? – deyə soruşdum.

– Qızım, qadın qisminin bəzək-düzəyə həvəsi anadangəlmə bir meyildir. İlla, müəllim qisminin elə üz-gözü boyalı sinfə girməsi caiz deyildir. Bu gün sənə ata gimi xitab edirəm.

Mən çaşmış halda dedim:

– Amma mənim üzümdə boya yoxdur, müdir əfəndi, mən üzünə boya sürtən adam deyiləm.

Rəcəb əfəndi tərs-tərs üzümə baxıb deyirdi:

– Ay dedin ha, ay dedin ha...

Birdən-birə işi başa düşdüm və özümü saxlaya bilməyib güldüm.

– Müdir əfəndi, o boyalardan mən özüm də şikayət edirəm. Amma nə edək ki, onları Allah sürtmüşdür. Su ilə yumağa imkan yoxdur, – dedim.

Müavinə də mənimlə gülməyə başlamışdı. O dedi:

– Bu, xanımın təbii rəngidir, əfəndim.

İndi qəhqəhələr müdir əfəndiyə sirayət etdi. Amma onun gülüşü də tamam başqa cür idi. Ha, ha, ha! – edib güləndə "h" səslərini yeni məktəbli uşaqlara əlifba öyrədən kimi bir-bir, ayrı-ayrı çıxırdı.

– Amma qəribə işdir ha... Allahdandır ha, Allahdandır ha... Allah da verəndə, yaman verir ha... Müdirə xanım, sən heç belə parlaq üz görübsənmi? Qızım, anan sənə süd yerinə gül riçalı əmizdirib-nədir? Ay Allah...

Bu Rəcəb əfəndi hər halda çox yaxşı bir adama bənzəyirdi. Ona tezliklə qanım qaynamışdı.

Müdir əfəndi hələ də buxarlanmaqda olan ləbbadəsini geyib məni sinfə aparmağa hazırlanmışdı. Dəhlizdə bir pəncərədən sinifdəki şagirdlərimi görən kimi, ürəyim ağzıma gəldi. Ya rəbbi, sinif nə tünlük idi! Otaqda bəlkə əlli uşaq vardı. Hamısı da, demək olar ki, mən yaşda gənc qızlar. Birdən-birə mənə dikilən bir yığın gözün qarşısında az qala əriyirdim.

Əgər müdir əfəndi elə bu dəqiqədə çıxıb getsəydi, mən çətin vəziyyətdə qalıb danışmağa söz də tapa bilməyəcəkdim. Yaxşı ki, müdirin söz söyləməyə çox böyük marağı vardı:

– Çıx qızım, öz yerinə çıx görək! – deyə məni, demək olar ki, zorla müəllim stolunun qoyulduğu yerə çıxardıqdan sonra, uzun bir nitq söyləməyə başladı. Aman, o nələr söyləyirdi! Deyirdi ki, avropalılar tibbi, kimyanı, kosmoqrafiyanı və riyaziyyatı ərəblərdən öyrəndiyi halda, biz nə qələt edib yeni elmləri avropalılardan öyrənmirik? Guya avropalıların elm və ürfan xəzinəsinə əl uzadıb, onlardan bacardıqca qənimət almaq haqlı bir soyğunçuluqmuş. Amma bu soyğunçuluq topla-tüfənglə olmaz, yalnız fransız dilini öyrənməklə mümkün olarmış...

Müdir əfəndi yaman coşmuşdu. O, metal səsi kimi qulaqlarda cingildəyən səsi ilə bar-bar bağıraraq məni göstərdi:

– O bilik ölkələrinin açarları, bax, bu barmaq boyda qızın əlindədir. Siz onun boyuna baxmayın, barmaq boyda görünür, amma, maşallah olsun, canı cövhərlidir. Ondan möhkəm yapışın, boğazını sıxın, limon kimi sıxın, elmini ağzından alın...

Məni məlun qəhqəhə tutduğunu hiss edib az qala yerə girirdim. Aman, ya rəbbi, rüsvay olacaqdım! İlk dəfə başımı qaldırıb düz sinfə baxmağa cəsarət etdim. Şagirdlər də gülürdülər. Beləliklə, şagirdlərimlə bir-birimizə ilk baxışımız xoş təbəssümlə oldu. Elə zənn edirəm ki, bu baxış və gizlin gülüşmə o anda bizi bir-birimizə sevdirdi.

Sinifdə gülüşmənin artması, nəhayət müdir əfəndinin diqqətini cəlb etdi. Birdən-birə yumruğunu stola vurdu. Çaş gözlərinin, min lirəyə satmayacağını söylədiyi, o qorxunc qıyqacı baxışı ilə sinfi süzüb bağırdı:

– O nədir? O nə deməgdir? O nədir... Sizə bir az üz verən gimi, astarını da istəyirsiniz. Belədir də, bu qadın qisminə üz vermək olmaz, tövbə olsun, hamınızı qıraram. Tez ağızlarınızı yumun. Bişmiş gəllə kimi dişlərinizi nə ağardırsınız!..

Qızlar bu sözləri o qədər də veclərinə almırdılar. Sözün düzü, mən onlardan çox qorxmuşdum. Müdirin nitqi, demək olar ki, on beş dəqiqəyə qədər davam etdi. Hərdənbir gülüşmələr artanda, Rəcəb əfəndi stolu yumruqlayır: “Dişlərinizi nə ağardırsınız, galbatanı gətirərəm ha!” – deyə yarızarafat, yarıciddi onları hədələyirdi. Nəhayət, sonuncu dəfə də: “Möhgəm tutun, yaxasını buraxmayın, limon gimi sıxıb, elmini ağzından almasanız, vay sizin halınıza! Ananızdan, atanızdan, dövlətdən, millətdən alıb yediyiniz çörəg sizə haram olsun!” – deyə bağırdıqdan sonra çıxıb getdi.



Şagirdlərimlə tək qaldığım bu ilk dəqiqənin bu qədər çətin olacağını fikrimə gətirməmişdim. Sabahdan-axşama qədər durmadan danışan çərənçi Çalıquşu tut yemiş bülbülə dönmüşdü. Başımın içi elə bil bomboşdu, danışmağa bir şey tapa bilmirdim. Özümü saxlaya bilmədim, qeyri-ixtiyari yavaşca güldüm. Yaxşı ki, şagirdlərim mənim hələ də müdir əfəndinin nitqinə güldüyümü güman etdilər, onlar da gözlərimə baxıb gülümsəməyə başladılar. Birdən-birə mənə bir cəsarət gəldi. Daha özümü ələ almışdım.

– Xanımlar, – deyə sözə başladım. – Bir az fransızca bilirəm, əgər bunun sizə bir xeyri olarsa, özümü bəxtiyar sayaram.

Daha tilsim pozulmuşdu, dilim açılmışdı. Heç çətinlik çəkmədən danışır, qızlarımın yavaş-yavaş mənə isinişdiklərini hiss edirdim. Belə yekə xanımlara “qızlarım” deyə bilmək nə böyük xoşbəxtlikdir! Amma hərdənbir az-çox gülürdülər. Bu mənim də xoşuma gəlirdi. Ancaq, Allah eləməmiş, Rəcəb əfəndi, o min lirədən bahalı olan qıyqacı baxışı ilə pəncərədən sinfə baxarsa, dəhşət olar! Buna görə də şagirdlərimə ayrıca bir tapşırıq verməyi lazım bilib dedim:

– Xanımlar, gülməyiniz təbəssüm dərəcəsini keçməməlidir. Sizi hədələmək üçün mənim əlimdə müdir əfəndinin, gərək ki, “galbatan” dediyi o şey nədirsə, ondan yoxdur. Amma sizdən inciyərəm.

Sözün qısası, dərsim çox gözəl keçdi. Sinifdən çıxanda, qızlarımdan biri yanıma gəldi. Mənə “galbatanın” sadəcə “kəlbətin” demək olduğunu söylədi. Müdir əfəndi çox gülənləri “galbatanla dişlərinizi çıxararam ha!” – deyə zərif bir surətdə hədələyirmiş.

*B..., 28 mart.*

Qızlarımdan çox, olduqca çox razıyam. Məni o qədər sevirlər ki, tənəffüsdə də yanımdan ayrılmırlar. Yoldaşlarıma gəlincə, sözün düzü, onlar da pis adam deyildirlər. Mənə qarşı çox soyuqluq göstərənlər, otağın bir küncündə mənə yan-yanı baxıb, haqqımda, hər halda yaxşı olmayan sözlər deyib pıçıldaşanlar yox deyildir. Amma insan hətta öz evində də hamı ilə sevişə bilmir!

Yoldaşlar arasında ən xoşuma gələnlər Nəzihə və Vəsfiyyə adlı iki sevimli istanbullu qızdır. Onlar bir-birindən heç ayrılmırlar. Amma müavinə Şəhnazə xanım mənə tövsiyə etmişdi ki, bunlarla çox yaxın yoldaşlıq etməyim. Səbəbini bilmirəm! Bunlardan başqa iki nəfər də köhnə tanışım var. Biri vaxtı ilə Mərkəz rüşdiyyə məktəbində məni müdafiə etmiş o uzunboylu, qaragözlü qadındır ki, burda həftədə bir gün dərs verir. Müdir əfəndinin qıyqacı baxışlarından qorxmayan təkcə yoldaşım budur. Əksinə, Rəcəb əfəndi özü ondan çəkinir. Gizlin-gizlin göy ləbbadəsinin yaxasını silkələyə-silkələyə deyir: "Vay, o, nə bəladır! Onu bir bayıra ata bilsəydim, tövbə olsun, əlim-qolum açılardı!"

Köhnə tanışlarımdan ikincisi yekə gözlüklü, iridişli qoca bir müəllimədir. Vaxtı ilə hərdənbir qatarda yoldaş olardıq. O, İstanbulda Göztəpə tərəflərində müəllimə idi.

O da gözləri ilə məni yemək istəyirmiş kimi diqqətlə üzümə baxıb deyir:

– Allah, Allah! Bu qədər bənzəyiş görməmişdim. Vaxtı ilə qatarda dəcəl bir məktəbli qız görərdim. Sizə elə bənzərdi ki... Amma o deyəsən fransızdı. Cürbəcür hoqqabazlıqlar edib bir vaqon adamı güldürərdi.

Mən önümə baxaraq deyirəm:

– Ehtimal ola bilər.

Məktəbdə bir neçə kişi müəllim də var. Zahid əfəndi qocadır, din dərsləri müəllimidir. Coğrafiya müəllimi Ömər bəy çallaşmış və istefaya çıxmış bir miralaydır[1]. Adını bilmədiyim bir yazı müəllimi, nəhayət, bir də musiqi müəllimi Şeyx Yusif əfəndi var. Şeyx Yusif əfəndi yalnız məktəbin deyil, bütün "B"-nin ən əhəmiyyətli bir simasıdır. Yusif əfəndi əvvəllər bir mələvi[2] şeyx imiş, bir neçə il bundan əvvəl xəstələnib, yazıq yəqin ki, vərəmdir. Doktorlar əvvəl olduğu yerdə qalsa, öləcəyini söyləyiblərmiş. Dul bacısı ilə bərabər iki il bundan əvvəl köçüb "B"-yə gəlmişdir. Bacı-qardaş bir yerdə kiçik, səssiz bir evdə yaşayırlar. Bu kiçik evi tanıyanlar söyləyirlər ki, ora

[1] Miralay – polkovnik

[2] Mələvilik – dini dərviş təriqəti. Şair Cəlaləddin Rumi (1207-1273) tərəfindən təsis edilmişdir.



musiqi muzeyi kimi bir yerdir. Hər çalğıdan, hər sazdan orada var. Əslində Şeyx əfəndi məşhur bir bəstəkardır. Onun elə parçaları var ki, insan onları ağlamadan dinləyə bilməz.

Mən onu ilk dəfə soyuq, yağışlı bir gündə gördüm. Tənəffüsdə mən şagirdlərlə bərabər bağçaya çıxmışdım. Onlara yeni top oyunu öyrətmək bəhanəsi ilə bir az oynayıb əylənmişdim. İçəri girdiyim vaxt, qara köynəyim islanmışdı. Arada bunu da deyim ki, mənim özüm icad etdiyim bu qiyafət, məktəbdə yavaş-yavaş yayılmağa başlamışdı. Hətta şagirdlərim arasında da bu cür paltar geyənlər vardı. Müdir əfəndi bunun rənginə etiraz edib deyir ki: "Müsəlman qisminə qara geymək yaraşmaz, yaşıldan tikmək lazımdır". Amma biz yaşıl parçanın ləkə götürəcəyini bəhanə edib, onun sözlərinə fikir vermirik.

Müəllim otağında yekə çini soba yanırdı. Mən divar ilə bu sobanın arasındakı boş yerdə ayaq üstə durmuşdum. Əllərimi köynəyimin ciblərinə qoyub paltarımı qurudurdum. Qapı açıldı. İçəriyə otuz beş yaşlarında, incə, uzunboylu bir əfəndi girdi. O, tanıdığım adi vətəndaşlar kimi geyinmişdi. Onun, haqqında eşitdiyim Yusif əfəndi olduğunu başa düşdüm. Məktəbdə onu çox sevirdilər. Yoldaşlar onu həmin saat araya aldılar, paltosunu çıxardılar. Sobanın borusunun ardından mən də ona baxmağa başladım. Yumşaq, xoşsima bir adamdı. Zərif üzündə, əksəriyyətlə ölməyə məhkum olan xəstələrdə görünən rəngsiz, incə, şəffaf bir ağlıq vardı. Zərif sarı saqqalı, açıq mavi gözləri mənə pansionun alaqaranlıq dəhlizlərində gördüyüm, qəmgin-qəmgin gülümsünən İsa rəsmlərini xatırlatdı. Hələ danışığı elə şirindi ki, adam dinlədikcə doymurdu. Bu yumşaq, xoş səsdə güclə seçilən bir şikayət ahəngi vardı. Bu ahəng xəstə uşaqların səsində duyulan o məzlum, gizlin şikayətə bənzəyirdi! Yusif əfəndi, dövrəsində dairə vurmuş yoldaşlarına bu bitib-tükənməyən yağışlardan şikayətlənir, açıq havaları coşqun bir səbirsizliklə gözlədiyini söyləyirdi. Arada gözlərimiz bir-birinə təsadüf etdi. O, küncdəki alaqaranlıqda məni yaxşı görmək üçün gözlərini bir azca qıydı:

– Bu kiçik xanım kimdir? Şagirdlərimizdəndirmi? – deyə soruşdu.

Yoldaşlar hamısı birdən dönüb mənə sarı baxdılar. Vəsfiyyə gülərək dedi:

– Bağışlayın, bəy əfəndi, onu sizə təqdim etməyi unutduq. Yeni fransız dili müəlliməmiz Fəridə xanımdır.

Mən olduğum yerdən başımla onu salamladım və dedim:

– Böyük bəstəkarımızı tanıdığım üçün çox şad oldum, əfəndim.

Sənətkarlar belə cümlələrə qarşı çox həssas olurlar. Onun ağ üzündə bir ötəri qızartı duyuldu. Əllərini ovuşdura-ovuşdura, boynunu büküb dedi:

– Bəndəniz bəstəkar sifətinə layiq olan bir əsər vücuda gətirdiyinə qane deyildir. Bir neçə əsərimdə xoşa gələn bir şey varsa, o da Hamid, Fikrət[1] kimi bəzi böyük şairlərdəki ilahi kədəri səmimi bir səslə ifadə etməkdən ibarətdir.

Xülasə, bu Yusif əfəndini böyük qardaş kimi sevirəm.

*B..., 7 aprel.*

Ən böyük arzuma da çatdım. Dünəndən bəri gözəl, kiçik bir evim var. Bunu mənə Hacı qalfa tapdı, Allah ondan razı olsun! Bu ev onun öz evindən iki-üç dəqiqəlik bir məsafədə, həmin səkinin kənarında, üç otaqlı, xırdaca bağçalı, rahat bir evdir. İşin daha yaxşı cəhəti budur ki, bu evi mənə içinin avadanlığı ilə bir yerdə kirayəyə veriblər.

Munisə də, mən də dünəndən çox şaddıq. Guya bir az təmizlik işləri aparıb şeyləri düzəldəcəydik. Amma heç nə eləmədik... Gülməkdən, bir-birimizi qovmaqdan, əlbəyaxa olub vuruşmaqdan göz aça bilmədik ki...

Biçarə Munisə heç gözlərinə inana bilmir, özünü saraya girmiş zənn edir. Ancaq Məzlum (çoban Məhmədin verdiyi keçinin adını Məzlum qoymuşuq) bizi yaman qorxutdu. Bu dəcəl keçi balası açıq qalan mətbəx qapısından bağçaya, oradan da yamaca qaçmışdı. Yamacın aşağısı bir minarə boyu qədər uçurumlu dərədir. Allah eləməmiş ayağı bir balaca qaçsa düz dərəyə uçacaq! Yaxşı ki, bu şeytan keçilər ayaqlarını qoyacaqları yeri məndən də yaxşı tanıyırlar. Nə isə, keçi balasını içəri gətirənə qədər xeyli nigarançılıq çəkdik.

Bəli, evimizdən çox razıyıq. Munisə səkidəki göy çinilərə ayağını sürtür, divardakı çiçək şəkillərini əlləri ilə tumarlayır.

[1] Əbdülhəqq Hamid (1851-1937) – burjua islahatı (tənzimat) dövrünün klassik şair və dramaturqu; Tofiq Fikrət (1868-1915) – ən görkəmli demokrat türk şairi. Zamanın irəlidə gedən yazıçılarını birləşdirən ədəbi-tənqidi "Sərvətifünün" məcmuəsinin banilərindən biri



Yalnız axşamüstüləri hava qaralanda, bir az kədərlənirik. Qonşu evlərə, əllərində dolu dəsmallarla atalar, qardaşlar gəlirdi. Bizim qapımızı bu saatlarda heç kəs döyməyəcək və bu həmişə belə olacaqdı...

Bu yerin elə gözəl baharı var ki... Hər tərəf yamyaşıl olur. Bağçada rəngbərəng çiçəklər açılır, otağımın pəncərələrinə sarmaşıqlar dırmaşır. Hələ bağçamızın önündəki dik yamac, demək olar ki, bir zümrüd şəlaləsidir. Bu dalğalı yaşıllıq içində lalələr qanamış təzə yaralar kimi görünür. Bütün boş günlərimi bu bağçada Munisə ilə qaçdı-tutdu oynamaq, ipdən hoppanmaqla keçirirəm. Yorulanda, mən şəkil çəkməyə başlayıram. Munisə keçisi ilə bərabər otların üstünə uzanır. Rəsm çəkmək marağı məndə yenidən oyanmışdır. Bir neçə gündən bəri Munisənin sulu boya ilə bir rəsmini çəkməklə məşğulam. Dəcəl qız rahat dursa, şəkil tezliklə qurtarar, amma poza alıb durmaqdan çox darıxır. Başında çöl çiçəklərindən bir çələng, çılpaq qolları ilə keçisini tutub qarşımda oturmaq ona çox çətin gəlir.

Hərdən Məzlum dəlilik etməyə, uzun, incə ayaqları ilə təpik atmağa başlayır. Onda Munisə: "Abacığım, vallah mən durmaq istəyirəm, amma Məzlum durmayır, neyləyim!" – deyə qaçır. Hərdən acığım tutur, barmağımla onu hədələyib deyirəm:

– Elə bilirsən ki, mən sənin şeytanlığını başa düşmürəm. Sən keçini qəsdən qıdıqlayırsan!..

Məktəbdəki dərslərim də deyəsən pis getmir. Müdir əfəndi məndən çox razıdır. Yalnız gülməyi çox sevdiyim üçün hərdən acığı tutub deyir: "Galbatanı sənin üçün də gətirərəm ha!" Mən yalandan üzgözümü turşudub deyirəm: "Neyləyim, müdir əfəndi? Üst dodağım bir az qısadır. Ona görə, ciddi duranda, elə bilirsiniz ki, gülürəm".

Müdir əfəndinin nədənsə dil dərslərinə xüsusi məhəbbəti var. Hətta özü də köhnə bir əlifba kitabı tapıb hərdənbir höccələyir, məndən bəzi kəlmələrin mənasını soruşub, karandaşla kitabın kənarına qeyd edir.

Şeyx Yusif əfəndi ilə dostluğumuz artmışdı. Bu zərif, qəmgin xəstəyə mən heyran oluram. Səsinin o gizlin şikayəti ilə elə gözəl, incə şeylər söyləyir ki... On gün bundan əvvəl qəribə bir hadisə oldu. Məktəbin işlənilməyən şeylərlə dolu, əl-ayaqdan kənar bir salonu var. O gün dərs lövhəsi almaq üçün o salona girmişdim. Pəncərələrin taxta qapıları bağlı olduğundan, buraya, demək olar ki, axşam qaranlığı

çökmüşdü. Ətrafıma göz gəzdirəndə, bir küncdə toz-torpağa bulanmış köhnə bir orqan[1] gördüm. Birdən-birə könlümdə xoş, qəmgin bir titrəyiş əmələ gəldi. Xoşbəxt uşaqlıq günlərim bu orqanda çalınan ağır, dərin ilahilər içində keçmişdi. Unudulmuş bir dost məzarına yaxınlaşan kimi, titrəyə-titrəyə orqanın yanına getdim. Bu salona nə üçün gəldiyimi, harda olduğumu unutmuşdum. Yavaşca ayağımı basdım, barmağımı orqanın dillərindən birinin üstünə qoydum. Orqan yaralı bir könüldən qopan kimi, dərin bir səs verdi. Ah, bu səs!

Nə etdiyimi düşünmədən, bir stul götürdüm. Orqanın önündə oturdum. Yavaş-yavaş, lap yavaşdan sevdiyim kantiklərdən[2] birini çalmağa başladım.

Orqan inlədikcə, yavaş-yavaş özümü yaddan çıxarıb, ağır bir röya içinə girən kimi olurdum. Uşaqlıqda oxuduğum məktəbin alaqaranlıq dəhlizləri gözlərimin önündə canlanır, qaraönlüklü, kəsiksaçlı yoldaşlarım dəstə-dəstə bu dəhlizdən gəlib keçirdi. Nə vaxtdan bəri burada olduğumu, nələr çaldığımı bilmirdim. Özümü tamamilə keçmiş günlərimin köhnə röyalarına təslim etmişdim.

Birdən arxamdan dərin bir ah, yarpaqların arasından keçən külək xışıltısına bənzər bir səs eşitdim. Yavaşca diksinib başımı çevirdim. Qaranlıqda gözümə Şeyx Yusif əfəndinin sarışın siması göründü. Sınıq bir dolaba söykənmiş, boynunu bükmüş, mavi gözlərində dərin bir kədərlə mənim çaldığımı dinləyirdi.

Mənim durmaq istədiyimi görəndə o dedi:

– Çal, əzizim, çal, rica edirəm!..

Cavab vermədim. Başımı orqanın üzərinə daha artıq əyib gözlərimdən axan yaşlar quruyuncaya qədər çaldım. Sonra nəfəsim qısıla-qısıla, yorulmuş halda ayağa durdum.

– Sizdə nə dərin bir musiqi istedadı, nə həssas bir qəlb varmış, Fəridə xanım! Bu uşaq ruhunun belə dərin kədəri necə duya bildiyinə heyranam.

Mən laqeyd görünməyə çalışıb cavab verdim:

– Bunlar kantik adlanan bir növ ilahilər – əsasən elə yanıqlı şeylərdir, əfəndim. Kədər məndə deyil, bunların özündədir.

[1] Orqan – kilsələrdə çalınan, quruluşca qarmona, zahirən pianoya bənzəyən musiqi aləti; ərqənun

[2] Kantik – dini nəğmə



Yusif əfəndi bu sözlərimə inanmadı, başını yavaşca yırğalayıb dedi:

– Özümü bir musiqi ustadı adlandıra bilmərəm, amma bir musiqi parçasındakı məziyyətlərdən hansının bəstəkara, hansının onu çalana aid olduğunu bilməkdə yanılmaram. Səslər kimi, barmaqların da bəzi titrəyişləri var ki, yalnız həssas bir qəlbin kədərindən əmələ gələr. Bu kantik dediyiniz ilahilərdən bəzilərinin notasını mənə lütf edib verə bilərsinizmi?

– Bunlar yadımda qalan şeylərdir, əfəndim, notalarını bilmirəm.

– Ziyan yoxdur. Bir gün münasib bir vaxt olanda, siz orqanda təkrar onları lütf edib çalarsınız, bəndəniz də dəftərinə qeyd edər. Bu yaxınlarda vəfat etmiş qoca bir rahibin şeyləri içərisindən bəndəniz də bir orqan almışdı. Çünki musiqi alətlərinə marağım var, əfəndim. Evimin bir guşəsinə qoymuşam. Bu parçaları çalmaq istərdim.

Danışa-danışa salondan çıxmışdıq. Biz ayrılanda, Şeyx əfəndi mənə bir vədə verdi:

– Səmimi bir kədərlə yazılmış bəzi musiqi parçalarım var ki, heç kəs üçün çalmamışam. Bilirəm ki, başa düşməyəcəklər. İnşallah onları bir gün sizin üçün çalaram, olmazmı, kiçik xanım?

Bax, bu hadisə Şeyx əfəndi ilə olan dostluğumuzu daha da artırdı. Vəd etdiyi musiqi parçalarını hələ dinləməmişəm. Amma çox gözəl şeylər olacağını təxmin edirəm. Çünki bu xəstə və həssas Şeyx ən adi taxta parçasına da əlini vursa, elə bilirəm ki, onu da fəryada gətirəcəkdir. Bir neçə gün bundan əvvəl uşaqlardan biri satın almaq istədiyi bir udu[1] yoxlatdırmaq üçün ona gətirmişdi. Şeyx əfəndi barmaqlarının ucu ilə tellərə eləcə bir neçə dəfə toxundu. Mən elə bildim ki, bu incə barmaqlar uda deyil, mənim könlümün içinə toxunurdu.

*B..., 5 may.*

Dünən böyük bir günah etdim: üstü açılacağından elə qorxuram ki, ürəyim əsir. Gördüyüm işin yaxşı olmadığını bilirəm. Amma neyləyim, ürəyim mənə belə bir əmr etdi.

Müəllimlər həftədə bir gecə məktəbdə növbətçi qalırlar. Dünən gecə növbə mənimdi.

[1] Ud – simli Şərq çalğı aləti

Axşam şagirdlər dərslə məşğul olduqları zaman müavinə Şəhnazə xanımla birlikdə məktəbi gəzirdik. Siniflərin birində qaz lampasının yaxşı yanmadığını görüb içəri girdik. Müavinə çox bacarıqlı bir qadındır. Əlindən hər iş gəlir. Ayağının altına bir stul çəkib lampanı yoxlayırdı. Qapıdan qoca xidmətçi qadın içəri girdi. Əlində bir məktubla dal cərgədə oturmuş bir şagirdə sarı getdi.

Elə məktubu ona vermək istəyəndə, müavinə xanım birdən-birə dedi:

– Dayan, Ayşə qadın, o nədir?

– Heç, Cəmilə xanım üçün qapıçıya bir məktub veriblər.

– Onu mənə gətir. Sənə neçə dəfə tapşırmışam ki, şagirdlərə gələn məktubları əvvəlcə mən görməliyəm. Nə beyinsiz qadınsan!

Bu dəqiqədə qəribə bir şey oldu. Cəmilə yerindən atılıb xidmətçi qadının əlindən məktubu qapdı.

Müavinə xanım heç vəziyyətini pozmayıb dedi:

– Bura gəl, Cəmilə!

Cəmilə hərəkət etmirdi.

– Deyirəm bura gəl, Cəmilə, nə üçün itaət etmirsən?

Bu cılız, xəstə qadında elə bir əmredici əda vardı ki, mən özüm də titrədim. Sinfə dərin bir sakitlik çökmüşdü, milçək uçsaydı, səsini eşitmək olardı.

Cəmilə başını aşağı salaraq ağır-ağır yanımıza gəldi.

On altı-on yeddi yaşlarında gözəl bir gənc qızdı. Həmişə yoldaşlarından qaçdığını, bağçada tənha guşələrdə fikirli-fikirli gəzişdiyini görərdim. Dərslərdə də fikirli və qəmgin olardı.

Üzünü yaxından görəndə, qızın böyük bir həyəcan içində olduğunu başa düşdüm. Üzündə bir damcı qan qalmamışdı. Qarşımızda başını əyəndə dodaqları saralır, göz qapaqları titrəyirmiş kimi sürətlə açılıb-yumulurdu.

– Cəmilə, o məktubu bəri ver!

– ...

Müavinə xanım hirsli bir səbirsizliklə ayağını yerə vurdu:

– Tez ol, nə gözləyirsən?

– Nə üçün, müavinə xanım, nə üçün?

Bu "nə üçün" sözündə, bu kiçik kəlmədə məyus bir üsyan vardı. Müavinə xanım sərt bir hərəkətlə əlini uzatdı, qızın biləyini burub məktubu aldı.



– Haydı, indi yerinə get!

Şəhnazə xanım zərfin üstünə göz gəzdirəndə, yavaşca qaşlarını çatdı. Amma tez özünü ələ aldı. Sinifdə dərin bir sakitlik vardısa da, amma hamının həyəcan içində olduğu hiss olunurdu. Müavinə xanım sinfə müraciətlə dedi:

– Məktub Cəmilənin Suriyadakı qardaşından gəlmişdir. Ancaq mənim sözümə həmin saat itaət etmədiyi üçün, sabaha qədər verməyəcəyəm.

Şagirdlər yenə başlarını kitablarının üzərinə əydilər. Mən müavinə xanımla bərabər bayıra çıxanda, sinfə gizlin bir göz gəzdirdim. Dal cərgələrdə bir neçə gənc qız baş-başa verib nə isə pıçıldaşırdı. Cəmiləyə gəlincə o, başını skamyanın üstünə əyib üzünü gizlətmişdi, amma çiyinləri yüngül sarsıntılarla titrəyirdi.

Dəhlizdə gedərkən müavinə xanıma dedim:

– Cəzanız çox ağır oldu. Sabaha qədər necə gözləyəcək? Kim bilir nə qədər nigarançılıq çəkəcəkdir?

– Narahat olma, qızım. O özü başa düşmüşdür ki, bu məktubu heç bir zaman oxumayacaqdır.

– Necə, müavinə xanım, qardaşından gələn bu məktubu ona verməyəcəksinizmi?

– Xeyr, qızım.

– Nə üçün?

– Çünki qardaşından gəlməmişdir.

Müavinə xanım səsini daha da alçaldıb sözünə davam etdi:

– Bu Cəmilə adlı-sanlı bir adamın qızıdır. Bu il gənc bir mülazimi sevməyə başlamışdır. Atası buna əsla razı olmur. Bu qız həm məktəbdə, həm də evdə göz dustağıdır. Mülazimi Bandırmaya göndərmişlər. Biz bu uşağı yavaş-yavaş müalicə etməyə çalışırıq. Halbuki, o mülazim tez-tez biçarənin yarasını təzələyir. Bu üçüncü məktubdur ki, əlimə keçir.

Danışa-danışa müavinə xanımın otağına gəlib çatdıq. Şəhnazə xanım əsəbi bir hərəkətlə bu məktubu büzüşdürüb, sobanın qapağını açıb içəri atdı.

Gecənin yarısına az qalırdı. Mən hələ növbətçi müəllimlər otağındakı yatağımda yuxuya gedə bilməmişdim. Axır qərarımı verdim.

Dəhlizdə gəzişən növbətçi xidmətçi qadını bir bəhanə ilə aşağı göndərib, müdir müavininin boş otağına girdim. Pərdələri açıq qalmış bir pəncərədən otağa solğun ay işığı düşürdü. Gecə oğrusu kimi, titrəyə-titrəyə sobanın qapağını açdım. Cırılmış, büzüşdürülmüş kağız yığınları içindən yazıq Cəmilənin məktubunu tapıb çıxardım.

Növbətçi olduğum gecələrdə hamı yatdıqdan sonra boş dəhlizlərdə, səssiz, qaranlıq otaqlarda gəzməyi çox xoşlayardım. Bir yerdə üstü açılmış bir kiçik qızın üstünü örtərəm, o biri tərəfdə yatağında öskürən balaca xəstə qızın yorğanını düzəldərəm, qızdırmalı başına yavaşca əlimi qoyaram, bir az da o yanda qumral saç yığını içində gənc bir qızın yatdığını görüb, onun yarı açıq incə dodaqlarının hansı bir ümidlə gülümsündüyünü öz-özümdən soruşaram.

Bir çox gənc qızın yatdığı bu alaqaranlıq, səssiz yataqxanalara ağır bir röya buludu çökmüş kimidir. Bu havanı dağıtmamaq, biçarələri gec-tez itirəcəkləri bu röyadan oyandırmamaq üçün, pəncələrimin üstündə səssiz, ürəyim titrəyə-titrəyə gəzərəm.

O gecə Cəmilənin çarpayısını tapdığım vaxt, biçarə qız yenicə yuxuya getmişdi. Bunu, kirpiklərində hələ qurumamış göz yaşı damcılarından duydum.

Yavaşca onun üzərinə əyilib, ürəyimdə dedim:

– Bəxtiyar kiçik qız, məktəb önlüyünün cibində sevgilindən gələn məktubu tapanda, kim bilir nə qədər sevinəcəksən! Bu itirdiyin şeyi hansı gözə görünməyən gecə pərisinin gətirib sənin cibinə qoyduğunu öz-özündən soruşacaqsan. Cəmilə, onu gətirən bir pəri deyil, eləcə bir biçarədir, nifrət etdiyi bir adamdan gələ bilən məktubları həmişə qəlbinin bir parçası ilə birlikdə yandırmağa məhkum olmuş bir bədbəxtdir...

*B..., 20 may.*

Dünən dərslər kəsildi. Üç gündən sonra imtahanlara başlayacağıq.

“B”-dəki bütün qızlar məktəbi bu gün şəhərdən bir saatlıq məsafədə olan çay kənarında may bayramını keçirirlər. Mən belə tünlük, basırıq gəzintilərdən xoşlanmıram. Ona görə ora getməyib, bu günü bağçada keçirmək istəyirdim. Amma qız məktəblərinin nəğmə oxuya-oxuya keçdiklərini görən Munisə sızıldamağa başladı. Elə onun könlünü almağa çalışırdım ki, qapı taqqataqla döyüldü. Baxıb gördüm ki,



müəllim yoldaşlarımdan Vəsfiyyə ilə son sinifdən bir neçə şagird gəlmişdir. Vəsfiyyəni müdir göndərib, əmr etmişdi ki, mütləq məni yanına salıb aparsın. Rəcəb əfəndi bağıra-bağıra deyibmiş:

– Tövbə olsun, mən onun xətrinə quzu doldurtdurmuşam, halva çaldırmışam. Bu nə rəzalətdir! Olmaz əfəndim, olmaz!

Şagirdlərim də son sinif adından xahişə gəlmişdilər.

Uşaqlar inadla deyirlərmiş ki, “İpək qurdu” getməsə, biz də dünyada getmərik.

“İpək qurdu” mənim təzə adımdır. Çalıquşu qurtardı, indi “İpək qurdu” çıxdı. Həm də pis cəhəti budur ki, böyük şagirdlərim elə üzümə də “İpək qurdu” deməkdən çəkinmirlər. Vallah az qala izzəti-nəfsimə, müəllimlik vüqarıma toxunur. Bu ad yenə məktəbdə qalsa, dərd yarıdır. Bu yaxınlarda bir qəhvəxananın önündən keçirdim. Deyildiyinə görə, varlı bir ipək taciri olan gen şalvarlı, mintanlı[1] yekəpər bir adam qəhvəxananın bir başından o biri başına belə bağırırdı: “Səkkiz tut bağçam var. Belə ipək qurduna səkkizi də qurban olsun!” Elə utandım ki, yer ayrılsaydı, girərdim. Daha bir də o küçədən keçmirəm. Çətin bir vəziyyətdə qalmışdım. Əgər “getmirəm” – deyə inad etsəm, deyəcəklər ki, “özünü naza qoyur”, mənə lağ edəcəklər. Onun üçün çarəsiz çarşabımı geydim, onlara qoşulub getdim.

Kiçik şagirdlərə ağ paltarlar geyindirmişdilər. Çayın kənarı çobanyastığı çiçəkləri ilə dolu bir çəmənliyə dönmüşdü. Bu şəhərdə nə çox qız məktəbi varmış! Yaşıl bağçaların arasındakı əyri-üyrü yollardan marşlar oxuya-oxuya gələn məktəbli qız dəstələri bitib-tükənmək bilmirdi.

Kişi müəllimlər çayın o biri sahilindəki bir ağaclığa çəkilmişdilər. Yalnız Rəcəb əfəndi, əynində göy ləbbadəsi, əlində yekə qara çətiri ilə bizim aramızda gəzir, bir tərəfdə daşdan ocaqlar quran aşpazlara bağıra-bağıra əmrlər verirdi. Müəllimlərlə böyük şagirdlər çarşablarını atıb açıq gəzmək və əylənə bilmək üçün müdir əfəndini güc-bəla ilə razı edib kişi müəllimlərin yanına göndərdilər.

Bilmirəm nə üçün, mən bu gün heç əylənə bilmirdim. Bu yüzlərcə qız uşağının səs-küylü şadlığı, sevinci mənə yorğun bir qəmginlikdən başqa bir şey vermirdi.

---

[1] Mintan – qolçaqları gen don

Bir yanda ibtidai məktəb şagirdləri musiqi ilə marş oxuyur, o biri yanda bir dəstə gənc qız itələşə-itələşə hay-küylə top-top, yaxud əsiralma oyunu oynayır, bir az o yanda bir yığın adam şeir oxuyan, yaxud nitq söyləyən bir uşağı alqışlayırdı. Munisə bu tünlüyün içində yox olmuşdu. O dəcəl heç mənim yanımda oturardımı?

Uzaqda, yüksək bir bəndin kənarında bir cərgə şabalıd ağacı vardı. Gənc müəllimlərdən bəziləri böyük şagirdlərlə bərabər ağaclardan yelləncək asmışdılar. Yarpaqların arasında rəngbərəng ətəklər uçur, çığırtılar, qəhqəhələr eşidilirdi.

Mən yavaş-yavaş bu tünlükdən ayrılıb sel çuxurunun kənarında, iri bir qayanın kölgəsində oturmuşdum. Daşın oyuqlarında bitmiş sarı çiçəkləri qoparıb, ayaqlarımın altından axan suya atır, öz-özümə fikirləşirdim.

Birdən-birə arxamda incə bir səsin belə çığırdığını eşitdim: "Tapdım... İpək qurdu burdadır!"

Sən demə, yelləncəkdə əylənmək üçün məni axtarırlarmış. Yarı zorla məni ora apardılar. Mən deyirdim ki, "istəmirəm, yorğunam, yellənməyi bacarmıram". Amma nə yoldaşlarıma, nə də şagirdlərimə söz başa salmaq mümkün idi. Mürüvvət xanım (vaxtilə məni Mərkəz rüşdiyyə məktəbində müdafiə edən qaragözlü qadın) mütləq mənimlə yellənmək istəyirdi. Yelləncəklərdən birinə atıldıq. Amma bu nahaqdı. Mənim qollarım titrəyir, dizlərim bədənimin ağırlığını qaldıra bilmir kimi çökürdü. Yazıq Mürüvvət bir xeyli əlləşdikdən sonra bu işdən əl çəkməli olub dedi:

– Nahaqdır, ay İpək qurdu... Sən doğrudan da yellənməkdən qorxursan. Bənizin kül kimi oldu, yıxılarsan...

Günorta yeməyində müdir əfəndi bizim yanımızda idi.

Mənim bugünkü bikefliyimi o da başa düşmüşdü. "Hanı, niyə gülmürsən, ay tərs uşaq, vay... Gülmə deyəndə – gülərsən, burda qaşqabağını töküb durubsan!" – dedikdən sonra da məndən əl çəkmədi. Mənə öz əli ilə çay dəmləyib vermək istəyirdi. Müəllimlərdən biri uzaqdan əl işarəsi ilə məni çağırıb dedi:

– Xidmətçilərdən birini göndərib, Şeyx Yusif əfəndiyə bir təmbur[1] gətirtmişik. Uzaq bir yerdə ona çaldıracağıq. Amandır, özünü o çərənçinin əlindən birtəhər qurtar, bura gəl.

[1] Təmbur – altı simli Şərq çalğı aləti



Bu, doğrudan da, elə bir fürsətdi ki, əldən vermək olmazdı. Yusif əfəndinin musiqisini dinləmək arzusu mənim ən böyük bir arzumdu. Yazıq bəstəkar xeyli vaxtdan bəri xəstə idi. Məktəbə gələ bilmirdi.

Eşitmişdik ki, bir-iki gündən bəri yaxşılaşmışdır. O da bugünkü məktəb əyləncəsinə gəlmək istəmişdi.

Müəllimlər Yusif əfəndini bir bəhanə ilə kişilərdən ayırmışdılar. Səkkiz-on nəfərlik bir dəstədən ibarət olan biz, gözə görünmədən çayın kənarındakı bir cığırla getməyə başladıq. Şeyx əfəndi bu gün çox canlı və nəşəli idi. Yolun uzandığını görüb, onun yorulmasından qorxanlara gülə-gülə deyirdi: "Bu incə yol əbədiyyətə qədər getsə, yenə də yorulmaram. Bu gün özümü çox qüvvətli hiss edirəm".

Yoldaşlardan biri qulağıma əyilib yavaşcadan dedi ki, kişi müəllimlərdən bəziləri bir guşəyə çəkilib, gizlincə araq içmişlər. Şeyx əfəndiyə də bir neçə qədəh vermişlər. Yusif əfəndinin nəşəsi bəlkə bir az da bundan idi.

Bu cığırla on beş dəqiqə getdikdən sonra, xaraba bir su dəyirmanına çatdıq. "Çağlayanlar" adlanan bu yerdə dərə birdən-birə daralır, demək olar ki, bir boğaz halını alırdı. Dərənin kənarındakı qayalıqlar çox yüksək idi. Günəş oraya, az-az hallarda düşürdü, burada su səhər şəfəqində olan kimi axıb gedirdi.

Buradan bizim səsimizi heç kəs eşidə bilməzdi. Şeyx Yusif əfəndini sıx yarpaqlı bir qoz ağacının altında oturtdular, təmburu əlinə verdilər. Mən xeyli aralı, dövrəsində suların köpüklənə-köpüklənə axdığı bir qayanın üstündə oturmuşdum. Yoldaşlar yenə məni rahat qoymadılar:

– Olmaz, olmaz... Bura gəl, mütləq gələcəksən! – deyə məni bəstəkarın qarşısında oturtdular.

Təmbur çalınmağa başlandı... Bu musiqi ömrümdə qulaqlarımdan getməyəcək! Yoldaşlar otların üstündə yarı uzanmışdılar.

Ən kobud görünənlərin də dodaqları titrəyir, gözləri dolurdu, elə bil ki, indicə ağlayacaqdılar.

Qumral saçlarını çiynimə söykəmiş Vəsfiyyənin qulağına dedim:

– Mən Şeyx əfəndinin çalğısını ilk dəfə məktəbdə dinləmişdim. Təbii, çox gözəldi, amma belə deyildi...

Vəsfiyyə gözlərini süzüb mənalı-mənalı gülümsünüb dedi:

– Bəli, çünki Yusif əfəndi ömründə heç bir vaxt bugünkü qədər xoşbəxt və eyni zamanda bədbəxt olmamışdır.

– Nə üçün? – deyə soruşdum.

O, diqqətlə üzümə baxdı, başını təkrar mənim çiynimə qoyub dedi:

– Sus, dinləyək...

Şeyx bu gün hey köhnə nəğmələr çalırdı. Bunlardan heç birini indiyə qədər dinləməmişdim. Hər parçanın sonunda, daha qurtaracaq, – deyə ürəyim titrəyirdi. Amma Yusif əfəndi, gözləri yarıyumulu, yavaş-yavaş saralmağa başlayan gicgahları azca tərləmiş halda, bir nəğməni bitirən kimi, o birini çalmağa başlayırdı.

Mən gözlərimi bu yarıyumulu gözlərdən ayıra bilmirdim. Bir ara onun solğun yanaqlarına bir neçə damcı yaş süzüldüyünü gördüm. Birdən-birə ona ürəyim yandı. Xəstəni bu qədər yormaq günahdı. Özümü saxlaya bilmədim, nəğmələrdən birini çalıb qurtarmasından istifadə edib dedim:

– Bir az dincəlməzsinizmi? Narahat görünürsünüz, sizə nə olmuşdur?

Cavab vermədi. Yaş kirpiklərinin arasından, o məsum, uşaq gözləri ilə mənə baxdı, sonra təkrar başını tənburuna dayayıb yeni bir nəğmə çalmağa başladı.

> "Sinəm yanır, açdırma mənim ağzımı, ey yar,
> Zalım, məni söylətmə ki, qəlbimdə nələr var!.."

Yusif əfəndi nəğməni qurtaranda, başı tənburun üstünə düşdü. Yazıq bir anlıq huşunu itirdi. Müəllimlər hamısı çaşıb qaldılar. Mən dedim: "Biz bais olduq, gərək bu qədər yormayaydıq!" Yaylığımı islatmaq üçün mən sürətlə daşların üstündən atılıb, çaya endim. Bu çox yüngül bir bihuşluq idi. Hətta, demək olar ki, başgicəllənməsi idi. Əlimdə yaş yaylıq onun yanına qayıtdığım zaman, gözlərini açmışdı. Mən dedim:

– Bizi qorxutdunuz, əfəndim.

O, tutqun halda gülümsünüb dedi:

– Bir elə şey deyil, hərdənbir olur.

Yoldaşlarımda bir qəribəlik hiss etməyə başlayırdım. Mənə mənalı-mənalı baxıb aralarında yavaş-yavaş nəsə danışırdılar.

Həmin yol ilə geri qayıdırdıq. Vəsfiyyə ilə bərabər ən geridə gəlirdik.



– Bu Şeyx əfəndidə nəsə var, – dedim. – Elə bil ki, gizlin-gizlin nəyin isə dərdini çəkir.

Yoldaşım bir az əvvəlki o mənalı baxışı ilə məni təkrar süzüb dedi:

– Doğrumu deyirsən, Fəridə, məndən incimə, amma inana bilmirəm. Deməli, sənin heç bir şeydən xəbərin yoxdur?

Vəsfiyyə gözlərini qəribə bir baxışla mənə zilləmişdi.

– Bilsəydim, niyə gizlədirdim? – dedim.

O yenə inanmadı:

– Necə olur ki, bütün "B"-nin bildiyi bir şeyi sən hələ bilmirsən?

Bu mənasız şübhəyə gülümsünüb çiyinlərimi çəkdim:

– Bilirsən ki, mən "B"-də çox tənha və yalqız yaşayıram. Heç bir kəsin heç bir şeyi ilə maraqlanmıram.

Yoldaşım əllərimi tutub dedi:

– Yusif əfəndi səni elə sevir ki, Fəridə!..

Qeyri-ixtiyari əllərimi üzümə tutdum. Çay kənarında uşaqların sevincli hay-küyü hələ də davam edirdi. Heç kəsə bildirmədən o dəstədən ayrıldım, iki bağça arasındakı dar bir yola dönüb təkbaşına evə qayıtdım.

*B..., 25 iyul.*

Yay ayları uzandıqca uzanır. İstilər dözülə bilməyəcək dərəcədədir. Hər şey saraldı, ətrafda yaşıllıq adına heç bir şey qalmadı. Qarşıdakı tünd-yaşıl təpələr solğun, yanıq bir rəng aldı. Onlar uzaqda yay günəşinin gözqamaşdırıcı işıqları altında yekə kül yığınları kimi, cansız və mənasız görünür. Sıxılıram. O qədər sıxılıram ki, elə bil boğulacağam, öləcəyəm. Bura indi bomboşdur. Şagirdlər dağılmışdılar. Müəllimlərdən bir çoxu tətil aylarını keçirmək üçün başqa yerlərə getdilər. Nəzihə ilə Vəsfiyyə mənə hərdənbir İstanbuldan məktub göndərirlər. Bu il İstanbul çox gözəlmiş. Sular və ada barəsində yazmaqdan doymurlar. Əgər bir vasitə tapıb işlərini düzəldə bilsələr, orada qalacaqlar.

Sözün düzü, mənim də burda qalmağa fikrim yoxdur. Şeyx Yusif əfəndi ilə olan hadisə mənə çox təsir etdi. Adam arasına çıxmağa utanıram. Məktəblər açılan vaxt, başqa bir yerdə dərs istəyəcəyəm.

Daha uzaq, hətta daha pis yerə getməyə razıyam. Elə bir yer olsun ki, məni yorsun, əldən salsın, ziyanı yoxdur, amma orada öz-özümlə tək qala bilim.

*B..., 5 avqust.*

Müəllimlik edəndən bəri ikinci dəfədir ki, şagirdlərimin gəlin olduğunu görürəm. Amma busəfərki yazıq Zəhranınkı kimi deyildir. Bu gecə, bu saatda Cəmilə, daha kirpiklərində qurumamış göz yaşı damcıları ilə öz yatağında yatmır. Cəmilənin gözəl başına, bu gecə, bu saatda sevdiyi gənc mülazimin köksü yataq oldu. Bu uşaqların ikisi də bir-birlərinə olan məhəbbətlərində elə möhkəmlik göstərdilər ki, axırda anaları, ataları da razılıq verməyə məcbur oldular.

Cəmiləni də Zəhra kimi öz əllərimlə bəzədim. Neçə vaxt idi ki, tünlük yerə getməməyi qərara almışdım. Amma Cəmilə özü evimə gəldi, əllərimi öpüb yalvardı. Görəsən bir gecə qaranlıqda ona etdiyim xidməti başa düşmüşdümü? Bunu bilmirəm. Amma anasını-atasını razı etdiyi gün, ilk gözaydınlığını mənə bildirdi. Yəqin ki, o hadisədən hər şeyi duymuşdu.

Bəli, Cəmiləni öz əlimlə bəzədim, duvağını öz əlimlə başına saldım. Burada bir adət var: kim olursa olsun, gənc qızların saçına mütləq bir neçə gəlin teli taxırlar. Bunu bir uğur sayırlar. Mənim coşqun inadıma baxmayaraq, Cəmilənin anasının mənim saçımın bir tərəfinə bir-iki tel ilişdirməsinə mane ola bilmədim.

Mən mülazimlə çox maraqlandım. Cəmiləni onun qolunda görmədikcə, səadətlərinə inana bilməyəcəkdim. Amma buna imkan olmadı. Evə qayıtmağa məcbur oldum.

Hər yerdə olduğu kimi burada da bütün qadınların mənə gizlin-gizlin baxdıqlarını, bir-birlərinə nə isə pıçıldadıqlarını gördüm. Bütün dodaqlarda yenə "İpək qurdu" sözü söylənirdi. Deyildiyinə görə, şəhər idarəsi rəisinin arvadı olan, almazlarla, qızıllarla bəzənmiş ətli-canlı bir qadın üzümə diqqətlə baxdıqdan sonra, yanındakılara mənim eşidə biləcəyim bir səslə dedi:

– Bu İpək qurdu, doğrudan da, bir bəladır. Yazığın yanıb-yaxılmağa haqqı varmış.

Daha burda qala bilməzdim. Cəmilənin anasından icazə istədim. Xəstə olduğumu, burada qala bilməyəcəyimi söylədim. Kiçik gəlinin yanında müəllimə yoldaşlarımdan bir neçəsi vardı. Qoca qadın onları mənə göstərib dedi:

– Müəllimləri Cəmiləyə nəsihət verirlər, xanım qızım, sən də bir-iki şey söylə.

Bu məsum arzunu gülümsünə-gülümsünə qəbul etdim. Şagirdimi bir guşəyə çəkib, ona dedim:

– Cəmilə, müəllimən olduğum üçün, anan mənə tapşırdı ki, sənə nəsihət verim. Nəsihətlərin ən gözəlini sən özün-özünə verdin. Ancaq qızım, sənə bir tapşırığım var, mülazim nişanlın indi sənin yanına gəlməmişdən əvvəl, küçədən yad bir qadının gəldiyini, sənə gizlin bir şey söyləmək istədiyini xəbər versələr, onun sözlərini dinləməyəsən; o qadından qaç, gözəl başını nişanlının qüvvətli sinəsində gizlət...

Kim bilir, Cəmilə bu sözlərə nə qədər heyrət etmişdi. Haqqı da var. Çünki indi mən özüm də heyrət edirəm. Bu sözləri bir yad adamın ağzından eşitmiş kimi, səbəbini, mənasını öz-özümdən soruşuram.

*B..., 27 avqust.*

Bu axşam xırdaca bağçamızda bir qonaqlıq vardı. Munisə ilə bərabər Hacı qalfanın ailəsini axşam yeməyinə çağırmışdıq. Zarafat üçün küçədən üç-dörd dənə qırmızı kağız fanar aldırıb, cılız bir badam ağacının süfrənin üstünə əyilən budaqlarından asmışdıq. Hacı qalfa bunları görəndə, xoşhallanıb dedi:

– Ay bala, bu qonaqlıq deyil, On iyul[1] şənliyidir.

Mən gülüb dedim:

– Hacı qalfa, bu gecə mənim özümün On iyul bayramımdır.

Bəli, bu gecə mənim azadlıq günümdür. Çalıquşunun qəfəsdən qurtarmasının bu gecə bir ili tamam olurdu. Bir il – üç yüz altmış beş gün... Nə uzun!..

Əvvəlcə çox şəndim. Arası kəsilmədən gülüb danışırdım. O qədər hoqqabazlıq edirdim ki, samatyalı madamın gülməkdən nəfəsi tutulur, Haykanuşun sızanaqlarla dolu şişkin üzü budaqlardakı qırmızı fanarlarla həmrəng olurdu. Hacı qalfanın, əllərini dizlərinə vurub:

– Dil otumu yeyibsən, ay qız? – deyərək, elə məzəli gülməsi vardı ki...

[1] On iyul – Türkiyədə konstitusiyalı monarxiyanın elan edilməsi günüdür.

Bağçada gecəyə qədər oturduq, sonra fanarlarından birini Mirata, birini Haykanuşa verib qonaqlarımı yola saldım. Munisə gündüzdən çox yorğun olduğu üçün, hələ biz söhbət etdiyimiz zaman, stulda otura-otura yatmağa başlamışdı. Onu yatağına göndərdim, özüm bağçada tək qaldım.

Sakit, ulduzlu bir gecə idi. Qarşı səkidəki evlərdə işıqlar sönmüşdü. Bu ulduzlu göyün altında dağ, qorxunc bir kölgə kimi ucalırdı.

Biləklərimi və alnımı bağçanın kənarındakı barmaqlığın soyuq dəmirinə dayadım. Ətrafımda nə bir səs, nə də həyat vardı... Yalnız uçurumun dibində bu dözülməz istiliklərə baxmayaraq, hələ qurumamış çaydan yüngül bir şırıltı eşidilir, suda bir neçə ulduzun əksi görünürdü.

Kağız fanarların şamı daha yanıb qurtarırdı. Onların rəngli işıqları ilə bərabər qəlbimdəki nəşənin də saralıb-solduğunu, könlümə dərin, çarəsiz bir qaranlıq çökməyə başladığını hiss edirdim.

Bu bir ilin gah qaranlıq, gah aydınlıq günlərini bir-bir xəyalımdan keçirdim: nə uzun, ya rəbbi, nə uzun bir vaxt idi!..

Mənim soyuğa, cəfaya, möhnətə heç şikayət etmədən dözən sağlam bir vücudum var.

Ola bilər ki, hələ qırx il, əlli il yaşayacağam. Ola bilər ki, hələ əlli il bu qəmgin qələbənin qəmgin ildönümünü görmək lazım gələcəkdir. Həyat nə uzundur, ya rəbbi! Nə uzundur!..

Ola bilər ki, Munisə də mənə qalmayacaqdır.

Saçlarıma yavaş-yavaş dən düşəcəkdir.

Ümid edim, dözüm, çox gözəl. Mən buna razıyam, amma nə üçün, nəyi gözləmək üçün?!

Bu bir il içində bir neçə dəfə özümü saxlaya bilməyib ağlamışam. Bunların heç birində bu gecə göz qapaqlarımın içini yandıran yaşdakı bu acılıq yoxdu. O vaxt eləcə gözlərim ağlamışdı, bu gecə isə könlüm ağlayırdı.

*B..., 1 oktyabr.*

İki həftədir ki, dərslər başlanmışdır. Müəllimə yoldaşlarımın bir çoxu "B"-yə qayıtdılar. Hətta, mütləq İstanbulda qalmaq istəyən Vəsfiyyə də gəldi. Biçarə heç cür boş yer tapa bilməmişdi.



Nəzihənin başına bir dövlət quşu qonubmuş. Bir cümə günü Qızıl Buynuz sahilində gənc zabitə rast gəlibmişlər. Zabit onları Fatihə qədər izləyibmiş.

Bu iki yoldaşımın indiyə qədər rast gəldikləri bütün kişilər kimi, o da Vəsfiyyəni xoşlayıbmış. Hətta bilmirəm hansı parkda isə bir-birlərinə görüş də təyin ediblərmiş. Amma işin tərsliyindən o gün Vəsfiyyənin qonaqları gəlibmiş. Zabiti nigaran qoymamaq üçün, Nəzihəyə yalvarıb deyibmiş:

– Quzum Nəzihə, sən mənim yerimə get. Ona söylə ki, bu gün gələ bilməyəcəyəm. Başqa bir gün üçün görüş vaxtı təyin elə.

Nəzihə axşam evə qayıdanda, deyibmiş ki, guya zabiti orda görməyib. Amma qızın halında bir qəribəlik varmış. Bir neçə gündən sonra işin üstü açılıbmış. Sən demə, o gün Nəzihə bir kələk işlədib gənc zabitin könlünə giribmiş, xain qız bir həftədən sonra onunla nişanlanıbmış.

Vəsfiyyə çox kədərlidir. Bir yandan əziz bir yoldaşı tərəfindən aldadılması ona ağır gəlir, o biri yandan da tək qalmağından şikayətlənir. Tez-tez içini çəkib deyir:

– Ah, Fəridə xanım, sizinlə nə gözəl yoldaş ola bilərdik. Amma necə deyim, siz o qədər nəşəli, yaxşı, mehriban bir qız olduğunuz halda, həyatın ləzzətini bilmirsiniz.

Yuvalarda yumurtadan yenicə balalar çıxanda necə şən bir həyat olursa, məktəbdə də elə bir hal var.

Xüsusən bir neçə gün bundan əvvəl şimşəklər və göy gurultuları ilə başlanan şiddətli yağış, isti və sakit yayın məndə əmələ gətirdiyi o zəhlətökən qəmginliyi, anlaşılmaz həyat yorğunluğunu dağıtdı. Elə yüngül, elə nəşəliyəm ki...

*B..., 17 oktyabr.*

Yağışlar on gündür ki yağır, həm də şiddətlə yağır. İlk günlərdə mənim kimi sevinən, solğun üzlərinə təzə bir həyat rəngi gələn son çiçəklər də xarab oldular. Biçarələr ara verməyən yağan yağışın altında başlarını əyib titrəşir, elə bil, deyirlər ki, daha bəsdir!

Bu axşam məktəbdən qayıdanda mən də, demək olar ki, elə bu çiçəklərin vəziyyətində idim. Möhkəmcə islanmışdım. Çarşabım

bədənimə, yaşmağım üzümə yapışır, küçədə rast gəldiyim adamlar mənə baxıb gülürdülər.

Bu axşam Munisənin bənizi bir qədər solğundu. Tumov olmasından qorxub onu axşamdan zorla yatağına saldım, cökə çiçəyi qaynatdım.

Yaramaz qız yatağında şikayət edir, mənim bu vurnuxmama lağ edib deyir:

– Abacığım, soyuq adama neylər? Keçən il qarda samanlıqda yatdığım gecəni unudubsanmı?

Bu gecə heç yuxum gəlmirdi. Munisəni yatırtdıqdan sonra əlimə bir kitab alıb taxtın üstünə uzandım. Yağışın damın kənarında, su gölməçələrində çıxardığı səsləri, on beş gündən bəri arasıkəsilməyən bu matəm səslərini dinləməyə başladım. Nə qədər vaxt keçdiyini bilmirəm. Birdən-birə qapı bərk-bərk döyüldü. Bu vaxt kim ola bilərdi?

Qapını açmağa cəsarət edə bilmədim. Qonaq otağının cumbasından[1] boylanıb baxdım. Qaranlıqda uzunboylu bir qadın kölgəsi cumbanın altında yağışdan qorunmağa çalışır, əlindəki müşəmbə fanardan düşən işıq küçədəki su gölməçələrinin içində oynaşırdı.

– Kimdir? – deyə soruşdum.

Titrək bir səs cavab verdi:

– Açın, Fəridə xanımı görməyə gəlmişəm.

Qapını açanda titrəyirdim. O məlum axşamdan bəri yad qadınlardan gözüm qorxmuşdu. Nə vaxt belə bir qadının məni axtardığını görsəm, elə bilirdim ki, pis bir xəbər alacağam. Bu vaxtsız qonaq üzümü görmək üçün əlindəki fanarı qaldırdı. Solğun bir çöhrə, bir cüt qəmgin mavi göz seçə bildim.

– İçəri girməyə icazə verirsinizmi, hocanım?

Bu çöhrə, bu səs mənə arxayınlıq verdi. Kim olduğunu, nə üçün gəldiyini soruşmağı lazım bilmədən "buyurun" dedim. Yanımdakı qonaq otağının qapısını açdım.

Qadın, otağı islatmaqdan çəkinirmiş kimi ətrafına baxır, oturmağa cəsarət etmirdi.

---

[1] Cumba – şəbəkəli kiçik pəncərə. Bu pəncərənin ardından baxan adam bayırdan görünmür.



Eləcə bir söz danışmaq üçün dedi:

– Bu nə yağışdır, nə yağışdır... Az qalır adamın nəfəsini kəsə!

Mən diqqətlə onun üzünə baxırdım. Onun pərişanlığının yağışdan başqa bir səbəbi də olduğu aydın idi. Başa düşdüm ki, əsil məqsədini söyləmək üçün bir qədər sakitləşmək istəyir. Ona görə də birdən-birə nə istədiyini soruşmadım.

İlk hissim məni aldatmamışdı. Bu, mehriban üzlü, nəcib tövrlü bir qadındı.

Nəhayət:

– Kiminlə görüşürəm, əfəndim? – deyə soruşdum.

Məndən qorxurmuş kimi başını əydi:

– Fəridə xanım əfəndi, mən yad deyiləm. Hərçənd indiyə qədər görüşməmişik, amma sizi uzaqdan tanıyıram.

Bir az susdu, sonra birdən-birə cürətlənib əlavə etdi:

– Sizin həmsənətinizin bacısıyam. Məktəbinizin musiqi müəllimi Şeyx Yusif əfəndi...

Birdən-birə ürəyim ağzıma gəldi. Amma qüvvəti olmaq, heç bir şey büruzə verməmək lazımdı. Qadına dedim:

– Eləmi, əfəndim? Görüşdüyümüzə şadam. İnşallah ki, Şeyx əfəndi daha yaxşıdır.

Belə bir saatda, belə bir halda gələn qonağa söylənəcək söz, əlbəttə, bu deyildi. Amma mən başqa nə deyə bilərdim!..

O, cavab tapa bilməyib susurdu. Mən onun üzünə baxmağa cəsarət edə bilməyib, gözlərimi yerə endirmişdim. Yüngül bir hıçqırıq səsi eşitdim. Qurtulmağa imkan olmayan bir fəlakətlə razılaşan kimi, başımı daha da əyib gözlədim.

O, ağlamamaq üçün əlləri ilə köksünü, boynunu tuta-tuta dedi:

– Qardaşım ölür. Axşama yaxın halı birdən-birə ağırlaşdı. Altı saatdır ki, özünü bilmir. Səhərə çıxmayacaq...

Mən cavab vermədim. Nə söyləyə bilərdim?

– Kiçik xanım, Yusif məndən üç yaş kiçikdir, amma övladım sayılır. Anam öləndə, Yusif lap balaca idi. Mən də böyük deyildim. Bununla bərabər ona analıq etdim. Ömrümü ona bağladım. Dul qaldığım vaxt, siz yaşda ancaq olardım. Təkrar ərə gedə bilərdim, amma istəmədim. Təki, Yusifciyim yalqız qalmasın... Halbuki, kiçik xanım,

siz söyləyə bilərsiniz ki, bunları sizə nə üçün deyirəm? Mənə ayıb tutmayın. Belə bivaxt sizi narahat etdiyim üçün, yalvarıb sizdən istəyəcəyim bir şey üçün mənə acığınız tutmasın, məni qovmayın...

Söz bura çatdıqda, onun taqətdən düşmüş vücudunun birdən-birə çökdüyünü gördüm. Əhvalının xarab olduğunu güman edib çiyinlərindən tutmaq istədim. O mənim dizlərimi öpür, yerdə sürünərək, çırpına-çırpına ağlayırdı.

Yüngül bir hərəkətlə onun əlindən çıxdım. Belə bir dəqiqədə sakit olmaq nə qədər mümkünsə, bir o qədər sakit səslə dedim:

– Xanım əfəndi, fəlakətinizi başa düşürəm, söyləyin, əgər əlimdən gələn bir şeydirsə...

Qadının ağlamaqdan şişmiş solğun, mavi gözlərində bir ümid işığı canlandı. Yazıq köksünün çırpıntılarını əlləri ilə saxlamağa çalışaraq dedi:

– Yusif on ildən bəri xəstə idi. O qədər əlləşdim, o qədər çalışdım, məlun xəstəlik heç cür sağalmır, qardaşımı için-için yeyib qurtarırdı. Nəhayət, bu hadisə baş verdi. O, sizi gördü. Elə əslində çox həssas bir adamdı. Daha gözlə görüləcək dərəcədə əriyib qurtarmağa başladı.

Söz bura çatdıqda, özümü saxlaya bilməyib etiraz etdim:

– Xanım əfəndi, and içirəm ki, mən sizin qardaşınıza heç bir şey eləməmişəm. Əslində özüm də elə yaralıdan başqa bir şey deyiləm...

O, təkrar dizlərimi qucaqlayıb dedi:

– Xanım qızım, əzizim, bəlkə sizin də bir istədiyiniz var. Acığınız tutmasın. And içirəm ki, bunları şikayət üçün söyləmirəm. Mən göründüyü qədər kobud ruhlu qadın deyiləm. Ən nəhayət, Yusifin bacısıyam. İllərdən bəri onun musiqisinin təsiri altında yaşamışam. Sizdən deyil, hətta o təsadüfdən də şikayətim yoxdur. Yusifin yatağında şam kimi əridiyini görürdüm. Amma elə bilirdim ki, xoşbəxt ölür. Nə bir şikayəti var, nə bir acı söz deyir, nə də çırpınır. Hərdən huşunu itirirdi. Onda göz qapaqları yavaş-yavaş titrəyir, solğun dodaqları gizlin bir gülümsünmə ilə astadan sizin adınızı təkrar edir. Dünənə qədər bu dərdindən mənə heç nə danışmamışdı. Dünən əllərimi tutdu, barmaqlarımı bir-bir öpə-öpə: “Abla, onu bircə dəfə də mənə göstər!” – deyə uşaq kimi yalvarmağa başladı.

Mən Yusif üçün hər cür fədakarlığa razıydım. Amma buna imkanım yox idi. Ürəyim parça-parça oldu:



– Yaxşılaş, Yusif, tez sağal. Əlbəttə, bir gün onu yenə görəcəksən... – deyə alnını, saçlarını tumarladım. – Fəridə xanım, bu xəstənin heç bir şey söyləmədən necə küsdüyünü, başını o tərəfə çevirib, gözlərini necə ümidsizliklə yumduğunu gərək görəydiniz! Bunu sözlə ifadə etmək olmaz. Bu gün axşama yaxın gözlərini büsbütün yumdu. Mən onların bir də açılmayacağını bilirdim. Mən ömrümü, səadətimi onun uğrunda fəda etmiş, onu heç bir şeydən məhrum qoymamışdım. İndi ən çox istədiyi bir şeyi ona bircə dəfə göstərməyib həsrət içində gözlərini yumduğunu görmək, elə bir dərddir ki, Fəridə xanım, bunu sizə sözlə ifadə etmək mümkün deyil, əsla mümkün deyildir... Bu çox savab olar, lap elə bilin ki, can verən bir adamın dodağına bir damcı su tökmüsünüz...

Qadın daha davam edə bilmədi. Üzünü ətəyimin içinə soxub, uşaq kimi hıçqırmağa başladı...

Bu gecəki hadisələri bir röya kimi xatırlayıram...

Yağışın altında, önümdəki fanarın solğun işığında, bir çox dar, qaranlıq küçələrdən keçdim. Heç bir şey hiss etmir, heç bir şey duymur, selə düşmüş bir yarpaq kimi, iradəsiz sürüklənib gedirdim.

Məni kölgələrlə dolu, hündür geniş bir otağa apardılar. Divarlardan təmburlar, udlar, kamanlar asılmış, qat-qarışıq rəflərdə neylər düzülmüşdü. Bəstəkar bu çalğı alətləri ilə dolu otağın bir guşəsində, geniş bir dəmir çarpayıda ölürdü.

Pəncələrimizin üstündə yavaş-yavaş ona yaxınlaşdıq. Mum kimi sarı çöhrəsinə indidən ölüm sükunəti çökmüş, yumulu gözlərinin çuxuruna qaranlıq dolmuşdu. Yalnız dodaqlarında, aralarından ağappaq dişləri görünən dodaqlarında bir qədər həyat rəngi qalmışdı.

Bir az əvvəl o qədər təşvişli və pərişan görünən qadın bu son vəzifə qarşısında heyrətverici dərəcədə sakitlik və dözümlülük göstərirdi. Ya rəbbi, sevgi, şəfqət deyilən şeydə nə möcüzələr varmış! Məktəbə getməli olan uşağını yuxudan oyadan bir ana kimi, yazıq qadın əlini xəstənin başına qoyub dedi:

– Yusif, balacan, bax, yoldaşın Fəridə xanım sənin xatirini soruşmağa gəlmişdir. Aç gözünü, Yusif...

Xəstə heç bir şey istəmir, heç bir şey görmürdü. Onun bir də gözlərini açmadan ölə biləcəyini güman edən biçarə bacısı yavaş-yavaş

o gözəl dözümünü itirirdi. Təkrar ağlamağa, səsi boğulmağa başlamışdı:

– Yusif, balacan, bircə dəfə də gözlərini aç, onu görmədən ölsən, mən daha da bərk yanacağam!..

Məni ürəyim qısılır, dizlərim bədənimin ağırlığı altında çökən kimi olurdu. Çarpayının baş tərəfində stola bənzəyən bir qaranlıq şeyə söykənmişdim. Bunun orqan olduğunu başa düşüb titrədim. Qəlbim söylədi ki, bu biçarə gözləri son dəfə aça biləcək möcüzə, ancaq bu orqan ola bilər. Mənim düşündüyüm şey bəlkə də bir cinayət, bəlkə bundan da böyük bir günahdı. Amma kənarından baxanları içinə çəkən uçurumlar kimi, bu orqan da mənim dözümümü əlimdən aldı. Qeyri-ixtiyari olaraq ayağımı basdım, barmağımı dillərdən birinə qoydum.

Orqan yaralı bir könül kimi dərin-dərin inlədi. Otağın qaranlıq guşələri, divarlardan kölgələri uzanmış sazlar gizlin-gizlin fəğan edib titrəşdi.

Bunun bir həqiqətmi, yoxsa mənim yaşdan pərdələnmiş gözlərimin bir vahiməsini olduğunu söyləyə bilmərəm: mənə elə gəldi ki, xəstə bu səsi duyub, son dəfə bir də mavi gözlərini açdı.

Bacısı üzünü onun yatağına basıb hıçqırırdı.

Mən bir müqəddəs vəzifəni yerinə yetirən kimi, ölünün üstünə əyildim. Hələ azacıq həyat əlamətləri ilə titrəyən kimi görünən gözlərinə dodaqlarımı sürtdüm.

Mənim ilk busəm bir ölünün sönmüş gözlərinəmi qismət olmalı idi!..

*B..., 2 noyabr.*

Bu gecə "B"-dəki evimizdə son gecəmdir. Sabah tezdən yola düşürəm.

O hadisədən sonra, təbiidir ki, burada qala bilməzdim. Şəhərdə hamı məndən danışır, hamı mənimlə maraqlanırdı. Məktəbə gedib-gələndə, nə qədər adam mənim dalımca düşürdü, nə qədər adam daha iki qat örtməyə başladığım yaşmağımın altından üzümü seçə bilmək üçün yolumu kəsirdi. Neçə-neçə həyasız adamın, heç səsini alçaltmağı da lazım bilməyib bu sözləri dediyini eşitmişdim:

– İpək qurdu budurmu? Yazıq Şeyx!..



Yoldaşlarımın yanında danışmağa utanır, sinfə girəndə, qıpqırmızı olduğumu hiss edirdim.

Bu belə davam edə bilməzdi. Çarəsiz maarif müdirinin yanına getdim. Buranın havasına dözə bilmədiyimi söylədim. Başqa bir yerdə mənə dərs tapmasını xahiş etdim. Deyəsən onun da dedi-qodulardan xəbəri vardı. Çünki həmin saat mənim haqlı olduğumu söylədi. Ancaq başqa bir yerdə mənə münasib dərs tapmaq çətindir. Mən daha az maaşla, daha kiçik bir məktəb olsa da, qəbul edəcəyimi söylədim. Bu yetər ki, uzaq bir yerdə olsun.

İki gün bundan əvvəl əmrnamə gəldi: məni "Ç" rüşdiyyə məktəbinə təyin ediblər.

Yazıq Çalıquşu, küləyin qabağına qatıb apardığı payız yarpaqlarına döndü...

# ÜÇÜNCÜ HİSSƏ

*Ç..., 23 aprel.*

Bu gün Xızır İlyas günüdür[1]. Evdə təkəm. Hətta yalnız evdə yox, demək olar ki, bütün qəsəbədə təkəm. Evlər boş, bazar-dükan bağlıdır. Qəsəbənin bütün əhalisi səhər tezdən, əllərində yemək dolu səbətlərlə Söyüdlü deyilən yerə kabab yeməyə getmişdir. Tində həmişə iflic bir dilənçi oturardı. Hətta o da əyləncədən geri qalmaq istəmədi. Faytona minirmiş kimi, əzəmətli əda ilə bir hambalın dalına minib ora gedən dəstələrə qoşuldu.

Bu əhvalatdan mənim ən çox xoşuma gələn köpəklər oldu. Hiyləgər heyvanlar qonaqlığın qoxusunu duymuşdular, boğçalı-səbətli, içi yeməklə dolu, döşəküzülərlə yola çıxan hər dəstənin dalınca bir neçə it düşmüşdü.

Munisəni qonşularımdan alay imamı[2] Hafiz Qurban əfəndinin arvadı ilə göndərdim. O, mənsiz getmək istəmədiyindən, bir xeyli yalvarıb yaxardı. Amma mən başıma bir yekə yaylıq bağlayıb dedim ki: "Bir az xəstəyəm, sonra yaxşılaşsam, bəlkə ardınızca gələrəm".

Xəstəyəm deyə onları aldatdım, amma əksinə, bu gün çox yaxşıyam, kefim də çox kökdür. Getmək istəmədiyimin isə səbəbi budur ki, daha belə tünlük olan əyləncə yerlərindən xoşlanmıram.

Evdə tək qalan kimi, yaylığı başımdan açıb atdım. Yavaşdan mahnı oxuya-oxuya, fit çala-çala, xanım-xanımyana evimin işlərini görməyə başladım. Məktəbdə günlərlə kişi kimi işlədikdən sonra, hərdən evdarlıq etmək mənə elə xoş gəlirdi ki... Bu işlər qurtarandan sonra, növbə quşlarıma çatdı. Bu xırdaca dəcəllərin qəfəslərini təmizlədim, sularını təzələdim, sonra bir az günəşdə qızınsınlar deyə bağçaya çıxartdım. İndi düz yarım düjin quşum var. Biz bura gələndə, Məzlumu Hacı qalfanın oğluna verməyə məcbur olduq. Munisə inciyib ağlamışdı. Qızcığaz özünə dərd eləməsin deyə, bu quşları ona

[1] Xızır İlyas günü – yayın birinci günü; bayram
[2] Alay imamı – polk ruhanisi (molla)



aldım. Sonradan mən özüm də bunlarla maraqlandım, amma qonşunun sarı pişiyi yazıq quşlara heç rahatlıq vermir. Havaxt qəfəsləri bağçaya çıxarıramsa, gəlib qarşılarında oturur. Görünüşündən sakit, dinc pişikdir. Yaşıl gözlərini azca aralayıb quşlara elə bir şəfqətlə baxır, hələ hərdənbir çənəsini titrədə-titrədə yavaşdan elə səslər çıxarır ki, elə bil, quşlarla söhbət edir. Bu gün "görək nə edəcək" – deyə quşlardan birini qəfəsdən çıxartdım, pişiyin üzünə yaxınlaşdırdım. Elə bil bu zalım heyvanın üstündən külək əsdi, sarı tükləri dalğalandı, yaşıl gözlərində qığılcımlar parıldadı. Yumşaq pəncələrinin içindən dırnaqlarını çıxarıb quşun üstünə atılmağa hazırlandı.

Yazıq quşcuğaz ovcumun içində qanadlarını, boynunu qısıb elə titrəyirdi ki... Mən o biri əlimlə pişiyin başından tutub dedim:

– Bu xain yaşıl gözlərdəki şirin baxışları görən adam sənin, göydəki mələkləri düşündüyünü güman edər. Halbuki, sənin dərdin bu biçarə quşcuğazı parçalamaq deyilmi? İndi bax gör, mən səndən necə intiqam alacağam!

Mən o biri əlimi açdım. Yazıq xırdaca quş birdən-birə yerində yırğalandı, azad olduğuna inanmayıb duruxdu, sonra incə bir fəryad qoparıb uçdu. Pişiyin məyus və heyran bir baxışla quşu izləyən yaşıl gözlərini üzümə yaxınlaşdırıb qəhqəhə çəkib güldüm.

– Hə, necə oldu, quşu parçaladınmı? Ay sarı zalım! – deyə əyləndim.

Ürəyimdə dərin bir sevinc vardı. Yalnız bu sarı pişikdən deyil, yazıq xırdaca quşlara qənim olan bütün sarı məxluqlardan intiqam almış kimi sevinirdim.

Ancaq o biri quşların şikayətli-şikayətli civildəşmələri mənim nəşəmi pozdu. Bu, doğrudan da bir şikayətdimi, bilmirəm; ancaq mənə elə gəldi ki, yazıq quşcuğazlar belə deyirlər: "Bəs nə üçün bizi də yoldaşımız kimi xoşbəxt etmirsən?" Könlümün daim itaət edilməsi lazım gələn coşqun və sərt əmrlərindən birinə baş əyib qəfəslərə sarı gedirdim.

Quşların hamısını birdən azad edəcəkdim. Ancaq birdən-birə Munisə yadıma düşdü. Yanağımı qəfəslərdən birinin milinə dayayıb dedim:

– Çox gözəl, sizi buraxım, ancaq sonra o biri sarı müsibətə – Munisəyə nə cavab verəcəyik? A quşcuğazlar, nə edək, nə qədər əlləşsək də, özümüzü bu sarı xainlərdən qurtara bilmirik!..

Quşlardan sonra növbə özümə çatdı. Mən havanı bir azca günəşli gördükdə, həmişə saçlarımı soyuq su ilə yuyuram. Onların günəş altında yavaş-yavaş quruması mənə çox ləzzət verir.

Bu gün yenə elə etdim. Sonra qəfəslərimin qarşısındakı ərik ağacına çıxıb yaş saçlarımı yavaş-yavaş əsən bahar yelinin qabağına sərdim. Saçlarım daha uzanmış, demək olar ki, belimə çatmışdı. Saçlarımın nə üçün qısa olduğunu "B"-də yoldaşlarıma söyləməyə utanmışdım. Onlar bunu qadın üçün bir ayıb, hətta nöqsan sayırlar. Hacı qalfaya qədər, hamıdan cürbəcür saç dərmanları sorağı almışdım. Saçlarımın bu qədər tez uzandıqlarını görənlər hünəri özlərindən bildilər. Dərmanlarının təsirinə mənim qulac-qulac uzanan gur saçlarımı şahid göstərirdilər.

Ərik ağacı qəfəslərin lap qarşısında idi. Quşlar muncuq kimi parıldayan gözlərini günəşə dikib ötüşürdülər. Mən fit çalıb onları təqlid edir, nazik bir budağın üstündə, yelləncəkdə oturmuş kimi yırğalanırdım. Arada gözüm yanımızdakı evin pəncərəsinə sataşdı. Bir də nə görsəm yaxşıdır? Qonşum, alay imamı Hafiz Qurban əfəndi girdə sifətində, iki məscid qəndili kimi parıldayan dəyirmi koruş gözləri ilə mənə baxır!.. Nə hala düşdüyümü bilmədim. Yenə üst-başım yaxşı olsaydı ziyanı yoxdu, amma ayaqlarım çılpaq, əynimdə açıq bir ağ köynək vardı. İlk hərəkətim bu oldu ki, arxama tökülmüş gur saçlarımı bir anda qoynuma, köksümə dağıtdım. Sonra özümü bir yük kimi yerə atdım. Yaxşı ki, budaq çox uca deyildi. Qulağıma belə bir səs gəldi: "Aman, eyvah!" Ağacdan atılan və canı inciyən məndim, amma bağıran qonşum Hafiz Qurban əfəndi.

Adını gülmədən çəkə bilmədiyim bu Hafiz Qurban əfəndi əlli yaşlarında bir alay imamıdır. Özü də çox varlı olduğunu söyləyirdi. Arvadı çox cavan, otuz yaşına da girməmiş gözəl, qaragözlü, zərif bir çərkəz qızıdır. Onunla aramız çox yaxşıdır. Bu gün Munisəni gəzməyə aparan da odur. Uşağı olmadığı üçün mənim xırdaca yaramaz qızımı o da öz qızı kimi sevir. Amma bugünkü hadisə kefimi pozdu. Alay imamından çox utandım. Kim bilir, bunu mənim üçün ən böyük bir ayıb sayacaqdır! İndi bu sətirləri yazanda da, utandığımdan üzüm od tutub yanır, qıpqırmızı olduğumu hiss edirəm. Uf, ya rəbbi! Məktəb müəllimәsi də oldum, amma hələ dəlilikdən əl çəkə bilmirəm. "B"-dəki müdir Rəcəb əfəndi mənə elə yerində deyərdi ki, "Allah



sənə ömür versin, amma ölüb qəbirə girəndə sənə təlqin verən imamı da güldürəcəksən!"

Bugünkü iş planımın günortadan sonrakı hissəsi son altı ayın hadisələrini dəftərimə yazmaqdan ibarətdir, – bura gələndən bəri dəftərim çantamdan çıxmamışdı. Mən pəncərəmin önünə keçdim. Buradan boğazla bərabər sahildəki istehkamların da bir qismi görünürdü. Mən bu evə elə əslində yalnız bu pəncərəni sevdiyim üçün gəlmişdim, yoxsa tamah salmalı heç bir şey yoxdu.

Mən "B"-dən qaçmaq üçün, ilk təklif etdikləri yeri qəbul etmişdim. Nə buranı sevib-sevməyəcəyimi düşünmüş, nə də aylıq maaşımın azlığına əhəmiyyət vermişdim.

Amma bəxtimdən bura çox yaxşı bir yer çıxdı. Sakit, xoş bir əsgər qəsəbəsidir. İstər yerli, istər yad olsun, hər kimin atasını, qardaşını, oğlunu, ərini soruşsanız görəcəksiniz ki, ya əsgər, ya da zabitdir. Müəllimlərinin də bir qismi tambur[1] imamı, alay müftüsü, – əsgərliklə əlaqədar olan adamlardır. Qonşum Qurban əfəndi də hərdən sarğısı ilə bərabər hərbi forma geyib qılınc taxır.

"Ç"-nin qadınları çox xoşuma gəlir. Vəfalı, çalışqan, həyatlarından razı, mehriban və sadə adamlardır. İşləmək kimi, əylənməyi də çox sevirlər. Həftə keçməz ki, bir toy olmasın. Bir toy cürbəcür ad altında düz bir həftə uzanır. Demək, qadınlar hər gecə əylənirlər.

Əvvəllər çaşıb qaldım ki, buna necə pulları çatır, amma sonralar bunun sirrini başa düşdüm.

Məsələn, bir qadın baha başa gələn bir gəlinlik paltarını on il, iyirmi il hər toyda geyir, sonra onu yenə tərtəmiz bir halda öz qızına geyindirir. Əyləncələri çox sadədir. Çalğıçıları qarmonçalan bir qoca erməni qadınıdır ki, bir paltarlıq parça, bir qədər pul ilə razı qalır.

Bəli, əyləncələri sadədir. Amma elə bu kifayətdir ki, ürəkləri açılır, şad olurlar. Bu lap əladır. Kaş mən də onların arasında doğulaydım, kaş mənim də bir gün barmaqlarımda, ovuclarımın içində xurma kimi xına olaydı! Hər nə isə, başqa söhbətə keçək.

Qonşularım məni birdən-birə sevdilər. Yalnız onlara qoşulmadığımdan, bu əyləncələrdən ləzzət almadığımdan küsürdülər. Məni təkəbbürlü saymasınlar deyə, onlara hər cür kömək edirdim,

[1] Tambur – batalyon

məktəbdəki qızları kimi, özlərindən də əlimdən gələn nəzakəti, yardımı əsirgəmirdim.

Burada ən sevdiyim yerlərdən biri də "Söyüdlük" adlanan çay kənarıdır. Tünlük olan günlərdə çox cəsarət edə bilmirəm. Amma bəzən axşamüstüləri məktəbdən qayıdanda, Munisə ilə ora gedirik. Söyüdlük, demək olar ki, söyüd və çinar meşəsidir. Kim bilir neçə yüz illik ömrü var. Çinarların aşağı hissəsindəki budaqları kəsiblər, yalnız gövdələri ilə təpələrindəki budaqlar və yarpaqlar qalmışdır. Axşam kölgəsi çökməyə başladığı saatlarda, adam ora gedəndə özünü ucu-bucağı olmayan viranə bir qübbənin altına girmiş kimi hiss edir. Yandan düşən son günəş şüaları bu uca və xarab olmuş çinar gövdələrini göz işlədikcə uzanıb gedən qırıq sütunlara bənzədir. Çayın o biri sahilində, dövrələrinə çəpərlər çəkilmiş cərgə-cərgə bağçalar, o bağçaların arasında, kölgələr içində itən ensiz cığırlar var. Qarşıdan bu yollara baxanda, mənə elə gəlir ki, bu yollar insanı bizim tanıdığımız bu dünyadan başqa yerlərə aparıb çıxaracaq, ən umulmaz arzulara qovuşduracaqdır.

Bu qəsəbənin varlıları Xəstələr təpəsi adlanan bir yerdə yaşayırlar. Bu yerin adı pis də olsa, özü şən və ən xoşbəxt insanların yaşadığı bir yerdir. Bura gəldiyim vaxt mənə orda gözəl bir ev göstərmişdilər. Amma mən cəsarət edə bilməmişdim. İndi "B"-də olduğu qədər varlı deyiləm. Daha yoxsul yaşamağa, daha kiçik bir evdə qalmağa məcburam. Bununla bərabər, indiki evim də çox pis yerdə deyil. Bura meydanı, qəhvəxanası, dükanları ilə qəsəbənin ən çox adam olan yeridir. Məsələn, bu gün səhər Söyüdlüyə gedən bütün "Ç" əhalisi mənim önümdən keçib getdi. Vaxtın hələ erkən olmasına baxmayaraq, camaat qayıtmağa başlamışdır. Bir az əvvəl Söyüdlükdən bir dəstə zabit qayıdırdı. Tələsik halda onlarla üzbəüz gələn bir mülazimlə danışmaq üçün durdular. Mülazim dedi:

– Nə üçün belə tez qayıdırsınız. Mən hələ indi gedirəm. Növbətdən bu saat çıxdım.

Mənə tez-tez küçədə rast gələn və pencəyinin yaxası həmişə açıq olan yaşlı, şişman bir qol ağası[1] ona belə cavab verdi:

[1] Qol ağası – keçmiş türk (sultan) ordusunda kapitan ilə mayor arasında hərbi rütbə



– Qayıt, nahaq zəhmət çəkmə. Bu gün Söyüdlüyün ləzzəti yoxdur. O qədər axtardıq ki, gülbəşəkər[1] tapmadıq.

Deyəsən bu şəhərin əsgərləri gülbəşəkəri çox sevirlər. Uşaqların da, böyüklərin də ağızlarından elə hey gülbəşəkər sözünü eşidirsiniz. Görünür ki, bu bir növ gül şirniyyatıdır. Amma Xızır İlyas günü seyrəngahda gülbəşəkər axtarmaq, onu tapmadıqda məyus olub qayıtmaq lap uşaqlara yaraşan bir işdir!

Bəli, bu gülbəşəkər sözü uşaqlı-böyüklü bütün kişilərin ağzından düşmür. Neçə dəfə küçədə öz qulaqlarımla eşitmişəm.

Məsələn, bir axşamüstü məktəbdən qayıdırdım. Önümdə yoxsul geyinmiş bir neçə gənc gedirdi. Bunlardan birinə bilmirəm nəsə yeməyə bir şey təklif etdilər. O rədd edib dedi:

– Vallah olmaz, bu saat yemək yemişəm. Yemiş deyil, hər nə olsa, yeyə bilmərəm.

Bir başqası onun çiynindən tutub silkələyərək dedi:

– Heç nə yeməzsənmi? Gülbəşəkər də olsa, yeməzsən?

Gənc oğlan o saat yumşaldı, dişlərini ağarda-ağarda belə cavab verdi:

– Bax, ona sözüm yoxdur...

Bəzən qəhvəxananın önündə oturan kişilər, məhəllə camaatına su daşımaqla pul qazanıb dolanan yoxsul, amma qəribə, nəşəli bir oğlanla zarafatlaşırdılar:

– Ə, Süleyman, de görək sənin toyunu nə vaxt edirik?

– Nə vaxt istəsəniz, mən həmişə hazıram!

– Süleyman, sən bu yoxsulluqla necə dolanırsan?

– Quru çörəyimi gülbəşəkərə batırıb yeyirəm. Allahdan bəlamı istəyəcəyəm?

Bu zarafatı, demək olar ki, hər gün təkrar edirlər. Amma ən qəribəsi budur ki, bizim qonşu Hafiz Qurban əfəndi üç gün bundan əvvəl qapının önündə Munisəni tutubmuş. Zorla qızcığazın yanağından öpüb deyibmiş:

– Oh, nə gözəl gülbəşəkər ətri verir!

Küçədə Söyüdlükdən qayıdan dəstələr çoxalmağa başlayır. İncə bir qəhqəhə – Munisənin səsi eşidilir. Munisə gəlir. Bu dəcəl qızın həsrətini elə çəkirəm ki, bu dörd saatda elə bil dörd aydır üzünü görməmişəm.

[1] Gülbəşəkər – gül mürəbbəsi

*Ç..., 23 aprel (iki saat sonra).*

Gülbəşəkərin nə olduğunu öyrəndim. Munisə Söyüdlükdə təsadüf etdiyi bir neçə müəlliməyə mənim xəstə olduğumu söyləyib, onlar nigaran qalıblar, qayıdanda qapıdan mənə dəyib halımı soruşmaq istəyiblər.

Bir neçə dəqiqəliyə içəri girmələri üçün təkid etdim. Zarafatçın bunlardan birindən soruşdum:

– Barı, gülbəşəkər tapa bildinizmi? Küçədən keçən zabitlər tapa bilmədiklərindən şikayətlənirdilər.

Yoldaşım gülərək cavab verdi:

– Çox gözəl bilirsən ki, biz də ondan məhrum qaldıq.

– Nə üçün?

– Çünki siz gəlməmişdiniz!

Çaşqın-çaşqın onun üzünə baxıb gülməyə çalışaraq, dedim:

– Bunun mətləbə nə dəxli var?

Müəllimlər gülürdülər. Yoldaşım şübhəli-şübhəli baxıb dedi:

– Doğrudanmı bilmirsən?

– Vallah bilmirəm.

– Yazıq Fəridəciyim, sən nə qədər safsan! Gülbəşəkər sənsən də! "Ç" kişiləri, yanaqlarının bu gözəl rənginə görə, sənə bu adı qoyublar.

Mən çaşqınlıqdan dilim dolaşa-dolaşa dedim:

– Necə, mənmi? Demək, gülbəşəkər dedikləri şey, o küçə cavanlarının çörəklərinə yaxıb yediklərini söylədikləri şey, mənəm. Vay, yazıq canım!..

Utandığımdan iki əlim ilə üzümü örtdüm. Demək, mən belə yekə bir qəsəbənin dilinə düşmüşdüm! Ya rəbbi, nə böyük bir rüsvayçılıq!..

Yoldaşım zorla üzümü açdı, yarızarafat, yarıdoğru dedi:

– Burada şikayət etməli nə var?! Bir qəsəbənin kişilərini məşğul edirsiniz. Bu səadət hansı qadına müyəssər olmuşdur?

Bu kişilər, doğrudan da, çox pis məxluqlarmış. Məni burada da rahat qoymurlar. Ya rəbbi, daha adam arasına necə çıxacağam, qonşularımın üzünə necə baxacağam?!

*Ç..., 1 may.*

Bayaqdan yuxarıda şagirdlərimin yazı işlərini düzəldirdim. Qapı döyüldü. Munisə aşağıdan səsləndi:

– Abacığım, qonaq gəlib!..



Həyətdə qara çarşablı bir xanım gəzişirdi, üzü örtülü olduğu üçün tanımayıb tərəddüdlə soruşdum:

– Kimsiniz, əfəndi?

Birdən-birə incə bir qəhqəhə qopdu. Xanım pişik kimi boynuma sıçradı. Demə, bu Munisə imiş! Dəcəl qız məni, belimdən tutub həyətin içində hərlətdirir, yanaqlarımı, boynumu öpürdü. Çarşab ona birdən-birə yetişmiş bir gənc qız görkəmi vermişdi. Mənim balam bu iki ilin içində xeyli boy atmış, demək olar ki, mən boyda, incə, gündən-günə çiçək kimi açılan, gözəl, nazlı, zərif bir kiçik xanım olmuşdu. Amma insan daim gözü önündə olan şeylərdəki dəyişikliyi seçə bilmir.

Onu bu halda görəndə, əslində sevinməli idim, amma mən, əksinə, qəmgin oldum. Bunu Munisə də başa düşüb dedi:

– Abacığım, nə oldu? Zarafat elədim. Yoxsa, məndən incidin?

Yazıq uşaq pis bir iş görmüş kimi, acıqlı-acıqlı üzünə baxırdım.

– Munişə, – dedim, – səni çox özbaşına qoymaq mümkün deyildir. Çünki görürəm ki, dayanmayacaqsan. İndidən toylarda öz başına gəlin telləri taxanda ürəyin əsir. Başa düşürəm, qızım, dayanmayacaqsan, mütləq gəlin olmaq istəyəcəksən. Məni tək qoyacaqsan...

Bu yalqızlığın qəm-qüssəsi indidən ürəyimə çökmüş kimi gözlərim dolurdu. Munisənin bir kəlmə ilə mənə təsəlli verməsi üçün, bütün görkəmim, baxışımla, demək olar ki, ona yalvarırdım. Amma xain qız dodaqlarını büzüb dedi:

– Nə edək, abacığım, adət belədir!

– Demək, bir yad adamın arvadı olmaq üçün məni atıb gedəcəksən?

Munisə cavab vermədi, eləcə güldü. Amma bu gülüş nə gülüşdü! Zalım qız hələ indidən gələcək ərini məndən çox sevirdi.

Bu səfər mən bir az əvvəlki sözlərimin əksini söyləməyə başladım:

– Gəlin olmaq istəsən də, hər halda hələ iyirmi yaşına qədər vaxt var.

– İyirmi yaş çox deyilmi, abacığım?

– Yaxşı, onda on doqquz, nəhayət, on səkkiz olsun. Cavab vermirsən, amma gülürsən. Bic-bic gülüb, demək istəyirsən ki, "mən özüm bilərəm!" Vallah, on səkkiz yaşından aşağı olmaz!

Dəcəl qız gülür, mənim sövdələşməyimlə əylənirdi. Utanmasaydım, hönkür-hönkür ağlayacaqdım. Sarı adamların hamısı vəfasız olur, hamısı adamı başqa cür incidir...

*Ç..., 10 may.*

Məktəb şagirdləri içində on iki-on üç yaşlarında bir varlı paşa[1] qızı var. Elə bil ki, əvvəlcə böyüyüb, sonra yenidən kiçilmiş, qupquru, dişləri çürük, boyu xırdaca, özü təkəbbürlü bir qızdır.

Nadidə xanım əfəndi (əylənmək üçün "xanım əfəndi" deyirəm, məktəbdə indidən onu belə çağırırlar. Xəstələr təpəsinin ən gözəl bir binasında yaşayır. Hər gün paşa atasının landosunda[2] və qoç buynuzu kimi bığları olan bir çavuşun[3] nəzarəti altında məktəbə gəlib-gedir.

Elə güman edirəm ki, bu kiçik xanım məktəbə bir şey öyrənməkdən artıq, yoxsul yoldaşlarına, hətta müəllimlərinə təkəbbür satmaq üçün gəlir. Uşaqlar onun qulluqçuları vəziyyətindədir. Müəllimlər onun min cür əziyyətini, nazını çəkməyi özlərinə bir vəzifə bilirlər. Hərdən böyük xanım əfəndi, qızının müəllimlərini evinə çağırıb qonaqlıq verərmiş. Yazıq müəllim yoldaşlarım orda gördükləri dəbdəbə və bəzək-düzəyi, yedikləri yeməyi, xanım əfəndinin tualetlərini tərifləyib qurtara bilmirlər. Yoldaşlarımın bu halı məni həm güldürür, həm də iyrəndirir. Bu Əbdürrəhim paşanın nə ruhda adam olduğunu başa düşdüm. Bu cür adamlar öz dəbdəbələri, bəzək-düzəkləri ilə bəzi məhdud və əhəmiyyətsiz adamların gözlərini qamaşdırmaqdan zövq alan, bir növ kobud, görməmiş, quduryan adamlardır.

Yoldaşlarım bir neçə dəfə məni də ora aparmaq istədilər; mən təhqir edilmiş kimi qızardım, istehza ilə çiyinlərimi çəkdim.

Yoxsul uşaqların çəkmələrinin bağını bağlamaq, palçıqlarını təmizləməkdən çəkinmədiyim halda, bu əzəmətli kiçik xanım əfəndiyə heç üz vermirəm. Hətta dərsdə onu bərkə çəkib danlayıram da. Amma işin tərsliyinə baxın ki, o, başqa müəllimlərdən artıq mənə bənd olmuşdur. Hey dalımca düşür.

---

[1] Paşa – keçmiş Türkiyədə ən yüksək mülki və hərbi rütbə (general)

[2] Lando – dörd nəfərlik, üstü açılma karet

[3] Çavuş – serjant; paşa və yüksək rütbəli zabitlərin şəxsi xidmətinə verilən əsgər



Bu gün, günortaya yaxın qapımda bir fayton durdu. Bir də baxıb nə gördüm, Əbdürrəhim paşanın landosu! Yekəbığ çavuşun faytonun qapısını açdığını, şagirdim Nadidə xanımın, ətrafdan qaça-qaça gələn məhəllə uşaqları arasında bir şahzadə əzəməti ilə evimə gəldiyini gördüm. Bütün məhəllə heyrət içində idi. Üzbəüz evlərin şəbəkəli pəncərələri qadın başları ilə dolu idi.

Nadidə xanım mənə böyük bacısının belə bir kağızını gətirmişdi: "Müəllimə xanım, paşa atam, anam və bəndəniz bu gün bizə təşrif gətirmənizi xahiş edir və ixtiyarınıza verilmiş lando ilə gəlmənizi gözləyirik".

Onların məqsədini o saat başa düşdüm. Öz ağıllarına görə, o biri müəllimlər kimi, mənim də gözlərimi öz sərvətləri və dəbdəbələri ilə qamaşdırmaq istəyirdilər. Əvvəlcə fikrimə gəldi ki, bir-iki kəlmə soyuq təşəkkür sözləri söyləyib kiçik xanımı, çavuşu və landonu geri qaytarım. Amma qəlbimdə birdən-birə başqa bir arzu oyandı, bu, sonradan görüb qudurmuş dikbaşlara gözəl bir dərs vermək istədim.

İstanbuldâ bu cür paşaların çox-çox yüksək nümunələrini görmüşdüm. Hətta beləlləri ilə bir az məşğul da olmuşdum. Üzlərdən yalançı maskaları qoparmaq, əzəmətli göstərişlər altında gizlənən çirkinlikləri, heçlikləri meydana çıxarmaq Çalıquşunun ən böyük əyləncəsi idi. Mən nə bilim, belə doğulmuşam. Pis qız deyiləm, kiçik, əhəmiyyətsiz adamları çox sevirəm. Amma sərvətləri, yaxud qondarma kübarlıqları ilə öyünənlərə qarşı daim zalımam.

İki il xanım-xanımyana, dinc oturduqdan sonra, bu gün bir az dəcəllik etməyə mənim haqqım vardır.

Qəsdən sadə, amma çox şıq geyindim. Yaxşı ki, bir dəst lacivərd rəngli paltarım qalmışdı. Əmim onu mənə Parisdən göndərmişdi.

Nadidə xanım əfəndinin aşağı otaqda bir qədər artıq gözlətməkdən çəkinmədim, "B"-də olduğum zaman, çox bəyəndiyim üçün, Avropa məcmuəsindən kəsib saxladığım bir qadın başı şəklini aynanın kənarına ilişdirdim. Bütün qüvvətimi, məharətimi sərf edib başımı həmin başa bənzətdim. Bu baş bir qədər həddən artıq xəyalpərvəranə və təmtəraqlı idi. Amma nə olsun ki? Mən bu gün bir aktrisa kimi bu kübar, "əyalət gözəllərinə" möhkəmcə təsir etmək istəyirəm.

Özümü bəzəmək üçün lazım gələn müddətdə aşağıdakı kiçik xanımı tək qoymaqla kifayətlənmədim. Bir az da bu yoxsul əşyalı alaqaranlıq otağın aynasında mənə baxıb gülümsünən gənc qızı seyr

etmək üçün onu gözləməyə məcbur etdim. Aynada öz əksimə, bir yad adama baxan kimi, utana-utana baxırdım. Madam ki, dəftərimi məndən başqa heç kəs oxumayacaq, nə üçün hamısını etiraf etməyim. Güzgüdəki əksim mənə gözəl, həm də diqqət etdikcə, insanı daha artıq valeh və heyran edən dərəcədə gözəl gəldi. O gözlər, İstanbulda tanıdığım şən, qayğısız Çalıquşunun saf bir aydınlıq içində titrəşən bir neçə ulduz qırıntısını əks etdirən o ala gözləri deyildi. Bu gözlərdə qaranlıqlara baxa-baxa keçmiş, bir çox yalqızlıq gecələrindən qalma qara bir dərd, yorğun bir xəyal, yuxu və daha başqa şeylərdən doymamış gözlərin süzgün xumarı vardı. Bu gözlər gülməsəydi, canlı bir iztirab kimi böyük və dərin görünəcəkdi. Amma gülməyə başlayan kimi, hər şey dəyişir. Onda bu gözlər kiçilir, onlardakı ziya, içlərinə sığışmayıb kiçik parıltılarla yanaqlarının üstünə tökülməyə başlayır.

Bu üzdə nə gözəl, nə incə cizgilər vardı. Bunlar insanda ağlamaq arzusu oyadacaq qədər gözəldi.

Bu üzdəki nöqsanlarda da indi bir sevimlilik görürdüm. Tekir dağındakı xalamın əri mənə deyərdi ki, "Fəridə, sənin qaşların da danışıqlarına bənzəyir: gözəl-gözəl, incə-incə başlanır, amma sonra yolunu azır".

Onun dediyi kimi, gözəl-gözəl, incə-incə başlandıqdan sonra yolunu azan bu qaşların gicgahlara doğru elə gözəl bir dağılışı vardı ki...

Sonra, bir azca qısa olduğu üçün daim gülən, daim üst dişlərimi bir azca açıq qoyan dodağım... Bursadakı müdir əfəndi nahaq deməmişdi ki, bu dodaqlar məni qəbrə də gülümsünə-gülümsünə aparacaqdır.

Kiçik xanımın aşağıda qəsdən çəkmələrini yerə döyə-döyə gəzişdiyini eşidirdim. Amma aynadakı kiçik xanımdan heç cür ayrıla bilmirdim.

Mənə "B"-də İpək qurdu, "Ç"-də Gülbəşəkər ad qoyduqları zaman nə qədər incimiş, əsəbiləşmişdim. İndi aynada gördüyüm gənc qıza – səhər şəfəqləri kimi şəffaf, qırovdan islanmış aprel gülləri kimi təravətli görünən məxluqa bu adları verməkdən özüm də çəkinmirdim. Bir ara, başqasına görünməkdən qorxan kimi ətrafıma göz gəzdirdim. Sonra gözlərimi, yanaqlarımı, çənəmi öpmək üçün aynaya sarı uzandım. Ürəyim quş kimi çırpınır, dodaqlarım ləzzətlə titrəyirdi.



Amma hayıf ki, bu aynaları da kişilər icad ediblər. İnsan nə qədər çalışsa, saçlarını, gözlərini öpə bilməz. Nə etsə, nə qədər çalışsa, yalnız və yalnız öz dodaqlarından öpə bilər...

Nələr danışıram!.. Aleksi bacı deyərdi ki, "Keşiş paltarı adamın ruhunu da keşiş ruhu edər" Yoxsa, koket qadın başı da adamı koket edir, nədir? Bunlar bir məktəb müəlliməsi üçün nə qədər mənasız, nə qədər ayıblı sözlərdir!..

İki il ədəb-ərkanlı olduqdan sonra, bu gün bir az dəcəllik etməyə mənim haqqım vardı.

Xanımları, öz salonlarının içində mənə qarşı bacarıqsız aktrisalar kimi, qəribə-qəribə vəziyyətlərdə görcək ürəyimdə gülüb dedim: "Bir az səbir edin, görərsiniz!"

Onlar mənim başqaları kimi, xanım əfəndinin, kiçik xanım əfəndilərin ətəklərini öpmək meylində olmayıb çox sadə və sərbəst bir salam verməklə kifayətləndiyimi görəndə təəccüb etdilər. Bir-birlərinə baxdılar. Mürəbbiyə olduğunu təxmin etdiyim adi bir Bəyoğlu kokonası[1], qızıl haşiyəli gözlüyünü taxıb məni başdan-ayağa süzdü. Mənim tövr və hərəkətlərimdə elə təbii bir sərbəstlik, sözlərimdə elə laqeyd bir arxayınlıq vardı ki, bundan salonun içi fırtınaya düşmüş gəmi kimi alt-üst olurdu. Bu salon, kübarlıq və sağlam zövqdən uzaq olub, pul gücünə min cür bahalı şeylərlə doldurulmuş bir növ bəzzaz vitrinası idi. Bu xanımcıqlar illərdən bəri bu salonda cansız müqəvvalar kimi yaşayırdılar, onlar "Ç"-nin yazıq, avam, sadə qadınlarını heyrətə salıb ağızlarını açıla qoymaqdan zövq alırdılar.

Sərbəst və dəlisov cürətimlə yavaş-yavaş bu salonu əlimə alıb burada oturanları nadan, bacarıqsız, utancaq qonaq vəziyyətinə saldım. Bu qaba və gülünc komediyanı oynadıqda, təbiilikdən kənara çıxmağa, oyunumun üstünü açmamağa çalışdım. Hər nə göstərdilər, hər nə danışdılar, hər nə etdilərsə hamısını bəyənmədiyimi onlara hiss etdirdim. Həm də onlara öz miskinliklərini, öz görməmişliklərini dərin-dərin və acı-acı duydurdum. Məsələn, paşanın böyük qızı mənə şəkillər göstərirdi. Mən bunların adi şeylər olduğunu zərif və üstüörtülü sözlərlə söylədikdən sonra, bir küncdə minyatura tapıb salonda

[1] Bəyoğlu – İstanbulun aristokratlar məhəllesidir; Kokona – yunan və ya ermənilər haqqında (qadın, xanım mənasında) işlənən sözdür.

yeganə sənət əsəri olan bu gözəl şeyin nə üçün bura atıldığını soruşdum. Sözün qısası, onların heç bir dəbdəbəsinə heyrət etmədim. Hər şeylərini tənqid etdim. Hələ yemək vaxtı onlara o qədər gizlin əziyyətlər verdim ki... Bu mükəmməl, zəngin süfrədə kim bilir neçə adamın tikəsi boğazında qalmışdı. Kim bilir neçə qonaq çəngəl-bıçaq işlətməyi bacarmadığından gizlin-gizlin tər tökmüş, neçə biçarə necə götürmək və necə yemək lazım gəldiyini bilmədiyi üçün bir yeməyi rədd etməyə məcbur olmuşdu. Mən bu gün onların hamısının intiqamını aldım. Elə bacarıqlı, elə zərif hərəkətlərim vardı ki, xanımlar gözaltı heyran-heyran baxmaqdan özlərini saxlaya bilmirdilər. Mən də hərdən onlara baxırdım. Amma mənim nəzərlərim onların əlindəki çəngəli titrədir, boğazlarını tıxayır, onları elə çaşdırırdı ki, suyu da içə bilmirdilər. Hələ avam, cahil qadınlara özünü adam yerinə satan, gülünc dərəcədə pis bildiyi fransızcası ilə öyünən Bəyoğlu kokonasını dünyaya gəldiyinə peşman etdim.

O biri mürəbbiyə, mən bir məktəb müəlliməsi olduğum üçün, özünü mənimlə bir peşənin sahibi hesab edirdi. O mənimlə gizlin bir mübarizəyə girişməyi özü üçün peşə məcburiyyəti bildi. Amma o hoqqabazı elə rüsvay etdim ki... Dərdini türkcə danışmaqdan aciz qalıb: "Türkcə yaxşı danışa bilmirəm" – deyə canını qurtarmaq istədi. Onda mən fransızca dedim: "Ziyan yoxdur, madmazel, fransızca danışaq". O, fransızca danışmağa çalışır, bu dəfə mən onun fransızca danışmağını lağa qoymağa başlayıram. Sözün qısası, balaca, əhəmiyyətsiz, ibtidai məktəb müəlliməsi yox olmuş, "Dames de Sion" məktəbinin ən zərif danışan müəllimlərini cəzanə gətirən, zalım Çalıquşu bütün dəcəlliyi və istehzaçılığı ilə yenidən doğulmuşdu.

Yüksək məclislərə aid qəbul mərasimindən bəhs edəndə, mürəbbiyə söz tapmaqdan aciz qaldı, amma: "Hər halda mən bir çox yüksək məclislərə girib-çıxmışam, gözümlə görmüşəm" – deyə məni mat qoymaq istədi.

Onda məğrur bir istehza ilə üzünə baxdım, gülümsəyib dedim:

– Bəli, amma yalnız girib-çıxmaq kifayət etməz. İnsan o mühitdə təbii öz həyatını yaşamalıdır.

Etiraf edirəm ki, mənim bu hücumum o qədər də tərbiyəli bir hərəkət deyildi. Bu hücumdan sonra yazıq qadının ürəyi ağzına gəlir, az qala boğulurdu. Xırdaca paşazadələrdən birinin dərs vaxtı gəldiyini bəhanə edib tələsik çıxıb getdi.



Xanımlar quzuya dönmüşdülər. Bu çirkin bəzək və lovğalıq maskalarını atdıqdan sonra, əsil simalarını göstərdilər. Doğrudan da, pis adamlar deyildilər. Onda mən də yavaş-yavaş öz vəziyyətini bilən, əhəmiyyətsizliyini başa düşən məzlum, dinc bir ibtidai məktəb müəlliməsi halını aldım.

Xanım əfəndi və kiçik xanımlar tez-tez gəlməyimi səmimiyyətlə rica edirdilər. Mən dedim:

– Hərdənbir əziyyət verərəm, amma həmişə gəlməyim necə ola bilər, nə deyərlər? Tez-tez sizə gəldiyimi görərlərsə, mütləq sizdən bir şey gözlədiyimi güman edərlər.

Xanım əfəndi mənim kim olduğumla maraqlanır, məni mütləq danışdırmaq istəyirdi.

– Çox yaxşı bir ailənin yoxsullaşmış bir qızıyam, – dedim.

– Xanım qızım, siz bu gözəlliyinizlə, bu üstünlüklərinizlə çox yaxşı bir yerə gəlin ola bilərsiniz.

– Bəlkə də elədir, xanım əfəndi. Məni də istəyən babat bir adam olardı. Ancaq mən öz alnımın təri ilə özümü saxlamağı daha yaxşı bildim. İşləmək ayıb deyil, – dedim.

– Sizi çox yaxşı bir ailənin, çox yaxşı bir oğlu üçün istəsələr, nə deyərsiniz?

– Təbii ki, qazandığım bu şərəf üçün təşəkkür edərəm, amma mən elə bilirəm ki, qəbul etmərəm.

Əsil məqsədlərini bir az sonra başa düşdüm. Sən demə, bu gün məni bu evə eləcə əzəmət satmaq, var-dövlətləri ilə gözlərimi qamaşdırmaq üçün çağırmayıblarmış!..

Paşanın böyük qızı mənə bağçanı göstərmək istədi. Bağçaları da elə salonlarına bənzəyirdi. Min cür çiçək, ot, fidan, saxsılarla, üzdəniraq bəzənmiş, daha doğrusu, döşənmiş olan bu bağçada gəzəndə, hərəsi üç-dörd illik səkkiz-on qotur şam ağacından ibarət əldəqayırma bir meşəcikdə... – ancaq bu məsələni danışa bilmək üçün bundan on iki gün əvvəl baş vermiş bir hadisənin üstünə qayıtmağa məcburam.

Məktəbimizin tənəffüs bağına bitişik yekə bir bağ var. Uşaqlar aradakı hörmə barını sökdüklərindən, iki bağ demək olar ki, birləşmişdi. Bir müddət idi ki, o bağda üç-dörd yoxsul işçi, başlarında qırmızı yaylıq, kətmənlə işləyirdilər. Tənəffüs vaxtı mən onların yanına gedib biçarələrin qan-tər içində işləmələrini seyr edirdim. Dediyim həmin gün, bunların arasında gənc bir fəhləyə də diqqət etmişdim.

O da onlar kimi geyinmişdi, amma simasında, hərəkətində bir başqalıq görünürdü. Məsələn, üzünün qaraşın dərisində bir şəffaflıq, gözlərində başqa bir parıltı vardı. Əlləri qadın əlləri qədər zərif və kiçik idi. O biri işçilər kimi yaşlı olmadığı üçün ona yaxınlaşa bilmirdim. Amma o, mənim yanıma gəlməyə cəsarət etdi. İstidən çox susadığını, məktəb uşaqlarından birini göndərib ona su gətirməyimi xahiş etdi.

Mən xoruzdan da qaçan qadınları xoşlamıram. Bunun üçün heç çəkinmədim. Hətta bir məktəb müəllimməsi olduğumu düşünüb dedim: "Çox yaxşı, oğlum, bir az gözlə tapşırım".

Öz-özümə düşündüm ki, "bu gənc yəqin ki, sonradan yoxsullaşmış bir əsilzadə olacaqdır". Bu işçi həm utancaq, həm də cürətli idi. Danışanda o qədər utanır ki, hey çaşırdı, amma bir tərəfdən də hey suallar verir, həm də münasibətsiz suallar verirdi.

Guya bura yeni gəlibmiş, burada ucuzluq olub-olmadığını, qışın necə keçdiyini, alma-armudun bol olub-olmadığını soruşurdu.

O, suyu içəndə, mən gülümsünüb öz-özümə deyirdim: "Görünür ki, biçarənin ağlında bir iş var".

Paşanın bağındakı şam meşəsini təqlidlə, gülünc hala salınmış bu biçarə ağacların arasında gördüyüm şeyin məni nə qədər heyrətləndirdiyini başa salmaq üçün bu qədər izahat kifayətdir.

Bəli, bu ağacların arasında yenə o yoxsul işçi ilə üz-üzə gəldik. Amma həmin işçi bu səfər tamamilə başqa bir qiyafətdə idi. O, başındakı yağlanmış saçlara qədər, qılıncı, düymələri, nişanları, yaxası, üzü, dişləri, sözün qısası, hər yeri par-par parıldayan bir ştab yüzbaşısı idi. Fotoşəkli çəkdirirmiş kimi, iki şam ağacının arasında başı yuxarı bədəni dimdik, getrləri bir-birinə yapışmış halda durmuşdu. İncə bığlarının altında, yarıaçıq dodaqlarının arasından dişləri, təkəbbürlü üzündə cürətli gözləri parıldayırdı. Müxtəsər o, elə vəziyyətdə durmuş və elə bir qiyafətdə idi ki, elə bil, bu saat ağ əlcəkli əlləri ilə qılıncı çəkib, "Hazır ol!" komandası verəcəkdi.

Amma mən bir saniyədə başa düşdüm ki, zabitə "Hazır ol!" komandasını başqaları veriblər.

Paşanın böyük qızı Nərimə xanım onu görəndə:

– A! Ehsan, sən burdasanmış? Ay balam, sən hardan çıxdın? – deyib heyrət etdi.



Amma biçarə qadıncığaz rolunu o qədər bacarıqsız oynayırdı ki: "A! Ehsan, sən hardan çıxdın?" – deyə guya heyrət etdikdə, elə bir ahənglə danışırdı ki, guya deyirdi: "Vay, vay! Yalan danışdığımız gör necə aşkar bilinir!"

Bəli, bu gülünc "komik opera" dekorasiyası içində gülünc bir komediya oynayacaqdıq. Amma nə üçün? Bunu bir az sonra başa düşəcəkdim. Hələlik heç bir şey sezdirməmək, soyuqqanlı və cürətli olmaq lazımdı.

Hər halda bu paşalar sürpriz etməyi çox sevən adamlardır. Amma mənim bu gün inadcıllığım tutmuşdu. Nə edirlər etsinlər, özümü çaşıb qalmış kimi göstərməyəcəyəm. Yəqin ki, onlar mənim utanmağımı, qaçmağımı gözləyirdilər. Mən vüqar və soyuqqanlığımı heç pozmadım.

Nərimə xanım dedi:

– Fəridə xanım əfəndi, siz də bizim kimi istanbullusunuz. Əmim oğlu və süd qardaşım Ehsanı sizə təqdim etməyimi bir nöqsan bilməzsiniz, deyilmi?

Mən tamamilə saymazyana dedim:

– Əksinə, çox şad olaram, əfəndim.

Sonra onun danışmasına imkan verməyib özümü təqdim etdim:

– Fəridə Nizaməddin, maarif ordusunun kiçik zabitlərindən.

Gənc zabit o gözəl və cürətli vüqarını mühafizə edə bilmədi. Buna haqqı yoxdumu? İbtidai məktəb müəlliməsi bir neçə gün əvvəl fəhlə qiyafətində gördüyü bir şəxsi bu gün günəş kimi parlaq, nağıllardakı şahzadələr kimi gözəl və dəbdəbəli bir halda görüb, həyəcanından bihuş olmasın? Heç bu ağlabatan şey idimi?

Bəli, əksinə o, özünü itirdi. Bəzi məktəbdə əhəmiyyətli bir şey kimi illərcə ciddi-cəhd ilə öyrətdikləri o məlum "salam mərasimini" gənc zabit çox yaxşı bilmirdi. Görünür ki, əsgərsayağı salam vermək üçün qaldırdığı əlini yarı yolda aşağı endirdi, mənim əlimi tutmaq üçün uzatmağı lazım bildi. Amma indi də əlində əlcək olduğunu gördü. Zabit əlini elə dəhşətlə geri çəkdi ki, elə bil, bu biçarə əlcək birdən-birə odlanmışdı.

Üç-dörd dəqiqə onunla tamamilə saymazyana danışdım. Yazıq cavan mənimlə göz-gözə gələndə, yəqin ki, fəhlə paltarında məndən su istədiyini yadına salıb utanaraq gözlərini aşağı endirirdi. Amma

mən heç özümü o yola qoymayıb, elə danışırdım ki, guya onu birinci dəfə görürəm.

Bir az sonra Nərimə xanımla evə, içəri girdik. Qadın təəccüblə mənə dedi:

– Fəridə xanım, təbii ki, Ehsanı tanıdınız.

Demək ki, məktəbdəki əhvalatı o da bilirmiş. Mən sadəcə olaraq dedim:

– Bəli.

– Bəlkə, fikrinizə bir şey gələr. Sizə işin düzünü deyim, əfəndim. Ehsan yoldaşları ilə mərc çəkibmiş, cavanlıqdır da, əfəndim, belə şeylər olar.

Heyrətlə dodaqlarımı büzməkdən özümü saxlaya bilməyib dedim:

– Nə münasibətlə, əfəndim?

Nərimə xanım qızarır, utandığını gizlətmək üçün gülürdü.

– Əfəndim, zabitlərdən bəziləri sizə məktəbdən gəldiyiniz vaxt təsadüf ediblər. Sizin çox gözəl olduğunuzu söyləyiblər. Biz istanbulluyuq, təbii, buralılar kimi bunu bir təhqir bilmərik deyilmi, gözəlim? Ehsan onlarla bəhsə girişib deyib ki: "Mütləq bir çarə tapıb, bu müəllimə xanımla danışacağam". O gün ərinmədən fəhlələrdən birinin paltarını geyib və bu mərci udub. Qəribə deyilmi?

Mən cavab vermədim. Yazıq Nərimə xanım sözlərinin çox soyuq təsir etdiyini yaxşı başa düşürdü.

Bugünkü qəribə komediyanın son pərdəsini təkrar yuxarı salonda oynadıq. Ehsan bəylə görüşməyim haqqında xəbər bizdən çox-çox əvvəl yuxarıya gəlib çatmışdı. Bütün simalar bunun belə olduğunu göstərirdi.

Böyük xanım əfəndinin gizlin bir işarəsi ilə salondakılar bayıra çıxdılar. Yalnız Nərimə xanım qaldı.

Xanım əfəndi bir az tərəddüddən sonra sözə başladı:

– Ehsan necə olandır, xanım qızım?

– Çox yaxşı bir gənc olduğu görünür, xanım əfəndi.

O:

– Üzü də gözəldir, təhsili də yaxşıdır. Vəzifəsini böyüdüb onu Beyruta təyin ediblər.

Mən:

– Nə yaxşı! Doğrudan da gözəl, sevimli bir gəncdir. Məlumatı da, dediyiniz kimi, mükəmməl görünür.



Ana ilə qız bir-birinin üzünə baxdılar. Bu sözlərimə həm heyrət edirlər, həm də sevinirdilər.

Xanım əfəndi hırıldadı:

– Allah səndən razı olsun, qızım! İşimi asanlaşdırdın. Mən Ehsanın süd anasıyam, onu övlad kimi qucağımda böyütmüşəm. Fəridə xanım, qızım, gənc qızlarla bu barədə açıqdan-açığa danışmaq olmaz, amma maşallah, siz ağıllı, tərbiyəli bir qızsınız. Sizi Allahın əmri ilə Ehsan üçün istəyirəm. Sizi çox bəyənmişdir. Madam ki, siz də onu bəyənibsiniz, inşallah xoşbəxt olarsınız. Bir ay icazə alarıq, toyunuzu burda edərik, olmazmı? Sonra bir yerdə Beyruta gedərsiniz.

Mən işin bu yerə gələcəyini hələ əvvəldən hiss etmişdim. Doğrudan da, gülməli bir əhvalat idi. Amma bilmirəm nədən, yad bir yerdə məni bir adama almaq istəmələri bu dəqiqədə mənə qəribə bir qəmginlik gətirdi. Bununla bərabər, nəşəm kimi, qəmginliyimdən də bir şey bildirmədim. Onun cavabında dedim:

– Xanım əfəndi, kəniziniz üçün bu təklif böyük bir şərəfdir. Sizə də, Ehsan bəyə də bütün qəlbimlə təşəkkür edirəm. Amma bu mümkün deyildir.

Böyük xanım birdən-birə çaşıb qaldı:

– Nə üçün, qızım? Bir az əvvəl özünüz söylədiniz ki, onu bəyənirsiniz, gözəl hesab edirsiniz!..

Mən gülüb cavab verdim:

– Xanım əfəndi, yenə təkrar edirəm ki, Ehsan bəy gözəl və dəyərli bir gəncdir. Amma aramızda bir evlənmək ehtimalı olduğunu ağlımdan və ya qəlbimdən keçirmiş olsaydım, onun bu üstünlüklərini açıqdan-açığa söyləyə bilərdimmi, əfəndim? Bir gənc qız üçün bu bir az artıq sərbəstlik olmazdımı?

Ana ilə qız yenə bir-birlərinə baxdılar. Araya bir azca sükut çökdü. Sonra Nərimə xanım mənim əllərimi tutub dedi:

– Fəridə xanım, hər halda bu cavab, yəqin ki, sizin qəti cavabınız deyildir, çünki Ehsan bundan çox kədərlənəcək.

– Yenə təkrar edirəm ki, Ehsan bəy çox gözəl bir gəncdir, kimi istəsə ala bilər.

– Elədir, ancaq o sizi istəyir. Bayaq sizə söyləmək lazım gəldi ki, o yoldaşları ilə mərc çəkibmiş. Heç elə şey olarmı, gözəlim? Yazıq oğlan on gündür, elə təşviş içindədir ki, deyir: "Ölərəm, ondan əl çəkmərəm, mütləq alacağam".

Nərimə xanımın bu söhbəti uzadacağını, məni yola gətirmək üçün çox şeylər söyləyəcəyini hiss edirdim. Nəzakətlə, amma son dərəcə qəti bir neçə sözlə buna imkan olmadığını söylədim. Getmək üçün icazə istədim.

Nərimə xanım, demək olar ki, kədərlənmişdi. Yorğun bir tövrlə anasına dedi:

– Əziz anacığım, bunu Ehsana sən söylə, mənim dilim gəlməz. O, Fəridə xanımın rədd edəcəyini heç ağlına da gətirmirdi. İndi çox məyus olacaqdır.

Ah, bu kişilər! Hamısında eyni qürur, eyni özünü bəyənmə! Bizim qəlbimiz olduğunu, bizim də "mütləq" bir başqasını istəyə biləcəyimizi heç ağıllarına da gətirmirlər!..

Paşanın landosu məni evimə gətirəndə, Munisə qonşuda idi. Soyunmamışdan əvvəl özümə bir də tamaşa etmək istədim. Otaq xeyli qaranlıqlaşmışdı. Divara düşmüş solğun bir ay işığına bənzəyən aynada özümü xəyal kimi seçə bilirdim. Bilmirəm işığın necə möcüzəli inikasının nəticəsidir ki, birdən qısa laciverd paltarım mənə ağ rəngdə göründü, uzun ətəkləri qaranlıqlarda gözdən itən ağ ipək bir paltar...

Birdən-birə əllərimi üzümə tutdum. Bu dəqiqədə Munisə içəri girdi:

– Abacığım!

Ondan kömək istəyirmiş kimi, əllərimi uzatdım. "Munisə" deyəcəkdim, amma dodaqlarımdan səhv olaraq başqa bir ad, nifrət etdiyim o böyük düşmənimin adı çıxdı...

*Ç..., 6 may.*

Bu həftə mənim bəxtim açıldı. Dünənki əhvalatın hərarəti soyumamış, bu gün təzə bir komediyaya da qəhrəman oldum. Amma bu, dünənkindən min dəfə gülünc, min dəfə artıq təsir edib adamı əsəbiləşdirən bir komediya idi.

Əhvalatı olduğu kimi yazıram. Səhnə bizim aşağıdakı qonaq otağıdır. Hafiz Qurban əfəndinin arvadı, başında toylara gedəndə geydiyi ipək çarşab, boynunda cərgə-cərgə beşibirliklərlə[1] bizə qonaq gəlir. Amma halı qəribədir, gözləri qızarmışdır. Söhbətə başlayırıq.

[1] Beşbirlik – (və ya beşibiryerdə) beş lirəlik qızıl pul



Mən:

– Yəqin ki, çağırılmış bir yerə qonaq gedəcəksiniz?

O:

– Xeyr, həmşirəciyim, elə sizə gəlmişəm.

Mən:

– Bu gün nə yaxşı bəzənibsiniz. Bunu mənim üçün edibsiniz?

O:

– Bəli, həmşirəm, sizin üçün.

Mən qeyri-ixtiyari zarafatyana:

– Onda görünür mənə elçi gəlibsiniz?

O, gözlərində saf bir heyrətlə:

– Hardan bildiniz?

Mən birdən-birə çaşıb qaldım:

– Necə, siz mənə elçiliyəmi gəlibsiniz?

O, içini çəkə-çəkə:

– Bəli, həmşirəciyim...

Mən:

– Kimin üçün?

O, dünyada ən sadə bir şeydən danışan kimi:

– Bizim əfəndi üçün...

Bu qədər saf bir qadının, belə bacarıqla zarafat etməsi, təbii ki, xoşuma gəlir, qəhqəhə çəkib gülürəm. Amma o, gülmür, əksinə, gözləri yaşlıdır!

O:

– Həmşirəciyim, əfəndinin sizə gözü düşmüşdür, sizi almaq üçün məni boşamaq istəyirdi. Yalvardım, yaxardım, dedim ki, ziyan yoxdur, o xanımı da al, təki məni boşama. Biz gözəl yola gedərik. Mən sizin yeməyinizi bişirərəm, qulluğunuzu edərəm... Bacıcan, mənə rəhmin gəlsin.

– Bu Qurban əfəndi sizi boşasa, məni alacağına arxayındırmı?

O, möhkəm inanmış bir saflıqla:

– Əlbəttə... Deyir ki, düz əlli dənə beşibiryerdə verməyə razıyam.

Mən:

– Yazıq qonşum, di könlün rahat olsun. Belə şey dünyasında ola bilməz!

Biçarə qadın dua edir və pərdə enir.

*Ç..., 15 may.*

Məktəb tətilləri başlandığından, bu axşam müdirə xanım məni öz otağına çağırdı, acıqlı-acıqlı bu sözləri söylədi:

– Fəridə xanım, qızım, ciddiyyət və çalışqanlığınızdan razıyam. Amma bir nöqsanınız var: özünüzü hələ İstanbulda bilirsiniz. Qızım, məşhur bir atalar sözü var: "Gözəllik başa bəladır". Siz həm gözəl, həm də tək bir qız olduğunuz üçün, özünüzü bir az da yaxşı qorumalısınız. Halbuki, bəzən ehtiyatsızlıq edirsiniz. Təşvişə düşməyin, qızım. Qəbahət demirəm, eləcə ehtiyatsızlıq deyirəm. Məsələn, bizim qəsəbə o qədər də qıraq-bucaq bir yer deyil. Burda qadınlar yaxşıca bəzənib gəzə bilirlər. Müəllimlərimiz də o ayaqdan. Amma başqaları üçün təbii görülən bir şey sizdə nəzər-diqqəti cəlb edir. Çünki, qızım, siz gəncsiniz, gözəlsiniz, buna görə də rast gəldiyiniz kişiləri cəlb edirsiniz. Belə ki, qəsəbədə gizlin-gizlin bir dedi-qodu başlanmışdır. Mən burada otururam, guya heç bir şeydən xəbərim yoxdur, amma hər şeydən xəbər tuturam. Məsələn, qışlaqdakı zabitlərdən, qəhvəxanalardakı əsnaflardan tutmuş edadi məktəbindəki böyük şagirdlərə qədər, sizi uzaqdan tanımayan, sizdən danışmayan yoxdur.

O ki qaldı mənim bu barədə sizinlə nə ixtiyarla və nə üçün danışmağıma, bunun iki səbəbi var, qızım. Biri budur ki, siz təcrübəsiz, amma, doğrudan da, yaxşı bir qızsınız. Biz daha insan sərrafı olmuşuq. Onun üçün, bir ana kimi, bir böyük bacı kimi öz vəzifəmi yerinə yetirmək istədim. Sonra da məktəbin mənfəəti məsələsi var, qızım. Elə deyilmi?

Müdirə üzümə baxmadan tərəddüdlə sözünə davam etdi:

– Məktəb, məscid kimi müqəddəs bir yerdir. Onu dedi-qodudan, iftiradan və başqa ləkələrdən qorumaq bizim ən böyük vəzifəmizdir. Elə deyilmi? Halbuki, bu yersiz dedi-qodular, təəssüf ki, məktəbi də ləkələməyə başladı. Axşamüstü qızlarını, bacılarını aparmaq üçün məktəb qapısına gələn ata və qardaşların nə qədər çoxaldığına diqqət edibsinizmi? Siz bəlkə buna fikir verməyibsiniz, amma mən bilirəm. Onlar öz uşaqlarından artıq sizi görə bilmək üçün gəlirlər. O günlərdə yoxsul şagird qızlardan birinin saçlarını hörüb ucuna da lent bağlayıbmışsınız. Bilmirəm kimdən xəbər tutublar, amma hiyləgər bir mülazim küçədə qıza pul verib lenti əlindən alıbdır. İndi hərdən yaxasına taxır və belə sözlər deyib öz yoldaşlarını əyləndirir: "Mənə daha paşalar paşası deməlisiniz. Ona görə ki, Gülbəşəkərdən nişan almışam!"



Dünən qapıçı Məhməd ağa qəribə bir xəbər verdi:

Keçən gecə meyxanadan gələn sərxoşlar məktəbin qapısında durubmuşlar, bunlardan biri belə bir nitq söyləyibmiş: "Mən divardakı bu qara daşa Gülbəşəkərin əlini vurduğunu özüm gördüm. Gəlin Allah xatirinə, bu Həcəri-Əsvədə[1] səcdə edək!" Qızım, görürsünüz ki, bunlar nə sizin üçün, nə də məktəb üçün əsla xoşa gələn şey deyil. Halbuki, bütün bunlar kifayət deyilmiş kimi, siz başqa bir ehtiyatsızlıq da edibsiniz: Əbdürrəhim paşanın evində yüzbaşı Ehsan bəylə danışıbsınız. Əgər xanım əfəndinin təklifini qəbul etsəydiniz, bunun bir ziyanı yoxdu. Amma gənc bir adamla görüşüb danışmanız, sonra da belə yaxşı qisməti rədd etməniz nəzər-diqqəti cəlb etmişdir. Belə-belə dedi-qoduların meydana çıxmasına bais olmuşdur: "Madam ki, Ehsan bəyi istəmir, deməli ki, bir başqasını sevir, görəsən, o kimdir?"

Mən bu sözləri cavab vermədən, heç bir hərəkət etmədən dinləmişdim. Əvvəlcə mənim etiraz və üsyanımdan qorxan müdirə, indi, əksinə, sükutumdan şübhələnirdi. Bir az tərəddüddən sonra soruşdu:

– Bunlara nə deyirsiniz, Fəridə xanım?

Mən yavaşca köks ötürüb düşünə-düşünə dedim:

– Müdirə xanım, sözləriniz hamısı doğrudur. Özüm də yavaş-yavaş bunları başa düşürəm. Bu gözəl qəsəbəyə hayıfım gəlir, amma neyləyim? Siz nazirliyə yazarsınız, bir səbəb göstərib məni başqa yerə göndərmələrini tələb edərsiniz. Bu işdə mənə edəcəyiniz ən böyük yaxşılıq bundan ibarət olar ki, əsil səbəbi göstərməyib, başqa bir bəhanə tapasınız. Məsələn, deyin ki, sinfi idarə edə bilmir, əlindən iş gəlmir, biliyi azdır, dikbaşdır... Nə deyirsiniz deyin, müdirə xanım, sizdən əsla incimərəm. Yalnız deməyin ki, şəhərdə dilə-ağıza düşdüyü üçün onu saxlamaq istəmirəm.

Müdirə bir söz deməyib düşündü. O, gözlərimin dolduğunu görməsin deyə, pəncərəyə sarı döndüm. Üfüqdə, adamın solğun mavi siması altında incə-incə qalxan dumana bənzər dağları seyr etməyə başladım.

Çalıquşu bu dağlardan yenə qürbət qoxusu duymağa başlayırdı. Qürbət qoxusu! Bu söz – bu qoxunu bütün ruhu ilə qoxlamayanlar üçün nə qədər mənasız bir sözdür! Xəyalımda yollar, getdikcə daralan,

[1] Həcəri-Əsvəd (Qara daş) – Kəbədə müsəlmanların müqəddəs saydıqları bir daşdır.

qəmgin görünən, bitib-tükənməyən qürbət yolları uzanıb gedir, qulağımda çeçen arabalarının o incə, yanıqlı səsi olan zınqırovları ağlayırdı.

Bu nə vaxta qədər, ya rəbbi, nə vaxta qədər davam edəcəkdir? Nə üçün? Hansı arzuya yetişmək üçün?..

*Ç..., 5 iyun.*

Məni quşlarımın ahı tutdu. Bu uzun tətil aylarında mən də onlar kimi dustaq qaldım. Müdirə xanım, sentyabrdan əvvəl bir yerə keçirilməyimə imkan olmadığını söylədi. İndilik çalışıram ki, məni unutsunlar; demək olar ki, küçəyə çıxmıram. Qonşularım da məni daha əvvəlki kimi yada salmırlar. Görünür ki, bu dedi-qodulardan gözləri qorxmuşdur. Yalnız xalama bənzəyən yaşlı bir xanımla hərdən söhbət edirəm. Hələ səsi xalamın səsinə o qədər bənzəyir ki, keçən gün ondan utana-utana bir şey xahiş etdim, dedim ki:

– Əziz xanım, mənə "hocanım" deməyin, eləcə Fəridə deyin, olmazmı?

Qonşum bir az təəccübləndi, amma arzumu rədd etmədi. O mənimlə danışanda, mən gözlərimi yumub özümü Qozyatağının bağçasında... Eh, nə yersiz sözlər danışıram!.. Görünür, məndə sinir xəstəliyi başlanır. Hər halda vəziyyətimdə bir qərarsızlıq var: yenə əvvəlki kimi gülürəm, yenə Munisə ilə hambal uşaqları kimi, yumalana-yumalana əlbəyaxa boğuşuruq. Yenə quşlara fit çalıram. Ancaq qəmginliyim kimi, şadlığım da ötərgidir. Özümdə, sözümdə deyiləm.

Bura gələndə, gecə paroxodda yuxum qaçmışdı. Yanıqlı səsi olan bir yolçu qaranlıq sulara belə bir mahnı oxumuşdu:

"Səndədir avara könlüm, səndədir!.."

Bunu o gecə eşitməyimlə unutmağım bir olmuşdu. Aradan aylar keçdikdən sonra, bağçamda ilk çiçəklər açılmağa başladığı bir aprel günü, elə birdən-birə bu mahnını oxumağa başladım. İnsan ruhu nə anlaşılmaz bir müəmma imiş!.. Bircə dəfə eşitdiyim bu mahnını havası ilə, sözləri ilə necə yadımda saxlamışdım? O gündən sonra iş görəndə, quşlara su verəndə, pəncərəmdən görünən dənizi seyr edəndə, bu mahnı ağzımdan düşmürdü. Dünən axşamüstü:



"Səndədir avara könlüm, səndədir!" –

deyə son misranı təkrar edəndə, tamamilə səbəbsiz ağlamağa başladım. Bu adi mahnının nə sözlərində, nə də havasında ağlamalı heç bir şey yoxdur. Dedim də, sinir xəstəliyidir...

Bir də bu mahnını oxumayacağam.

*Ç..., 20 iyun.*

Məktəbdə Nəzmiyyə adlı bir yoldaşım var. İyirmi dörd-iyirmi beş yaşlarında, qəşəng, şən, zarafatcıl bir qızdır. Çox şirin danışmağı var. Onu hər gecə bir yerə dəvət edirlər. Müəllim yoldaşları onu çox sevməzlər; bu yaxında onun barəsində bəzi xırım-xırda dedi-qodular eşitmişdim.

Yəqin ki, bir az açıq geyinməsi onların xoşuna gəlmir, ya da ki, ona paxıllıqları tutur; mən nə bilim.

Nəzmiyyənin guya bir yüzbaşı nişanlısı var. Çox yaxşı oğlandır. Amma bu oğlanın ailəsi indi onların evlənmələrinə razılıq vermədiyindən, hələlik aralarındakı münasibəti gizlin saxlayırlar. Nəzmiyyə bunu mənə bir sirr kimi söylədi, tapşırdı ki, heç kimə danışmayım. Dünən evdə darıxmaqdan cana gəldiyim bir dəqiqədə Nəzmiyyə içəri girdi.

– Fəridə xanım, sizi aparmağa gəlmişəm. Bu gecə Fəridunun xalası məni qonaq çağırmışdır. Su başındakı bağında bir qonaqlıq verir. Sizi tanımadığı halda, gözlərinizdən öpməyi tapşırıb, ora getmənizi xüsusi rica edir.

Mən:

– Necə ola bilər? – dedim. – Tanımadığım bir yerə necə gedim?

Nəzmiyyə mənə şikayətli-şikayətli baxıb dedi:

– Mənim nişanlımın xalası sənə nə üçün yad olsun? Mənim başqa bir fikrim də var. Nişanlımı sənə göstərəcəyəm. Güman edirəm ki, mənim zövqümü bəyənərsən. Sən getməsən, vallah mən də getmərəm.

Mən getməmək üçün bir çox bəhanələr göstərdim. Amma hamısına cavab tapdı. Əslində mənim bəhanələrim də uşaq bəhanələri idi. Yuxarıda da demişdim ki, Nəzmiyyə çox şeytan qızdı. Adamı lap başdan çıxarırdı.

O qədər dil tökdü, o qədər yalvardı ki, daha dayana bilməyib arzusunu qəbul etdim.

Ancaq bir şey diqqətimi cəlb etdi. Mən Munisəni geyindirmək istəyəndə, Nəzmiyyə qaşlarını bir balaca çatıb dedi:

– Onu da aparacaqsan?

– Əlbəttə, Munisəni evdə tək qoya bilmərəm? Bəlkə yaxşı düşməz? – deyə soruşdum.

– Xeyr, niyə yaxşı düşmür? Daha yaxşı. Hərdən onu evdə qoyub gedirdin, ona görə deyirəm.

– Elədir, ancaq indiyə qədər heç yerə gecə qalmağa getməmişəm.

Mən çox da maymaq qız deyildim. İki ildən bəri çox şeylər görüb, çox şeylər eşitmişdim. Bilmirəm nə oldu, başımı necə itirdim ki, Nəzmiyyənin bu sözlərindən şübhəyə düşmədim. Bunu heç anlaya bilmirəm.

Yəqin ki, çox darıxmağım, ancaq havaya olan ehtiyacım məni çaş-baş edibmiş.

Kiçik bir fayton bizi çayın o biri sahilinə keçirdi. Bağçalar arasından, yarpaqlarla örtülü ensiz yollardan birinə girib yarım saatlıq, qırx beş dəqiqəlik məsafədə olan bir bağa çatdıq. Buralar çox tənha, amma nə gözəl yerlərdir! Yolda bir sürüyə rast gəldik. Qoca bir çoban bostan quyusunun taxta tulumbasını çəkib, daş bir hovuzda qoyunları sulayırdı. Hovuzun başında incə buynuzları ilə bir-birini itələyən çəpişlər Munisə ilə mənim yadıma Məzlumu salıb marağımızı artırdı.

Gözlərimiz yaşla dolu halda, faytondan yerə atıldıq. Çəpişlərdən birini tutub uzun qulaqlarını, su damcılayan zərif çənəsini öpdük. Onu çobandan satın almaq da istədim. Amma bunun nə mənası vardı. Axı biz bu yaxında onu yenə qoyub getməli olacaqdıq. Dərdimiz az idi ki, bir də bunu öz başımıza bəla götürək?..

Getdiyimiz köşk, ucu-bucağı görünməyən bir bağın ortasında köhnə bir bina idi. Ətrafını uca talvarın yaşıllığı bürümüşdü.

Fəridun bəyin xalası yaşlı, şişman bir qadındı. Sözün düzü, paltarından, bəzək-düzəyindən gözüm su içmədi. Qoca bir qadına bu qədər bəzək-düzək yaraşmazdı. Saçları sarı rəngə boyanmış, qaşlarına vəsmə, gözünə sürmə sürtmüş, üzünə üst-üstə ənlik, boya çəkmişdi. Müxtəsər ki, qəribə bir şeydi!

Bu qadın bizi üst mərtəbədə bir otağa apardı. Mənim çarşabımı götürdü. Sonra həddən artıq bir səbirsizliklə yanaqlarımı qoxulayırmış kimi öpə-öpə dedi:



– Görüşdüyümüzə çox şad oldum, almaz qızım. Gülbəşəkər, nə gülbəşəkərmiş! Doğrudan da adam lap yemək istəyir. Yanıb-yaxılmağa dəyərmiş...

Əhvalım yaman pozuldu. Amma gərək özümü o yerə qoymayaydım. Axı bəzi qanacaqsız adamlar var ki, nə söylədiklərini özləri də bilmirlər, yəqin ki, bu da onlardan olacaq.

Bizi bu otaqda xeyli müddət Munisə ilə tək qoydular. Günəş batmışdı. Çardağı örtən sıx yarpaq yığınları içində axşamın çəhrayı bəzəkləri yavaş-yavaş sönürdü. Munisə ilə zarafatlaşıb başımı qarışdırmağa çalışırdım. Amma ürəyimə nə isə dammışdı. Heç özümdə, sözümdə deyildim.

Bağçadan qarışıq qadın, kişi səsləri, qəhqəhələr, hay-küy eşidilir, kaman səsi gəlirdi, hiss olunurdu ki, onu kökləyirlər.

Pəncərədən başımı uzatdım. Sıx yarpaqlar arasından heç bir şey seçmək mümkün deyildi. Nəhayət, pilləkən tərəfdən ayaq səsləri gəlməyə başladı. Qapı açıldı, ev sahibi xanım, əlində yekə bir lampa ilə içəri girdi.

– Almaz qızım, səni yaddan çıxardım, amma qəsdən qaranlıqda qoydum. Günəş batanda, bu bağçaların gözəlliyinə baxmaqdan doymaq olmaz!

Qoca qadın lampanın fitilini düzəldə-düzəldə, mənə aylı gecələrdə bu ağacların cənnət kimi olduğunu deyib təriflədiyi vaxt, Nəzmiyyə içəri girdi. Qapının dalından gözümə zabit forması geymiş iki uzunboylu adam dəydi. Mənim başım açıqdı; qeyri-ixtiyari geri çəkilib qolumla saçlarımı örtmək istədim.

Nəzmiyyə gülə-gülə dedi:

– Əzizim, sən lap kəndli olub gedibsən! Hər halda mənim nişanlımdan yaşınmayacaqsan ki... Çək qolunu, vallah, ayıbdır!

Nəzmiyyənin haqqı vardı. Çəkinib-gizlənmək üçün bir səbəb yoxdu.

Zabitlər bir az tərəddüdlə otağa girdilər. Nəzmiyyə onlardan birini mənə təqdim edib dedi:

– Fəridun bəy, nişanlım! Fəridə xanım, yoldaşım! Bəxtimdən iki əzizimin adı bir-birinə yaxındır.

Gənc zabit bu zarafatı eşitcək ağzını yaya-yaya güldü.

Mən kiçik olanda, nənəm qəribə bir kibrit qutusu alardı. Bu qutuların üstündə bığları burma, əyriçiyin, qıvırcıq saçlarının bir qismi

gözünün üstünə tökülmüş bir yarmarka qoçağının şəkli vardı. İndi bu Fəridun bəy elə bil həmin kibrit qutularının birindən qopub gəlmişdi. Mənim əlimi kobud bir hərəkətlə sərt ovcunun içinə alıb silkələyə-silkələyə, sıxa-sıxa dedi:

– Əfəndim, təşəkkür və minnətdarlığımı ərz edirəm. Bizim məclisimizə şərəf verdiniz, sağ olun...

Sonra da arxasında duran zabiti təqdim etdi:

– İcazə versəniz, qulunuz olan mən də öz səmimi bir yoldaşımı, öz hamimi sizə təqdim edim: minbaşı Bürhanəddin bəy. Minbaşıdır, amma bildiyiniz minbaşılardan deyil, məşhur Solaqzadələrin kiçik oğludur.

Solaqzadələrin bu kiçik bəyi, demək olar ki, yaşı qırx beşi ötmüş bir zat idi. Saçlarının və bığlarının bir qismi ağarmışdı. Kübar ailədən olduğu o saat məlum idi. Geyinişi, duruşu, söz danışması Fəridundan tamamilə başqa idi. Onun çöhrəsi və ağ saçları, yoldaşından duyduğum qorxu ilə qarışıq pis təsiri, demək olar ki, yox etdi. Ürəyim bir az arxayınlaşan kimi oldu.

Bürhanəddin bəy sərbəst və iti danışırdı. Zərif baş işarəsi ilə uzaqdan salam verdi, azacıq baş əyib dedi:

– Bəndəniz Bürhanəddin... Əfəndim, mərhum atamın mülkləri içində ən çox sevdiyi yer bu bağ idi. O həmişə deyərdi ki, bura uğurludur, mənə nə qədər xoşbəxtlik gəlibsə, hamısı bu bağda gəlib. Sizin təşrif gətirdiyinizi görəndə, mərhum atamın bu sözlərini bir kəramət kimi təsdiq etdim.

Hesaba görə bu sözlər bir kompliment olmalı idi. Amma bu Bürhanəddin bəyin bağla nə əlaqəsi vardır?

Mən heyrətlə Nəzmiyyənin üzünə baxıb bu suala cavab gözlədim. Amma o mənə baxmır, gözlərini inadla mənim gözlərimdən qaçırdırdı. İndiyə qədər mənim bağ sahibi bildiyim xanım Munisənin əlindən tutub otaqdan çıxarmışdı.

Yarım saatdan artıq müddətdə bu otağın içində bir yerdə oturduq. Ordan-burdan söhbət etdik. Daha doğrusu, onlar danışırdılar. Çünki məndə danışmağa yox, heç danışılan sözləri başa düşməyə də hal qalmamışdı. Sanki dəmir bir pəncə ürəyimi sıxır, nəfəsimi boğurdu. Ağlım işləmirdi. Heç bir şey düşünmür, heç bir şey duymurdum. Yuvasında hücuma məruz qalmış bir heyvan balasının keçirdiyi o düşüncəsiz qorxusu ilə mən də küncə sıxılıb büzüşmüşdüm.



Aşağıda kamanda bir təqsim[1] çaldılar, bunun ardınca bir qəzəl, sonra da qalın-incə səsli adamların oxuduğu mahnılar eşidildi.

Divanda yan-yana oturmuş Nəzmiyyə ilə nişanlısı getdikcə bir-birini daha artıq qucaqlayırdılar. Yavaş-yavaş arxamı onlara çevirdim. Bunlar çox alçaq ruhlu adamlardı. İki yad adamın qabağında, kinolarda o çirkin eşq səhnələrindən birini oynayan kimi, heç çəkinmədən, utanmadan baş-başa... Bəli, bunlar çox alçaq və pis adamlardır.

Bir az əvvəl şişman xanım stolun üstünə şüşələr, boşqablarla dolu bir məcməyi qoyub getmişdi. Bürhanəddin bəy əlləri cibində, otağın içində gəzişir, hərdən arxasını bizə çevirib bu stolun önündə dururdu. Bu gəzişmələrin birində minbaşının önümdə durduğunu, azacıq əyildiyini gördüm.

– Lütf edib buyurmazsınızmı, kiçik xanım?

Heyrətlə gözlərimi qaldırdım. Əlindəki kiçik bir qədəhin içində yaqut kimi qırmızı içki parıldayırdı. Başımla rədd etdim, lap yavaşcadan dedim:

– İstəmirəm.

O, daha da əyildi, isti nəfəsi üzümə toxuna-toxuna dedi:

– Zərərli bir şey deyil, kiçik xanım. Dünyanın ən zərif və saf bir likörüdür. Elə deyilmi, Nəzmiyyə xanım?

Nəzmiyyə başı ilə ona işarə edib dedi:

– Təkid etməyin, Bürhanəddin bəy, Fəridə burada öz evində sayılır. Necə istəsə, elə etsin..

Bürhanəddin bəy ağarmağa başlamış saçları, mehriban və kübar çöhrəsi ilə bu dəqiqəyə qədər məndə naməlum bir inam və arxayınlıq təsiri oyatmışdı. İndi daha ondan qorxmağa başlayırdım. Ya rəbbi, bu nə idi başıma gəlirdi? Mən hara düşmüşdüm? Özümü burdan necə qurtaracaqdım?

Otaqdakı işıqlar yavaş-yavaş sönür, gözlərimə çökən bu qaranlığın içində qığılcımlar uçuşur, çalğı səsi qulağıma uzaq bir dənizin uğultusu kimi gəlirdi.

– Almaz qızım, yemək vaxtı çatmışdır. Süfrədə bir neçə qonağımız var. Sizi gözləyirlər.

Bu sözləri o şişman qadın söyləyirdi. Bir az özümü ələ alıb dedim:

– Təşəkkür edirəm, bir az xəstə kimiyəm. Məni burada qoyun.

[1] Təqsim – oxunacaq mahnının məqamını göstərən giriş hissə

Bu səfər Nəzmiyyə mənə yaxınlaşdı:

– Fərdəciyim, vallah yad adamlar deyildirlər. Fəridunla Bürhanəddin bəyin bir-iki yoldaşıdır. Sonra onlardan bəzilərinin nişanlıları, arvadları, bəli-bəli, arvadları... Gəlməsən, yaxşı düşməz. Onlar elə sənə görə gəliblər.

Mən biləklərimi Nəzmiyyənin əlindən qurtarmağa çalışır, kreslonun kənarına çəkilib küncə sıxılırdım. Danışa bilmirdim. Dişlərimi sıxmasam, onların bir-birinə dəyəcəyini hiss edirdim.

Bürhanəddin bəy dedi:

– Qonağımız nə əmr edərsə, necə istərsə, elə hərəkət etmək bizim borcumuzdur. Siz qonaqların yanına gedin, Fəridə xanımın bir az xəstələndiyini söyləyin. Binnaz xanım, siz də bizim yeməyimizi bura gətirin. Qonağımı tək qoymamaq mənim vəzifəmdir.

Bu dəqiqədə az qala dəli olmuşdum: bu otaqda Bürhanəddin bəylə tək qalmaq, onunla birlikdə yemək yemək!..

Nə etdiyimi bilmədən, düşünmədən yerimdən sıçradım, bütün qüvvətimi toplayıb dedim:

– Yaxşı, siz deyən kimi olsun...

Nəzmiyyə ilə nişanlısı qol-qola qabaqca gedirdilər. Bürhanəddin bəy bir addım geridə mənim dalımca gəlirdi.

Qaranlıq səkinin axırında bir qapı açıldı. Göz qamaşdırıcı parıltı birdən-birə gözlərimi yandıran kimi oldu. Tavanda çilçıraqlardan saçılan gur işıq içində səndirləyə-səndirləyə bir neçə addım getdim.

Divarlarda salonu sonsuz dərəcədə geniş və uzun göstərən əndam aynaları parıldayır, çilçıraqların əksi bu aynalara düşüb qaranlıq bir yolda qaçışan məşəllər kimi lap uzaqlara yayılırdı.

Gözlərimin önündə, röyada olduğu kimi, qarışıq, bulanıq gözlər, qadın və kişi çöhrələri görürdüm. Sonra gurultulu alqışlar qopdu. Çalğının içində səslər dərinləşib batır, amma heç cür kəsilmir, uğuldayan dağ küləkləri kimi lap uzaqlarda bağırırdı: "Yaşasın Bürhanəddin bəy, yaşasın Gülbəşəkər! Yaşasın Gülbəşəkər, Gülbəşəkər..."

Gözlərimi açanda, özümü Munisənin qolları arasında gördüm. Balaca qızım "Abacığım!" – deyə ağlaya-ağlaya üzünü üzümə sürtür, islanmış saçlarımı, odekolondan yanan gözlərimi öpürdü. Üstümbaşım tamam su içində idi. Otağın yarı qaranlığında bir çox gözlərin mənə baxdığını hiss edirdim. İlk hərəkətim bu oldu ki, qollarımla açıq boynumu örtdüm.



Bir az tərpənib, yerimdən qalxmaq istədim. Bir əl mənim çiynimdən tutub dedi:

– Qorxma, qızım, heç bir şey yoxdur, qorxma...

Kirpiklərimin arasından bu sözü söyləyən adamın üzünə baxdım. Bu adam həmişə pencəyinin yaxası açıq olan həmin o şişman qol ağası idi. O da mənə baxdı, sonra yanındakına dönüb dedi:

– Biçarə doğrudan uşaqmış ki...

Nəzmiyyə yerə diz çöküb mənim biləklərimi ovuşdura-ovuşdura deyirdi: "Fərdəciyim, bir az özünə gəldinmi? Bizim lap ürəyimizi saldın..."

Onun üzünü görməmək üçün başımı o biri tərəfə çevirdim, gözlərimi yumdum.

Sonradan öyrəndiyimə görə, bu bihuşluq on beş dəqiqədən çox çəkibmiş. Nə odekolon, nə də yanmış yun qoxlatdırmaq heç bir təsir etməyibmiş, belə ki, daha ümidləri kəsilməyə başlayıbmış. Şəhərdən doktor gətirmək üçün bir bağ arabası hazırlayıblarmış.

Özümə gəldikdən sonra o araba ilə məni şəhərə aparmalarını istədim. Razı olmasalar, gecə vaxtı təkbaşına yola düşməkdən çəkinməyəcəyimi söylədim. Çarəsiz razı oldular. Şişman qol ağası paltosunu geyib arabaçının yanına hoppandı.

Biz yola düşən vaxt Bürhanəddin bəy çəkinə-çəkinə mənə yaxınlaşdı, üzümə baxmağa cəsarət etməyib dedi:

– Fəridə xanım, siz bizim fikrimizi yanlış başa düşdünüz. Əmin olun ki, heç bir kəsin sizə qarşı pis bir niyyəti yox idi. Eləcə sizə hörmət etmək, bağ əyləncəsi göstərmək istəyirdik. İstanbulda tərbiyə görmüş, sonra, məsələn, bir neçə gün bundan əvvəl yoldaşlarımızdan biri ilə danışmaqdan çəkinməmiş bir kiçik xanımın bu qədər vəhşi təbiətli olacağını necə güman edə bilərdik? Sizi təkrar inandırıram ki, sizə qarşı heç bir pis niyyət yox idi. Bununla bərabər, narahat olduğunuza görə, sizdən üzr istəyirəm.

Araba ensiz bağ yollarının qaranlıqlarına girib gedirdi. Mən bir küncə qısılıb, üşüyən kimi titrəyə-titrəyə gözlərimi yummuşdum. Xəyalımda yavaş-yavaş başqa bir gecənin xatirəsi oyanırdı. Bu xatirə, Qozyatağındakı köşkdən qaçdığım, nə etdiyimi düşünmədən, təkbaşına qaranlıq yollara düşdüyüm həmin gecənin xatirəsi idi.

Adamı ətrilə bihuş edən iydə budaqları, hərdən arabanın pəncərəsindən içəri girib üz-gözümə toxunaraq məni röyamdan oyadırdı.

Başını arabanın o biri pəncərəsinə dayamış Munisənin dərindən köks ötürdüyünü gördüm. Yavaşcadan soruşdum:

– Munisə, sən oyanmısan?

O cavab vermədi, başını daha da əydi. Onda diqqət edib gördüm ki, balam ağlayır, həm də böyük adam kimi, göz yaşlarını qaranlıqda gizlətməyə çalışa-çalışa ağlayır.

Əllərini tutub dedim:

– Sənə nə olmuşdur, qızım?

Məndən daha çox yaşamış, daha çox anlamış böyük bir insan iztirabı ilə başımı qucaqlayıb qulağıma əyildi və dedi:

– Abacığım, mən bu gecə nə qədər ağlamışam... Nə qədər qorxmuşam... Səni ora nə üçün çağırdıqlarını anladım, abacığım. Bir də belə yerlərə getməyək. Yaxşımı? Birdən sən də... Allah eləməsin... anam kimi... onda mən ölərəm, abacığım!..

Ah, ya rəbbi, bu nə zillət, nə səfalətdir... Əxlaqsız bir qadın kimi mən bu uşaqdan utanır, üzünə baxmağa cəsarət edə bilmirdim.

Başımı onun kiçik dizlərinə qoydum, evə çatana qədər anasının qucağında ağlayan bir uşaq kimi için-için ağladım...

Mən müdirə xanımın evinə getdiyim vaxt gün yeni doğmuşdu. Bu qoca qadın səhər sübhdən mənim ağlamaqdan şişmiş gözlərimi, saralmış üzümü görəndə özünü itirib dedi:

– İnşallah ki, xeyirdir, Fəridə xanım. Sənə nə olmuşdur, qızım. Səni heç belə görməmişəm. Xəstəsənmi?

Bu xanımın ciddi və qaşqabaqlı üzü məni həmişə bir az qorxudardı, ürəyimi ona açıb söyləməyə mane olardı. Amma bu saat, bu yad qəsəbədə ondan başqa dərdimi deməli bir adamım yox idi. Sonra vəzifəm, sənətim də məni buna məcbur edirdi.

Dünən gecəki əhvalatı utana-utana, titrəyə-titrəyə danışdım. Heç bir şey gizlətmədim. Qoca qadın bir kəlmə söyləmədən dinləyir, qaşlarını çatırdı. Danışıb qurtaranda boynumu bükdüm, əllərimi uzatdım. Yaşlı gözlərim ilə onun gözlərindən bir təsəlli cavabı diləyə-diləyə dedim:

– Müdirə xanım, siz məndən yaşlısınız. Məndən çox-çox artıq bilirsiniz. Allah xatirinə, mənə düzünü deyin! İndi mən daha, pis qadınmı sayılıram?

Bu suala müdirədə gözlənilməz bir həyəcan və rəhmdillik oyandırdı. Çənəmdən tutub başımı qaldırdı, lap yaxından gözlərimin içinə



baxdı, həm də həmişəki kimi bir müdirə gözü ilə, bir yad gözü ilə yox, sevən və anlayan bir ana gözü ilə baxdı.

Sonra çənəmi oxşadı, dizlərinə qoyduğum əllərimi tumarlaya-tumarlaya, mütərəddid, titrək bir səslə dedi:

– Fəridə, mən sənin bu qədər məsum, təmiz bir qız olduğunu bu günə qədər başa düşməmişdim. Səni özümə daha da yaxınlaşdırmaq, daha da yaxşı himayə etmək mümkündür. Hayıf!.. Ah, o Nəzmiyyə!.. Qızım, mən bir çox şeylər bilirəm. Hər şeyi başa düşürəm. Amma dünya elə bir dünyadır ki, adam bildiklərinin bir çoxunu gizlətməyə məcburdur. Nəzmiyyə pis adamdır. Məktəbi onun şərindən qurtarmaq üçün dəfələrlə lazımi yerlərə müraciət etdim, çox əlləşdim. Amma boş yerə... Onu yerindən tərpətmək mümkün deyil. Çünki mütəsərrifdən, alay bəyindən tutmuş tabur imamlarına qədər saysız-hesabsız hamiləri var. Əgər Nəzmiyyə burdan getsə, bəs kübar xanımlara kim yaltaqlıq edəcək? Böyük məmurların gecələr gizlincə düzəltdikləri kef məclislərində kim ud çalacaq, hətta oynayacaq? O, Bürhanəddin bəy kimi azğın, miras yeyənlər sənin kimi məsum, saf, gənc, gözəl uşaqları necə ələ keçirəcəklər? Fəridə, sənin üçün tərtib etdikləri planı mən tamamilə başa düşürəm. Bu Bürhanəddin bəy atasından qalan var-dövləti bir çox biçarə qadınları yoldan çıxarmaq, bir çox ailə ocaqlarını yıxıb-dağıtmaq üçün israf etmiş qoca əxlaqsızdır. Gözəlliyi, bütün "Ç"-də dillər əzbəri olmuş sənin kimi gənc bir qızı ələ keçirmək onun üçün bir izzət-nəfs məsələsi olmuşdur.

Yeridikcə qılıncları şıqqıldayan gənc zabitlərin küçələrdə yolunu gözlədikləri, yaşmağının altından üzünü görməyi bir müvəffəqiyyət saydıqları sənin kimi bir gənc qızın qoluna girib, kef və işrət məclisinə aparmaq, bir çox paxıl, əxlaqsızları: "Yaşasın, Bürhanəddin bəy!" – deyə bağırtmaq onun üçün bir şərəf idi.

Xüsusən sənin Ehsan bəylə danışdığını da eşidibmiş. Odur ki, qızım, onlar Nəzmiyyəyə müraciətlə, kim bilir, ona nələr boyun olub, sənin başına bu oyunu gətiriblər. Qızım, yenə şükür et ki, belə qurtara bilibsən! Amma sənə bunu da söyləməyə məcburam ki, daha burda qala bilməzsən. Tamamilə yəqindir ki, bu əhvalat bir-iki günə bütün şəhərə yayılacaqdır. Sən birinci paroxodla burdan çıxıb getməlisən. Getməli bir yerin, qohum-əqrəban, tanış-bilişin varmı, Fəridə?

– Müdirə xanım, heç kəsim yoxdur.

– Onda İzmirə get. Orda mənim iki tanışım var. Biri müəllimə yoldaşımdır, o biri də maarif şöbəsinin baş katibidir. Sənə məktub

verim, ümid edirəm ki, sənə dərs tapmaq üçün əlindən gələn yardımı əsirgəməz.

Bu şəfqət məni çaşdırmışdı. Yağışda, qarda ölümdən xilas edilmiş bir pişik balası kimi, onun qucağına soxulur, qorxa-qorxa yanağımı, saçlarımı tumarlayan əllərinə sürtür, sonra bu əlləri çevirib ovuclarının içindən öpürdüm.

Qoca qadın yavaşcadan köksünü ötürüb sözünə davam etdi:

– Fəridə, sən bu halda daha öz evinə gedə bilməzsən. Həm də bu yaxşı düşməz. Haydı, qızım, səni yuxarıda yatırdım. Bir azca yuxula, mən də Munisə ilə bərabər şeylərini bura gətirərəm. Gedənə qədər burada qalarsan.

Müdirənin yuxarıdakı otağında axşama qədər bir neçə dəfə oyanıb yenidən yatdım. Mən gözlərimi açan kimi, qoca qadın yanıma gəlib əlini alnıma qoyur, "Ç" qızları kimi hördüyüm iki qalın hörüklü saçlarımı tumarlaya-tumarlaya soruşurdu:

– Fəridə, xəstəsənmi? Bir yerin ağrıyırmı, qızım?

Məndə bir şey yoxdu, xəstə deyiləm. Amma əzgin halda başımı balışın üstünə atıb kiçik bir uşaq kimi nazlanırdım. Mənə elə gəlirdi ki, özümü daha artıq oxşadıb sevdirsəm, bu yeni tapdığım ana sevgisi könlümün içinə girib qalacaq, sonra yalqız olarkən xəstələndiyim günlərdə, – hədiyyə verilən yaylıqlarda qalan ətir qoxuları kimi, – mənə təsəlli verəcəkdir.

*"Prinsessa Mariya" paroxodu, 2 iyul.*

Mantoma bürünüb, ay batana qədər yuxarıda oturdum. Göyərtə boşdu. Yalnız axşamdan bəri vəziyyətini heç dəyişməyən bir yolçu qollarını dəmir barmaqlığa dayayıb üzü küləyə, fitlə qəmgin havalar çalırdı. Mən dənizi daim yaşayan, gülən, danışan, inləyən, küsən canlı bir şey sanar və sevərdim. Halbuki, bu gecə sular mənə çarəsi və təsəllisi olmayan böyük bir yalqızlıq təsiri verdi.

Gecənin rütubəti iliklərimə işlədi, titrəyə-titrəyə aşağı endim. Munisə kayutun çarpayısında yatırdı. Aşağıdan, gəminin lap dərinlərindən gələn səsi, taqqıltını, bu böyük yalqızlığın qəlbinin döyüntüləri kimi dinləyə-dinləyə dəftərimi yazmağa başladım.

Bu gün müdirə məni körpüyə qədər gətirdi. Tanışlarımdan heç kəslə vidalaşmadım. Yalnız xalama bənzəyən böyük xanımın yanına getdim, gözlərimi yumaraq, son dəfə bir də "Fəridə" deyə adımı çəkməsini dinlədim.



"B"-də Məzlumu qoyub gəlmişdik. Burda da quşlarımdan ayrılmalı oldum. Onları müdirənin yanında əmanət qoydum. Söz verdi ki, yemlərini, sularını unutmayacaqdır.

Müdirəm mənə dedi:

– Fəridə, indi ki bu quşları bu qədər sevirsən, onları öz əlinlə azad et. Bu lap savab olar.

Mən qəmgin-qəmgin gülümsünüb dedim:

– Xeyr, müdirə xanım. Mən də sizin kimi zənn edirdim. Amma daha fikrimi dəyişmişəm. Quşlar nə istədiklərini özləri də bilməyən, yazıq, ağılsız məxluqlardır. Qəfəsdən qaçana qədər cürbəcür dərdqəm içində çırpınırlar. Amma elə bilirsiniz ki, azadlığa çıxsalar, xoşbəxt olacaqlar. Xeyr, bu mümkün deyildir. Mən elə bilirəm ki, bu yazıqlar öz qəfəslərinə öyrəşirlər. Açıq havaya çıxıb bir budağın üstündə başlarını qanadlarının altına soxaraq, keçirdikləri gecələrdə səhərə qədər qəfəsin dərdini çəkirlər. Xırdaca gözlərini pəncərələrdən gələn işıqlara zilləyib həsrətlə baxırlar. Müdirə xanım, quşları zorla qəfəsdə saxlamaq lazımdır, zorla, zorla...

Qoca qadın çənəmi oxşayıb dedi:

– Fəridə, sən anlaşılmaz bir qızsan. Heç adam əhəmiyyətsiz bir şey üçün ağlarmı?

Paroxodda mənimlə bərabər "Ç"-dən minmiş bir neçə yolçu vardı. Bunlardan iki zabit arasında belə bir söhbət getdiyini təsadüfən eşitdim.

Gənc zabit yaşlıya dedi:

– Ehsan bəy bundan dörd gün əvvəl yola düşəcəkdi. Mən ona dedim ki, bir neçə gün gözlə, Beyruta qədər bərabər gedərik. Özüm də bilmədən, o yazığı fəlakətə saldım. Əlbəttə, dörd gün əvvəl getsəydi, bu iş başına gəlməzdi.

Yaşlı zabit dedi:

– Doğrudan da, təəssüflü bir hadisədir. Bu Ehsan da çox əsəbi bir adam deyildi, amma bilmirəm, niyə belə oldu. Sən hadisənin təfsilatını bilirsənmi?

– Mən hadisəni öz gözümlə gördüm. Şəhər idarəsinin kazinosunda[1] idik. Bürhanəddin bəy bilyard oynayırdı. Bu əsnada Ehsan qapıdan girdi, minbaşını bir guşəyə çəkib onunla nə isə danışmağa

[1] Kazino – qumarxana; kef, əyləncə yeri

başladı. Əvvəlcə sakit-sakit söhbət edirdilər. Bilmirəm aralarında nə oldu. Gördüm ki, birdən-birə Ehsan bir addım geri çəkilib Bürhanəddin bəyə möhkəm bir sillə vurdu. Minbaşı tapançasına əl atmaq istədi. Amma Ehsan ondan əvvəl öz silahını çəkmişdi. Bir neçə adam o saat üstlərinə atılmasaydı, yəqin ki, qan töküləcəkdi. Hərbi məhkəmə sabah Ehsanın mühakiməsinə başlayacaqdır.

– Əgər bu işi bizlərdən birimiz etsəydik, işimiz yaman olardı. Amma Ehsan gərək ki, paşanın qohumudur.

– Paşanın qaynı oğlu və arvadının süd oğulluğudur.

– Elə isə, yüngülcə bir cəza ilə kifayətlənərlər. Amma, o Bürhanəddinə lap yerində olubdur. Canım, o yaman qudurmuşdu.

– Görəsən bu işin səbəbi nə imiş?

– Özlərinin dediyinə görə, guya siyasət davası imiş. Bu ordunu da siyasətdən uzaqlaşdıra bilmədilər.

– Vallah, mənim fikrimcə, bu yenə qadın məsələsidir. Bürhanəddini tanımırıqmı?

Zabitlər danışa-danışa mənim yanımdan uzaqlaşmışdılar. Mən indi başa düşdüm ki, bir az bundan əvvəl qoca bir qayıqçının mənim kayutuma gətirdiyi gül dəstəsi kimdənmiş!

Ehsan bəy! Bəlkə həyatda sizə bir də heç təsadüf etməyəcəyəm. Əgər işdir, təsadüf etsəm də, özümü tanımamazlığa qoymağım lazım gələcəkdir. Amma mənim üstümdə hərbi məhkəmə qarşısına çıxmalı olduğunuz bir gündə, yenə məni yad etdiyinizi heç vaxt unuda bilməyəcəyəm. Siz nəzakət göstərib bu güllərin kimdən olduğunu da söyləməyə icazə verməmişdiniz. Amma mən bu güllərdən kiçik bir yarpağı dəftərimin içində, sizin xatirənizi isə, ən təmiz bir şey kimi qəlbimdə saxlayacağam...

Bayırda o kimsəsiz yolçu hələ də fitlə qəmgin havalar çalmaqda idi. Mən kayutun açıq pəncərəsindən başımı uzatdım. Dənizdə nurlu bir səhər açılırdı, elə bil, gün işığı suların içində qaynayıb çıxırdı.

Çalıquşu, baha bəsdir yat, gecə və yorğunluq sənin o yazıq gözlərini ağrıdır. Səhərdən sənə nə var? Səhər elə bir vaxtdır ki, ta uzaqlarda yuxudan və daha başqa şeylərdən doymuş sarı çiçəklər bu vaxt öz məsud gözlərini açarlar.



# DÖRDÜNCÜ HİSSƏ

*İzmir, 20 sentyabr*

Üç aya yaxındır ki, İzmirdəyəm. İşlərim yaxşı getmir. Axır bircə ümidim qalmışdır, sabah da o baş tutmasa, bilmirəm halım necə olacaq. Bu barədə heç fikirləşməyə də cəsarət edə bilmirəm. "Ç"-dəki müdirənin məni tövsiyə etdiyi adam, mən bura gəlməmişdən bir ay əvvəl xəstələnib havasını dəyişdirmək üçün altı aylığa İstanbula getmişdir. Çarəsiz qalıb, özüm maarif müdirinin yanına getdim. Burda qabağıma kim çıxsa yaxşıdır? "B"-dəki o, oturduğu yerdə yatan, sayıqlayırmış kimi danışan tənbəl müdir!.. Təbiətin baxmaqdan çox, yatmaq üçün yaratdığı onun o "gözəl" xumar gözləri, təbii ki, məni tanımadı. Müdir mənə dedi: "Bir neçə gündən sonra bir bura dəyin, baxarıq, bir şey taparıq". Onun dilində bir neçə gün bir-iki ay deməkdi. Elə belə də oldu.

Bu gün yenə ora getmişdim. Müdir lütf edib bir azca iltifat göstərdi. O, yumşaq və məsum səsi ilə yenə belə sözlər deməyə başladı:

– Qızım, burdan iki saatlıq məsafədə bir nahiyə məktəbi var. Ab-havası lətafətli, mənzərəsi ürək açan...

Müdirin bu nitqi məni Zeynilərə göndərdiyi zaman söylədiyi nitqin eyni idi. Mənim birdən-birə dəliliyim tutdu. Onun sözünü ağzında qoyub dalısını gülə-gülə özüm dedim:

– Özünüzü yormayın, bəy əfəndi, dalısını sizin yerinizə mən deyim: idarə bir çox hümmət və məsariflə yeni bir məktəb vücuda gətirmişdir. Yalnız mənim kimi gənc bir müəllimənin hümmət və fədakarlığına ehtiyac var... Deyilmi? Mersi, bəy əfəndi. Sizin bu lütfünüzü bir dəfə də "B"-də Zeynilərə gedəndə görmüşəm.

Təbii, mən bu sözləri söyləyəndə, gözümün altına almışdım ki, müdir məni qovlayacaqdır. Amma qəribə deyilmi? Müdir heç acıqlanmadı, əksinə, qəhqəhə çəkib güldü və çox filosofanə bir tövrlə dedi:

– Neyləyəsən, qızım? İş belə tələb edir. Sən getmə, o getməsin, bəs kim getsin?

Maarif müdirlərinin otaqlarından qonaq heç əskik olmur. Küncdəki kreslodan cırıltılı bir səs gəldi:

– Vay, belə çırt-pırt edən Fındıq qurdu kimdir?

Fındıq qurdumu? Mənim əslinə baxsan, İpək qurdu ilə Gülbəşəkərdən də zəhləm gedirdi. İndi burada da Fındıq qurdu olduq?

Mən kəskin bir hərəkətlə səs gələn tərəfə döndüm. Mənə cürbəcür adlar, həm də tərs kimi, həmişə şirniyyat və qurd adları qoyan həyasızlardan birini, axır ki, tutmuşdum.

Ona gözəl bir dərs verib bütün o birilərin də acığını bu bəydən çıxacaqdım. Amma o, mənə danışmağa macal verməyib maarif müdirinə tərəf döndü və tamamilə əmredici bir əda ilə dedi:

– Allah xatirinə, bu kiçik xanım nə istəyirsə ver, yazığı incitmə.

Müdir ona son dərəcə hörmətlə cavab verib dedi:

– Əmr sizindir, Rəşid bəy əfəndi. Amma bu gün doğrudan da boş yerim yoxdur. Yalnız rüşdiyyə məktəbində fransız müəllimliyi yerim var. Təbii ki, bu xanımın işinə yaramaz.

– Nə üçün yaramır, əfəndim? – dedim. – Elə əslində kəniziniz mən, "B"-də darülmüəllimatda fransız müəlliməsi idim.

Müdir tərəddüd edirdi:

– Bəli, amma bu vəzifə üçün müsabiqə elan etmişik. Sabah imtahan olacaq.

Rəşid bəy dedi:

– Çox əla! Kiçik xanım da imtahana girər, nə olar ki? Elə mən özüm də imtahanda olacağam. Allah kərimdir. Mən gəlməmiş imtahan başlanmasın ha...

Deyəsən bu Rəşid bəy hər halda böyük adamdı. Amma nə qədər kifirdir, ya rəbbi!

Mən onun üzünə baxanda, qəhqəhə ilə gülməmək üçün dişlərimlə dodaqlarımı sıxıb, az qala, qanatmışdım.

Adam ya qarabəniz olar, ya ağbəniz, deyilmi? Bu bəy əfəndinin üzündə, yeni sağalmış yara yerindəki o zərif ağlıqdan tutmuş, kömür qarasına qədər, min cür rəng vardı. Elə çirkli qara idi ki, boynunun dərisindən yaxalığının nə üçün çirklənmədiyinə adam təəccüb edirdi. Sanki bir adam, əylənmək üçün əlini kömür tozuna soxub, sonra onun üzünə sürtmüş və belə qaralamışdı.



Yara kimi qırmızı, kirpiksiz göz qapaqlarının altında bir-birinə çox yaxın, meymun gözünə bənzəyən iki gözü vardı. Ağ bığlarının üstündə qəribə burnu, alt dodağına qədər uzanmışdı. Hələ ovurdları görülməli bir şeydi. Meymunların ağzında fındıq-filan gizlətdikləri kisəciklər kimi, onun ovurdları da üzünün iki tərəfindən sallanmışdı.

Amma mən də lap ağ edirəm ha! Sözün düzü, onun bir neçə sözlə mənə etdiyi yaxşılıq az deyildi. Hər halda təbiət bu bəy əfəndinin üzünü yaratdıqdan sonra, yəqin ki, həddən artıq haqsızlıq etdiyini görüb, bunun əvəzində ona gözəl ürək vermişdi.

Mənim fikrimcə, könül gözəlliyi üz-göz gözəlliyindən çox-çox yaxşıdır.

Qəlbsiz bir gözəlliyin yazıq xala qızlarının həyatını pozmaqdan, könlünü söndürməkdən başqa nə faydası var!

*İzmir, 22 sentyabr.*

Bu gün müsabiqəyə girdim. Yazılı imtahan pis getdi: "istiksar", "istismar", "istitaf"[1] kimi səkkiz-on felin müzarelərini, əmr formalarını yazılı surətdə təsrif etməyi tapşırdılar. Bu kəlmələrin türkcəsini bilmirəm ki, fransızcalarını yazım. Amma şifahi imtahan yaxşı oldu. Rəşid bəy əfəndi mənimlə fransızca danışdı. Hər halda müsabiqəni qazanacağıma ümid verən bəzi sözlər söylədi.

Allahın Munisəyə rəhmi gəlsin!

*İzmir, 25 sentyabr.*

Nəticə məlum oldu. İmtahanı qazana bilmədim. Katiblərdən biri dedi ki:

– Əgər Rəşid bəy əfəndi istəsəydi, müsabiqəni hər halda siz qazanardınız. Onun rəyinin əksinə getmək heç kimin hünəri deyil! Hər halda, sizin üçün bir fikri var.

Vəziyyətim çox pisdir. Ayın qurtarmağına iki gün qalmışdır. Otaq kirayəsi vermək lazımdır. Anamdan qalan axırıncı medalyon dadıma çatdı. Bu gün onu qonşularımdan birinə verdim. Ərinə satdırıb pulunu

[1] İstiksar – çox görmək, çox saymaq, çox umsamaq; İstitaf – şəfqət istəmək, mərhəmət istəmək

gətirəcəkdir. Mən bu yadigarı əlimdən vermək istəmirdim, çünki medalyonun içində anamla atamın evləndikləri il, çəkdirdikləri şəkilləri vardı. Yazıq şəkil indi çılpaq qaldı. Amma bunun üçün də bir təsəlli tapdım. Öz-özümə dedim:

– Anamla atam, əlbəttə, yetim qızlarının qəlbinin üstündə durmağı, qızıl parçası içində yatmaqdan üstün tutarlar.

*İzmir, 27 sentyabr.*

Bu gün Rəşid bəy əfəndidən bir kağız aldım. Mənim üçün iş tapmışdır. Görüşmək üçün məni Qarşıyakadakı köşkünə çağırır. Maarif şöbəsindəki katib demişdi ki, bu bəy guya mənə düşmənçilik edir. Görünür ki, bu söz doğru deyildir. Görək necə olur, sabah bunu biləcəyəm.

*İzmir, 28 sentyabr.*

İndicə Rəşid bəyin Qarşıyakadakı köşkündən qayıdıb gəldim. Köşk saray kimi bir yerdir. İndi başa düşürəm ki, bu bəyə nə üçün bu qədər hörmət edirlər.

Rəşid bəy məni nəzakətlə qəbul etdi. Dedi ki, mənim fransızca bilməyimi bəyənmişdir, amma yoldaşlarının mənə haqsızlıq etmələrinə mane ola bilməmişdir. Məktubunda yazdığı iş, qızlarına fransızca müəlliməlik etmək imiş. Rəşid bəy mənə dedi:

– Xanım qızım, bildiyiniz kimi, halınız, tövrünüz də mənim xoşuma gəlir. Maarif şöbəsinin məktəblərində sürünüb nə edəcəksiniz? Mənim qızlarıma fransız dərsi verərsiniz. Onlarla bir yerdə oturub-durarsınız. Sizə gözəl bir otaq verərik, olmazmı?

Bu vəzifə mürəbbiyəlik kimi bir işdi. Hər halda mənim müəllimliyimdən daha rahat və daha qazanclı idi. Amma nə çarə ki, mən bu peşəni elə əvvəldən xoşlamıram, bunu ev xidmətçiliyi kimi bir şey hesab edirəm.

Rəşid bəyin sözünü yerə salmaq yaxşı deyildi. Mənə göstərdiyi etibar və nəzakət üçün ona təşəkkür etdim. Amma Munisəni bəhanə edib bu vəzifəni boynuma götürə bilməyəcəyimi söylədim. Rəşid bəy bunu bir səbəb saymayıb dedi:

– Onun da gözümüz üstə yeri var, qızım. Kiçik bir qızın bizim bu yoxsul evimiz üçün nə ağırlığı olacaq?



Mən qəti cavab verə bilmədim. Üç gün möhlət istədim. Son bir təşəbbüs də edəcəyəm. Əgər rəsmi bir müəllimlik tapa bilsəm, lap əla, olmasa çarəm nədir?!

*Qarşıyaka, 3 oktyabr.*

Munisə ilə mənə köşkün üst mərtəbəsində dənizə baxan bir otaq veriblər. Otaq kiçikdir, amma quş qəfəsi kimi gözəldir.

Gecə yarısına qədər pəncərəmdən sahil küçəsinə və dənizə tamaşa etdim. Pəncərəmdən bütün körfəz görünür. Qarşıda İzmir, ulduzlarla bəzənmiş bulud yığınlarına bənzəyən təpələri ilə, möhtəşəm bir donanma kimi, işıqları parıldaşan səddi ilə çox tamaşalı bir yerdir.

Amma, sözün düzü, önümdəki Qarşıyaka sahil küçəsi məni daha çox əyləndirirdi. Burada nə gözəl, nə əyləncəli bir həyat var. Gecə yarısına qədər tramvaylar işləyir. Qaz lampalarının yaşıl aydınlığında ardı-arası kəsilməyən dəstə-dəstə gənclər gəzişir. Uzaqda, al-yaşıl işıqları dənizə düşmüş bir kazinoda gitarada gah şən, gah qəmgin havalar çalırlar.

Bilmirəm nə üçün mənə elə gəlirdi ki, bu aydınlıq gecədə, yalnız paltarlarını qara, yaxud ağ ləkə kimi seçə bildiyim bütün bu insanlar bir-birini sevən nişanlılardır. Mənə elə gəlirdi ki, yalnız bunlar deyil, qaranlıqda görünməyən bütün guşələr, dənizin içində tutqun kölgələr kimi görünən qayaların üstü də belə gözə görünməyən sevgililərlə doludur.

Sanki dənizdən gələn xışıltılar, gizlin-gizlin sevişənlərin dodaq-dodağa pıçıldaşmalarıdır. Sanki gecənin mənim köksümə çökən, nəfəsimi tıxayan ilıq nəfəsi başları sevgililərinin çiynində, gözləri sevgililərinin gecə dəniz kimi tündləşmiş yaşıl gözlərində olan... gənc qızların dodaqlarından gəlir...

Məni bu köşkdə kiçik xanım kimi nəzakətlə qəbul etdilər. Yüküm heç bir vaxt mənə ağır gəlməmişdi. Bununla belə qoca bir qalfa çantamı, demək olar ki, zorla əlimdən alıb onu özümün yuxarı çıxarmağıma icazə vermədi. Mən həmin qalfaya minnətdar oldum. Munisə hələ elə bir yaşda deyil ki, belə şeyləri anlasın. Köşkün bəzək-düzəyi yazıq qızın gözlərini qamaşdırmışdı. Bayaq biz pillələri yuxarı çıxanda, Munisə öz evimizdə həmişə etdiyi zarafatı təkrar etmək istədi: mən pilləkənin yarısında olanda, o, birdən-birə ətəyimi tutub çıxdığım

pillələrdən məni aşağı endirmək istədi. Mən onun qolundan tutub qulağına əyildim və yavaşcadan dedim:

– Munisə, əziz balam, biz daha başqasının evindəyik... İnşallah yenə öz evimiz olanda, zarafat edərsən, qızım.

Uşaq birdən-birə durdu. Nə demək istədiyimi başa düşdü.

Biz otağa girəndə, Munisənin o kiçik gözəl üzündəki sevinc parıltısı sönmüşdü. Bu uşaq mənim fikrimi nə yaxşı başa düşür! O, qollarını mənim boynuma dolayıb, həmişəkindən artıq qucağıma qısıldı və üzümün hər tərəfini xırdaca öpüşlərə qərq etdi.

Mən pəncərəmi örtəndə, bir də bayıra baxdım. Bayırdan əl-ayaq çəkilmiş, fanarlar sönmüşdü. Bir az bundan əvvəl sahildəki fanarlarla oynaşan dəniz də, indi qumsallığın bir hissəsini boş qoyub daha uzaqlara çəkilmişdir. O da yavaş-yavaş yuxuya gedən bir uşaq kimi, başını yastıq kimi ağ qayaların üstünə qoyub sakitləşmişdir...

Mən bu gün bura gələndə... Yox, bunu yazmağa cəsarət edə bilməyəcəyəm, hələ qalsın...

*Qarşıyaka, 7 oktyabr.*

Rəşid bəyin köşkündə həyat pis keçmir. Şagirdlərim: biri mən yaşda, o biri bir az kiçik qızdır. Böyüyünün adı Fərxundədir. O, gözəllikdə lap bəy atasının tayıdır. Amma çox şıltaq bir qızdır. Kiçiyi Səbahət onun tamamilə ziddidir. Bəbək kimi gözəl, şirin, yupyumru bir qızdır...

Qadın qalfalardan biri bir gün mənə mənalı-mənalı göz vurub dedi:

– O vaxtlar rəhmətlik xanım əfəndi xəstə idi. Ona baxmağa bir gənc hərbi doktor gəlirdi. Xanım əfəndi, yəqin ki, doktorun üzünə çox baxdığından, qızı da doktorun üzünə tərpənib gözəl olmuşdur.

Mən burada ən çox xidmətçilərdən qorxuram. Həqiqəti nə üçün gizlədim. Mən də az-çox onlar kimi xidmətçi deyiləmmi? Amma mən çox yaxşı hərəkət edirəm, onlardan heç birinə bir iş buyurmuram... Buna görə də mənə hörmət edirlər.

Amma, yəqin ki, Rəşid bəy əfəndinin mənə çox əhəmiyyət verməsinin də bir qədər təsiri var.

Köşkün ən böyük nöqsanı budur ki, arı pətəyi kimi həmişə qaynayır. Burdan heç vaxt qonaq əskik olmur. Bundan da pisi budur ki, Fərxundə ilə Səbahət mənim hər bir qonağın qabağına çıxmağım



üçün təkid edirlər. Köşkün daha bir nöqsanı var: Rəşid bəy əfəndinin Cəmil bəy adında böyük oğlu var. Bu, otuz yaşlarında, sevimli heç bir cəhəti olmayan bir gəncdir... İlin on ayını Avropada atasının pulunu sərf edib yeyib-içməklə vaxt keçirir. İki ayını da burda, İzmirdə olur. Yaxşı ki, bu iki ayın son günləridir. Əgər belə olmasaydı, üç gün bundan əvvəl köşkü tərk edib gedəcəkdim. Deyəcəksiniz ki, sənə nə. Mən də əvvəl öz-özümə elə deyirdim, amma bu hesabım düz çıxmadı.

Üç gecə bundan əvvəl Fərxundə ilə Səbahət məni gecə yarısına qədər aşağı salonda saxlamışdılar. Onlardan ayrıldıqdan sonra, qaranlıqda yuxarı çıxırdım. Üçüncü mərtəbənin pilləkəninin başında bir kişi kölgəsi ilə üz-üzə gəldim. Birdən-birə diksinib geri çəkilmək istədim. Bu vaxt Cəmil bəyin səsini eşitdim:

– Qorxmayın, kiçik xanım, yad adam deyiləm.

Yan pəncərələrin birindən onun üzünə azacıq işıq düşürdü.

Mən:

– Bağışlayın, bəy əfəndi, birdən-birə tanımadım... – deyə ötüb keçmək istədim.

Amma Cəmil bəy sağa bir addım atdı. Pilləkənin başı dar olduğundan, mənim üçün keçməyə yol qalmadı.

– Kiçik xanım, yuxum qaçdı, pəncərədən ayın çıxmasına tamaşa etmək üçün bura gəldim, – dedi.

Mən onun məqsədini başa düşmüşdüm. Özümü bilməməzliyə qoyub birtəhərlə qaçmaq istəyirdim. Bununla bərabər onun sözünü cavabsız qoymamaq üçün dedim:

– İndi ayın qaranlıq vaxtıdır ki, əfəndim.

O, yavaş-yavaş dedi:

– Necə qaranlıq vaxtıdır, kiçik xanım, bəs bu pilləkən başında birdən-birə doğan çəhrayı ay nədir? Hansı ay işığı bu qədər könül açandır?!

Cəmil bəy birdən-birə mənim biləklərimdən yapışdı. Onun isti nəfəsini üzümdə hiss etdim və qüvvətlə özümü geri atdım. Əgər pilləkənin məhəccərindən yapışmasaydım, aşağıya qədər yumalanacaqdım. Başım məhəccərə yaman bərk dəydi. Ağrının şiddətindən özümü saxlaya bilməyib yavaşcadan çığırdım.

Cəmil bəy səssizcə enib yanıma gəldi. Onun üzünü görmürdümsə də, çox təşviş və həyəcan içində olduğunu hiss edirdim. O dedi:

– Fəridə xanım, məni bağışlayın. Bir yeriniz incidimi?

Mən:

– Xeyr, əhəmiyyəti yoxdur, yalnız məndən əl çəkin, – deyə yalvarmaq istədim, amma dodaqlarımdan yalnız boğuq bir hıçqırıq çıxdı. Mən bu hıçqırığı boğmaq üçün, yaylığımla ağzımı tutmaq istədim və bu vaxt yüngülcə yaralanmış dodağımdan qan sızdığını gördüm.

Biz pilləkənin pəncərəsinin yanında idik. Pəncərənin açıq qalmış taxta qapısından düşən azacıq işıqda Cəmil bəy də dodağımın qanadığın gördü. Səsi təəssüflə titrəyə-titrəyə dedi:

– Fəridə xanım, bu gecə mən ən alçaq bir adam kimi hərəkət etdim. Mürüvvət göstərib məni bağışladığınızı söyləyin, Fəridə xanım...

Onun etdiyi tərbiyəsizlikdən sonra söylədiyi bu soyuq ədəbi sözlər mənim tüklərimi ürpətdi və bütün cəsarətimi özümə qaytardı.

Mən sərt bir səslə dedim:

– Sizin etdiyiniz işdə bir fövqəladəlik yoxdur, əfəndim. Qadın qulluqçularla və övladlığa götürülmüş adamlarla belə rəftar etmək bir adətdir... Mən sizin evinizdə qulluqçulardan o qədər də fərqi olmayan bir vəzifəni qəbul etməklə, özüm buna yol vermişəm. Qorxmayın, mən çərənçilik edən deyiləm. Sabah bir bəhanə tapıb bu evdən çıxıb gedəcəyəm.

Mən bu sözləri söyləyəndən sonra sakit və laqeyd bir tövr ilə pilləkənləri çıxıb otağıma yönəldim.

Mənim üçün bir əlimə çantamı alıb, bir əlimlə də Munisənin əlindən tutub, bu qapıdan çıxıb getmək asandı. Amma hara gedəcəkdim. Bu evdən çıxıb getmək barəsində qərar verdiyimdən üç gün keçdiyi halda, mən qərarımı yerinə yetirə bilmirdim. Hələ də buradayam. Çünki bura gəldiyim gecə dəftərimə yazmağa da utandığım bir şeyi etiraf etmək vaxtı gəlib çatmışdır.

Mən bura axşamüstü, hava qaralanda gəlmişdim. Ertəsi gün səhəri gözləmək daha yaxşı deyildimi? Təbii ki, elədir. Amma buna imkanım yox idi.

Mən bura gəldiyim o ümidsizlik axşamında köşk qonaqlarla dolu idi. Rəşid bəy əfəndi və kiçik xanımlar məni satın alınmış bir bəzək əşyası kimi öz qonaqlarına göstərirdilər. Hamı mənə bəyənən, hətta bir az da ürəyi yanan nəzərlə baxırdı. Mən bu yeni vəziyyətimin məcbur etdiyi kimi utancaq bir nəzakətlə qonaqlardan hər birinin



ayrı-ayrı könlünü almağa çalışırdım. Birdən başım hərləndi, huşumu itirdim, ancaq özümü stulun üstünə sala bildim. Mən dodaqlarımdakı gülümsünməni də saxlamağa çalışıb yarım dəqiqə, bəlkə daha az bir müddətdə gözlərimi yumdum.

Rəşid bəy, kiçik xanımlar, qonaqlar təşvişə düşmüşdülər.

Səbahət, stəkanla yüyürə-yüyürə gəlib mənə zorla bir neçə qurtum su içirtmişdi və biz ikimiz də zarafatlaşırıq kimi gülüşmüşdük.

Qonaqlardan yaşlı bir xanım əfəndi gülümsünə-gülümsünə dedi:

– Bir şey deyil, yəqin ki, lodosun[1] təsiridir. Ax, bu zamanın əsəbi, cansız, kiçik xanımları!.. Bir azca hava dəyişəndə gül kimi saralıb solurlar.

Onlar hamısı məni məşəqqətə dözümü olmayan bir kiçik xanım, zərif, xəstə bir qız sanırdılar.

Mən onların dediklərini başımla təsdiq edir, belə zənn etdikləri üçün, az qala onlara minnətdar olurdum.

Mən onlara yalan demişdim.

Bu bihuşluğun başqa bir səbəbi vardır: Çalıquşu o gün ömründə ilk dəfə olaraq ac qalmışdı...

*Qarşıyaka, 11 oktyabr.*

Bu gün yenə Fərxundə ilə Səbahətin İzmirdən qonaqları gəlmişdi. Bunlar yaşları on beş iyirmi arasında olan dörd kiçik xanımdı. Günortaüstü biz dəniz gəzintisinə çıxacaqdıq. Qayıqla Bayraqlıya gedib qayıdacaqdıq. Amma elə küçəyə çıxmaq istəyəndə, tərs kimi yağış yağmağa başladı. Çarşablarımız çiynimizdə, qəmgin-qəmgin salona qayıtdıq. Kiçik xanımlar bir az piano çaldılar, bir az dediqodu etdilər. Sonra iki-bir, üç-bir künclərə çəkilib gizlin-gizlin söhbətə başladılar. Məlumdur ki, belə baş-başa verib, qıdıqlanan adamlar kimi, gülüşə-gülüşə nə danışarlar da...

Səbahət çox məzəli, çox şeytan bir qızdır. Qonaqlarını əyləndirmək üçün gözəl məsxərələr etdi. Etajerin üstündə ailə və dost-aşnanın fotoşəkilləri ilə dolu olan albomlar var idi. Bunlardan birini gətirib stolun arxasında oturdu və yoldaşlarını dövrəsinə yığıb, onlara şəkil göstərməyə başladı. Məsələ fotoşəkillər deyildi, Səbahətin bu şəkillərdəkilər barəsində söylədiyi sözlər idi. Bu şəkillərin hər biri ilə elə

[1] Lodos – cənub küləyi

əylənir, o adamların həyatlarından elə qəribə şeylər danışırdı ki, gülməkdən uğunurduq. Məsələn, sinəsi nişanlarla dolu bir paşa – dünyaya əmr edən kimi görünən bu yekə saqqal adam barəsində deyirdi ki, arvadı onu süpürgə ilə döyür.

Qohumlarından bərli-bəzəkli bir xanım əfəndinin şəkli vardı. Bu xanımın şəhərli deyil, kənardangəlmə olduğu bəlli idi. Səbahətin sözlərinə görə, bir gün həmin xanım əfəndi paroxoddan Kokaryalı körpüsünə çıxanda bir qəza üz verib, o, dənizə yıxılanda, öz yerli şivəsi ilə belə bağırıbmış: "Vay, şirin canım əldən getdi, məni qurtarın!"

Rəşid bəyin konyalı süd dayısının şəkli vardır ki, baxmaqla doymaq olmurdu. Bir şəkildə o, sarıqlı, gen şalvarlı bir xoca əfəndi geyimində görünürdü. Həmin şəkilin yanında başqa bir şəkil də var idi. Burda isə həmin adam məbus[1] olduqdan sonra, əynində frak, gözündə təkgözlü eynək olduğu halda çəkilmişdi.

Bu şəkillərə baxanda, adama elə gəlirdi ki, xoca əfəndi hiddətlə gözlərini açıb məbusa baxır, məbus isə dodaqlarını büzüb xocanı lağa qoyur. Bu mənzərə o qədər gözəldi ki, mən Səbahətin əlini tutub səhifəni çevirməyə qoymur və dəli kimi gülürdüm.

Fərxundə mənimlə zarafat etməyə çalışıb dedi:

– Fəridə xanım, istəyirsiniz, sizi bu gözəl kişiyə ərə verək? Bu saat subaydır. Əvvəlki arvadlarını boşamışdır. İndi isə, məbusa layiq bir avropasayağı xanım alır.

Mən hələ də gülə-gülə stoldan ayrılıb Fərxundəyə dedim:

– Tez ona məktub yazın, mən razıyam. Adam onun evində başqa bir xoşbəxtlik tapmasa da, heç olmasa, ömrünü şirin-şirin gülməklə keçirər.

Səbahət albomun bir səhifəsini də çevirdi. Əli ilə mənə işarə edib dedi:

– Fəridə xanım, bu şəkli görsəniz, qorxuram ki, bizim məbusa ərə getmək fikrindən daşınarsınız.

Qonaqlar hamısı bir ağızdan səsləndilər: "Ah, nə gözəldir!" Onlar əllərini yelləyib məni çağırırdılar:

– Nahaq zəhmət çəkməyin, nə olursa olsun, mən öz məbusumdan əl çəkmərəm, – deyə onlara yaxınlaşdım. Albomun üstündə birbirinə qarışan dalğalı saç yığınları arasından başımı uzadıb baxdım.

[1] Məbus – deputat



Mən də onlar kimi yavaşca çığırmaqdan özümü saxlaya bilmədim. Albomun səhifələri arasından mənim gözlərimə baxıb gülümsünən bu şəkil Kamranın şəkli idi!..

Səbahət bu şəklin sahibi ilə əylənmədi, əksinə, böyük bir hörmət və hərarətlə belə təfsilat verdi:

– Bu bəy Münəvvər xalamın əridir. Keçən yaz İstanbulda toyları oldu. Əgər Kamran bəyin özünü görsəniz, deyərsiniz ki, bu şəkil heç nədir!.. Bir gözləri, bir burnu var ki, adam baxmaqla doymur. Sizə daha qəribə belə bir şey söyləyim: Kamran bəy öz xalalarından birinin qızını sevirmiş. Bu qız xırda-mırda, kobud, dəlisov bir qızmış. Hətta buna görə ona Çalıquşu ləqəbi də qoyublarmış. Çalıquşu nədənsə Kamran bəyi heç istəmirmiş. Könüldür də... Nəhayət, evlənmələrinə bir gün qalmış, qız təkbaşına evdən qaçıb yad vilayətlərə getmişdir. Kamran bəy aylarca yeməkdən-içməkdən qalıb bu vəfasız qızı gözləyibmiş. Əgər qızın dönmək fikri olsaydı, heç gəlin olacağı bir gecədə qaçıb gedərdimi? Münəvvər xala öz qayınanasının əlini öpəndə, mən ordaydım. Qoca xanım əfəndi, yəqin ki, bir budaqda qərar tutmayan Çalıquşunu xatırlayıb, uşaq kimi ağladı...

Mən bu izahatı dinləyəndə, arxamdakı pianoya söykənmişdim və heç səsimi çıxarmırdım. Kamran hələ də albomun içindən mənə baxıb gülürdü. Mən lap yavaşcadan dedim: "Qəlbsiz!"

Səbahət mənə sarı dönüb dedi:

– Lap düz dediniz, Fəridə xanım. Belə gözəl, belə zərif bir gəncə vəfa etməyən bir qıza "qəlbsiz"dən başqa nə demək olar?

Kamran, mən sənə nifrət edirəm. Elə olmasaydı, mən bu xəbəri eşidəndə ağlardım, bihuş olardım, sənin matəmini tutardım. Halbuki, mən ömrümdə heç vaxt bugünkü qədər gülməmişdim, yanımdakı adamları bugünkü qədər nəşələndirib əyləndirməmişdim. Əgər başıma yersiz bir qəza gəlməsəydi, mən bu günü hətta ömrümün ən xoşbəxt bir günü sayacaqdım. Axşamüstü hava bir az açılmış və bizə uzun bir çöl gəzintisinə çıxmağa imkan vermişdi. Biz bir sel çuxurunun kənarından keçirdik. Qonaqlardan biri çuxurun o tayında bir xrizantem çiçəyi gördü və dedi: "Ah, nə gözəl çiçəkdir! Onu dərmək mümkün olsaydı!.."

Mən gülüb dedim: "İstəyirsiniz onu sizə bağışlayım!" Çuxur çox dərin və genişdi.

Xanımlar gülüşdülər. Biri zarafatca dedi:

– Körpü olsaydı, yaxşı olardı.

Mən isə, eləcə dedim:

– Məncə, körpüsüz də keçmək olar...

Birdən-birə hoppandım. Arxadan yaman hay-küy qopdu.

Mən çuxurun o tayına atıla bildim. Amma, hayıf ki, vəd etdiyim xrizantemi dərib gətirə bilmədim. Çünki ayaqlarım çuxurun lap kənarına düşmüşdü. Yıxılmamaq üçün, mən əlimi bir tikan koluna atmışdım və tikan əllərimi deşik-deşik etmişdi. Bəli, əgər başıma bu qəza gəlməsəydi, ovcuma batan tikanların ağrısı məni axşam qaranlığı içində köşkə qayıdana qədər ağlatmasaydı, deyə bilərdim ki, bu gün mənim ömrümün ən əyləncəli bir günü idi.

Kamran, mən sənə nifrət etdiyim üçün yad vilayətlərə qaçmışdım. İndi nifrətim o dərəcəyə çatmışdır ki, daha bu uzaqlıq da mənə kifayət etmir. Sənin yaşadığın, nəfəs aldığın dünyadan uzaqlara qaçmaq istəyirəm!

Daha bu evdə qalmamağı lap möhkəmcə qərara aldım.

İki-üç gündən bir İzmirə gedib maarif şöbəsinə baş çəkirdim. Dünən səhər paroxodda köhnə müəllimlərimdən Bereniş bacıya rast gəldim. Onu bir dəfə də iki ay bundan əvvəl görmüşdüm. Biz məktəbdə olanda, bir-birimizi çox sevdiyimiz üçün ona bir qədər öz vəziyyətimdən danışmışdım. Dünən Bereniş bacı dedi:

– Fəridə, mən də bir neçə gündür səni axtarıram. Karantinadakı məktəbimizdə bir türk və rəsm müəlliməsinə ehtiyac var. Mən müdirəyə səni tövsiyə etdim. Özün üçün ev tutmağa da ehtiyac yoxdur. Məktəbdə qalarsan, əslinə baxsan, sən elə bizim həyatımıza öyrəşibsən.

Ürəyim bərkdən döyünməyə başladı. Elə bilirəm ki, təkrar ora, büxur qoxularının, o ağır orqanın səslərinin içinə gedib düşsəm, yenə öz uşaqlıq röyalarımın bir qisminə qovuşmaq mümkün olacaqdır...

Mən heç fikirləşməyə də ehtiyac görməyib Bereniş bacıya dedim:

– Çox yaxşı, masör, gələrəm. Təşəkkür edirəm.

Bu gün ora getməmişdən əvvəl maarif şöbəsinə baş çəkdim. Məqsədim ordan öz sənədlərimi geri almaqdı. Dedilər ki, müdir üç gündən



bəri məni axtarır. Mən onun nə istədiyi ilə maraqlanıb yanına getdim. Maarif müdiri məni görən kimi dedi:

– Çox gözlədin, qızım, amma bəxtinə yaxşı bir yer çıxdı. Səni Quşadası məktəbinə göndərəcəyəm.

İndi mənim üçün bir tərəfdə rahat bir yer vardı. O biri tərəfdə də bəlkə yenə mütləq gözəl bir yer olacaqdı. Amma bacılar məktəbinə getmək üçün də söz vermişdim... Bir-iki dəqiqə dayanıb cavab vermədən fikrə getdim.

Bir tərəfdə rahat bir həyat vardı. O biri tərəfdə bəlkə yenə ehtiyac və sıxıntı içində qalacaqdım. Amma bunun da başqa bir təsəllisi, başqa bir cazibəsi yoxdumu? Məktəblərimizin baxımsız qalmış, kobud əllərdə hayıf olan xırdaca şagirdləri gözümün önünə gəldi. Bu biçarə uşaqlar açılmaq üçün bir az günəş, bir az şəfqət gözləyən çiçəklər kimi idi. Onlar özlərinə bu şəfqəti, bu hərarəti verənlərə könüllərinin bütün minnət və məhəbbətini həsr edirdilər. Mən heç bir şeyə baxmayaraq, bu xırdaca yazıq uşaqları dərindən sevməyə başladığımı hiss etdim. Munisə özü də mənim yanıma onların arasından gəlməmişdimi?

Bundan başqa, son ikiillik həyatımın təcrübəsi də vardı: işıq xəstə gözləri necə incidirsə, xoşbəxtlik də xəstə könülləri elə sızıldadır. Xəstə gözlər kimi, xəstə könüllər üçün də qaranlıqdan yaxşı dərman yoxdur!

Mən müəllimliyi acından ölməmək üçün qəbul etmişdim. Ancaq hesabım düz çıxmadı. Bu peşə məni bir gün acından öldürə bilər. Amma nə ziyanı var?! Elə bu bəs deyilmi ki, bu peşə mənim könlümün şəfqətə olan aclığını doyduracaq, öz həyatını başqalarının səadətinə vəqf etmək kimi bir təsəllini mənə verə biləcəkdir? Onsuz da mənim o ölmüş günlərimin ölmüş röyasını yenidən oyandırmaq mümkün deyildi. Başımdan büxur qoxularının ağır xülyası, qulaqlarımdan orqanların həssas iniltiləri yavaş-yavaş silinib getdi. Quşadasında xırdaca quşların məhəbbət və mərhəmət gözləyən surətlərini gözümün önünə gətirib, təkrar onlara qovuşmaq ümidi ilə gülümsünə-gülümsünə maarif müdirinə dedim:

– Çox yaxşı, bəy əfəndi, gedərəm.

Əmrnaməni əlimə almayınca, köşkdən heç kəsə bu barədə bir söz söyləmək istəmirdim. Amma yeni bir hadisə məni məcbur etdi: köşkün böyük qalfası bir müddət idi ki, mənə qəribə-qəribə şeylər

söyləyirdi. Məsələn, keçən gün heç bir münasibət olmaya-olmaya mənə demişdi:

– Qızım, mən səni gündən-günə daha çox sevirəm. Təkcə mən yox, hamı belədir... Fərxundə ilə Səbahət gənc qızlardır, amma onlar evə şənlik və nəşə vermirlər. Sən gələndən sonra, bu evdə bir başqalıq oldu. Sənin təbiətin, əxlaqın gözəldir, böyüklə böyük, kiçiklə kiçik olmağı bacarırsan.

Qalfa mənə buna bənzər daha bir çox sözlər söylədi... Mən qalfanın bu sözlərinə "öz xidmətçi yoldaşımın" rəğbətindən başqa bir məna vermirdim. Halbuki, qoca qadın dünən gecə fikrini lap açıq söylədi:

– Qızım, görəsən biz necə edək ki, səni bu evə bağlaya bilək? Mənim ağlıma bir şey gəlir, amma heç elə güman etmə ki, bunu mənə bir başqası söyləyib, ağlına bir şey gəlməsin...

Qalfanın bu sözləri bir başqasının tapşırığı ilə söylədiyinə heç şübhəm qalmadı. Amma özümü bilməməzliyə qoyub onun sözlərini dinləməkdə davam etdim. O, başladığı bu sözü axıra çatdırmağa cəsarət etməyəndə, araya söz salıb dedi:

– Bəy əfəndi çox yaşlı deyil, onu mən uşaqlıqdan tanıyıram. Üzdən gözəl deyil, amma dövləti, sərvəti var. Heç təbiəti də pis deyil. Qızım, bu ev xanımsız qala bilməz; sabah-o biri gün Fərxundə ilə Səbahət ərə gedəcəklər. Allah eləməmiş, bir haramzada xanımın əlinə düşsək, halımız pis olar. Fəridə xanım, adam bığıburma cavanlara da ərə gedə bilər, amma bu dəbdəbəni tapa bilməz. Ah, bizim bəyə münasib bir qız tapa bilsəydik, nə yaxşı olardı! Nə deyirsən, qızım?

Mən bir şey deməyib acı-acı gülümsünərək fikirləşirdim.

Rəşid bəy əfəndinin mənə o qədər hörmət etməsi, Səbahətlə Fərxundənin dərslərinə bu dərəcədə əhəmiyyət verməsi, bizimlə saatlarla zarafatlaşması, hətta top-top oynaması... Deməli, bütün bunlar... Maarif şöbəsi katibinin vaxtı ilə mənə dediyi sözlər yadıma düşdü: "Rəşid bəy istəsəydi, səni fransız müəllimliyinə təyin edərdilər. Hər halda bir məqsədi var..." Bir neçə il bundan əvvəl olsaydı, mən belə bir şeyə üsyan edərdim. Amma indi sözü uzatmamaq üçün laqeyd bir tövrlə qalfaya belə cavab verdim:

– Sizinlə birlikdə elçi gedib, Rəşid bəy əfəndiyə yaxşı bir xanım qız tapıb alardıq. Amma nə çarə ki, mən bir-iki gündən sonra Quşadasına gedirəm. Bir neçə aydan sonra nişanlım ora gələcək, evlənəcəyik.



Mənim bu sözlərimdən sonra çaşqın-çaşqın üzümə baxan qoca qadına dedim:

– Allah rahatlıq versin, qalfa, mən bu gün tezdən yatacağam...

Sonra da öz otağıma getdim.

*Quşadası, 25 noyabr.*

Mənə "Quşadasına gedərsinizmi?" deyə təklif edəndə birdənbirə sevinib öz-özümə demişdim: "Quşadası elə mənim öz adımdır. Mən bu vaxta qədər axtardığım xoşbəxtliyi, könül rahatlığını, yəqin ki, orda tapacağam". Bu yəqinlik duyğusu məni aldatmamışdı. Buranı hər yerdən çox sevdim. Gözəl bir yer olduğuna görəmi? Quşadası mənim əvvəlcə zənn etdiyim kimi bir yer olmadı. Mən güman edirəm ki, ora Munisə ilə, bu sarı tutuquşu ilə avara, yalqız həyat keçirəcəyim bir Robinzon adası kimi olacaqdır.

Bəs mən buranı çox rahat olduğu üçün sevdim? Belə də deyil. Əksinə, burda həmişəkindən çox çalışıram. Elə isə, bəs səbəb nədir? Bu suala veriləcək cavab bir az gülüncdür. Amma nə edim ki, həqiqətdir. Mən Quşadasını elə ona görə sevirəm ki, bura gözəl və rahat bir yer deyildir. Məncə, təbiət yalnız gözəl simaları deyil, gözəl torpaqları, gözəl dənizləri də ona görə yaratmışdır ki, insana gizlin könül əzabları versin...

Bir ay bundan əvvəl mən bura gələndə, məktəbin baş müəlliməsi məni öz qabağında oturtdu. Əlli yaşlarında, xəstə, taqətdən düşmüş bir qadın olan bu müəllimə mənə dedi:

– Qızım bir-birindən düz üç ay fasilə ilə dağ kimi iki oğlumu qara torpaqlara verdim. Dünya mənim gözümdə deyil. Səni bura ikinci dərəcəli müəllimə kimi göndəriblər. Sən gəncsən, elə görünür ki, məlumatlısan. Mən məktəbi sənə tapşırıram. Özün bildiyin kimi idarə et. Bizim iki müəlliməmiz də var. İkisi də yaşlı xanımlardır, amma onlardan bir fayda yoxdur.

Mən baş müəlliməyə əlimdən gələn qədər çalışacağımı vəd etdim və sözümdə durdum.

Dünən baş müəllimə xanım mənə dedi:

– Fəridə xanım, qızım, sənə nə qədər təşəkkür etsəm, azdır. Özün vəd etdiyindən on qat artıq çalışıbsan. Bir ay içində həm məktəb, həm də uşaqlarımız çiçək kimi gözəlləşiblər. Allah səndən razı olsun! Yoldaşların müəllimələrdən tutmuş, ən xırdaca uşaqlara qədər, hamı

səni sevir. Hətta mən də hərdənbir öz dərdlərimi, öz ürəyimin acılarını unuduram, sən güləndə, mən də gülməyə başlayıram.

Yazıq qadın, elə bilirdi ki, mən onun qara gözləri üçün çalışmışam. Mənə minnətdarlığını bildirirdi. Çalışmaq, bütün ruhu ilə adamın özünü başqalarına həsr etməsi nə gözəl şeymiş! Çalıquşu yenə tamamilə əvvəlki Çalıquşu oldu. Nə o, "Ç"-dəki məchul yaşamaq yorğunluğu, nə İzmirdəki üsyanlar, heç biri qalmadı; bunlar hamısı yay zamanı göydə görünən keçici buludlar kimi dağılıb getdi.

Saçlarım bir-bir ağarana qədər özümü başqalarının uşaqlarına, onların səadətlərinə vəqf etmək daha məni qorxutmur. İki il bundan əvvəl bir payız axşamı könlümdə öldürülən körpələrin boş qalmış yerini başqalarının uşaqlarına verdim.

*Quşadası, 1 dekabr.*

Bir müddətdir ki, yan-yörəmdə elə hey müharibədən danışılırdı. Mən öz həyatımı məktəbə həsr etdiyim üçün, bu söhbətlərə heç qulaq da vermirdim. Bu gün qəsəbə bir-birinə dəydi. Müharibə[1] başlanmışdır.

*Quşadası, 15 dekabr.*

On beş gündür ki, müharibə başlanmışdır. Deyirlər ki, xəstəxanaya hər gün yığın-yığın yaralı gəlir. Məktəbi də qəm-qüssə basmışdır. Balalarımdan bir çoxunun ataları, qardaşları ordudadır. Şübhəsiz, biçarə uşaqlar təhlükəni başa düşmürlər. Amma, böyük adamlar kimi, üzlərinə qəmginlik çökmüşdür.

*Quşadası, 15 dekabr.*

Nə pis oldu, ya rəbbi, nə pis oldu! Bu gün komandanlığın əmri ilə bizim məktəbi aldılar. Burada müvəqqəti xəstəxana düzəldəcəklər. Nə istəyirlər etsinlər, mənim vecimə deyil. Amma məktəb təzədən açılana qədər mən nə edəcəyəm, vaxtımı necə keçirəcəyəm?

*Quşadası, 24 dekabr.*

Bu gün məktəbdə qalmış bir neçə kitabı gətirməyə getmişdim. Orda elə bir qarışıqlıq vardı ki, adam kitabını yox, özünü də itirsə,

[1] Müharibə – Birinci dünya müharibəsi nəzərdə tutulur.



daha tapa bilməzdi. Mən çarəsiz qalıb geri qayıdırdım. Bir şəfqət bacısı qapılardan birini açıb dedi:

– Bir də o, baş həkim bəydən soruşaq. Deyəsən, o bir neçə kitab götürmüşdü...

Otağın içi şüşələr, sarğılar, dərman qutuları ilə dolu idi. Baş həkim pencəyini çıxarıb bu qarışıq şeyləri səliqəyə salmağa çalışırdı. Arxası bizə olduğu üçün, mən yalnız onun boynunu, ağ saçlarını və çırmanmış qollarını görürdüm. Bu vəziyyətdə olan bir adamdan kitab soruşmaq hörmətsizlikdi. Mən şəfqət bacısının ətəyindən çəkib dedim:

– Narahat etməyin, lazım deyil.

Amma şəfqət bacısı buna fikir verməyib dedi:

– Bəy əfəndi, sizin tapdığınız fransızca rəsmli kitablar necə oldu, onlar hardadır?

Qoca doktor birdən-birə hirsləndi. Başını döndərmədən, elə pis, elə ayıblı bir cavab verdi ki, mən qeyri-ixtiyari əllərimi üzümə tutdum və oradan qaçmaq istədim. Amma elə bu dəqiqədə doktor üzünü bizə çevirdi və birdən-birə məni görüb bağırdı:

– Vay, xırdaca xanım, yenə sənsənmi?

Doktorun üzünü görəndə, mən də özümü saxlaya bilmədim:

– Doktor bəy, Zeynilərdəki doktor bəy! – deyə fəryad etdim. Mən mübaliğə etmirəm, bu, doğrudan da, bir fəryad idi.

Doktor şüşələri vurub yıxa-yıxa mənim yanıma gəldi, əllərimi tutdu. Başımı özünə sarı çəkib çarşabımın üstündən saçlarımı öpdü. Biz onunla yalnız bir gün, hətta bir gün də deyil, bir neçə saat bir yerdə olmuşduq. Hansı gizlin bir mənəvi əlaqə bizi bir-birimizə möhkəm bağlamışdı. İki ildən sonra qırxillik dostlar kimi, hətta ataqız kimi biz bir-birimizi qucaqlamışdıq... Mən nə bilim, insan qəlbi elə anlaşılmaz bir şeydir ki!..

Xeyrulla bəy, eynən Zeynilərdə olduğu kimi, məndən soruşdu:

– Bir de görüm, ay dəcəl, sənin burada nə işin var?

Onun uşaq gözləri kimi saf, mavi gözləri ağ kirpiklərinin arasından təsvir edilə bilməyən bir səmimiyyətlə parıldayırdı. Mən yenə, eynən Zeynilərdə olduğu kimi, bu gözlərin içinə baxıb gülə-gülə dedim:

– Doktor bəy, bilirsiniz ki, mən müəllliməyəm. Vilayət-vilayət gəzirəm. İndi də bura təyin ediblər.

O mənim bütün həyatımı və bütün könlümdəkiləri bilən bir adam kimi, sonsuz bir təəssüflə dedi:

– Balacan, hələ də bir xəbər yoxdurmu?

Mən birdən-birə diksindim, sanki üzümə soyuq su səpmişdilər. Gözlərimi tez-tez qırpır, heyrət edən kimi görünməyə çalışaraq dedim:

– Kimdən, doktor bəy?

O, darıxmış kimi, məni barmağı ilə hədələyib dedi:

– Nə yalan danışırsan, balacan? Dodaqların yalan söyləməyə öyrənib, amma gözlərin və hərəkətlərin hələ çox naşıdır. Bilmirsənmi mən kimi soruşuram? Səni belə vilayət-vilayət gəzdirən hər kimsə, bax onu...

Mən gülə-gülə çiyinlərimi çəkib dedim:

– Yəqin ki, maarif nazirliyini demək istəyirsiniz? Bir də ki, təbii, ölkəmin uşaqlarına xidmət etmək arzusunu?

Doktor yenə Zeynilərdəki sözlərini təkrar etdi. Onun bu sözləri mənə çox təsir etdiyi üçün, kəlməsinə qədər yadımda qalmışdır:

– Bu yaşda, bu halda, bu çöhrə iləmi? Çox yaxşı, qoy elə olsun, ay dəcəl, elə olsun, təki sən vəhşilik göstərmə.

Doktor dərmanlarını unutmuşdu, mən də kitablarımı...

Biz söhbətimizi davam etdirdik:

– Sən bu məktəbdə müəlliməsən, eləmi?

– Məktəbimizi aldığınıza görə o qədər narahat oldum ki, doktor bəy...

– Mənim ağlıma başqa bir fikir gəlir... O kəndin adı nə zəhrimardı? Mən orda sənə şəfqət bacılığı etdirmişdim. Yəqin ki, yadındadır da? İndi burda da mənə kömək edərsənmi? Əslinə baxsan, arada böyük bir fərq yoxdur. Ya sənin o xırdaca meymuncuqların olsun, ya da mənim "sevgili ayıcıqlarım", elə bunlar ikisi də ruh etibarı ilə bir-birlərinə çox bənzəyirlər... Onlarda da, bunlarda da eyni saflıq, eyni təmiz uşaq ürəyi var. Həm də ki, mənimkilər bu aylarda od içində yandıqlarına görə, onlara yardım etmək daha əcrli bir işdir, ay qızım...

Bu təklif birdən-birə mənim xoşuma gəldi, uşaq kimi sevindim. Təki mənim qüvvətimi və sevgimi sərf etmək üçün bir iş olsun, nə olursa olsun...

– Çox yaxşı, doktor bəy, nə vaxt istəyirsiniz işə başlaram.

– Lap elə indicə... Bir bax gör buranı nə günə qoyublar? Əl deyil ki, elə bil...

Doktor yenə tutarlı bir pis söz dedi...



Mən utana-utana:

– Doktor bəy, razıyam, amma bir şərtlə, mənim yanımda çox da əsgərsayağı danışmayacaqsınız... – dedim.

O gülə-gülə dedi:

– Çalışaram, xırdaca qız, çalışaram... Amma arada bir qəza olsa, təqsirimdən keçərsiniz...

Axşama qədər doktorla bir yerdə işlədik. Sabah yaralılar gələcəyini xəbər vermişdilər. Biz onları qəbul etməyə hazırlandıq.

*Quşadası, 26 yanvar.*

Bir aydır ki, Xeyrulla bəyin yanında şəfqət bacısı işləyirəm. Müharibə davam edir. Xəstəxanaya gələn yaralı dəstələrinin ardıarası kəsilmir. İş o qədər çoxdur ki... Bəzən gecələr də evimə gedə bilmirəm.

Dünən gecə yarısına qədər ağır yaralı olan, bir qoca yüzbaşı ilə məşğul olmaq lazım gəldi. Mən səhərə yaxın yorğunluqdan bitab olub dərmanlar saxlanan otaqda bir kreslonun içində yatıb qalmışdım.

Çiyinlərimə bir əlin yavaşca toxunduğunu hiss etdim. Gözlərimi açdım. Doktor Xeyrulla bəydi. Mənim üşüməyimdən qorxub yuxudan oyandırmamağa çalışaraq, üstümə nazik bir adyal salmaq istəmişdi. Pəncərədən düşən səhər şəfəqində daha solğun və yorğun görünən mavi gözlərilə gülümsünüb dedi:

– Yat, balacan, narahat olma...

Bu dəqiqə bu şəfqət mənə o qədər şirin gəldi ki... Mən bir şey söyləyib minnətdarlığımı ona bildirmək istəyirdim. Amma yorğunluq və yuxu mənə qalib gəldi, mən dalğın-dalğın gülümsünüb yenə yuxuya getdim.

Bu qoca doktorun iki böyük nöqsanına baxmayaraq, onu çox sevirəm. Bu nöqsanlardan biri budur ki, o, çox kobud sözlər işlədir. Əslinə baxsan, elə yan-yörəsindəki adamlar da o qədər yersiz işlər görürlər ki, doktorun kobud sözlər işlətməsinə haqq vermək olar. Amma bunu bir səbəb saymaq olmaz. Hərdən ağzından elə sözlər çıxır ki, mən onun yanından qaçıram. Sonra günlərcə üzünə baxa bilmirəm. Amma bu qəbahətini o, özü də başa düşüb deyir:

– Sən fikir vermə, balacan, bu sözlərin sərf-nəhv qaydalarında yeri yoxdur. Əsgərlikdir...

Xeyrulla bəy öz qəbahətlərini, saf peşmanlıqlarını sevimli utancaqlıqla bağışlatdıran, hətta xoş göstərən uşaqlara bənzəyir.

Doktorun ikinci qəbahəti birincidən də böyükdür. Bu yekəpər və kobud görünən adamda anlaşılmaz bir incəlik vardır. Adamın öz-özünə də etiraf etməkdən çəkindiyi, söyləmək mümkün olmayan şeyləri adamdan elə ustalıqla alır ki... Məsələn, mənim heç kəsə söyləməməyə çalışdığım sərgüzəştimin böyük bir hissəsini bilir; mən bunları ona necə söyləmişdim? Heç özüm də bilmirəm. Mən onun hərdənbir tək-tük suallarına quru və qısa cavablar verməkdən başqa bir şey etməmişdim. Halbuki o, bu sözləri bir yerə yığa-yığa, bir hekayə meydana gətirmişdir.

Doktorun heç kəsi yox idi. İyirmi beş il bundan əvvəl evlənibmiş. Doqquz ay sonra arvadı tif xəstəliyindən ölübmüş. O vaxtdan bəri subay qalmışdır. Özü radosludur. Amma Quşadasında bir qədər mülkü var. Hər halda o, miralaylıq maaşına ehtiyacı olmayan bir adamdır. Çünki öz maaşından qat-qat artıq pulu xəstələrə sərf edir. Məsələn, bir gün bundan əvvəl yaralı bir əsgərin evlərindən gələn məktubu oxumuşdum. Əsgərin qoca anası yazırdı ki, onların yoxsulluğu son dərəcəyə çatmış, uşaqlar acından küçələrə tökülmüşlər. Yaralı bu məktubu dinləyəndən sonra dərindən bir ah çəkdi.

Xeyrulla bəy yanımızdakı yataqda bir əsgəri yoxlayırdı. Birdən-birə bu biçarə əsgərə dönüb dedi:

– Çox şadam. Axı siz nəyinizə güvənib belə yığın-yığın oğul-uşaq doğuzdurub-törədirsiniz?

Doktorun bu sərt zarafatı ox kimi ürəyimə batdı. Yeri düşəndə, mən bunu mütləq qoca doktora söyləyəcəkdim. Amma o, özü bu məsələdən söz açdı:

– Balacan, o ayının özünə bildirmədən, anasının ünvanını al, onlara beş-on lirə göndərək.

Mənə elə gəlir ki, bu qoca doktor nə pul üçün, nə də vəzifə üçün əsgərlik edir. Onun da nə isə, bir azarı var. O da öz meyil və məhəbbətini "sevgili ayıcıqlarım" dediyi biçarə əsgərlərə salmışdır! Amma bilmirəm, nə üçün bu məhəbbəti o, xəcalətli bir şey kimi həmişə gizlətməyə çalışır?

*Quşadası, 28 yanvar.*

Mən bu səhər xəstəxanaya gələndə eşitdim ki, dörd ağır yaralı zabit gətiriblər. Şəfqət bacıları dedilər ki, Xeyrulla bəy məni axtarır.



Doktor nə vaxt çətin bir əməliyyat etməli olsa, mənim yanımda olmağımı istəyir. O mənə deyir ki:

– Balacan, belə şeyləri sənə göstərmək düz deyil, amma əlindən iş gələn başqa adam yoxdur. Məni hirsləndirib çığırdırlar, özüm də nə edəcəyimi bilməyib çaşıb qalıram.

Çarşabı atıb tələsik xalatımı geydim. Amma mən hazırlanana qədər əməliyyat qurtarmışdı. Yaralını xərəkdə yuxarı göndərirdilər.

Xeyrulla bəy məni yanına çağırıb dedi:

– Balacan, mühüm bir dərzilik etdik (o, əməliyyata "dərzilik" deyirdi). Gənc bir ştab minbaşısıdır. Bir bomba sağ qolu ilə üzünün bir tərəfini bərbad etmişdir. Mən öz otağımı ona verdim. Daha onunla sən məşğul olarsan. Çox böyük diqqət və qayğıya ehtiyacı var.

Biz danışa-danışa otağa girdik. Yataqda üzü, qolu sarğılar içində olan səssiz bir adam uzanmışdı. Doktorla bərabər ona yaxınlaşdıq. Yalnız üzünün sol tərəfi bir azca görünürdü. Bu çöhrə mənə tanış gəldi. Amma bu vəziyyətdə onu tanımaq mümkün deyildi.

Xeyrulla bəy yaralının sol əlinin nəbzini tutmuşdu. Onun üzünə doğru əyilib, iki dəfə səsləndi:

– Ehsan bəy, Ehsan bəy!

Birdən-birə zehnimdə bir şimşək çaxdı. Bu, "Ç"-də Əbdürrəhim paşanın evində gördüyüm ştab yüzbaşısı idi. Mən bir addım geri çəkildim. Otaqdan çıxmaq, sonra doktordan xahiş etmək istəyirdim ki, məni bir də bu yaralı zabitin yanına göndərməsin. Amma xəstə gözlərini açıb məni görmüşdü. Deyəsən, o da məni tanıdı, amma bunun, doğrudan da, mən olduğuma ehtimal vermədi. Kim bilir, yaralandığı gündən bəri neçə dəfə huşunu itirmişdi. Xəstəliyi, qızdırması, kim bilir, ona necə qəribə röyalar gördürmüşdü. Bəli, onun dalğın gözlərinin baxışından duydum ki, mən olduğumu yəqin bilmədi. Ağappaq dodaqlarında ötəri bir gülümsünmə göründü və təkrar gözlərini yumdu.

Ehsan bəy! Bir müddət bundan əvvəl, qudurğan adamlar uşaqlığımdan, məni müdafiə edən atam, qardaşım, tanışım olmamasından istifadə edib, məni gecə kef məclisinə sürümüşdülər.

Ürəyimdə sürgünə göndərilən bir pis küçə qadını zilləti olduğu halda, mən əlimi günahsız üzümə tutub şəhərdən çıxdım. O gün mən dünyanı başdan-başa bir zülm yeri, özümü də o zülmə baş əyməkdən başqa çarəsi olmayan bir səfil bilirdim. Siz o gündə məni müdafiə

etdiniz. Siz öz sənətinizi, öz gələcəyinizi təhlükəyə qoyub, hətta bəlkə ölməyi də göz altına alıb mürvətinizi göstərdiniz!

Madam ki, indi qəmgin bir təsadüf bizi yenə üz-üzə gətirmişdir, mən daha sizdən qaçmayacağam. Sizin bu ümidsiz və acı günlərinizdə bir kiçik bacı kimi özümü sizin xidmətinizə vəqf edəcəyəm...

*Quşadası, 7 fevral.*

Ehsan bəyin yarası təhlükəli deyilmiş. Bir aya qədər yaxşılaşa bilər. Amma sağ qaşının üstündən çənəsinə qədər, bütün yanağını bürüyən yara onu qorxunc və eybəcər bir şəklə salacaqdır.

Xeyrulla bəy sarğıları dəyişdirəndə, mən onun yanında olmurdum. Ona görə yox ki, ürəyim tab gətirmirdi, – axı mən hər gün bundan daha pis yaralar görürdüm, – ona görə ki, mənim baxışımın Ehsan bəyə, o qorxunc yarasına toxunmuş bir bıçaqdan daha artıq əzab verdiyini görmüşdüm...

Yazıq adam xəstəxanadan necə bir üzlə çıxacağını bilmir, açıqdan-açığa bir şey söyləmirsə də, amma dərin bir ümidsizlik içində idi.

Xeyrulla bəy ona deyirdi:

– Bir az döz, ay cavan oğlan, iyirmi günə sapsağlam olacaqsan, ayağa duracaqsan...

Yaralı bu sözləri eşidəndə, elə bil, təşvişə düşürdü.

Yaralının bu günlərini xoş keçirməsi üçün, mən qəlbimin bütün şəfqətini sərf edirəm. Bəzən yatağın başında ona kitab oxuyuram, hətta hərdənbir nağıl da danışıram.

Bəli, biçarə bu barədə heç bir şey söyləmirsə də, aydın hiss olunur ki, daim kifir qalmaq əzabından bir dəqiqə də özünü qurtara bilmir. Mən bəzən ona gizlin-gizlin təsəllilər verməyə çalışıram. Özümü guya tamam başqa bir şeydən danışan kimi göstərib deyirəm ki, dünyada üz gözəlliyi qədər lazımsız, hətta zərərli bir şey yoxdur. Əsil gözəllik ruhun, könlün gözəl olmasıdır...

*Quşadası, 25 fevral.*

Ehsan bəy bizim ümid etdiyimizdən daha az bir vaxta sağaldı. Bu gün səhər ona südlü çay aparanda, onu geyinmiş gördüm.

Bir il bundan əvvəl Əbdürrəhim paşanın bağçasında təsadüf etdiyim o gözəl geyimli, qəşəng və məğrur çöhrəli ştab yüzbaşısı qeyri-ixtiyari olaraq gözümün önünə gəldi.



Görəsən indi qarşımdakı bu minbaşı formasının yaxası içindən nazik boynunu yana əyən, üzündəki yara yerinə görə xəcalət çəkib utanan xəstə əsgər həmin o gözəl, məğrur ştab zabiti idimi? Yəqin ki, mən öz təəssüfümü gizlədə bilməmişdim. Mən öz mütəəssirliyimi başqa bir səbəblə qələmə verməyə çalışıb, yalandan acıqlanıb dedim:

– Ehsan bəy, bu nə uşaqlıqdır edirsiz? Hələ tamamilə sağalmamış nə üçün geyinibsiniz?

O, gözlərini aşağı endirib cavab verdi:

– Uzanmaq adamı daha da xəstələndirir, ona görə geyindim.

İkimiz də susduq. O, öz coşqun əsəbiliyini gizlətməyə çalışaraq əlavə etdi:

– Daha getmək istəyirəm, heç bir şeyim qalmayıb, tamamilə sağalmışam.

Mənim ürəyim, ona duyduğum mərhəmətdən sıxılırdı. Bunu ona bildirməmək üçün zarafata salıb dedim:

– Ehsan bəy! Görürəm ki, mənim sözümə baxmayacaqsınız. Sizin yenə əsgər inadcıllığınız tutmuşdur. Amma bunu da sizə xəbər verim ki, mən indi xəbərçilik etməyə gedirəm. Doktorunuza hər şeyi xəbər verəcəyəm. O, sizi yaxşıca danlar, onda görərsiniz!

Mən məcməyini qoyub tələsik bayıra çıxdım. Amma doktoru görməyə getmədim.

*Quşadası, 25 fevral (axşamüstü).*

Xeyrulla bəylə möhkəmcə dalaşdım. Amma mübahisəmiz iş üstündə olmadı. O, başqalarının işinə qarışmağı hörmətsizlik dərəcəsinə çatdırdığı üçün dalaşdıq.

Bayaq Ehsan bəydən danışırdıq. Mən dedim ki, üzünün bu vəziyyətdə olması ona çox pis təsir edir. Xeyrulla bəy dodaqlarını büzüb dedi:

– Haqqı var. Mən onun yerinə olsam, burdan özümü dənizə atardım. O cür sir-sifət balıqlara yem olmaqdan başqa nəyə yarayar!..

Mən yaman hiddətlənib dedim:

– Mən sizi başqa cür adam bilirdim, doktor bəy. Üz gözəlliyinin nə əhəmiyyəti var?

Xeyrulla bəy gülməyə, mənimlə əylənməyə başladı:

– Balacan, bunlar boş laqqırtılardır. O sir-sifətdə olan bir adama heç kəs gözünün ucuyla da baxmaz. Hələ siz yaşdakı qızlar... Allah göstərməsin...

Doktor qızlardan şikayət edən kimi, əlləri ilə yaxasını tutub silkələdi. Mən üsyan edib dedim:

– Siz mənim həyatımı bir qədər bilirsiniz. Bəzi sirlərimi də, demək olar ki, zorla məndən oğurlayıbsınız. Mənim gözəl, həm də çox gözəl bir nişanlım vardı. Məni aldatdığı üçün, onu qəlbimdən silib atdım. Ona nifrət edirəm!

Xeyrulla bəy yenidən qəhqəhə çəkib güldü. Sonra ağ kirpikləri arasında gülməkdən kiçilən mavi gözlərini lap qəlbimin içinə zilləyib dedi:

– Bir mənə bax, balacan, heç elə deyil... Mənim gözlərimin içinə bax, bir de görüm, sən onu sevmirsən?

– Ona nifrət edirəm!

O, çənəmi tutub, hələ də gözlərimə baxa-baxa dedi:

– Ah, yazıq bala, sən onun üçün illərdən bəri cira[1] kimi alışıb yanırsan! O heyvan səninlə bərabər öz-özünə də yamanlıq etmişdir. Belə bir eşqi o bir başqasında çətin tapa bilər.

Mən, hiddətdən səsim boğula-boğula dedim:

– Nə üçün mənə bu ağır iftiranı rəva görürsünüz, bunu hardan bilirsiniz?

– Yadındadırmı, səni o kənddə gördüyüm gün mən bunu başa düşmüşdüm. Nahaq yerə gizlətməyə çalışma, sevda elə bir şeydir ki, o sənin uşaq gözlərindən yuxu kimi axıb tökülür.

Mənim gözlərim qaralır, qulaqlarım guruldayırdı. Doktor hələ də danışırdı:

– Balacan, sən başqalarının arasında yaşaya-yaşaya, hər kəsə, hər şeyə elə yad bir baxışla baxırsan, röya görən adamlar kimi elə məzlum-məzlum gülümsünürsən ki, mənim ürəyim yanır. Sən yaradılışca da hamıdan başqasan. Nağıllarda busədən doğulmuş, busə ilə qidalanmış və böyümüş cürbəcür pərilərdən danışılır. Bunları yalnız xəyal saymaq doğru deyildir. Dünyada da onlara bənzəyən nümunələr

[1] Cira – ağac adıdır



var. Fərideciyim, sən o nağıllardakı pərilərdən birisən. Sən sevmək, sevilmək üçün yaradılmış bir məxluqsan. Ah, dəli qız, sən çox yanlış hərəkət edibsən. Nə olursa olsun, gərək o sərsəm oğlanın yaxasını buraxmayaydın. Onda sən mütləq xoşbəxt olardın.

Mən etiraz edib çırpına-çırpına, ayaqlarımı yerə döyə-döyə:

– Bunları niyə söylədiniz? Məndən nə istəyirsiniz? – deyib ağlamağa başladım.

Onda doktorun da ağlı başına gəldi:

– Düz deyirsən, balacan, haqqın var. Bunlar sənə söylənməli sözlər deyildi. Çox pis bir səhv etdim, məni bağışla, balacan, – deyə məni sakitləşdirməyə çalışdı.

Mən daha ondan küsmüşdüm. Heç üzünə də baxmaq istəmirdim. Ona dedim:

– Görərsiniz onu sevmədiyimi necə sübut edəcəyəm!..

Belə deyib bayıra çıxdım və qapını çırpdım.

*Yenə 25 fevral, gecə.*

Mən Ehsan bəyin lampasını otağına aparanda, o hələ soyunmamışdı. Pəncərənin önündə ayaq üstə durub axşamın dənizdəki qızıl şüalarını seyr edirdi.

Mən eləcə, bir söz söyləmək xatirinə dedim:

– Yəqin formanızı geymək üçün çox darıxıbsınız, əfəndim?

Otağa axşamın alaqaranlığı çökmüşdü. Ehsan bəy bu qaranlıqdan cəsarətlənmiş kimi, müəmmalı bir surətdə gülümsünüb başını yırğaladı, ilk dəfə mənə açıqdan-açığa dərdini danışdı:

– Formamı deyirsiniz, əfəndim? Bəli, indi ümidim yalnız onadır. Mənim üzümü bu hala o saldı. İndi bu fəlakəti ortadan qaldırmaq qüdrətini də, yalnız həmin bu formamda görürəm.

Mən bu sözlərin mənasını başa düşməyib heyrətlə onun üzünə baxırdım. O, yavaşca köksünü ötürüb sözünə davam etdi:

– Bu çox sadə bir şeydir, Fəridə xanım, burada anlaşılmayan bir şey yoxdur. Mən bir zabit kimi, geriyə – orduya qayıdacağam. Qoy bombanın yarımçıq qoyduğu iş tamam olsun, mənim də canım qurtarsın.

Gənc minbaşı bu sözləri uşaqlara məxsus bir saflıq və qəmginliklə söyləyirdi. Mən lampanı yandırmaq üçün arxamı ona çevirmişdim.

Yandırdığım kibriti, gizlincə üfürüb söndürdüm. Lampanın fitilini düzəltmək bəhanəsi ilə, əyilib lap yavaş bir səslə dedim:

– Ehsan bəy, belə söyləməyin. Siz istəsəniz, xoşbəxt ola bilərsiniz. Məsələn, babat bir qızla evlənərsiniz, yaxşı bir ailəniz, xırdaca-xırdaca uşaqlarınız olar, hər şeyi unudarsınız.

Mən başımı ona sarı çevirməmişdim, amma hər halda, hiss edirdim ki, o da mənə baxmır, hələ də pəncərədən dənizi seyr edirdi.

– Fəridə xanım, sizin nə qədər təmiz qəlbli bir qız olduğunuzu bilməsəydim, deyərdim ki, mənə lağ edirsiniz. Bu halda məni kim istər. Mən hələ belə olmamışdan qabaq, heç olmasa, bir qadının gülmədən üzümə baxa biləcəyi günlərdə də xoşa gəlməmişdim. İndi isə, elə bir əliləm ki...

O daha sözünə davam etmək istəməyib özünü ələ almağa çalışaraq dedi:

– Fəridə xanım, bunlar lüzumsuz sözlərdir. Bağışlayın, lampanı yandırarsınızmı?

Mən bir kibrit də çaxdım, amma əlim heç cür lampaya sarı getmirdi. Mən gözlərimi kibritin titrək alovuna dikib düşünə-düşünə, onun sönməsini gözlədim. Otaq yenə qaranlıqlaşanda yavaş-yavaş dedim:

– Ehsan bəy, sizin başınıza o müvəffəqiyyətsizlik gələndə, siz məğrur, özünüzü bəyənən bir kişi idiniz. Kədər və ümidsizlik qəlbinizə indiki incəliyi verməmişdi. Siz o vaxt öz mövqeyinizi ayaq altına salaraq, bəlkə ölümü də göz altına almış, kiçik bir qızı, fağır bir ibtidai məktəb müəlliməsini müdafiə etmişdiniz. Bir də ki, bunların hamısından daha mühüm olan bir şey var: siz, daha gizlətməyin, dərdinizi başa düşürəm; siz onda indiki qədər bədbəxt deyildiniz. İndi nə üçün həmin o biçarə ibtidai məktəb müəlliməsi öz ömrünü sizin səadətinizə vəqf etməsin?

Yaralı minbaşı boğulan bir səslə dedi:

– Fəridə xanım, rica edirəm, məni belə mümkün olmayan xəyallara salıb tamamilə bədbəxt etməyin.

Mən daha qərarımı vermişdim. Üzümü ona çevirdim. Başımı aşağı salıb dedim:

– Ehsan bəy, mənimlə evlənin, rica edirəm. Məni qəbul edin. Görərsiniz, sizi nə qədər məsud edərəm, biz nə qədər xoşbəxt olarıq...



Mən göz yaşları ilə pərdələnmiş kirpiklərimin arasından minbaşının üzünü qaranlıqda görə bilmirdim. O, uzatdığım əlimi tutub, qorxa-qorxa barmaqlarımın ucunu öpdü.

Hər şey qurtardı. Daha bundan sonra heç kəs cəsarət edib mənə deyə bilməz ki, mən o birini sevirəm.

*Quşadası, 26 fevral.*

Kamran, o gündən sonra sən mənim üçün yad bir adamdan, düşməndən başqa bir şey deyildin!.. Mən bilirdim ki, biz bir də üz-üzə gəlməyəcəyik, bu dünyanın gözləri ilə bir-birimizə baxmayacağıq, bir-birimizin səsini eşitməyəcəyik. Bununla belə, mən sənin nişanlın olmaq hissini heç cür könlümdən çıxara bilməmişəm. Hər nə desəm, hər nə etsəm, yenə özümə elə bir gözlə baxırdım ki, guya mən sənə aid bir şeyəm.

Bəli, nə üçün yalan söyləyim? Bütün nifrətimə, üsyanıma, bütün keçirtdiyim o əziyyətlərə baxmayaraq, mən yenə bir azca sənindim.

Mən bun gün səhər ilk dəfə bir başqasının nişanlısı olaraq yuxudan oyananda, bunu hiss etdim, bəli, başqasının nişanlısı... Bu qədər illərin bu qədər səhərlərində mən sənin nişanlın olaraq yuxudan oyandığım halda, indi bu gün bir başqasının nişanlısı kimi yuxudan oyanıram!.. Kamran, əslində səndən mən elə bu gün səhər ayrıldım. Həm də səndən elə bir qaçqın kimi ayrıldım ki, bu qaçqının öz qəlbində bir xatirə aparmağa, son dəfə bir də başını çevirib arxada qoyduğu şeylərə baxmağa haqqı yoxdur...

Bu gün səhər Ehsan bəylə görüşdükdən sonra, mən onu doktor Xeyrulla bəyin otağına aparacaqdım və nişanlandığımızı ona xəbər verəcəkdim. Belə böyük bir hadisə üçün mənim hər gün geyindiyim şəfqət bacısı xalatım çox sadə görünə bilərdi və mənim yeni nişanlımı bəlkə də kədərləndirərdi. Bağçada xırdaca çöl çiçəkləri açılmışdı. Onlardan xırdaca bir dəstə düzəldib köksümə taxdım.

Bu səhər Ehsan bəyi yenə geyinmiş gördüm. O məni görəndə, bir uşaq saflığı ilə gülümsünməyə başladı. Mən düşündüm ki, bu gündən sonra onu xoşbəxt etmək mənim vəzifəmdir.

Mən zorla gülməyə çalışıb əllərimi ona uzadaraq dedim:

– Bonjur, Ehsan bəy.

Sonra çiçəklərdən bir neçəsini ayırıb, onun formasının köksünə taxdım.

– Elə bilirəm ki, bu gecə rahat yatmısınız.

– Çox rahat yatmışam. Bəs siz necə?

– Mən altı aylıq bir körpə kimi şad və rahat yatmışam.

– Elə isə, bəs nə üçün üzünüz elə solğundur?

– Təsəvvür edin ki, bəxtiyarlıq da insanı soldura bilər.

Bu cavabdan sonra ikimiz də susduq.

Ehsan bəyin dodaqları ağappaqdı. Bir azca sükutdan sonra o, ağır-ağır sözə başladı. Hərdən səsinin titrəməsindən qorxan kimi susur, bir neçə saniyə tərəddüd edirdi. O mənə dedi:

– Fəridə xanım, mən ölənə qədər sizə minnətdaram. Mənim üçün bu gecəni elə misilsiz, xoş bir gecəyə çevirdiniz ki, mən ən bəxtiyar zamanlarımda da belə bir gecə keçirməmişdim. Bayaq sizə düz demədim. Mən bu gecə səhərə qədər yatmamışam. Sizin bu sözləriniz və səsiniz səhərəcən qulağımdan getməmişdir: "Rica edirəm, mənimlə evlənin!.." Mən yata bilmədim, çünki sizin nişanlınız olaraq keçirdiyim bu tək bircə səadət gecəsinin bir dəqiqəsini də zay etmək olmazdı... Mən ömrümün sonuna qədər sizə minnətdar qalacağam.

Mən gözlərimi onun üzünə dikib dedim:

– Mən sizi daim məsud edəcəyəm.

O dərin bir həyəcan içindəydi. Əllərimi tutmaq istədi. Amma buna cəsarət edə bilmədi. Bir xəstə uşaqla danışırmış kimi yumşaq, oxşayıcı səslə dedi:

– Xeyr, Fəridə xanım, bu gecənin daha sabahı ola bilməzdi. Mən bunu bilirdim. Bu gecə mən çox məsud oldum. Amma buna baxmayaraq, mən bu gün gedirəm. Bir neçə saatdan sonra sizdən ayrılacağam.

– Nə üçün, Ehsan bəy? Məni istəmirsinizmi? Düz deyil, mənə bu qədər ümid verəndən sonra çıxıb getmək, heç düz deyil.

Zabit arxasını divara dayadı, gözlərini yumub qəmgin-qəmgin dedi: "Ah, bu səs!.."

Sonra birdən-birə diksindi, demək olar ki, sərt bir səslə dilləndi:

– Bir az da cəhd etsəniz, mənə duyduğunuz mərhəmət sizi məcbur edəcək ki, məni sevdiyinizi iddia edəsiniz.

– Niyə olmasın, Ehsan bəy? Madam ki, sizinlə nişanlanmaq istədim, deməli bunun bir səbəbi vardı.



O az qala acı bir istehza ilə cavab verdi:

– Bəli, madam ki, siz bizim evlənməyimizi qəbul etdiniz, deməli məni sevirsiniz? Amma mən sizin tərəfinizdən bu qədər sevilmək istəmirəm. Siz bizim evlənməyimizə doğrudanmı ehtimal verirdiniz, Fəridə xanım?

– ...

– Fəridə xanım, siz elə bilirsiniz ki, mən o qədər alçalmış, o qədər ruhdan düşmüş bir adamam ki, bir əlilə mərhəmət hissindən doğan bir eşqi sədəqə kimi qəbul edəm?..

Mən sonsuz bir kədərlə başımı aşağı əyib dedim:

– Haqqınız var. Biz iki biçarə adamıq. Mən güman edirdim ki, iki dərdi birləşdirsək, bəlkə məsud olarıq, amma yanılmışam.

Mən divardan asılmış qılıncı göstərib dedim:

– Sizin yenə bir təsəlliniz var. Dediyiniz kimi, öz vəzifənizə qayıda bilərsiniz. Amma mən qadınam, sizdən çox-çox biçarəyəm.

Tutqun bir qış səhərində, kökslərində bir neçə cılız çöl çiçəyi, dodaqlarında bu çiçəklər kimi yalançı bir gülümsünmə, üz-üzə gələn yeni nişanlılar, on dəqiqədən sonra gözləri yaşlı, bədbəxt bir böyük qardaşla kimsəsiz bir kiçik bacı kimi ayrıldılar.

*Quşadası, 2 aprel.*

Üç gün bundan əvvəl məktəbimizi qaytardılar. Beş aylıq bir fasilədən sonra, dünən təkrar dərsə başladıq. Amma bundan nə çıxsın, ilin axırı gəlib çatdı. Bahar, sinifləri oynaşan günəş şüaları ilə, ılıq çiçək qoxuları ilə doldurur, divarlarda Aralıq dənizinin yaşıl əksləri oynaşır. Böyüklü-kiçikli, heç kəsdə çalışmağa həvəs yoxdur.

Baş müəllim heç cür Quşadasında qalmaq istəmirdi. Onu bir ay əvvəl başqa bir yerə göndərdilər, yerinə də məni təyin etdilər. Adım da "müdirə" olmuşdur. Mən bu işdən xoşlanmadım, çünki müəllimə yoldaşlarım mənə qəribə bir nəzərlə baxmağa başlayıblar.

Hərçənd bunlar çox da məlumatlı, yaxşı cəhətləri olan adamlar deyildilər, amma hər necə olsa, yaşlı-başlı qadınlardır. Maarif məmurlarının dedikləri kimi, hər birinin on beş, iyirmi il "stajları" var. Əgər mən də onların yerində olsaydım və bir gün öz qızımdan kiçik bir

uşağı gətirib mənə böyük qoysaydılar, elə bilirəm ki, mənim də ürəyim sınardı.

Martın əvvəllərində Xeyrulla bəyi təqaüdə çıxartdılar.

Xeyrulla bəy özü varlı bir adamdır, maaşa ehtiyacı yoxdur. Bununla belə kədərlənib dedi:

– Sevgili ayıcıqlarımdan bir çoxunun gözlərini öz əllərimlə yumdum. İstərdim ki, mənim də gözlərimi onlar yumsunlar, məzara da onlar aparsınlar. Amma olmadı.

Xeyrulla bəy məlumat cəhətdən də çox mükəmməl bir adamdır. Bütün gəncliyini kitab oxumaqla keçirmişdir. Evində böyük bir kitabxanası var. O, dünyada kitabdan lüzumsuz, boş bir şey olmadığını söyləyir, kitab yazanlar kimi, kitab oxuyanların da həyatda heç bir şeyi görmədən keçib-gedən sarsaqlar olduğunu iddia edir. Keçən gün mən onu məğlub etmək məqsədi ilə dedim:

– Madam ki, elədir, bəs siz niyə bu qədər çox kitab oxuyubsunuz, hətta məni də kitab oxumağa həvəsləndirirsiniz?

Bu elə bir etirazdı ki, axar suları da dayandırardı. Amma o, heç kefini pozmadı, əksinə, qəhqəhə ilə gülüb məni lağa qoyaraq dedi:

– Ay dedin ha... Sənə kim dedi ki, mən deyənə qulaq asasan?

Mən bu qoca doktoru başa düşə bilmirəm. Hər nəyi sevirsə, onun əleyhinə danışır. Hətta elə hiss edirəm ki, məni də danladığı zamanlarda həmişəkindən çox sevir.

Xəstəxanadan ayrıldığı gündən bəri, gah günlərcə evində oturub kitab oxuyur, gah da əsgərlikdən qalma uzunboğaz çəkmələrini geyir, çiyninə jandarma kimi bir tüfəng salıb Düldülə minir (Düldül onun çox sevdiyi atının adıdır). Bu qiyafət ilə o, kəndlərdə xəstələrə baxmaq üçün, özünü məşğul etmək üçün bir iş axtarmağa gedir.

Onun evində səksən yaşında süd anası ilə, "Onbaşı" adlandırdığı topal bir bağbanı var.

Üç gün əvvəl mənimlə Munisəni öz evinə çağırmışdı. Çox nəşəli idi. Mən kitabxanada kitab oxumaqla məşğul olduğum müddətdə, o, saatlarla Munisə ilə uşaq kimi oynadı. Munisəyə elə ciddi əmrlər verirdi ki, mən gülməkdən bihuş olurdum.

– İndi gizlənpaç oynayacağıq. Amma çətin tapılan yerdə gizlənməyəcəksən ha... Barmaq boyda bədənin var, sən bir yerə girib gizlənsən, məni saatlarca axtarmağa məcbur edib yorarsan. Bir də ki, əgər sən məni axtarıb tapa bilməsən, narahat olma ha... Bəlkə gizləndiyim yerdə yatıb qalmışam.



Bir neçə gündən sonra Munisə çarşab örtməlidir. Daha on dörd yaşına girir. Boyu indi mənə çatıb. Bu balaca qızım çiçək kimi açıldı. Ağ deyiləcək qədər açıq sarı saçlarının içində ağappaq kiçik üzü çox qəşəng görünür. Laciverd gözlərinin rəngi günün saatlarına görə dəyişir. O, güləndə yanağında güllər açılan, ağlayanda gözlərindən incilər saçılan pəri qızlarına bənzəyir.

Xeyrulla bəyin bu çarşab məsələsinə çox acığı tutur. Mən də Munisəni hələ çox kiçik sanıram, amma neyləyim, qorxuram. Tanışlardan bəziləri deyirlər ki:

– Fəridə xanım, sən bunu daha kişilərdən yaşındır, yoxsa vaxtsız qayınana olarsan!

Ürəyim yaman təşvişdədir. Həm sevinirəm, həm də əsəbiləşirəm, vasvası oluram. Qayınanalara nahaq yerə vasvası demirdilər.

Keçən gün məktəbdən gəlirdik. Qarşıdakı səkidə on altı-on yeddi yaşlarında gözəl bir məktəbli oğlan gedirdi. Hərdən dönüb bizə baxması mənə qəribə gəldi. Mən yaşmağımın altından xəlvətcə Munisəyə baxdım. Bir də nə gördüm: xain sarı əqrəb, gözaltı oğlana baxıb gülür! Bu mənə elə qəribə gəldi ki, az qala, küçənin ortasında yıxılıb özümdən gedəcəkdim. Axmaq qızın biləyindən yapışdım, onu danlamağa başladım. Əvvəlcə inkar elədi. Gördü ki, mən ona inanan deyiləm, yalandan ağladı. Çünki göz yaşlarına dözə bilməyəcəyimi, mənim də ağlayacağımı bilirdi.

Ona dedim:

– Mən sənə nə cür cəza verməк lazım olduğunu bilirəm... Bazardan aldığım tünd neft rəngli bir ipək parçadan sənə çarşab tikməyə başlamışam.

Bu gün səhər də Munisə ilə gül ətri üstündə dava saldıq. Bir neçə ay bundan əvvəl söz arasında mən gül ətrini çox sevdiyimi söyləmişdim. Xeyrulla bəy bilmirəm hardan tapdısa, üç-dörd gün sonra mənə bir şüşə ətir gətirdi. Ətrin qurtarmasından qorxduğum üçün ehtiyatla işlədirdim. Amma bu dəcəl qız heç rahat qoyur ki! Ətrə dadandı. O, tək qalan kimi otağı gül ətri basırdı. Sonra da məsum-məsum deyirdi:

– Abacığım, vallah mən əl vurmamışam...

*Quşadası, 5 may.*

Bu gün səhər Munisə bir az xəstə və bihal oyandı. Gözləri qızarmış, bənizi solmuşdu. Mənim məktəbdə işim çox olduğu üçün evdə qala bilməzdim. Doktor Xeyrulla bəyin evinə getdim. Ondan xahiş edəcəkdim ki, bir bizə dəyib Munisəyə baxsın. Tərs kimi o da yarım saat əvvəl Düldülə minib bilmirəm hansı kəndəsə gedibmiş.

Mən evə qayıdanda, Munisəni yataqda gördüm. Qonşumdakı qoca bir qadından xahiş etdim ki, hərdənbir uşağa baş çəksin. Əskik olmasın, heç qızın yanından ayrılmayıb, axşama kimi orda oturub corab toxuyubmuş.

Munisənin tumovu artmışdı. Başı od kimi yanır, səhərkindən daha tez-tez öskürürdü. Səsi batmışdı, nəfəs alanda, yüngülcə bir təngnəfəslik hiss etdiyini söyləyirdi. Əlimi onun boğazına qoyub ağzını açdırdım. Əlimə yumru-yumru vəzilər toxundu. Mən lampanı onun üzünə yaxınlaşdıranda, lampanın işığı gözlərini qamaşdırdı. Boğazında, dilçəyinin ətrafında ağ qabarcıqlar görünürdü.

Munisə mənim narahatlığımı görüb lağ edərək dedi:

– Öskürəndə nə olar, abacığım, Zeynilərdə məni öskürək tutmuşdu, yadından çıxıbmı?

Uşağın haqqı var. Zeynilərdə mən onu qarın içində yarıdonmuş halda tapanda da, belə deyildimi? Uşaqlar üçün tumovun nə əhəmiyyəti ola bilər? Yalnız məni bayaq darıxdıran budur ki, Xeyrulla bəy tapılmır. Onbaşı bayaq yenə gəlmişdi. Xeyrulla bəyin bu gecə kənddə qaldığını söylədi. İnşallah o gələnə qədər balacığım ayağa durmuş olar.

*Quşadası, 18 iyul.*

Bu gün səhər hesab etdim: düz yetmiş üç gecədir ki, balamı torpağa tapşırmışam...

Yavaş-yavaş buna da öyrəşməyə, bu dərdə də dözməyə başlayıram. İnsan nəyə dözməz ki...

Bayaq qoca doktorumla dəniz kənarına getmişdik. Qumsaldan çınqıllar, sədəf qabıqları yığdım, sakit suyun üstündə daş səkirtməyə başladım.

Xeyrulla bəy uşaq kimi sevinirdi. Ağ kirpiklərinin arasındakı məsum mavi gözləri ilə gülüb dedi:

– Ah gənclik!.. Əlhəmdülillah, o dərdə də üstün gəldik. Bir bax sənin rəngin kimi, nəşən də yerinə gəlməyə başladı.



Mən gülüb dedim:

– Adamın sizin kimi bir doktoru olandan sonra bu təbii deyilmi?

Doktor ağır-ağır başını yırğalayıb dedi:

– Təbii deyil, balacan, təbii deyil... Doktorluq da insanlar kimi, kitablar kimi, doğruluq və vəfa kimi əsli olmayan boş bir nağıldır. Barmaq boyda uşağı ölümdən qurtara bilməyəndən sonra, belə fənnin içinə tüpürüm!..

– Neyləyək, doktor bəy, narahat olmayın. Allah belə istəyibmiş, belə də oldu.

Doktor qəmli-qəmli üzümə baxdı:

– Yazıq balacığım, heç bilirsənmi mən sənin halına indi nəyə görə yanıram? Başına bir dərd gələndə, sən özünün təsəlliyə ehtiyacın olduğunu unudub, başqalarına təsəlli verməyə başlayırsan. Sənin bu məzlum halın az qalır məni ağlatsın, balacığım.

Doktor bir az susdu. Sonra öz-özünə şikayət etməyə başladı:

– Amma mən də yaman ağzıbaşına olmağa başlayıram ha... Bilmirəm sarsaqlamışam nədir? Haydı, balacan, haydı gedək.

Biz saralmış tarlaların içi ilə evə sarı getməyə başladıq. Bütün əkinçilər doktoru tanıyırdılar. Yekə bir taxıl tayasının yanında işləyən qoca bir qadınla söhbət etdik. Xeyrulla bəy bir neçə il bundan əvvəl bu qadının nəvəsini müalicə edibmiş. Nənə doktora çox dualar etdi. Sonra iyul günəşinin altında vəl sürən möhkəm vücudlu bir gənci səslədi:

– Gəl bura, Hüseyn, sənin canını qurtaran doktorun əlini öp! O olmasaydı, sən indi bir ovuc torpağa dönmüşdün.

Qoca doktor, Hüseynin gündən yanmış tərli üzünü oxşayıb dedi:

– Mən belə quru-quru əl öpməkdən xoşlanmıram. Ay oğlan, di tez ol, bizi vələ mindir, görüm.

Biz iki güclü öküzün çəkdiyi vələ mindik. Beş-on dəqiqə bu saman dənizinin sarı dalğaları üzərində ağır-ağır hərləndik.

Bu gün daha özümdə o hadisəni yazmağa qüvvət olduğunu hiss edirəm. Dəftərimin son səhifəsini yazdığım gecənin səhəri Munisəni daha bərk xəstələnmiş gördüm. Səsi o qədər batmışdı ki, heç danışa bilmirdi. Yazıq balacığım! Havasızlıqdan sinəsi boğulurdu. Nə olursa olsun, bir başqa doktor axtarmağa gedəcəkdim. Amma çarşabımı geyəndə, Xeyrulla bəy gəlib çıxdı. Xəstəni qısaca yoxladıqdan sonra dedi ki, əhəmiyyətli bir şey yoxdur.

Amma üzü qaşqabaqlı, gözləri fikirli idi. Mən qorxa-qorxa ona söylədim ki, onun bu çöhrəsi mənim heç xoşuma gəlmir. O, incimiş halda, çiyinlərini çəkib dedi:

– Mızmızılıq lazım deyil. Düz dörd saatlıq yoldan gəlirəm. Yorğunluqdan taqətim yoxdur. Sizə xidmət etdiyim azlıq edir ki, hələ bir yaltaqlanım da?

Xeyrulla bəy, ağır xəstələr olduqda, həmişə belə əsəbiləşər və kobudlaşardı.

O, mənim üzümə baxmamağa çalışıb dedi:

– Heç lazım olmasa da ehtiyat üçün bir-iki doktor yoldaşımı çağırmaq istəyirəm. Tez kağız-qələm tap!

Bu gün mənim heç bir işim yaxşı gətirmirdi. Səhərdən bəri məktəbdən dalımcan üç dəfə xidmətçi göndəriblər. Maarif nazirliyi şurasının iki üzvü ilə bir müfəttiş gəlib məndən bəzi şeylər soruşmaq istəyirlərmiş.

Üçüncü dəfə ardımca gələn xidmətçi qadını az qala söyə-söyə qovurdum ki, Xeyrulla bəy birdən-birə hiddətlənib mənə acıqlandı:

– Sən burada nə qələt edirsən? Haydı, öz işinə get. Yorğun-yorğun az işim varmış kimi, bir də səninlə məşğul olacağam. Haydı, tez çarşabını gey, marş!.. Sən burda durub məni də çaşdırırsan. Billah, çıxıb gedərəm.

Qoca doktor bu əmri elə sərt və qəti bir tövrlə vermişdi ki, buna itaət etməmək mümkün deyildi. Mən bir kəlmə də söyləməyə cəsarət etmədim. Çarşabımın altında ağlaya-ağlaya məktəbə getdim.

Maarif idarəsi məni dünyanın nemətlərinə qərq etsə də, mənim bugünkü fədakarlığımın əvəzini ödəyə bilməz. Müfəttişlər sinifləri gəzir, şagirdləri imtahana çəkir, dəftərləri görmək istəyirdilər. Min cür mənasız şeylər soruşurdular. Başım bu qədər dərdlərə qarışıq olduğu halda, nə cür düşünüb, nə cür cavab verdiyimi özüm də bilmirəm. Günortadan xeyli keçmişdisə də, onlar hələ getmirdilər.

Nəhayət, onlardan biri mənim pərişanlığımı duyub dedi:

– Müdirə xanım, xəstəsinizmi? Üzünüz çox solğun görünür.

Mən daha özümü saxlaya bilmədim; onlardan mərhəmət istəyən kimi, boynumu büküb əllərimi bir-birinə bitişdirərək dedim:

– Evdə uşağım ölür!

Ürəkləri yandı, mənə mənasız təsəlli sözləri söyləyib getməyimə icazə verdilər.



Evimlə məktəbin arası lap çox olsa beş dəqiqəlik bir məsafədir. Mən bu yolu yarım saata, bəlkə daha uzun bir müddətə gəldim. Səhərdən bəri evə gəlmək üçün o qədər çırpınıb-əsəbiləşdiyim halda, indi nədənsə ora getmək istəmirdim. Kimsəsiz küçələrdə divarlara söykənən yorğun yolçular kimi, çeşmələrin yanındakı daşların üstündə oturdum.

Mən evimə yaxınlaşanda, açıq pəncərələrdən yad kişi başları görünürdü. Mənə qapını onbaşı açdı. Mən bir şey soruşmağa cəsarət edə bilmirdim. Onun mənə bir şey söyləməməsi üçün gözlərimlə, bütün hərəkətimlə yalvarırdım. Amma o, mənə heç ummadığım bir şey söylədi:

– Yazıq uşaq bir az xəstədir... İnşallah, Allah şəfa verər...

Birdən-birə sanki evin tavanı sarsıldı, pilləkən başında doktor Xeyrulla bəy göründü. Onun köksü çılpaq, başaçıq, qolları çirmənmişdi.

– Gələn kimdir, onbaşı? – deyə doktor səsləndi.

Mən taqətsiz halda pilləkənin üstündə çöməlmişdim. Doktor həyətin qaranlığında məni görüb çaşqın-çaşqın dilləndi:

– Sənsənmi, Fəridə? Çox əla, qızım, çox əla...

Sonra doktor ağır-ağır yanıma endi. Elə bir haldaydım ki, hər şeyi bildiyim aydındı. O, mənim əllərimi tutub kəsik-kəsik dedi:

– Qızım, qeyrətli ol, dişlərini bir-birinə sıx. İnşallah sağalar. Ona serum vurmuşuq. Əlimizdən gələni edirik. Allah böyükdür. Ümidi kəsmək olmaz.

Mən dedim:

– Doktor bəy, icazə verin onu görüm.

– İndi yox, Fəridə, bir azdan sonra. İndi bir az huşsuzdur. Vallah heç bir şey yoxdur. Sənə and içirəm. Billah bihuşluqdur.

Mən sakit bir inadla, sızıldaya-sızıldaya dedim:

– Mütləq görəcəyəm, doktor bəy, məni onun yanına qoymamağa haqqınız yoxdur...

Sonra içimi çəkərək sakit bir tövrlə əlavə etdim:

– Mən sizin zənn etdiyinizdən çox qüvvətliyəm. Qorxmayın, yersiz bir hərəkət etmərəm.

Xeyrulla bəy bir az fikirləşdi. Sonra başını yırğalaya-yırğalaya razı oldu:

– Yaxşı, qızım. Amma bunu unutma ki, nahaq ahu-zar xəstəni qorxudar.

Məcburiyyət nə qədər acı olursa olsun, insan onu qəbul etdikdən sonra qəlbinə bir sakitlik və inam gəlir. Xeyrulla bəyin çiyninə başımı söykəyib otağa girəndə, nə könlümdə bir həyəcan, nə də gözümdə bir damla yaş vardı!..

İndi aradan yetmiş üç il qədər uzun sürən yetmiş üç gün keçdikdən sonra da, o otağı hələ də gözümün önündə görürəm.

İçəridə, köynəklərinin yaxasını açmış və qollarını çirməmiş iki gənc doktorla bir qoca qadın vardı. Ağac yarpaqlarının arasından süzülüb düşən günəş şüaları otağı parlaq bir həyatla doldurmuşdu. Bayırdan quşlar, cırcıramalar səs-səsə vermişdi, uzaqlardan bir qrammofon səsi gəlirdi. Otağın içi qarmaqarışıqlıqdı; stulların üstündə, rəflərdə şüşələr, pambıqlar... Yerdə, divarlarda Munisənin min cür şeyləri gözə dəyirdi. Aynanın kənarında Munisənin öz əli ilə doktorun bağçasındakı çiçəklərdən dərib düzəltdiyi bir gül dəstəsi, kamodun üstündə Munisənin dəniz sahilindən yığıb gətirdiyi bir ovuc rəng-bərəng daş, sədəf qabıqları, bir stulun altında onun tuflilərinin bir tayı, divarda "B"-dəki evimizin içində onun sulu boya ilə çəkdiyim rəsmi vardı (bu, Munisənin başında çöl çiçəklərindən bir çələng, qucağında Məzlum ilə çəkdiyim həmin şəkil idi). Bunlardan başqa min cür muncuqlar, qumaş parçaları, şüşə sırğalar, duvaqlı gəlin şəkilləri çəkilmiş poçta vərəqələri, sözün qısası, bir qız uşağının ürəyinin bütün bu məsum və biçarə sevgisinə and şeyləri səpələnmişdi...

İki həftə bundan əvvəl: "Munisə daha çarşablı bir gənc qız olur", – deyə mən onun üçün sarı naxışlı bir çarpayı almışdım. Ona bir bəbək yatağı hazırlayan kimi, min cür bəzək-düzək vurmuşdum.

İndi balacığım bu ipəklərin içində, özü də bir yığın ipək kimi, rəngi ağappaq ağarmış bir halda yatırdı. Başı bir az yana əyilmişdi. Çarpayısının dəmirindən neft rəngindəki çarşabının hələ tikilib qurtarmamış pelerini sallanmışdı. Başının üstündəki rəfdə onun üçün "B"-də aldığım bəbək iri mavi gözləri ilə balacığıma baxırdı. Yazıq qızımın öpüşlərindən bəbəyin üzü solmuşdu. İndi xəstəliyin ağrıları, əzabları kəsilmişdi. Qız yorğun bir yuxu içində idi, ağzının ətrafında həyatın son əlamətləri titrəşir, dodaqları gülümsəyən kimi azacıq aralanmış, incə dişləri görünürdü. Bu gözəl cizgilər qaranlıq bir kənd



məktəbində ruhumun içinə qonub həmin dəqiqədən bu günə qədər məni xoşbəxt etmişdi.

Bayırda quşlar hələ də şənlik edir, qrammofon hələ də çalınırdı. Günəşin ağac yarpaqlarını darayan işıqları bu rəngsiz uşaq üzünə, kəpənək qanadlarından adamın barmağında qalan zərli toza bənzər bir rəng verir, yazıq qızın alnına tökülmüş sarı qıvrım telləri ilə oynayırdı.

Mən nə bir fəryad qopardım, nə də qızımın üstünə atıldım. Qollarımı qoca doktorun boynuna salıb başımı onun çiyninə qoydum, bu qəmgin gözəlliyi az qala acı bir səadətlə seyr edirdim.

Ölüm, mənim balama bir ay işığı kimi mehribanlıqla yaxınlaşır, onu qorxudub hürkütmədən bir ana dodağı kimi alnından, dodaqlarından öpürdü.

Doktorlar balamın yatağına yaxınlaşdılar. Onlardan birinin ipək örtüklər içindən qızcığazımın çılpaq qolunu çıxardığını, ona bir iynə yaxınlaşdırdığını gördüm.

Xeyrulla bəy azacıq döndü, öz bədəni ilə mənim qabağımı kəsdi. Kimsə səsləndi:

– Odekolon, bir azca odekolon!..

Qoca doktor başı ilə rəflərdən birini göstərdi. Quşlar hələ də ötüşməkdə, qrammofon getdikcə artan bir şənliklə çalınmaqda idi.

Birdən-birə otağın içinə kəskin bir gül ətri yayıldı. Onlar odekolon tapa bilməyib, gül ətrini işlətmişdilər. Gül ətri... Bu şüşə, mənim qızcığazımın əlindən, demək olar ki, zorla çəkib aldığım həmin şüşə idi... Deməli, mən o qədər insafsızlıq etmişdim ki, onun mənə verdiyi bütün səadətlərin müqabilində ondan, çox sevdiyi bu dəyərsiz ətri də əsirgəmişdim!..

Mən iniltili, yavaş səslə dedim:

– Şüşəni onun yatağına boşaldın, doktor bəy. Qızcığazım bu ətri qoxulaya-qoxulaya, daha məsud ölər!..

Xeyrulla bəy mənim saçlarımı oxşaya-oxşaya deyirdi:

– Haydı Fəridə, haydı balacan, gəl daha bayıra çıxaq...

Mən Munisəni son dəfə öpmək istəyirdim. Amma cəsarət edə bilmədim, yalnız çılpaq qolunu tutdum. Qızım hərdən mənim əllərimi tutub çevirər, ovuclarımdan öpərdi. Mən də onun kimi etdim. Bu yazıq

büzüşmüş ovucların içini qısa-qısa busələrlə öpdüm, abasına etdiyi bütün yaxşılıqlar üçün, ona bu cür təşəkkür etdim.

Bu dəqiqədən sonra Munisəni bir də görmədim. Məni öz yatağıma salıb getdilər.

Mən bir yandan titrəyir, bir yandan da tər tökürdüm. Evin içinə yayılmış gül ətri qoxusu bir dalğa kimi məni altına alıb köksümü tıxayırdı. Mənə elə gəldi ki, bu qoxu, bu günəşin aydınlığı və quşların səsi illərcə davam etdi. Sonra yavaş-yavaş hava qaraldı. Gözlərimin önündə Munisənin qar fırtınasında itdiyi o qaranlıq gecənin xəyalı titrəyirdi. Yazıq qızımın qapını döydüyünü, fırtınanın içində incə səslə inlədiyini duyurdum.

Bilmirəm gecə saat neçə idi. Gözlərimi güclü bir işıq qamaşdırdı. Saçlarıma, alnıma bir əl toxunduğunu hiss etdim. Gözlərimi açdım. Qoca doktor, əlində bir şamdanla mənə doğru əyilmişdi; sönük mavi gözlərində, ağ kirpiklərində yaşlar titrəşirdi. Mən yuxuda imişəm kimi soruşdum:

– Saat neçədir? O getdi, eləmi?

Mən bu sözləri söylədiyimi xatırlayıram. Sonra yenə yavaş-yavaş Zeynilər kəndində gecənin qaranlığına gömüldüm.

Mən gözlərimi bir də açanda, olduğum yeri tanımadım. Otaq da, pəncərələr də başqa idi. Mən dirsəklərimə dayanıb qalxmağa çalışdım. Başım elə bil mənim deyildi. O, təkrar yastığın üstünə düşdü. Mən çaşqın-çaşqın ətrafıma göz gəzdirdim. Yenə doktorun mavi gözlərini gördüm...

– Fəridə, məni tanıdınmı?

– Niyə tanımıram, doktor bəy?

– Çox şükür, çox şükür. Yaxşı keçdi-getdi.

– Doktor, məgər bir şey olmuşdu?

– Sən yaşda bir uşaq üçün qorxulu bir şey deyildi. Bir az yatmışdın, qızım. Bir az yatmışdın. Əhəmiyyət verilməli bir şey deyil.

– Nə qədər yatmışam?

– Bir xeyli var, amma ziyanı yoxdur... On yeddi gün...

On yeddi gün yatmaq!.. Nə qəribədir... İşıq məni narahat etdiyi üçün, yenə gözlərimi yumdum. Mən on yeddi günlük yuxuya qəhqəhələr çəkib güldüm. Amma səsim başqasının köksündən, başqasının dodaqlarından çıxırmış kimi qəribə gəlirdi. Sonra yenə yatdım...



Böyük bir beyin sarsıntısı keçirmişdim. Doktor Xeyrulla bəy məni öz evinə köçürüb on yeddi gün yatağımın başından ayrılmayıbmış. Bu xəstəlik mənim həyatımda ilk böyük xəstəliyim idi. Sağalma müddəti qırx gündən artıq sürdü. Mən günlərcə yerimdən qalxa bilmədim. Xəstəlikdən sonra saçlarım çəngə-çəngə tökülməyə başladı. Bir gün qayçı istədim və hörüklərimi kəsdim.

Sağalmaq nə yaxşı şeydir. Elə bil adam yenidən dünyaya gəlir. Adam ən əhəmiyyətsiz şeylərə elə bir sevinc və səadətlə baxır ki, guya xırdaca bir uşaq, rəngli oyuncaqlar görür. Qanadlarını şüşəyə çırpan bir kəpənək, aynanın kənarında rəngli əkslər əmələ gətirən gün şüası, uzaq bir sürünün zınqırovlarının incə səsləri mənim qəlbimi ləzzətlə çırpındırırdı.

Xəstəlik son üç ilin bütün zəhərlərini alıb aparmışdı. Öz xatirələrim də mənə özgəsinə aid şeylər kimi görünürdü. Bu xatirələr məndə daha nə nifrət, nə həyəcan oyandırırdı. Hərdənbir öz-özümdən heyrətlə soruşurdum:

– Bəlkə bunlar uzaq bir röyanın xatirələridir? Bəlkə bunları mən köhnə bir romanda oxumuşam?.. Bəli, mən bütün o hadisələri ya röyada, ya da çərçivələrini toz basmış, çöhrələri, rəngləri solmuş köhnə şəkillərdə görən kimiyəm.

Doktor Xeyrulla bəy bu sağalma müddətində mənə yoldaşlıq etdi. Məni bir gün də tək qoymadı. Gah mənə hekayələr söyləyir, gah romanlar oxuyub əyləndirməyə, güldürməyə çalışırdı. O biçarə də çox yoruldu.

O mənə deyir:

– Hələ bir ağıllı-başlı ayağa qalx... Vallah xəstə də olmasam, kef üçün özümə bir batis əntari tikdirib, üç ay yataqda yatacağam. Sənə min cür naz edəcəyəm.

Hərdən mənim yuxuya bənzər bihuşluqlarım olur. İncəlmiş göz qapaqlarımın arasından çəhrayı gün işıqları sızır, mən bir müddət bu halda qalıram.

Onda Xeyrulla bəy yatağımın baş tərəfində olan kresloda oturub, ya kitab oxuyur, ya da mürgüləyirdi. Mən bu bihuşluq saatlarında ruhumun sanki vücudumdan ayrıldığını, işıq kimi, səs kimi boşluqlarda gəzişdiyini hiss edirəm.

Bilmirəm haralara, hansı yerlərə gedirdim. Yalnız birdən-birə bir uçuruma yıxılan kimi ürəyim uçunub oyandıqda, elə hiss edirəm ki,

uzaq, çox uzaq yerlərdən qayıdıram. Qulaqlarımda işıq süreti ilə keçdiyim məsafələrin küləkləri xışıldayır, gözlərimdə guya havanın ən yüksək təbəqələrində gördüyüm yerlərin tutqun, sönük xatirələri titrəşirdi.

Dünən Xeyrulla bəyə dedim:

– Əziz doktorum, mən daha lap yaxşılaşmışam. İndi onu ziyarət etməyə gedə bilərik.

Doktor əvvəlcə razı olmadı. Heç olmasa on beş gün, bir həftə səbir etmək lazım olduğunu söylədi.

Amma xəstələrin inadına, şıltağına dözmək mümkün olmur. Axır qoca yoldaşımı razı etdim. Bağçadan iki qucaq çiçək, dəniz qırağından bir çox rəngbərəng daş yığdıq. Qızım bu daşları çiçəklərdən çox sevirdi.

Munisə Aralıq dənizinə baxan bir təpəciyin üstündə, özü kimi incə bir sərv ağacının altında yatırdı. Saatlarla onun yanında oturduq. Mən xəstələnəndən bəri ilk dəfə doktorla onun barəsində danışırdıq. Qızcığazımın necə öldüyünü, necə dəfn edildiyini bilmək istəyirdim. Nə qədər təkid etdimsə də, Xeyrulla bəy mənə təfsilat vermədi. Yalnız bir şeyi öyrənə bildim: Munisə dəfn edildikdən sonra, imam onun anasının adını soruşubmuş. Təbii ki, bunu heç kəs bilmirdi. Doktor mənim bu kiçik qız üçün, demək olar ki, bir ana olduğumu xatırlayıb, mənim adımı deyibmiş. Qızımı bu adla torpağa tapşırıblar: "Munisə Fəridə qızı".

*Quşadası, 1 sentyabr.*

Doktor Xeyrulla bəy bu gün səhər mənə dedi:

– Qızım, məni yenə bir kəndə çağırıblar. Düldülü sənə ümid edirəm. Gözlə ha, onun yarasına baxmağı o ayı onbaşıya tapşırmayasan. Bilmirəm, xain kişi Düldülün ayağını da öz ayağı kimi kəsdirməyə and içmişdir, nədir? İkinci tapşırığım budur ki, çörəkçi Xurşud ağa bu gün təndirin kirayə pulunu gətirəcək. Deyəsən iyirmi səkkiz liradir, nədir? Mənim tərəfimdən o pulu alarsan. Üçüncüsü də, nəydi o, nə deyəcəkdim? Məndə kəllə qalmadı ki!.. Hə, yadıma düşdü, mənim kitabxanamı aşağı köçürdərsən. Dənizə baxan otağı sənə verəcəyəm. Ora daha da gözəldir, həm də ki, qışda oranı lodos küləyi tutmur, üşüməzsən...



Çoxdan bəri doktora söyləmək istədiyim sözün daha vaxtı gəlmişdi, mən dedim:

– Doktor bəy, Düldül üçün narahat olmayın. Kirayəni də alaram. Amma o birinə ehtiyac varmı? Mənim burada qonaq qalmağım daha kifayət qədər uzandı. İcazə versəniz, mən gedərəm.

Doktor əllərini dizlərinə dayadı, məni yamsılamaq üçün səsini incəldib hiddətlə dedi:

– Qonaq qalmağım daha kifayət qədər uzandı. İcazə versəniz, mən gedərəm...

Sonra daha sərt bir tövrlə yumruğunu silkələyə-silkələyə dedi:

– Nə dedin? Gedəcəksən? Yediyi nanəyə bir bax!.. Ağzını qulaqlarına qədər cıraram, bax, onda qiyamətəcən gülərsən!..

Mən dedim:

– Doktor bəy, axı bu qonaq qalmaq yaman çox uzanır.

Yenə əlini belinə dayayıb dedi:

– Çox yaxşı, xanım qız həzrətləri, getmək istəyirsiniz? Əla, amma "qvo vadis?"[1]

Mən gülümsünüb cavab verdim:

– Doktor bəy, hara gedəcəyimi elə mən öz-özümdən soruşuram. Amma bu var ki, getmək lazımdır. Sizin yanınızda həmişəlik qala bilmərəm ki... Bu təbiidir... Ən pis vaxtımda mənə yardım etdiniz. Bunu heç vaxt unuda bilməyəcəyəm, ancaq...

Xeyrulla bəy mənim buxağımdan tutub dedi:

– Ay qız, bu çərənçiliyə lüzum yoxdur. Biz səninlə "iki dost çavuş" olmuşuq. Haydı, bu yersiz söhbəti burax.

Mən hələ də təkid edirdim:

– Doktor bəy, burada qalmaq mənim üçün xoşdur. İnanın ki, sizin yanınızda mən özümü xoşbəxt hiss edirəm, ancaq nə vaxtacan sizə yük olacağam, hərçənd çox mərhəmətli və fədakarsınız...

Doktor mənim qısa saçlarımı bir-bir qarışdırıb əylənməyə davam etdi. O, yenə mənim danışmağımı yamsılamaq üçün, yanağını çuxurlaşdırıb, dodaqlarını uzadıb, səsini incəldə-incəldə dedi:

– Mərhəmət, fədakarlıq... Ay dəli qız, biz faciə oynayırıq, nədir? Səni heç başa sala bilmədim də!.. Ay balam, mərhəmət, fədakarlıq

[1] Qvo vadis – hara gedirsən? (*lat.*)

mənim vecimə gələn şey deyil. Mən öz kefim üçün yaşamışam, mən sənə öz kefim üçün də xidmət etmişəm. Əgər səndən xoşlanmasaydım, heç üzünə də baxmazdım. Əgər bir gün eşitsən ki, mən minarədən özümü təpəsi üstə aşağı atmışam, yenə də fədakarlıq etdiyimə inanma. Deyinən ki: "Görəsən bu xudpəsənd qoca bunda necə bir ləzzət görmüşdür..." Molyerin bir qəhrəmanı var, o mənim çox xoşuma gəlir. Onu şallaqlayanda, o yandan-bu yandan adamlar tökülüşüb onu qurtarmaq istəyirlər. Amma o, hamını qovub deyir: "Haydı, əfəndilər, işinizə-gücünüzə gedin. Allah-Allah! Bəlkə mən bu şallaqlardan xoşlanıram!" Haydı, balacan, bu çərəni-pərəni burax, əgər mən gələndə, otaqlar hazır olmasa, vay sənin halına! Vallah, o gənc keşikçi var ha, onu çağırdaram, səni zorla ərə verərəm. Cəzanı görürsən də...

Hərdən olduğu kimi, Xeyrulla bəyin yenə yersiz şit zarafatçılığı tutmuşdu. Bilirdim ki, məni utandıracaqdır. O saat yanından qaçdım.

Xeyrulla bəy mənim üçün həm bir ata, həm də yaxşı bir yoldaş oldu. Onun evində özümü yad bilmirəm. Mənim kimi qəlbi sınmış, həyatı pozulmuş bir qızın məsud olması nə qədər mümkünsə, mən də o qədər məsud oluram. Özüm üçün min cür iş icad edirəm. Qoca süd anaya kömək edir, evi səliqəyə salıram. Bağçaya, yeməklərə, hətta doktorun hesablarına da baxıram. Min cür belə-belə işlər tapıram.

Mən burdan getdikdən sonra nə edəcəyəm? Demək olar ki, əliləm. Səhhətim yavaş-yavaş düzəlir, amma nə fayda. Mənə elə gəlir ki, içimdə nə isə həmişəlik qaralmışdır. Mən əvvəlki səhhətimi, mənə hər şeyi xoş göstərən əvvəlki nəşəmi daha tapa bilməyəcəyəm. Güləndə – ağlayıram, ağlayanda – gülürəm. Bir dəqiqəm o biri dəqiqəmə oxşamır. Məsələn, keçən gün axşam çox şəndim. Yatağımda gözlərimi yumanda, demək olar ki, özümü xoşbəxt hiss edirdim. Səhərə yaxın, otağın qaranlığı içində, heç bir səbəb olmadan, ağlaya-ağlaya oyandım. Mənə nə olmuşdur? Nə üçün ağlayırdım? Bunu özüm də bilmirdim. Elə bilirdim ki, gecə bu yekə dünyanın bütün evlərini bir-bir gəzib, nə qədər qəm-qüssə, kədər, ümidsizlik varsa, hamısını yığıb, gətirib öz köksümə doldurmuşdum. Mən bu səbəbsiz, adsız, dilsiz qəmginliyin içində: "Ana, ana!" – deyə titrəyə-titrəyə hıçqırırdım. Daha bərkdən fəryad etmək üçün, barmaqlarımla ağzımı yumurdum. Birdən-birə yanımdakı otaqdan Xeyrulla bəyin səsi gəldi:

– Fəridə, sənsənmi? Nə olub, qızım?



Qoca doktor, əlində bir şamla, qaçaraq otağıma gəldi, mənə nə olduğunu, nə üçün ağladığımı da soruşmağı lazım bilməyib, əhəmiyyətsiz, bəlkə də mənasız şəfqətli sözlərlə məni sakitləşdirdi.

– Bir şey deyil, qızım, heç bir şey deyil. Əhəmiyyətsiz bir sinir gərginliyidir, keçib gedər, balacan. Vay, balacığım, vay...

Mənim gözlərimin yaşı heç cür durmurdu. Ağzım boğulan bir quş balasının ağzı kimi açıq qalmışdı. Mən hıçqırıqlar içində titrəyirdim. Bunu görən qoca yoldaşım pəncərəyə sarı döndü, qaranlıqda yumruqları ilə ta uzaqları hədələyə-hədələyə dedi:

– Allah sənin bəlanı versin, aslan kimi qızı gör nə günə qoydun!

Mən heç bilmirəm ki, doktordan ayrılıb tək qaldıqdan sonra da, mənim belə xəstəlik və ümidsizlik saatlarım olanda, nə edəcəyəm. Bəsdir canım... İndidən bu barədə düşünmək nəyə lazımdır. Hər halda doktor ən azı hələ bir ay, bəlkə daha çox məni burdan buraxmayacaq...

*Alacaqaya mülkü, 10 sentyabr.*

Bir həftədir ki, Alacaqaya mülkündəyəm. Xeyrulla bəy on gün bundan əvvəl mənə demişdi ki:

– Fəridə, mənim Alacaqayada üzdəniraq bir mülküm var. Xeyli vaxtdır ki, gedib yoxlamamışam. İşçiləri özbaşına qoymaq olmaz. Səni on-on beş günlüyə ora aparacağam. Sənin üçün də yaxşı olar, havan dəyişər. Gözün, könlün açılar. Məktəbin də açılmağına az qalmışdır. Sonra bütün ili heç bir yana çıxa bilməyəcəksən.

– Doktor bəy, mən açıqlıq yerləri çox sevirəm, – deyə mən cavab verdim, – amma məktəbin də açılmağına az qalmışdır. Heç bilmirəm necə olar?

O, hiddətlə çiyinlərini çəkib dedi:

– Ay atam, mən səndən soruşmuram ki, gedirsən, ya yox? Mənə niyə mülahizə söyləyirsən? Sənə dedim ki, aparacağam. Sənin nəyinə gərəkdir? Bu, doktorluğa aid bir işdir. Yoxsa, raport yazıb güclə apararam. Haydı, haydı! Özünə bir neçə alt paltarı, kitabxanadan da mənim Russolarımı götür, gedək.

Xeyrulla bəy mənə daha məktəbli uşaq kimi baxır. Mən xəstələndikdən sonra iradəm də zəiflədiyi üçün heç onun əksinə gedə bilmirəm. Həm də qəribə burasıdır ki, bundan şikayət də etmirəm. Bu itaət mənə az qala xoş gəlir.

Doktorun mülkü baxımsız qalmışdır. Amma çox gözəl yerdir! Buralara, hətta qışda da bahara bənzəyirmiş. Hələ bir qayalığı var ki, adam baxdıqca doya bilmir. Bu qayalar günəşin səhər, günorta, ya axşam vaxtı düşməsinə, havanın açıq, ya tutqun olmasına görə rəngdən-rəngə girir, gah ləl kimi qırmızı, gah çəhrayı, gah tünd-göy, gah da ağ və ya qara görünürdü. Elə buna görə də bu yerə "Alaca qayalar" adı qoymuşlar.

Bu mülk məni gözlədiyimdən artıq məşğul etdi. Burada işləyən sağıcılarla bərabər süd sağıram. Daha mənim də səmimi dostum olmağa başlayan Düldülə minib ətrafdakı qoruqlarda gəzirəm. Müxtəsər ki, çoxdan arzuladığım bir çöl həyatı keçirirəm.

Bununla belə, könlüm çox rahat deyil. Bir neçə gündən sonra məktəb açılacaqdır. Mən işimə qayıtmalıyam. Binanı silib-süpürmək lazımdır. Amma Xeyrulla bəyi başa salmaq mümkün deyil ki...

Doktor gecələr mənə roman oxutdurur. Özü deyir ki:

– Bu mənasız laqqırtılara dözmək mümkün deyil, amma sən oxuyanda, bu bayağı şeylər də adama xoş gəlir.

Dünən gecə yenə ona kitab oxuyurdum. Kitabda bəzi açıq-saçıq sözlər vardı. O sözlər gələndə, mən utanırdım. Yerlərinə sürətlə başqa sözlər qoymağa, ya da cümlələri öz sözlərimlə söyləməyə çalışırdım. Xeyrulla bəy mənim təşvişə düşdüyümü duyub qəhqəhə çəkir, elə bərkdən gülürdü ki, az qala, tavan sarsılırdı.

Birdən-birə qaranlıqda köpəklər hürüşməyə başladı. Biz pəncərəni açdıq. Qapıdan həyətə bir atlı girdi. Xeyrulla bəy səsləndi:

– Kimdir o?

Onbaşının səsi gəldi:

– Mənəm, yad deyil...

Onbaşının bu vaxt Quşadasından bura gəlməsi mühüm bir hadisə idi. Doktor mənə dedi:

– İnşallah ki, xeyirdir! Mən aşağı düşüm, görüm necə işdir. Əgər mən geciksəm, sən yat, sən yat, balacığım.

Xeyrulla bəy onbaşının yanında bir saata qədər qaldı. O qayıdıb yuxarı çıxanda, üzü qıpqırmızı idi, qaşları çatılmışdı.

Mən soruşdum:

– Onbaşı nə üçün gəlmişdi, doktor bəy?

Doktor sərt bir səslə, az qala çığıra-çığıra cavab verdi:

– Ay balam, sənə demədim ki, get yat. Sənə nə? Bu qız uşaqlarının da hoqqabazlıqları başa gələn şey deyil ha! Bu mənə aid bir işdir.



Mən daha doktorun təbiətini öyrənmişdim. Bu vaxtlarda işi ağartmaq olmazdı. Mən çarəsiz qalıb, şamdanı götürdüm və otağıma getdim.

Bu gün səhər yuxudan oyandığım vaxt, mənə dedilər ki, Xeyrulla bəy mühüm bir iş üçün tezdən çıxıb getmişdir. Özü də tapşırmışdır ki, qayıdıb gəlməsə, mən nigaran qalmayım.

Hər halda görünür ki, doktora ağır gələn bir hadisə baş vermişdi.

Günortaüstü mən doktorun otağını səliqəyə salırdım. Yatağın yanına düşmüş cırıq, rəsmi zərf parçası diqqətimi cəlb etdi. Yerdən götürdüm. Zərfin üstündə yalnız bu sözlər oxunurdu. "Quşadası məktəbi müd..." Hər halda bu zərf mənə aid olmalı idi... Bu kağız parçası məni dərin-dərin düşündürdü. Görəsən bunu dünən gecə onbaşımı gətirmişdi? Əgər elə isə, onda Xeyrulla bəy bunu məndən nə üçün gizlətmişdi? Həm də mənə aid rəsmi bir məktubu necə aça bilər? Buna imkan yoxdu. Ağlıma başqa bir şey gəldi: yəqin ki, bu zərf mənim kitablarımın arasında Quşadasından gəlib çıxmışdır.

*Quşadası, 25 sentyabr.*

Həyata cındır əsgi adı verənlər nə qədər haqlı imişlər!

Son hadisəni, dəftərimin son səhifəsinə olduğu kimi qeyd edirəm. Özümdən nə bir etiraz, nə də bir damcı göz yaşı əlavə etmək istəmirəm.

Xeyrulla bəy məni iki gün onun mülkündə gözləməyə məcbur etdi. Üçüncü gecə nigarançılığım o dərəcəyə çatdı ki, necə olursa olsun, sabah səhər özüm bir araba qoşdurub özbaşına qəsəbəyə gedəcəkdim. Amma səhər oyananda gördüm ki, doktor gəlmişdir.

O qeydsiz-qayğısız Xeyrulla bəyi mən heç vaxt bu qədər pərişan və yorğun görməmişdim. Həmişəki kimi dodaqlarını saçlarıma toxundurdu, sonra diqqətlə üzümə baxıb dedi:

– Allah onların bəlalarını versin!..

Mən başımın üstünü yeni bir təhlükə aldığını anlayırdım, amma bir şey soruşmağa cəsarət etmirdim.

Xeyrulla bəy əlləri ciblərində, fikirli-fikirli bir xeyli var-gəl etdi. Sonra əllərini mənim çiyinlərimə qoyub dedi:

– Balacan, deyəsən, sən nə isə bilirsən?

– Xeyr, doktor bəy.

– Bilirsən, yoxsa bu işlərdəki qəribəlik sənin diqqətini cəlb edərdi. Mütləq məndən bir şey soruşardın.

Mən çox ağır və ciddi bir təbəssümlə dedim:

– Xeyr, doktor bəy, heç bir şey bilmirəm. Amma sizin təşviş və iztirab içində olduğunuzu görürəm. Nə isə bir dərdiniz var. Mənim həm hamim, həm də demək olar ki, atam olduğunuz üçün sizin dərdiniz, mənim də dərdimdir. Deyin görək, sizə nə olmuşdur?

– Fəridə, qızım, özünü kifayət qədər qüvvətli hiss edirsənmi?

Mənim marağım qorxumdan çox-çox üstün idi. Sakit görünməyə çalışaraq dedim:

– Mən dözümlü bir qızam. Bir neçə dəfə bunu özünüz görübsünüz. Doktor bəy, söyləyin.

– Fəridə, o qələmi əlinə al, mənim dediklərimi yaz. Haydı, qızım, bu qoca dostuna inan!

Xeyrulla bəy ara verə-verə, fikirləşə-fikirləşə mənə bu sətirləri yazdırdı:

"Quşadası maarif şurası ali rəyasət heyətinə.

Səhhətim maarif sahəsində xidmətə imkan vermədiyinə görə Quşadası qadın rüşdiyyə məktəbi müdirliyindən istefamı qəbul etmənizi xahiş edirəm, əfəndim".

– Qızım, indi heç fikirləşmədən, heç bir şey soruşmadan qolunu çək. O kağızı mənə ver. Fəridə, əllərin titrəyir. Üzümə baxmağa cəsarət edə bilmirsən. Daha yaxşı, qızım, daha yaxşı. Çünki qızım, sən o təmiz gözlərinlə mənə baxsan, mən çaşaram. Yəqin başa düşdün ki, çox fövqəladə bir iş baş vermişdir, eləmi? Mənə qulaq as, Fəridə. Əgər həyəcanlansan, kədərlənsən, onda sözümü kəsməyə məcbur olacağam. Halbuki, sən hər şeyi bilməlisən. Fəridə, yəqin elə güman edirsən ki, həyata qədəm qoyduğun bu üç il içində sən insanların necə bir mal olduğunu başa düşübsən, deyilmi? Amma yox. Bu altmış ilə yaxın həyatımda mən də bunu başa düşə bilməmişəm. Mən ki, bu dünyada murdarlığın, rəzalətin min cür nümunələrinə rast gəlmişəm, amma bu rəzaləti heç cür qoca kəlləmin içinə sığışdıra bilmirəm. Biz səninlə dünyanın ən təmiz, ən yaxşı iki dostuyuq, deyilmi? Sənin xəstə vücudunu mən aylarla öz uşağım kimi qucağımda saxladım. Heç bilirsənmi bizim barəmizdə nə deyirlər, nə deyirlər, Fəridə? Bunu sən təsəvvür edə bilməzsən! Guya mən sənin aşiqinmişəm!.. Əllərinlə üzünü örtmə, əksinə, başını dik tut! Əllərini üzlərinə üzüqara adamlar tutarlar! Əksinə, sən mənim gözlərimin içinə bax! Bizim bir-birimizdən çəkinməli nəyimiz var? Dinlə məni, Fəridə, dinlə, qoy söyləyim qurtarım. Bu məlun iftira əvvəlcə məktəbdən çıxmışdır. Sənin müəllimə yoldaşların orda-burda bizim əleyhimizə inanılmaz şeylər söyləməyə başlayıblar. Bunun səbəbi məlumdur: onlar dura-dura, sənin müdirə olmağın onlara çox yer eləmişdir. Mən altı ay bundan əvvəl xəbər vermədən, sənə kiçik bir xidmət etmək istəmişdim. Bunun üçün İzmirdə dəftərdar olan bir dostuma məktub yazmışdım. Sənin irəli çəkilməyin mənim əlimlə olduğundan, bu onların şübhələrini daha da artırmışdır. Bu fəsad yanğını aylardan bəri gizlin-gizlin yanırmış. Axırda söhbət gedib maarif şurasının və qaymaqamın[1] da qulağına çatmışdır. Uzun-uzadı yazışmalar, yoxlamalar getmişdir. Vilayət maarif müdirliyi tərəfindən sənin tərcümeyi-halın yoxlanmışdır. Guya orada bir çox qaranlıq nöqtələr varmış. Məsələn, İstanbuldan "B"-yə gəlişin, sonra mərkəz məktəbindən istefa verib əldən-ayaqdan uzaq bir kəndə gedişin, guya şübhəli qaçışa bənzəyirmiş. Bir neçə aydan sonra, guya məchul bir yerdən yardım olmuşdur. Sən maarif həyatında misli görünməmiş bir sürətlə, kənd müəllimliyindən darülmüəllimliyinə qədər yüksəlibmişsən. Sonra, yenə səbəbsiz istefa veribmişsən. Bu dəfə də başqa bir vilayətə gedib, amma orada da qərar tuta bilməyibmişsən. "Ç" maarif şurasından bir cavab gəlibmiş. Fəridə, mən onu oxuyanda, elə bil ürəyim zəhərləndi: guya sən orada... Yox, yox, bunu deyə bilməyəcəyəm... Tərbiyəli, yüksək elm-ürfan adamlarının qələmindən, ağzından çıxan o sözləri mənim bu pozğun əsgər ağzım da söyləməyə cəsarət edə bilməyəcəkdir. Bilirsən ki, mən ağzıma nə gəlsə söylərəm, ən iyrənc kəlməni də saxlaya bilmərəm. Bununla belə, onların yazdıqlarını söyləməyə dilim gəlməz. Fərideciyim, sözün qısası, ov köpəkləri yaralı bir ceyranın dövrəsini nə cür bürüyərsə, sənin də dövrəni elə bürüyüblər. Sənin ən məsum hərəkətlərin, sənin özünün əleyhinə bir dəlil kimi izah edilmişdir. Bunları protokollara, yoxlama vərəqələrinə keçirmişlər. Sənin hərdənbir xəstə şagirdlərini müalicə etmək üçün məni məktəbə çağırmağın, qızcığazımız öləndə, taqətsiz başını bir anlıq mənim çiynimə dayamağın, sonra xəstə yatanda, mənim sənin yanında keçirdiyim saatlar, hamısı guya cinayətmiş! Guya biz həyasızlığı o dərəcəyə çatdırmışıq ki, bir ölkənin adət və ənənəsini, irs və namusunu lağa qoymuşuq. Guya ətrafımızdakıları

[1] Qaymaqam – qəza rəisi

adam saymamışıq. Guya mən səni hamıya xəstə kimi qələmə verdiyim halda, tarlalarda bir-birimizlə qol-boyun vələ minmişik. Guya sən öz vəzifənlə məşğul olmaq əvəzinə, mənim bağçamda at çapıbmışsan. Bunlar da kifayət deyilmiş kimi, şəhərdən kənarda əldən-ayaqdan uzaq bir mülkə çəkilmişik... Fəridə, əzizim, mən bunları sənə olduğu kimi bütün çılpaqlığı ilə söyləyirəm. Mən təsəllilərlə səni bir müddət ovundura bilərdim. Sənin ümidlərini yavaş-yavaş, bir-bir qıra bilərdim. Amma belə etmədim. Bilirsənmi nə üçün? Sənətim və yaşım məni bu qənaətə gətirmişdir ki, zəhəri insan birdəfəyə udmalıdır: ya ölər, ya xilas olar... Zəhəri şərbətlə, daha nə bilim nə zir-zibillə qarışdırıb qurtum-qurtum içmək pis şeydir, iyrənc şeydir. Fəlakəti ağır-ağır xəbər vermək adamı mişar ilə kəsməyə bənzər. Bəli, Fəridə, sən həyatın ən ağır silləsini yedin. Əgər tək olsaydın, bu dərd səni o saat öldürə bilərdi. Əlbəttə, bu qədər adam quş boyda bir qızın üstünə düşərsə, necə olar? Sən dua et ki, təsadüf sənin qarşına mənim kimi zibilliyə atılmış bir qocanı çıxarmışdır. Mənim ömrümün günəşi qüruba enməkdədir. Amma nə ziyanı var? Sənə xidmət edə bilmək üçün elə bu qədər vaxt da kifayətdir. Əgər buna müvəffəq ola bilsəm, bir yığın mənasız hadisələr içində hədər olmuş günlərimə daha heyifsilənmərəm. Qorxma, Fəridə, bu da keçər! Sən gəncsən, gözəl günlər görməkdən ümidini kəsmə! Sənin istefanı mən özüm aparacaqdım, amma bu fikrimdən daşındım. Səni bu halda tək qoymağa cəsarət edə bilməzdim. Uşaq tayfasının cürbəcür nadanlığı, yanlışlığı ola bilər. Haydı, Fəridə, haydı, gəl səninlə bir az açıq havaya çıxaq, qoyunlarla, inəklərlə məşğul olaq. İnan ki, bu heyvanlar gördükləri yaxşılığın qədrini insanlardan daha yaxşı bilirlər.

Qoca doktor mənim istefa ərizəmi zərfə qoyub onbaşıya verdi.

Mən bu kağız parçası ilə eləcə ömrümün bir hissəsini yox, könlümün son təsəllisini də dəfn etmiş oldum. Bu nə kədərdir, ya rəbbi, nə kədərdir! Hansı ümidə əl atıram – boşa çıxır, nəyi sevirəm – ölür. Budur, üç il bundan əvvəl bir payız axşamı gənc qızlıq röyalarım, öz xəyalımda gözlədiyim körpələrim, sonra da Munisə öldü. Bunlardan sonra, bəlkə qəlbimin kimsəsizliyini ovudacaqlarını ümid etdiyim şagirdlərim əlimdən çıxdı. Öz balalarını təhlükədə görən bir ana quş kimi fədakarlıq edərək üstlərində əsdiyim bütün bu şeylər payız yarpaqları kimi, bir-bir saralır, tökülür, ölür. Hələ iyirmi üç yaşına girməmişəm. Üzümdən, bədənimdən uşaqlığın izləri silinməmişdir. Halbuki könlüm başdan-başa sevdiklərimin ölüləri ilə doludur.



Xeyrulla bəy məni üç gün tək qoymadı. O, mənim bu qədər fəlakət qarşısında göstərdiyim sükunət və dözümə inanmırdı. Gecələr mən yatandan sonra o, otağımın qapısına gəlib soruşurdu:

– Fəridə, bir şeyə ehtiyacın varmı? Əgər yuxun yoxsa, gəlim.

Üçüncü gecənin səhəri idi. May günü kimi təravətli, xoş bir səhər idi. Mən tezdən durub öz əlimlə Xeyrulla bəyə süd sağdım, qəlyanaltı hazırladım.

Mən əlimdə məcməyi, sakit, üzümdə demək olar ki, şən bir təbəssüm olduğu halda doktorun otağına girəndə, o çox sevindi və dedi:

– Afərin, Fəridə! Çox şadam. Heç fikir vermə, dünyanın dərdi-qəmi sənə qalmayıb ki?

Mən pəncərəni açdım, otağı səliqəyə salmağa başladım. Doktorun mülkünə aid şeylərdən, qoyunlardan, çobanlardan danışdım. Mən hey gülürdüm, hətta keçmişdə məktəbdə etdiyim kimi, hərdən fit də çalırdım.

Xeyrulla bəy o qədər sevinirdi ki, təsvir etmək mümkün deyil. Mən onun şad olduğunu gördükcə, daha da şənlənirdim. Nəhayət, gözlədiyim vaxtın gəlib çatdığını bildim. Doktorun kreslosunu pəncərənin yanına çəkdim, dizlərinə bir örtü saldım. Özüm də pəncərənin qırağında oturub dedim:

– Doktor bəy, sizinlə danışmalı sözüm var.

Xeyrulla bəy əli ilə gözlərini tutub dedi:

– Söylə, ancaq aşağı düş. Allah eləməmiş həyətə yıxılarsan.

– Heç narahat olmayın. Mənim uşaqlığım ağac budaqlarında keçmişdir. İndi sizə nə qərara gəldiyimdən danışacağam, lap şad olacaqsınız. Nə qədər sakitləşmiş olduğumu görürsünüz ki... Mən dünən axşam mühüm bir qərar verdim.

– Nəyə?

– Yaşamağa.

– Bu nə deməkdir?

– Çox sadədir. Özümü öldürməməyə qərar verdim. Çünki bir neçə gün bu barədə ciddi surətdə düşünmüşdüm.

Mən bu sözləri zarafat edən bir uşaq kimi, gülə-gülə söyləyirdim. Qoca doktor həyəcanla yerindən sıçrayıb dedi:

– Nə danışırsan, ay bala? Bu nə deməkdir? Əgər indi mən sənin oturduğun yerdə oturmuş olsaydım, heyrətdən həyətə yıxılıb parça-parça olardım. Di tez ol, sən də, Allah eşqinə, aşağı düş, bir xata-bala olar.

Mən gülərək cavab verdim:

– Doktor bəy, mən daha yaşamağa qərar verdiyimi söyləyəndən sonra, yıxılmağımdan qorxmaq mənasız deyilmi? Bilirsinizmi bu qərarı nə üçün verdim? Bunu sizə söyləyim. Bunun bir çox səbəbləri var. Əvvəla, özümü öldürməyə cəsarət edə bilməyəcəyəm. Siz mənim hərdən ölümdən danışmağıma baxmayın. Nə olursa olsun, mən ölümdən çox qorxuram. Bu saat bundan başqa, heç bir çarəm qalmasa da, doktor bəy, yenə cəsarət edə bilmirəm.

Bu sözləri əllərimi ona sarı uzadıb, boynumu büküb, sakit və saf bir tövrlə söylədim.

Xeyrulla bəy həyəcanla biləklərimi tutdu, məni zorla pəncərənin kənarından aşağı endirdi. Demək olar ki, dartıb itələyə-itələyə alçaq bir kürsüyə oturtdu.

– Fəridə, sən anlaşılmaz məxluqsan! Gah barmaq boyda bir oyuncaq kimi görünürsən, gah da elə dərin düşüncələrin və qəribəliklərin, elə inanılmaz bir mətanətin olur ki... Çox yaxşı, Fəridə, söylə, dinləyirəm.

– Mənim yeganə yoldaşım, hamim, atam sizsiniz. Çox yaxşı, mən yaşamağa davam etdim. Ölməyə cəsarətim olmadığını söylədikdən sonra, mən də bundan başqa bir şey istəmirəm. Amma necə yaşayım? Mənə yaşamağın yolunu göstərin. Əgər bir asan yol tapa bilsəniz, lap əla olar!

Xeyrulla bəy qaşlarını çatıb düşünürdü. Nəhayət dedi:

– Fəridə, bu barədə mən də fikirləşmişəm. Amma səninlə danışmaq üçün hələ bir qədər gözləmək istəyirdim. İndi madam ki, özünə bu qədər hakim ola bilirsən, çox yaxşı, qızım, gəl danışaq. Müəllimə olmaqdan birdəfəlik ümidini kəsməlisən. O hadisə barəsində bu gün sənə bir az da izahat verə bilərəm. On gün bundan əvvəl vilayətdən bir müfəttiş gəlibmiş. Bu, suiti kimi, dişləri bayıra çıxmış, iyrənc sir-sifətli bir adam idi. Bu müfəttişin başçılığı ilə bir yoxlama komissiyası



təşkil etmişdilər. Səni qulluqdan çıxardıqlarını xəbər verməmişdən əvvəl sorğu-suala çəkmək istəyirdilər. O gecə onbaşının gətirdiyi kağız bir növ çağırış vərəqəsi idi. Özün bir düşün, Fəridə, sən belə bir heyətin qarşısına necə çıxacaqdın? Yad adamların ağzından o iyrənc ittihamları eşidəndə, necə cavab verə biləcəkdin? Mən bunu biləndə, ağlım başımdan çıxdı. O, maarif şurası otağını gözümün önünə gətirdim. Səni, başında qara çarşab, yazıq uşaq üzün saralıb-solmuş, boynu bükülmüş halda o suitinin yırtıcı dişləri qarşısında gözümün qabağına gətirdim. Səni necə olursa olsun parçalamağı qərara almış bu adam "Qurd ilə quzu" təmsilindəki o canavar kimi, boş-boş bəhanələr axtarır, o həyasız və iyrənc iftiraları təkrar edirdi. Sənin o məsum *üzün mənim kimi sarsaq bir əsgərin bir azca çiy kəlmələrini eşidəndə* rəngdən-rəngə girir, ala gözlərin ürkək nəzərlərlə baxır... Mən sənin kimi məsum bir qızı o suitinin qarşısında necə tək qoya bilərdim?

Xeyrulla bəyin o yumşaq baxışlı mavi gözlərində bu vaxta qədər görmədiyim qorxunc bir parıltı vardı, çənəsi elə titrəyirdi ki, sözləri ağzında boğulurdu, dişləri bir-birinə dəyirdi. O, yumruğunu yelləyə-yelləyə dedi:

– Bu gözəl ağzımı açıb, o suitini elə qalayladım ki, Fəridə!.. O anda ona güllə vursaydılar, bircə damcı da qan çıxmazdı. Eşitmişəm ki, iki gün bundan əvvəl mənim əleyhimə məhkəməyə müraciət etmişdir. O namərdlərə gördükləri işin çirkinliyini bir də məhkəmə hüzurunda təkrar etmək üçün o günü səbirsizliklə gözləyirəm.

Qoca doktor, gözlərindəki o vəhşi parıltı, gicgahlarındakı qorxunc qızartı gedənə qədər susdu. Sonra yenə əvvəlki yumşaq səsi, xoş və mehriban tövr ilə sözünə davam etdi:

– Bu arada nə oldusa, sənə oldu. Arada sən oda yandın. Sənə, öz istefanı, demək olar ki, zorla yazdırdığıma görə, sonra mənim barəmdə pis fikirdə olmağını istəmirəm. Sən onlarla hər cür əlaqəni qəti surətdə kəsməli idin. Allah sənin bu gözlərini, bu dodaqlarını gülmək üçün və ətrafındakılara səadət vermək üçün yaratmışdır. Suitilərin qarşısında ağlamaq üçün, titrəmək üçün yox... Fəridə, sənə bir şey də söyləyəcəyəm! Mənim indi sənin qarşında məsuliyyətim ikiqat olmuşdur. Çünki sənin başına bu fəlakətin gəlməsinə mən səbəb olmuşam. Odur ki, bu işi düzəltmək mənim borcumdur. Dediyim kimi, sən öz müəllimlik sənətindən daha bir şey ümid edə bilməzsən. Əgər bu

gün çarə tapıb, səni işə düzəltsək də, sabah bir başqa bəhanə ilə yenə səni yerə vuracaqlar, üstəlik, bəlkə o vaxt daha mən də olmayacağam. Di gəl, birlikdə fikirləşək. Sənin İstanbula, öz ailənin yanına qayıtmağa imkanın varmı?

Mən başımı aşağı əyib dedim:

– Xeyr, doktor bəy, onlar mənim üçün büsbütün yoxdurlar.

– Başqa bir çarə: yaxşı bir oğlana ərə getməyin mümkün deyilmi?

– Xeyr, doktor bəy. Mən qız qocalıb ölməyi qərara almışam.

– Ərə getsən də, bəxtiyar ola biləcəyinə mən o qədər də inanmıram, Fəridə. O məlun sənin qəlbində elə yer etmişdir ki, onu qoparıb atmaq mümkün deyil.

– Ayaqlarınızı öpüm, doktor bəy, hər şeydən danışın, amma bu məsələdən yox..

– Çox yaxşı, qızım, çox yaxşı.

– Təşəkkür edirəm, doktor bəy.

Xeyrulla bəy ağ bığlarını dişləri ilə çeynəyə-çeynəyə fikirləşirdi:

– Çox yaxşı, elə isə, bəs biz nə edəcəyik? Sənin ehtiyac-filan çəkməkdən heç bir qorxun yoxdur. Çünki mənim az-çox sərvətim ikimizə də çatar. Elə, əslinə baxsan, pulumu nə edəcəyimi özüm də bilmirdim. Onları sənin səadətindən yaxşı nəyə sərf edə bilərəm?

Mən verəcəyim cavabın onu hirsləndirəcəyini bilirdim. Amma cavab verməyim zəruri idi. Qorxa-qorxa, onun dizlərini tumarlaya-tumarlaya dedim:

– Amma, doktor bəy, mən hansı sifətlə sizdən belə bir pul yardımı qəbul edə bilərəm? Mən necə bir adam vəziyyətinə düşərəm?

Xeyrulla bəy qəzəblənmədi, ancaq çox qəmgin, şikayətli bir səslə üzümə baxıb dedi:

– Ayıbdır, Fəridə, ayıbdır. Biz bir-birimizə bu qədər isinişdikdən sonra, sənin ortaya belə bir söz atmağın ayıbdır. Amma nə edək ki, sən zahirən nə qədər sərbəst və heç bir şeyə əhəmiyyət verməyən bir qız kimi görünsən də, əslində sadə ruhlu, məhdud, məzlum bir ev qızısan. Xalq arasında "Xınalı quzu" deyilən qızlardansan... Belə olmamalı idi, amma olub... İndi, Fəridə, mənim nələr düşündüyümü diqqətlə dinlə. Öz qoca və səmimi yoldaşından kiçik bir yardımı da qəbul edə bilməyən sənin kimi məğrur bir qız, xüsusilə belə bir işdən, bu cür dedi-qodulardan sonra təkbaşına necə yaşaya bilər? Səni, bax,



buna görə ərə vermək fikrinə düşmüşdüm, Fəridə. Sən heç kəsdən yardım qəbul etmək istəmirsən, işləmək istəyirsən, buna da imkan yoxdur. Əgər desəm ki, gəl bir yerdə yaşayaq, məndən ayrılma, buna da razı olmazsan, deyilmi? Cavab verməyə cəsarət etmirsən. Amma başını aşağı sallayırsan. Sözün düzü, bunu mən özüm də yaxşı çarə hesab etmirəm. İndi biz nə üçün hər bir şeyi açıq-aydın danışmayaq. Məhəllə camaatı adından qaymaqamın yanına bir heyət getmişdir. Bu heyət demişdir ki, məni evimdə ailəmdən, qohum-əqrəbamdan olmayan yad, gənc qızla yaşamağım adətə və şəriətə zidd bir hərəkətmiş. Hətta, o heyət sənin başqa bir vilayətə göndərilməyini, sürgün edilməyini tələb edirmiş. Mən hamının qəbahətini açıq-aşkar üzünə söyləyən bir "kor qazı" olduğum üçün, əslində düşmənim onsuz da çoxdur, nə üçün bunu bəhanə edib mənə bir zərbə endirməsinlər, elə deyilmi? Xülasə, Fəridə, sənin üçün nə mənimlə bir yerdə, nə də tək yaşamağına imkan yoxdur. Haqsız şübhələr daim sənin həyatını zəhərləyəcək, hara getsən, bu məlun ləkə səni təqib edəcəkdir. Sənin keçmişində olan şübhəli bir nöqtə, hər bir azğına, hər bir sərsəriyə səni təhqir etməyə haqq verəcəkdir. Bəs biz nə edək, Fəridə? Necə hərəkət edək? Səni necə müdafiə edəcəyik?

Mən ölməyə məhkum bir xəstə kimi məzlum-məzlum doktorun üzünə baxdım və qəlbimdəki dərin ümidsizliyə baxmayaraq, yenə də gülümsünə-gülümsünə dedim:

– Nəhayət, siz də təsdiq edirsiniz ki, mənim ölümü düşünməkdə haqqım varmış. Doktor bəy, bu günəşə, bu ağaclara, uzaqda görünən o dənizə baxın! Mənim kimi, dara düşməyən bir insan öz könlünün razılığı ilə bu gözəl şeylərdən ayrılmaq istərmi?

Xeyrulla bəy mənim ağzımı tutub dedi:

– Daha bəsdir, Fəridə, daha bəsdir. Ömrümdə eləmədiyim bir qələti mənə etdirəcəksən. Məni uşaq kimi hönkür-hönkür ağladacaqsan...

Sonra, yarpaqları tökülmüş quru budaqların arasında parıldayan payız günəşinə sarı əlini uzadıb dedi:

– Mən xeyli qocayam. Səfalətin, müsibətin hər üzünü görmüşəm. Mənim qucağımda nə qədər adam gözlərini bu həyata yummuşdur... İnan ki, mən hələ sənin bu saf, gözəl uşaq üzünün, gülmək üçün yaranmış bu titrəşən dodaqlarının, indi, mənim qarşımda belə sakit-sakit

ölmək məcburiyyətindən danışmasından daha böyük bir faciə görməmişəm!..

Xeyrulla bəy dizinə saldığım örtüyü atıb ayağa durdu və otağın içində xeyli var-gəl etdi. Sonra mənim qarşımda durub dedi:

– Onda biz son çarəyə əl atmalıyıq... Mən səni, onların şəriətlərinə uyğun bir surətdə öz evimdə saxlayacaq və müdafiə edəcəyəm. Hazır ol, Fəridə! Gələn cümə axşamı...

Bir həftədir ki, Quşadasındayam. Sabah gəlin olacağam. Xeyrulla bəy həm xüsusi işlərini görmək, həm də evə bəzi yeni şeylər almaq üçün dünən İzmirə getdi. Bu axşam gələcəyini bildirən teleqramını almışam.

Mən onu bu yeni şeyləri almaq lazım olmadığını söylədim. O, qəribə bir tövrlə etiraz edib dedi:

– Yox, nişanlı xanım, bu o deməkdir ki, sən mənim qocalığımı başıma vurursan. Hərçənd təbiət bir yanlışlıq edib aramıza otuz beş-qırx illik bir yaş fərqi qoymuşdur, amma bunun heç bir əhəmiyyəti yoxdur. Əsil gənclik ruhun gəncliyidir. Sən mənim zahirimə baxma. Mən iyirmi yaşındakı cavanlardan da qıvraq bir adamam. Bir də ki, *səni bərli-bəzəkli bir gəlin görmək istəyirəm.* Mən necə olsa, subay adamam. Arzu-kamım ürəyimdə qalar. Sənə İzmirdən gözəl bir gəlinlik paltarı gətirəcəyəm.

Mən heç bir şey söyləmir, önümə baxırdım. Xeyrulla bəy sözünə davam edib dedi:

– Sənə üzgöyçəkliyi də verirəm, amma əla bir üzgöyçəkliyidir. Tap görüm: sırğa, üzük, inci, almaz... Bunların heç biri deyil... Heç ağlını yorma, tapa bilməzsən... Sənə üzgöyçəkliyi olaraq, bir yetimxana bağışlayacağam!..

Mən heyrətlə onun üzünə baxdım. Doktor məmnuniyyətlə gülə-gülə dedi:

– Görürsən ki, sənin xoşuna gələn şeyi nə yaxşı tapdım? Alacaqayadakı mülki mən otuz-qırx nəfərlik bir yetimxana edəcəyəm, ətrafda tapdığımız kimsəsiz uşaqları ora yığaraq, mən doktorluq edərəm, sən də müəlliməlik və analıq...

Mən bu sətirləri sağalmağa başladığım həmin otağın pəncərəsi qabağında yazıram. Bağçada, ağacların budaqlarından fasiləsiz bir surətdə yağış kimi quru yarpaqlar tökülür.



Ağacların çılpaq qollarından tökülən bu yarpaqlardan bəzilərini külək pəncərədən içəri, dəftərimin saralmış vərəqləri üzərinə atır.

Qoca doktor yoldaşımın sönük mavi gözlərindəki şəfqət, mərhəmət, təmiz və təmənnasız ata məhəbbəti mənim könlümdə son yaşıl yarpaqlar kimi yaşayırdı. İndi ona bir ər kimi baxmağa məcbur olduğum gündən bəri bu son yarpaq da saraldı. Nə edim? Həyat belə imiş! Buna da qatlaşmaq lazımdır...

Qarışqa ayağı kimi xırdaca yazılarla dolan məktəb dəftərimin son səhifəsinə gəlib çatdım. Nə kədərli bir təsadüf! Mənim sərgüzəştimlə bərabər dəftərim də qurtarır. Yeni həyatımı, yeni bir dəftərə yazmaq mümkün deyil. Daha söyləməli nəyim qalır ki... Bir də ki, sabah başqasının arvadı olandan sonra, mənim buna nə haqqım, nə də cəsarətim olacaqdır. O biri gün səhər başqasının otağında oyanmalı olan gənc qadının daha Çalıquşu ilə – bütün həyatı sadə bir nəğmə, bir neçə damcı göz yaşından ibarət olan Çalıquşu ilə nə əlaqəsi qalacaq!

Çalıquşu bu gün, dəftərinin göz yaşlarından çirklənmiş səhifələrinə tökülən payız yarpaqları içində həmişəlik ölür...

Bu son ayrılıq saatında həqiqəti nə üçün gizlədim?

Kamran, sənin oxumayacağın bu dəftəri mən sənin üçün yazdım. Bəli, nə söylədim, nə yazdımsa, hamısı sənin üçündü. Bu gün daha boynuma alıram ki, çox səhv bir iş tutmuşam. Mən heç bir şeyə baxmayaraq, səninlə məsud ola bilərdim. Bəli, heç bir şeyə baxmayaraq, sevilirdim, sevildiyimi də bilirdim. Amma bu mənə kifayət etmədi. İstədim ki, çox, lap çox, sevilim. Öz sevdiyim qədər olmasa da (çünki buna imkan yoxdu), ona yaxın dərəcədə sevilim. Mənim bu qədər sevilməyə haqqım vardımı? Zənn etmirəm, Kamran. Mən kiçik, cahil bir qızam... Sevməyin, özünü sevdirməyin də bir yolu var, təhəri var, elə deyilmi, Kamran? Halbuki, mən bunları heç, heç bilmirəm. Sənin sarı çiçəyin (bunu məzəmmət üçün söyləmirəm Kamran. İnan mənə, madam ki, o səni məsud etdi, mən də xəyalımda onunla barışıram), o qadın, kim bilir nə qədər cazibəli bir qadındır. Kim bilir o sənə nə gözəl şeylər söyləyir, nə gözəl məktublar yaza bilirdi. Mən bəlkə sənin uşaqlarına, bizim uşaqlarımıza bir yaxşı ana ola bilərdim. Vəssalam...

Kamran, mən səni sevməyi səndən ayrılandan sonra öyrəndim. Elə bilmə ki, mən bunu həyatda etdiyim təcrübələrlə, başqalarını sevməklə öyrəndim. Yox, mən bunu könlümün içində sənin o ümidsiz xəyalını sevməklə öyrəndim.

Mən hər yerdə: Zeynilər məzarlığının qaranlığında, küləyin səhərə qədər fəryad edib ağladığı uzun gecələrdə, çeçen arabalarının incə səsli, yanıqlı zınqırovlarının titrəşdiyi boş səhralarda, Söyüdlük bağçalarının xoş iydə qoxuları ilə dolu yollarında həmişə səninlə üz-üzə, sənin xəyalının qolları arasında yaşadım. Sabah arvadı olacağım o biçarə adam məni zanbaq kimi təmiz və məsum bir qız bilir. Nə böyük bir yanlışlıq!

Elə bilirəm ki, sevda heç bir dul qadının ruh və vücudunu mənim qədər didişdirib parçalamamışdır.

Kamran, biz əslində bu gün bir-birimizdən ayrılırıq. Mən bu gün də dul qalıram... Bütün olan-keçən şeylərə baxmayaraq, bu vaxta qədər sən yenə mənimdin, mən bütün ruhumla sənin...

*Fəridənin gündəliyi burada bitir.*



# BEŞİNCİ HİSSƏ

## I

– Kamran səninlə yol yoldaşlığı etmək, vallah, lap əzabdır. İki saatdan bəri səndən bəlkə iki yüz şey soruşmuşam, "bəli" və "xeyr"-dən başqa bir cavab ala bilməmişəm. Özünə gəl, oğlum!

Kamran kələ-kötür yollarda silkələnən faytonun bir küncündə, axşam küləyindən qorunmaq üçün nazik paltosunun yaxasını qaldırıb, fikirli-fikirli Mərmərə dənizini seyr edirdi. O, gözlərini dənizdən zorla ayırıb gülümsündü və dedi:

– İki saatda iki yüz suala, iki yüz cavab vermək lap "bəli-xeyr" də olsa, elə bilirəm ki, az deyil, əmican.

– Yaxşı, amma, oğlum, axı sən bu cavabları da heç düşünmədən verirsən... Bir maşın kimi mexaniki danışırsan.

– Əmican, bu üsul çox gözəl müalicə və havadəyişdirmə üsuludur... Yəqin ki, məni boş yerə düşündürüb yormaqda sizin bir qəsdiniz var.

– Ay naşükür, doğrudan da səni razı salmaq mümkün olan şey deyil... Düzdür, mən səni düşündürmək istəyirəm, amma məqsədim səni yormaq deyil, o biri şeyi düşünməyinə mane olmaq istəyirəm. Bununla belə, deyəsən, daha ümidimi kəsirəm. Səni canlandırmaq mümkün olmur. Məsələn, üç gün bundan əvvəl səni toy bəhanəsi ilə kəndə apardım. Orda cürbəcür adamlar gördün. Təbil-zurna dinlədin. Mütrüblərə, pəhləvanlara tamaşa etdin. Mən lap yaxşı əyləndim. Amma sən heç əylənmədin. İnkar etmə, göz var, ağıl var, aşkar görürəm.

– Əmican, sizi başa salmaq mümkün deyil, mənim yaradılışım başqa cürdür.

– Yox, oğlum, sən özünü yaman günə qoyubsan. Bir bax, mən altmış yaşına girirəm, amma günü-gündən cavanlaşıram.

– Bunu Ayşə xalam eşitməsin ha.

– Eşitsə də, vecimə deyil. Mən bura gəldiyim vaxt indikindən daha da qoca görünmürdümmü?

Kamran gülüb dedi:

– Mən Tekir dağına on il bundan əvvəl gəlmişdim. Hələ də yadımdadır, yenə belə bir avqust günü idi.

Əziz bəy əllərini bir-birinə vurub dedi:

– Allah cşqinə, onu demə, amma illər yaman tez gəlib keçir ha! Haqqın var, oğlum. İndi sənin dörd yaşına yaxın bir oğlun var. Dörd-beş il də Fəridəyə nişanlı qalmışdın. Ah, Kamran, heç ağlıma sığdıra bilmirəm ki, sən o Fəridəyə necə qıydın! Mən Çalıquşunun bülbül kimi səsini, gül kimi üzünü xatırlayanda, hələ də ürəyim sızıldayır. O vaxtdan on il keçmişdir. Hələ də evimin arxa bağçasına keçməyə ürəyim gəlmir. Yəqin ki, ölüb getsəm də, səni bağışlaya bilməyəcəyəm, Kamran.

– Əmican, havasını, suyunu dəyişdirmək üçün öz yanınıza çağırdığınız bir xəstəyə belə şeylər danışarlarmı?

– Elədir, amma sənin dərdinin bununla bir əlaqəsi yoxdur ki! Sən sevdiyin bir qadınla evləndin. Ancaq onunla tək bircə il də məsud ola bilmədin. Münəvvər xəstələnib yatağa düşdü. Sən də üçillik həyatını xəstəyə baxmaqla, bir şəfqət bacısı kimi keçirdin. Adada, İsveçrədə, daha nə bilim haralarda xəstəni müalicə etməyə çalışdın. Qəzavüqədərə nə demək olar? Keçən qış arvadın vəfat etdi. O vaxtdan səni qəm-qüssə basmışdır. Heç cür özünü ələ ala bilmirsən. Hələ də xəstə kimisən. Bunun Fəridəyə nə dəxli var? Sən bir başqasını sevirdin.

Kamran yenə də acı-acı gülümsünüb cavab verdi:

– Əmican, heç kəs mənə inanmır. Təbii siz də inanmayacaqsınız, bunu qəribə görəcəksiniz. Mənim həyatımın bəzi sərgüzəştləri, hətta çox həyəcanlı sərgüzəştləri oldu. Amma sizi inandırıram ki, mən dünyada heç bir şeyi, heç bir kəsi Fəridə qədər sevmədim.

Əziz bəy dişləri arasında mırıldandı:

– Bəli, yaman sevdadı, yaman eşq idi!

– Dedim də, inanmazsınız, əmican. Əslinə baxsan, elə heç kəs inanmır. Müjgan illərdən bəridir ki, məndən küsmüşdür. Fəridə sözünü ağzıma almağa qoymur. Qaşlarını çatıb deyir: "Yox, Kamran, sənin ondan danışmağa haqqın yoxdur!" Anam da elə, xalam da elə, hamısı elə deyir. Burda Fəridə barəsində yalnız Nərminlə danışa bilirəm. Nərmin indi on yeddi yaşındadır. Fəridə bura gələndə, o yeddi yaşındaydı. İndi Fəridəni xəyal kimi xatırlayır. Fəridəni onun yadına salanda, "məni yelləncəkdə yelləndirən qırmızı əntarili ablam" deyir. Mənim elə günlərim olur ki, Nərmini qırmızı əntarili ablası barəsində danışdırmaq üçün dilimin bütün bacarığını işə salıram.



– Sən nə qəribə adamsan, ay Kamran! Yaxşı, bəs o biri?

– O, xəstə idi. Ola bilərdi ki, mən onun ölümünə bais olaydım. Mən Fəridədən ümidimi kəsəndən sonra, heç olmasa, o birinə qarşı bir insanlıq və mərhəmət vəzifəsini yerinə yetirmək istədim, vəssalam.

– Sənin işlərindən baş çıxarmaq olmaz. Sən qəribə bir adamsan, Kamran.

– Bax, bu düzdür, əmican: nə istədiyimi, nə etdiyimi heç vaxt özüm də bilməmişəm. Yalnız bir şeyi möhkəm bilirəm ki, Fəridəyə qarşı zəiflik göstərmişəm. O, uşağın elə xatirələri var ki, unutmaq mümkün deyildir. Elə bilirəm ki, mən bunları öləndə də xatırlasam, ağlaya-ağlaya öləcəyəm. Əmican, sizə bir dəlil də söyləyim. Həkimlər mənə deyəndə ki, sənin havanı dəyişdirməyə ehtiyacın var, hər yerdən əvvəl ağlıma Tekir dağı gəldi. Elə bilirsiniz ki, mən bura sizin dəvətlərinizə görə gəlmişəm? Elə bilirsiniz ki, iki aydır, burda kənd toy əyləncələrinə tamaşa üçün qalmışam? Acığınız tutmasın, mən burda ilk gəncliyimin bir neçə qırıq xatirəsini axtarmağa gəlmişəm, vəssalam.

– Madam ki, sən bir yersiz hərəkət etmişdin, bunu düzəltmək mümkün deyildimi?

– Yanlış hərəkət etmişdim, əmican, çox yanlış bir hərəkət etmişdim. Fəridə bizdən elə bərk küsmüş və incimiş halda ayrılıb getmişdi ki, mən onun izini tapanda, birdən-birə dalınca düşməkdən qorxdum. Onun yalnız qəlbi deyil, izzəti-nəfsi də yaralanmışdı. Təkbaşına yad vilayətlərə getdiyindən, kim bilir nə qədər mütəəssir olmuşdu. Aradan heç olmasa, altı aylıq bir zaman keçməmiş, o məni görsəydi, bəlkə də tamamilə qəzəblənəcək, vəhşiləşəcək, daha böyük bir dəlilik edəcəkdi. Mən baharın gəlməsini zorla gözləyə bilmişdim. Çalıquşunu işlədiyi kənd məktəbində tutmaq üçün elə yola çıxmağa hazırlaşırdım ki, tərs kimi o xəstəliyim başlandı. Üç ay yataqda qaldım. Onu sonra "B"-də tapmağa getdiyim zaman isə, daha iş işdən keçmişdi. Mənə dedilər ki, Fəridə xəstə bir bəstəkarı sevir, öz vəfasız başını çayların kənarında sevgilisinin dizlərinə qoyub, onun gözlərinə baxa-

baxa tembur çaldırır. Əmican, özün bir düşün, mən illərdən bəri onun başını, gözlərini "mənimdir, yalnız mənimdir!" – deyə gözlədikdən sonra bir gün belə...

Kamran sözlərinə davam etmədi. Mərmərə dənizindən gələn sərin axşam küləyindən çəkinən kimi, boynunu paltosunun yaxasının içinə daha artıq çəkib, uzaqlarda tək-tük görünməyə başlayan balıqçı tonqallarını seyr etməyə başladı.

Əziz bəyin də nəşəsi pozulmuşdu.

– Kamran, oğlum, mənə elə gəlir ki, sən o vaxt ikinci bir sarsaqlıq edibsən. Kaş Çalıquşu sənin dediyini edə bilən, özünü asanlıqla ovuda bilən bir qız olaydı... Heç olmazsa, onda xoşbəxt olardı. Amma mən buna heç inana bilmirəm.

Kamran acı-acı gülümsünüb başını yırğaladı:

– O cəhətdən arxayın olun, əmican. Deyirlər ki, Fəridə iki ildən bəri çox bəxtiyardır. Mən bunu gözü ilə görənlərdən eşitdim. Onun əri qoca, amma varlı bir doktordur. Mənim yoldaşım olan bir mülki müfəttişin arvadı Fəridənin köhnə rəfiqələrindəndir. O keçən il Quşadasında Fəridəyə rast gəlibmiş. Çalıquşu yenə əvvəlki kimi həmişə gülür, danışır, zarafat edirmiş. O, şəhərdən üç-dörd saat uzaq məsafədə yerləşən bir mülkdə iyirmiyə qədər uşaqla məşğul olduğunu və çox xoşbəxt yaşadığını söyləyibmiş. Deyirlər ki, öz ərindən yarım saat da ayrı qalmağa dözə bilmirmiş. Rəfiqəsi Fəridəyə İstanbuldan, qohum-əqrəbalarından danışmaq istəyibmiş, amma Fəridə o saat onun sözünü kəsib deyibmiş ki, "mən daha nə o yeri, nə də o adamları heç xatırlamıram da". Əmican, mənim Fəridənin qarşısında təqsirim, haqsızlığım çoxdur; bunu bilirəm. Amma siz də insafla deyin, bəs onun da məni belə tez unutması düzgün bir hərəkətdimi? Nə isə... Bunlar hamısı lüzumsuz sözlərdir. Daha bundan danışmayaq... Sizə yaxşı yol! Mən faytondan düşürəm, evə piyada gedəcəyəm. Bu kələkötür yollar məni yaman silkələyib əldən saldı.

– İdarədə işləyən adamlar, doğrudan da, bədbəxt adamlardır. Bu yolları neçə illər bundan əvvəl mən özüm çəkdirmişəm. Fəhlə nəzarətçisi kimi, günün altında dayanmışam. Hər halda səni əldən salan yollar deyil, Kamran, iftira etmə. Nə yaxşı etdilər ki, yeddi il bundan əvvəl məni bu mütəsərriflik vəzifəsindən azad etdilər... Haydı, oğlum,



amma çox gec gəlmə, çünki qocalıq xalanı da, məni də taqətdən salmışdır. Əgər gec gəlsən, nigarançılıqdan mən də, o da acından bihuş olarıq.

Kamranın faytondan düşdüyü yer, yenə həmin körpü başı idi. On il bundan əvvəl yenə də avqustun sonlarında, belə bir axşamçağı o buraya qədər gəlib, çürük taxtaların üstündə oturmuş və ayaqlarını sallamışdı.

İndi Tekir dağında olduğu iyirmi beş gündən bəri adət etmişdi. Hər axşamüstü bura qədər gəlir, sonra yollara qaranlıq çökəndə yavaş-yavaş, düşünə-düşünə geri qayıdırdı.

Müjganın əri müvəqqəti bir tapşırıqla Anadoluya getdiyi gündən bəri o da öz uşaqları ilə bərabər Tekir dağına gəlmişdi. Bir axşam Müjgan Kamrana demişdi:

– Çox yorğun görünürsən. Yəqin ki, uzaqlara getmişdin?

Kamran dərdli-dərdli gülümsünüb cavab vermişdi:

– Yaxşı dedin, Müjgan, çox uzaqlara getmişdim, on il uzaq bir keçmişə.

Kamran başqa şeylər də söyləyəcəkdi, amma Müjgan bu sözdən bir şey başa düşməyirmiş kimi dodaqlarını büzüb sadəcə demişdi:

– Eləmi?

Sonra da arxasını Kamrana çevirmişdi. Müjgan qadın qəlbinin o inadçı, gizlin küskünlüyü ilə neçə illərdi ki, Kamrandan incimişdi. Kamran onun yanında Fəridə barəsində bircə kəlmə də danışa bilmirdi.

İndi də Kamran bağçaların arasından yavaş-yavaş evə qayıdanda axşam idi. Günəşin son şüaları qarşıdakı dağdan hələ çəkilməmişdi. Kənarlarından solmağa üz tutmuş bənövşələrə bənzəyən bir gecə başlanırdı.

Gənc oğlan bağça aralarındakı yollardan birinin yanında dayandı. Burada atəş böcəkləri ulduz kimi parıldaşırdı; o, yaşıl qaranlığı xeyli seyr etdi. On il bundan əvvəl bir axşam o, Fəridənin həmin bu yoldan çıxdığını görmüşdü. Elə bil ki, Kamran indi də gözünün qabağında, on il bundan əvvəl olduğu kimi, Çalıquşunu görürdü. Onun əynində qısa matroskası vardı, şapkasının altından qısa qıvrım saçları

sallanmışdı. O, dabansız uşaq çəkmələrinin burnu ilə daşları vurub kənara ata-ata, elə bil ki, indi də onun önündə gedirdi.

Xeyli vaxt keçmişdi. Kamran evdəkilərin nigaran qaldıqlarını biləbilə, heç cür evə getmək istəmir, köhnə bir röyanın izlərini axtaran kimi, yollarda yubanırdı.

O, evə yaxınlaşanda uzaqdan küçə qapısının qabağında ağ paltarlı bir qadın kölgəsi gördü. Bu, Müjgandı. Çox vaxt axşamlar o, körpə uşağı ilə bərabər küçəyə çıxır, uşağının qoltuqlarından tutub ona gəzmək öyrədərdi.

Müjgan Kamranı görən kimi, uzaqdan əlini yelləməyə başlayıb çığırdı:

– Kamran, nə yavaş gəlirsən? Bu vaxtacan harda qalmısan?

– Heç, Müjgan, hava çox yaxşı idi, ona görə...

Müjganın bu gecə uşağı yanında yox idi. Amma onun halında bir qəribəlik, daim laqeyd olan üzündə bir həyəcan görünürdü.

– Müjgan, səndə qəribə bir hal var?

Gənc qadın nə isə söyləmək istəyir, amma söz tapa bilmirdi. O, bir addım geri çəkilib qapı ilə iç divarın arasındakı guşəni göstərə-göstərə dedi:

– Kamran, bir bax, gör bu gün kim gəlmişdir!

Kamran heyrətlə başını çevirdi, içəri qapıdakı fanardan düşən göyümtül işıqda, lap yaxında Fəridənin ala gözlərini gördü. Onun gözlərinin hər birinin bəbəyində sanki mavi bir ulduz parıldayırdı. Onun gözləri, bir az solğun və incəlmiş görünən gözəl üzü gülürdü. Kamran, altı ildən bəri hər dəfə öz xəyalpərəst gözlərini yumduqda gördüyü kimi, Fəridə lap yaxınında, onun qəlbinin içində gülürdü. Kamran yüngülcə yırğalandı, gözəl röyadan ayılmaqdan qorxan adamlar kimi, bir az gözlərini yumdu, yanında söykənmək üçün bir yer axtardı. İndi onlar bir-birinə söyləməyə söz tapa bilmir, eləcə titrəyə-titrəyə bir-birinə baxırdılar. Dodaqları ilə gülümsünməyə çalışdıqları halda, gözlərini yaşlar pərdələyirdi. Müjgan bu dəqiqənin çətinliyini hiss etdi. Fəridənin əlindən tutub Kamranın önünə gətirdi. Mənalı bir səslə dedi:

– Xala uşaqları, demək olar ki, bir-birinə bacı-qardaşdırlar. Fəridənin qardaşı olmadığı üçün, sən doğrudan-doğruya onun böyük qardaşı sayılırsan, Kamran. Bacına “xoş gəldin” de.



Kamran hələ də bir şey söyləyə bilmirdi. O, bir azca əyildi, dodaqlarını Fəridənin saçlarına toxundurdu, sonra da onun qulağına söyləyirmiş kimi, lap yavaşcadan dedi:

– Sizi təkrar görməkdən duyduğum məmnunluğu söyləməyə söz tapa bilmirəm, Fəridə xanım!

Bu söz Fəridəyə cəsarət verdi. Əvvəlki şəffaf ahəngi zədələnmiş bir büllur kimi, qeyri-müəyyən bir şikayətlə titrəşən səsi ilə cavab verdi:

– Təşəkkür edirəm, Kamran bəy. Mən də sizin kimi, çox şad oldum.

– Nə vaxt gəlmisiniz?

– Bu gün günortaüstü. On gün bundan qabaq İstanbula gəlmişdim. Soruşub bildim ki, heç biriniz orada yoxsunuz. Amma mən xalalarımı və sizin hamınızı çox görmək istəyirdim. Öz-özümə dedim ki, bəlkə onlardan məni görmək istəyənlər var. Bir də ki, gəzməyə öyrəşmiş adamlar üçün Tekir dağı azacıq bir yoldur. Elə deyilmi, Kamran bəy?

Müjgan yenə söhbətə qoşuldu:

– Çox yaxşı, ancaq bu “xanım-bəy” nə deməkdir, bu rəsmiyyət nəyə lazımdır? Bayaq sizə dedim, siz demək olar ki, bacı-qardaş sayılırsınız. Fəridə, sən Kamrana “ağabəy” desən, lap düz olar.

Onlar ikisi də gözlərini yerə dikdilər. Fəridə qorxa-qorxa dedi:

– Düzdür, Kamran, sənə ağabəy deməyimə icazə verərsənmi?

O cavab gözləyəndə Kamrana baxmır, atəş böcəklərinin qaynaşdığı qaranlıqda gözləri ilə nə isə axtarırdı.

Kamran narazı bir tövrlə cavab verdi:

– Fəridə, sən necə istəyirsən, elə olsun. Ürəyin necə istəsə, elə de.

Onlar daha sakit-sakit danışa bilirdilər. Fəridə bir neçə sözlə öz səyahətini danışdı:

– İstanbulda bəzi işlərim vardı. Bir də, dediyim kimi, hamınızı görmək istəyirdim. Doktor mənə iki ay icazə verdi. Xalalarımı, sizin hamınızı sağ-salamat gördüyüm üçün çox şad oldum. Ancaq, Kamran, sənin başına gələn fəlakəti İstanbulda eşitdim, çox-çox mütəəssir oldum. Bu qədər qısa bir müddət içində arvadını itirmək böyük bir fəlakətdir! Ancaq uşağın var, Allah ona anasının torpağı sanı ömür versin. Çox gözəl oğlun var, Kamran! O qədər xoşuma gəldi ki! Mən

bura gələndən oğlunla dostlaşmışıq. İndiyəcən mənim dizimin üstündə oturmuşdu. Əslində mən elə uşaqlarla çox tez dostlaşıram...

Fəridə söyləməyə davam etdikcə yavaş-yavaş açılışır, sözləri, hərəkətləri əvvəlki dəcəl uşaq kimi, yüngül və oynaq bir hal almağa başlayırdı.

Onun səsini dinləmək, danışan dodaqlarını, gecənin alaqaranlığı içində parıldayan ala gözlərini görmək elə bir səadət idi ki, Kamran heç bir şey düşünmür, hətta Fəridənin indi bir başqasının arvadı olduğunu, bu səadətin bir ay, ay yarım sonra yenə bir röya olacağını heç ağlına da gətirmirdi. Onun tək bircə qorxusu vardı: içəridəkilərin onun gəldiyini duymalarını istəmirdi. Qorxduğu hər şey kimi, bu da axır başına gəldi. Onları qapının yanında ilk dəfə görən Nərmin oldu. Bu gənc qız ucadan çığırıb, Kamranın gəldiyini hamıya xəbər verəndən sonra, onların yanına yüyürdü, Fəridəni təkrar qucaqlayıb dedi:

– Fəridə, abla, mənim səni unutmadığıma Kamran ağabəyim də şahiddir. Qırmızı əntarili ablamdan ən çox onunla danışardıq, elə deyilmi, Kamran ağabəyim?

## II

O gecə axşam yeməyi bir toy qonaqlığına bənzədi. Süfrənin başında uşaq kimi oyunlar çıxaran Əziz bəy deyirdi:

– Ah, Çalıquşu, sən məni az qala bədbəxt etmişdin! Səsin qulağıma gələndə, az qalırdım ağlayam. Bir gör mən səni nə qədər çox sevirmişəm!

Onların bir daha görməkdən ümidlərini kəsdikləri Çalıquşu, gözlənilmədən yuvaya qayıtmaqla, ora eləcə bir az nəşə deyil, özü ilə bərabər keçmiş günlərin səmimiyyət və məhəbbətlə dolu bir hissəsini də gətirmişdi. Bütün üzlər gülürdü, bütün qəlblərdə fərəhli bir titrəyiş vardı. Bu titrəyiş açıq pəncərələrdən içəri dolan və lampaların ətrafında hərlənən pərvanələr və gecə cücülərinin uçuşmasına bənzəyirdi. Yalnız yemək qurtarana yaxın, Bəsimə xanım əhəmiyyətsiz bir şeydən danışanda, birdən-birə ağlamağa başladı. Amma o saat gözlərini silib dedi:

– Heç, bir elə şey yoxdur. Fəridənin anasını, Güzidəni yadıma saldım, ona görə ağladım.



Fəridə Kamranın oğlunu dizlərinin üstündə oturdub ona üzüm yedirdirdi. Sonra başını bir azca əyib üzünü bir anlığa uşağın sarı, qıvırcıq saçları içində gizlətdi, vəssalam. Sonra yenə əvvəlki şənliyi özünə qayıtdı.

Arada Bəsimə xanım, öz əri ilə bərabər Trabzonda olan Nəcmiyyədən danışıb dedi:

– O, biçarə də dərdlidir. Keçən il difteritdən bir qızı öldü.

Fəridə də dərindən ah çəkib dedi:

– O dərd mənim də başıma gəlmişdir, xala, mənim balam da o xəstəlikdən öldü.

Süfrədəkilər heyrətlə bir-birinə baxışdılar. Ayşə xala dedi:

– Deməli, sənin uşağın da vardı? Biz heç bilmirdik.

Fəridə qəmli-qəmli başını yırğaladı:

– İnci kimi bir qızdı, gərək görəydiniz, çox gözəldi! Balamı heç cür qurtarmaq mümkün olmadı.

Ayşə xala təkrar soruşdu:

– Uşağın neçə yaşında öldü, Fəridə?

Fəridə yenə dodaqlarını büzüb dedi:

– Düz on üç yaşı qurtarmışdı. İlk çarşabını tikirdim. Qayınana olacaqdım.

Süfrədə bir qəhqəhə qopdu. Əziz bəy dedi:

– Ah, Çalıquşu, sən yüz yaşına girsən, yenə dəliliyindən, zarafatcıllığından əl çəkməyəcəksən!

Fəridənin on üç yaşında qızı olmasına hamı gülürdü. Amma Fəridənin kirpikləri yaşla dolu idi. Nəcdəti daha da bərk-bərk bağrına basıb, getdikcə artan bir qəmginliklə Munisənin əhvalatını onlara danışdı.

Gecə yarısına qədər oturdular. Hərdən Əziz bəy deyirdi:

– Fəridə, qızım, sən yoldan gəlibsən, yorğunsan, daha bəsdir, yat.

Çoxdan yuxuya getmiş Nəcdəti hələ də qucağından buraxmayan Fəridə gülüb deyirdi:

– Ziyanı yoxdur, əmican. Əslində mən elə sizin aranızda olanda dincəlirəm. Məni yoran yalnız yalqızlıqdır.

Fəridə parlaq ala gözlərindən, bir azca qısa üst dodağından heç vaxt əskik olmayan təbəssümü ilə saatlarla danışdı. Əvvəlki Çalıquşu tamamilə dirçəlmişdi. Ətrafdakılardın onu dinləməkdən xoşlandıqlarını gördükcə, o, söylədiyi kəlmələri əzib-büzür, yalnız sevilən və

bəyənilən uşaqların bacardığı o sevimli, nazlı hərəkətlərlə dodaqlarını büzə-büzə, dişləri ilə dilini sıxa-sıxa, yanağını çuxurlaşdıra-çuxurlaşdıra, hey danışırdı. Belə ki, sevincindən sərxoş kimi olmuş qoca Əziz bəy öz köhnə zarafatını təkrar etməkdən özünü saxlaya bilmədi. Fəridə kiçik olanda, o qızın üst dodağını barmaqları arasında sıxıb deyərdi: "Ay dəcəl Çalıquşu, sən mənim gilasımı oğurlamısan, onu qaytar görüm!" Sonra qızın dodağının ucundan zorla öpərdi.

Əziz bəy ətrafda qopan qəhqəhələr içində: "Eləmi, əmican!" – deyə çığıran Fəridənin çənəsindən zorla tutdu, həmin köhnə zarafatını təkrar etdi. Bunu etdikdən sonra Əziz bəy diqqətlə Fəridənin üzünə baxıb dedi: "Neyləyim, a Çalıquşu? Təqsir sənin özündədir. Evli-eşikli bir qadın olubsan, amma hələ də təbiətin uşaq təbiətidir. Hətta üzün də uşaq üzüdür. Bu çöhrəyə kim qadın çöhrəsi deyə bilər?"

Kamran oturduğu guşədə saraldığını hiss etdi. O, Çalıquşunun bir başqasının qadını olduğunu ilk dəfə bu dəqiqə başa düşdü.

## III

Bu gecədən sonra keçən iki gün içində Kamran Fəridəni lap az görə bildi. Çalıquşu on il bundan əvvəl Tekir dağında öz yaşıdları olan bir çox qızlarla dost olmuşdu. Bunlar indi evli-eşikli xanımlardır. Fəridəni rahat qoymurdular. Saatlarla gəlib onun yanında oturduqları kifayət deyilmiş kimi, gedəndə də Çalıquşunu özləri ilə bərabər çəkib aparır, bağ-bağçada gəzdirirdilər.

Kamranın gizlin-gizlin kədərləndiyini gördükcə, Müjgan az qala sevinir, gözlərindən gülə-gülə şikayətlənirdi:

– Belə də iş olar? Fəridəni heç bizim yanımızda qoymurlar. Amma hər şeydən əvvəl onun əylənməsi, ürəyinin açılması lazımdır.

Kamran bu iki günün içində Fəridəni bir dəfə yemək vaxtı, bir dəfə də çarşablı halda küçədən qayıdıb gələndə görə bilmişdi.

Üçüncü gecənin səhəri idi. Kamran öz adətinin əksinə olaraq o gün tezdən oyanmışdı. Hava yenicə işıqlaşırdı. Köşkdəkilər hələ yatmışdılar. Kamran otağın pəncərələrinin taxta qapılarından birini itələyəndə, Fəridəni bağçada gördü. O da pəncərənin açıldığını duymuşdu. Fəridə başını qaldırıb, yeni doğan günəşə qarşı əlini gözlərinin üstünə tutub dedi:



– Kamran bəy, oyanıbsınızmı? Təbiətinizi nə qədər dəyişdiribsiniz. Keçmişdə sizi oyandırmaq üçün, pəncərənizə yayda ovuc-ovuc xırda daş, qışda bir yığın qartopu atmaq lazım gəlirdi. Siz də bir az anadolulu olubsunuz. Mən orda bu vaxt yuxudan duranda, məni lağa qoyub deyərdilər: "Ay tənbəl, adam heç gün doğana qədər yatarmı?"

Keçmişdəki o yüngül zarafatcıl Çalıquşunu yada salan bu sözləri söyləyəndə, Fəridənin səsində adamın qəlbinə rahatlıq və təravət hissləri verən şəffaf bir axar su ahəngi vardı. Kamran bir az qorxa-qorxa soruşdu:

– Fəridə, mən də gəlimmi?

Fəridə hələ də əlini gözlərinin üstünə tutub lap keçmişdə etdiyi kimi, gizlin-gizlin sataşıb dedi:

– Əgər rütubətin zərif vücudunuzu incitməsindən qorxmursunuzsa, gəlsəniz pis olmaz. Sizi anadolusayağı qonaq edərəm.

Fəridə Kamranı yekə bir qoz ağacının altına apardı. Onu axşamdan unudulub bağçada qalmış bir kürsüyə oturtdu.

– Kamran bəy, indi gərək məni bir qədər gözləyəsiniz.

– Axı biz demişdik ki, rəsmiyyəti bir yana qoyacağıq, nə oldu?

– Bir az səbir edin, öz-özünə düzələr. Mən birdən-birə hörmətsizliyə cəsarət edə bilmərəm.

Kamran gülüb dedi:

– Fəridə, axı bu daha böyük bir hörmətsizlikdir. Mən sənə qadağan edirəm. Sən mənə "Kamran bəy" deyəndə, elə bilirəm ki, məni ələ salırsan.

Fəridə gülüb dedi:

– Düzdür, haqqınız var... Haqqın var, mən də çalışaram. İndi mənə icazə ver, sənə süd bişirəcəyəm.

– Fəridə, rica edirəm, zəhmət çəkmə...

– Nahaq yerə təkid etmə. Bir Anadolu qadınına ən yaxşı nəvaziş onun iş görməyinə, xidmət etməyinə icazə verməkdən ibarətdir.

Fəridə bir qədər zarafatyana, bir azca da qəmgin halda sözünə davam edib dedi:

– Bizim özümüzü bəyəndirmək üçün, ev işi görməkdən başqa bir cazibəmiz yoxdur...

Fəridə, əlində parçlar, quru budaqlar olduğu halda, bağçanın içində o yana-bu yana gedib-gəlir, onun yeni oyanmış bağbanla danışıq səsi eşidilirdi.

Nəhayət, Fəridə əlində buğlanan bir stəkan südlə gəldi.

– Kamran, süd mənim istədiyim kimi deyil, amma üç gündən sonra, – bu gün nə günüdür, bazar ertəsi – cümə axşamı səhər səni yenə qonaq çağıraram. Yenə həmin qoyunun südünü içəcəksən, amma görəcəksən ki, o bambaşqa bir şey, az qala, gözəl bir meyvə dadı verəcək. Bu mənim böyük bir sirrimdir. Bunun necə olacağı ilə maraqlanmırsanmı? Ay aman, bu nə laqeydlikdir! Mən sənə bunu indidən söyləyim. Qoyunu üç gün armudla bəsləyəcəyəm. Deyəsən sən üşüyəcəksən, hava bir az sərindir. Onu istəyirsən ki, sonra Bəsimə xalam məni danlayıb desin: "Dəli qız, oğlumu xəstələndirdi". Dayan, mən rütubətə-filana öyrəşmişəm, çiyin şalımı sənə verim.

Fəridə sancaqla boynuna bənd etdiyi qırmızı yun şalı çıxartdı. Səhərin rütubətindən üşüyən kimi azacıq titrəyən Kamranın çiyinlərini, köksünü örtdü.

Kamranın gözləri önündə on il bundan əvvəlki bir axşamın xatirəsi canlandı: o zaman Qozyatağındakı köşkün bayır qapısı önündə Fəridə yenə bu sayaq, öz kiçik laciverd paltosunu onun çiyninə salmışdı. Onda Fəridə qısa ətəkli, qara önlüklü xırdaca bir məktəbli qız idi, onun bənövşəyi mürəkkəblə ləkələnmiş xırdaca barmaqları Kamranın gözünün önünə gəldi. Onda Fəridənin böyük bir adam kimi: "Daha səni qorumaq mənim vəzifəmdir", – deyən səsini eşidən kimi oldu.

– Kamran, sərsəm adamlar kimi süd stəkanını əlindən salacaqsan, ayaqların yanacaq, nə üçün belə fikrə getdin?

– Heç, yadıma bir şey düşdü...

Fəridə onun yadına düşən bu şeyi söyləməsinə mane olmaq üçün tələsik dedi:

– Mənim də yadıma bir şey düşdü: səni, çiynində şal gördükdə, "Kamran xanım" dediyimi xatırladım.

Fəridə işini qurtardıqdan sonra, Kamranla üzbəüz alçaq bir mətbəx kürsüsündə oturdu. Onun əynindəki anadolusayağı tikilmiş tutqun rəngli, Bursa ipəyindən olan gen paltar iri və xırda-xırda qırçınlarla boynunu, vücudunu örtürdü. O, dirsəklərini dizlərinə dayayıb, biləklərini çənəsinin altında birləşdirərək, yanaqlarını iki ovcunun içinə alıb danışmağa başladı.



Kamran işıqda onun üzünü bu qədər yaxından ilk dəfə görürdü: onun çöhrəsi bir az zəifləmiş, sınıxmışdı. Bu sınıxma onun gözlərini daha böyük göstərir, gözlərinin kənarlarını zorla seçilən bir xumarla kölgələndirirdi. Çalıquşunun beş il bundan əvvəl zərli bir işıqla dolu olan parlaq ala gözləri, od yanında qalmış çiçəklər kimi, azacıq solmuşdu. Bu gözlər yenə əvvəlki kimi gülür, yenə əvvəlki kimi məsum bir cəsarətlə çəkinmədən baxırdı. Amma Kamrana elə gəldi ki, daha əvvəlki kimi, onların dərinliyini, nəhayətini görmək mümkün deyildir.

Fəridə Anadolu qızları kimi saçlarını ortadan tağ ayırıb, iki qalın hörüklə yanlardan sallamışdı. Bu saçlar o qədər bərk hörülmüşdü ki, alnının gicgahlarının dərisini dartır, qaşlarının dağınıq uclarını bir az yuxarı qaldırır, onun daha şəffaf və nazik görünən dərisində incə göyümtül damarlarını aşkara çıxarırdı.

Kamran onun sözlərindən artıq səsini dinləyərək bu gözəl üzü seyr edəndə, bir şeyə diqqət verirdi: Fəridənin rəngi öz təbii həyatı ilə yaşayan bir gənc qadının məsud rəngi deyildi. Onun bədəninin rəngində dərilmədən solmalı olan güllərdə və eşqsiz qocalmalı olan qızlarda görünən qızdırmalı qırmızılığa bənzər gizlin bir atəş və zəif bir şəffaflıq vardı.

Səhər günəşi bu çöhrədə elə incə, elə mənalı cizgilər aşkara çıxarırdı ki, bu, Kamranın ürəyini kövrəldir, onda ağlamaq arzusu oyandırırdı. Kamran heç vaxt ağlına gətirməmişdi ki, iztirab bir gənc qızın üzünü bu qədər gözəlləşdirə bilər.

Fəridə dodağının heç sönməyən gülümsəməsi ilə və titrək səsi ilə öz uşaqlıq xatirələrindən danışırdı. Onu səsinin əvvəlki ahəngində, görünməz bir yerindən bir azca zədələnmiş büllurların tutqun, şikayətli ehtizazı vardı...

Kamran cəsarətlənib ondan bu ayrılıq illərində necə dolandığını soruşdu.

Fəridə ağır bir tövrlə başını yırğalayıb dedi:

– Yadımda qalmamışdır, Kamran. On beş yaşına qədər, ilk dəfə Tekir dağına gələnə qədər olan bütün hadisələr yadımdadır. O birilərini isə dumanlı xatırlayıram.

Fəridə xatirələrinə çökən bu dumandan danışanda, onun gözlərini də duman bürüyürdü. O, başını yana çevirib uzaqlara baxırdı.

Fəridə ən köhnə uşaqlıq xatirələrindən sonra birdən-birə həyatının son illərindən danışırdı. O, Hacı qalfanın hərəkətindən, Zeynilər muxtarının sözlərindən, müdir Rəcəb əfəndinin qəribəliyindən danışanda, gülən gözlərinə, canlanan hərəkətlərinə hərdən tamamilə səbəbsiz bir yorğunluq çökürdü. O vaxt səsindəki o qırıq büllur ehtizazı daha da dərinləşir, səsi uçunan bir ürək kimi titrəyirdi.

Fəridə bir çay kənarından danışanda, Kamran gözlərini yumub öz-özündən soruşdu: "Bəlkə bu elə o çay kənarıdır ki, Fəridə başını öz sevgilisinin dizlərinə qoyub, onun gözlərinə baxa-baxa təmbur çaldırırmış?"

Çalıquşu həyatının ən mənasız, ən əhəmiyyətsiz bir neçə xatirəsindən danışdıqdan sonra, birdən-birə yadına bir şey düşmüş kimi, dedi:

– Kamran, axı mən sənə hələ doktor əminin şəklini göstərməmişəm.

Belə deyib o, incə bir qızıl zəncirlə boynundan asılmış qızıl medalyonu Kamrana uzatdı.

Kamran saraldığını, titrədiyini bildirməməyə çalışıb şəkli aldı. Fəridə onunla bərabər şəkli görmək üçün başını uzadır, üzün onun üzünə yaxınlaşdırırdı.

– Bu çöhrəyə bir bax, Kamran, gör nə nəcib, nə gözəl bir üzdür! Elə deyilmi?

Kamran gözaltı Fəridəyə baxırdı. Fəridə şəklə elə dalğın bir məhəbbətlə baxırdı ki, Kamranın ona baxdığını duymadı.

Bu dəqiqə Kamranın həyatında ən acı iztirab və həyəcanla dolu bir dəqiqə oldu. Deməli, Fəridənin o zərif, nazlı, məsum gözəlliyi bu ağsaçlı, kobudüzlü, yekəpər qocaya qismət olmuşdu!..

Kamranın gözlərinin önündə dəhşətli bir mənzərə canlanırdı. O, Fəridəni utandığından yanaqları qıpqırmızı, ala gözləri yarıyumulu və yaşla dolu, məsum uşaq dodaqları yalvarmağa bənzər titrəşən bir halda, bu qocanın qucağında görən kimi oldu; sanki onu didib parçalayırdılar.

Çalıquşu Kamranın üzünə baxmadan bunu hiss etdi, yavaşca diksindi, medalyonu yavaş-yavaş təkrar qoynuna qoyub dedi:

– Kamran, daha mənə icazə ver. Elə bilirəm ki, bu gün də qonaqlarımız var.



## IV

On gündür ki, Çalıquşu köhnə yuvaya qayıtmışdı.

Əziz bəy hər axşam bu sözləri təkrar edirdi:

– Uşaqlar, diqqət edirsinizmi? Ev elə bil dəyişilmişdir. Çalıquşu bu dəfə qaranquşa bənzəyir. Qanadlarının altında, demək olar ki, bizə bahar gətirmişdir. Amma, hayıf ki, bir gün də keçdi.

Fəridə gülüb deyirdi:

– Ziyan yoxdur, əmican, bir neçə ildən sonra yenə icazə alıb gələrəm. Siz heç narahat olmayın. Həm də irəlidə hələ nə qədər gün var. Nə üçün indidən ovqatımızı təlx edək?

Çalıquşu tamamilə əvvəlki Çalıquşu olmuşdu. Ötəri bir fırtınadan solub büzüşdükdən sonra, təkrar gündoğanda açılan çiçəklər kimi, o da gün-gündən açılırdı.

Çalıquşu yenidən evdəki uşaqların dəstəbaşısı olmuşdu. Müjganın üç yaşlı qızı ilə, ondan bir az böyük olan Nəcdətdən tutmuş, on yeddi yaşındakı Nərminə qədər böyüklü-kiçikli bütün uşaqlar ona bənd olmuşdular. Səhərdən axşama kimi Çalıquşunun ətəyindən tutub köşkü şənliyə, qəhqəhələrə qərq edirdilər.

Bəzən böyüklər dəcəlliyin bu dərəcəyə çatmasından şikayət edirdilər. Amma başqa bir tərəfdən də sevinirdilər.

Kamranla Fəridə, hər necə olsa, keçmiş nişanlılar idi. Evdəkilər ilk günlərdə beş ildə üstü köz bağlamış köhnə yaraların yenidən açılmasından qorxmuşdular. Fəridənin coşqun-daşqın şənliyi, Kamranın onu elə uzaqdan görməkdən başqa heç bir şey istəməyən kimi görünən yumşaq və sakit bəxtiyarlığı sonradan onlara bir az arxayınlıq verməyə başlamışdı.

Bununla belə onlar ehtiyatı əldən qoymurdular. Fəridə ilə Kamranın ən köhnə zamanlardakı "böyük qardaş" və "kiçik bacı" hisslərini yenidən qüvvətləndirməyə çalışırdılar. Bihuş xəstələri oyandırmaq üçün onların otaqlarında necə qorxa-qorxa, yavaşdan danışırlarsa, Kamran ilə Fəridənin yanında da ehtiyatsız bir kəlmə ilə o qəmgin keçmişə aid xatirələri oyandırmaqdan qorxurdular.

Hərdən Əziz bəy soruşurdu:

– Fəridə, sənin bizdə qonaqqalma müddətini bir az uzatmaq olmazmı?

Getmək sözünü eşidəndə, həmişə bir az qəmginləşən Çalıquşu deyirdi:

– Buna imkan yoxdur, əmican. Hər necə olsa, Çalıquşu başqa bir yuvanın anasıdır, onun da yolunu gözləyənlər var...

Kamrana ən çox təsir edən şeylərdən biri də Fəridə ilə Nəcdət arasında yaranmış möhkəm dostluq idi. Onları bir-birindən ayıra bilmək üçün, gərək həmişə balaca oğlanın Çalıquşunun qucağında yatıb qalmasını gözləyə idilər.

Kamran bir gün Fəridənin Nəcdətlə az qala dava etdiyini eşitdi.

Çalıquşu əldən düşmüş halda uşağa deyirdi:

– Söylə görüm, Nəcdət, bir də söylə: xala, xala, xala...

Amma Nəcdət ona itaət etmir, inadcıl sarı başını yırğalaya-yırğalaya deyirdi: "Ana, ana, ana..."

Kamran bir az çəkinə-çəkinə dedi:

– İşin olmasın, Fəridə, qoy elə desin, nə ziyanı var? Biçarənin bəlkə belə söyləməyə ehtiyacı var.

Fəridə bir şey söyləmədən əyildi, uşağın başını uzun zaman sığalladı.

## V

Kamran bir səhər yenə pəncərələrin örtülü taxta qapılarına yavaşca dəyən daş səslərinə oyandı. O, bunun yalnız Fəridəyə məxsus oyandırma üsulu olduğunu bilirdi. Çalıquşu Kamranı yenə böyük qoz ağacının altında səhər qonaqlığına çağırırdı. Fəridənin ilk günlərində vəd etdiyi kimi, daha gözəl, armud qoxusu verən südün yanında xırdaca-xırdaca Anadolu çörəkləri, bir də riçala bənzəyən bir mürəbbə vardı.

Fəridə çörəklərin üstünə həmin bu mürəbbədən yaxıb, Kamrana verirdi və deyirdi:

– Bunlar mənim öz əlimin hünəridir. Bu çörəklərin adını bilmirəm, amma mürəbbəyə gülbəşəkər deyirlər.

Fəridə işini qurtardıqdan sonra yenə o alçaq mətbəx kürsüsünü tapıb, Kamranla üzbəüz, demək olar ki, onun lap ayaqlarının yaxınlığında oturdu və soruşdu:

– Kamran, indi mənə de görüm, gülbəşəkəri bəyəndinmi?



Kamran gülə-gülə cavab verdi:

– Bəyəndim.

– Sevdinmi?

– Sevdim.

– Bir də söylə!

– Sevdim.

– Elə yox, Kamran de ki: "Mən gülbəşəkəri sevdim!"

Kamran bu uşaqsayağı təkidin mənasını başa düşməyib gülə-gülə dedi:

– Mən gülbəşəkəri sevdim.

Fəridənin gözləri parıldayır, yanaqları od tutub yanırdı, o utandığından kirpikləri titrəyə-titrəyə, üzünü Kamrana yaxınlaşdırıb yalvaran bir uşaq kimi boynunu bükmüş və nəfəsi tutula-tutula deyirdi:

– Kamran, bir də de: "Mən gülbəşəkəri sevirəm".

Kamran, istədiyi verilməsə ağlayacaq uşaqların dodağı kimi, bu büzüşüb-titrəşən dodaqlara həyəcanlı bir heyrətdə baxırdı. O, səbəbini özü də bilmədiyi gizlin bir həyəcanla titrəyə-titrəyə dedi:

– Mən gülbəşəkəri çox sevirəm. Sənin istədiyin qədər sevirəm.

Fəridə bir uşaq kimi, sevinə-sevinə əllərini bir-birinə vurdu, amma dodaqları güldüyü halda, gözlərindən yaş gəlirdi. O, cüzi bir şey üçün ağlayan bir başqa adamı məzəmmətləyirmiş kimi, öz-özünə deyirdi: "Bu, nə dəlilikdir! Bir hünərin bəyənildiyi üçün, bu qədər sevinmək nə dəlilikdir?" O gözlərini silir, barmağı ilə onları qurutmağa çalışırdı. Amma yaş heç cür kəsilmirdi. Onun köksündən boğuq, fəryada bənzəyən bir hıçqırıq qopdu. Sonra da üzünü əlləri ilə tutub ağlaya-ağlaya içəri qaçdı.

Bir axşamüstü Kamran Əziz əmisi ilə bazardan qayıdırdı. Uşaqlar adət etmişdilər: onların gəldiyini uzaqdan görən kimi qapının içinə düzülüb, meyvə, şəkər, şokolad gözlərdilər.

Kamran bir-bir onların payını verəndə, ayaqlarının yanına xırda-xırda daşlar düşdüyünü gördü. Axırıncı uşağın payını verəndən sonra gözləri ilə ətrafını axtardı. Bu daşları atan Çalıquşu idi. O bir az aralıda, yekə bir şabalıd ağacının yanında durub, əli ilə Kamrana işarə edirdi:

– Kamran bəy, bunun mənasını bilirsiniz də? Axı biz də varıq!

Fəridə əyləndikdə və ya sataşdıqda, Kamrana həmişə "siz" deyə xitab edərdi. O gülə-gülə sözünə davam etdi:

– Siz məni daha istefaya çıxartdınız. Bəs mənim payım hanı? Əfəndim, elə bilirsiniz ki, köhnə qəbahətləriniz yaddan çıxmışdır? Ya mənim sükut haqqımı verəcəksiniz, ya da o köhnə çinar ağacı əhvalatı bu gecə süfrədə açılacaqdır.

Çalıquşu on il bundan əvvəl həmin bu qapının yanında etdiyi kimi, dilini dişlərinin arasına sıxıb, şiş qırmızı ucunu göstərə-göstərə gülürdü.

Kamran yay paltosunun cibindən bir qutu çıxarıb gülə-gülə dedi:

– Verdiyim sədəqələr qəbula keçibmiş, Fəridə! Nə gözəl təsadüf oldu! Mən də bu gün bir qutu likörlü konfet tapmışam. Heç kəsə göstərməyib özüm yeyəcəkdim, amma madam ki, belə bir təhdidə düçar oldum, neyləyim...

Fəridənin üzündə bir uşaq sevinci parladı:

– Nə gözəl oldu, nə gözəl oldu!

– Amma bir şərtim var, Çalıquşu. Onları yenə mən özüm sənə yedirdəcəyəm.

– Bu necə ola bilər?

– Lap keçmişdə, sən on iki-on üç yaşında olanda, necə olurdu?

Kamran bu sözləri söyləyəndə, konfetlərdən birini Fəridəyə uzatmışdı. Çalıquşu bir neçə saniyə duruxdu. Sonra başını uzadıb, yavaşca titrəyən dodaqlarını açdı. Amma sonra Kamran nə qədər təkid etdisə, daha ikincisini yedirdə bilmədi.

Fəridə dedi:

– Qutunu mənə ver, nahardan sonra onu Nəcdətlə bərabər yeyərik.

– Fəridə, gəl səninlə birlikdə o divarın yanına gedək. Bir gör dəniz nə gözəldir. Həm söhbət edərik, həm də tamaşa edərik.

– Çox yaxşı. Amma qoy əvvəl bir qutunu içəri aparım. Bircə dəqiqə...

Kamran ilk dəfə ona toxunmağa cəsarət etdi, biləyindən tutub dedi:

– Xeyr, Fəridə. Sənə etibarım yoxdur. Bəlkə "bir dəqiqə, indi gəlirəm" deyib daha gəlməyəcəksən, ya da kim bilir nə vaxt və necə gələcəksən. Görürsən ki, sənə inanmıram.

Fəridə bir şey söyləməyib başını aşağı saldı, onunla bərabər yavaş-yavaş getməyə başladı.



Kamran bu axşam fikirli və qəmgin idi. Özünü saxlaya bilmir, qırıq, rabitəsiz sözlərlə daim şikayət edirdi. Bir ara qaranlıqlaşmağa başlayan üfüqdə uçan bir dəstə quşu göstərib dedi:

– Fəridə, bir azdan sonra sən bu quşlar kimi uçub gedəcəksən, elə deyilmi?

– ...

– Çox yaxşı, bəs burda qoyub getdiyin xalalarından, xala uşaqlarından, köhnə yoldaşlarından, uşaqlığını keçirdiyin bu yerlərdən ayrılmaq sənin xoşuna gəlirmi?

– ...

– Sən öz yuvanda başqalarını xoşbəxt edib, özün də xoşbəxt yaşadıqda, xaraba və bədbəxt etdiyin bu yuvanın halı səni heç narahat etməyəcəkmi?

Fəridə cavab vermir, hətta dinləmirdi də. O, konfet qutusunun altına bir karandaş parçası ilə şəkillə çəkir, nə isə qaralayırdı.

Kamran acı bir şikayətlə dedi:

– Cavab vermirsən, Fəridə?

Çalıquşu fikirli-fikirli onun üzünə baxıb dedi:

– Bağışla, Kamran, fikrim başqa yerdəydi. Nə söylədiyini dinləmədim. Vaxtı ilə eşitdiyim bir köhnə mahnı vardı ki, unutmuşdum. İndi bilmirəm nə üçün, o mahnı birdən-birə yadıma düşdü. Unutmamaq üçün, onu yazırdım. İstəyirsən, oxu. Mən üşüməyə başladım. İçəri gedirəm.

Kamran qutunun altında Fəridənin qarışıq xətti ilə yazılmış bu dörd misranı gördü:

> Ataş doludur, açma mənim ağzımı, ey yar,
> Zalım, mənə söylətmə ki, qəlbimdə nələr var!
> Bilməzmiyəm etdiklərini, eyləmə inkar,
> Zalım, mənə söylətmə ki, qəlbimdə nələr var!..

## VI

Bu hadisənin üstündən dörd gün keçmişdi. Fəridə, demək olar ki, Kamrandan qaçırdı. Kamranın Fəridə ilə tək qala bilmək üçün icad etdiyi bütün bəhanələri, bütün hiylələri o, boşa çıxarırdı. Başqalarının yanında da danışmaq lazım gələndə, Kamranın üzünə baxmadan, onunla göz-gözə gəlməkdən çəkinirdi.

Dördüncü günün axşamı yaxınlaşırdı. Evdəkilər, uşaqlı-böyüklü o gün yenə bir yerə qonaq çağırılmışdılar. Onların axşam azanından əvvəl qayıtmalarına ehtimal yoxdu. Bayırda şiddətli külək, tozu dumana qatırdısa da, Kamran buna baxmayıb evdə oturmamış, gəzməyə çıxmışdı.

Külək uzaq təpələrdə vıyıldayır, ağaclar gözə görünməz şiddətli bir yağışa tutulmuş kimi xışıldayır, göz işlədikcə uzanıb gedən yolun üstündə toz buludları uçuşurdu.

Kamranın üzünə, gözlərinə toz dolur, o, hər dörd-beş addımdan bir durub arxasını küləyə çevirməyə məcbur olurdu. O, çılpaq bir təpəciyin kənarında yekə bir qaya kahası gördü. Qayanın yanında bitmiş cılız bir ağac daim çırpınır, sısqa qollarını yelləndirirdi. Kamran yolundan dönüb ora getdi. Qayanın bir guşəsində küləkdən daldalanıb oturdu.

Ətrafda bu qədər gurultu, bu qədər çırpıntı olduğuna baxmayaraq, Kamran səhranın bu gün bomboş olduğunu görürdü... Bomboş, dümdüz...

Kamran heç bir vaxt təbiəti bu qədər ruhsuz, onun gözəl şeylərini bu qədər lüzumsuz, həyatı bu qədər ümidsiz görməmişdi!..

Lap uzaqda, yolun dənizə yaxın, suyun içindən keçən kimi görünən bir yerində onun gözünə ala-bəzək geyinmiş bir qadın kölgəsi sataşdı. Tamamilə səbəbsiz olaraq, o da yoxuşdan endi, kölgəyə doğru getməyə başladı.

Bir azdan sonra Kamran Nərminin açıq-çəhrayı rəngli çarşabını tanıdı. Yəqin Nərmin də onu görmüşdü ki, uzaqdan çətirini yelləyirdi.

Görəsən Nərmin nə üçün o birilərdən ayrılmışdı, o niyə tək gəlirdi?

Kamran bununla maraqlanıb daha sürətlə yeriməyə başladı.

Gənc qız küləyin qarşısında başını əyir, bir əli ilə ətəklərini tutmağa çalışır, o birisi ilə isə çarşabının quş qanadları kimi çırpınan pelerinini çəkib saxlayırdı.

Kamran qızın üzünü görəndə, birdən-birə ürəyi bərk-bərk döyündü. Nərminin açıq-çəhrayı çarşabını Fəridə örtmüşdü.

Onlar lap bir-birinə yaxınlaşdıqda, birdən külək Fəridənin çətirini əlindən aldı. Çalıquşu çığırıb onu tutmaq istədi. Amma birdənbirə çarşabının ətəkləri əlindən çıxdı, pelerini uçdu, saçları açıldı. Kamran lap vaxtında özünü yetirdi. Çətiri bir kolun yanından tutdu.



Öz yay paltosu ilə küləyin qabağını kəsib, Fəridənin çarşabını düzəltməyinə kömək etdi. Çalıquşu dedi:

– Kamran, necə vaxtında gəlib çıxdın! Az qalmışdı ki, külək məni, doğrudan da, çalıquşu kimi uçurdub aparsın...

Fəridə yenə də nə isə söyləmək istəyirdi. Amma külək onu başını aşağı əyməyə, gözlərini, dodaqlarını yummağa məcbur etdi. Kamran hələ də paltosu ilə onu daldalaya-daldalaya yeriməyə başladılar.

Fəridə daha danışa bilərdi. Amma elə görünürdü ki, onun indi danışmaqdan çox, gülməyə ehtiyacı vardı. O, özünü saxlaya bilmir, bir başqa külək hücumuna düçar olmuş kimi gülürdü. Bunun səbəbini qırıq-qırıq danışıb dedi:

– Bilirsənmi, nə üçün gülürəm, Kamran? Biz qonaqlıqda idik. Birdən yadıma düşdü ki, mənim bazarda bəzi mühüm işlərim var. Amma çiynimdə yeldirmədən başqa bir şey yoxdu. Təbii ki, bu üstbaşla bazara çıxmağa cəsarət edə bilmədim. Yazıq Nərmin mənə yaxşılıq etmək istədi. Çarşabını təklif etdi. Bir az bundan əvvəl, üzüm örtülü halda bazardan çıxırdım. Gördüm ki, bir zabit dalımca gəlir. Lap yanımdan keçəndə dedi:

– Nərmin xanım, siz burdasınız? Bu nə gözlənilməz bir səadətdir?

Nərminin mənə yaxşılıq etmək istədiyi halda, işinin üstünün açılması mənə o qədər qəribə gəldi ki, özümü saxlaya bilməyib güldüm. Yazıq zabit səhv etdiyini başa düşdü. Məndən elə qaçmağa başladı ki... Əlbəttə! Nərminin yerində yaşlı bir qadın görəndə...

Kamran gülümsünə-gülümsünə onu dinləyirdi. Fəridə davam etdi:

– Amma mən qızın sirrini sənə açmaqla pis iş gördüm. Çərənçi dilim söz saxlaya bilmir ki... Əzizim, Allah eşqinə, bunu heç kimə danışma, yaxşımı? Yalnız sonralar, kim bilir, bəlkə bu qızcığaz da onu istəsə... Onda onlara bir yaxşılıq edə bilərsən...

– Sənə söz verirəm, Fəridə. Ancaq Nərmin hələ o qədər uşaqdır ki...

Fəridə şikayətli bir səslə dedi:

– Ola bilər, amma belə uşaqların qəlbi heç göründüyü kimi olmur...

Bu sözdən sonra ikisi də susdu. Yenə yan-yana yeriməyə başladılar.

Külək yavaş-yavaş yatır, onlar da addımlarını yavaşıdırdılar. Elə bil ki, yolun qurtarmasından qorxurdular. Kamran məhzun-məhzun belə düşünürdü: "Bayaq bu təbiəti bomboş, özümü lüzumsuz bir adam

kimi görürdüm... İndi bu açıq-çəhrayı rəngli uşaq çarşabı içində titrəyən kimi görünən bu incə, kiçik gözəli küləkdən bir azca qoruya bilmək mənə inanılmaz dərəcədə böyük səadət verir. Bu, həmişə belə ola bilərdi. Bu gözəl kiçik məxluqu mən istəsəydim, bəxtiyar edə bilərdim, özüm də bəxtiyar olardım... Hayıf!"

Getdikcə addımlarını yavaşıdıb fikirli-fikirli gedən Fəridə təkrar danışmağa başladı, o heç bir münasibəti olmayan şeylər söyləyirdi:

– Hər necə olsa, havamı dəyişmək məni çox əyləndirdi. Hər halda bir-iki il mənə kifayət edər... Sonra xalalarımı, sizin hamınızı yenə ürəyim istəyəndə təkrar gələcəyəm. Beləliklə, illər gəlib keçəcək, mənim saçlarım yavaş-yavaş ağarmağa başlayacaq, səninki də təbii elə olacaq. Yenə biz bir-birimizi görəndə şadlanacağıq. Amma ayrılanda, bəlkə o qədər də qəmlənməyəcəyik... Kim bilir, bəlkə sonralar da tamamilə qayıdıb gəldim. Elə deyilmi? Bu, həyatdır, hər şey ola bilər... Onda sən mənim ağıllı-başlı ağabəyim olarsan... Böyüklər bir-bir yox olduqca, biz bir-birimizin qədrini daha da çox bilərik. Bir-birimizin əhəmiyyətsiz, kiçik nöqsanları da bizə xoş gələr. Beləliklə, ömrümüzün son illərini uşaqlığımızı keçirtdiyimiz yerlərdə...

Fəridə danışdıqca, onun büllur səsindəki gözəgörünməz zədə daha da dərinləşir və bu, onun sözlərinə üstüörtülü bir vəsiyyət kimi, məhzunluq verirdi.

Onlar yolda yanında uşaq olan bir dilənçi qadına rast gəldilər. Uşaq ayaqyalın idi. Onların dövrəsində yüyürə-yüyürə, quru əli ilə Fəridənin ətəklərini dartışdırırdı.

Kamran ona pul vermək üçün dayandı. Fəridə balaca, kimsəsiz uşaqlarla çox oturub-durduğundan onlara öyrəşmişdi. Buna görə o, uşağın başını sığallamaqdan iyrənmədi. Onlar təkrar getməyə başlayanda, dilənçi qadın dua edib dedi:

– Allah sizi bir-birinizdən ayırmasın! Allah bu gözəl xanımı sənə bağışlasın...

Onlar qeyri-ixtiyari durdular. Könlünün bütün ağrısı gözlərində əks olunan Kamran dilləndi:

– Fəridə, eşitdinmi qadın nə dedi?

Bu suala iki damcı göz yaşı cavab verdi.

Onlar, daha yanaşı getməyə cəsarət etməyib, bir-birindən bir qədər aralı yollarına davam etdilər.



Onlar köşkün önünə gələndə axşam idi. Hava xeyli sakitləşmiş, küləyin uğultusu kəsilmişdi. Ağaclar bu uzun yorğunluqdan sonra, sanki yuxuya gedir, qayalarda zəif bir sədəf parıltısı yanıb-sönürdü.

– Hələ tezdir, Fəridə. Onlar şəhərdən qayıtmayıblar. İstəyirsən, səninlə o qayaların yanına gedək?

Fəridə başını aşağı salıb taqətsiz halda xahiş etdi:

– Mənə daha icazə ver, Kamran. Gedim soyunum. Külək mənim başımı gicəlləndirmişdir.

Bir az bundan əvvəl Fəridənin qıvraq, oynaq vücudunun ətrafında canlı bir məxluq kimi çırpınan, çiyinlərindən uçub dizlərinin ətrafına sarılan, onu həssas, zərif dəcəl hərəkətlərlə qucaqlayıb çırpınan o açıq-çəhrayı çarşab, indi puç olmuş bir arzu kimi, cansız bir halda onun çiyinlərindən, dizlərindən sallanırdı.

Fəridənin daha irəliyə getməyə taqəti qalmamışdı, o, qapının içindəki iri bir daşın kənarında oturdu. Çətirinin ucu ilə qumların üstünə öz ümidsizliyi qədər dərin, öz həyatı kimi qırıq cizgilər çəkməyə başladı.

Bir az sonra Kamranın da gəlib onun yanında oturduğunu, çiyninin çiyninə toxunduğunu, əlinin əlini tutduğunu hiss edəndə, Fəridə bir azca həyəcanlandı. O, çaşqın-çaşqın ətrafına baxıb qaçmaq istəyirdi. Amma bu fikirdən daşındı.

Kamran onun bir neçə dəfə dərindən köksünü ötürdüyünü duydu. Onun əvvəlcə vəhşiləşən gözlərinə birdən-birə çarəsiz bir məğlubiyyət acizliyi çökdüyünü gördü. Fəridə buz kimi soyumuş və titrəyən əlini köhnə nişanlısının əlindən çəkmədi. Onlar ikisi də gözlərini yumdular. Kamran gözlərinin qaranlığı içində qığılcımlar uçuşa-uçuşa, belə düşünürdü: "Bu ovcumun içində titrəyən əl, Fəridənin əlidir. Deməli ki, insanın bir röya saydığı şeylər də mümkün ola bilərmiş!" O, gözlərini təkrar açdı. Fəridə ağlaya-ağlaya yuxuya getmiş uşaqlar kimi arabir içini çəkirdi. O, getdikcə ağırlaşan başını Kamranın çiyninə qoymuşdu. Onun halında, əllərinin süstləşməsində məzlum bir təslimolma vəziyyəti vardı. Kamran arabir tərpəşdikcə, Fəridənin ona daha artıq sığındığını, əlini daha bərk sıxdığını hiss edirdi. Kamran nə üçün belə söylədiyini özü də bilmədən, lap yavaşcadan dedi:

– Mən gülbəşəkəri sevirəm!..

Yanlarındakı qapının birdən-birə açılması onları bu yuxudan oyandırdı. Fəridə, tüfəng səsi eşitmiş bir quş kimi yerindən sıçradı. İçəriyə hamıdan qabaq Nərmin girdi. Çalıquşu həyəcanlı bir sevinclə onun boynuna atıldı. O, gənc qızı qolları arasında sıxır, saçlarını, gözlərini dalbadal öpürdü. Heç kəs bu sevincin səbəbini başa düşmürdü. Fəridənin də bir az əvvəlki yorğunluğundan əsər qalmamışdı. O, xırdaca uşaqların qollarından yapışıb, onları çığırda-çığırda havaya atıb-tuturdu. Evə girəndə, Fəridə bir az ayaq saxladı. Kamranın yaxınlaşmasını gözlədi. Sonra içəri qapının alaqaranlığında lap yavaşdan ona dedi:

– Mersi, Kamran!

## VII

Ertəsi gün Fəridə yenə tək şəhərə getmişdi. Günortadan sonra qayıdıb köşkə gələndə, çox yorğun görünürdü. Buna baxmayaraq, uşaqları yenə ətrafına yığdı, arxa bağçada yekə bir yelləncək qurdu.

Kamran Əziz bəyin qoca, çərənçi bir qonağından öz yaxasını qurtarıb gələndə, yelləncəkdə Fəridə ilə Nəcdət yellənirdi. Fəridə yelləncəyi var gücü ilə yelləndirir, Nəcdət çığıra-çığıra, bir pişik balası kimi onun boynuna dırmaşırdı.

Kamran Ayşə xalanın lap on il əvvəlki kimi, belə çığırdığını eşitdi:

– Fəridə, qızım, dəliliyi burax, uşağı yıxarsan!..

Çalıquşu ona fikir verməyib, bütün ruhu ilə əylənə-əylənə, belə cavab verdi:

– Aman, ay xala, nəyinizə gərəkdir... Nəcdətin əsil sahibi şikayət etmir ki? Elə deyilmi, Kamran?

Fəridə uşaqların birini qoyub, o birini götürür, hamısının növbə ilə könlünü almaq istəyirdi.

Uşaqların ən böyüyü, amma ən qorxağı olan Nərmini də xeyli bağırtdıqdan sonra Fəridə yelləncəkdən düşdü. Onun saçları tərdən qıpqırmızı olmuş alnına, yanaqlarına yapışırdı. Fəridə əllərindəki ip yerlərinin ağrısını azaltmaq üçün, ovuclarını bir-birinə sürtə-sürtə dedi:

– Elə bilirəm ki, daha heç kəs qalmadı.

Kamran tərəddüdlə dilləndi:

– Məni unutdun, Fəridə.



Çalıquşunun dodaqlarında yüngül bir təbəssüm oyandı. O, "olmaz" demək istəmir, "haydı" deməyə də cəsarət edə bilmirdi. O, gözləri ilə ipi, ağacın budaqlarını yoxlayıb, ətrafdan təşviq gözləyirdi.

– Bilmirəm, necə olar! İplər elə bilirəm ki, ikimizə davam gətirməz, elə deyilmi, Müjgan?

Müjgan əli ilə ipi tutdu, gözlərini Kamranın gözlərinə dikib dedi:

– İş iplərdə deyil, amma Fəridə çox yorğundur. Kamran, bir onun halına bax! Elə bilirəm ki, yorğun bir qadını, daha artıq yormaq günah olar.

Fəridə əvvəlcə: "Əhəmiyyəti yoxdur, nə olar!" demək istəyirdi. Amma sonra Müjganın sözlərində və baxışlarındakı mənanı başa düşdü. Təqsirli bir uşaq kimi utanmış, qorxmuş halda başını aşağı saldı və yavaşcadan dedi:

– Hə, çox yorulmuşam. Sonra xəstələnərəm.

O, xəstə qadına bənzəyirdi, gözlərinin bir az əvvəlki şən parıltısı sönmüşdü.

Hələ də Kamrana baxmaqda olan Müjgan yavaşcadan dedi:

– Kamran, sən mənim güman etdiyimdən də çox insafsızsan!

Kamran da, eşidən olmasın deyə, eyni yavaş səslə soruşdu:

– Nə üçün?

Müjgan onu bağçanın o biri tərəfinə çəkib dedi:

– Biçarənin halını görmürsənmi? Onun həyatını, könlünü bu qədər didib-parçaladın, kifayət deyilmi?

– Müjgan!..

– Bu illər içində onu heç birimiz bir dəfə də axtarmadıq. O, həsrət dərdinə dözə bilmədi, küskünlüyünü, əzablarını unudub bizim yanımıza qayıtdı. Bura gələndə, demək olar ki, yaxşılaşmışdı. O köz bağlamış yaranı sən təkrar qanatdın.

Müjgan, gözləri yaşla dolmuş halda, sözünə davam edib deyirdi:

– Mən o biçarənin sabah burdan çıxıb gedəndə, çəkəcəyi əzabı fikirləşirəm, ona görə deyirəm... Bəli, Kamran, Fəridə sabah gedir. Hər şey hazırdır. Mən də bilmirdim. Fəridə bu dəfə mənə nə qəlbinə, nə həyatına dair heç bir şey söyləmir. Mən də bayaq xəbər tutdum. Bu ani qərarın səbəbini soruşdum. Ərindən gəlmiş bir məktubdan danışır. Ancaq bilirəm ki, yalandır. Fəridə səndən qaçır. Biçarə daha dözə bilmir. Sənə bunları söyləməkdən bir məqsədim var, Kamran.

Mən qorxuram ki, bu zəruri ayrılıq bir az çətin olsun. Fəridə çox qeyrətli, inanılmaz dərəcədə qeyrətli bir qadındır. Amma, hər necə olsa, qadındır. Həyatını qırdığın o biçarəyə sənin bir borcun var. Bu ayrılıq günlərində sən gərək qüvvətli və dinc olasan. Ona mümkün olduğu qədər ürək-dirək ver!

Kamran bu sözləri eşidəndə, gözlərinin içinə qədər saralmışdı. O dedi:

– Sən yalnız Fəridənin həyatının qırıldığından danışırsan, bəs mənimki?

– Bunu sən özün istədin.

– Bu qədər insafsız olma, Müjgan!

– Sən elə güman edirsən ki, bir şey etmək mümkün olsaydı, mən geri durardım. Amma heç bir çarəmiz yoxdur. Fəridə indi bir başqasının arvadıdır. Biçarənin ayağı bağlıdır. Görürəm ki, sən də çox bədbəxtsən. Daha sənə acığım tutmur, amma, nə edə bilərik?!

Fəridənin sabah gedəcəyini hamı bilmişdi. Amma heç kəs bundan danışmırdı. Axşam yeməyini dərin bir sükunət içində yedilər. Bu gecə daha da qocalmış və düşkünləşmiş görünən Əziz bəy Fəridəni öz yanında oturtmuşdu. Tez-tez onun çiyinlərini sığallayır, çənəsindən tutub başını özünə sarı çəkərək gözlərinin içinə baxır və deyirdi:

– Ah, Çalıquşu, bu qoca vaxtımda mənim ürəyimi dərdli elədin!..

O gecə hamı tezdən öz otağına çəkildi.

## VIII

Gecə yarıdan keçirdi. Köşkdəkilər çoxdan yatmışdılar. Müjgan, çiynində nazik bir şal, əlində kiçik bir şamdan öz otağından çıxdı. Pəncələri üstündə yavaş-yavaş və dayana-dayana Kamranın otağının qapısına gəldi. Otaqda nə səs, nə işıq vardı. Müjgan əlini qapıya yavaşca vurub, pıçıltıya bənzər bir səslə dedi:

– Kamran, qardaşım, yatıbsanmı?

Qapı həmin saat açıldı. Kamran soyunmamışdı. Şamın azacıq işığında onun üzü daha solğun və yorğun görünürdü. Bu zəif işıq gözlərini qamaşdırırmış kimi gözlərini qırpırdı.

– Hələ yatmayıbsanmı, Kamran?



– Görürsən də.

– Lampanı niyə söndürmüsən?

– Bu gecə işıq gözlərimi yandırır.

– Qaranlıqda nə edirsən?

Kamran acı-acı gülümsünüb dedi:

– Heç ümidsizliyimi, zəhərimi həzm etməyə çalışıram. Bəs sən niyə bu vaxt gəlibsən, nə istəyirsən?

Müjgan həyəcanını zorla saxlamağa çalışıb dedi:

– Fövqəladə bir hadisə var. Təşvişə düşmə, Kamran, özünə gəl, söyləyəcəyəm.

Onlar otağa girdilər. Müjgan şamı yerə qoydu. Sonra yavaşca qapını bağladı, hardan danışmağa başlayacağını bilməyən bir adam kimi tərəddüd edə-edə, lakin sakit görünməyə çalışaraq dedi:

– Təşvişə düşmə, əzizim Kamran. Sənə pis bir şey deməyəcəyəm, əksinə, çox yaxşı bir xəbərdir. Amma belə həyəcanlansan...

Müjgan onu sakitləşdirməyə çalışdığı halda, özü təşvişə düşür, gözlərində yaşlar görünür, səsində titrəyiş duyulurdu:

– Kamran, bir az bundan əvvəl Fəridə mənim otağıma gəlmişdi. Halında bir fövqəladəlik vardı. O mənə dedi: "Müjgan, mən bu günə qədər dünyada qəlbimi yalnız sənə aça bilmişəm. Səndən yaxın bir adamım yoxdur. Sənə açmalı bir sirrim var. Sabah mən gedənə qədər sən o sirri saxlamalısan, amma sonra danışa bilərsən. Günlərin bir günündə mənim birdən-birə qayıdıb gəldiyimi görəndə siz heyrət etdiniz. Mən sizə dedim ki, daha həsrətə dözə bilmədim. Bu da doğrudur. Amma gəlməyimin əsil səbəbi bu deyildi. Mən bura, üç ay bundan əvvəl, dünyada ən çox sevdiyim bir adama ölüm yatağı başında verdiyim vədi yerinə yetirmək üçün gəldim. Müjgan mən sizə yalan söyləməyə məcburdum. Mən indi dul qadınam. Ərim üç ay bundan əvvəl xərçəng xəstəliyindən ölmüşdür".

Fəridə bu sözləri söyləyəndə, başını mənim çiynimə dayayıb hıçqıra-hıçqıra ağlayırdı. O, göz yaşları içində sözünə davam etdi. Doktorum öldüyü gün məni yanına çağırdı və dedi: "Fəridə, mən sənin zərurət və ehtiyac içində qalacağından daha qorxmuram, çünki mənim nəyim varsa, sənə qalır. Bu irs sənin kimi sadə, təvazökar bir qadının ömrünün sonuna qədər gen-bol yaşamasına kifayət edər. Amma başqa bir şey də var, Fəridə. Kimsəsiz bir qadının, hətta varlı da olsa,

tək yaşaması asan deyildir. Bir də pul başqa, şəfqət isə başqa şeydir. Fəridə, əgər mənim rahat ölməyimi istəyirsənsə, indi mənə and iç ki, mən öləndən sonra İstanbula, öz ailənin yanına qayıdacaqsan. Əgər həmişəlik onlarla bir yerdə qalmaq istəmirsənsə, heç olmazsa, iki-üç ay qal. Dünyanın işini bilmək olmaz. Bəlkə, bir gün onlara işin düşər. Yaxud bir gün ailə şəfqətinə ehtiyacın olar. Sözün qısası, Fəridəciyim, əgər mən sənin öz ailənlə barışacağından əmin olsam, daha rahat ölərəm, bu dünyadan bir nigarançılığım qalmaz". Mən onun bu son arzusunu yerinə yetirməyə ağlaya-ağlaya söz verdim. Amma doktorum bununla da kifayətlənmədi. Köhnə nişanlımla da barışmağımı istəyir və deyirdi ki, bəlkə bir gün o, mənim üçün bir böyük qardaş olar. Mənə möhürlənmiş bir paket verib tapşırdı ki, öz əlimlə Kamrana verim. Özü də mənə möhkəm tapşırdı: "Bu paketin içində bir köhnə könül dəftəri var ki, vaxtı ilə məni çox mütəəssir etmişdi. Sənin köhnə nişanlının da bunu mütləq oxumasını istəyirəm. And iç ki, bunu bu şəkildə ona təslim edəcəksən". Müjgan, əhvalat bundan ibarətdir. İndi sən hər şeyi bilirsən. Mənim doktorum, saf və təmiz bir adamdı. O güman edirdi ki, məni ailəmlə barışdırmaqla, həyatımın yetimliyinə bir əlac edəcəkdir. O biçarə təxmin edə bilmirdi ki, bu, mənim üçün nə qədər acı olacaqdır. Mən doktorumu Munisənin yanında dəfn etdikdən sonra İstanbula gəldim. Orada eşidib öyrəndiyim şeylər mənə göstərdi ki, bu vəsiyyəti yerinə yetirmək mənim üçün çox çətin olacaqdır. Mən Kamranın arvadının vəfatını bilmirdim. Həm də eşitdim ki, mənim barəmdə də bəzi pis sözlər çıxarıblar. Kamranın arvadı sağ olsaydı, mənim kimi əri yenicə ölmüş bir dul qadının öz ailə ocağımızda bir neçə gün qonaq qalması təbii görünə bilərdi. Halbuki, indi hamınız, hətta Kamran da, hətta sən də mənim barəmdə necə pis fikirlərə düşə bilərsiniz. Müjgan, sən ki, məni hamıdan yaxşı tanıyırsan. İndi yəqin edəcəksiniz ki, illər uzunu özbaşına gəzib-dolandı, başına cürbəcür macəralar gəldi, kim bilir, necə pis bir haqq-hesabla özünü qoca bir kişiyə satdı. İndi öz köhnə nişanlısının dul qaldığını eşidən kimi, yenə də həmin o pis haqq-hesabla bizim aramıza qayıtdı. Halbuki, beş il əvvəl bizi haqsız lənətlərlə, həqarətlərlə pisləyib çıxıb getmişdi. Sizin içərinizdə belə düşünməyən, mərhəmətli və həssas olanların qarşısında da mənim həmişə başım aşağı olacaqdır...".



Müjgan getdikcə artan bir həyəcanla sözlərinə davam edib dedi:

– Ay Kamran! Fəridənin mənim qucağımda, ümidsiz göz yaşları içində çırpına-çırpına bunları necə söylədiyini gərək özün görüb eşidəydin! Xüsusilə onun son sözlərini dünyada unuda bilməyəcəyəm. Fəridə dedi: "Mənim ailə ocağından necə pərişan hisslər içində qaçdığımı, həyatımın necə dərdlərlə dolduğunu, necə bir acı məcburiyyət qarşısında ərə getdiyimi danışmaq mümkün deyil. Yaşı iyirmi beşə çatmış, beşillik həyatının bir qismini macəralar içində, bir qismini ərinin evində keçirmiş bir qadın iddia etsə ki, o, üzünə, vücuduna bir kişi dodağı toxunmamış bir gənc qızdır, yəqin ki, hamı ona gülər. Hamı ona adi bir yalançı deyər. Elə deyilmi, Müjgan? Bunun əksini sübut etməyə imkan yoxdur. Mən daha artıq danışa bilməyəcəyəm. Doktorun Kamran üçün göndərdiyi paketin içində nə olduğunu mən bilmirəm. Amma bəlkə burada çox mühüm bir şey var. Mən onun son arzusunu bu qədər əzab və iztirabla yerinə yetirdim. Amma axırıncı vəsiyyətini yerinə yetirib bunu öz əlimlə Kamrana verməyə taqətim qalmadı. Sən bunu sabah, mən paroxoda minəndən sonra, hər şey bitəndən sonra, Kamrana verərsən".

Müjgan susdu. O, ən acı hadisələr qarşısında da hissiz kimi dərin bir sükunət və dözümlülük göstərən gənc bir qadındı. Amma indi o da uşaq kimi ağlayırdı. Müjgan titrəyən əllərini Kamrana uzadıb dedi:

– Kamran, biz daha Fəridəni gərək buraxmayaq. Lazım gəlsə, lap zorla saxlayaq. Keçmişdəki hadisələr nə olursa olsun, daha siz bir-birinizdən ayrılmamalısınız. Mən görürəm ki, siz daha bu ayrılığa dözə bilməzsiniz!

Kamran az qala keyimişdi. O elə bir xəyalpərəst idi ki, ən əhəmiyyətsiz bir xülyanı, ən sönük bir xatirəni bəzən aylar uzunu öz xəstə ruhuna qida edərdi. İndi belə bir adam üçün bu qədər ümid, bu qədər həyəcan həddən artıq idi. O, uzun bihuşluqdan oyanan xəstələr kimi, heç bir şey anlamayan, düşünməyən gözləri ilə qaranlığın içində ətrafına boylanır, onları tez-tez qırpırdı.

Müjgan şalının içindən qırmızı surğucla möhürlənmiş böyük bir zərf çıxarıb dedi:

– Fəridəyə yalançı çıxıb bunu sənə indi verirəm.

Müjgan çiynindəki şalını düzəldib otaqdan çıxmaq istəyirdi. Kamran onu əli ilə saxlayıb dedi:

– Müjgan, səndən bir ricam var. Bizim macəramızla hamıdan çox sən məşğul olmusan. Gəl bu zərfi səninlə birlikdə açaq, içində nə varsa, səninlə bir yerdə oxuyaq.

Müjgan stolun üstündəki lampanı yandıranda, Kamran zərfi açdı. İçindən bir məktubla, ikinci böyük bir zərf çıxdı. Qalın xətlə yazılmış olan bu məktub Kamrana aid idi:

"Kamran bəy, oğlum!

Sizə bu kağızı yazan adam ömrünün bir qədərini kitablara, bir qədərini də həyat deyilən çox mənasız savaşda yaralananlara həsr etmiş, guşənişin bir qocadır ki, bu məktub sizə çatmamışdan xeyli əvvəl bu dünyadan "köçünü çəkmiş" olacaqdır. O adam çox sevdiyi bir biçarəyə axırıncı dəfə yaxşılıq etmək ümidilə, son nəfəsində bu sətirləri yazmaq zəhmətinə qatlanmışdır. Dinləyin.

Bir gün əldən-ayaqdan uzaq kəndin xaraba bir evində mən işıq qədər təmiz, xəyal kimi gözəl bir kiçik İstanbul qızına rast gəldim. Qışın oğlan çağında, iri-iri qar yağan bir gecədə, siz otağınızın pəncərəsini açıb qaranlıqdan bir bülbül səsi eşitsəniz, nə duyarsınız? Bax, mən də o dəqiqədə belə bir şey duydum. Bu məsum, zərif, nəcib qız uşağını, qüdrətin bu gözəl və misilsiz zinətini bu qaranlıq kəndin zibilliyinə hansı məlun tale və ya təsadüf atmışdı? O qızın ruhu ağladığı halda, gözləri, dodaqları gülürdü. O, məni ağla batmayan fədakarlıq nağılları ilə aldatmağa çalışırdı. Ah, yazıq kiçik qız! Məgər mən sənin İstanbulda qoyub gəldiyin o qanmaz, sarsaq sevgilinəm ki, belə sözlərə aldanım? Onun yuxudan doymamış uşaqlar kimi xumar gözləri, qeyri-müəyyən, dalğın halları, xəyalı bir dodağın busəsi ilə titrəyən kimi görünən dodaqları, xəyalı bir qucağa sığınan kimi hərəkətləri mənə hər şeyi söylədi.

Mən keçmiş nağıllardan öz Leylisini axtarmaq üçün səhralara düşən Məcnunu hərdən xoş bir ürək yanğısı ilə xatırlardım. Bu gündən sonra daha onu yaddan çıxardım. İndiki zamanda, məzarlıqlarla dolu qaranlıq kəndlərdə imkansız bir eşq röyası axtaran bu şəffaf alagözlü, gözəl rəngli məsum, nəcib "Leylini" tez-tez xatırlamağa başladım. İki ildən sonra ona bir də təsadüf etdim. Onun xəstəliyi



sağalmır. Yazıq uşağı gizlin-gizlin yeyib qurtarırdı. Ah, mən onu ilk dəfə gördüyüm gün, axı niyə atımın tərkinə mindirib zorla İstanbula, öz evimə gətirməmişdim! Bu mənim səhvimdir!

Mən ona ikinci dəfə təsadüf etdikdə, daha iş-işdən keçmişdi, siz evlənmişdiniz. Mən öz-özümə deyirdim ki, qızdır, uşaqdır, gəncdir, bəlkə zaman keçdikcə unudar. O, bir dəfə xəstələndikdə, təsadüfən əlimə keçən dəftəri bu yaranın nə qədər dərin olduğunu mənə göstərdi. Bu dəftərə o bütün həyatını yazmışdı. Onda, mən daha ümidimi kəsdim: onu öz balam kimi müalicə etmək istədim. İnsanların fitnə-fəsadı buna da imkan vermədi. Bu ara mən yaxşı bir adam tapıb onu ərə vermək istədim. Amma bu, təhlükəli idi. Çünki əri nə qədər insan adam olursa olsun, ondan eşq istəyəcəkdi. Hərçənd mənim qızcığazım elə eşq üçün doğulmuşdu, bunun üçün də ölürdü. Amma yad bir adamın eşqi bu həssas qıza ağır bir əzab ola bilərdi. Birini sevə-sevə, bir başqasının qucağına düşmək onu bəlkə də öldürə bilərdi. Bu təhlükə qarşısında çarəsiz qalıb, mən onu öz nikahım altına aldım. Bütün ömrüm boyu onu müdafiə edəcəkdim. Mən öləndən sonra da, beş-on quruş sərvətim, üç-dörd parça mülküm onu keçindirə bilərdi. Şübhəli bir qız olaraq yaşamaqdansa, arxayın bir dul olaraq yaşamaq onun üçün daha asan olardı. Bunların hamısından başqa onun bir gün öz arzusuna qovuşmaq ehtimalı vardı. Həyatda mümkün olmayan şey yoxdur! Sizin arvadınızın vəfatı mənim üçün bu ümidimi canlandırdı. İstanbuldan, sizdən daim xəbər tuturdum. Arvadınızın vəfatı sizin ürəyinizi yandırıb, mütəəssir edə bilərdi. Əgər desəm ki, bu hadisə mənə də elə təsir etdi, bu, riyakarlıq olar. Mən münasib bir çarə axtarırdım. Fikrim bu idi ki, Fərideni bir hoqqabazlıqdan başqa bir şey olmayan bu nikah qeydindən qurtarıb, onun talağını verim və birbaş gətirib sizə qaytarım. Bilmirəm adamlar mənim bu hərəkətimə nə deyərdilər? Amma mən elə bir adamam ki, insanların mənim barəmdə deyəcəyi və düşünəcəyi şeylərə çoxdan əhəmiyyət vermirəm. Ancaq elə bu əsnada mənim xəstəliyim artmağa başladı. Mənim ağlıma batdı ki, ən çoxu üç-dörd ay içində bu məsələ öz-özünə həll ediləcəkdir. Bilmirəm, daha artıq şey söyləməyə hacət varmı? Mən bir bəhanə ilə Fərideni sizin ayağınıza göndərirəm. Şübhəm yoxdur ki, mənim məktubumu öz əli ilə sizə verəcəkdir. Mən onun təbiətini yaxşı öyrənmişəm. Qəribə bir qızdır. O bəlkə vasvasılıq, tərslik etmək

istəyəcəkdir, amma ona qətiyyən fikir vermə. Lap bilsən ki, öləcəkdir, yenə buraxma. Əgər lazım gəlsə, zorla qız qaçıran dağlı kişilər kimi vəhşi və qaba ol. İnan ki, əgər o, sənin qucağında ölsə də, ancaq aldığı ləzzətdən ölmüş olacaqdır.

Bunu da açıq söyləyim ki, mən bu işdə zərrə qədər də sənin qayğına qalmıram. Onu bil ki, mən öz xoşuma olsaydım, sənə Fəridə kimi misilsiz bir qızı yox, heç evimin pişiyini də verməzdim. Amma gəl gör ki, bu dəli qızları başa salmaq mümkün deyil. Mən bilmirəm ki, onlar sizin kimi vecsiz, qəlbsiz adamların nəyini sevirlər...

*Mərhum Xeyrulla bəy.*

H a ş i y ə. Zərfin içində Fəridənin dəftəri var, keçən il mənim mülkümə gələndə, mən onun sandığı ilə bərabər içində olan bu dəftəri də yox edib, yalandan demişdim ki, guya "yolda arabaçılar oğurlayıblar". Onun bir müddət çox narahat olduğunu hiss etdim, amma heç səsini çıxarmadı. Bu dəftərin bir gün işə yarayacağını düşünməkdə, mən nə qədər haqlı imişəm!"

## IX

Müjganla Kamran Çalıquşunun göy cildli məktəb dəftərini oxuyub qurtaranda, hava işıqlanmağa başlayır, pəncərənin qabağında, bağçadakı ağacların budağında quşlar civildəşirdi.

Kamran yorğunluq və iztirabdan ağırlaşmış başını dəftərin saralmış səhifəsinin üstünə qoydu. Ora-burası göz yaşları ilə islanıb silinmiş olan bu məhəbbətlə dolu kəlmələri təkrar-təkrar öpdü. Dəftəri örtmək istədikdə Müjgan dəftəri alıb, onun göy cildini lampaya yaxınlaşdırdı və diqqətlə baxıb dedi:

– Dəftər qurtarmamışdır, Kamran, cildin üstündə də yazılar var. Amma mürəkkəbin rəngi göy kağızın üstündə güclə seçilir.

Onlar lampanın işığını artırdılar. Başlarını bir-birinə yaxınlaşdırıb, bu sətirləri çətinliklə oxudular:

"Dünən dəftərimi həmişəlik örtmüşdüm. Ərə getdiyim gecənin səhəri daha xatirələrimi yazmaq deyil, öz əvvəlki üzümü görməmək üçün güzgüyə baxmağa da, əvvəlki səsimi eşitməmək üçün danışmağa cəsarət edə bilməyəcəkdim. Amma...



Dünən mən gəlin oldum. Selə düşmüş quru yarpaq kimi, çarəsiz halda özümdən əl çəkmişdim. Kim nə söyləyirdisə, edirdim, heç bir şeyə etiraz etmirdim. Belə ki, doktorun İzmirdən gətirdiyi uzun ətəkli ağ paltarı əynimə geyindirmələrinə, saçımın bir tərəfinə bir qədər tel keçirtmələrinə də razı oldum. Yalnız özümü görmək üçün məni böyük bir əndam aynasının önünə gətirəndə mən heç kəsə bildirmədən gözlərimi yumdum, vəssalam. Mənim bütün üsyanım bundan ibarət oldu.

Məni görməyə bir çox yad adamlar gəlirdi. Bunların içində hətta köhnə müəllimə yoldaşlarımdan da vardı. Mən söylənən sözləri eşitmirdim, yalnız hamısına eyni titrək təbəssümlə gülümsünməyə çalışırdım. Bir qoca elə mənim üzümə dedi ki:

– Bu sarsaqlamış qocanın nə yaxşı bəxti varmış. Durnanı lap gözündən vurmuşdur!

Xeyrulla bəy axşam yeməyi vaxtı evə gəldi. O, əyninə şişman bədənini korsaj kimi sıxan bir redinqot geymişdi. Lalə rəngindəki qəribə qalstuku bir yana əyilmişdi. O qədər qəmgin olduğuma baxmayaraq, gülümsünməkdən özümü saxlaya bilmədim. Ancaq bu adamı gülünc bir vəziyyətdə qoymağa haqqım olmadığını düşündüm. Onun qırmızı qalstukunu çıxarıb atdım, yerinə başqa bir qalstuk bağladım. Xeyrulla bəy gülüb dedi:

– Afərin, ay qızcığaz, amma sən yaxşı bir ev qadını olacaqsan. Görürsənmi adamın gənc arvadı olmağının necə fəzilətləri var?

Qonaqlar dağılmışdılar. Biz yemək otağının pəncərəsi yanında üz-üzə oturmuşduq. Xeyrulla bəy dedi:

– Balacan, bilirsənmi niyə belə gec gəldim? Mən ziyarətə getmişdim. Munisənin məzarına bir neçə çiçəklə, sənin gəlinlik tellərindən bir azca aparıb səpələdim. Yazıq qız sənin yanında cəsarət edə bilmirdi, amma mənimlə yalqız qaldıqda, bu sözlər heç onun dilindən düşməzdi: "Abam gəlin olanda, tel taxanda, mən də tel taxacağam". Biçarə qızın kanarya bülbülü kimi sarısaçlı başına teli mən taxacaqdım, amma olmadı.

Doktor bunları söyləyəndə, mən özümü saxlaya bilmədim. Başımı pəncərəyə çevirib bu qəmli payız axşamının dumanı kimi gözə görünməyən, kirpiklərimdə quruyan gizlin göz yaşları ilə xeyli ağladım.

Gecənin ilk saatlarını, hər axşam olduğu kimi, aşağı yemək otağında keçirdik. Xeyrulla bəy gözlüyünü taxıb "Russo"sunun qalın bir cildini dizlərinin üstünə qoyub, bir guşədə oturmuşdu. O mənə dedi:

– Gəlin xanım, təzə bəyin kitab oxumağı yaxşı düşməz, amma sən mənim təqsirimdən keç. Qorxma, gecələr uzundur, təzə gəlinə eşq dastanları oxumağa da vaxt taparam.

Mən kənarına naxış çəkməklə məşğul olduğum yaylığın üstünə başımı bir az da artıq əydim. Ah, bu qoca doktor... Mən onu nə qədər sevmişdim. İndi ona nə qədər nifrət edirəm. Deməli ki, mən dərddən, möhnətdən taqətsiz olub, başımı onun çiyninə qoyduqda, o... Deməli, bu ağ kirpikli məsum mavi gözlər mənə bir qadın, bir arvad nəzəri ilə baxmağa dözə bilirmiş!..

Saat on biri vurana qədər mən bu acı düşüncələr içində çırpınırdım. Nəhayət, doktor kitabını stolun üstünə qoyub gərnəşdi, əsnədi və dedi:

– Hey, gəlin xanım, yatmaq vaxtı çatdı. Haydı!

Doktor ayağa qalxdı. Mən də durdum; əllərimdən iynəm, yumaqlarım yerə töküldü. Stolun üstündəki şamdanı götürdüm.

Mən pəncərəni örtmək bəhanəsi ilə ora yaxınlaşdım, bir xeyli müddət qaranlığa baxdım. Ürəyimdən keçirdi ki, bu xaraba otaqdan qaçıb qaranlıq yollara düşüm.

Bu zaman doktor dilləndi:

– Gəlin xanım, sən çox fikir-xəyal eləmə... Haydı, tez ol, düz yuxarı!.. Mənim onbaşıya tapşırmalı sözüm var, indi gəlirəm.

Qoca dayə ilə bir qonşu qadın paltarımı dəyişdirdilər. Şamdanı təkrar əlimə verib məni ərimin otağına göndərdilər. Xeyrulla bəy hələ aşağıda idi. Mən bir dolabın yanında, ayaqüstə durmuşdum. Köksümü soyuqdan qoruyan kimi, qollarımı sinəmdə qovuşdurmuşdum. O qədər titrəyirdim ki, şamdan əlimdə silkələnir, şam hərdən saçlarımın ucunu yandırırdı. Axır pillələrdən, dəhlizdən ayaq səsi gəldi. Xeyrulla bəy bir mahnı mızıldaya-mızıldaya, pencəyini çıxarıb içəri girdi. Məni görəndə çaşmış kimi dedi:

– Ay qız, sən hələ yatmayıbsanmı?

Mən cavab vermək üçün ağzımı açdım. Amma dişlərim bir-birinə dəydi. O mənə yaxınlaşdı. Heyrətlə üzümə baxıb dedi:

– Ay qız, bu nə haldır?! Sən mənim otağımda nə gəzirsən?



Birdən-birə gur bir qəhqəhə otağı sarsıtdı:

– Ay qız, olmaya bura...

Doktor sözünü deyib qurtara bilmir, gülməkdən uğunurdu. Əllərini dizlərinə vurub şappıldatdı, sonra da əlini ağzına tutub dedi:

– Demək, sən bura... Vay dəmdəməki qız, vay!.. Elə bildin biz doğrudan ər-arvad olmuşuq, vay!.. Tfu, utanmaz, arsız!.. Allah sənin bəlanı versin! Adam da atası yerində adama...

Otaq gözümdə fırlanır, az qala, tavan başıma uçurdu.

– Vay, xain ürəkli dəmdəməki, vay!.. Ay qız, belə gecə köynəyi ilə mənim otağıma gəlməkdən utanmadınmı?..

Mən bu dəqiqədə özümü görmək istərdim. Kim bilir neçə rəngdən-rəngə girirdim.

– Doktor bəy, vallah nə bilim, elə dedilər.

– Yaxşı, onlar bir qələt elədilər, bəs sən... Dünyada ağlıma hər şey gələrdi, amma bu yaşdan sonra utanmaz bir qızın mənim ismətimə, namusuma belə təcavüz edəcəyini heç güman etməzdim.

Ay, ya rəbbi, bu nə işgəncədir!.. Mən az qala yerə girir, dodaqlarımı dişlərimə sıxıb, qanamaq dərəcəsinə gətirirdim. Mən yerimdən tərpənəndə, o yalandan küy salıb pəncərəyə sarı qaçır, köynəyinin yaxası ilə boynunu tutub yırğalana-yırğalana deyirdi:

– Ay qız, üstümə gəlmə, qorxuram. Vallah pəncərəni açıb, var səsimlə çığıraram: a dostlar, dadıma çatın, bu yaşdan sonra mənə...

Mən daha dalısın dinləyə bilmədim. Qapıdan çıxıb qaçmaq istədim. Amma bilmirəm necə oldusa, birdən-birə qayıtdım. Qəlbimin həmişə tabe olduğum əmrlərindən birinə əməl edib:

– Atacan, mənim atam? – deyə fəryad etdim və ağlaya-ağlaya özümü onun qucağına atdım.

O da qollarını açmışdı. O da eyni dərin qəlb fəryadı ilə dedi:

– Qızım, əziz balam!..

O dəqiqə alnımda duyduğum ata öpüşünün ləzzətini ölənə qədər unuda bilməyəcəyəm...

Mən öz otağıma qayıtdıqda həm ağlayır, həm də gülürdüm. O qədər hay-küy salmışdım ki, doktor yanımdakı otağın divarını döyüb dedi:

– Ay qız, evi uçuracaqsan, o nə gurultudur? Fitnə-fəsadçı qonşular günahı mənim boynuma qoyarlar. Deyərlər ki, axmaq qoca, gəlini səhərə qədər çığırdıb bağırtmışdır.

Amma doktor özü də elə məndən az gurultu salmırdı. O da otağında gəzinə-gəzinə deyinirdi:

– Ya rəbbi, bu zamana qızlarının əlindən ismətimizi, namusumuzu sən özün saxla!

Doktor bu sözləri yalançı bir şikayət və həyəcanla ucadan deyirdi. O gecə öz otağında, mən də öz otağımda, bəlkə on dəfə oyandıq. Divarı döyüb xoruz, quş, qurbağa səslərini yamsılaya-yamsılaya, bir-birimizə rahatlıq vermirdik.

Bu da mənim gəlin olduğum gecənin hekayəsi... Mənim doktorum o qədər təmiz hisslərə, elə təmiz ürəyə malik bir adam idi ki, bu evlənməyimizin yalan olduğunu mənə söyləməyi də artıq bilmişdi. Ya rəbbi, mən ona nisbətən nə qədər yüngül, koket ruhlu bir qızmışam! Bizim bu müqəddəs dostluğumuz zamanı o, öz kişiliyini unutmuşdu. Amma mən qadınlığımı unutmamışdım. Kişilərin çoxu həddindən artıq pis, həddindən artıq zalımdır, – buna şübhə ola bilməz. Qadınların isə hamısı yaxşı, hamısı məzlumdur... – buna da şübhə ola bilməz. Amma kişilərin yalnız ürəyi və beyni ilə yaşayan lap az, ən az qismi var ki, onlarda olan könül təmizliyini qadınlarda tapmaq mümkün deyildir!.."

## X

Fəridə o gecə səhərə yaxın yatmışdı. O, axşamkından daha yorğun-arğın halda oyananda gördü ki, günəş xeyli yüksəlib, saat on biri keçmişdir. Məktəbə gecikən uşaqlar kimi, astadan təşvişli səslə deyinə-deyinə yatağından sıçradı.

– Afərin, sənə Müjgan! Bilirsən ki, bu gün yola düşürəm, məni niyə bu vaxta qədər oyatmamısan?

Müjgan hərgünkü kimi soyuqqanlılıqla cavab verdi:

– Bir neçə dəfə otağına gəldim. Elə yorğun yatırdın ki, oyatmağa qıymadım. Sən qorxduğun qədər də gec deyil. Bir də deyəsən paroxodun getməyi bir az şübhəlidir. Mərmərədə firtına var.

– Nə olursa olsun, daha gedəcəyəm!



– Mən də atama dedim. O, sənin işinlə məşğul olmaq üçün limana getmişdir. Tapşırdı ki, hazır olsun, paroxod gəlsə, ya fayton göndərərəm, ya da özüm gələrəm.

Fəridə bu ayrılıq gününü belə təsəvvür etməmişdi. Müjganın uşaqla məşğul olduğunu, xalalarının hərgünkü kimi söhbət edib güldüklərini gördükcə o kədərlənir, ona bu qədər az əhəmiyyət vermələrinə ürəyi sıxılırdı. Kamran da aralarında görünmürdü. Müjgan söz arasında gizlincə Fəridəyə dedi:

– Fəridə, sənə bir yaxşılıq etdim. Kamranı evdən yayındıra bildim. Səni artıq kədərləndirməmək üçün o, belə bir fədakarlığa razı oldu.

– İndi daha heç gəlməyəcək?

– Yəqin ki, körpüdə səninlə xudahafizləşməyə gələr. Şübhəsiz, buna şad oldun.

Fəridə gözləri dalğın, dodaqları azacıq titrəyə-titrəyə düşünürdü. O, barmağını ağrıyan gicgahına sürtə-sürtə dedi:

– Əlbəttə, təşəkkür edirəm, yaxşı eləmisən...

Fəridə bir yığın qırıq, mənasız sözlərlə Müjgana təşəkkür edə-edə duyurdu ki, onun bu sevgili uşaqlıq yoldaşı da könlündə həmişəlik ölür, bir də onunla barışmayacaqdır.

Onlar günorta naharı yemək istəyirdilər ki, qonşu bağların birindən xəbər gəldi. Bələdiyyə rəisi şəhərdəki qış evinə köçməyə hazırlaşdığından, həm bağ qonşularına, həm də Fəridəyə son bir ayrılıq qonaqlığı vermək istəyirdi. Onları qonaqlığa çağırırdılar.

Fəridə dedi:

– Bu necə ola bilər? İndi məni aparmağa gələcəklər...

– Fəridə, getməsək ayıb olar, – deyə xalaları dilləndilər.

– Buradan beş dəqiqəlik yoldur. Bir də axı sənin nə hazırlığın var ki? Çarşabını elə indidən örtərsən.

Fəridə əvvəlcə ona bir xəstə pişik qədər də əhəmiyyət verməyən xalalarının, bu yarım analarının üzünə baxmamaq üçün, başını aşağı salıb dedi:

– Yaxşı, siz deyən olsun.

Saat üçə yaxındı. Yarpaqları saralmış bir çardağın yanında durub yolu güdməkdə olan Fəridə Müjgana dedi:

– Müjgan, bir fayton gəlir, elə bilirəm ki, bu, mənim üçündür.

Amma elə bu dəqiqədə sahildəki ağaclığın o tayından birdənbirə bir paroxod göründü.

Fəridə, ürəyi ağzına gələ-gələ:

– Gəlir! – deyə çığırdı. Bağa bir çaxnaşma düşdü. Qulluqçu qızlar yeldirmələri gətirmək üçün yüyürüşdülər.

Fəridə xalalarına dedi:

– Qoyun mən qabaqca gedim, siz də gəlib çıxarsınız.

Fəridə Müjganla bərabər bağların arasındakı kəsə yoldan yüyürməyə başladı. Onlar çəpərlərin üstündən atılıb bağçaların içindən keçirdilər.

Bağçanın qapısının önündə onlar aşpaz qadına rast gəldilər. Qoca qadın dedi:

– Kiçik xanımlar, mən sizin dalınızca gəlirdim. Bəylər fayton ilə gəliblər, sizi istəyirlər.

Əziz bəylə Kamran onları ikinci mərtəbədə dəhlizdə qarşıladılar. Əziz bəy əli ilə otağı göstərib dedi:

– İki qəribə qonağımız gəlmişdir, səs-küy salmayın.

Sonra o, Fəridəni süzüb dedi:

– Bu nə haldır, kiçik xanım, qan-tər içindəsən?

Əziz bəy gülə-gülə ona yaxınlaşdı, çənəsindən tutub gözlərinə baxa-baxa dedi:

– Paroxod gəlir, amma bunun sənə dəxli yoxdur. Ərin razı olmur.

Fəridə bir addım geri çəkilib çaşqın-çaşqın dedi:

– Əmican, bu nə sözdür?

Əziz bəy barmağı ilə Kamranı göstərib dedi:

– Ərin odur, qızım. Mənə dəxli yoxdur.

Fəridə yavaşcadan çığırıb əlləri ilə üzünü örtdü. O az qala yıxılacaqdı, amma kimsə onun biləklərindən tutdu. Fəridə təkrar gözlərini açdı: bu, Kamran idi.

Əziz bəy həyəcanlı bir qəhqəhə ilə dedi:

– Bax belə ha, ay Çalıquşu, axır qəfəsə girdinmi? Hə, indi çırpın görüm, nə qədər bacarırsan çırpın. Görək bundan bir şey çıxırmı?

Fəridə əlləri ilə üzünü tutmaq istəyirdi, amma biləklərini Kamranın əlindən qurtara bilmirdi. O, başını gizlətmək üçün çırpınır, amma Kamranın köksündən və çiyinlərindən başqa bir yer tapa bilmirdi. Əziz bəy həmin həyəcanlı qəhqəhə ilə dedi:



– Çalıquşu, ətrafındakı adamlar sənə tor qurdular. Bu xain Müjgan səni satdı. Mərhum doktor sənin dəftərini Kamrana göndəribmiş. Allah ona rəhmət eləsin! Mən həmin dəftəri alan kimi qazının yanına getdim. Sənin öz qələmindən çıxmış bəzi parçaları ona göstərdim. Qazı geniş düşüncəli, açıq fikirli bir adamdı. O saat sənin nikahını oxudu. Başa düşdünmü, Çalıquşu? Bu adam daha sənin ərindir, özü də deyəsən səni bir də əldən buraxan deyil.

Fəridə o qədər qızarmışdı ki, üzünün rəngi ala gözlərində əks edir, göz bəbəklərinin içində qızıl ulduzlar kimi titrəşirdi.

– Haydı, Çalıquşu, daha nazlanma. Görürük ki, sevindiyindən bihuş olursan. Bir dillən de ki: "Pis eləmədin, əmican, mən də elə bunu istəyirdim".

Əziz bəy yarı zorla bu sözləri Fəridəyə təkrar etdirdi. Sonra otağın qapısını açıb qabiliyyətli bir qəhqəhə ilə dedi:

– Əfəndim, şəriət üzrə mən vəkiləm. Çalıquşunun, bağışlayın, yanıldım, Fəridə xanımın adından bu Kamran bəyə ərə getməyə razılıq verirəm. Siz duanı edin, biz də burdan "amin" deyərik.

Sonra Fəridəyə tərəf dönüb dedi:

– Necəsən, Çalıquşu? Sən barmaq boyda bir qızcığaz ola-ola, bizi illər uzunu oynatdın, hə? Gördünmü sənə necə hiylə qurdum?

Bağçadan uşaq səsləri gəlirdi.

Əziz bəy dedi:

– İndi təbriklər, əlöpmələr uzun çəkər. Bunlar hamısı axşama qalsın. Öz əlimlə əla bir toy süfrəsi hazırlayacağam, haydı oğlum. Bizim çərənçiliyimizin sizə bir xeyri yoxdur. Yəqin ki, danışmalı sözləriniz var. Arvadını götür, bu dar pilləkəndən qaçırt. Lap uzaqlara, istədiyin yerə apar. Sonra birlikdə qayıdıb gələrsiniz.

Kamran Fəridəni, demək olar ki, qucağına alıb uça-uça pilləkən qapısına sarı yüyürəndə, Müjgan arxadan gəlib onlara çatdı. Çalıquşu ilə ağlaşa-ağlaşa öpüşdülər.

Gözlərindən yaş gəldiyini gizlətmək üçün bərkdən burnunu silən Əziz bəy bir natiq ədası ilə qolunu yelləyə-yelləyə dedi:

– Ay mənim gilasımı oğurlayan. Onu ver mənə, haqq-hesabımızı kəsək!..

Əziz bəy, hələ də əllərini Kamranın əllərindən qurtara bilməyən Çalıquşunu havaya qaldırıb öpdükdən sonra, təkrar Kamranın qucağına atıb dedi:

– Ay Çalıquşu, biz bu gecə səni dəniz fırtınasından qurtardıq. Amma yanındakı o sarı fırtına mənə daha dəhşətli görünür. Allah köməyin olsun, a Çalıquşu!..

Kamranla Feridə dar pilləkəndən elə enirdilər ki, elə bil, diyirlənir və ya uçurdular. Kamran qolunu Fəridənin belinə keçirmişdi. Elə sıxırdı ki, gənc qız nəfəs ala bilmirdi, ovuclarının içində də onun barmaqlarını sıxıb incidirdi.

Fəridənin ətəyi pilləkənə ilişdi. Onlar nəfəs-nəfəsə bir dəqiqə durdular. Fəridə ətəyini çıxarmağa çalışanda, Kamran ona kəsik-kəsik dedi:

– Fəridə, yəni sən mənimsən?! İnana bilmirəm. Sənin mənim olduğuna qəlbimi inandırmaq üçün, gərək sənin ağırlığını duyam.

O, kəsik-kəsik nəfəs alan, vücudu tir-tir əsən Fərideni zorla, balaca uşaq kimi qucağına aldı. Kamran üzü Fəridənin çarşabı altından dağılıb tökülən saçlarının içində, onun ağırlığından guya qüvvəti artmış bir halda, onun hərarətilə öz qanında qızışmış bir vəziyyətdə pillələrdən enməyə başladı. Çalıquşu bədənində uçuruma yıxılanların duyduğu bir titrəyiş olduğu halda, həm gülür, həm ağlayırdı. Qapının yanındakı səkidə o, yalvarmağa başladı:

– Kamran, bir mənim halıma bax! Bu halda bayıra necə çıxa bilərik? İcazə ver bir dəqiqə otağıma çıxım, üst-başımı düzəldim, bu saat gəlirəm.

Kamran onun biləklərini əlindən buraxmayıb, gülə-gülə dedi:

– Yox, Fəridə, bu mümkün deyil. O bir dəfə oldu – qurtardı. Səni, əlimə keçirdikdən sonra, daha buraxmaram!..

Gənc qızın daha taqəti qalmamışdı. O, başını Kamranın köksünə qoydu, üzünü gizlədib utana-utana etiraf etdi:

– Elə bilirsən ki, onda getdiyimə özüm peşman olmamışdım?

Kamran onun üzünü görmürdü. Yalnız onun çənəsini, dodaqlarını sevə-sevə oxşayan barmaqlarına isti göz yaşı damcılarının töküldüyünü duyurdu.

Yolda onlar demək olar ki, qucaqlaşa-qucaqlaşa gedirdilər. Qarşıdan iki balıqçı gəldiyini görüb, bir-birindən ayrıldılar. Demək olar ki, heç danışmırdılar. Yan-yana getmək xoşbəxtliyi onları sərxoş edirdi.



On il bundan əvvəl Kamran Fərideni burda ilk dəfə gördüyü həmin o bağ yoluna çatdıqda, yavaşca onun çiyinlərindən tutub dedi:

– Fəridə, bəlkə bu yer sənin yadında qalmamışdır?

Gənc qız yolun qurtaracağına diqqətlə baxıb gülümsünürdü. Bunu görən Kamran dedi:

– Bu baxışda mənalar var, Fəridə, deməli ki, xatırlayırsan?

Fəridə yavaşca köksünü ötürdü: bir köhnə xəyalı yad edib gülümsünən kimi dərin, mənalı bir nəzərlə Kamranın üzünə baxıb dedi:

– O dəqiqədə mən nə qədər sevinmişdim! Heç onu unudarammı?

Kamran bu başın ondan çevrilməməsi, bu gözlərin onun gözlərindən ayrılmaması üçün Fəridənin çənəsindən tutdu, qəlbinin dərinliklərindən gələn bir səslə dedi:

– Fəridə, bizim bütün sərgüzəştlərimiz burda başlanır. Məni dinlə: görürəm, bu gözlər o qədər iztirab çəkib ki, daha məni başa düşə bilər. Mən səni sevməyə başlayanda, sən gülməkdən, əylənməkdən başqa heç bir şey düşünməyən yüngül, dəcəl bir qız uşağı, işıq kimi, səs kimi əl ilə tutmaq mümkün olmayan bir Çalıquşu idi. Mən sənə ürəkdən vurulmuşdum. Hər səhər yuxudan oyananda, eşqimin qəlbimdə bir az da böyüdüyünü duyurdum. Sənə olan bu dərin məhəbbətim məni həm utandırır, həm də qorxudurdu. Hərdən sənin elə baxışların, elə sözlərin olurdu ki, mənim qəlbimi dərin ümidlərlə çırpındırırdı. Amma sən çox tez dəyişirdin. Sənin o gülən, əylənən uşaq gözlərinin içində oynayan zərif, həssas gənc qız ruhu birdən-birə görünüb yox olurdu. Mən öz-özümə deyirdim ki, "mümkün deyil, bu uşaq mənim qəlbimdəkiləri başa düşə bilməyəcək, mənim həyatımı qıracaqdır". Mən ümid edə bilmirdim ki, sən öz həyatını, öz könlünü bu qədər böyük vəfa ilə mənə vəqf edəcəksən. Sən bəlkə də məni görəndə, rənginin qaçdığını, bu gözəl dodaqlarının titrəməyə başladığını gizlətmək üçün qaçırdın. Amma mən bunu bir Çalıquşu yüngüllüyü hesab edib, ürəyimin içini yeyirdim. Fəridə, bir mənə söylə görüm, sən bu qədər böyük vəfanı, bu qədər ruhu bu kiçik Çalıquşu köksünün harasında gizlətmişdin?

Kamran bir dəqiqə susdu, sonra ağ, zərif gicgahlarında xırdaca tər damcıları görünən başını əyib, daha yavaş bir səslə sözünə davam etdi:

– Dərdim yalnız bundan ibarət deyildi, Fəridə. Mən səni öz-özümə, həyatımın müxtəlif saatlarını bir-birinə qısqanırdım. Dünyada heç bir elə eşq yoxdur ki, zaman keçdikcə, köhnəlib öz qüvvətini itirməsin. Mən öz-özümə deyirdim ki, "bəlkə bir müddətdən sonra mən Fərideni bu qədər çox sevmədim. Bəlkə bu ləzzətli, misilsiz duyğuları itirdim, onda necə olsun!.." Onda, adam yanıb qurtarmasından qorxduğu işığı necə söndürərsə, mən də elə edirdim, sənin xəyalını gözlərimdən uzaqlaşdırmağa çalışırdım.

Dağlarda adını bilmədiyim bir çiçək bitir. Fəridə, deyirlər ki, adam o çiçəyi həmişə qoxulasa, bir müddətdən sonra onun qoxusunu daha az duymağa başlar. Bunun əlacı budur ki, gərək özünü bir müddət onun ətrindən məhrum edəsən. Hətta sırf o əvvəlki gözəl qoxunu yenidən duymaq eşqinə, bəzən hər hansı başqa bir çiçəyi, məsələn, bir əhəmiyyətsiz "sarı çiçəyi" qoxlayasan...

O dediyim dağ çiçəyi, gözəl qoxusu olduğu üçün, bəzən cəfalar da çəkər. Adamlar onu barmaqlarının arasında sıxıb əzişdirərlər. Fəridə! Sənin iztirabdan dərinləşmiş gözlərini, qəmli düşüncələrdən yorulmuş gözəl üzünü mən əzişdirildikcə ətri artan o dağ çiçəklərinə bənzədirəm. Mənim dediklərimi başa düşürsən, elə deyilmi? Çünki sənin gözlərin daha gülmür, sən mənim bu mənasız kimi görünən sözlərimlə daha əylənmirsən...

Fəridə, kirpiklərində yaş damcıları titrəyən gözlərini, yuxusu gələn uşaq kimi yumurdu. Gənc qız o həyəcanlı yorğunluqdan elə taqətsiz olmuşdu ki, dizləri kəsilirdi; o, bədəninin bütün ağırlığını Kamranın qollarına salmışdı. O, röyada olan kimi, demək olar ki, yalnız dodaqlarının hərəkəti ilə dedi:

– Görürsən ki, daha Çalıquşu həmişəlik öldü...

Kamran öz başını ona daha artıq yaxınlaşdırdı və eyni yavaş səslə cavab verdi:

– Ziyan yoxdur, mən Çalıquşunun bütün eşqini bir başqasına – Gülbəşəkərə verdim.

Kamran qollarının üstündə getdikcə ağırlaşan bu taqətsiz gənc bədənin birdən-birə canlandığını, həyəcanla titrədiyini hiss etdi.

– Kamran, yalvarıram sənə, onu demə!..

Fəridə hələ də Kamranın köksündə olan başını bir az arxaya atıb üzünü ona çevirdi. Onun kəsik-kəsik nəfəslərlə titrəyən gərdəninin damarları göyərir, üzü qızarır, gözlərində isə qığılcımlar parıldayırdı.



Kamran coşqun bir inadla təkrar etdi:

– Gülbəşəkər, mənim, yalnız mənim Gülbəşəkərim!..

Fəridə, bütün bədəni titrəyə-titrəyə, ayaqlarının pəncələri üstündə dikəldi, Kamranın çiyinlərindən tutub çəkdi. Bədəninin bütün qanı dodaqlarına toplanmış halda boynunu uzatdı...

Onlar bir dəqiqədən sonra bir-birindən ayrılmışdılar. Fəridə, uzun müddət susuzluq çəkdikdən sonra dumduru, şəffaf bir bulaqdan doyunca su içmiş quş kimi canlanmışdı. O, üzünü Kamrandan qaçırmaq üçün hay-küy salır, ayaqlarını yerə çırpa-çırpa, başını o yan-bu yana çevirə-çevirə, şıltaqçı bir səslə deyirdi:

– Nə ayıb oldu, ya rəbbi, nə ayıb oldu! Sən günahkarsan, vallah səndən oldu!..

Onların yanındakı ağacın budağında bir çalıquşu ötürdü...

# MÜNDƏRİCAT

*Ön söz* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 4

ÇALIQUŞU

Birinci hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 9
İkinci hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 101
Üçüncü hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 240
Dördüncü hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 275
Beşinci hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 331

**RƏŞAD NURİ GÜNTƏKİN**

**ÇALIQUŞU**

"ŞƏRQ-QƏRB"

BAKI-2006

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Ələkbər Kərimov*

Korrektorlar: *Elnaz Xəlilqızı*
*Pərinaz Səmədova*

Yığılmağa verilmişdir 10.05.2006. Çapa imzalanmışdır 29.08.2006.
Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 23,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 135.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.